ŞÖVKƏT ZƏRİN

SEÇİLMİŞ ƏSƏRLƏR

II CİLD

Bakı – 2015

Redaktor: Sərvaz Hüseynoğlu

Şövkət Zərin, Seçilmiş əsərlər, II cild.
Bakı, «MBM», 2015, 504 səh.

Şair-publisist Şövkət Zərin Horovlunun əsərlərinin çapdan çıxan II cildində «Tale yolu» romanı, «Əbədiyyətə qədər» povesti verilmişdir. Yazıçı Qarabağ torpağında bəşəriyyətin görmədiyi cinayətlər törədən rus-erməni separatçılarının vəhşiliyini real həyat hadisələri fonunda əks etdirən «Arazdan gələn səs» romanından sonra «Tale yolu», «Köynək», «Açılmamış zərf», «Əbədiyyətə qədər» povest və hekayələrini yazmışdı. İkinci cilddəki Cənubi Azərbaycanda milli muxtariyyət uğrunda mübarizə aparan soydaşlarımızın Tehran istila ordusu tərəfindən başına gətirilən müsibətlər əks olunur. Əsərdə millətimizə, xalqımıza qarşı işğalçılıq siyasəti yeridən fars, rus, erməni şovinistlərinin riyakarlığı göz önünə gətirilir. İyirminci yüzillikdə dörd dəfə azadlıq bayrağı qaldıran cənubu türklərini öz torpağında qanına qaltan eləyən seperatçıların iç üzü açılır, eyni senari üzrə aparılan siyasətin dərin kökləri qabardılır. Böyük Səttərxandan, M.Xiyabanidən, Mirzə Kuçik xandan sonra Milli müstəqillik bayrağı qaldıran Seyid Cəfər Pişəvərinin və Cənubi Azərbaycan Demokrat firqəsinin rəhbərliyi ilə qurulan Milli Azərbaycan Hökuməti bu seperatçıların sövdələşməsi ilə yıxılır. İyirmi minə yaxın soydaşımız dar ağaclarından asılır. Şah üsulu ilə barışmaz, prinsipial inqilabçı Qasımı sevən Fatma öz məhəbbətinə qorumaq üçün Ərdəbilə gedir. Ərinin apardığı mübarizənin haqq işi olduğunu başa düşür. Milli hökumətin süqutundan sonra «İntiqam məhkəməsi» adlanan təşkilata qoşulur. Qadınların azadlığı uğrunda mübarizə aparır. Təbriz inqilab ənənələrinin yenidən dirçəlməsinə kömək edir. Bu yolda ərini, oğlunu, ailəsini itirir. Zindandan – zindana atılır, təhqir edilib alçaldılır. Öz şəxsi tale yolunu xalqın mübarizəsindən keçirir Fatma.

«Əbədiyyətə qədər» povesti təzəcə müstəqilliyə qədəm qoyan, vətənimizdə gedən qarmaqarışıq siyasi-ictimai hadisələrin burulğanına düşən iki gəncin uğursuz məhəbbətindən bəhs edir. «Əbədiyyətə qədər» sevəcəyinə and içən Mehin sonda öz sevgisini torpağa qurban verir.

Nazir oğlu Nihad Qarabağ döyüşlərinə könüllü gedir. Torpaq, vətən qarşısında hamı bir məsuliyyət daşıyır prinsipi ilə döyüşlərdə iştirak edib şikəst olur. Sübut edir ki, kimliyindən, hansı təbəqədən olduğundan asılı olmayaraq torpaq qarşısında hamının borcu eyni olmalıdır!

ISBN: 978-9952-29-075-4

© Şövkət Zərin
Bakı, «MBM», 2015

ƏDƏBİYYATDA YAŞAYAN ƏBƏDİYYƏT

Daha çox Frans Kafkanın bu dəqiq müşahidə və qənaətlərini Şövkət Zərinin «Seçilmiş əsərləri»nə ön söz əvəzi əlavə edərdim: «Tarixən, xalqın gündəlik həyatını bədii boyalarla, hadisələrlə mənbələrdən daha ayıq, obyektiv və fərqli yazıb göstərən salnaməçidir ədəbiyyat… Bütöv bir xalqın bəla ilə üz-üzə dayandığı bir anda xeyir verə biləcək narazı qüvvələrin ümumi işə cəlb olunmasını, millətin diqqətini öz şəxsi problemlərindən daha yüksəkdə dayanan ümummilli məsələyə yönəldə biləcək mahir siyasətçidir ədəbiyyat».

Bu deyilənləri Şövkət xanımın «Seçilmiş əsərləri»nin ikinci cildinə daxil etdiyi «Tale yolu» romanının və «Əbədiyyətə qədər» povestinin canını-qanını təşkil edən bütün fəsillərinə şamil etmək olar. Həqiqətən də, bu əsərlər xalqımızın ağır və bəlli bir tarixi şəraitlər zamanında yaşadığı olayları, başımıza gələnləri tarixi, elmi mənbələrdən daha ayıq, obyektiv və fərqli yönlərdən əks etdirən salnamələr kimidir.

Həqiqətən də, bu əsərlər tarixin acı bir dönəmində Vətənimizin bəla ilə üz-üzə dayandığı anlarda millətin tərəqqipərvər insanlarının ümumi işə qoşan, millətin diqqətini öz şəxsi problemlərindən daha yüksəkdə dayanan ümummilli məsələyə yönəldən salnamələr kimidir.

Yenə də F.Kafkanın dedikləri üzərinə qayıdıram ki, ədəbi fəaliyyətlə məşğul olanlara, bəşəriyyətin dərdini öz içində daşıya bilən yazıçılara hörmət hissi bir an da olsa səngiməməlidir.

Ş.Zərinin bu əsərlərdə təqdim etdiyi qəhrəmanların hər biri dərin hörmətə layiq, vətənin, xalqın və deməli, bəşəriyyətin taleyini düçar olduqları kədəri öz içində yaşadan insanların ümumiləşdirilmiş, tipik obrazları, prototipləridi. Əsərlərdə torpaqlarımıza, millətimizə qarşı işğalçılıq siyasəti yürüdən fars, rus və erməni şovinistlərinin oxşar riyakar sifəti tarixi kontekstdə öz ifadəsini tapır.

Bu qısa sözdə təqdim edilən obrazlar və hadisələrin üzərində ayrı-ayrılıqda dayanmaq istəmirəm – ona görə ki, bu obrazların hər biri özü-özünü daha yaxşı təqdim və xarakterizə edir. Fars, rus və erməni məkrinin nədənliyi, bu tarixi bəlalara qarşı Azərbaycan insanının zaman-zaman dirənişi bu əsərlərdə gerçək bir kino lenti kimi göz önünə gətirilməkdədir. «Ya şəhid olmaq, ya intiqam almaq gərəkdir» səslənişi bu əsərlərin hər bir sətrindən qan yaddaşı kimi fışqırmaqdadır.

Şövkət xanımın təqdim olunan bu əsərləri yaradıcılığı ilə dövrün problemli, ən maraqlı və vacib ictimai-siyasi proseslərinə müdaxilə etməyi bacarmağın, neqativ, arzu olunmayan, insanlığa sığışmayan halların aradan qaldırılmasına xidmətin əsirgənilməməsinə ən yaxşı nümunələrdir.

Təbii ki, ən obyektiv münasibət yenə də oxucu zövqünün, münasibətinin üzərində qalır…

Sərvaz Hüseynoğlu

TALE YOLU
(roman)

Yağış səsi, dirilik suyu

Axşamdan yağan şiravan yağış səngimək bilmirdi. Qasım kişinin Təbrizin lap ucqar Əmirxiz[1] məhəlləsinin birində aldığı ikigözlü, balaca həyətli mənzilinin üstündən süzülən yağış suyunun şırıltısı aydın eşidilirdi. Ona elə gəlirdi ki, o yağış səsi deyil, simli alətdə çalınan bir musiqi əsəridir. Yağış səsindən başqa otaqda bir inni-cinni hənirtisi eşidilmirdi. Tənhalıq yalquzaq kimi ulayır, divarlar sanki Qasım kişinin üstünə gəlirdi. Ona elə gəlirdi ki, bu yağışın ardı-arası kəsilməyəcək, nə boz səhralar, nə güllü-çiçəkli düzlər, nə də ağ zirvəli dağlar olacaq. Bəzən də düşünürdü ki, yox, təbiətin özü də onun dərdindən halıdı. Onun ürəyi kimi tutulur, açılır, hirsini-hikkəsini qara, yağışa çevirib yerə tökür, ədalətsizliyə, haqsızlığa qarşı üsyan eləyir. Təbiət onun içindəki lal harayı, ürəyinin gizli hönkürtüsünü eşidir. Hər halda, heç bir yaxın simsarı olmayan Qasım kişi (o, ailənin tək övladı olduğu üçün «Qasım ağa» da deyə çağırılırdı) belə düşünür, bununla təsginlik tapırdı. Bircə onu unudurdu ki, onun dərdlərindən xəbərsiz, əbədi qurulan saat kimi işləyən dünya öz işindədir, öz yolu ilə gedir. Neçə illərdir Qasım ağanın çəkdiklərinin fərqinə varmır. Sevimli Fatması itgin düşəndən bəri bütün dünya gözəlliyi onun gözlərində kabus kimi qara dona bürünmüşdü. Onun qənaətincə, gözlərində ölüb getməkdə olan təbiət də, onun gözəlliyi də bir daha dirilməyəcək. Lakin bu belə deyildi. Təbiət də, dünya da öz gərdişində idi. Çatmayan yeganə bir şey varsa, o da Fatmanın yoxluğu idi. Bu həsrətin ağrı-acısını yalnız el-el, oba-oba gəzib, didərginlik həyatı yaşayan Qasım ağa duya bilərdi, başqa heç kim.

Qasım ağa qolunu başının altına qoyub, mütəkkədən bir az qovzandı. Oğlunun çarpayısına boylandı. Elə bil havası çatmırdı. Boğulan adam kimi yerində çabaladı. Oğlunun nəfəsini ciyərləri-

[1] Əmirxiz Təbrizin Şimali-qərb hissəsində yoxsulların yaşadığı məhlə adıdır.

nə çəkib yüngülləşdi. Ona elə gəldi ki, qaranlıq dünyada bir dolça dirilik suyu tapıb. Qollarına qüvvət, gözünə işıq gəldi.

Şıdırğı yağış kəsmişdi. Bayaqdan yaxın-uzaq xatirələrin əlində çırpınan Qasım ağanın beyni də sakitləşmişdi. Ona elə gəldi ki, Fatma elə indicə içəri girəcək, sürüşüb düşən yorğanı oğlunun çiyninə çəkəcək, alnından öpüb onları nahara çağıracaqdı. Qasım ağa bir az qulaq asdı. Navalçadan düşən tək-tək damcı səsindən başqa heç nə eşitmədi.

Damcıların tappıltısı Qasım ağaya uzaqlaşmaqda olan Fatmasının ayaq səslərini xatırladırdı: «Bu onun ayaq səsləridir, məndən uzaqlaşır» – deyə özünü bu səsin dalınca atmaqdan güclə saxladı. «Yəqin məni qara basır», – deyə fikirləşdi, qayıdıb yatağına uzandı.

Qasım ağa düşünür, düşündükcə uzun illər ərzində çəkdiyi ağrıları təzədən yaşayır, bu ağrılar get-gedə bədəninə yayılır, vücudunu titrədir, başı ağırlaşıb təzədən yastığa enir, çarpayıdan qalxmağa imkan vermirdi. Cavadın gecəyarı barmaqları üstə gəlib keçdiyini görsə də, səsini çıxarmamış, yuxusuna haram qatmaq istəməmişdi.

«Qoy yatıb dincəlsin, səhər sorğu-suala çəkərəm. Gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdır» – deyə düşündü. Şübhəqarışıq qorxu hissindən ürəyi sıxıldı. Dirsəklənib yataqdan qalxdı. Köhnə gödəkcəni çiyninə salıb, səssiz addımlarla çölə çıxdı. Alçaq daş pilləkəndən bağçaya düşdü. Yağışdan sonra torpaqdan qalxan kəsif bir qoxu onu vurdu:

– Eh, torpaq qoxusundan şirin dünyada nə ola bilər, görəsən? – düşündü.

Xurma ağacının yarpaqlarından şeh damlaları sırğa kimi asılmışdı. Yarpaqlar yuyulub-təmizlənmiş, səhərin şəfəqində parıldayırdılar. Xurma ağacına bərkitdiyi əlüzyuyandan bir ovuc su töküb üzünə vurdu. Fikri aydınlaşıb duruldu elə bil. Əllərini ağarıb-çallaşmış saqqalına, bığına çəkib: «Allahum-məsəlli əla Mühəmməd və alihi-Mühəmməd» – deyə salavat çevirdi.

– Allah, Sən alisən, yer üzündə Səndən yuxarıda, Səndən öndə heç bir varlıq mövcud deyil. Mərhəmətini bu millətdən, bu xalqdan əsirgəmə. Şeytanın şərindən qoru mənim böyükürəkli, mərd, cəfakeş xalqımı. Yenə dünyanın kələfi dolaşıb. Şərin qı-

lıncı başımızın üstündə oynayır. Cavanlarımızın çarığına daş dolub, bizim kimi dözümlü olmaq istəmirlər daha. Bıçaq sümüyə dirənib, səbr kasaları dolub-daşır. Haqsızlığa dözə bilmirlər. Ata-babalarının 1945-46-cı illərdəki acı aqibətini çoxları gözləriylə görüblər axı? Görənin gözünü çıxarır, dinənin dilini kəsirdilər. Təbrizin, Marağanın, Ərdəbilin, Rəşdin küçələri insan meyitləri ilə dolmuşdu. Küçələrə çıxıb bu «hakimi-mütləqi» devirmək, haqqı-ədaləti bərpa eləyib insan kimi yaşamaq istəyən cavanlarımızı yenə nə gözləyir, bilmirəm… Qasım ağa öz-özünə xeyli qeyzləndi.

Görən, qonşu Cavadın bu gecə gec gəlməyindən xəbər tutmadı ki?.. Özü bir söz deməsə də, Cavadın hansısa gizli təşkilata üzv olması Qasım ağaya gün kimi aydın idi. Bu gün də Cavadın səhərə yaxın evə gəlməyi onu qorxudub, necə deyərlər, kürkünə birə salmışdı. Bəlkə, bizim təşkilatın üzvlüyünə yazılıb? Axı ona Təbriz gizli təşkilatı haqqında bir söz belə deməmişəm. Belə olsa, mənim xəbərim olardı. Yox, bu ola bilməz, Cavad məndən izinsiz qeyri bir iş görməz. Savadlı, ağıllı baladı Cavad. Hələ uşaqlıqdan mollanın verdiyi dərs əvəzinə, ana dilində şeir oxuduğuna görə məni necə şallaqladıqlarını gözləri ilə görmüşdü. Fatmanın izsiz-soraqsız itməyindən sonra nadanların qınaq yerinə çevrilmişdim. Məscidə, cümə namazına az getdiyim üçün məni «Şurəvi Qasım» – deyə ələ saldıqlarını da eşitmişdi. Odur ki, şübhəli şəxs kimi şəhərdən-şəhərə, vilayətdən-vilayətə qovulmuşam. Təhsilim yarımçıq qalıb. (Qasım tibb universitetinin ikinci kursunda oxuyurdu, təhsilini yarımçıq qoyub, Azərbaycan Milli Azadlıq hərəkatına qoşulmuşdu). Mənim çəkdiklərimi oğlumun çəkməsini istəmirəm. «Pəhləvi sülaləsinin axır dayağı olan Rza şah taxt-tacının axırı çatıb», – deyə camaat küçələrə axışıb, kin-küdurətləri kükrəyib dəli çaylar kimi məcrasından çıxıb. Yenə şah zindanları haqq deyənlərlə doludur. Necə olur-olsun şahın çanağı biz Azərbaycan türklərinin başında çatlayacaq. Həmişə olduğu kimi inqilab ocağı adlandırdıqları Təbrizdən hökumət it ağacdan qorxan kimi qorxur. Şah alovlanan ocağı tez söndürmək üçün mümkün və mümkün olmayan nəyə desən gedəcəkdir. Mən bunu Cavada necə başa salım? Evimin çırağını söndürmə deyim? Qoy nə olacaqsa, mənə olsun, onsuz da, itirəsi

heç nəyim qalmayıb, bir canımdan başqa. Nə qədər nəfəsim gedib-gəlir bu yoldan dönməyəcəyəm. Xalqıma olunan sitəmlərin qisası alınmasa, qəbrdə də rahat yata bilmərəm.

* * *

Cavad hələ yuxudan oyanmamışdı. Qasım kişi oturduğu daşın üstündən ayağa qalxdı. Ayaqları, qolları sızıldayır, səhərin soyuq havası canını titrədirdi. Qapıya yönəlib içəri keçmək istəyirdi ki, hasarın dibində şöngüyüb pişik kimi marıtlayan qonşusunu gördü. Səsini çıxarmadı. Özünü görməməzliyə vurub ikinci pilləkənə ayaq basan kimi qonşusu özünü saxlaya bilməyib dilləndi:

– A kibrə, deyəsən, yaxşı yatmamısan bu gecə? Cavad da gözə görünmür, xeyirdimi? Narahat olduğuma görə soruşuram, massab haqqı.

Qasım ağa dinməz-söyləməz qapıya yönəldi. Səhər-səhər qanını qaraldan haramzadəyə nə deyəydi? Amma o artıq öz haqq-hesabını götürmüşdü: «Deməli, hər şeydən xəbəri var bu əbləhin. Nə qədər gec deyil, bir iş görmək lazımdır» Qasım ağa cavab vermədən içəri keçdi.

O, Ərdəbildən bura köçəndən az sonra nə səbəbdənsə, qonşu qadın evini tələsik satıb hara isə köçüb getdi. Çox çəkmədi ki, bu evdə ər-arvaddan ibarət bir erməni ailəsi yaşamağa başladı. Öyrəndiyinə görə kişi dövlət idarəsində işləyirdi. Yeganə övladı – bir qızı var idi. Çox nadir halda ata-anasına baş çəkərdi. İnsafən, miyanə boylu, uzun qara saçlı, şirin danışıqlı qız idi. Uzun hörüklərini kürəyində yırğalaya-yırğalaya yeriyəndə Qasımın ürəyi az qala oynayıb yerindən çıxır, sevimli Fatması yadına düşürdü. Karena adlı bu qızı öz adı ilə çox nadir hallarda çağırardılar. Onu Kəbirə kimi tanıyırdılar. Ona bu adı babası Sirac ağa vermişdi. Qasım ağa bir neçə dəfə onun məscidə gəlib, namaz qıldığını da görmüşdü. Karena Cavadla bir institutda oxumuşdu. Qasımla çox nəzakətli davranar, hörmət-izzət saxlayardı. Kəbirə xanım heç vaxt qara çadrada gəzməz, başına bağladığı örpəyi ilə üzünün bir tərəfini örtərdi. Yaylığı tez-tez sürüşüb çiyninə düşər, onun ağ çöhrəsi qışda duman arasından qəfil çıxan günəş şüası kimi görünər, tez də örtülərdi. Çox qəribə idi. Kəbirə atası ilə çox

soyuq davranardı. Görənə yad adam təsiri bağışlayardı. Kəbirənin hələ erməni dilində bir kəlmə danışdığını eşitməmişdi Qasım ağa. O, Azərbaycan dilində danışır, tək-tək hallarda qırıq-sökük fars dilində beş-üç söz işlədirdi. Maşınla gəlib tələsik getməyindən başa düşmək olardı ki, yaxında yaşamır. Bir neçə dəfə də Cavadla şirin-şirin danışdığını görmüşdü. O saat ürəyi sancmışdı: «Atanın hərəkətlərinə övlad cavabdeh deyil» – deyə Cavada bir söz deməmişdi. Belə düşünsə də, bu qıza qarşı kini-küdurəti də olmamışdı. Onu bu qənaətə gətirən qızın atasının murdarlığı olmuşdu. Qasım ağa fikir verib Karapetlə qızın zahirən də bir oxşarlığı olmadığını qət etmişdi. Geniş alnı, balaca düz burnu onu Karapetdən çox anasına oxşadırdı. Dalğın baxışlarında həmişə bir kədər duyulardı. Bir dəfə də Qasım ağa yenə həyətdə donquldanıb arvadına acığı tutan Karapetin sözlərini eşidib məəttəl qalmışdı:

– Mayası bu zatı-kökü lənətlənmişlərdən olana de ki, mən evdə olanda bura gəlməsin. Onu görəndə, o getdiyim Məkkə haqqı, əllərim gicişir, əlimdən xəta çıxa bilər, özümü güclə saxlayıram. Bir də sənə deyirəm, axçı, aç qulağını yaxşı eşit, qoy düz oturubdursun. Bunun axırı yaxşı olmayacax, hökümətlə zarapat eləmək olmaz, ha! Su sanağı bir gün suda sınacax, massab haqqı.

Arvadı ehmalca:

– Səndən arqac keçməsə… – Deyə sözünü axıra çatdıra bilməyib ağlamışdı.

Qonşusu Karapet alçaqboy, qarayanız, yumurtadan təzəcə çıxmış cücə qanadına bənzər seyrək birçəkləri qulağının ardından yuxarı qatlanan bir adam idi. Lopa bığları az qala ağzına təpilirdi. Ona əllidən yuxarı yaş vermək olmazdı. Amma yumuru fətirə bənzər sifətində, alnında, gözlərinin kənarlarındakı qırışlar onu çox yaşlı göstərirdi. O, həmişə qara mahuddan sərdarı geyər, başına uzunsov qarpızabənzər papaq qoyar, yerli-yersiz əlində çəlik gəzdirər, hər gün darvazası özü kimi cırıltılı səslə örtülər, o qayıdana kimi açılmazdı. Darvazadan çıxana qədər arvadına nə isə göstərişlər verərdi. İşdi, təsadüfən, üzünə baxsan, ovçu pişik kimi gözləri hər yanı dolanar, xırda qara bəbəkləri oynayardı. Arvadını tez-tez danlayar, həyətə enib qəfəsə düşən ayı kimi donquldana-donquldana var-gəl edərdi. Qasım ağa onunla ya-

xından bir kəlmə də olsun kəsməmişdi. Bir qonşu kimi sözləri heç tutmurdu. Qonşu Qasım kişiyə və oğluna həqarətlə baxar, yerli-yersiz narazılıq eləyərdi. Dövlət idarəsində işlədiyi üçün Qasım kişi olmayanda Cavadı söhbətə çəkir, hansı yuvanın quşu olduğunu öyrənmək istəyir, bir tutarlı cavab almayanda bəhanələr gətirib dava-dalaş salardı. Bir dəfə də jandarmlar Cavadı tutub aparmış, günahsızlığına əmin olduqdan sonra buraxmışdılar. Amma ona vurulan şallaqların yeri kürəyində indiyə qədər durardu. Cavad nə vaxtsa bunun əvəzini çıxmağı unutmamışdı. Odur ki, bir məqam gözləyirdi. Kəbirənin atası olduğuna görə Cavad susurdu. Həm də ondan başqa bir simsarı olmayan atasına yazığı gəlirdi: «Başıma bir iş gəlsə, bu kimsəsiz kişiyə kim baxar? Onsuz da başı bəlalar çəkib», – deyirdi.

Qasım ağanın atası-anası Ərdəbil şəhərindən idi. Atasının xırdavat dükanı lap evlərinə bitişik idi. Daha doğrusu, evlərinin alt mərtəbəsində yerləşirdi. Bu dükan ona atası Səməd ağadan qalmışdı. Babası Mirzə Kazım az-çox savadlı idi. Minbərdə əzan çəksə də, öz dövrünün hadisələrinə çox ayıq baxar, bəzən də haqsızlığa açıq-aydın narazılığını bildirərdi. Onu mirzə Kazım ağa deyə çağırar, bəzən də elə sadəcə «mirzə» deyərdilər. Mirzə Kazım qadınların əl-qolunu bağlayan şəriət qanunlarını heç bəyənməzdi. Dinə xələl gətirən əməlləri haram sayardı. O, hərdən fikirləşərdi:

– Nəyə görə Allahın yaratdığı bu zərif bəndələr bu qədər hüquqsuz olmalı, dünya işığına pərəncənin gözlüyündən baxmalıdılar?

Çox vaxt da hisslərini cilovlaya bilmir, düşündüklərini mollalar arasında açıq-aşikar deməkdən çəkinmirdi. Odur ki, özünə çoxlu düşmən qazanmışdı Mirzə Kazım. Axşamlar tanış-bilişlərin uşaqlarına gizli dərs deyər, Azərbaycan torpağından, Şeyx Səfi və oğlanlarından danışar, «öz dilimizi unutmayın», – deyərdi. Şagirdləri onu diqqətlə dinləyərdilər. Onun el içində böyük hörməti var idi. Şah İsmayıl Xətainin yaratdığı böyük Azərbaycan dövlətinin oğlanları və nəvələri tərəfindən get-gedə zəiflədiyini, Şah babamızın taxt-tacının tədricən farslaşdırıldığını ürək ağrısı ilə danışan mirzə Kazım sonda Şah Abbas cənnətməkanın dövlətimizi, adət-ənənəmizi necə qoruduğundan da söhbət

açardı: «O, ata-babalarının ruhunu əziz tutar, hər dəfə məqbərələrini ziyarət edər, Cümə məscidində namaz qılardı. O məscidi ulu babası Şeyx Səfiəddin tikdirmişdi. Orada Şeyxin adına toxunan xalı, hücrələrin birində ceyran dərisindən hazırlanmış «Quran» kitabı və sufilərin altımış iki kiloqram çəkisi olan möhürü saxlanılırdı. Mirzə Kazım qürurla deyirdi ki, qızılbaşların pirimürşidi, İran Aslanı adlanan Şah Abbas Ərdəbilə, Təbrizə hücum gözlənilməndə özü ilə Şeyx Səfi xalısını götürdü. Əmr etdi ki, döyüşçülər xalını qolları üstündə açıq bayraq kimi aparsınlar. Şah Abbas Ərdəbili əcdadlarının əbədi məskəni kimi müqəddəs sayırdı. Hətta Şeyx Səfi məqbərəsindəki qızılı-gümüşü və bütün varidatı ilə birlikdə babalarının sümüklərinin də çıxarılıb Fərəhabada aparılmasını əmr etmişdi. Lakin ərdəbillilər bu müqəddəs şəhərdən geri çəkilməyəcəklərini, son nəfəsə qədər vuruşacaqlarını bildirmişlər. «Ululaların sümüklərini tapdalayıb geri çəkilənlərə ar olsun!» – Demişlər. Ərdəbil şeyxlərinin müqəddəs məbədgahlarını qorumaq üçün Osmanlı paşalarına min dəvə yükü bac verməklə qoşunu şəhərə buraxmadılar.

Dedilər ki, «Ərdəbil Əcəmin bir təkyəsidir və şahlar şahının nurlu məzarıdır. Bu şəhəri dağıdıb müqəddəslərin ruhunu incitsəniz, sizi nə bu, nə o dünyada bağışlayarlar. Hədiyyəmizi qəbul edib əcdadlarımızın ruhunu dinc buraxmağınızı rica edirik».

Mirzə Kazımın ata-baba yurdu Ərdəbildən elədiyi söhbətlər qurtarmaq bilmir, dinləyənləri müqəddəs yerləri sevməyə, qorumağa çağırırdı. Meşə çaqqalsız olmadığı kimi dünya da pis insanlardan xali deyilmiş. Bu söhbətləri gizli saxlamağı tapşırsa da, onu sevməyənlərə çatırdı. Yerin də qulağı var,- deyirlər. Kazım mirzənin gizli dərslərinin səsi, nəhayət, divarın çölünə də çıxa bildi. Şah xəfiyyələri onu şahın gözündən salıb, hətta məscidə belə buraxmamağa bəhanə axtarırdılar. Mirzə Kazımın dinləyicisi kimi, dərsinə gələn xəfiyyənin əlinə fürsət düşdü. Onu şübhəli şəxs kimi nəzmiyyə idarəsində nəzarətə aldılar. Bir gün də belə bədxahların xəyanətkarlığı nəticəsində dindarların fitvası ilə Mirzə Kazım və arvadı Nisə xanım öldürüldü. Balaca Səmədi xalası çarşabın altında gizlədib ər evinə – Astaraya gətirdi. Səməd xalasının ərindən ev təhsili alırdı. Həddi-buluğa çatanda xalası onu Bəyim adlı qızla evləndirmişdi. Ərdəbilə qayıdan Sə-

məd atasından qalma bu xırdavat dükanı ilə ailəsini dolandırırdı. Heç kəslə işi yox idi onun. Amma dünyagörüşünə görə çoxundan fərqlənirdi. Evlərinin sevinci Qasımı savadlı görmək istəyirdi. Qasım Tehran Tibb Universitetinə qəbul olanda onun sevincinin həddi-hüdudu yox idi. Bu o vaxt idi ki, İkinci Dünya Müharibəsinin alovları doğma yurdun başının üstünü almışdı. Rza şah hakimiyyəti qorxu içərisində idi. Təbriz fədailəri və ziyalıları ayrı-ayrı təşkilatlarda birləşib şah rejiminə qarşı mübarizə apardılar. Məqsəd bir idi: – «Xalqı əsirlərlə əzib milli, mənəvi varlığını tapdalayan şahlıq təcavüzündən qurtarmaq». Səttərxan ruhu yenə dirilmişdi. Təbrizin üzünə milli azadlıq günəşi doğmuşdu. Təbrizdə, Ərdəbildə, Rəştdə, Xoyda böyük işlər görülür, xalqı qüvvələrini birləşdirməyə çağırırdılar. Faşist Almaniyasının süqutuna böyük ümid bəslənir, «xilaskar Qızıl ordu»nun Təbrizə girəcəyi günü səbrsizliklə gözləyirdilər. Bu işdə Təbriz, Ərdəbil, Zəncan ziyalıları, elm-mədəniyyət xadimləri – bir sözlə, xalqın görən gözü, düşünən beyinləri əsas rol oynasalar da, əsas aparıcı qüvvə gənclər idi. İnsanlara elə gəlirdi ki, əsirlərlə Savalanın, Səhəndin zirvəsində donub qalan qar, buz qatı çatlayıb əriməyə başlayıb. Qılınc kimi bir ananın ürəyini yarı bölən Arazın otaylı-butaylı insanlarının əlləri doğmalarına uzalı, gözləri yolda qalmışdı. Anaların ürəyi oğul, qızların, gəlinlərin isə qardaş, ər həsrəti ilə çırpınırdı. Tarixin təkəri geri dönmüşdü. Nəhayət, Təbrizə girən «Qızıl ordu»nu gül-çiçəklə qarşılamağa qocalı-cavanlı bütün xalq kütləsi hazırlaşırdı. Təbriz bayram paltarı geymişdi. Tehran Tibb Universitetinin ikinci kursunda oxuyan Qasım elə ilk gündən Demokrat firqəsinə üzv yazılmışdı. Gənclər faşist Almaniyasına qarşı böyük təbliğat işi aparırdılar. Alman casuslarını öldürür, qaçıb Təbrizə, Marağaya pənah gətirən yəhudi ailələrinə kömək eləyir, sərhəddən keçirib başqa ölkələrə ötürürdülər. Firqənin qərarı ilə Qasım Təbrizə göndərilmişdi. İnqilab beşiyi qoca Təbriz arı pətəyi kimi uğuldayırdı. Şahın xəfiyyələri təşkilat üzvlərini tutub zindanlara yığsalar da, yazda kükrəyib daşan dağ seli kimi azadlığa can atanların yolunu kəsmək olmurdu. Qasım Seyid Cəfər Pişəvarinin rəhbərliyi ilə Rəşddə, Marağada, Ərdəbildə, Zəncanda olan fədailərin qüvvəsini birləşdirmək üçün böyük işlər görürdü. Evlərini qərargaha çevirmişdir,

Qasım. Təbrizin göylərindən duman-çən çəkilmişdi. Xalq elə bil azadlığın sevincindən məst olmuşdu. Neçə illərdən bəri Azərbaycan Demokrat firqəsi Seyid Cəfər Pişəvarinin rəhbərliyi ilə apardığı milli azadlıq inqilabı qalib gəlmiş, mərkəzi Təbriz olmaqla Milli Azərbaycan hökuməti qurulmuşdu.

Hər kənddə Azərbaycan dilində məktəblər, şəhərlərdə universitetlər açılmışdı. Qəzet-jurnallar ana dilində çıxır, xalq keçmişinə, ilkinə qayıdır, millət millət kimi özünü dərk edirdi. Bu sevinc, bu şadlıq Azərbaycan xalqı kimi Qasımın da həyatında uzun sürmədi. Bir ildən sonra Rza şah rejimi Təbrizi qan gölünə çevirdi. Küçələr insan sallaqxanasına döndü. Hər küncdə-bucaqda dar ağacları quruldu. Evlərdə axtarış aparılmış, Qasımı tapmayıb ata-anasını dar ağacından asmışdılar. Şimali Azərbaycana – Bakıya minlərlə əqidə yoldaşları kimi Qasım da vətəndən-vətənə pənah gətirmişdi. Çox ağır günlər idi. Ata-anasının, dostlarının taleindən nigaran idi Qasım. Başladıqları böyük işin belə uğursuzluğu onu yandırıb- yaxır, qarışıq fikirlər beynini dumanlandırır, heç nə eləyə bilmirdi. Ona bir sualın cavabı qaranlıq gəlirdi: «Səbəb nədir ki, hər dəfə azadlığın nəşəsini dadmamış, xalqımız qanına qəltan edilir?»

Qasım ağa ata-anasının, özünün çəkdiyi bu əzabları düşünə-düşünə özünə verdiyi sualların cavabını tapa bilmirdi.

Qasım vətənin bir parçası olan Bakıda doğmaları arasında olsa da, ağır iztirablar içində qovrulurdu. Hər yandan onu qayğı ilə əhatə eləmişdilər. Onu «demokrat» adlandıran dostlardan bəzən inciyirdi. Axı bizim torpağımız, vətənimiz birdir? Biz ki yad, «gəlmə» deyilik, – deyə düşünürdü. Bəzən də: «Burdakı qurluş da heç bizimkindən geri qalmır, bunlar da bir cür məhkumdular» – deyə kədərlənirdi. Qasım yarımçıq qalmış təhsilini davam etdirmək fikrində idi. Amma ata-anasız təklik onu üzürdü. Onu təzədən tibb institutunun birinci kursuna qəbul etmişdilər. Dostlarının köməkliyi və təkidi ilə neçə vaxtdır göz qoyduğu Fatma adlı qızla evlənmişdi Qasım. Məqsədi burada qalıb xoşbəxt ailə həyatı yaşamaq, təhsilini başa vurmaq idi. O, yaxşı bilirdi ki, Vətəndə onu təqiblər, həbslərdən başqa yaxşı heç nə gözləmir. Lakin ata-ana, torpaq, yurd həsrəti onun bu istəyinə üstün gəlirdi. Vətənə dönmək arzusu səngimirdi. Hər şeydən əvvəl ata-

anasının aqibətindən xəbərsiz idi. Bu, onu çox ağrıdır, dincliyini əlindən alırdı.

Bura çatanda Qasım ağa duruxdu. Qəhər boğazına tıxanıb ağlını, düşüncəsini əlindən aldı elə bil. Keçmişləri yada gətirmək, o illərin acısını təzədən yaşamaq istəmədi Qasım. Səhərin soyuğu xatirələrin ağrısına qarışıb vücudunu titrətdi. Əllərini qoltuğuna salıb özünü bərk-bərk sıxdı. Dişlərini elə bərk sıxdı ki, az qala qırılıb tökiləcəkdi. Gödəkçənin yaxalığını qaldırıb titrətməni canından çıxarmaq istədi. Dizləri titrəyib az qala taqətdən düşəcək, yıxılacaqdı.

Öz-özünə:

– Yox, möhkəm ol, Qasım, belə ümidsizlik sənə yaraşmaz, – deyə təsəlli verdi. Zindanda aldığı zərbələrdən zədələnmiş sol ayağı sızıldayırdı. Ayağını qaldırıb əllərinin içinə aldı. Bir neçə saniyə ovuşdursa da, don vurmuş kimi keyimiş ayaqları sözünə baxmadı. Təkrar yerə çökdü. Evin lap baş tərəfinə qoyulub əzizlənən sandığa sarı həsrətli bir nəzər saldı. Uff… – deyib əlini sol döşünün üstünə vurdu. Günahkar kimi ürəyini çəngələyib xeyli sıxdı: – Cavad olmasaydı, bu işıqlı dünyada çoxdan yaşamazdım, Fatma. Nə yaxşı ki, keçmiş xatirələr var, yoxsa tənhalıq məni üzərdi. Gələcəyim bilinməsə də, keçmişimlə yaşayıram. Nəfəs-nəfəsə, xısın-xısın tənhalığın ayağını yerdən üzürəm. Oğlumuzun xatirinə. Sənli, ata-analı günlərim mənim yeganə həyanımdır, əzizim. Keçmişi olmayanın indisi, gələcəyi də olmur. O uzun illərdə zindandan-zindana atıldığım vaxtlarda da bir an sizi unutmadım. Sizə qovuşmaq ümidi, dostlarımın etibarı məni yaşatdı. Təəssüf ki, sənsiz. Əzab dolu gecələrimi sənə, dostum Həmidə məktub yazmaqla keçirirdim. Səndən cavab gəlmirdi. Hər dəfə nəzarətçi kiməsə: «görüşə gələnin var» – deyəndə səksənirdim, gözlərim ziyarətçilər arasında səni gəzirdi, səni axtarırdı, Fatma. Sən gəlmirdin. Məndən sonra otağımıza gətirilən bir ərdəbilli məhbusdan Həmidin də tutulduğunu, Təbriz zindanlarından birində olduğunu öyrəndim. Səni isə gördüm deyən yox idi. Mənə əziyyət verən indi iki zindan var idi: biri min cür işgəncələrə dözüb yatdığım zindan, biri də içimdə məni didib-parçalayan günah, həsrət dolu qaranlıq bir cəhənnəm idi ki, hər gün onun odunda yanıb kül olurdum. Həbsdən sonra qırışığım açılmamış,

sənin müəmmalı tərzdə yoxa çıxmağının günahını üstümə atıb məni yenə zindana salmışdılar. Qızıl quş qəfəsdə çırpınan kimi daş zindanda çırpınırdım. Səni görmək həvəsilə ayları-günləri sayırdım. Taleindən xəbərsiz idim, Fatma. İndi də xəbərsizəm, əzizim. Bu gen dünyada bizim dincliyimizə yer olmadı. Sevdiyin bu yerlərdə doyunca gəzmədin. Deyirlər torpağın üzü soyuq olur. Allah-taalanın qaçılmaz hökmü – ölümlə də insan nə vaxtsa barışıb sakitləşir. Amma izsiz, soraqsız itgi adamı yandırır, əzizim. Qəbrə gedənə qədər də yandıracaq. Əvvəlki Qasımının gücü-qüvvəsi tükənib. Bu, hər künc-bucağı insan qanına yerikləyənlərlə dolu məmləkətdə səni axtarmağa daha ümidim qalmayıb.

Qasım ağa dizlərini qatlayıb sandığın qabağında yerə çökdü. Ona elə gəlirdi ki, bu dilsiz-ağızsız, cansız əşya onun əzablarını başa düşür, onun suallarına cavab verir. Yanan ürəyinə az da olsa su çiləyir, bu əzabların əlindən alır ruhunu sakitləşdirir.

Etiraf

Cavad yuxudan oyananda başı ağırlaşmışdı. Bütün bədəni sızıldayır, döyülən adama oxşayırdı. Dünən gecəki ağır işdən sonra bərk yorulmuşdu. Təşkilatın verdiyi tapşırığı yerinə yetirib yoldaşlarından aralananda gecə yarıdan keçmişdi. Karenadan atasının nə işə görəsə Tehrana getdiyini öyrənəndən sonra arxayınca işlərini görüb qurtarmışdılar. «Rədd olsun Rza şah taxt-tacı!», «Rədd olsun istibidad!», «Ana dilimiz uğrunda!» şüarları ilə az qala Təbrizin küçələri bəzədilmişdi. Cavad aclığını da unutmuşdu. Evə çatar-çatmaz elə paltarlı yatağa girmişdi. Dərin yuxuya gedən Cavad atasının nə vaxt oyandığını, geyinib həyətə düşdüyünü də hiss eləməmişdi. İndi də onun diz üstə sandığın qabağında çökdüyünü görüb ürəyi ağrıdı. Günahkar adamlar kimi səssiz-səmirsiz qalxıb geyindi. Ürəyindən sızıltı keçdi: «O, mənə həm ata, həm ana olub», – deyə ürəyindən keçirdi. Bir neçə dəfə anası haqqında söz salıb soruşmaq istəmişdi. Atasının cavab verməkdən yayındığını görüb susmuşdu. Özü nə vaxt istəsə, danışar, – demişdi. Belə sorğuların atasına necə əzab verdiyini görüb hiss edirdi Cavad.

Atası ağır-ağır başını qaldırar: «Mən dözənlərə sən tab gətirə

bilməzsən, gözümün işığı. Böyüyəndə sən özün hər şeyi öyrənib biləcəksən», – deyə onu sakitləşdirərdi. Artıq Cavad böyümüşdü. Tibb Universitetini bitirib işləyirdi. Təqiblərdən qaçıb didərginlik həyatı keçirən atasının Təbrizin lap ucqar, gözdən uzaq yerində aldığı kiçik mənzilində gözə çarpacaq dəyişiklik var idi. Cavad evə məvacib gətirirdi. Atasının yarımçıq tibb təhsili də karlarına gəlirdi. Qasım ağa əhalinin kasıb təbəqəsinə pulsuz tibbi xidmət göstərirdi. Camaat arasında böyük hörmət qazanmışdı. Sakit həyatlarını bir təhər təmin etmişdilər.

Bir gün isə...

Cavadın verdiyi sualdan qaça bilmədi Qasım ağa:

– Sən mənə söz vermişdin, ata, – deyə Cavadın dillənməsi Qasım ağanı səksəndirdi elə bil. Təəccüblə oğlunun üzünə baxdı:

– Nə sözü, oğlum? Mən sənə verdiyim vədin hansına əməl eləməmişəm, gözümün işığı?

– Yox, ata, sən məni düz başa düşmədin.

– Mənim başa düşmədiyim nədir ki, səni elə narahat eləyir, Cavad?

– Məni həddindən artıq narahat eləyən bir şey də var, ata... Bu uzun illər mənə rahatlıq verməyib. Yuxumu ərşə çəkib. Anam haqqında həqiqəti bilməyə indi haqqım çatır, ata. Mən tovlanıb başı aldanan uşaq deyiləm. Sənin çəkdiyin əzablara laqeyd qala bilmərəm. Ağlıma cürbəcür fikirlər gəlir, ata. Anam haqqında verəcəyin hər hansı xəbəri eşitməyə hazıram.

Qasım ağa yenə tərəddüd içərisində oğlunun üzünə baxıb fikrə getdi.

Qasım ağa səhər süfrəsini çoxdan hazırlamışdı. Tək yemək adəti olmadığına görə əlini süfrəyə uzatmamış, Cavadın yuxudan oyanmağını gözləmişdi. Əlüz dəsmalını ona uzadıb:

– Get yuyun, sonra danışarıq. Acqarnına olanda insanın beyni, şüuru yaxşı işləməz, oğlum, – dedi.

Cavada elə gəlmişdi ki, atası yenə cavab verməkdən qaçır, söhbəti uzadır. Odur ki, cəld əl-üzünü yuyub süfrə başında əyləşdi. Qasımın tökdüyü çay buğlanır, kiçik mətbəxin divarlarına, pəncərənin şüşəsinə çöküb tərlədirdi. Qasım ağa çətin imtahan verən uşaq kimi susurdu. Araya cansıxıcı sükut çökmüşdü. Ağzına qoyduğu tikəsi boğazına tıxandı elə bil. Bir neçə dəfə udqun-

du. Fincanda buxarlanan çaydan bir qurtum içib haçandan-haçana dilləndi:

– Sovet qoşunları Təbrizdən çıxandan sonra başıma gələn müsibətləri bilirsən, oğlum, axı nə danışım?

– Bəli, onların hamısını bilirəm. Mən sənə başqa sual verdim, ata.

Qasım oğlunun üzünə məzlum-məzlum baxıb «mənə niyə əzab verirsən, oğlum?» – Demək istəməsi onun baxışından açıq-aydın oxunurdu. Başını qaldırıb Cavadın üzünə baxa bilmirdi. Dərindən köks ötürdü.

– Biz ananla evlənəndən sonra güman edirdim ki, bir az ovunub sakitləşərəm, təhsilimə də öz yerində davam edərəm. Fatma ağıllı, savadlı, dünyagörüşü cəhətdən rəfiqələrindən fərqlənən bir qız idi. Bir binada yaxında yaşadığımıza görə tez-tez rastlaşıb görüşürdük. O, tarix fakültəsini bitirib, yaxın məktəblərin birində dərs deyirdi. Mənim qərib olduğumu bilincə mənə qayğı göstərir, hər dəfə salamlaşıb hal-əhval tuturdu. Onda hamıdan artıq bir doğmalıq duyurdum. Təbriz qızlarından fərqli olaraq üzüaçıq, başqa görkəmli paltarlarda gəzən qızlar bir müddət məndə təəccüb doğururdu. Sonra yavaş-yavaş bu həyata alışdım. Fatma uzun saçlarını yığıb boynunun dalında sancaqlayar, müəllimlərə xas kəstyum geyərdi. Həftədə bir neçə dəfə kiçik bacısı Dilarə mənə bişirdiklərindən pay gətirərdi. Bir gün də anası məni evlərinə qonaq dəvət elədi. Novruz bayramı idi. Doğrusu, qanım çox qaralmışdı. Bu bayramı təbrizlilər necə keçirirlər, özün bilirsən. Anamın bişirdiyi şirniyyat, yandırdığı şam, Novruz xonçası yadıma düşmüşdü. Otaqda tək oturmuşdum. Təbrizə, doğma yerlərə necə qayıtmaq haqqında düşünürdüm. Təklifə görə minnətdarlıq elədim. Getmək fikrim yox idi. Təbrizli Süleymanpur yanıma gəlmişdi. O, həkim işləyirdi. Bizdən çox əvvəl ata-anası ilə bura köçmüşdülər. Atası dünyasını dəyişmişdi. Anası ilə yaşayırdı. Yaşı qırxı ötsə də hələ ailə qurmamışdı. Biz onun işlədiyi xəstəxanada tibbi müayinədən keçəndə tanış olmuşduq. Təzəcə hal-əhval tuturduq ki, qapı döyüldü. Bir-birimizin üzünə sual dolu nəzərlə baxdıq. Kim olar bu vaxtı? İlin axır çərşənbəsi idi. Qapını açıb astanada bir papaq gördüm. Hər şeyi başa düşdüm. Papağı götürüb şirniyyatla doldurub qapıya qoymuşdum ki, Fatma gülə-

gülə qapıya yaxınlaşdı. Ürəyim nanə yarpağı kimi əsirdi. Qapının ağzında donub qalmışdım. Nə deyəcəyimi də bilmirdim. Bu görüş məni çox çaşdırmışdı. Süleymanpur məni bu vəziyyətdən qurtarmasaydı, biabır olacaqdım.

– Novruz təbrik, novruz təbrik (bayramınız mübarək), – deyib onu içəri dəvət elədi. Tərəddüd etmədən Fatma içəri girdi.

– Mən heç bir şey bilmirəm, bu axşam bizim qonağımızsınız. Anam, qardaşlarım sizi gözləyirlər.

O gündən bizim ünsiyyətimiz başqa məcraya yönəldi. Çox keçmədi dostların, həmvətənlilərin köməyi ilə evləndik. Demək olar ki, tənhalığıma son qoyulmuş, bir az ovunub sakitləşmişdim. Bu dinclik uzun sürmədi, oğlum. Mən vətənə qayıtmaq üçün hansı aidiyyəti olan təşkilatlara müraciət etmədim, onu bir Allah bilir. Fatma, qardaşları da mənə əllərindən gələn köməyi eləyirdilər. Moskvaya müraciət elədim. Çətin zamanlar idi. Ölkə müharibədən təzəcə çıxmışdı. Çox gözləməli olduq. Məni təhlükəsizlik komitəsinə çağırıb vəziyyəti aydınlaşdırdılar. Çox sorğusuala tutdular. Məni orada nələr gözlədiyini bir daha izah elədilər. Mən hər şeyə hazır idim, təki vətənə qayıdım. Aylar-günlər keçir, hələ də razılıq ala bilmirdik. Fatma məndən də artıq çalışırdı. Səbrim tükənmişdi. Vətəndən gələn bəd xəbərlər, ata-anamdan çəkdiyim nigarançılıq məni üzmüşdü. Bərk xəstələnmişdim. Dedilər ruhi sarsıntı keçirib. Uzun müddət xəstəxanada yatdım. Anan heç vaxt biz tərəflərdə olmamışdı. Təbrizin, Ərdəbilin haqqında cüzi məlumatı az-çox kitablardan oxumuşdu. O vaxtlar bu çox qadağan idi. Yenə də Azərbaycanın cənub əyalətinə böyük maraq göstərirdi anan. Vətəndə məni necə mərhumiyyətlər gözlədiyini də ona demişdim.

Fatma:

– Hər nəyə desən, dözərəm, təki sənin olum, -deyirdi. Qasımın gözləri dolmuşdu. Cavad onun sözünü kəsməyə cürət eləmirdi. Atasının nə vaxt söhbətini davam etdirəcəyini gözləyir, susurdu. Nəhayət, özünü toplayıb sözünə davam elədi Qasım ağa.

– Bilirsən, oğlum, biz tamam başqa-başqa cəmiyyətlərdə yaşamışdıq. Fatma burada qadın, qızların hüquqlarına qoyulan qadağalara dözə bilmirdi. Çadrada gəzmək ona ölüm kimi ağır

gəlirdi. Odla su arasında qalmışdım. Mən həbsdən qayıdandan sonra yaxın qohumlarımın məzarını ziyarətə gedəndə onu da aparmışdım. Şeyx Səfinin məqbərəsini göstərib şeyx nəslindən olanların məzarlarını tanıtdım. Fatma bunu çoxdan arzulayırdı. Kaş o günə daş düşəydi, oğul. Fatma o gündən Ərdəbilin tarixi yerləri ilə maraqlanır, yaşlı kişiləri sorğu-suala tuturdu. Bəzi qeydlər eləyir, gələcəkdə yazacağı kitaba hazırlıq görürdü. Fatmanın Bakıda da bir povesti çıxmışdı. Orada da Cənubi Azərbaycanın həyatına geniş yer vermişdi. Bu, onu qane eləmirdi. Deyirdi: «Bizim böyük məhəbbətimizdən, sənin keçdiyin çətin mübarizə yolundan bəhs edən bir roman yazacam, Qasım. İstəyirəm ki, ağır işdən sonra dincələn adam kimi çəkdiyin iztirablari məhəbbətimizin şirinliyində, saflığında unudasan. Axı məhəbbət adamı yaşadır, əzizim. Həyatın özü elə məhəbbətdən yaranmayıbmı?»

Ona:

– Tələsmə, hər şeyin öz vaxtı var, - deyəndə gülürdü.

– Vaxtı qabaqlamaq lazımdır, Qasım. Gözləmək qoyunu qurda verər, – deyirdi. Bu da məni gözü götürməyənlərin şayələr yaymaqlarına əsas verirdi. Onsuz da hökümət idarələrində keçmişi ləkəli bir adam kimi nəzarətdə idim. Bir gün də qadın hamamında onu bərk döymüşdülər.

– Niyə, ata? – Deyə Cavad səbirsizlik elədi.

Qasım ağa əlini yüngülcə yellətməklə, sözümü kəsmə, – demək istəyirdi. Cavadın böyük maraqla onu gözlədiyinə görə sözünə davam etdi:

– Hamamda qadınlara deyib ki, niyə hüquqlarınızı qorumursunuz? Nə vaxta qədər bu qara çarşablar altında ərlərinizin əmrlərini yerini yetirəcəksiniz? Axı, qadının da hüququ var, o da insandır!

Bilirsən də, oğul, bizim məmləkətə qadın hüquqsuzluğundan danışmaq nə deməkdir? Onu küçədə daş-qalaq eləyərdilər. Amma şükür ki, döyməklə kifayətlənmişdilər. Qonşunun arvadı onu aradan çıxarıb evə gətirə bilmişdi. Uzun müddət xəstə yatdı. Onu rusların «cəsus»u, kafir adlandırırdılar. İkinci dəfə yaxınlaşan fəlakəti açıq-aydın görürdüm. Amma əlimdən heç nə gəlmirdi. Qadın hüquqları uğrunda mübarizə aparan gizli təşkilatın olma-

sından xəbərim var idi. Amma Fatmanın o təşkilata üzv olduğunu ağlıma gətirə bilməzdim. Onun hərəkətlərinə qadağa qoyub incitmək, mənə görə həyatını təhlükəyə atan qərib bir qızı darıxdırmaq istəmirdim. Bir də... Məhəbbət gözümü kor eləmişdi. Bizim dalımızca güdükçü olduğunu deyib qorxutmağa ürəyim gəlmirdi.

– Sən özün o yolun necə qorxulu olduğunu bilirdin, ata, niyə ona mane olmurdun? Üstəlik də, yad bir məmləkətə gəlmişdi anam. Buranın qanunlarını bilmirdi. Sovet rejimi şimalda yaşayan qadınlarla kişilərə «bərabər hüquq» vermişdi. Anam uşaqlıqdan vərdiş elədiklərini burada da görmək istəyirdi.

– Mən ona necə mane olardım ki, daha o, heç evdən bayıra da çıxmırdı. O hadisədən sonra çox ehtiyatla dolanırdım. Bəzi yoldaşlara da evin həndəvərində dolanıb ona nəzarət etməyi tapşırmışdım.

– Bəs onda səni necə başa düşüm, ata?

Qasım ağa altındakı kiçik döşəkçəni bir az da oğluna yaxın çəkdi. Elə bil kiminsə eşidəcəyindən ehtiyat edirdi.

– Sən demə bizimlə bir məhəllədə yaşayan Səltənət adlı bir qadın onun hamamda başına gələnləri eşidibmiş. Mən evdə olmayanda bizə gəlib Fatmanı təşkilatın üzvü olmağa razı salıb. Yazılan müraciətləri, təşkilatın iş planının mətnlərini də Fatma yazırmış. Səltənət də savadlı qadın idi. Almaniyada təhsil alıb vətənə qayıtmışdı. Haqsızlıqla, istibidadın zülmü ilə barışmırdı. Neçə dəfə tutulub şallaqlanmışdı. Fatmadan sonra o da yoxa çıxdı. İzini-sorağını da bilən olmadı. Sən üç, ya dörd aylıq olardın. İşdən qayıdanda Fatmanı evdə tapmadım. Körpə də yox idi. Qonşulara baş vurdum. Gördüm deyən olmadı. Fatmanın yoxa çıxmasının səbəbkarı məni bilib ikinci dəfə həbs etdilər.

Cavad oturduğu yerdə qərar tuta bilmir, gah ayağa durur, gah su töküb içirdi. Gözləri alacalanmışdı. Tez-tez əllərini daraq kimi saçına çəkir, alnında sıralanan tər damlalarını kiçik yaylıqla silirdi. Ona elə gəlirdi ki, havası çatmır, elə indicə boğulacaq. Qasım ağa susmuşdu. «Ay oğul, ta dalını soruşma, danışa bilmirəm», – demək istəyirdi. Lakin Cavad atasından əl çəkmək istəmirdi. Belə fürsət bir də ələ düşəcəkmi? Ya qismət, – deyə fikirləşirdi. Atasının tünd xasiyyətli adam olduğunu bilirdi, Cavad.

Nəzərlərini atasının vaxtından qabaq ağaran cod saçlarında, üzündə, alnındakı qırışlarda gəzdirdi. O, atasının güclü iradəsinə, dözümünə bələd idi. Hələ indiyə qədər heç bir qadınla yeni həyat qurmağa cəhd eləməməsini maddi durumlarıyla bağlasa da, indi tamam başqa fikirdə idi. Yox, burada nə isə var. İnsan ölümlə nə vaxtsa barışmalı, ölümün haqq olduğunu, qaçılmazlığını dərk etməlidir. Çünki həyat ölümlə qurtarmır, davam edir. Allahtaalanın hər kəsə verdiyi bu bircə ömrü hədər yerə yelə verməməlidir? Axı mən indiyə qədər bunları niyə başa düşməmişəm. Atamın həyatı indi başqa cür ola bilərdi.

Cavad əlini şappıltı ilə dizinə çırpıb ayağa qalxdı. Hələ də sandığın qabağında dizi üstə çöküb qalan atasının qolundan tutub qaldırdı. Qolunu boynuna dolayıb bərk-bərk sinəsinə sıxdı. Hər ikisi qəhərlənmişdi.

* * *

Qasım ağanı indi hər şeydən çox dünən dostlarından eşitdikləri düşündürürdü. Daha doğrusu, narahat edirdi:

– Qasım ağa, ehtiyatlı ol, sizi güdürlər. Cavadı da yaxşı olar ki, bəzi yerlərə buraxmayasız. Zamanə yenə qarışıb. Onu Allah bizə çox görməsin.

Bu, ciddi xəbərdarlıq idi. Daşın haradan atıldığını bilirdi Qasım ağa. Fəqət əlindən heç nə gəlmirdi. Onun gördüyü işlərdən xəbərdar olduğunu desinmi? Onda gərək özünün də bu mübarizənin - Təbriz təşkilatının sədri olduğunu boynuna alsın. Buna da yol vermək olmazdı. Cavad onun keçmişindən onsuz da narahatdı.

– Yox, mən Cavadı itirsəm, yaşaya bilmərəm...

Elə indicə dostu Kərəmin atası ilə görüşüb fikirlərinə son qoymaq üçün qapıya yaxınlaşmaq istəyəndə ağacların arasından bir kölgə görünüb yox oldu. Qasım ağa qəti qərara gəlmişdi: –Nə qədər gec deyil, ölkəni tərk eləmək! Əvvəlki səhvlərim mənə çox baha başa gəldi. İndi öz əlimlə balamı zindanlarda çürüdə bilmərəm. Əvvəlcə, Kərəmin atası Həmidlə görüşməliyəm. Deyəsən, Cavad Həmidin yeganə qızı Güllüyə vurulub. Razılıq versə, evləndirərik, birlikdə yenə Şimali Azərbaycana, ya Əfqanıstana keçərlər. Tanışlarım, qohumlarım çoxdur. Kömək eləməmiş ol-

mazlar.

Qasım ağanı elə bil ildırım vurdu. Qolları boşalıb yanına düşdü: «Vətən torpağını tərk eləmək mənə ölümdən ağırdır. Bir də, Fatmanın qohum-əqrabalarına nə deyəcəm? Necə deyim ki, Allah amanında deyib yola saldığınız qızınızı qoruya bilmədim?»

O, xeyli susdu. Nə düşündüsə Qasım ağanın üzündə, dodaqlarında yüngül bir təbəssüm oynadı elə bil. Bir az yüngülləşən kimi oldu.

Bacı-qardaşları, qohumları Fatmanın yadigarı – Cavadı görüb bir az şadlanarlar. Cavad da yaxın simsarları ilə tanış olar. Maşallah, böyük oğlan olub. Dayıları, xalası onu görəndə çox sevinəcəklər. Əgər qismət olsa... –Dərindən köks ötürdü. Çoxdandı ağzını açmadığı sandığa yaxın gəldi. Sandığın qapağı ona elə ağır gəldi ki, sanki qaldırmağa qolunda taqət qalmamışdı. Burda Fatmanın şəxsi əşyalarını, şəkillərini qoruyub saxlayırdı. Toy günü çəkilən şəkili əlinə alıb dodaqlarına yapışdırdı. Şəkildə necə xoşbəxt idilər, İlahi! Fatma ağ qağayı kimi elə bil səmaya qalxmağa hazırlaşır. İki əlli Qasımın qolundan yapışıb dünyanın ən xoşbəxt gəlini kimi gülümsəyirdi. Hanı bu şəkildəki anlarımız, Fatma? Məni oğlunla birlikdə yetim qoyub, hara getdin, əzizim? İndi vətəndən-vətənə yenə qaçqın gedirik. Vətənin quzeyi-güneyi olmur. Onun hər yanı, bir parça daşı da vətəndir. Bəs nə günah işlətmişik ki, zaman-zaman öz torpağımızdan qovuluruq? Didərgin düşməyə məcbur oluruq?

Qasım ağanın üzündən süzülən göz yaşları yaxasını islatdı. Çöldə hənirti eşidib sandığın qapağını örtdü. Gələn Kərəmin atası Həmid kişi idi. Onlar yaman günün dostları kimi qucaqlaşdılar. Hər ikisi kövrəlmişdi. Həmid tanış sandığa gözücu nəzər saldı. Qasımın pərişanlığının səbəbini başa düşdü. Əvvəllər dəfələrlə bu sandıqdakı əşyalara baxmışdı. Ürəyindən qara qanlar axdığını, xəstə adamlar kimi tir-tir əsdiyini biruzə verməmişdi. Günahkar adam kimi gözünü yerə tikib susmuşdu. Həmid ağa ürəyində:

«Keç günahımdan, Tanrım, elədiyim günahımı ömrümün axırına qədər yuya biləcəyəmmi?»

Düşündüklərini açıb dostuna demək, onun dərdinin üstünə dərd artırmaq Qasımı əbədi itirmək demək idi. Vaxt gələr bir

dəfə ürəyimi ona açaram, fikri ilə susmuşdu. İndi əqidə dostunu təcili görməkdə başqa məqsədi var idi. Məsciddə eşitdikləri, şah sərbazının dedikləri onu çox narahat edirdi Qasımla görüşüb yeni şübhələr yaratmaq istəməsə də, buna məcbur idi. Cavadla Kərəmin qorxulu yolda olduqlarına biganə qala bilməzdi.

Axır vaxtlar dostlar çox seyrək görüşər, bəzi məsləhətləşmələrdən sonra tez də ayrılardılar. Şübhəli keçmişləri bütün ömürləri boyu onları qorxu, təşviş içində saxlamışdı deyə bundan heç biri inciməz, giley də etməzdilər. Bu iki əqidə, məsləkdostu ayrı-ayrılıqda işlərini görərdilər. Ağa Qasım yaşca ondan böyük olduğuna, təşkilatın sədri kimi məsuliyyətli bir vəzifə daşıdığına görə ağa Həmid dostu ilə hesablaşar, icazəsiz, məsləhətsiz bir iş görməzdi. Aralı olsalar da, onları bir məqsəd, bir əqidə birləşdirərdi: – «Seyid Cəfər Pişəvərinin başladığı mübarizəni davam etdirmək». Bir tərəfdən də Cavadla Güllünün münasibətləri hər iki dostu narahat edirdi. Ölkədəki siyasi vəziyyəti görüb gənclərin taleinə biganə qala bilmirdilər. Ürəklərindən keçənləri elə bil hər ikisi duymuşdu. Odur ki, tələsik bəzi məsələləri aydınlaşdırıb tez də ayrıldılar. Keçən axşam Kərəmin səhərə yaxın evə gəlməyindən çox qorxmuşdu ağa Həmid. Barmaqları üstə səssiz gəlib otağına keçən oğlunu saxlayıb danlamışdı:

– Ay oğul, niyə qoymursan bir tikə çörəyimizi qorxusuz-hürküsüz yeyək? Əlində gül kimi sənətin var. Səni oxudana qədər nə zillətlər çəkmişəm, bir mən, bir də o başımızın üstündəki bilir. Bu məmləkətdə haqq axtarmaq cahillikdir, bala. Biz də Qasım əmiylə vaxtında çox əlləşdik. Aqibətimiz nə oldu? İndi qonşuya baxıb özünü oda yaxmaq beş-on nəfərə nə verəcək? Görmürsən ki, hamı bir-birinə qulaq kəsilib? Bu zatıqırıq şah Amerika kimi əjdaha ilə kəllə-kəlləyə durub! Ağlın Əfqanıstana getməsin. Zair şahın səltənətini içəridən öz qohumu Sərdar Məhəmməd dağıtdı. Bizdə başqa cürdü, bala. Gizli şah zindanları haqq-ədalət deyənlərlə doludur, ay gözümün işığı. Bircə bəhanə lazımdır ki, bizi əliqolu bağlı zindanda çürütsünlər. Təzəcə ailə qurmusan, bu günsabah ata olacaqsan. Görmürsən ki, hər yanda tuthatutdur? Səndən qabaqkılar bu zalımın taxt-tacına nə eləyə bildilər ki, sən də eləyəsən? Bizimki bircə o başımızın üstündəkinə qalıb, bala. Gəl daşı ətəyindən tök. Cavadın atasını görüb onu da yola gətir-

mişəm. Bu xarabanı nə qədər gec deyil, tərk etsəniz yaxşı olar.

Kərəm yerindən dik atıldı:

– Yox, ata, mən bu yoldan dönməyəcəm. Bu qədər zülmü heç Allah da götürməz. Qan tökməklə idarə edilən bir qurluş mütləq dağılmalıdı. Mənim təhsil aldığım ölkədə müxtəlif millətlər yaşayır. Öz dillərində danışır, oxuyur, təhsil alırlar. Onlara gözün üstə qaşın var deyən də yoxdur. Nə qədər hüquqsuzluq olar? Öz dədə-baba yurdumuzda gözüqıpıq olmuşuq. Evimizdə də qorxa-qorxa danışırıq. Məgər bunu görmürsən, ata?

Ağa Həmid özünü bir az da avamlığa qoyub dilləndi:

– Niyə görmürəm, gözümün işığı. Hamı necə, biz də elə. Gəl bizi xətaya salma. Allah-taala bir ömürdü verib, bir təhər onu başa vurmalıyıq.

Həmid oğlunu bu qorxulu yoldan çəkindirmək üçün sanki dondan-dona girirdi. Amma ürəyində oğlunun dediklərinə haqq qazandırırdı. «Qoy Kərəm mənim mömin bir bəndə olduğumu yəqin eləsin», – deyə fikirləşirdi. Amma ürəyində oğlunun dediklərindən sonsuz qürur duyurdu.

– Yox, ata, mən sənin kimi düşünə bilmərəm. Bir təhər ömür sürmək insana yaraşmaz. Tək məndən, səndən söhbət getmir. Mənim oğlum, qızım, nəvələrim də bu həyatı yaşamağa məhkum olacaqlar. Bax bunu düşündükcə, başıma hava gəlir. Mümkün olmayan heç nə yoxdur. Biz mübarizəmizi davam etdirəcəyik. Görürsən, qonşu əfqan xalqı şah rejimini necə devirdi? Sənin keçmişinlə az-çox tanışam. Ata-ananın günahsız tutulub məhv edildiyini nə tez unutdun, ata? İndi nəsillər dəyişir. Sizin deyə bilmədiyinizi biz deyəcəyik. Tapdalanan haqq öz yerini almalıdır.

Həmid ağa ürəyindəkiləri açıb – ağarda bilmədiyi üçün susdu. Kərəm atası ilə söhbəti çoxdan gözləyirmiş kimi təzədən dilləndi:

– Zair şahı taxta yaxın buraxmadılar. Respublika qurdular. Biz onlardan əfəlik, ata? Sən narahat olma, bizim yolumuz haqq yoludur.

– Təki sən istəyən olsun, nə deyirəm, oğlum. «Avazın yaxşı gəlir, oxuduğun quran olsa», – deyiblər. Əfqanlar hansı günə çıxdılar ki, biz qaldıq? Rza şah səltənətinin taxtı-tacı qanla sulanıb, bunu unutma!

– Biz vətənin övladlarıyıq, ata. Susmağa haqqımız yoxdur.

Vətən bunu bizə bağışlamaz. Haqsızlıq ölümdən betərdir, qoy olsun. Bax elə götürək sənin özünü. Ürəyindəkiləri dilinə gətirmək xatirinə gündə neçə dəfə o minbərə çıxmağa məhkumsan. İbadətlə azadlıq alınmır, ata. Burda sənin bir məqsədin var, onu da bilirəm. Amma açıqdan-açığa heç nə dilinə gətirə bilmirsən. Biz gənclər bundan fərqli cəmiyyətdə yaşamaq istəyirik.

Ağa Həmid zəiflik göstərib özünün bu mübarizənin lap ortasında olduğunu, bu qanlı taxt-tacla köhnə haqq-hesabı olduğunu etiraf edəcəyindən qorxurmuş kimi pəncərələri taybatay bağlayıb hövlnək oğluna sarı döndü:

– Yavaş danış, oğul, yerin də qulağı var. İndi kimin köhnədən nə qərəzliyi varsa, bir-birindən əvəz çıxır. Elə götürək dostun Cavadın atasını. Gör aradan neçə il keçib. Yenə də şahın güdükçüləri ondan əl çəkmirlər. Ailəsi dağıldı. Küllü məmləkətdə, didərgin səfil gəzdi. İndi də kim bilir? Onun başına gələnləri heç düşmənimə də arzu etmirəm. O da yeganə balası Cavadı qorumaq üçün çarə axtarır.

Kərəm qabağındakı çay dolu fincanı geri itələyib sualedici nəzərlərlə atasına sarı döndü:

– Yeri gəlmişkən, ata, Qasım əminin arvadının taleyini sən bilməmmiş olmazsan. İndiyə qədər bu dərdi Cavad ürəyində gəzdirir. Hər dəfə söz düşəndə atası əzab çəkir deyə Cavad söhbətin dərinliyinə getmir. Bu dəfə də danışmaq istəyib, yenə sözünü axıra çatdıra bilməyib. Bəlkə, sən bunu mənə deyəsən, ata? Axı, siz uşaqlıq, gənclik dostusunuz?

Həmid kişini yaman yerdə yaxalamışdı oğlu. Boğazını bir neçə dəfə artlayıb çətinliklə olsa da dilləndi:

– Yox, Kərəm, gəl sən bunu məndən soruşma, bir halda ki, Qasım özü deməyib, bu sirri açа bilmərəm. Mən söz vermişəm. Sirr iki nəfər arasında olar, üçüncüyə ki, çıxdı, o sirr deyil. Mən mömin adamam. Çiynimə günah yığaram. İmanımı yandıra bilmərəm. O dünyada cəhənnəmə düşüb qır qazanında yanaram.

Həmid kişi əlini üzünə, saqqalına sürtüb salavat çevirdi. Özünü Kərəmə təslimçi bir mömin kimi göstərməkdə məqsədi var idi. Onu bu qorxulu yoldan çəkindirmək, qanlı rejimin caynağından qurtarmaq istəyirdi.

Atasının məqsədini az-çox başa düşən Kərəm əl çəkmək fik-

rində deyildi:

– Edilən bir belə günahlar kiminsə adına yazılmırsa, sən də o qır qazanından qorxma, ata. O qazana bişib yanmağa çoxu məhkumdur bizim zəmanəmizdə. Əgər bir adam bundan əzab çəkə-çəkə yaşayırsa, sən ona kömək eləmirsənsə, bax bu ən böyük günahdı Allah qarşısında. Cavadın ürəyində çəkdiklərini bu beş ildə mən bilmişəm, daha heç kim.

– Yox, oğlum, gəl məni tovlayıb günaha batırma. Vaxt gələr Qasım əmi özü danışar, öyrənərsən.

Kərəm təkid eləməyin mənasız olduğunu başa düşüb ayağa qalxdı. Bir də ki, təşkilat üzvlərinin zirzəmidə toplaşmaq vaxtına az qalırdı deyə atasını evdən uzaqlaşdırmaq lazım idi.

– Yaxşı, qoy söhbətimiz sonraya qalsın. Deyəsən, Qasım əmiyə sözün var idi. O da səni görmək istəyirmiş, ata.

Kərəmin onların görüşündən xəbərsiz olduğunu başa düşən ağa Həmid dilləndi:

– Sən hardan bilirsən? Olmaya oralara getmisən?

Kərəm güldü:

– Gedəndə nə olar ki, ata? Cavad bizə gələ bilər, mən gedə bilmərəm? Bax bunu səndən gözləmirdim. Mən uşaq-zad deyiləm ki, mənə qadağa qoyursan? Özün demirdin ki, biz qardaş kimiyik? Anam bizi bir-birimizdən seçməyib. Bir yorğan altında yatmışıq? Bir qabdan yemişik? Bir döşdən süd əmmişik.

– Sən məni düz başa düşmədin, Kərəm. Mən elə demək istəmirdim. Qasım ağanın keçmişi ora gəlib-gedənləri də şübhə altına alır, oğlum. Elə mən özüm də çox ehtiyatsızlıq eləyirəm. Həm də qonşuluğundakı erməni ailəsi ona qənim çıxıb. Qasım ağadan, Cavaddan tez-tez danoslar çatdırırlar.

– Sən bunları hardan bilirsən, ata?

Həmid özü də bilmədən yaman yerdə ilişmişdi.

– Geriyə yol yoxdur, – deyə dilləndi. – Atanı bu qədər sadəlövh bilmə, Kərəm. Dünyanın işlərini, bu məmləkətdə edilən haqsızlıqları sizdən əvvəl biz «möminlər» bilirik. Axı biz də dövləti idarədə iştirak edirik. Cuma namazına gələn bir şah sarbazından öyrənmişəm. O da dövlət adamı ola-ola ürəyində bu taxttaca nifrət gəzdirir. Qasım ağanı, oğlunu güddüklərini o mənə çatdırıb bərk-bərk tapşırdı ki, ehtiyatlı olsunlar. Mümkündürsə,

ölkəni müvəqqəti tərk eləsinlər. Bir Allah bilir ki, bizi nələr gözləyir yenə. 1945-1946-cı illərdə ata-babalarınızın acı aqibətini heç vaxt unutmayın, – dedi.

Kərəmi təəccüb götürmüşdü. Gündə neçə dəfə məscidin minbərinə qalxıb əzan verən insanı birliyə, qardaşlığa, haqqın ədalətinə sığınmağa çağıran atası Kərəmin gözündə bir daha böyüdü, başqalaşdı. «Səni indiyə qədər niyə tanıya bilməmişəm, ata, bağışla məni? – Deyə özünü qınadı. Sənin bizim təşkilata çox köməyin dəyə bilərdi. Elə bu gün təşkilat üzvləri ilə məsləhətləşəcəm. İnsanların kütləvi halda toplaşdığı yerlərdə məscidlərdə yaxşı iş aparmaq olardı. İndiyə qədər bu ağlıma niyə gəlməyib?»

Hər ikisi oturduğu yerdən tərpənmək istəmirdi. Həmid dərindən köks ötürdü. Əlini üzünə çəkdi «Allahum-məsəlli-əla Məhəmməd və alihi Məhəmməd», – deyə salavat çevirdi. Allah keç günahımdan... Sonra gec olar, sonra gec olar, – deyə bir neçə dəfə təkrarladı.

– Biz Qasımla bir məhəllədə yaşayırdıq. – Ona təəccüblə baxan Kərəmin əlindən dartıb yaxın otur, demək istədi. – Mən çox gənc idim. Qasım məndən xeyli böyük olsa da, söz-söhbətimiz yaxşı tuturdu. Atam məni yenicə yaranan firqəyə yazılmağa qoymur, özü kimi dini mədrəsədə oxutdurmaq istəyirdi. Qasımın nə işlə məşğul olduğundan xəbərdar idim. Yeri düşdükcə xırda tapşırıqlarını yerinə yetirirdim. Azərbaycan dilində təzəcə açılmış məktəbdə oxumaq arzum səngimirdi. Bir gün də Qasımın bir tapşırığını çatdırmaq üçün firqənin yerləşdiyi binaya gələndə atam məni görmüşdü. Evdə o ki var danladı:

– Biz hara, firqə hara? Bu dinsiz-imansızlar gəlib halal tikəmizə haram qatdılar. Kim bilir, bu azadlıq dediyiniz nəmənədir? Onun sonu necə olacaq? Bu çiynində ulduz gəzdirən kafirlər Arazın o tayını murdarladılar, indi əl qatıblar bura. Onlara çox bel bağlamaq olmaz, bala. O tayda arvadlar kişilərlə bir yerdə başıaçıq, üzüaçıq otururlar. Çox keçməz ki, bizim zənənlərimizə də çarşabsız gəzməyi öyrədərlər. Bax onda dünyanın axırı olacaq, Həmid. Bunu sənə mən deyirəm. Görmürsən cavan uşaqmuşaq məktəblərdə dərs deyirlər, molla, müctəhidləri saya salmırlar? Əslimiz belə, kökümüz belə deyə xalqın balalarını Allah yolundan azdırırlar?

– Ay ata, onların hamısı sarıbaşlardan deyillər ki... Çoxusu dini bir, qanı bir qardaşlarımızdır. Əsgər paltarlılardan neçəsinin diz çöküb, torpağı öpdüklərini gözlərimlə görmüşəm. Onların günahları nədir ki, başqa qurluşda yaşamağa məhkum olublar. Bəs biz necə, ata, Pəhləvi sülaləsinin qayda-qanunları ilə xoşbəxtmi yaşamışıq? Atam dönüb mənə bərk bir şillə vurdu.

– Bu dilləri sənə kim öyrədib, xane xarab (evi yıxılmış)? Sən də onların dili ilə danışırsan. Vay mənim halıma. Sənə çox diqqət yetirməmişəm. Mən sənə Qasımla dostluq etməyi qadağan edirəm. Get, Allah-taalaya ibadətinlə məşğul ol. Arzum səni hörmət-izzət sahibi olan Allah adamı kimi görməkdir. Hazırlığını gör Məşhədə mədrəsəyə gedəcəksən.

Mən qəti etirazımı bildirdim:

– Nə danışırsan, ata, yüz illərdən bəri arzuladığımız azadlıq torpağımıza ayaq basdığı bir vaxtda sən məni buradan hara uzaqlaşdırırsan? Bunu eləmə, ata, yalvarıram. Sənə söz verirəm ki, bir daha Qasımla görüşməyəcəm. Onun işlərindən uzaq duracam, – deyə atamı fikrindən döndərməyə çalışdım.

Həmid ağa bir az duruxdu. Elə bil söznünün ardını gətirməyə çətinlik çəkirdi. Tez-tez qapıya, pəncərəyə boylanır, kiminsə eşidəcəyindən ehtiyatlanırdı. Kərəm söhbətin yenə yarıda qırılacağından qayğılanaraq:

– Narahat olma, ata, heç kəs bizi eşitmir.

Amma Kərəmin özü çox narahat idi. Necə olursa-olsun atasını evdən bir yana uzaqlaşdırmalı idi. «Nahaq yerə bu söhbəti başladım», – deyə yenə özünü danladı. Çünki dostları evlərinin zirzəmisində toplaşmağa söz vermişdilər. Həmid kişinin bundan xəbəri yox idi. Yoxsa buna yol verməzdi. O, hələ də ata-anasının aqibətində özünün günahkar olduğunu unutmamışdı. Rza şah qan töküb təzədən hakimiyyətdə möhkəmlənəndən sonra onun Qasımla əlaqəsinə görə atasını tutmuşdular. Həmid əyalətdən-əyalətə keçib xeyli gizləndi. Günahsız, mömin bir bəndəni uzun müddət zindanda saxlayandan sonra azad etdilər. Atası həbsdən çıxandan sonra çox yaşamadı. Vərəm xəstəliyindən dünyasını dəyişdi. Bərk döyülən anası ruhi xəstə kimi uzun əzablardan sonra həyatdan getdi.

Həmid indiyə qədər onun günahını özündə görür, əzab çəkir-

di. Odur ki, yeganə oğlu Kərəmi bu yoldan daşındırmağa çalışırdı. «Qoy nə olur, mənə olsun, təki Kərəm sağ-salamat qalsın. Bu yolda çox qurbanlar vermişəm. Oğlumu vermərəm».

Həmid kişi bir neçə dəfə boğazını artladı. Boğulan adam kimi köynəyinin düyməsini açdı.

– Kor olsun belə zəmanəni ki, biz yaşayırıq. Bizdə nə etibar qoyub, nə də dostluq.

Başını qaldırdı oğlunun üzünə maddım-maddım baxdığını görüb sözünə davam etdi.

– Mən o vaxtları Qasımın harada olduğunu da bilmirdim. Çətin zamanlar idi, getsin, bir də gəlməsin. Şimali Azərbaycana keçdiyini xeyli sonra öyrəndim. Küçələr insan sallaqxanasına dönmüşdü. Hər tərəfdə dar ağacları qurulmuşdu. Fədailəri izləyib tapır, camaatın gözü qarşısında edam edirdilər. Xüsusilə, dərs deyən müəllimlərə, demokratlara kömək eləyənlərə, elm sahiblərinə, inqilabın əsas aparıcılarına aman vermirdilər. Ailəlikcə məhv edirdilər. Vaxtında xəbər tutan bir qrup fədai ailələri ilə birgə Şimali Azərbaycana pənah aparmaqla ölümdən yaxa qurtardılar. Mənim də başım az müsibət çəkmədi. Biz Qasımla Arazın o tayından qayıdandan sonra yenidən rastlaşdıq. Az-az görüşsək də, dostluğumuza xələl gəlməmişdi. Aramızdakı münasibət əvvəlkindən də möhkəm olmuşdu. Eh, oğul, bir adamın bəxti gətirmədisə, demək axıra qədər gətirməyəcək. Çətini bədbəxtlik qapısını tanıyana qədərdi. Qasımın əsl bədbəxtliyi Bakıdan gətirdiyi ömür-gün yoldaşı Fatma ilə başladı. Fatma qəflətən yoxa çıxmışdı. Qasımı günahlandırıb yenə həbs etdilər. Anan Cavadı öz balası kimi böyüdürdü. Mən də meylimi ona salmışdım. Sən də balaca idin. Elə bilirdim, iki oğlum var, uşağı bəhanə eləyib məni də tutdular. Həbsdən qayıdandan sonra Fatmanı bütün məmləkətdə axtardım. Gördüm deyən yox idi. Binəva sanki yer yarılıb yerə girmişdi. Döymədiyim qapı, soraqlamadığım tanış-biliş qalmamışdı. Amma inadımdan dönmürdüm.

Ola bilməz ki, canlı insan yoxa çıxsın, ondan bir iz qalmasın. Hardasa təsadüfə, ya elə möcüzəyə ümid bağlayırdım. Bu ümidlə yaşayırdım. Qasımı gözləyirdim. Həm də uşaqları köməksiz, dayaqsız qoyub, evdən çıxıb harasa getməyə qorxurdum. Cavad gəlişi ilə evimi sanki bahara döndərmişdi. İçimdə Fatmalı bir

dünyam var idi. Bu adı səssiz-səmirsiz dilimə gətirib özüm deyib, özüm də eşidərdim. İç dünyam məhəbbətlə, nəvazişlə dolu idi. Onu hər dəfə Cavadın qara gözlərinə, azca xınayı saçlarına baxanda daha çox hiss edirdim. O məhəbbəti Cavadın gülüşündə, qığıltısında duyurdum. Anan bəzən qəribə nəzərlərlə məni süzür, tez-tez haldan-hala düşdüyümü görür, bunu dostuma üz verən bədbəxtlik ilə əlaqələndirərək acı-acı gülürdü. Zahirən özümü toxdaq göstərsəm də, əslində fikrim, xəyalım itgin düşən Fatmanın yanına qanadlanırdı.

Ağa Həmid sözünə ara verib bir az duruxdu. Xəyal yenə onu köhnə xatirələrin ağuşuna atdı. O anları, saatları təzədən yaşadı.

* * *

Gecənin səhəri, qaranlığın işığı olduğu kimi, təbiətin yenə bahardan sonra günəşli yayı gəlmişdi. Günortanın cırhacır vaxtı idi. İçəridə bürküdən oturmaq olmurdu. Kölgələnmək üçün hamı həyətdəki iri gövdəli ağacın altına yığışmışdı. Ərik ağacının yarpaqları arasından təzəcə saralmağa başlayan meyvələrlə dolu, bir qədər də pəncərəyə doğru əyilən yoğun budağından yelləncək asılmışdı. Cavadla Kərəm yelləncəkdə növbə ilə yelləndikcə, Həmid ağanı xoş xəyallar çəkib aparır, yan tərəfdəki ləklərdə əkdiyi həmişəbahar güllərini oxşayırdı. Fatma onları görəndə necə sevinmişdi, İlahi? Lakin üstünə əyilib çiçəkləri sığallayasığallaya qoxlamış, sanki məst olmuşdu. Həmid ağa o mənzərəni gözlərinə çəkmişdi. Ona elə gəlirdi ki, o gülləri Fatma öz əlləri ilə əkib. Onun ləçəklərində Fatmanın əllərinin izi qorunub saxlanır. Həmid ağa təkrar aşağı əyiləndə hasarın başında dayanıb bu mənzərəyə maddım-maddım baxan Qasımı görüb yerində donub qaldı. Ağlayacağını, ya güləcəyini kəsdirə bilmirdi. Qasımı həbsdən buraxmışdılar. Bundan gözəl nə ola bilərdi o gün?

Elə bil o hadisə indicə, bu saat baş vermişdi. Ağa Həmid əllərini irəli uzadıb özünü Kərəmə tərəf atdı. Onu bərk qucaqlayıb sinəsinə sıxdı. Kərəmə verdiyi vədi yerinə yetirmək üçün özünü ələ aldı. Kərəm nə baş verdiyini, atasının hərəkətlərindəki qəribəliyi heç yana yoza bilmirdi.

– Hə, oğlum, Qasımı cəhənnəm dediyimiz həbsdən buraxandan sonra da, ona dinclik yox idi. Həm Fatmanın yoxluğu, həm

yerli-yersiz şübhəli adam kimi izlənməsi onu lap əldən salmışdı.

Qasımla məsləhətləşib birtəhər Tehrana getmək qərarına gəldik. Ümid edirdik ki, bəlkə, ondan bir xəbər tuta bildik. İnsanlar elə bil daşa dönmüşdülər. Başqasının dərdinə biganəlik qanlarına, canlarına işləmiş adamlardan bir kömək gözləmək özü ağılsızlıq idi. Odur ki, Tehranda kasıb bir məhəllədə müvəqqəti ev kirayələdik. Günorta bir şey alıb yemək məqsədilə qəlyanaltı deyilən yerə girmək istəyirdik ki, anamın uzaq qohumlarından olan bir nəfərlə rastlaşdıq. Onu görən kimi tanıdım. O da eynəyini çıxarıb üzümə diqqətlə baxdı. Onu uşaq vaxtı çox görmüşdüm. Sonralar Təbrizdən köçüb Tehranda yaşadı. Görüşə bilmədik. Milli hökümətin yıxılması ilə bahəm çox ziyalılar Təbrizi tərk eləyib mərkəzə qısılmışdılar. Özlərini təhlükəsiz yerə vermişdilər. Qulamrza əmi elələrindən olmasa da, onunla aramızda anlaşılmaz bir soyuqluq yaranmışdı. Gediş-gəlişimiz də seyrəlmişdi. Qulamrza əmi insafən mənimlə çox isti görüşdü.

– Mən burada ola-ola niyə başqa yerə düşmüsən, ay saqqalı ağarmış? Yoxsa elə indicə gəlmisən? Rəhmətlik anan sağ olsaydı, bunu mənə bağışlamazdı. Biz özgə deyilik ki... Dağılmış zəmanə həmişə olduğu kimi bizi məmləkətin hər tərəfinə səpələdi. Birbirimizdən ayrı düşdük. Vəzifə borcu məni Təbrizdən aralayıb bu ilan yuvasına saldı. Nə isə... Hara düşmüsən, get bu saat yığış, gəl evə.

– Ev kirayə eləmişik, – deyəndə Qulamrzanı elə bil od götürdü.

– Bu cavanlar niyə belə sözəbaxmaz olublar, bilmirəm? Başına gələnlərdən az-çox xəbərim var. Bir-birimizdən belə uzaqlaşdıqca bizi ayırıb parça-parça udurlar da...

O bu sözləri aşağı tonda elə dedi ki, özündən, məndən başqa heç kəs eşitmədi.

– Get, bu saat yığış, gəl evə. Şəmsiyyə xanım da çox sevinəcək.

– Yox, Qulamrza əmi, mən bir vacib iş üçün gəlmişəm. Sizə əziyyət vermək istəmirəm. Həm də mən tək deyiləm. Dostum Qasım da mənimlədi.

O, etiraz elədi:

– Bax, bu mənim ev, bu da iş ünvanım. Bu yaxındakı hüquq

məsləhətxanasında işləyirəm. Dostun da mənim əziz qonağımdır. Çoxdandır ki, qapımızı qonaq döymür.

Onun hüquqşünas olduğunu biləndə ürəyimdə qəribə ümid oyandı. Bəlkə, bizə köməyi dəyər, – deyə fikirləşdim. O, bir də geri döndü:

– Nə iş üçün gəlmisiniz, evdə məsləhətləşib yoluna qoyarıq.

Qulamrza işlədiyi binanı bizə göstərib əl əsasına söykənə-söykənə uzaqlaşdı. O, çox qoca deyildi. Ortaboy, dolu bədənli, qıvraq adam idi. Sol ayağını bir az çəkirdi. Başındakı qara bireti, əlindəki çantası onu çox işgüzar adam kimi göstərirdi. Bu görüş, doğrusu, ürəyimcə oldu. Axşam Qasımı da götürüb onlara getdim. Şəmsiyyə xanım türk qadınlarına məxsus qonaqpərvərliklə bizi qarşıladı. Görünür, Qulamrza əmi ona xəbər vermişdi. Yaxşı süfrə açmışdı Şəmsiyyə xanım. Süfrədən sonra o bizi iş otağına dəvət elə. Başımıza gələnləri bütün təfsilatı ilə öyrənib xeyli fikrə getdi...

– Siz çox qəliz və çətin işə düşmüsünüz, – deyə, nəhayət, dilləndi. Bilirsiniz ki, o taydan (o Şimali Azərbaycanı nəzərdə tuturdu) gələnlərin hər biri ilə casus kimi rəftar edirlər. Nə edək ki, bu çürük cəmiyyətdə yaşayırıq. Mənim bir neçə türmədə tanışlarım, dostlarım var. Bəlkə, bir iş görə bildik.

Bir neçə gün səbirsizliklə gözlədik. Deyəsən, Qulamrza əmi Fatmanın izinə düşə bilmişdi. O anda Qasımın göz yaşlarını görməyin özü elə bir əzab idi. Qulamrza əmi də kövrəlmişdi. Qadın həbsxanasının müdiri bizi görüşdürməyi boynuna almışdı. Deyilən vaxtda ora getdik. Bu üç ilin ərzində insan necə dəyişilərmiş, İlahi! O, barmaqlıqdan əlini uzadıb yalvarırdı:

– Məni buradan qurtar, Qasım! Məni niyə axtarmırdın, əzizim? –Onun iri qara gözlərindən, ağ, göyçək sifətindən əsər-əlamət qalmamışdı. Üzünü dəmir barmaqlığa söykəyib elə göz yaşları tökürdü.

– Necə axtarmırdım, Fatma? Mən səni bu məmləkətin hər tərəfində axtarmışam. Məni, Həmidi də tutmuşdular.

– Oğlum necədir, Qasım? Yəqin ölüb, elə deyilmi?

– Yox, nə danışırsan?

Göz yaşı Qasıma danışmağa imkan vermirdi. Tez-tez üzünü yana tutur, qəhərini udmaq üçün boğazını artlayırdı. Ona elə

gəlirdi ki, əlini barmaqlıqdan buraxan kimi Fatma yox olacaq. Qasım dərin bir uçurum qarşısında dayanmışdı elə bil. Mənim nitqim tutulmuşdu. Fatmanın göz yaşlarına dözə bilmirdim. Onu mən məhv elədim, mən, – deyə özümü hönkürüb ağlamaqdan güclə saxlayırdım. Fatma sualları bir nəfəsə yağdırır, mümkün qədər çox cavab almağa çalışırdı. Əlində rezin dəyənək üzgözündən zəhər tökülən nəzarətçi qadın tez-tez o baş- bu başa gedir, onu tələsdirirdi. Qasımı qorxudan Fatmanın fars dilini pis bilməsi idi. Qadın əlinin biri ilə belinə bağladığı qayışa bərkidilmiş tapançadan, birilə də dəyənəkdən yapışmışdı. Başlarının üstünü elə kəsdirmişdi ki, artıq bir söz danışmaq da mümkün deyildi. Qasım qorxurdu ki, Fatma elə indicə Azərbaycan dilində nə isə soruşacaq. Bunun da cəzasını Qasım yaxşı bilirdi. İran türmələrində bir qayda var idi. Hamı fars dilində danışmalıdır. Ər arvadıyla, uşaq anası ilə bir kəlmə öz dilində danışsa, şallaqlanardılar. Qasım buna yaxşı bələd idi. Üstəlik də Qulamrza tapşırmışdı:

– Artıq-əksik sözlə qızın cəzasını ağırlaşdıra bilərsiniz, Qasım, ehtiyatlı olun!

Görüş otağının ağır havası, divarlardan gələn nəmişlik, natəmizlik qoxusu adamı boğurdu. Fatmanın əynindəki yarıcırıq-sökük köynəkdən göyərib, qızarmış əti görünürdü. Elə bil döyülüb qançır olmuşdu. Fatmanın danışığında da bir nizamsızlıq hiss olunurdu. Yuxulu adamı xatırladırdı Fatma. Bu, gendə dayanıb onları gözü ilə müşayiət eləyən Həmidin də gözündən qaçmadı. Həmidin ürəyindən bir ağrı qopub canına yayıldı. Qasıma yazığı gəldi.

«Gör yazıq qızı zəhrimarla nə günə qoyub bu alçaqlar», – deyə ürəyindən ağır bir sızıltı keçdi. Fatma tez-tez əlini üzünə, alnına çəkir, əsəbləşir, dəmir barmaqlıqdan tutduğu əlləri əsirdi. Onu başa düşmək o qədər də çətin deyildi. Qasımın nitqi tutulmuşdu sanki. Vaxtın az olduğunu başa düşən Fatma dilləndi:

– Səndən oğlumuzu soruşdum, Qasım, Allah eşqinə oğlumdan bir xəbər ver! Bu ağır, uzun gecələrdə onun xiffətini necə çəkdiyimi bir Yaradanım bilib, bir də bu zalım.

Yumruğunu bir neçə dəfə sinəsinə çırpdı Fatma. Mənə elə gəlirdi ki, Qasıma da məhəl qoymadan indicə sıçrayıb onun bar-

maqlıqdan yapışan əllərindən öpəcəm, bağışlanmaq üçün yalvaracam. Özümü çətinliklə ələ alıb üzümü yana çevirdim.

– Səndən bir ricam var, Qasım, söz ver ki, yerinə yetirəcəksən, – deyə yalvarıcı nəzərlə üzünə baxdı.

Mən diksinən kimi olub özümü ələ aldım. Fatma mənə məhəl qoymadan Qasımın əllərini sığallaya-sığallaya yalvarır, qurumuş dodaqlarını dililə isladırdı.

– Nə xahiş eləsən, bəşeşm,(gözüm üstə), mənim əzizim,- deyib nəzarətçinin keçməyini gözlədi, Qasım.

– Əgər bir vaxt mümkün olsa, oğlumu Bakıya apar, anamla, bacımla görüşdür. Mən yəqin ki, buradan sağ çıxmayacam. Belə tale yaşamağımda sənin günahın yoxdur.

– Nə danışırsan, Fatma, sənə Tehranın ən məşhur vəkilini tutacam. Qulamrza əmi mənə söz verib. Sən evimizə, oğlunun yanına qayıdacaqsan. Sağ olsun Həmidin arvadı Zeynəbi, ona əsl analıq edir. Biz yenə xoşbəxt olacağıq, görərsən. Ümidsizlik səni də mənim kimi məhv eləyər, əzizim. Axı sən çox möhkəm insansan. Oğlumuz da sənə oxşayır. Qapqara gözləri, uzun kirpikləri mənə səni xatırladır. Elə şirin danışır ki, Fatma.

Qasım ağa onun könlünü alıb ovundurmaq məqsədilə güldü.

– Eh, o xoşbəxt günləri geri qaytarmaq bir də mümkün olsaydı... Sözümü kəsmə, əzizim. Bəlkə, görüşməyimiz bir də qismət olmadı, diqqətlə qulaq as!

– Danış-danış, səni eşidirəm, Fatma. Çoxdandı səsinə həsrətəm. Sözünə-söhbətinə tamarzıyam, əzizim.

Qasım dörd tərəfə baxa-baxa Fatmanı tələsdirirdi.

– Söz ver ki, başıma gələnləri Cavada danışmayacaqsan. Mənim hansısa bir qəzadan öldüyümü deyəcəksən, yalvarıram sənə. Söz ver, söz ver, Qasım. Bəlkə, bu mənim son xahişimdir. Kim bilir...

Qasım danışmaq iqtidarını itirmişdi sanki. Fatmanın barmaqlıq arasından uzatdığı əlini fasiləsiz öpür, ağlayırdı.

– Qulamrza dediyin kimdir, Qasım, o, mənə kömək edə biləcəkmi? – Deyə Fatma ümidlə dilləndi.

– Əlbəttə, Fatma, Qulamrza Tehranda ən mötəbər vəkillərdən biridir. Həm də Həmidin qohumudur. Biz elə nə vaxtdır onun evində qalırıq. Sağ olsun, bizə böyük qayğı göstərdi. Yaxşı adamlar hələ var, Fatma, buna inan. Sənin burada olduğunu da

o bizə xəbər verdi.

Qulamrza adını çəkər-çəkməz nəzarətçi bir az yaxın gəldi. Fatma danışığına nəzarəti itirmişdi. Azəri dilində elə hey danışır, suallar verirdi. Qasım ona mane ola bilmirdi. Nəzarətçi qadın cəld geri döndü. İndicə nə isə baş verəcəyini başa düşürdük. Qorxudan, təəccübdən Qasımın gözləri böyümüşdü. Əllərini ovuşdurur, bəzi işarələrlə Fatmaya nə isə qandırmaq istəyirdi. Mümkün olmurdu. Bayaqdan göz yaşları tökən lal adamlar kimi gah Qasımın, gah da mənim üzünə baxan Fatma elə coşmuşdu ki, nə dediyini özü də bilmirdi. Nəzarətçi qadın əlindəki rezin dəyənəyi onun başına, kürəyinə elə çırpdı ki, burnundan açılan qan Fatmanın üz-gözünü boyadı. Əlləri boşalıb barmaqlıqdan üzüldü. Yerə çöküb çabaladı. Qasım sinəsi ilə dəmir barmaqlığı az qalırdı dağıda. Onu sürüyüb apardılar.

– Qatillər, cəlladlar, allahsızlar – deyə-deyə Qasım başına, sinəsinə yumruqlayırdı. Uşaq kimi yerə çöküb hönkürürdü. İkinci nəzarətçi o yan-bu yana boylanıb dilləndi:

– Tez olun, tərk eləyin buranı, yoxsa sizi də həbs eləyib apararlar. Bunu əzəldən düşünmək lazım idi. Rus «casusu»nu özünə arvad eləyəndə, bu məmləkətin qanunlarını bilmirdin?

Qasım özündə deyildi: – Bu torpaqlar bizim dədə-babalarımızındır, öz dilimizdə danışmağa haqqımız var, – deyə-deyə özü öz əli ilə özünə ölüm fərmanı yazırdı.

Qeyzlənmiş nəzarətçi tez kiməsə zəng vurub bizə sarı döndü:

– Nə qədər fikrimi dəyişməmişəm, rədd olun buradan! O qırmızı bolşevik casusunun yeri fahişəxanadır. Buna nail olsa, Allahına şükür elə. Hələliksə...

Qasım dəli adamlar kimi yumruqla barmaqlığı döyürdü.

– O, fahişə deyil, sözünə sərhədd qoy, sən də qadınsan, sən də anasan, Allahdan qorx. Onu heç bir şeyə məcbur eləyə bilməyəcəksiniz. Bu zülmü ki, mən çəkirəm, hamımız üçün bir olan Allah da bunu götürməz. Siz qanun keşikçiləri deyil, buyruq qulusunuz, cəlladısınız!

Nəzarətçilər çoxalmışdılar. Onu həbs edə bilərdilər. Qasımın çiyinlərindən tutub silkələdim:

– Qasım, tez ol, çıxaq bu xarabadan. Səni həbs eləsələr, Cavad necə olacaq, bunu unutmusan? Anadan yetim qalan körpəni,

atasından da məhrum eləmək istəyirsən? Qulamrza əmi bizə nə tapşırmışdı, yadından çıxıb? İnşallah, məhkəmə haqqı-nahaqdan ayıracaq, görərsən, ümidini Allaha bağla.

O ağlaya-ağlaya dartındı:

– Məhkəmə, məhkəmə... Sən hansı məhkəmədən danışırsan, qardaş? Ata-anamı sübutsuz, şahidsiz dar ağacından asan məhkəmədənmi mərhəmət gözləyirsən? Üç ildir gizli zindanlarda işgəncə verilə-verilə saxlanılan o binəvanın günahını üzünə oxumayan məhkəmələrdən nə gözləmək olar, mənə cavab ver, səndən soruşuram? Onun əvvəllər ruhi sarsıntı keçirdiyini bilirdim, – deyə yavaşca dilləndim:

– Səni başa düşürəm, Qasım, bu ittihamların yeri bura deyil. Evdə hər şeyi aydınlaşdırarıq.

Qasımı az qala kürəyimə alıb sürümək məcburiyyətində qalmışdım. Əgər Qulamrza əminin tapşırdığı adam vaxtında gəlib çıxmasaydı, Allah bilir nələr olacaqdı. Çıxış qapılarının bağlandığını öz gözlərim ilə görməsəydim, bu qənaətə gəlməzdim. Nəzarətçilər əllərindəki telsizlə bir-birinə işarələr verir, kimə isə məlumat çatdırırdılar. Hər tərəfdən üstümüzdə göz var idi. Necə oldusa kənarda dayanan orta yaşlı nəzarətçi yaşına yaraşmayan cəldliklə qapını açıb bizi çölə itələdi:

– Sizi çöldə taksi gözləyir. Uzaqlaşın buradan, məni xətaya salarsınız! Gələn dəfə vəkilsiz iş görməyin. Yaxşı vəkil bu bədbəxt qızı müdafiə eləyib buradan çıxara bilər. Qulamrza ağadan bərk yapışın.

Nəzarətçi qapını bağlayanda rahat nəfəs aldım. Qasım özündə deyildi.

– Mən ölmək istəyirəm, öldür məni, Həmid, öldür. Mən ona bir kömək eləyə bilmirəmsə, niyə yaşayıram? Kimə gərəkdir belə ömür, belə yaşamaq? Ona məhəl qoymadan bizi gözləyən maşına sarı itələdim.

– Yox, belə danışma, Qasım! Acizlik qorxaqlıqdır. Biz elə bu gün Ərdəbilə qayıdıb, nə varsa, satarıq. Bir az pul toplayıb vəkil tutarıq. Fatmanı nəyin hesabına olur-olsun oradan çıxartmaq əvəzinə, özünə ölüm axtarırsan. Ölümü vaxtsız qəbul etmək acizlərin işidir. Bunu Allah-taala insan əhlinə haram buyurub, Qasım. Sən axı bunları yaxşı bilirsən.

– Mənəm günahkar, onu gətirib bu cəhənnəmin içinə özüm atdım. Onsuz necə yaşayacam? – Deyə Qasım başına aramsız döyür, ağlayırdı.

– İndi günahkar axtarmağın vaxtı deyil, tez ol, o qapısı açıq maşın, deyəsən, bizi gözləyir. Biz həbsxananın divarlarından burulmamış dalımızca qara şüşəli maşın da tərpəndi. Belə olacağını əvvəldən başa düşmüşdüm.

«Yağışdan çıxdıq, yağmura düşdük»,- deyə narahatçılıq içində qovrulurdum. Bunu Qasıma bildirib, onsuz da, pozulmuş ovqatını bir az da korlamaq istəmirdim. Allahın kəraməti böyükdür, bizi darda qoymaz, – deyə özümə təskinlik verirdim. Hərdən gözucu arxaya baxır, zənnimdə yanılıb-yanılmadığıma əmin olmaq istəyirdim. Yox, mən yanılmamışam, bizi açıq-aydın izləyirdilər. Sürücü də, bunu başa düşmüşdü. Maşını dar küçələrə,dalanlara salıb onları azdırmağa çalışırdı. Bizi deyilən mənzilə aparıb Qulamrza ağanı xətaya salmaq istəmirdi. Odur ki, qara şüşəli maşının ondan əl çəkmədiyini görüb əhalinin daha sıx olduğu dükanların qabağında əylədi. Qara maşın da eyni vaxtda dayandı. Bizi izlədiklərinə daha şübhə yeri qalmamışdı. Eşitsinlər deyə sürücü acıqlı-acıqlı bərkdən dedi:

– Maşından düşün, pulunuz yoxdur minməyəydiniz?! Mən kasıb babayam, sizi pulsuz gəzdirməyə borclu deyiləm.

Sonra pıçıldadı:

– Yaşadığınız evə getməyin, tez adamların arasına girib yox olun. Bu şəhərdə adam itirmək asan, tapmaqsa çətindi. Tanrı köməyiniz olsun!

Həmid ağa olub-keçənləri xatırladıqca boğulub təngənəfəs olan adamlar kimi ağır-ağır nəfəs alırdı. Oğlunun üzünə baxmadan su dolu dolçanı başına çəkib yerə qoydu. Kərəmə elə gəldi ki, atası indicə hönkürüb ağlayacaq. Kərəm özü də çaşbaş qalmışdı. Bu söhbəti salıb təşkilatın işini pozduğuna görə peşmançılıq çəkirdi.

– Axı burda nə var ki, atam bu qədər həyəcan keçirir? – Deyə öz-özünə sual verir, cavabsız sualların doğru-düzgün cavabını atasından gözləyirdi. Bir belə vaxt keçsə də, atası hələ əsl mətləb üstünə gəlməmişdi. Həmid oğlunun narahat olduğunu görüb təkrar dilləndi:

– Ay oğul, elə bil qara tikan üstündə oturmusan, çox narahatsan. Bəlkə, gedəsi bir yerin var? Bir işin varsa de,mən səni başa düşərəm. Bu anan harda qaldı, bizə bir fincan çay verəydi?

– Yox, ata, gedəsi yerim yoxdur, narahat olma. Söhbətimiz harda qaldı?

Kərəm arabir içəri girib-çıxan, atasının xırdavat dükanında işləyən Müzəffərə qandırdı ki, yoldaşlarına xəbərdarlıq eləsin.

– Bu gün özümü pis hiss eləyirəm, Müzəffər, bəlkə, qaçıb davaxanadan bir başağrısı davası alıb gətirəsən?

Müzəffər bunun nə demək olduğunu başa düşmüşdü. Tez geyinib çölə çıxanda artıq gecənin zülməti küçə və dalanlara çökmüşdü. Göz-gözü görmürdü. Küçə dirəklərinə bərkidilən lampaların zəif işığı belə zülmətin içində itib batırdı. Müzəffər addımlarını yeyinlədib dalandan çıxdı. Nisbətən geniş küçəni görəndə sevinən kimi oldu. Küçələrdə adam seyrəlmiş, gediş-gəliş azalmışdı. Müzəffər onun dalınca kiminsə gəldiyini hələ Həmid ağanın evindən çıxanda duymuşdu. Fikrini qətiləşdirmək üçün balaca bir dükanın qabağında ayaq saxladı. Satıcı yır-yığış eləyib dükanı bağlamaq istəyirdi.

Müzəffər salam verib içəri keçmək istəyəndə xozeyin dilləndi:

– Yox, yox, qardaş, daha gecdir məndən heç nə istəmə. Mənim də ailəm-uşağım var. Evimə getməliyəm. Allah kəssin belə günü-güzarnı. Səhərdən axşama qədər ayaq üstə işlə, evinə, balalarına bir girvənkə şəkər aparmaq üçün qazanc eləmə?

– Yox, qardaş, mən elə bir şey istəmirəm. Mümkünsə bir çörək ver. Bu gün işdən gec çıxmışam, çörək almağı unutmuşam, – deyə Müzəffər duruxdu.

– Ay pir olmuş, gecənin bu vaxtına çörək qalar? Camaat yatmağa hazırlaşır, sən indi çörək alırsan? Görürəm, sən də mənim kimi muzdurun birisən. Allah xətrinə, incimə, qapını bağlamışam, açа bilmərəm.

Satıcının danışığı Müzəffəri qane edirdi. Məqsədi dalınca düşən güdükçüləri azdırmaq idi. Yox, deyəsən, Müzəffər tələyə düşmüşdü. Ondan on-on beş addım irəlidə dayananlar getmək fikrində deyildilər. Müzəffərin ürəyi döyündü. Tapşırığı çatdıra bilmədiyinə təəssüflənə-təəssüflənə satıcıya razılıq edib küçənin o tayına keçdi. Tək-tük ötüşən şəxsi maşınlardan savayı ətrafda bir

inni-cinni görünmürdü. Ayaq səsləri yaxınlaşdıqca Müzəffərin olan-qalan ümüdi də yoxa çıxırdı. Əlini bir taksiyə qaldırdı. Taksi on beş-iyirmi metr gedib dayandı. Müzəffər var gücünü toplayıb taksiyə tərəf yüyürdü. Təəssüf ki, çata bilmədi. Ayağı nəyəsə ilişdi, üzü üstə asfalta sərildi. Arxadan yetirənlər vəhşi pişik kimi üstünə atıldılar.

Boynunun dalından vurulan zərbədən huşunu itirdi. Onu sürüyüb maşına atdılar. Taksi sürücüsü donub qalmışdı. Maşını saxladığının peşmançılığını çəkirdi. Bir də ölü kimi maşına atılana yazığı gəlirdi. Bu sahibkarın maşınını sürən Namaz idi. Hərdən bir də maşından taksi kimi istifadə eləyib çörək pulu qazanırdı.

Görən, nə günahın yiyəsidi bu yazıq? İndi ara elə qarışıb ki, haqlı-haqsız bilinmir kimdi? Maşını tərpətməkdən başqa çarəsi qalmamışdı. Boynunun dalına dirənən silahın soyuq lüləsi canına üşütmə saldı. Hündür qara şüşəli binanın darvazası ağzına çatanda saxla əmrini alan sürücü hər şeyi başa düşdü. Nəzmiyə idarəsinə gətirilən kim isə dəyərli bir adamdı, – deyə Namaz yoldaşlara bu xəbəri çatdırmaq üçün tələsdi.

* * *

Həmid ağa təkrar çay istəyəndə Kərəm anasının yatdığını yoxlamağı bəhanə edib, ayağa qalxdı. Evin həndəvərini dolanıb geri döndü. Müzəffərin gedişindən çox narahat idi. Elə bil bəd xəbər eşidəcəyi ürəyinə dammışdı. Lakin hər tərəfdə sakitlik hökm sürürdü. Evin arxasına dönüb gözlədi. Şübhəli heç nə yox idi. Qonşular da yatmışdı. Kərəm Müzəffərin belə gec gəlməyindən çox qayğılandı. Öz-özünə deyindi:

– Uzun illərdən bəri bu barədə bir kəlmə də danışmayan atam, gərək elə bu axşam dillənəydi? Gör nə qədər işimiz tökülüb qaldı. Cavaddan da bir xəbər yoxdur. Çox narahatam, yoldaşların başında, bəlkə, bir qəza var? Belə bir şey olsaydı, bura da gələrdilər. Bura gəlməyiblərsə, demək, narahatçılığa ehtiyac yoxdur. Şükürlər olsun ki, atam bizim gördüyümüz işlərdən hələ xəbər tutmayıb. Ümid edirəm ki, Cavad da evdə bir söz danışmaz. Amma yoldaşlarımızın bir-bir yoxa çıxması, nə isə vəziyyətin yaxşı olmadığından xəbər verir. Ehtiyatlı olmalıyıq.

Kərəm haradan biləydi ki, elə bu hadisələrin əsas mərkəzində

duran atası, bir də Qasım ağa elə özüdür. Şah sərbazının xəbər gətirib – aparması da umid verir ki, yuxarılarda da rejimə qarşı duranlar var. Bax bunun özü çox yaxşı oldu. İndi ki belə oldu, atamın yanına qayıdıb söhbətimizi başa vurmalıyam. Çöldən tələsik özünü içəri salan Kərəm, əlində iki fincan çay atasının otağına girdi.

Həmid dünyagörmüş adam idi. Oğlunun narahat girib-çıxmasının səbəbi ona gün kimi aydın idi. Amma üzə vurub, sözü qabartmaq istəmirdi. Bəlkə, bu tufan bizə heç toxunmayıb, yan keçəcək. Şah sərbazının danışdıqlarının hamısını oğluna deyə bilməzdi, Həmid ağa. Cavandı, çox şeyi bilməsə, yaxşıdır. Hər ehtimala qarşı Əfqanıstanda və sovet Özbəkistanında neçə adamın ünvanını da götürmüşdü. Daha doğrusu, əzbərləmişdi. Hər bir kağız parçası sübut ola bilər deyə ehtiyatsızlıq eləmək istəmirdi. Bəzi planlarını Qasımla da götür-qoy eləmişdi. Hər gün məcsidə gəlib-gedənlərə göz qoyur, cavanların gizli söhbətlərinə fikir verirdi Həmid ağa. Onların çoxusu da ondan məsləhət alırdılar. Kərəmin bundan xəbəri yox idi. Əfqanıstanda şahlıq rejimi dağılandan sonra İranın iri və xırda şəhərlərində bir çaxnaşma var idi. 1978-ci ilin sonu yaxınlaşırdı. Hökümət də açıq-aydın narahatlıq keçirir, güman gedən yerlərdə axtarışlar aparılır, şübhəli hər kəsi tutub zindanlara doldurur, işgəncələr verirdilər. Bununla xalqın gözünü qorxutmaq, laxlamaqda olan Rza şah hakimiyyətini nəyin bahasına olursa-olsun saxlamağa çalışırdılar. Təbrizi, Rəşdi, Ərdəbili, İsfahanı inqilab dalğası bürümüşdü. Kükrəyib daşmaqda olan xalq qəzəbinin qarşısını almaq mümkün deyildi. Amma Rza şah taxtını devirmək, hakimiyyəti din xadimlərinin əlində birləşdirmək kimi çağırışlar nə Qasımın, nə də Həmidin ürəyincə idi. Gənc nəsil daha demokratik bir cəmiyyət arzusu ilə çıxışlar edirdi. Bunun acı nəticələrini həm Həmid, həm də Qasım elə bil indidən görürdü. Öz övladlarını quduzlaşmış rejimin caynağından qurtarmaq üçün onları təhər-töhmət eləsələr də, əslində hər ikisi ayrı-seçkilik salıb, hər vəchlə alçaldılıb təhqir olunan xalqın say-seçmə oğullarının başına açılan oyunların şahidi olmuşdular. Hər ikisi günahsız yerə ata-analarını itirmişdilər. Hərdən Həmid fikirləşirdi.

«Öz yurdumda niyə qaçqına dönüb, qürbət ölkələrə pənah

aparım? Bu nə qədər davam edəcək? Torpağımızın bu başından-o başına qaçıb demokratlar adı ilə qırmızı bolşevik hökümətinin nəzarəti altında yaşamaq kimi ağır işgəncə nədən taleyimizə yazılıb? Bu sualları öz-özünə verib heç bir cavab ala bilmirdi. İndi nə etməli, geriyə yol yoxdur. Kaş Kərəmi, Güllünü qoruya biləydim. Bu qorxulu yoldan onları qaytarmaq mümkün olacaqmı? Hələ Qasımla söhbətlərini oğluna deyib onu duyuq salmaq istəmirdi Həmid. Hər ehtimala qarşı bəzi hazırlıq işlərini də görmüşdü. Bu gün-sabah ata olacaq oğlunun od-ocağına su calamaq istəmirdi. Körpə uşaqla yad qapılarda qalmaq çox çətin olacaq. Adam ölsə də, öz yurd-yuvasında ölsün, deyirdi.

Əlində çay içəri girən Kərəmin gəlişi də onu fikirdən ayıra bilmədi.

– Yaman fikrə getmisən, ata. «Yüz fikir bir borsu ödəməz», – deyiblər. Səni narahat edən nədirsə, bəlkə, mənə də deyəsən, ata?

Deməsəydi kim bilir Həmid acılı-ağrılı keçmişini, indi baş verənləri çözələyə-çözələyə nə qədər belə oturacaqdı.

– Nə fikrim olacaq, oğlum? İnşallah, bu gün-sabah baba olacağım haqqında düşünürdüm. Bilsən, nə gözəl arzudur bu, Kərəm? Sən bunun dadını özün baba olanda biləcəksən. Mənim yaşdakılar nəvəsinə toy eləyir, gəlin gətirir, mən indi baba oluram. Eh, Kərəm, hər şeyin öz vaxtı var. Qasımla mənimki heç gətirmədi.

Kərəm atasının söhbəti qəsdən ordan-burdan saldığını çoxdan başa düşmüşdü. Əlindəki sinini yerə qoyub atasının lap dizinin dibində oturdu. Qasım adını eşitcək bir az bundan qabaq başladıqları söhbəti axıra çatdırmaq üçün Kərəmin əlinə elə bil fürsət düşmüşdü.

– Hə, ata, axı biz Qasım əminin başına gələnlərdən danışırdıq?

Həmid kişi diksinən kimi oldu. Bayaqdan bəri dirsəkləndiyi mitəkkəni bir az da yaxına çəkib yerini rahatladı. Kərəm dizlərini qatlayıb atası ilə üzbəüz oturanda elə bil Həmidin gözünə işıq gəldi. Bayaqdan sustalan qollarına oğlunun baxışlarından güc, taqət süzüldü. Qəddini düzəldib gümrahlaşdı. Atasının qəribə davranışı nəzərindən qaçmasa da, bir söz demədi Kərəm. Onu əsəbləşdirmək istəmirdi. Sorğu-sualdan atasının xoşu gəlmədiyini bilirdi. Evdə artıq-əksik danışmaz, çöldə eşidib gördüklərini də

deməzdi. Bu gün oğlu ilə ürək söhbəti eləməyin təşəbbüskarı atası özü olmuşdu deyə, Kərəm yenə susdu. Qabaqlarındakı çay da soyuyub buza dönmüşdü. Məcməyidəki noğuldan birini götürüb soyuq çaydan bir qurtum içdi. Bununla atasının nəzərini cəlb etmək, fikirdən ayırıb söhbətini davam elə demək istəyirdi Kərəm.

Atası dizlərini qucaqlayıb oturduğu yerdə elə büzüşmüşdü ki, Kərəmin ona yazığı gəldi. Bu söhbəti başladığına görə ürəyində özünü danladı.

Atası:

– Mən günahkaram, mən günahkaram, – deyə-deyə özünü qınayır, onu nə görür, nə eşidirdi elə bil.

Kərəm yüngülcə atasının qoluna toxundu:

– Nə danışırsan, ata, sən nədə günahkarsan? Allah qarşısında bu qədər pak olduğun hara, günahkar olduğunu söyləməyin hara?

– Yavaş danış, oğlum, yavaş danış, anan eşidə bilər, ikiqat günaha bataram.

Həmid ağa elə yazıq görkəmdə idi ki, Kərəm də təsirlənmişdi, heç nə başa düşmürdü. Kimin qarşısında günah işlətmişdi, ona bu neçə illərdi əzab verən nə idi? Kərəmə aydın deyildi.

– Bağışla, ata, sənə əzab verdiyimçün məni bağışla,- deyə Kərəm atasının boynunu qucaqladı. Həmid ağanın gözlərində gilələnən yaş bığından, saqqalından diyirlənib sinəsinə töküldü. Kərəm bir az özünü toplayıb yeni suala keçdi:

– Bəlkə, ürəyini açasan, yüngülləşəsən, ata, mən səni başa düşərəm.

Həmid ağa əllərinin dalı ilə gözünü sildi. Bir az da mitəkkəyə dirsəklənib oğlu ilə çənə-çənəyə dayandı.

– Mən Qasımın arvadı Fatmanın faciəsində günahkaram, oğul, günahkaram.

– Necə günahkarsan, nə danışırsan, ata, məni əməlli-başlı başa sal, Allah eşqinə?

– Bəli, Kərəm, mən Fatmanı sevirdim. Özüm yox, ürəyim dostuma xəyanət eləmişdi. Qasımın məhəbbətinə şərik çıxmışdım, oğul. Elə bu xəyanət də Fatmanın faciəsinə səbəb oldu. İllərdən bəri ürəyimdən daş kimi asılan bu günah mənə rahatlıq vermir,

oğlum. Bu günahı özümlə o dünyaya necə aparım?

– Axı necə ola bilərdi ki, sən dostuna xəyanət eləyəsən?

– Xəyanətim məhəbbətim idi, Kərəm. Özümlə bacara bilmirdim. Gecə yuxum, gündüz dincliyim yox idi. Özünəməxsus ləhcə ilə şirin-şirin danışıb-gülən Fatmaya elə ilk gündən vurulmuşdum.

– Sevmək xəyanət deyil, ata, bu elə bir günah da deyil ki, özünə bu qədər əzab verirsən.

– Mən onu çağırıb bayıra çıxarmasaydım, Fatmanın başına o müsibətlər gəlməzdi. Qasım dünyanın əzab-əziyyətini çəkməzdi. Bəs bu günah deyil, nədir?

– Necə çağırıb küçəyə çıxarmasaydın? Guya onu evdən tutub apara bilməzdilər? Bu, onlar üçün su içmək kimi bir şeydi. Aydın danış, başa düşüm, ata.

– Onu görmək üçün fürsət axtarırdım. Bir gün də...

Həmid ağa uşaq kimi büzüşdü. Balacalaşıb yazıq bir görkəm aldı. Əlini titrəyən çənəsinə söykəyib xeyli dayandı. Əlləri əsə-əsə qarşısındakı fincandan bir-iki qurtum içdi. Sanki danışmaq üçün özünə güc-qüvvə toplayırdı. Kərəmin intizarla gözlədiyini bilib ağır-ağır sözə başladı:

– Fatmanı qadınlar hamamda döyəndən sonra Qasım demək olar ki, onu çölə çıxmağa qoymurdu. Bir növü, ev dustağı eləmişdi. Mən az qala dəli olmaq dərəcəsinə gəlmişdim. Fatma haqqında artıq nəzmiyyə idarəsində məlumat olduğunu, lakin əllərində tutarlı sübut, dəlil olmadığını da bilirdik. Necə olmuşdusa, Səltənət onun yanına yol tapıb təşkilatın üzvlüyünə yazmışdı. Biz bunu çox sonralar öyrəndik. Səltənət hökümətin siyahısında bir nömrəli intiqamçılardan sayılırdı. Əsas məsələ çoxdan axtarışda olan kürd qızını tutmaq olsa da, Fatma da şübhəli şəxs kimi nəzarətdə idi. Biz Qasımla bu haqda fikirləşib çox planlar qurmuşduq. Amma hələ bir qərara gələ bilmirdik. Təşkilatın qərarını gözləyirdik. Onun bu gün-sabah bir bəhanə ilə tutulacağına şübhə etmirdik. Odur ki, hələlik evdə saxlamağı qərarlaşdırıb ona nəzarətçi də təyin etmişdik. Qasımdan gizli çox əzablar çəkir, Fatmanı bircə anlığa olsa da, görmək istəyirdim. Mənim də onlara getməyim mümkün deyildi. Evdən, işdən əlim soyumuşdu. Sərgərdan adam kimi gəzib-dolanır, gecələr yuxumu,

gündüzlər dincliyimi itirmişdim. Bu yaşımda sənin qarşında elədiyim etirafıma görə məni bağışla, oğlum. Bu zalım ürəklə bacara bilsəydim, indi bu qədər əzab da çəkməzdim. Dosta sədaqətimi itirməkdən qorxurdum, həm də Fatmanın adına ləkə gətirəcəyim üçün narahat idim. Onu görmək üçün fürsət axtarırdım. Bir gün də…

Həmid ağa duruxdu. Bir neçə dəfə boğazını artladı:

– Köhnə demokrat Səltənəti hər yerdə izləyir, onunla yaxın olanları tuturdular. Səltənət «İntiqam məhkəməsi» təşkilatının üzvü idi.– O yenə susdu.

– Hə, nə bir gün, ata, danış!

– Bir gün Səltənətin dili ilə bir məktub yazıb onu şəhərin ucqar bir yerinə çağırdım. Başqa çarəm yox idi. Məqsədim gendən də olsa onu görmək idi. Sən demə hökumət tulalarına da elə bu lazım imiş.

– Fatma sənin hisslərinə, cavab vermişdi, ata?

– Yox, yox, o günahsız qızın bundan xəbəri yox idi. Görünür, onu izləyib güdürmüşlər.

Bura çatanda ağa Həmidin səsi titrədi. Neçə illər bundan qabaq göstərdiyi cürətsizliyi dilinə gətirib oğluna hər şeyi açıq etiraf eləmədi. Ağacın dalında yerə uzanıb acı-acı ağladığını, gözü görə-görə Fatmanı tutub apardıqlarını oğluna demədi. Kərəmin qınağından qorxub xəcalət çəkdi. Bir neçə dəfə udqundu. Onu diqqət və maraqla dinləyən oğlunu intizarda qoymamaq üçün gücünü toplayıb təkrar dilləndi:

Mən şər qarışana qədər onu gözlədim. Gəlib çıxmadı. Evə qayıdanda Cavadı ananın qucağında ağlayan görüb hər şeyi başa düşdüm. Onu tutub hara isə aparmışdılar. Fatma mənim səhvimin ucundan cəhənnəmə düşmüşdü. Yerini-yurdunu tapa bilmirdik. Onunla ilk görüşümüzdən iki ilə yaxın vaxt keçmişdi. Ta əlimizi üzüb oturmuşduq. Qasımı dinləyən yox idi. Onu şübhəli şəxs kimi izləyir, hər addımına göz qoyurdular. Odur ki, şikayətinə məhəl qoyan da tapılmırdı. Cavad bizim ailədə böyüyürdü. Üç-dörd aylıq Cavada anan sənin bir döşdən süd verirdi. Fatmanin yadigarı məni bir az sakitləşdirirdi. Xeyli müddət xəstə yatdım. Günümü Cavadla başa vururdum. Özümə gələn kimi yenə axtarışa başlayırdım. Qasım demək olar ki, ayaq üstə

ölmüşdü. Onu günahlandırıb ikinci dəfə tutmuşdular. Həbsxanadan təzəcə çıxmışdı. Dostumun əzablarını görmək mənə çox çətin və ağır idi. Bayaq dediyim kimi Tehrandan qayıdandan sonra bir az pul tədarükü görüb geri qayıtmalı və Fatmaya vəkil tapmalı idik. Bir gün böyük bazardan çıxıb evə gəlmək istəyirdim ki, dönüb dükandan bir qəzet aldım. Qulamrzanın şəkli qəzetin birinci səhifəsinə vurulmuşdu. Bir şey anlamadım. Altındakı yazını oxudum: «Tehranın məşhur vəkillərindən biri Qulamrza Haşimi evinin astanasında naməlum şəxslər tərəfindən öldürülüb». Məsələ aydın idi. Biz bu günahsız binəvanı da güdaza vermişdik. Tehrana yolumuz artıq bağlı idi. Daha gözə görünə bilməzdik. Bura qədər ümidlə keçirdiyimiz ayların-günlərin sayı-hesabı yox idisə, indi Qulamrzanın ölümündən sonra heç bir güman yerimiz qalmamışdı. Həbsxanaya yaxınlaşmaq, vəkilsiz-filansız iş görmək qorxulu idi. Hər an tutulmaq ehtimalı var idi. Tehranda heç bir tanış-filan da yox idi. Kimə deyirdim, min bir bəhanə gətirib Fatmaya vəkil olmaqdan boyun qaçırırdılar. Amma Fatmanı o cəhənnəmdən qurtarmaq, dostumun qarşısında az da olsa, günahımı yumaq arzusu, həvəsi içimdə səngimək bilmirdi. Qasıma bir söz də demirdim. Qulamrzanın öldürülməsi xəbəri onu tamam-kamal məhv edərdi.

Həmid ağa dərindən köks ötürdü. Sözünə ara verdi. Boğazı qurumuş, dodaqları bir-birinə yapışmışdı.

– Bilirsən, oğul, dünyanı ümidlə yeyiblər deyən bir məsəl var. Elə ki, ümid qırıldı, demək, sənin sonundu. Çalış ümidini qırma. Ümidimi qırmamışdımsa da, bir çarə də tapa bilmirdim. Tehrandan qayıdandan sonra bir neçə dəfə sorğu-suala da çağırmışdılar məni. Nə üçün ora getdiyimi, Qulamrza ilə nə əlaqəm olduğunu təkidlə soruşmuşdular. Uzaq qohum olduğumuzu öyrənəndən sonra bir müddət məni rahat buraxdılar. Deməzdim ki, məni bu səbəbdən dinc qoydular. Əsas köməkliyi ananın qardaşı Rüstəm dadaş eləmişdi. O, hökumət idarəsində mötəbər qulluq sahibi idi. Fars qızı olan arvadı azərbaycanlılara həqarətlə baxır, uşaqları azərbaycanlı balaları ilə dostluq eləmirdi. Onlara gediş-gəlişimiz yox idi. Mənim keçmişim onda həmişə xof yaradır, vəzifəsinə görə mənimlə ünsiyyətdən çəkinirdi.

– Bəs niyə beləsi ilə qohum olurdun, ata?

– Anan Zeynəb mənə hələ uşaqlıqdan deyikli idi. Düzünü desəm, mən ananı sevib almamışdım. Rəhmətlik anam qızı qadın hamamında görüb bəyənmişdi. Mən başqa heç nə edə bilməzdim. Mənim ürəyimdən xəbərsiz hamı onu mənim nişanlım sayırdı. Qızın adını korlamaq nakişilik olardı. Bununla bahəm qardaşı Rüstəm ağa daş atıb başını tuturdu: - Onun keçmişi çox qaranlıqdır, taxt-taca qarşı çıxanlar sırasında adı hallanır, «şürəvi» Qasımla dostluq eləyir, bilmirəm daha nələr? Anan məni çox sevdiyinə görə onun verdiyi cehizdən də imtina eləmişdi. Onun ata-anası inqilab vaxtı küçə ixtişaşının qurbanı olmuşdu. Qardaşı Rüstəm arvadının hesabına vəzifə tutmuşdu. Arvadı Zeynəblə heç yola getmirdi. Odur ki, mən ondan imtina eləyib yetim bir qızın qəlbini sındıra bilməzdim. Allah qarşısında günaha batmış olardım. Rüstəm ağanı toy günü bircə dəfə yaxından görmüşdüm. Arvadı toya gəlməmişdi. Mənə görə atasının varidatından imtina eləməsi qardaşı arvadı Xeyransanın ürəyindən olsa da, bu yetimin şad günündə iştirak eləmirdi.

Zeynəb hərdən gileylənərdi: – Deyirlər ana babam varlı bir tacir imiş. O varidatdan heç sonralar da anama pay vermədilər? Mənimki hərtərəfli gətirməyib, Həmid!

Rüstəm çox tündməcaz adam olsa da, bacısını az-çox sevirdi. O həm də xəstə idi. Şəkər mərəzindən əziyyət çəkirdi. Odur ki, evdə ixtiyarı-sahib Xeyransa idi. Min vəchlə Zeynəbi ata malından məhrum eləmək istəyirdi. Rüstəm ağa ömrünün sonunda atasının böyük bazar ətrafındakı dükanlarından ikisini anana vəsiyyət eləmişdi. Dünyasını dəyişəndən sonra bu dükanlara sahib olmaq üçün çox əziyyətlər çəkdik, oğul.

– Gərək heç onun köməyini də qəbul etməyəydin, ata.

– Anan məndən gizli yanına gedib yalvar-yaxar eləmişdi. Mənim də ona bərk acığım tutdu. Evimizdə çoxlu qanıqaralıq oldu. Çarəm yox idi. Mən indi Qasımı yenə güdaza verə bilərdim. Bu məni öldürərdi, Kərəm! Onsuz da dövlət xəfiyyələri ona güngüzaran vermirdilər. Tehrandan qayıdandan sonra anandan gizli dükanımızın birini satıb bir az pul toplamışdım. Fikrimi Qasıma da deməmişdim. Məqsədimdən hali olsa, qoymazdı. Qasım Ərdəbildən köçən kimi mən də nəyim var satıb Təbrizə gəldim. Öz günahımın dalınca düşüb qarabaqara gəzirdim. Düzü Cavaddan, Qasımdan ayrı yaşaya bilmirdim.

Çağrılmamış qonaq

Gecə keçirdi. Kərəm pəncərədən çölə boylandı. Şəhərin işıqları dumanda itib-batan ulduzlar kimi orda-burda söndükcə, qaranlıq ürəksıxıcı xofu ilə hücum çəkir, dərdli ürəklərin qəmini bir az da artırırdı. Eh, bu gecənin də özünün qatı açılmamış neçə sirri var. Dünya bərqərar olandan zülmət gecə neçə qətllərin, neçə haqsızlıqların şahidi ola-ola susmuşdu. Bəzən də neçə günahsızı qatı qaranlığın qoynuna alıb gizləmişdi.

Kərəmin ürəyi sıxıldı. Atasının ömür kitabını vərəqləyə-vərəqləyə fikrə getmişdi:

Gör talelər necə də bir-birinə oxşayarmış? – Deyə fikirləşdi. Bu iki dostun ömür yolu Cavadla mənim tale yolumuzla necə də oxşardır? İndi nə etməli? Ya yolun yarısında qalmalı, ya da atalarımızın tale yolunu davam etdirməliyik. Bu mümkündürmü? Bəli, mümkündür. İnsanın bacara bilmədiyi heç nə yoxdur. Əgər öz həndəvərini görmürsənsə, yaşamaq xatirinə yaşayırsansa, belə ömür bir saman çöpünə də dəyməz. İnsan doğulub boya-başa çatdığı yerdə qarağac kimi bitməlidir ki, yoldan keçən hər kəs onun kölgəsində daldalansın. Quşlar budaqlarında, yarpaqlarının arasında yuvalanıb özünü qoruya bilsin. Belə deyilsə, insanın quru odunla heç bir fərqi yoxdur. Onu doğrayıb yandırmaqdan başqa heç nəyə yaramaz. Həyatda elə hadisələr, elə fikir, elə amal olur ki, bu hadisələrin qoyduğu iz, elədiyi təsir insanla bahəm əbədiliyə qədər yaşayır. Onunla böyüyür, onunla yaşa dolur. İnsan onunla baş-başa, nəfəs-nəfəsə artıb, yaşlaşdıqca fikri, əqidəsi təkmilləşir, həyatının mənasına çevrilir.

Kərəmi düşündürən hər bir fikir susuzluqdan quruyub cadarlanan torpağa düşən yağış damlaları kimi alışıb-yanan ürəyini sakitləşdirir, gələcək planlarını qətiləşdirirdi. Atasının, Qasım əminin başına gələn müsibətlər onun ürəyini haqsızlığa, zülmə qarşı nifrətlə doldururdu. Kərəm hələ uşaq vaxtlarından Təbriz «lotu»larının cavanmərdliyindən, zalımlara divan tutub yoxsullara kömək etmələrindən dəfələrlə eşitmişdi. Kərəm onları mərd igidlər kimi sevmiş, qəlbində hörmət hissi ilə yaşatmışdı. Cavanmərdlərin çayxanalarda oturub məşhur pəhləvan Hüseyn Kürdün güc-qüvvətindən, hər dəfə «bir batman» yeməsindən, Şah oğlu İran Aslanı

Şah Abbasın onu saraya gətirib pəhləvanbaşı qoymasından elədikləri söhbətləri dinləyə-dinləyə böyümüşdü Kərəm.

– Lotuluq eləmək hər kəsin işi deyildi, – deyə atasının bir söhbəti Kərəmin yadından çıxmırdı.

– Öz küçəsinin lotusu olmaq, fağır-füqarəyə arxa-dayaq durmaq üçün elin qeyrətli oğulları neçə sınaqdan keçməli olurlarmış. Lotubaşı birini lotuluğa qəbul eləmək istəyəndə dəmir darağı onun üzünə, saqqalına çəkərmiş. Dəmir daraq kimin üzündə ilişib qalsaydı, onu lotuluğa – cavanmərdliyə qəbul edərmiş. Bir dəfə də atasına edilən haqsızlığa (onun saqqalını-bığını sarayda yolub dost-düşmən arasında təhqir ediblər) dözməyən bir gənc bu qisası almaq üçün lotuluq həvəsinə düşür. Bığ yeri yenicə tərləyən cavan dəmir darağı bir baş sifətinə çırpır. Dəmir darağın dişləri yarıya qədər onun sifətinə batır. Lotubaşı təəccübündən yerində donub qalır. Onu lotuluğa qəbul eləyirlər. Gənc oğlan intiqam hissi ilə alışıb-yanır. Özü kimi mərdləri başına toplayıb atasının və təhqir olunanların qisasını alır.

Lotubaşıya deyir: «Mən nə miğuyəm səməndər baş, ya pərvanə baş: çün befekte suxtən oftadei mərdanə baş» (Mən demirəm səməndər quşu ol, ya pərvanə ol. Madam ki, yanmaq eşqinə düşmüsən, mərdanə ol!). Mən bu yolu seçmişəmsə, axıra qədər mərdanə mübarizə aparacam.

Atasından eşitdiklərini özünə örnək eləyən Kərəm fikrini qətiləşdirdi. Yanmaq istəyirsənsə, yanmaqdan qorxmayasan gərək. O, ürəyində cavanmərdlərsayağı and içdi:

– And olsun yerə-göyə, yaradana, torpağa, suya, anamın halal südünə, andıma xəyanət edib, yolumdan dönməyəcəm. Mərd yaşayıb, mərd öləcəm. Bu zülmün, haqsızlığın kökünü kəsmək işindən, mübarizəsindən qorxub çəkinməyəcəyəm. Qadın-qızlarımızın, ata-baba dilimizin təhqir olunmasını bağışlayıb susmayacağam. Atamın, Fatmanın, Qasım əminin başladığı iş mənim həyatımın mənası olacaq. Hüquqsuz yaşamaqdansa, ölüm yaxşıdır!.

Kərəm əlləri qoynunda, üzü pəncərəyə xeyli özü-özü ilə söhbət elədiyi vaxt, pəncərənin altından bir kölgə keçib qapıya yaxınlaşdı. Onun dalınca bir neçə adamın ayaq səslərini aydın eşidən Kərəm, tez geri dönüb cecimin üstünə çökdü. Yükdə gizlətdiyi tapançaya sarı bir addım atmamış qapı təkrar döyüldü. Qarışıq səslər eşidildi.

Həmid ağa hər şeyi başa düşmüşdü. Oğlunu qorxutmamaq üçün təmkinini pozmadı. Sinini qabağına çəkib təsbehini dizinin üstünə qoydu. Silahı Kərəmdən alıb, su dolu vedrənin içinə atıb yerini rahladı. Qapı bir neçə dəfə dalbadal döyüldü.

– Bax burada toplaşırlar bu zatıqırıq, haramzadələr. O «sürəvi» Qasımın oğlu da onların içindədir. Axşam tutduğunuz o gədə də bunu təsdiq elədi. Kibrə, mən yalan yerə cənabınızı narahat eləmərəm. Havax mənim zənnim düz çıxmayıb ki? Sizə sidqürəkdən qulluq etməmişəm? Birinci elə onu yerində güllələmək gərəkdir ki, o birilərinə dərs olsun. Bu ovun dalınca neçə vaxtdır gəzirəm, massab haqqı.

– Ta bəsdir, zarıma, qapını yenə döy! Sənin qulluğun nə vaxt qiymətləndirilməyib ki baş-beynimi aparırsan? Sənin murdar zatına lənət. Gecənin bu vaxtı isti yataqdan bizi qaldırıb bura gətirmisən.

– Neynax, ağa, düz çıxmasa, vur boynumu. Belə fırsatı əldən necə verə bilərdim axı? Massab haqqı, o həkimdir-nədir, (Cavadı nəzərdə tuturdu) gözümə görünəndə qan beynimə sıçrayır. İstəyirəm elə yerindəcə gülləni başına çaxam. Neynim, özümü saxlaya bilmirəm. Bu da mənim şaxımıza məhəbbətimdən irəli gəlir. Gərək yediyin çörəyi tapdamayasan. Türklər «dilimiz, torpağımız» deyədeyə camaatın qanını zəhərləyirlər. Zəhər dəyən yeri kəsib atmaqdan qeyri çarə yoxdur, massab haqqı. Yeni inqilab eşqinə düşüblər. Seyid Pişəvərinin aqibəti onlara dərs olmadı, deyəsən. Küçələrə vurulan bu şüarların hamısı onların işidir.

Danışığa diqqətlə qulaq asan Kərəm təxminən daşın haradan atıldığını müəyyənləşdirmişdi. Səs ona çox tanış gəlirdi. Karenanın bir neçə dəfə söhbətindən onun alçaq, satqın bir adam olduğunu bilirdi Kərəm. Bir dəfə də, Cavadgilə gedəndə ötəri görmüşdü onu. Amma Karenanın öz atası haqda belə danışığına çox təəccüblənmişdi. Qapını ləng açmasının səbəbi atasının bəzi ehtiyat işləri görməsi idi. Atası üst geyimini, corablarını çıxarıb kənara qoymuşdu. Başına ağ dəsmal bağlamışdı. Kərəmin üzünə müəmmalı bir nəzər salıb duruxdu.

– Yox, ata, bir şey yoxdur, arxayın ol, – deyə atasını xətircəm elədi. Elə bu vaxt qapı sürəilə döyülməyə başladı:

– Tez ol, aç qapını, sizin kökünüzü kəsmək lazımdır! –Deyə

zabit ötkəm səslə dilləndi. Bundan sonra Kərəm özünü saxlaya bilmədi. Sakit səslə:

– Sizə nə lazımdı bizim evimizdə? Gecənin bu vaxtı niyə yaşlı kişini narahat edirsiniz?

– Bizə nə lazımdır, özümüz bilirik, aç qapını, it oğlu. Sən kiminlə danışdığını bilmirsən. İndi görərsən, nə istəyirik!

Hirs Kərəmin başına vurdu.

– İt oğlu gecə yarısı başqasının qapısında sülənəndi. Sən mənim qapıma gəlmisən, mən sənin evinə yox.

Qapının cəftəsini çəkər-çəkməz hamıdan qabaq Karapet özünü öküz kimi içəri soxdu. Həmid kişini gecə köynəyində, əlində təsbeh görüb kəkələdi:

– Bax, bu... Bu da oğlu ilə əlbirdir.

Zabit çevrilib Karapetin üzünə tərs bir nəzər saldı. O, neçə dəfə Həmid ağanın minbərdən çəkdiyi əzana qulaq asmışdı, oxuduğu Allah kəlamlarını dinləmişdi. Onun mömin bir Allah adamı olduğunu bilirdi. Yenə də özünü sındırmadı.

– İndi ki gəlmişik, axtarın hər yanı, yəqin yoldaşlarını gizlədib.

Beş-altı nəfər mülkü geyimli, əlləri tüfəngli adam evə dağılıb alt-üst eləmək istəyəndə Həmid ağa ayağa qalxmaq istədisə də, fikrindən daşındı. Özünü o yerə qoymadı. Əlindəki təsbehi o yan-bu yana çevirə-çevirə əhvalını pozmadan dilləndi:

– Biz ata-bala görürsünüz ki, çay içirdik. Yatmağa hazırlaşırıq. Siz nə haqla mənim evimə soxulmusunuz? Bizi narahat etməyiniz bəs deyil, hələ ev-eşiyimizi də dağıdırsınız. Mən bu işi belə qoymaram. Onda özündən küs, Karapet «kirvə». – Ağa Həmid istehza ilə dilləndi.

Evdə bu ata-baladan başqa bir adam olmadığını görən Karapet yuxarı otaqları nişan verdi:

– Siz buna fikir verməyin, çıxın yuxarı otaqlara baxın! Mən heç vaxt yanılmamışam. Vallah, billah, and olsun getdiyim Məkkəyə mən bu işi neçə dəfə ölçüb-biçəndən sonra əminliklə sizi bura gətirmişəm. Sabriniz olsun. Bunlar cin-şeytan kimi bəzən gözəgörünməz olurlar. Onu unudurlar ki, Karapetdən hələ heç kəs can qurtara bilməyib.

Karapet yaxşı bilirdi ki, zəndinin qələt çıxmağı onu gözdən

salacaq, bir şahı da qazancı olmayacaq. Odur ki, dil tökməyə başladı, – Köpək oğlu məni yəqin azdırıb. Bu qədər də yalan olar? Qayıdıb onun dərisin soyacam. Axşam gətirdiyiniz Müzəffərdi-nədi, o pədərsüxtəni (köpək oğlunu) deyirəm.

Yuxarı – qadınların yataq otaqlarına baxmaq istəyəndə, Həmid ağa yerindən qalxıb Karapetin sinəsindən basıb geri itələdi.

– Murdar, naməhrəm it oğlu. Bircə bu qalmışdı ki, arvadın, qızın yatağına da baxasan. Sonra üzünü zabitə çevirdi:

– İcazənizlə zənənləri yataqdan qaldırım, sonra otaqları yoxlayın. Əgər orda yad bir adam tapılsa, başımla cavabdehəm. Allahdan qorxun.

– Buyurun, – deyə zabit Həmidin dalınca özü pilləkənlərlə yuxarı qalxdı. Qadınlar geyinib yerlərinin içində oturmuşdular. Otaqda heç kəsi tapmayan zabit Karapetə tərəf döndü:

– Bəs hanı, pədərsüxtə köpəyoğlu, zatıqırıq, napak oğlu. Məni günaha batırıb bu mömün bəndəni narahat elədin. Zatına lənət! Yalanının cavabını sabah özün verəcəksən!

Zabit onu elə itələdi ki, ayağı daş pilləkəndan sürüşərək hündürlükdən tullanan tula kimi gumbultu ilə həyətə düşdü.

Baş tutmayan yığıncaq

Kərəmgilin zirzəmisində bu axşam baş tutmayan yığıncaq təşkilat üzvləri kimi Cavadı da çox narahat edirdi. Demək olar ki, heç yatmamışdı:

– Kərəm gərək mənə xəbərdarlıq eləyəydi. Bu, ona çox qəribə və şübhəli gəldi. Bəlkə, başında nə isə bir iş var? O biri yoldaşlardan da, bir şey soruşmaq qorxulu idi. Bütün bu işlərMüzəffərə tapşırılmışdı, axı?

Cavadın keyfsizliyini, narahatçılığını Qasım ağa da başa düşmüşdü. Gözləyirdi ki, Cavad hər şeyi özü açıb atasına danışsın. Cavad susurdu. Atasının xatirinə susurdu. Qasım ağa bu axşam qonşunun darvazasının açılmadığını görüb çox narahat olmuşdu. Lakin Cavadın evdə olmağı onu bir az sakitləşdirmişdi. Bu gün məscidə gedib yenə Həmid ağa ilə görüşüb məsləhətləşmək qərarına gəldi. Qorxu, səksəkə Qasım ağaya dinclik vermirdi.

Bu köpəkoğlu qonşunun evə gəlməməsində nə isə bir iş var - deyə fikirləşdi. Allah cavanları xəta-bəladan saxlasın. Dünən divarlara yapışdırılan intibahnamələrdən birini qoparıb evə gətirmişdi. Oxuyub tez də yandırmışdı. Cavadın bu işdə yaxından əli olduğunu yəqinləşdirəndən sonra narahatlığı bir az da artmışdı. Nə etməli, haqqı tapdalanan millət heç vaxt susa bilməz. Yaralarının qaysağı qopan kimi yenə ayağa qalxacaq. Biz eləyə bilmədiyimizi bu gənclər eləyəcək, inşallah. Şah rejimindən cana gələn xalq kütləsi axışıb küçələrə tökülmüşdü. İnqilab beşiyi Təbriz nəhr kimi yırğalanıb azadlıq istəyən igidləri ana kimi qoynuna almışdı. Demokratik cəmiyyət eşqilə qəzəb və nifrətini azadlıq bayrağına çevirmişdi qoca Təbriz. Hadisələr get-gedə qızışır, ölkənin hər tərəfini inqilab dalğası bürüyürdü. Amerika səfərətxanası üzük qaşı kimi mühasirəyə alınmışdı. Dünya ictimaiyyəti bu hadisələrə biganə deyildi. Əsirlikdə saxlanan səfərətxana işçilərinin azad olunmasına çalışır, xalqın gələcək taleyinə biganəlik göstərirdilər. Bu hərəkatda əsas qüvvə gənclər olsa da, din xadimləri böyük rol oynayırdılar. Şahlıq taxt-tacını devirib azad, demokratik bir cəmiyyət qurmaq əvəzinə, din fanatiklərini qızışdırıb İslam respublikası yaratmaq üçün küçələrə tökmüşdülər. Xalqın sağlam qüvvələri, mərd oğul-qızları başqa ümidlə ayağa qalxmışdılar. Çox çətin, müəmmalı bir vəziyyət yaranmışdı. Cavad, Kərəm, Müzəffər Güllü kimi gəncləri bir fikir düşündürürdü:

– Əsirlərlə azadlığın dadı-tamını bilməyən xalqın tapdanmış hüququnu qaytarmaq. Bu yolda öldü var, döndü yoxdur, – deyə Cavad şübhələr, bir-birinə zidd fikirlər içində çabalaya-çabalaya həyətə çıxdı.

…Bahar gəlmişdi. İnsanların qəlbinə xoş duyğular, istəklər gətirən bahar. Gənc qızlar kimi işvə-nazlı, qızıl gül ətri kimi təravətli bahar öz gəlişi ilə bütün təbiətə yeni can verirdi. Arzular, istəklər təbiətin özü kimi təzələnir, təzə don geyirdi. Hələ dünən muncuq dənəsinə bənzəyən tumurcuqlar, baharın nəfəsini duyan kimi lətif güllərə çevrilir, bənövşələr utancaq-utancaq kol dibindən boy verir, ətrini, rayihəsini bağa-bağçaya yayırdı. Baharın ürəyi insanların ürəyi ilə bir notda vururdu. Bu gözəllik içində Cavadın eyni açılmır, sanki baharı görmürdü. Necə olursa-olsun Kərəmlə əlaqə yaratmaq, axşam harada toplaşıb məsləhətləşmək

üçün yollar axtarırdı. Cavad bunun çarəsini ancaq atasında və Həmid ağada görürdü. Odur ki, evə qayıdıb nahar süfrəsi ilə məşğul olan atasına ürəyini açdı. Onun dedikləri Qasım ağaya təzə bir xəbər kimi görünmədi. Cavad atasının acıqlanacağını, onu danlayıb məzəmmət edəcəyini gözlədiyi halda Qasım ağa təmkinini pozmadan, fincana çay süzə-süzə dilləndi:

– Məsləhətli don gen olar, Cavad. Mən sizin işlərinizdən halıyam. Gərək mənimlə çoxdan məsləhətləşəydin. Bu gün də namaz vaxtı məscidə gedib Həmid ağa ilə görüşəcəm. Özbaşına heç bir iş görməyin. Dörd yanımız xəfiyyələrlə doludur. Şübhəsiz bizim hər addımımız izlənir. Həmid ağadan da çox nigaranam. Bu qonşuluqdakı dığa bu axşam evə gəlməyib. Nə isə burda var. Çox nigaranam. Quduzlaşmış bu hakimiyyət nəyə desən, gedər, bala, təki o çürümüş taxtını saxlaya bilsin. Mən bir neçə əfqan yoldaşlarla söhbət eləmişəm. Dar ayaqda kömək eləyəcəklərinə söz veriblər. Amma bu inqilabdan da xalq heç bir xeyir görməyəcək. Qorxuram ara yerdə siz gənclər güdaza gedəsiniz.

– Niyə belə düşünürsən, ata? – Deyə Cavad təəccüblə atasına sarı döndü.

– Ona görə ki, bu mollaların fitvası ilə çox qanlar tökülüb, çox xanimanlar dağıdılıb, Cavad. İndi hər şeydən xəbərsiz xalqın böyük bir hissəsi onların ardınca özlərini oda-közə atırlar. Niyə başa düşmürsünüz? Tutaq ki şahlıq devrildi, yerinə mollalar gəldi. Bu xalqa, biz azərbaycanlılara azadlıq verəcəkmi? Yox, bala, Allah, din adından danışan bu başı əmmamalı saqqallıların dillərinin altında nə qədər fitnə-fəsadlar gizlənib? Şəriət xalqı kor eləyib, Cavad. Bir dövləti ki, bu mollalar idarə eləyəcək, orada heç bir azadlıqdan söhbət gedə bilməz. Onlar İslam dininin əsl mahiyyətini qoruyub saxlamaqdansa, şəriət qanunları ilə xalqın əl-qolunu bağlayacaqlar. İndi zəmanə əlli il bundan qabaqki deyil, oğlum. Bütün ölkələrdə qadınlar-qızlar azad gəzir, oxuyur, işləyirlər. Bizim bir xalq, bir millət olaraq qədim tariximiz var. Sən mənə bircə məktəb göstər ki, orda balalarımız öz dilimizi, tariximizi öyrənə bilirlər. Ermənilərin gör burada neçə məktəbləri var. Biz hələ də ərəb əlifbasını höccələyə-höccələyə qalmışıq. İstədiyimizi açıq danışa bilmirik. Bu inqilab da bizdən çox mollalara azadlıq verəcək. Vətənimizin şimali da rus əsarətindədir.

Buna baxmayaraq din dövlətdən ayrıdır. Mollalar dövləti idarədə iştirak etmirlər. Orada yaşadığım müddətdə mən çox şeyin şahidi oldum. Gənc qızlar, gəlinlər deyib-gülür, istədikləri yerlərdə şənlənirlər. Məscidlərə də gedənləri var idi. Din, əqidə cəhətdən azaddırlar. Toylarda, məclislərdə öz mahnılarımız çalınır, oxunurdu. İnsan yaranmayıb ki, gün-güzaranını elə bu mollaların vəzlərinə qulaq asmaqla keçirsin. Gözəllik görünmək üçündür. Qadın, qızlarımız gözəlliklərini qara çadra altında nə vaxta qədər gizlədəcəklər? Bax bizim bu inqilabdan azadlıq ala biləcəyimizə şübhəm var, Cavad. Əfqan xalqı elə bilirsiniz ki, xoşbəxtdirlər? Xeyir. Sadəcə olaraq hakimiyyət bir müstəbiddən digərinə keçib. Sərdar Məhəmməd əmisi Zair şahdan da müstəbiddir. O əvvəl xalqı demokratik islahatlarla aldatdı, sonra xalqa heç nə vermədi. Bizdə də belə olacaq. Bu inqilabdan din xadimləri bəhrələnəcək. Zənənlərimiz yenə qaragünlü, qara çadralı olacaqlar. Anan da bax bunun üçün mübarizəyə qoşulmuşdu.

Qasım dərindən ah çəkdi: – Bir güllə bahar olmaz, Cavad. «Tək əldən səs çıxmaz», oğul. Bizim xalqımız neçə dəfə azadlığın astanasında durub, nəticəsi nə olub? Yenə təklənmişik, əzilmişik, susmuşuq. Çünki torpağımız paralanıb, xalqımız bir-birindən uzaq düşüb. Bu böyrümüzdəki zatıqırıq, pədərsüxtə kimiləri məmləkətdə çoxdur, bala. Sənin kimilərini bir göz qırpımında güdaza verər, heç gözünü də qırpmazlar.

Cavad atasının mülahizələrinə heyranlıqla qulaq asırdı.

– Onunla da haqq-hesab çürütməyin vaxtına az qalıb, ata. Mən səni bədbəxt eləyib, anamın həyatını korlayan bu cəmiyyətlə mübarizəmi axıra qədər davam etdirəcəyəm. Sonda nə olacaq, qoy olsun.

– Yox, Cavad, söhbət məndən, səndən, ya anandan getmir. Bir bax, dərindən düşün. Xalqın əli-qolu bağlıdır. Mən sən deyənlə razıyam. Bizə milli hökümət lazımdı, bala. Seyid Cəfər Pişəvəri qurduğu milli demokratik hökumət. Onun bir ildə xalqımıza verdiyi o azadlığı bu inqilab bizə verməyəcək. Mənim də bu qanlı taxt-tacla haqq-hesabım var. Amma, ehtiyatlı olun! Biz öz evimizin, torpağımızın, dilimizin sahibi deyilik. Əlimizi-qolumuzu bağlayan o zəncirləri qırmalıyıq. Gülüzlü qadınlarımızın şəriət qaydaları ilə daşqalaq edilməsi, oğurlanıb şəhvətxanalarda na-

muslarının tapdalanması nə vaxta qədər davam edəcək? Nə vaxta qədər balalarımız öz ana dilimizdə bir şeir, bir mahnı oxumaq hüququndan məhrum olacaq? Bax əsas məqsədimiz bu olmalıdır. O gün məsciddə uzun-uzadı danışıb camaatı yoran mollanın vəzindən hamı yatmışdı.

– Molla nə haqda belə danışırdı ki, camaat yatmışdı?

– Əhya günü bu mərsiyyəxanlar məscidlərin minbərindən düşmürlər. Bir-iki mərsiyəxan minbərə çıxaraq əhya gününün fəzilətindən, həmin gündə imam Əlinin xain İbn Mülcəm tərəfindən öldürülməsindən danışıb bu mömin bəndələri xeyli ağlatdı. Sonra gecəyə məxsus kəbir duası oxumağa başladı. Altı saata qədər oxunan bu duanı yorğun, işdən qayıdan camaat axıra qədər dinləyə bilməzdi. Mollanın ərəbcə dediyi sözləri və cümlələri dinləyənlər təkrarlamalı idilər. İşdən sonra yuxusu gözlərindən tökülən azərbaycanlıların ara vermədən beş-altı saat oturub ərəb dilində deyilən, mənasını başa düşmədiyi bir cümləni təkrarlaması mümkündürmü? Bu kimə lazımdır? Axı bizim gül kimi dilimiz var. Fars dilinin təsiri altında itib-batır. Bəyənmədikləri şürəvi qardaşlarımız öz dilimizdə məktəblərdə, universitetlərdə oxuyurlar. Eh, oğul, deməklə qurtarmır. Dərd birdi, ikidi?– Hansını deyəsən?

Cavad nəfəsini dərmədən atasına qulaq asırdı. Ona elə gəlirdi ki, atasını təzəcə tanıyır. Nəfəsini içinə çəkib dillənmir, sözünün üstünə söz gətirmirdi. Qorxurdu ki, həmişə olduğu kimi atası yenə söhbətini yarımçıq qoyacaq. Yox, belə olmadı. Əvvəllərdəki söhbətlərindən fərqli olaraq Qasım ağa elə bil nə vaxtdan gözlədiyi günə-saata çatmışdı. Cavadın ürəyini açması onu da dilə gətirib ürəkləndirmişdi. Yox, belə olmaz uşaqlara yol göstərmək vaxtı çatıb, xırda bir ehtiyatsızlıq onları məhv eləyər. Çox cavan və təcrübəsizdilər. Həmid də mən deyəni deyirdi elə.

Bir həftə bundan əvvəl qonşu ilə olan söhbəti oğluna deməsə də, çox narahat idi. Hələ bir dəfə də olsun qapısına ayaq basmadığı Karapetin birdən-birə onu evinə, iftar (oruc tutanların axşam yeməyinə iftar deyirlər) açmağa dəvət etməsi indiyə qədər ona müəmmalı və şübhəli görünürdü. Qasım da dünənin uşağı deyildi. İlk sözündən onun məqsədini başa düşmüşdü. İmtina eləməyə səbəb tapa bilmirdi. Bunu Allah qarşısında günah sayırdı. Ümumiyyətlə, oruc açmağa bir neçə adamı bir yerə dəvət

edərlər. Amma Karapetin düzəltdiyi iftar məcməyisinin qırağında Qasım ağa və Karapetdən başqa heç kəs yox idi. O, bu dəvəti bir neçə yerə yozsa da, əsl məqsədi onun dilindən eşitmək, məkr, biclik, hiyləgərlik tökülən gözlərinə yaxından baxmaq istəyirdi.

İftar yeyiləndən, bir fincan məxməri çay içib qurtarandan sonra Karapet uzun nitqə başladı:

– Qasım ağa, yaxşı bilirsən ki, «Əmr həməruf, nəhn əz min kər (camaatı yaxşı iş görüb, pis əməllərdən çəkindirməyə çağırmaq hər müsəlman üçün vacibdir). Bu saqqal, bu əmmamə, özüm evladı-peyğəmbər Məkkəni, Mədinəni ziyarət eləyən, oruc tutub namaz qılan adamam. Bunu şəriət sahibi özü buyurub, mən yox. Mən nə kərayəm ki, qoyulan qanunlara riayət eləməyim. Mən öz qonşumu düz yola çağırıb, pis yoldan qaytarmasam, bunu kim eləyə bilər? Allah-taala buyurub ki, nicat doğruluqdadır. İnsanın əlindən, dilindən xəta çıxa bilər. Lakin Allah ərrəhmanirrəhimdir (yəni rəhm eləyənlərin rəhm eləyənidir). Bilirəm, keçmişdə məcburiyyət qarşısında elə bəd əməllər görüb günah işlətmisən ki, dövlət yanında üzüqarasan. Vəziyyət səni bəzi namünasib adamlarla oturub-durmağa vadar edib. Nə olar ki, cəzanı da çəkmisən, günahlarını da yumusan. Əyalin (arvadın) o taydan gələnlərdən olub. O da öz cəzasına yetib.

O danışdıqca Qasım ağa hirsindən dodaqlarını az qala çeynəyir, qabaqlarındakı fincanı məcməyi qarışıq onun başına çırpmaqdan özünü güclə saxlayırdı. Bu axşamki iftar süfrəsinə hörmət əlaməti olaraq dillənmirdi. Söhbətin axırını gözləyirdi.

– Səni dövlət, hökumət yanında bağışlada bilərəm. Günahlarının bağışlanması üçün sənə qonşu kimi bir qulluq göstərmək fikrindəyəm. Oğlun da sakit həyat yaşayar. Sən gəl bu daşı ətəyindən tök. Bil ki, hökumətlə-hökumətlik eləmək olmaz. Gec-tez su kuzəsi suda sınar. Özünə yazığın gəlmirsə, oğlunu düşün. Küçələrdə bar-bar bağıranlar, bu kökü yerin təkinə çatan hakimiyyətə heç nə eləyə bilməz. Qurban olduğum şahımızın taxtını indiyə qədər yıxan olmayıb. Olubsa da, cəzalarını necə aldıqlarını sən məndən yaxşı bilirsən. Bir az bundan qabaq sizin Pişəvəri də xalqı küçələrə töküb milli hökumət qurmuşdu. Aqibəti göz qabağındadır. Dünən bir dəstənin izinə düşmüşdük. İş başında yaxalaya bilmədiksə də, arxayın olsunlar ki, çox keçməz ovcu-

muzda olacaqlar. Müzəffər adlı birisini tutmuşduq. Elə bir neçə şallaqdan sonra yerlərini açıb söylədi. Mənim maxsatım bir qonşu kimi sənə kömək eləmaxdı.

Qasım dinməz-söyləməz ayağa qalxdı. Süfrə üçün razılıq eləyib qapıdan çıxdı. Məsələ aydın idi. Deməli, təşkilatın izinə düşüb bu haramzadə. Təcili nə isə bir iş görmək lazımdır, deyə düşündü. Cavadla aralarında olan açıq söhbətdən sonra Qasım ağa qəti qərar qəbul eləmişdi: «Bu əbləh məni ələ alıb özü kimi satqın eləmək istəyir. Satqınlıq bunların mayasında var. Qasım mərd yaşayıb, mərd də öləcək. Oğlu da elə».

Ərin xəyanəti

Karapet haqqında çoxdan məlumat almışdı ağa Qasım. Onun qonşuluğa köçməsinin də səbəbini bilirdi. Amma doğru-dürüst məlumatı Karenadan öyrənirdi.

Karena hələ uşaqlıqdan bibisinin himayəsində böyümüşdü. Təbrizin sayılıb-seçilən ailələrindən olan Sirac ağanın yeganə oğlu Nüsrətin qızı idi. Onun xasiyyətində ata-babalarına xas bir ağayanalik var idi. Ciddi, təmkinli olmaqla yanaşı oğlanlara xas mərdlik, qətiyyətlilik onu tanıyanlarda ona qarşı hörmət yaratmışdı. Təşkilat onunla hesablaşır, ölçüb-biçdiyi hər qərarına hörmətlə yanaşırdı. Ata babası Sirac ağanın böyük bazara yaxın malikanəsi var idi. Təbrizin hörmətli şəxsləri burada toplaşırdılar. O, yeganə oğlunu itirəndən sonra varidatını ancaq yoxsullara kömək üçün sərf edir, yeganə varisi Karenanı böyüdüb savad sahibi eləmək üçün yaşayırdı. Bununla da yeganə oğlunun yoxluğundan təskinlik tapırdı. Karenanın və dostlarının oxuması üçün köməklik eləyirdi. Dul bibisi Qumru ona həm ana, həm ata olmuşdu. Qumrunun ailə həyatı erkən pozulmuş, yaşlı atasına, Karenaya baxmaq üçün geri- ata evinə qayıtmışdı. Beş ilə yaxın ailəli olsa da, övladı yox idi. Dediyinə görə əri gəncliyindən tiryək çəkmişdi deyə sonsuzluğunun da səbəbi aydın idi. Qumru atasının hörmət sahibi olduğuna rəğmən dözüb oturmuşdu:

– Qardaşımın ölümü atamın qəddini əyib, erkən qocaldıb. Mənim də ata evinə dönməyim onu lap öldürər deyə geri qayıtmamışdı. Sirac ağa qayıtmasını israrla tələb etsə də, Qumru eşit-

məmiş, yan-yörədən onlara köməklik göstərmişdi. Lakin bir dəfə...

Gecə yarı idi. Qumru xidmətçiyə həyət qapısını bağlamağı, iti öz yerinə salıb işığı söndürməyi tapşırandan sonra yuxarı yataq otağına qalxdı. Əri adəti üzrə hələ gəlməmişdi. Qumru buna adət eləmişdi deyə əhəmiyyət də vermədi. Harda olsa, gələr demişdi. Gecə uzandıqca onun da yuxusu göyə çəkilirdi. Tənhalığın xofu üstünü almışdı. Paltarını soyunmadan yatağa uzanmışdı ki, hənirti eşitdi. Kişi pıçıltısı gecənin səssizliyində aydın eşidilirdi. Yəqin xidmətçilərdi deyə fikirləşdi. Çarşabını başına salıb pilləkənlərlə aşağı mətbəxə tərəf düşdü. Əl fanarı ilə dörd tərəfi işıqlandırıb baxdı. Heç bir şübhəli şey gözünə dəymədi. Qayıdıb təzədən yatağa girdi. Yad adam olsa, it hürərdi. Amma itin səsi gəlmirdi. Bir də nədən qorxuram axı, həyət qapısı bağlı, xidmətçinin otağı darvazaya lap yaxındır deyə öz-özünə təsginlik verdi. Ayaq səsləri getdikcə yaxınlaşırdı. Qumru sıçrayıb yerindən qalxdı.

– Şəfi, ay Şəfi, – deyə çağırdı – Niyə cavab vermirsən, burada sənin nə işin var? Bu nə səsdi belə?

Heç bir cavab almadı. Qumru pilləkənlərin başına çatmışdı ki, iki qara maskalı adam onun üstünə atıldı.

– İndi ərinin uduzduqlarının sonuncusu sənsən, daha heç nəyi qalmayıb, – kimsə dilləndi. Qumru çabaladı. Maskalının əlindən çıxıb mətbəx tərəfə qaçdı. Mətbəx bıçağını götürüb özünü müdafiə eləmək istəyəndə ikinci adam onu arxadan yaxaladı. Qumru bıçağı yerə salıb onun başına əl atdı. İkinci naməlum adamın maskasını çəkib yerə saldı. Öz ərini görcək qolları sustaldı, dizləri titrədi, yerə yıxıldı. Huşunu itirməsi onların karına gəldi. Qumrunu maşına basıb yad bir evə gətirdilər. O, hələ də özündə deyildi. Ev yiyəsi yanında oturmuşdu. Xeyli vaxtdan sonra huşu özünə gəlsə də, gözünü açmağa cürəti çatmırdı. Deyilənləri aydın eşidirdi.

– A dığa, bu ki Sirac ağanın qızıdı. Bu nə cürətdi eləmisiniz? Onun kim olduğunu bilmirsiniz?

Pıçıltılı səslə bir qadın danışırdı. Onun ermənilərdən olduğuna şübhəsi qalmamışdı.

– Onun kim olduğunu səndən yaxşı bilirəm. Əri bizə uduzub.

İstədiyimi eləməsə, özündən küssün. Qardaşının dalınca göndərərəm o dünyaya. İndi o mənimdi. Sən belə işlərə qarışma. İndi o mənim şəxsi malımdı. Nə istəsəm, onu da eləyə bilərəm.

Qadın acıqlı-acıqlı dilləndi:

– Sus, bu nə danışıqdı, Karapet, ağlın çaşıb nədir?

– Ağlım çaşmayıb, bacı. Onlarla köhnə haqq-hesabım var.

– Özün Allah adamısan, deyirsən. Əvvəl nə eləmisən, günahı öz boynuna. İndi artıq yaşa dolmusan. Sən, nə vaxt ağıllanacaqsan? Düşmənçiliyi birdəfəlik unut. Sən düzələn deyilsən. Axı sənə nə pisliyi keçib bu Sirac ağa, qanına yerikləyirsən? Oğlunu öldürdün, ürəyin soyumadı? O kişi pis adam deyil, qardaş. Dar gündə hamının əlindən tutan Allah adamıdır. İnsafa, dinə gəl!

– Hələ nə eləyib deyirsən? Bilmirsən nə eləyib? O ocağının qırağında saxladığı yarı bizdən olan küçüyü nə gözləyir, sonra biləcəksən (o Karenanı nəzərdə tuturdu).

Bu azərbaycanlılar Karapetin kim olduğunu uzun müddət yaddan çıxarmayacaqlar. Mənim ulu babam Aşot Karapetyan necə ki, indiyə qədər yaddan çıxmayıb. Güvəndikləri Gəncəli Cavad xanın başına gətirdiyi oyunları yaxşı bilirlər.

– Burax, sən Allah, bu ata-baba deyə-deyə öyünməyi. Sən onların çoxluğunda yaşayırsan. O tərifləyiyin Karapetyanın burda bir qarış torpağı yoxdur. Olsaydı, sən də Sirac ağa kimi torpaqlı, mülkü olardın. Onun-bunun qapısında sülənməzdin.

Ata-babalarımız Avrovada qaraçı köçü kimi yaşayıblar. Ordan qovulanda türklər sığınacaq verib. Pislik eləyiblər? İndi burda adam kimi yaşayırıq. Gəmidə oturub, gəmiçi ilə dava eləmək deyərlər buna.

Karapet arvadının xəyanətini unutmamışdı. Uzun müddət xarici ölkələrdə yaşayıb evə qayıdanda qonşu qızı Sedanı görüb ona vurulmuşdu. Seda hələ uşaqlıqdan bir məhlədə yaşayıb bir yerdə oynadığı Nüsrəti sevirdi. Onlar uşaqlıq dostu idilər. Sirac ağa buna mane olmaq istəmişdisə də, yeganə oğlunun istəyinə qarşı durmamışdı. Təki xoşbəxt olsun, demişdi. Bütün müsəlman adətlərini öyrənən bu qızı Qumrudan seçməmişdi. Hətta Sedanın barmağına xətircamlıq üzüyü də taxmışdı. Həddi-buluğa çatan kimi toy eləmək istəyirdi. Karapet bunları öyrənib az qala havalanmışdı.

– Bizim qızımızın türkə oğul doğmasına razı ola bilmərəm, - demişdi.

Qumrunun əri (qumar yoldaşı) Məhərrəmin köməyi ilə qızı qaçırmışdı. İki-üç aydan sonra Seda ana olacağını Karapetə açıb deyəndə arvadını döyüb təhqir eləmişdi. Çünki özünün sonsuz olduğunu həkim ona açıq-aydın demişdi. Bunu eşidən Seda sevinmişdi də. Uşağın Nüsrətdən olduğuna şübhəsi qalmamışdı. Yalvar-yaxar eləyib onu boşamasını istəmişdi Seda. Nüsrətə qovuşmaq üçün bunu bəhanə gətirmişdi. Karapet bunu bilə-bilə onu boşamamış, fürsət tapıb Nüsrəti öldürmüşdü. Uşaq dünyaya gələndən üç ay sonra qızı Sirac ağanın darvazasının ağzına qoydurmuş, beləliklə, ananı gözüyaşlı eləmişdi. Seda ilk məhəbbətinin yadigarından əl çəkməmişdi. Sirac ağanın əl-ayağına düşüb uşağa baş çəkmək üçün icazə almışdı. Karapetdən Nüsrətin intiqamını almağı da unutmamışdı Seda. Buna hər an fürsət gözləmişdi. Karapet həbsdən çıxandan sonra Sedanın qara günləri başlamışdı. Qızını görmək onun üçün müşgül işə dönmüşdü.

Şuşanik bütün bunları bilirdi. Odur ki, oturduğu yerdən dik qalxdı. Qumrunun qolundan tutub bərk silkələdi. Qumru çoxdan özünə gəlmişdi.

– Nə olacaq-olsun, mən buna yol vermərəm. Alçaq ərə ölüm də azdır, qardaşım da ondan geri qalmaz haramzadədi. Ərim də bax onun belə işlərinin güdazına getdi. İndi tək qalmışam.

Qumru gözünü açıb yalvardı…

Şuşanik onu tələsdirə-tələsdirə dilləndi:

– Günah sənin şərəfsiz ərindədir. Yeri gəlmişkən, bil ki Nüsrətin ölümündə onun günahı az deyil. Allah qarşısında günahımı yuyub sənə danışıram. Tez ol, oyanmamış çıx bu evdən.

Öz çadrasını Qumruya verib darvazaya qədər ötürdü.

– Qorxma, bu arada it-zad yoxdur. Divarların dibi ilə elə get ki, belə alçaqlara rast gəlməyəsən.

– Bəs sən özün qorxmursan, bacı? Mənə görə özünü xətaya salırsan?

– Mənim itirməyə daha heç nəyim qalmayıb, narahat olma. Tez çıx aradan. Bazara qədər gedə bilsən, ondan o yana qorxusu yoxdur, atangilə çatacaqsan. Bu dünyada gərək belə murdarlara yer olmasın. Mən də qapını bağlayıb dayımgilə gedəcəm. Ayı-

landa məni tapmasın. Gözünü qan örtəndə ana-bacı tanımır bu lənətə gəlmiş.

Qumru atasının yanına qayıdandan indiyə qədər başına gələnləri danışmamışdı. Xəyanətkar ərindən boşanıb mehrini bu körpəyə salmışdı. Ona analıq eləmişdi. Sedaya da təsginlik verən bu idi. Ara-sıra qızından xəbər tutur, rahatlıq tapırdı. Qumru olanları Karenaya danışıb qızın qəlbini qırmaq istəməmiş, böyüyüb həddi-buluğa çatmasını gözləmişdi. Universiteti qurtarıb qayıdandan sonra bibisi Qumru ona hər şeyi danışmış, ehtiyatlı olmağı tapşırmışdı. Bütün bunlara baxmayaraq Karenada Sedaya qarşı az da olsa, məhəbbət var idi. Atasını hədsiz sevməyi Sedanın çəkdiyi əzablar Karenanı bu qadınla mərhəmətli davranmağa vadar edirdi. Hərdən bir gedib-gəlməyində də Karenanın başqa məqsədi vardı. Bu murdar adamın işlərindən xəbər tutmaq istəyirdi. Karena Karapetin hökumət tulası olduğunu bilirdi. Bir səbəbi də Cavada olan hissləri idi ki, hələ də gizli-gizli ürəyində közərir, odu-alovu bayıra çıxmırdı. Cavadda özünə qarşı heç bir münasibət duymurdu. Universitetdə oxuyanda aralarında olan az-çox münasibətdən əsər-əlamət qalmamışdı. İş, əqidə yoldaşı kimi Cavad ona hörmət eləyirdi. Elə bunu başa düşdüyü üçün idi ki, Karena ona bir söz deməmiş, ürəyini ona açmamışdı. Qürurunu sındırıb özünü alçaltmaq istəmirdi.

– Mən Sirac ağanın nəvəsiyəm. Damarlarımda onun qanı axır. Atamın qanını yerdə qoymayacağam. Başladığımız haqq işidir, haqqı-nahaqqa verməz Tanrı, – deyirdi. Anasından aldığı məlumatları təşkilata çatdırır, bu gün-sabah başa çatacaq inqilabın qələbəsinə inanırdı Karena. Keçən axşam Həmid ağanın evində aparılan axtarışdan da xəbərdar idi. Müzəffərin tutulduğundan, Kərəmgilin evini nişan verməyindən də xəbəri var idi. Bütün bunları az-çox Sedadan öyrənmiş, Cavadı xəbərdar eləmək üçün bura gəlmişdi. Nə qədər boylansa da, Cavadı görə bilməmişdi. Karapeti şübhəyə salmamaq üçün tez də çıxıb getmişdi.

* * *

Gecə çağırılmamış qonaqlar çıxıb gedəndən sonra Həmid ağa xeyli özünə gələ bilmədi. Kərəm də səs-səmir çıxarmadan ayaq

üstə dayanıb atasının nə deyəcəyini gözləyirdi. Anası və Güllü təəccüb içində donub qalmışdılar. Ürək eləyib Həmid ağadan bir söz soruşa bilmirdilər. Şükürlər olsun ki, gəlin ana olmaq üçün onlardan xeyli aralı kənddə yaşayan anasıgilə getmişdi. Güllü yüyürüb Kərəmin boynuna sarıldı.

– Qurban olum, dadaş, məni başa sal, bunlar bizdən nə istəyirlər? Birdən başına bir iş gələr, Allah eləməmiş. Necə yaşayarıq. Dünya yenə qarışıb. Cavada da bir xəbər göndər demək istədi, amma utanıb Cavad adını dilinə gətirə bilmədi.

Bilirsən, Kərəm, Qasım əmiyə xəbər göndərmək lazımdır ki, işdən hali olsunlar.

Kərəm sanki indi ayıldı.

– Hə, ata, Güllü düz deyir. Heç ağlıma gəlməyib ki, Cavad nigarandı. Başladığımız işi başa çatdırmalıyıq. Karena «ata»sının tutulub cəzalandırılmasını gözləri ilə görmək istəyir. Amma şəxsi qisas almağın vaxtı deyil deyə hələlik susur.

Həmid ağa:

– Yox, Kərəm, biz indi nəzarət altındayıq. Ora yaxın düşə bilmərik. Onları necə duyuq salaq. Eşitdin ki, zatı-pakına lənət olmuş nə dedi?

– Nə dedi, ata, mən özümü elə itirmişdim ki, fikir vermədim…

– Müzəffəri tutublar. Onun dediyinə görə bu ünvana onları Müzəffər göndərib.

– Bu ola bilməz, Müzəffərə özüm qədər inanıram. Müzəffər təşkilatın ən inanılmış adamıdır, ata.

– Bir şey də var, Kərəm!

– O nədir, ata?

– Ola bilər ki, Müzəffər burada təşkilatın yığışmadığına əmin olduğu üçün onları azdırmaq məqsədilə bunu eləyib. Düşünüb ki, bizim bu işdə əlimiz olmadığına inansınlar.

– Bu da ağla batandır, ata – deyə Kərəm az qala atılıb-düşdü.

– Müzəffər təcrübəli adamdır. Hər hərbə-zorbadan yumşalan deyil. Hər halda ehtiyatlı dolanmalı, təşkilatın toplaşdığı yeri dəyişməliyik.

– Bunu Qasımla məsləhətləşmədən eləyə bilmərəm, Kərəm.

– Sənin ağlına hara gəlir, ata? İndi kimə inanmaq olar?

– Elə lap o zatı napak Karapetin qulağının dibi – Qasım əmi-

nin evi ağlıma gəlib.

Kərəm təəccübünü gizlədə bilmədi.

– Sən nə danışırsan, ata?

– Mən nə elədiyimi bilirəm, Kərəm. Onun ağlına gəlməz ki, biz orada toplaşa bilərik.

– Onda bu xəbəri Qasım əmiyə kim çatdıra bilər?

Bayaqdan qapı dalında onların söhbətinə qulaq asan Güllü dilləndi:

– Mən apararam, dadaş, heç kəs məndən şübhələnməz. İndi küçələr insanlarla doludur. Hər tərəfdən jandarmlar üzük qaşı kimi nümayişçiləri əhatə eləyiblər. Siz ora yaxınlaşa bilməzsiniz, amma mən gedərəm.

Kərəmin, Həmid ağanın təəccübdən gözləri böyümüşdü: Demək Güllünün də hər şeydən xəbəri var deyə Həmid ağa təəccübünü gizlətmədi. Balalarının hər ikisinin alnından öpdü. Bu qərara onlardan çox Güllü sevindi. Cavadı görmək şansı düşdüyünə görə sevinci yerə-göyə sığmırdı.

– Səbrinizi basın səhər açılsın- deyə Həmid ağa qızını yataq otağına göndərəndə səhərə az qalırdı. Lakin hələ də yuxusu gəlmirdi. Həmid ağa dizlərini qucaqlayıb fikrə getmişdi. Baharın ömrü sona çatcaq, payızın nə vaxt gəldiyini, təbiətin qarlı qışa nə vaxt ayaq basdığını heç hiss eləmir adam. Elə fəsildən-fəsilə tələsir, ömrün-günün daşlandığının fərqinə də varmır. Payızın qısa və tutqun günü adama həyatın sonunu xatırladır. Az adam tapılar ki, payızın boz üzünü, ayaq altında xışıldayan sarı yarpaqları görüb təsirlənməsin. Adam bu fəsildə nədənsə özündə bir kədər duyur. Bahara kimi ya qismət deyə Həmid ağa əlini dizinə çırpdı. Oğlunun hələ də ayaq üstə dayanıb onu gözlədiyini görüb özünü ələ aldı:

– Bilirsən, oğu, yel nə qədər güclü əssə də, qayadan heç zad apara bilməz. Bizim xalq yonulmaz bir qayadır. Başında ildırımlar çaxar, dəli küləklər yalayar, tufana, qasırğaya düşər, amma yenə yıxılmaz, qəddini düzəldib ayağa qalxar. Onu bil ki, küləklər ağzında sovrulan kül deyil Azərbaycan xalqı. Bədxahların başında elə bir sal daşdır ki, zaman-zaman onun ağırlığına tab gətirə bilmirlər. Zalımın qılıncı nə qədər iti olsa, öz başını kəsəcək. Biz başladığımız işi yarımçıq qoymamalı, ruhdan düşmə-

məliyik. Əvvəllər olduğu kimi Təbriz yenə öz gücünü, qüvvəsini göstərməlidir. Bu inqilabdan da, nə qazanacağıq, nə itirəcəyik o sonrakı işdir. Ayaq üstə dayanma. Gəl otur görək səhərki planımız nə olacaq. Yazılan intibahnamələrdən Ərdəbilə, Zəncana, Rəstə də göndərə bildinizmi?

– Bəli, ata, hər şey öz qaydası ilə gedir. Əhali küçələrə axışıb. Hökumət öz hayındadır. Xalq ingilislər kimi, amerikanların da bu torpaqlardan çıxmasını tələb eləyir. Öz evinin sahibi olmaq istəyir. Bax bu çox yaxşıdır. Biz bundan istifadə eləyib milli muxtariyyət məsələsini yenidən araya gətirməliyik. Yenə bu tarixi fürsəti əlimizdən verməməliyik. Bu inqilabın məramını öz milli məqsədimizə doğru yönəltməliyik.

Təəssüf ki, hər yanda terror baş alıb gedir. Ölkənin hər bölgəsində tuthatut başlanıb. Biz bundan qorxmamalıyıq, ata…

Ağa Həmid fikirli-fikirli başını qaldırdı. Oğlunun fikirlərindən qürur duysa da, vəziyyətin ağırlığını da bilirdi deyə dərindən köks ötürdü.

– Hə, oğul, Müzəffərin tutulması heç yaxşı olmadı. Bir çətən külfəti var. Barı dolanışıq üçün nə lazımdır əsirgəməyin. Görək onu hansı yollarla azad etdirmək mümkündür.

– Ağlıma bir fikir gəlib, ata!

– O nə fikirdir, Kərəm?

– Bizim uşaqlar Karapeti oğurlasınlar. Əvəzində Müzəffərin azadlığını istəyək.

Ağa Həmid etirazını bildirdi.

– Yox, Karapet onların tulalarıdır. Onun kimi yüzlərlə quyruqbulayanlar var. O kimdir ki, Müzəffər kimi demokratla dəyişsinlər. Özü də bu qarışıq bir vaxtda. Karapet kimilərinin bəd ayaqda başına bir güllə çaxıb yox eləyəcəklər. Həm də Karena hər söz düşəndə deyir ki, ona toxunmayın. O, mənlikdir. Onunla xüsusi haqq-hesabım var. Hələlik ondan istifadə eləmək lazımdır. Tehrandakı dostlarla əlaqəmiz kəsilib. İndi öz qüvvəmizə arxalanmalıyıq. Bildiyimə görə Ərdəbildə köhnə demokratlar və gənclər təşkilatına bir qadın başçılıq eləyir. Onunla əlaqə yaratsaq pis olmaz.

Kərəmi təəccüb götürdü:

– Kəbirəni sən haradan tanıyırsan, ata?

– Siz hər kəsi öz adı ilə çağırmağa vərdiş eləyin, oğul! Ona Karena deyəndə nə isə birtəhər oluram. Nə bilmək olar…

– Amma o qızda şir ürəyi, aslan pəncəsi var, Kərəm. Nahaq deməyiblər ki, aslanın erkəyi, dişisi olmaz, oğlum. Necə haradan tanıyıram? O, bizim qüvvələrimizi birləşdirən əsas simadır. Təəssüf ki, qoca babasını tez-tez məyus edir. Sirac ağanın yeganə varisidir. Ona çox bel bağlayır. Bizim məqsədimizi, məramımızı elə ki öyrəndi, özü qıza xeyir-dua verdi: – Bir gün yaranan bir gün də öləcək - dedi. Biləndə ki, haqq işi uğrunda öləcəksən yaşadığın ömür hədər getməyib, onda həyat da qiymətli olur. Mən də bütün gəncliyimi, cavanlığımı belə işlərə sərf etmişəm. Nüsrətin ölümü qəddimi əydi, xəstə yatağından qalxa bilmirəm. Bilirəm ki, Kəbirə Nüsrətin (Nüsrət Demokrat Firqəsinin üzvü idi) mənim başladığım işi axıra yetirə biləcək, – deyə təşkilata maddi kömək də elədi. Nüsət bizim ən yaxın dostlarımızdan biri, milli hökumətin sağ əli idi. Bilirsən, Kərəm, bizim belə mərd kişilərimiz çoxdur. Təbriz əhli onlarla fəxr eləyir. Çoxu milli demokratik hərəkət süquta yetəndə qırılıb məhv oldular. Bir hissəsi zindandan heç qayıtmadı. Bəziləri vətəndən uzaqlarda qaçqın, sürgün həyatı yaşayırlar. Tarix belə fürsəti tez-tez vermir insanlara. Lakin bu fürsətdən istifadə edib xalqın səsinə, nəfəsinə çevrilənləri də unutmur. Bu mübarizədir. Udan da, uduzan da olar. Özün gördün ki, Babək qalasına yürüşdə az qala bir milyon azərbaycan türkü iştirak edirdi. On əsr bundan qabaq ərəb xilafətinə qarşı mübarizə aparan xürrəmilərin Babək, Cavidan kimi oğullarını indiki nəslin necə fəxrlə yad etdiklərinin şahidi oldun. Xalq öz xilaskarını yaddaşında qoruyub saxlayır. İndi söz düşmüşkən, deyirəm, sən də biləsən. Sirac ağa həmişə bizimlə bir cərgədə olub, Kərəm. İndi bir arzusu var Sirac ağanın.

– O nə arzudur, ata? – deyə Kərəm atasına heyranlıqla dilləndi.

– Nüsrətin qatilindən qisas almaq istəyir. Ona qədər ölməyəcəyəm, deyir. Sirac ağanın əsil düşməni bu səltənətdi, Kərəm.

– Axı mən bilən, o nadan adam cəzasını alıb?

– Elədi, Karapeti tutub zindanda saxladılar, amma tez də azad elədilər.

Burada nə isə başqa bir iş də var. Onun əli çox qapıları açа bilir. Çox qadın-qızlarımızın şəhvətxanalara aparılmasında iştirak

eləyib o murdar: «Osmanlı türklərinin erməni qızlarını məşuqə kimi saxladıqlarının əvəzini çıxıram», – deyirmiş. Bəlkə də...

Sözünün ardını gətirmədi, Həmid ağa.

– O, nə işdir?

– İş orasındadır ki, əsl qatil neçə illər onun evinin içində yaşayıb. Süfrəsinin başında əyləşib, çörəyini yeyib, Sirac ağanın ondan xəbəri olmayıb. Hələ indi də bilmir. Qumru, Karena ona heç nə demirlər. Kişi bərk xəstədi. Bilsə ki, doğma qızının əri oğlunun ölümündə iştirak edib, qızını qumarda uduzub, Karapet kimi alçağa özü öz əli ilə verib, ona ürəyi dözməz. Bax Kəbirəni də yandıran elə budur. Neçə dəfə onu öldürmək üçün fürsət düşüb, təşkilat icazə verməyib. İndi şəxsi qisas vaxtı deyil deyə qızı sakitləşdiriblər. Əvvəllər Kərəmin heç ona qarşı isti münasibəti olmazdı. Karapeti onun əsl atası bildiyi üçün ona inanmaz, çox təklifinə razı olmazdı. Cavadın da qıza olan isti münasibətindən narazı olardı. Kəbirənin səmimiliyinə həmişə şübhə ilə yanaşardı.

Atasının söhbətindən sonra Kəbirə onun gözlərində bir pillə də artıb ucaldı. Tarixi qəhrəmanların əksəriyyəti mübarizəni şəxsi intiqamdan başlamayıblarmı? Qoy olsun. Bu işdə Kəbirəyə yardımçı olacağıma söz verirəm, – deyə məmnunluqla gülümsədi.

Həmid ağanın ayağa qalxması, «axşamın xeyrindənsə, gündüzün şəri yaxşıdır» deməsi Kərəmin ürəyincə oldu. Yuxu onu lap əldən salmışdı.

Gizli görüş yeri

Qasım ağa Karapetin iftar süfrəsindən sonra Həmidlə görüşüb hər şeyi danışmaq üçün yollar axtarırdı. Lakin Həmid ağanın yığıncağın onun mənzilində olacağı fikrindən xəbərsiz idi. Cavadı işə yola salıb xeyli götür-qoy elədi. Yeganə ümid yeri bazara getmək idi. Həmidin böyük bazarın yaxınlığındakı dükanına gələcəyinə ümid edirdi. Buna əmin olmasa da, bazar zənbilini götürüb evdən çıxdı. Yaxındakı dayanacağa çatanda küçənin adamla dolu olduğunu görüb duruxdu. Bazar onlardan xeyli uzaq idi. Xiyabanın bir tərəfindən o biri tərəfinə keçmək istəyən adamları yara-yara keçən avtomobillər çaşdırırdı. Küçədə adamların çox-

luğu, qışqır-bağırla danışanların səsi, boğucu havanı bir az da tündləşdirmişdi. Qəzet satan uşaqların çığırtısı taksi və avtobusların fitlərinə qarışıb küçəni hay-küylə doldururdu. Ağız deyəni qulaq eşitmirdi. Kimi hökuməti söyüb-yamalayır, kimisi divarlara yapışdırılan müraciətləri cırıb yerə tökür, bəziləri də tək-tək adamlara yaxınlaşıb astadan: – bərk dayanın yoldaşlar biz sizinləyik, – deyə nümayişçilərə ürək-dirək verirdi. Qasım ağa çaşqınlıq içində nə edəcəyini, hara gedəcəyini bilmirdi. Yolun o tərəfinə keçmək istədisə də nə avtobusa, nə də taksiyə oturmağa imkan tapdı. Bayaqdan aramsız ötüb keçən maşınların yerini insan dənizi tutmuşdu. Qasım ağanın sevincdən ürəyi dağa dönmüşdü.

«Rədd olsun mütləqiyyət», «Rədd olsun Rza şah taxt-tacı», «Milli muxtariyyatımız uğrunda» şüarları əldən-ələ gəzir, insan dənizi təlatümə gəlir, sahilini sanki yarıb keçir, aşıb-daşırdı. Qasım ağa ha göz gəzdirdi, bir tanış adama rast gəlmədi. Burada dayanmağın təhlükəli olduğunu başa düşürdü. Qarışıqlıqdan istifadə edən xəfiyyələr onu tuta bilərdilər. Onsuz da, Qasım ağanı bir saat da olsun nəzarətsiz qoymurdular. O bunu yaxşı bilir və buna alışmışdı. Cavad dəfələrlə təkid eləmişdi ki, küçəyə çıxmasın. Onun tutulması təşkilatın məhvinə səbəb ola bilərdi. Qasım ağa geri dönmək istədi. Onu hər yandan itələyir, keçməyə yol vermirdilər. O, kütləyə qoşulub xeyli yol getdi. Yolun döngəsinə çatmışdı ki, kimsə onu səslədi. Qasım ağa ha boylandı çağıranı görə bilmədi. Yorulduğu üçün ayaqları sözünə baxmır, başı gicəllənirdi. Adamların arasından uzanan bir əl üst geyiminin ətəyini bərk dartdı. Geri dönəndə Güllünü görüb təəccübünü gizlədə bilmədi. Qız bir əli ilə çarşabını tutub üzünü gizlədir, o birisi ilə Qasım ağanı yolun kənarına doğru çəkirdi.

– Ay qızım, sən buralarda nə gəzirsən, Həmidin bundan xəbəri varmı? Xəbəri olsa, səni buraxmazdı. Yəqin özbaşına gəlmisən, bu saat çıx, get evə. Bura sənin yerin deyil!

– Yox, Qasım əmi, atamın da, Kərəmin də xəbəri var, narahat olma. Mən sizə gedirdim. Səni görüb dalınca düşdüm.

– Xeyir ola, bala?

– Sabahlar üzünüzə xeyirliyə açılsın. Hələlik şər bir iş yoxdur. Evə gedib danışa bilərik?

– Ay qızım, görmürsən nə qədər insan axışıb küçələrə tökülüb?

Burdan çıxmaq müşgül işdir.

– Bəs siz bura necə düşmüsünüz, Qasım əmi? Yaşlı adamsınız, sizi sıxışdırıb tapdalaya bilərlər. Atam deyirdi ki, siz xəstəsiniz. Sizi qorumaq lazımdır.

– Mənim evdən çıxmağımın başqa səbəbi var, burada danışmaq olmaz.

Qasım ağa dörd yanına boylanmaqla Güllünü ayıq olmağa, hər sözü danışmamağa, ehtiyatlı olmağa işarə eləyirdi.

– Atan indi günorta namazındadı, yoxsa, dükandadı? – deyə qızdan bir xəbər öyrənmək məqsədilə dilləndi.

Güllü arxasınca qarabaqara gələn, insan sıxlığında az qala nəfəsi boynunun dalını döyən birini çoxdan sezmişdi, –deyə söhbəti dəyişdi.

– Atam evdə xəstədir, gəldim ki, bəlkə Cavad bir dərmandan-davadan yazar. Gedib alım, aparım.

– Allah insaf vermiş heç sağlamlığını qorumur. Cavadın vaxtı olsa gəlib baş çəkər. Daha sənin bu qarışıqlıqda dolanmağına ehtiyac yoxdur, qayıt evə!

Qasım ağa vəziyyətin ciddiliyini, Güllünün gəlişinin səbəbini başa düşmüşdü. Qızın qolundan tutub, səkinin kənarına doğru dartdı.

Cavadın onlara gələcəyi xəbəri Güllünü xoşhal eləsə də, o bunu istəmirdi. Axşamki axtarışdan sonra, yəqin evimizin ətrafında gözətçilər gəzir, kimin gedib-gəldiyini yoxlayırlar, – deyə düşündü.

– Mən bura gəlmişəm ki, sizi duyuq salım, atamın tapşırığını sizə yetirim. Yoxsa başınız ağrıya bilər. Bu gün-sabah gözlənilən xalq hərəkatının üzdə olan, öndə gedən fəallarının necə qorunması üçün məsləhət alım, Qasim əmi. Bizə gəlmək nədir? Cavadın başına bir iş gəlsə, dilim-ağzım qurusun mən necə yaşayaram – deyə qız öz-özülə xeyli danışdı. Qasım ağa dirsəyi ilə camaatı itələyə-itələyə qızı dartıb, kənara çıxarda bildi.

Bayaqdan onlara getməyə can atan Güllü indi fikrini dəyişmişdi. İzi itirmək üçün yollar axtarırdı:

– Bu əbləh bizdən əl çəkməyəcək. Nə etməli? Bir yol göstər, ya bizi yaradan. Məni atamın, Kərəmin yanında xəcalətli eləmə. Güllü birdən kənardakının eşidəcəyi bir səslə dilləndi:

– Gedək Cavad işləyən xəstəxanaya, elə dişim də ağrayır.

Orada həkimə göstərərəm, həm də atama dərman yazar, alıb apararam.

Qasım ağanın çarəsi qalmamışdı. Qızın dediyindən kənara çıxa bilmirdi. Güllü onları izləyən xəfiyyəni azdırmaq, Qasım ağanın evinin yerini bildirməmək məqsədilə xəstəxanaya doğru addımladı. Küçədə insan seli getdikcə artır, hökumət əleyhinə başlanan hərəkat daha böyük vüsət alırdı. Təbriz və ətraf əyalətlərdə yaşayanlar bu inqilabdan çox şey gözləmək ümidilə gecə-gündüz çalışır, özlərini oda-közə atır, həbsxanalara doldurulur, döyülüb təhqir edilirdilər. Hökumət üzülməkdə olan dayaqlarını qoruyub saxlamaqdan ötrü bütün var qüvvəsini azərbaycanlılar yaşayan kəndlərə, şəhərlərə yönəltmişdi. Onların nəzərində Azərbaycanlı türkləri ipə-sapa yatmayan, üsyankar bir millət kimi durur, əlahəzrət taxtına qorxu yaradırdılar. Çünki tarixdə bir neçə dəfə bunun şahidi olmuşdular. Tehran rejimi Azərbaycan Milli Hökumətinin bir ildə gördükləri işləri unutmamışdı. Qan tökülməsin deyə silahı yerə qoyan milli hökümətdən onun yaxın qulluqçularından kifayət qədər hayıflarını çıxmışdı Rza şah. İndi növbəti dəfə demokratların qəddini düzəldib şah rejiminə qarşı çıxmalarına yol verə bilməzdi. Şəhərdə olduqca qarışıqlıq idi. Dostu düşməndən ayırmaq çətin idi. Vaxtıilə demokratlar adlananlar hələ də təqiblərə məruz qalır, hər yerdə izlənirdilər. Qılınc, necə deyərlər, Karapet kimi hökumət qabı yalayanların əlinə keçmişdi. Milli hökumət dövründə xalqa verilən azadlıqların bir də geri dönməsini istəməyənlər, nə olur-olsun, bu inqilabın da ağır zərbəsini azərbaycanlılara yönəltməyə çalışırdılar. Bu inqilabda xüsusən din xadimləri, mollalar maraqlı idilər. Onlar gənc din fanatiklərini qızışdırır, taxt-tacı ələ alıb İran İslam Respublikası yaratmaq istəyirdilər. Bu inqilaba qoşulan Cavad, Kərəm, Güllü, Karena kimi gənclər sözün əsl mənasında özlərini aldanmış hesab edirdilər. 1979-cu il inqilabının, həqiqətən də, dili, mədəniyyəti, milli qüruru tapdalanan xalqa yaxşı bir şey verməyəcəyini biləbilə bu inqilaba qoşulanlar Pəhləvi rejimindən ata-babalarının qanını almaq, batırılan haqqını geri qaytarmaq üçün geri çəkilmirdilər. Güllü küçə boyu qışqıra-qışqıra əllərində plakatlar gedən dəstədən qopub, ayrıla bilmirdi. Gün günortadan keçmişdi. Ayaqları dalınca güclə gedirdi. Qasım ağa da, əldən düşmüşdü.

Dəstə qışqıra-qışqıra Firdovsi xiyabanına tərəf dönəndə Qasım ağa ayaq saxladı:

– Qızım, biz nə qədər hərlənsək də bu əbləhi azdıra bilməyəcəyik. Ayaq saxla, bir şey düşünək. İndi Cavad evə gəlib məni görməsə, təşvişə düşəcək. Bu yaxında bir köhnə dostum var, ora dönsək, elə hesab edirəm ki, o, bizi izləyə bilməyəcək. Amma onun indiyə qədər sağ qaldığına və evdə olacağına da əmin deyiləm. Başım elə qarışıb ki, əlaqə yarada bilmişəm.

Onlar Qarı körpüsunə qədər xiyabanla gəldilər. Gün çıxsa da, hava soyuq idi. Eynəli dağından əsən külək adamı qılınc kimi kəsirdi. Güllü çarşabın altında tir-tir əsir, göyərən əllərini hovxurdu. Qasım ağa körpünün yanındakı çığırdan çaylağa endi. Addımlarını yeyinlədib Rasta küçəyə doğru döndü. Güllü ondan geri qalmamaq üçün çarşabının ətəklərini dəstələyib az qala yüyürürdü. Küçə ilə bir az sol tərəfə burulub kiçik bir qapını döydü Qasım ağa. Üç kərə asta-asta döyüldükdən sonra qapını açdılar. Bura Qasım ağanın köhnə dostu Mürsəlin evi idi. Vaxtilə Qasım ağa Mürsəllə gizli bəyannamələri, silahları evin zirzəmisində gizlədərdi. Mirzə Mürsəl onun əqidə yoldaşı idi. Milli hökmət dövründə ən çətin işləri ona tapşırardılar. Yoldaşlar arasında Mürsəli «Çətinqaya» ləqəbi ilə tanıyırdılar. Çünki nə qədər tutulub işgəncələrə məruz qalsa da, ondan bir kəlmə söz qopara bilməmişdilər. Özü bəzən zarafat edərdi ki, mən döydümölməzəm. Nə qədər eləsələr, məndən bir kəlmə qopara bilməzlər. Yel qayadan nə qopara bilər? Amma belə deyildi. Ona elə işgəncələr vermişdilər ki, sol qolu və sağ ayağı şikəst olmuşdu. Danışanda kəkələyir, sağ tərəfdən yanağı titrəyirdi, kirpiyini tez-tez qırpırdı. Məhbəsdə olduğu on ilin iki ilini qaranlıq tək kamerada saxlanmışdı Mürsəl. Bu, məhbuslar üçün cəzanın ən ağırı idi. Yorğandöşəksiz, üfunətli təkadamlıq kamerada heç kəslə ünsiyyət saxlamadan lal, kar kimi qalmaq ölümə bərabər bir şey idi. İnsanın bədəni polad da olsa, belə cəzaların qarşısında dağılıb-sökülür. Mürsəl bu mərhumiyyətlərə dözüb yoldaşlarını satmamışdı. Qaranlıq otaq onun gözlərinin nurunun az qala yarıdan-yarısını aparmışdı. İndi bu kiçik otaqda tək-tənha yaşayır, təsadüfi qazancla bir təhər dolanırdı. Dostları şimali Azərbaycana mühacirət edəndə onlarla getməyi Mürsələ məsləhət görsələr də, razı

olmamışdı.

– Gələcək mübarizəmizə mən hələ lazım olacam, qardaş. Sizə yaxşı yol. Ölsəm də, bu torpaqda öləcəm, – demişdi.

Mürsəli uzun müddət tuta bilməmişdilər. Milli hökumətin Təbrizdə qalan fəalları ilə gizli fəaliyyətə keçir, yoldaşlarını divandan qaçırır, gəncləri yeni təşkilatlarda birləşdirib hökuməti qorxuya salan təxribatlar törədirdi. O vaxtlar Seyid Məhəmməd Pişəvarinin ölkəni tərk etməsinə qədər Mürsəl çox işlər görmüşdü. Tehran «İstila ordusu»nun ən çox xoşladığı talanlardan biri də ana dilində çap olunan kitab, jurnal, qəzetlərin yandırılması oyunu idi. Onda Mürsəl qəzet bağlamalarının arasına bombalar yerləşdirməklə nə qədər jandarma öldürmüşdü. Təbrizin çox yerlərində partlayışlar təşkil eləmişdi. Öz dostlarının intiqamını almaq üçün gizli gənclər təşkilatının üzvlərinə deyirdi:

– Bizim bir gülləmiz də boşa çıxmamalıdır. Özümüzü qorumalı, ehtiyatla da iş görməliyik. Düşmən bizim özümüzü yox, tez-tez iş görən əlimizi görməlidir. Biz bu inqilabda məğlub olsaq da, düşmən yumruğumuzu daima başı üzərində hiss etməlidir. Pişəvərinin «Şir Xurşid» səhnəsində dediyi yadınızdadırsa, biz onu unutmamalıyıq. O deyirdi ki, biz silahı yerə qoyub mübarizəmizi gizli aparmaqla mübarizədən əl çəkməmişik. Biz məsləkimizi, əqidəmizi unutmamışıq. Nə olursa-olsun, qələbə bizimlədir. Haqq bizdədir, yoldaşdar! Haqq işi gec-tez qalib gəlir. Mürsəlin evindəki gizli mətbəə yandırılarkən, arvadı, kiçik yaşlı oğlu da həlak olmuşdu. Amma zirzəmidə saxlanan materiallardan xəbər tutmamışdılar. Özünü tutub Tehran yaxınlığında yerləşən «Qəsr-Acar» zindanına salıb min-bir işgəncəyə məruz qoymuşdu. Demək olar ki, bütün sağlamlığını itirib evinə dönmüşdü Mürsəl. Onun evi elə qarışıq yerdə idi ki, yad adam onu asanlıqla tapa bilməzdi. Odur ki, Qasım ağa onları izləyəni azdıracaqlarına tam əmin idi.

Soyuqdan, qorxudan yarpaq kimi titrəyən Güllü qapıdan içəri girən kimi evin isti havasından xoşhal oldu. Qapını açan 30-35 yaşlı hündürboy, qara, iri bığlı, bir az zəhimli və ötkəm oğlan Qasım ağaya tanış gəlmədi. Evin yerini yanıldığını, bəlkə də səhv gəldiyini bir anlığa düşünməyə məcbur oldu.

– Yox, mən bu evdə saysız-hesabsız yığıncaqlarda olmuşam, bu evin hər künc-bucağına bələdəm. Necə ola bilər ki, səhv eləy-

im? Bəs elə deyilsə bizi Mürsəl özü niyə qarşılamır, bu oğlan kimdir?

Evin yuxarı otağından gələn siqaret iyindən Qasım ağa evdə yenə adam olduğunu yəqinləşdirdi. Yenə də durduğu yerdən tərpənmədi. Ehtiyatlı olmaq lazımdır, bəlkə, bizə tələ qurublar? Nahaq yerə Güllünü bura gətirdim, – deyə düşündü. Oğlanın içəri gedib-qayıtmağı çox çəkmədi. Beş-altı ayaq yeri olan dar pilləkəndən asta-asta enən Mürsəl görünəndə Qasım ağanın eyni açıldı. Onlar köhnə dost, qardaş kimi görüşüb öpüşdülər. Mürsəlin gözləri geniş açılmışdı. Təəccübdənmi, sevincdənmi dinə bilmir, göz yaşları yaşına uyğun olmayan qocalıb, qırışmış yanağından süzülürdü. O, «qa... qa..rdaş» deyə dili dolaşa-dolaşa Qasım ağanı təkrar qucaqlayanda içəridəkilər də pilləkənin başına çıxıb bu səhnəyə baxır, heç nə başa düşmürdülər. Onlar yuxarı qalxdılar. Qasım ağa Mürsəlin qulağına nə dedisə, onları ilk qarşılayan oğlan özünü cəld çölə atdı. Çox keçmədi ki, geri qayıdıb:

– Narahatçılığa ehtiyac yoxdur, – deyə gələnləri yuxarı otağa dəvət elədi. Bu, Mürsəlin «qardaşı oğlu» Namaz idi. Namaz o qədər inanılmış adam idi ki, Mürsəl onu qardaşoğlu – deyə çağırırdı. Mürsəlin tanışlıq verməyindən sonra, o vaxt çox cavan olan bu yaraşıqlı oğlanı Qasım ağa güclə yadına sala bildi.

Atası mürəttib Ağaəli öldürüldükdən sonra anasını bacısını dolandırmaq üçün ağa Rəhimin ticarətxanasında xırda işlərlə məşğul olurdu. Ağa Rəhimin maşınını sürürdü. Elə o vaxtdan xozeynin və oğlanlarının demokratlara düşmən kəsildiklərini bilə-bilə demokrat gənclər təşkilatına qoşulmuşdu. Rəhim ağa və oğlanları onu əfəl, haqq-hüququnu düşünməyən, onların buyruqlarını kor-koranə yerinə yetirən avam bir cavan hesab etmişdilər. Elə indiyə qədər də orada işləyirdi. Onun əlində silah gəzdirməyindən əvvəlcə Mürsəl, sonra da Qasım ağa təəccüblənmişdi. Namaz bu silahı ona hacı Rəhimin oğlanlarının nə səbəbə verdiyini danışanda hamı gülüşmüşdü.

– Bu silahı veriblər ki, bizi öldürəsən. Amma sən bununla bizi qoruyursan? Əhsən, əhsən! – Kimsə dilləndi. Namaz zarafata zarafatla da cavab verdi:

– Bəs necə, bu silah gərək öz sahibinə açılsın ki, bu qədər qurban gedən yoldaşlarımızın ruhu şad olsun. Bunu verənin atasına

rəhmət. Hələ də onlar məni itaətkar bir yazıq hesab eləyirlər. Qoy belə olsun. Hər silah bir vaxt açılmalıdır. Baxır kimə? Dosta, ya düşmənə? O düşmən də qarşımızdadır. İnşallah, Sərdarımızın başladığı o haqq işini sona çatdıracağıq.

Kürsünün başında iki nəfər yan-yana oturmuşdu. Onları Qasım tanımadı. Üz-üzə söhbət edirdilər. Bir tərəfdə niqablı bir qadın əyləşmişdi. Onların danışğına qulaq asır, səsini çıxartmırdı. Üzü görünməsə də, oturuşundan onun çox cavan olmadığını bilmək olardı. Çarşabından çıxardığı əlinin üstündəki seyrək qırışlar da onun yaşlı olduğuna dəlalət edirdi. Güllü keçib qadının yanında əyləşdi. Çox üşüdüyü üçün gətirilən çayı məmnunluqla alıb fincanı iki əlinin içində fırlaya-fırlaya əllərini isidir, içmirdi. Gözləyirdi ki, yan otağa dəvət eləsələr, bəlkə. Onda içsin. Bir az da Qasım ağadan həya eləyir, yad adamların yanında çarşabını açıb üzünü göstərmirdi. Oturanlardan biri əsəbi və bir qədər qəzəbli danışırdı:

– Tehran cəlladları tərəfindən qanı axıdılan yüzlərlə, minlərlə atalarımızın, fədai yoldaşlarımızın qanını almaq biz gənclərin borcu və vəzifəsidir. Bu əliqanlı rejimi dağıtmaq, tarımar eləmək yolunda hər bir azərbaycanlı canından keçməyə hazır olmalıdır. Ürəyimizdəki kini-küdurəti soyutmamalıyıq. Əksinə, qəzəbimiz daha da aşıb-daşmalıdır ki, intiqamımızı güclü dövlətlərə söykənib çürüyə-çürüyə, ölmədiril yaşayan Tehran hökumətindən ala bilək.

Onunla üzbəüz oturan o biri cavan kişi yumruğunu mizin üstünə çırpıb dilləndi:

– Danış, danış, qardaş, qoy ürəyimiz qəzəblə dolsun.

Bu əsnada içəri girən Namaz əyilib Mürsələ nə dedisə, o cəld ayağa qalxdı.

– De, buyursunlar, xoş gəliblər.

Cavan oğlan gələnlərə, girib-çıxanlara əhəmiyyət vermədən danışır, qarşısındakının üzünə, düz gözlərinin içinə elə baxırdı ki, sanki ondan cavab gözləyirdi:

– Məsələ aydındır. Elə bil rəhbərimiz bugünkü günü əvvəlcədən görüb, vəzifəmizi müəyyənləşdirib. Biz firqəçilərin borcudur ki, ruhdan düşməyək, fəaliyyətimizi birə-yüz artıraq. Milli hökumətimiz dağılandan sonra biz gizli işləyirdiksə, indi açıqdan-açığa döyüşə girməliyik. Bunların hamısını bildik, indi bir

sualıma cavab ver!

– O necə sualdı, qardaş, buyur, eşidirəm,- deyə onu dinləyən yaşlı kişi təəccüblə yerindən qovzandı.

– Bizim qüvvəmiz bilirsən ki, xəyanətin əli ilə dağıdılıb məhv oldu. Nə qədər qan töküldü. İndi biz bu beş-üç nəfərlə nə edə bilərik? O küçələrdə qışqıranların hamısı elə bilirsən bizi başa düşəcəklər? Mənim bildiyimə görə çoxu İslam dinini bayraq eləyib, küçələrə çıxıblar ki, biz İslam Respublikası yaradacağıq. Buna nə sözün var? Biz yenə əliboş qalacayıq. Yenə qırğınlar, təqiblər balşanacaq.

– Əvvəla, biz beş-üç nəfər niyə oluruq? Biz dünyada yaşayanları nəzərə almasaq, iyirmi-iyirmi beş milyonuq ki, Tehran rejimi bizi farsların içində əridib. Sənin beş-üç nəfər dediyin bu xalq çoxluğunu, əzmini, iradəsini, dəyanətini çoxdan sübut eləyib. Neçə dəfə qalib gəlib. Bu mübarizədə nə qazanacağımızdan asılı olmayaraq yenə inqilabın önündə getməliyik.

İçəri girənlər Qasım ağanı görüb mat-məəttəl qaldılar. İndiyə qədər bir belə işlər görən bu gözəgörünməz adamı çoxu üzdən tanımırdı. Qasım ağa da elə onlar kimi quruyub qalmışdı. Təsadüfən bura döndükləri halda, nələr görürdü. Deməli, Mürsəl mübarizədən çəkinməmişdi, əqidəsindən dönməmişdi. Köhnə əqidə dostlarını, onların yoluna təzəcə qədəm qoyan cavanları yenə ətrafına toplaya bilmişdi. Yenə bir neçə nəfər gələndən sonra iki nəfərin və ağa Həmidin gəlişi Qasım ağanı və Güllünü heyrətə saldı. Sonda gələnlər Karena və Cavid idi. Ata-oğul xeyli baxışsalar da, bir söz danışmadılar. Təkcə Kərəm yox idi. Güllünün ürəyi nanə yarpağı kimi əsdi. Çarşabın altında özünü ələ alıb həyəcanını gizlədə bilmirdi. Qasım ağa qadınların burada nə işləri var demək istədi. Mürsəl onu qabaqladı:

– Bu qız-qadınlar bizim əqidə yoldaşlarımızdır. Narahatçılığa ehtiyac yoxdur.

Sözünü axıra çatdırmamış Namaz təkrar qapıda göründü.

– Karena bacı, axşamdan zirzəmidə zarıyanı neyliyək?

– O çox anaları ağladıb, çox qadını, qızı sahibsiz qoyub. Onunla haqq-hesab işini mənə tapşırsanız, elə bilirəm ki, səhv eləməzsiniz.

Qasım ağanın sualedici baxışını görüb güldü:

– Qasım ağa, sənin qonşunu deyir- mənim «ata»mı.

– Necə? İcazəsiz iş görməyi sizə kim tapşırıb, Cavad?

Güllü Karenanın Cavadla gəlişindən nə qədər narazı qalsa da, indi bir az sakitləşdi. «Deməli, bunlar eyni iş görən dostlardı. Mən də bayaqdan qara fikirlərlə ürəyimi yeyirəm».

– Ata, bu fürsəti əldən versəydik, sən də qarışıq olmaqla onun fitvası ilə güdaza gedənlərin ruhu bizi bağışlamazdı. Həmid əmiyə və sənə əlimiz yetmədi. Bilirsən ki, vəziyyət getdikcə çətinləşir. Karena onun xaricə qaçmaq istədiyini anasından eşidən kimi yatdığı yerdə ana-bala başına torba keçirib əl-qolunu bağlamışdılar. Yoldaşlar da bura gətirib zirzəmiyə atıblar. Biz ondan çox məlumatları ala bilərik. Bəlkə də, milli hökumət üzvlərinin çoxunun güdaza verilməsində iştirak edib. İtgin düşənlərin çoxunun yerini bilir.

– Onu bəndənizə həvalə edin. Ağa Rəhimin bu dilbilməzi ilə onun başını elə «sığallayım» ki, bir də bu dünyaya qayıdıb heç kəsi zəhərləməsin.

Namaz yarızarafat, yarıciddi sözünü qurtarmamış sıçrayıb ayağa qalxdı.

– Hər nə olur-olsun, siz komitədən icazəsiz iş görmüsünüz. Mürsəl, sənin kimi təcrübəli yoldaş buna necə yol verə bilər, başa düşmürəm? Belə pərakəndəlik olsa, biz heç bir şeyə nail ola bilməyəcəyik. Mən cavanları bax buna görə bu işə qatmağın tərəfdarı deyildim. Ona görə də Həmidlə hesab elədik ki, bu mübarizənin bütün çətinliyini yenə üstümüzə götürək. Bizim itirməyə daha heç nəyimiz qalmayıb. Amma cavanlar yaşamalıdılar. Bir də təkrar edirəm, kimin səbri çatmırsa, özbaşınalıq edirsə, təşkilatı tərk eləyə bilər! Lap oğlum olsa belə.

Hamı susmuşdu. Qasım ağa görüləcək işlərdən, qarşıda duran vəzifələrdən uzun-uzadı danışıb qurtaranda Cavad elə bil atasını təzədən kəşf etmişdi. Deməli, təşkilatın sədri onun atasıymış. Mən necə indiyə qədər bunu bilməmişəm? Karenanın da bu işdən xəbəri var imiş. Bəs Güllü? Onun burada nə işi var?

Mücərrəd suallar Cavadın beynini yorur, atasından bir söz soruşa bilmirdi. Qasım ağa yenə əvvəlki kimi odlu-alovlu danışır, tez-tez də üzünü gənclərə tutub bəzi suallar verirdi.

– Bizim çəkdiymiz məşəqqət və mərhumiyyətləri sizlərə –bax

elə oğlum Cavada, Kərəm qardaşoğluna rəva görmədiyim üçün neçə illərdi təşkilatın məqsəd və məramını onlara bildirməmişəm. Sən demə gənclərin hər biri bu taxt-tacın xalqımıza qarşı ögey münasibətini başa düşüb, ayağa qalxıblar. Bax bu yaxşıdır, yoldaşlar. Gələcək gənclərə məxsusdur. Mən sözümü geri götürürəm.

Qasım ağa onunla üzbəüz masa arxasında oturan qaraqaş, qaragöz, hündürboy, arıq cavan oğlana üzünü tutdu:

– Madam ki, bu qorxulu yola çıxmısan, mənim bir sualıma cavab ver!

Oğlan müəllim qarşısında dərsə cavab verirmiş kimi dikəldi. Özünü toplayıb müntəzir dayandı. Cavad, Karena və o biri cavanlar da yaxına gəldilər. Qasım ağa xeyli susdu. Nəisə ürəyi narahat idi. Tez-tez qarşısında oturan niqablı arvada sarı dönür, onun susmağından nigarançılıq çəkir, kimliyini bilmədiyi üçün deyəcəyi sözləri ölçüb-biçir, qaş qabağı açılmırdı. Əlini tez-tez ürəyinin üstünə qoyur, ağır-ağır nəfəs alırdı.

– Mənə de görüm, bu saat ürəyin intiqam hissilə alovlanırmı, oğlum?

Oğlan bir neçə dəfə udqundu. Sözlərini götür-qoy eləyib dilləndi:

– Əlbəttə, alovlanır. İnqitam almaq üçün alovlanmayan bir ürək heç mənə lazım deyil. Ata-anaları dar ağacından asılan yetim uşaqları, dağılan xanimanları, yandırılan məktəbləri görən hər kəsin ürəyi gərək azadlıq məşəli tək yansın. O qırğınları, talanları mən öz gözlərimlə görmüşəm. Bizə dərs deyən müəllimlərimizin birinin meyiti üç gün dar ağacından asılı qaldı. Məktəbimizə od vurulanda, bizi götürüb qaçan digər müəllimimizin boğazına daş bağlayıb çayda batıranda biz kolluqda gizlənib acı-acı ağlayırdıq. Evimizdən ana dilində kitablar çıxanda şah nökərləri atamı itələyib yandırdığı kitabların alovuna atdı. İndiyə qədər bazarlarda bir qarın çörək üçün səfil, sərgərdan dolanıram. Atama görə hər yetən tənə eləyir, demokrat balası kimi ələ salır, heç yerdə iş vermirlər. Bax budur bizim güzaranımız. Siz hələ soruşursunuz da? Mən bu təşkilata könüllü yazılmışam, öz yolumdan geri dönən deyiləm. Hər nə etmək istəsəniz, sizinlə varam...

Qasım ağanın əhvalı nə qədər pərişan olsa da, cavan oğlanın belə səmimi və qəti cavabı könlünü bir qədər açdı. Əyilib oğlanın alnından bir ata nəvazişi ilə öpdü. Tanımadığı oğlanın odlu-alovlu danışığını dinləyən Cavad:

– Mən və yoldaşlarım sənինlə tamamilə razıyıq, qardaş, – deyə əlini mehribanlıqla oğlanın çiyninə qoydu.

Məclis sakitləşəndə ağa Qasım Güllünün onun yanına nə məqsədlə gəldiyini xatırlayıb üzünü ağa Həmidə sarı çevirdi.

– Təşkilatın toplantısını bura salmaqda düz iş görmüsünüz, qardaş. Təəssüf ki, sən də o biriləri kimi özbaşınalıq eləmisən. Bizim işimizdə bu olmamalıdır. Güllünün dediyinə görə bizim evdə toplaşmaq istəmisiniz. Amma burda nələr görürəm? Mən isə məscidə gedəcəkdim. Bu nəylə nəticələnərdi, özün yaxşı bilirsən. Mollalar şah xəfiyyələri sifətində az qala məscidləri tam nəzarətə götürüblər. Sənin əzan çəkdiyin məscidə uşaqlar yaxın dura bilmirlər. Bəzi məsləhətləşmələr üçün sənə əlim çatmır. Yaxşı bilirsən ki, cavanları qorumaq məqsədilə çox məsələləri onlarsız həll eləmək həmişə məni düşündürüb. Qasım ağa narazılıqla başını buladı.

Həmid ağa bir az incik halda dilləndi:

– İradlarında haqlı olsan da, məsələ sənin düşündüyün kimi deyil. Bilirsən ki, mən sənin təcrübəndən bəhrələnib bu yola qoşulmuşam. Başqa cür ola bilməz. Mən Güllünü sizə göndərəndən az sonra bu yığıncağın ünvanından xəbər tutdum. O qədər dolaşıq, çətin yerdi ki, güclə tapa bildim. Xəbəri göndərənin də adını öyrənə bilmədim.

– Bu yığıncağı burada eləmək mənim fikrim olub, – deyə Mürsəl sözə qarışdı. Qonaqlarımızın uzaq əyalətlərdən gəldiklərini, bir də təhlükəsizliklərini nəzərdə tutmuşam, ağa Qasım.

– Burda bir xəta-zad görmürəm, mirzə. Sən özün kifayət qədər təcrübəli fədaisən. Amma intizam olmayan yerdə iş də düz getməz. Bunu məndən yaxşı bilirsən.

– Düz buyurursunuz, Qasım Azəri. Umu-küsü vaxtı deyil. Kim nə və necə bacarırsa, ümumi işimizə kömək eləməlidir. Vaxt bizi gözləmir. Burada bəzi əyalətlərin nümayəndəsi yoxdur. Çünki vaxtında xəbər göndərə bilməmişik. Bir məsələ də var ki, sizdən gizli saxlamağa ixtiyarım yoxdur. Təbriz təşkilatının sədri

kimi hər şeyi bilməlisiniz.

Ağa Qasımın üzündə ciddi bir ifadə yarandı. Oturduğu kətili masaya sarı bir az da irəli çəkdi. Mürsəl Namaza və Karenaya etibar elədiyinə baxmayaraq, sözünü yarımçıq qoyub zirzəmiyə baş çəkdi. Tez-tələsik də geri qayıtdı.

– Sözünü davam elə, Mürsəl, – deyə ağa Qasım nigarançılıqla dilləndi.

– Mən həbsdə olanda eşitdiyimə görə bu mənzildə Tehran həbsxanalarının birindən qaçırılıb gətirilmiş qadın bir il yaşayıb. Mənim gizli arxivimdən də istifadə eləyib kitab yazırmış. O, bizim həmfikirlərimizdən olmasa, bura gətirilməzdi. Həm də bu gizli sığınacağın yerini çox az adam bilir.

– O qadını kim qaçırıb bura gətirib? O, kimsə, sənin ən yaxın adamın olmalıdı ki, açarımın yerini və ünvanını bilsin, – deyə ağa Qasım narahatçılıqla dilləndi.

– Bizim təşkilatın əslən Zəncəndan olan Zülfüqar adlı canlara dəyən bir üzvü var idi. O, həbsxanada bunu danışıb. Mənə yoldaşlar çatdırdılar. Gərək bu məsələ ilə özüm şəxsən məşğul olam, – deyə Mürsəl köksünü ötürdü.

Bayaqdan bir kəlmə də olsun danışmayan qadın nəhayət dilləndi:

– Biz Ərdəbil təşkilatının adından Təbriz azadxahlarına salamlarımızı yetiririk. Ərdəbil həmişə olduğu kimi yenə sizinlədir. İndi nəzmiyyə idarələrinin jandarmları bütün gücünü milli hökumətin gizli fəaliyyət göstərən nümayəndələrinə çevirib. Siyahı üzrə demokratları bir-bir öldürmək, ya tutub zindana salmaqla, yaranan yeni inqilabı təşkilatı başsız qoymaq istəyirlər. Evlərdə yenə axtarışlar başlanıb. Bəzi yoldaşlarımız da tutulublar. Əlbəttə, bu bizi qorxutmur. Karena, Güllü, Məhtaban, Gültəkin kimi qızlarımız da öz tale yolunu bu mübarizədən salanlardı. Hər kəs öz tale yolunu müəyyənləşdirəndə dərindən düşünməli, bu yolun çətinliklərinə, əzab-əziyyətlərinə dözməyi bacarmalıdır. Bu çürük cəmiyyətdə az qadın tapılar ki, öz haqqını müdafiə etmək üçün mübarizəyə qoşulsun. Hamıdan çox biz qadınlar həm talenin, həm də yararsız qanunların əlində oyuncağa çevrilmişik. Yox, bu belə olmayacaq. Bütün dövrlərdə olduğu kimi biz qadınlar da sizinlə çiyin-çiyinə əqidə, məslək uğrunda vuruşmağı bacarırıq və

buna qabiliyyətimiz çatır. Gəlin, bütün ətraf şəhərlərdə, əyalətlərdə olan təşkilatları həmişə olduğu kimi Təbriz Komitəsi ətrafında birləşdirək. Çox şükürlər olsun ki, Qasım Azəri yoldaşla, nəhayət, görüşdük. Deyiblər ki, igidin adını eşit, üzünü görmə. İndi əlverişli məqam yetişib, yoldaşlar. Bizim Ərdəbildə fəaliyyət göstərən köhnə və təzə firqə üzvləri bu mübarizəyə hazırdılar. Bir çətinliyimiz var.

– O necə çətinlikdir, xanım, deyin, bəlkə, köməyimiz dəydi? - deyə Qasım ağa dilləndi.

– Bir məsəl də var: «İtnən yoldaş ol, çomağını yerə qoyma». Hər ehtimala qarşı silahımız olmalıdır. Bizə köməyiniz dəysə, məmnun olardım.

Qasım ağa dillənmək istəyəndə, Mürsəl onu qabaqladı:

– Bizim bu kasıb komamızın miskin görünməyinə baxmayın. Hələ «21Azər» inqilabı vaxtında bu kasıb evin zirzəmisində ən qiymətli materiallar, mətbəə ləvazimatları və silahlar gizlədilərdi. İndiyə qədər o ehtiyatdan bir az qorunub-saxlanılıb. Zirzəminin varlığından xəbəri olan bir inni-cinni yoxdur məndən başqa... Biz o ehtiyatdan yararlanıb sizə kömək eləyərik.

Hamı məmnunluqla nəfəs aldı.

Karena zarafatla:

– Yox, düz demədiniz, Mürsəl əmi. O zirzəmidə daha qiymətli bir şey var- dedi.

Hamı təəccüblə bir-birinin üzünə baxdı. Karena gülə-gülə:

– Bəs mənim «ata»mı niyə demirsiniz? O indi sizin zirzəmidə siçan-siçovullarla dostluq eləyir.

Hamının üzündə xoş bir təbəssüm yarandı. Qasım ağa gözücü Həmidin üzünə baxdı. Onun sifəti un kimi ağarmışdı. Elə bil səsi batmışdı. Bir kəlmə də olsun bayaqdan bəri danışmamışdı. O, bütün fikrini, düşüncəsini toplayıb bu qadının səsini harada eşitdiyini yadına salmaq istəyirdi, bacarmırdı: «Kaş elə bir dəfə niqabını üzündən qaldıraydı» – deyə fikirləşdi. Özü biz kişilərdən geri qalmadığı halda üzü bağlı oturur. Bu ona çox qaranlıq gəldi. Qadın Ərdəbil təşkilatından danışanda Həmiddə bu şübhə daha da artmışdı. Məclisin sonunda məsciddə görüşəcəklərini vədələşdilər. Bu görüşü yenə Həmid ağanın boynuna qoyub iki bir-üç bir dağılışdılar.

* * *

Bugünkü görüşdən Həmid çox qanıqara çıxdı. Güllü də dinib-danışmır, atasındakı dəyişikliyin səbəbini anlamırdı. Gündüzlər qazan kimi qaynayan Təbriz küçələri sükuta qərq olmuşdu elə bil. Arabir yol boyunca yanan fənərlərin buraxdığı sarımtıl işıq hərdən qurd gözü kimi parıldayır, öz kölgəsini ancaq ki işiqlandırırdı. Ara-sıra ötüb gedən maşınların işığı küçələrdə, səkilərdəki qarın üstünə düşdükcə parıltı bir qədər də artır, sonra yenə qaranlıq kölgə kimi döngələri, dalanları gəzirdi. Həmid ağa şübhə yaratmamaq üçün Qasımdan ayrılmış, Qarı körpüsünə qədər xiyaban boyu piyada gəlmişdi. Gecələr bayıra çıxmaq qadağan edildiyinə görə küçələr xəlvət idi. Gecə qarovullarına rast gəlməmək üçün asta yeriyir, ayaqlarını ustufca atırdı. Güllü itaətkar uşaq kimi onunla daban-dabana addımlasa da, fikri Cavadın yanında idi. Bugünki görüşləri puça çıxmışdı. Gənc qızın ürəyi elə bil çiliklənmişdi. Cavad bir dəfə başını qaldırıb onun üzünə baxsaydı, bəlkə, Güllü bu qədər narahat olmazdı. Bir təfərdən də Güllü onun hərəkətlərinə haqq qazandırırdı. Atamdan və atasından həya eləyir, ədəb-ərkan saxlayır, başqa nə ola bilər? Hərdən açıq-saçıq danışıb-gülən qıza onu qısqanır, Karenaya həsəd aparırdı:

Mən niyə onun kimi Cavadla üzbəüz danışa bilmirəm? – deyə özünə suallar verirdi – Hə də, bəs necə, o oxunmuş, savadlı qızdır, Cavad onu niyə sevməsin ki? Mən kiməm? Sadəcə ev qızı. Cavad bu sadə ev qızının kükrəyib daşan məhəbbətindən xəbərdardımı, İlahi? Axı heç mənə bir az da olsa ümid verməyib. Mən onun nə düşündüyünü necə öyrənə bilərəm? Eh, indi belə düşünməyin yeridirmi? Mən bu gənclər təşkilatına Kərəmin təkidilə yazılmışam. Demək, təşkilatın işi, mənim də işimdir. Onlar hara daş qoysalar, mən ora baş qoyaram.

Mən Karena kimi universitetdə təhsil almasam da, ilk savadımı atamdan, qardaşım Kərəmdən almışam. Tarixin bütün qovğalarından xəbərdaram. Nahaq yerə mən özümü onlardan əskik sayıram. Az-çox mübarizə yolunu qağamın verdiyi kitablardan oxuyub öyrənmişəm. Sağlıq olsun, Kərəm söz verib ki, bu qarmaqarışlıq qurtarsın, məni universitetə qoyacaq.

Xəyanətin əli uzun olar

Ağa Həmid evə çatanda özündə deyildi. Qızdırmalı adamlar kimi od içində yanır, başı fırlanırdı. Yemək yadına da düşmürdü. Əllərini yuyub dəstəmaz aldı. Bütün yol boyu bir kəlmə də olsun Güllü ilə danışmamışdı. Dizləri titrəyirdi, vücudunu tələş qarışıq bir qorxu almışdı. Şübhələr, gümanlar içəridən onu qurd kimi yeyir, dərdini açıb-ağarda bilmirdi. Olmaya bu qadın... Yox, o hadisədən iyirmi-iyirmi beş ilə yaxın bir vaxt keçib, bu ola bilməz – deyə şübhəni, gümanı özündən uzaqlaşdırmağa çalışırdı.

Onları qapıda Kərəm qarşıladı. Atasının bulud kimi qaralan sifəti onun heç xoşuna gəlmədi. Bu qarışıqlıqda kişi xəstələnib bəlkə? Allah eləməmiş, başına bir iş gəlsə, təşkilatın taleyi, Güllünün gələcəyi necə olacaq? İşimizi axıra kimi çatdıra biləcəyikmi? Xəstələnməyibsə, bəs nə olub? Gündüz onu Marağaya özü göndərib oradakı təşkilatın işlərindən xəbər gətirməyi tapşırmışdı. Kərəm Xoşgilanda yaşayan anasının yanına gedən arvadına baş çəkməyə də macal tapmamışdı. Çox yorğun idi. Yolda neçə dəfə jandarmlarla qarşılaşsa da, sağ-salamat gəlib çıxmışdı. Atası ondan bir söz belə soruşmadan yataq otağına çıxdı. Arvadı Zeynəb çoxdan yatmışdı. Soyunub astaca yatağa uzandı, gözünə yuxu getmədi. Xəyalı onu neçə illərin xatirələrinə yenə çəkib apardı. Üstünü toz basmış keçmişi gözündə təzədən canlandı. Ona elə gəlirdi ki, köhnə yaralarını zaman artıq sağaldıb. Ürəyini az da olsa, oğlu Kərəmə açandan sonra özündə bir yüngüllük hiss etmişdi. Axı nə baş vermişdi? Bu qadının ora gəlişi onu təzədən peşimançılıq əzabına düçar eləmişdi. Rahatlığını əlindən almışdı. Qohumu Qulamrzanın öldürülməsində, Şəmsiyyə xanımın tək-tənha qalıb həyatdan tez köçməsində də günahı özündə görürdü ağa Həmid. Bir də görüşə biləcəyikmi? – deyə düşündü. Növbəti dəfə təşkilat rəhbərlərinin yığıncağı haqda belə doğru-düzgün bir qərar vermək çətindir. Necə olursa-olsun, yenə Mürsəllə görüşüb nə isə bir şey öyrənəcəyinə ümid edirdi.

Növbəti yığıncağı onun əzan çəkdiyi məsciddə eləmək haqda qərar versələr də ağa Həmid buna heç razı deyildi. Çünki o bir də məscidə qayıtmaq fikrində deyildi. Bəzi yoldaşların fikrincə bu gün-sabah inqilabın taleyi həll olunmalıdır. Biz əlimizi sallayıb

oturmamalıyıq. Mürsəlin evindəki məşvərətdən sonra Kərbəlayı Həmid (onu çox vaxt ağa Həmid deyə çağırırdılar) uzun müddət özünə gələ bilmirdi. Fikirli dolanır, məsciddən qayıdan kimi öz otağına çəkilir, sorğu-sualdan gen gəzirdi. O necə olur-olsun Fatma, Səltənət hekayətini təzədən çözmək, bu işin axırına yetmək fikrini başından qova bilmirdi. Bu iki insanın müəmmalı şəkildə yoxa çıxması ağlasığmaz bir məsələ idi. Bu məsələni hər dəfə çözdükcə düyünlər dartılır, bağlar daha çox dolaşırdı. Axı bir quş da budaqdan uçub gedəndə bir iz qoyur, «quş uçsa, qanad salar», -deyirlər. Bu canlı insanlar quş qədər də olmadılar ki, indiyə qədər onlardan bir səs-soraq ala bilmirik? Həmid ağa yenə özünü günahlandırdı. Qasımı Tehran hökumətinin qəzəbindən qorumaq üçün onda bu işi kökünə qədər araşdırmadığına heyifsiləndi. İndi necə eləsin? «Sonrakı peşimançılıq fayda verməz» – deyiblər. O, öz-özünə təskinlik verərək:

– Mən də az iş görmədim. Lap kələfin ucunu ələ keçirmişdim onda. Qulamrzanın ölümü hər şeyi alt-üst elədi.

Doğrudan da, Həmid ağanın öz ata-baba yurdunu atıb Təbrizə köçməyinin, dostu Qasımı tək qoymamağının səbəbi birbaşa bu məsələ deyildimi? Bu hadisədən sonra Azərbaycan Demokrat təşkilatına könüllü yazılmaqda, indiyə qədər bütün ömrünü ona həsr etməkdə məqsədi Fatmanın başladığı işi davam etdirmək idi. İndi oğlu Kərəmin, qızı Güllünün bu təşkilatdakı fəaliyyətinə rəğbət bəsləməkdə də eyni məqsəd güdmüşdü, Həmid ağa: «Yox, bunlar hələ çox azdır. Mən gərək Fatmanın işini o vaxt çox işlərdə şübhəli görünən, bazar ətrafında lotuluq eləyən Əsədullaya tapşırmayaydım? Həmid ağa təəssüflənə-təəssüflənə neçə illərdən sonra başına gələnlərə təzədən qayıtdı. Ürək ağrısı ilə olanları təzədən xatırladı…

…Qış qurtarmışdı. Aprel ayının günəşli günlərindən biri idi. Ətrafda təmizlik, təzəlik göz oxşayırdı. Qarın, şaxtanın zülmündən can qurtaran lalə, nərgiz ilıq, mülayim bahar mehindən xumarlanıb mehriban bacılar kimi qucaqlaşıb nazlanırdılar. Kolların dibində utana-utana boynunu bükən bənövşələr mavi don geyinmişdi. İnsan arzuları kimi pardaxlanan qızıl gül kollarını budaq-budaq gəzib oxşayan bülbülün sevinci aşıb-daşırdı. O gah oxuyur, gah gülün üst budağına çıxıb günəşi salamlayır, gah da

gülün kölgəsində daldalanıb nəşələnirdi. Nə güldən, nə çəməndən ayrıla bilirdi. Tehrandan məyus, əliboş qayıdan Həmidin ürəyindən bu bahar çağında qara qanlar axırdı. Qasım yenə də əvvəlki kimi ruh düşgünlüyü ilə az qala dəli olmuşdu. O, bir dəfə Bakıda olarkən belə hallara düşdüyünə görə ruhi xəstələr yatan xəstəxanada müalicə almışdı. Həmid indi onun vəziyyətini çox yaxşı başa düşdüyü üçün ondan xəbərsiz axtarışa çıxmışdı. Arvadına məxsus dükanlardan birini satıb təzədən vəkil tutmaq, Fatmanı azad etdirmək fikrində idi. Axı necə? Fikirləşə-fikirləşə bazara çatanda gün xeyli qalxmış, dağların sinəsini odlayıb göz yaşlarını axıdan isti şüaları selə-suya qarışıb Təbrizin üstünə çökən dumanı-çəni qovub seyrəltmişdi. Bazar ətrafında bir canlanma var idi. Dükan sahibləri mallarını çöldəki piştaxtaların üstünə çıxarıb müştərilərə tərifləyir, bəziləri də qışın nəmişliyindən salamat qurtaran xalı-xalçaları günə verir, qəzet satan, su paylayan, xırda qulluq göstərib az da olsa, pul qazanmaq istəyən uşaqların səsindən qulaq tutulurdu. Bir az aralıda hacı Ələsgərin baqqal dükanının qabağında qələbəlik var idi: «Təzə ət, təzə ət, əmlik, cavan dana əti – nə istəyirsən, bəri gəl», –deyə qışqıran dükançılar az qala qolundan tutub bazara gələn hər kəsi zorla ora aparmaq istəyirdilər. Bazarın bir tərəfində qumaşdan üz çəkilən mütəkkəyə söykənib sulu qəlyan xoruldadan sahibkarların qabaqlarında pürrəngi çay stəkanları buxarlanır, nabat, noğul, xurma, püstə, badam qabları yan-yana düzülmüşdü. Onlar bazara girib-çıxana əhəmiyyət vermədən söhbət eləyir, gündəlik mədaxillərindən danışırdılar. Xırda sinilərdə çay gətirib –aparan uşaqlar lal-kar kimi buyruq yerinə yetirir, üzüyolalıq eləyib xozeynin gözündə yaxşı görünməyə çalışırdılar. Taxtın üstündə xınalı top saqqalını tumarlayan tacirlər əllərindəki təsbehi fırladıb istixarə eləyir, bir il ərzində milli hökumətin onların mal-mülkünə vurduğu zərərdən yana-yana danışır, hələ də hökumətin geri qayıdacağı qorxusu canlarında hiss edib donquldanırdılar.

Həmid ağa Hacı Əsədullanı bu sahibkarların yanında görərdi. Bir növü Hacı Əsədulla varlı tacirlərin himayədarı, özünün dediyi kimi bazar lotusu idi. Tacirlərə, baqqallara borcunu uzun müddət qaytara bilməyən fağır-fuğaranın başının üstünü ley kimi alar, hərbə-zorba ilə son tikələrini də əllərindən qoparardı. Bir də

Həmid ağa eşitmişdi ki, Əsədullanın əli uzanan iş mütləq düzəlir. O, nəinki bazar varlılarına qahmar çıxır, hətta yuxarılara, meyxana, şəhvətxanalara da yol tapa bilir. Kimin nə çətinliyi olsa, xəbərsiz itən, ya oğurlananlardan da xəbəri olardı. Onu da bilirdi ki, bütün bunlarla yanaşı Hacı Əsədullada mərdlik, sözübütövlük də var. Söz verdi sözünün arxasında durar, yerinə yetirməmiş əl çəkməzdi. Odur ki, Həmid ağanın yeganə ümidi ona gəlirdi deyə onun yanına gəlməkdə səhv eləməmişdi. Milli hökumət dövründə onun haqqında deyilənlərə, yayılan şayələrə də bir o qədər əhəmiyyət verməmişdi. Onun pul düşgünü olduğuna şübhə eləmirdi. Amma Azərbaycan Milli Azadlıq inqilabının süqutundan sonra fədailərin qətliamında iştirak edib, onları hökumətə satmağına inanmırdı. Buna Həmidin əsası da var idi. Çoxdan, lap çoxdan olmuş bir əhvalat onun yadına düşdü:

…1325-ci il Azər ayının on ikisində (1946-ci il 12 dekabrda) xain Qavvam səltənətinin ingilis, Amerika dövlətlərinin tələbi və köməyi ilə bir il öncə azadlığı dadan Azərbaycan torpağı qana çalxandı. Milli hökumət fədailəri təqiblərə, edam və işgəncələrə məruz qalanda Həmid bəzi yoldaşların etibarlı yerlərdə gizlənməyinə, bəzilərinin sovet Azərbaycanına mühacirətinə bacardığı qədər kömək etmişdi. Lakin öz həyatını və qoca atasını da təhlükəyə atmışdı. Gecə yarı Ərdəbildən xeyli aralı dağ ətəyində yerləşən Qarazəmi kəndində yaşayan xalasının yanına getməyə hazırlaşırdı. Sənədləri zirzəmidə yerbəyer edir, evdən mümkün qədər tez çıxmağa tələsirdi ki, qapı bərk döyüldü. Həmid heybəsini yatağın altında gizlədib çar-naçar qapını açdı. Gələn milli hökumətin Ərdəbil gənclər təşkilatının sədri Nəsir idi. Onun tük basmış üzündə, bığında, saqqalında qar topaları buz bağlamışdı. Başına doladığı ağ parçayla ağız-burnunu bağlamışdı. Təkcə gözləri parıldayırdı.

– Kömək elə, qardaş, tamam donmuşam, – deyə Nəsir özünü Həmidin boynuna atdı. Həmid çıxılmaz vəziyyətdə qalmışdı. Özünün bu saat, bu dəqiqə ələ keçmək qorxusu var idi. Küçəyə çıxmaq ağılsızlıq olardı. Tehran hökuməti zəncirdən açılan it kimi demokratların üstünə düşmüşdü. Bir ildir orda-burda burusan hökumət nökərlərinin gün dəyəndə canlanan ilan kimi qırışıqları açılmışdı. Hələ o vaxtlar siyasət deyilən işlərdən uzaq olan

Əsədulla Həmidin yadına düşdü. Evləri bir neçə çəpər onlardan aralı olan bacısı Xədicəgilə qonaq gəlmişdi. Həmid onu gendən bir neçə dəfə həyətdə görsə də, yaxın dostluqları yox idi. Onun haqqında deyilənləri az-çox eşitmişdi. Odur ki, çarəsi kəsilən Həmid Nəsirin qiyafəsini dəyişdirib, Xədicəgilin qapısını döydü. Qapıya Xədicənin on dörd-on beş yaşlı oğlu Kərim çıxdı. O, qapını açmağa ürək eləmirdi.

– Siz kimsiz, kimi istəyirsiz?

– Allah qonağıyıq, aç qapını, – deyə Həmid dilləndi.

Cavab bir az gecikdi:

– Kimdir orda, Kərim, niyə quruyub qalmısan? – Əsədulla dilləndi.

– Allah qonağıyam – deyir, dayı.

– Allah qonağıyam deyənə qapı bağlamazlar, kim olur-olsun. Aç qapını, qoy gəlsin! – Deyə hökmlü bir səslə bacısı oğluna acıqlandı.

– Dadaş indi qonaq qəbul eləməyin vaxtı deyil. Görmürsən hər tərəfdə tuthatut başlanıb? Allah eləməmiş, demokratlardan olar, evimiz yıxılar, – Bacısı təşvişlə az qala yalvardı.

– Sən nə danışırsan, bacı, gecənin bu soyuğunda sənin qapını döyən adam səni sayıb hörmət eləyib ki, sənə üz tutub, keç bu yana! Biz kişi-zad deyilik ki, qorxursan?

Əsədulla qapını açıb onları evə dəvət elədi.

Həmid onu başa saldı:

– Bu yoldaş Maku tərəflərdəki dağ kəndlərində olan təşkilatların işini yoxlamağa getdiyi üçün Təbrizdə baş verənlərdən xəbərsiz olub. Azərbaycan Demokrat firqəsinə edilən xəyanəti heç ağlına da gətirməyib. Yoxsa Təbrizə qayıdıb, özünü təhlükəyə atmazdı. Mümkünsə kömək elə, qardaş! Xalq yolunda can qoyan yoldaşdır, onu qorumalıyıq. Mən də yol üstəyəm. Sənə güvənirəm.

– Mənim belə işlərdən çox başım çıxmaz, bu evdə mən də qonağam, sabah Təbrizə dönməliyəm. Hər kimdisə, can-ciyərimdir, eloğludur. Bir adam ona zərər toxusa, mənim meyitimin üstündən keçməlidir. Get, qardaş, yolundan qalma. Allah köməyin olsun!

Əsədulla Nəsiri üç gün evdə saxladıqdan sonra aradan sağ-

salamat çıxarmışdı. Onun bu mərdliyi elə o vaxtdan Həmidin yadında qalmışdı deyə yenə ona üz tutub kömək istəmək fikrinə düşmüşdü. Bazar ətrafına bir neçə dəfə fırlansa da Əsədulla gözünə dəymədi. O vaxtdan illər keçib, bəlkə, başında bir hadisə var? Nə bilmək olar... Yaxınlıqdakı çayxanaya baş çəkdi. Çayxana adamla dolu idi. Bir neçə dəfə göz gəzdirdi, yenə onu görə bilmədi. Bir adamdan da soruşa bilmirdi. O saat bazardakı Əsədulla kimiləri şübhəyə düşəcəkdilər ki, vacib işi düşüb. Həmid bu işi gizli saxlamalı idi. Ağa Həmid neçə vaxtdan bəri bir xəbərətər tutulmayan bu işdən, doğrusu, bir nəticə gözləmirdi. Amma «axtaran tapar» ümidilə təzədən axtarışa başlamağından özünə təskinlik tapırdı. Həmid Təbrizə Ərdəbildən köçüb gələnə qədər nə Əsədullanı, nə də bacısını görmüşdü. Bazara gedəndə xoş bir təsadüfdən görüşüb hal-əhval tutsalar da, yaxın dost kimi söhbətləri olmamışdı.

Həmid Əsədullanı Təbrizin ən qədim bazarında, qarışıq bir yerdə tapdı. Doğrusu, Əsədulla çox dəyişmişdi. Burda bir baqqal dükanı açıb ailəsini dolandırırdı. Ailə deyəndə ki, o yarı yaşdan adlasa da, şəxsi həyatını qura bilməmişdi. Elə o hadisədən sonra bacısını və oğlunu yanına köçürmüşdü. İndi bacısı nəvələrinin və özünün qayğısını çəkir, birtəhər güzaran keçirirdi. Əsədulla Həmidin gəlişinin səbəbini soruşmadan əlindən tutub içəri çəkdi. Kiçik bir stol gətirib oturmağı təklif elədi. Həmid başına gələnləri, indiki çarəsizliyini yerli-yataqlı danışıb qurtaranda qarşısına qoyulan çay çoxdan soyumuşdu. Əsədullanın tək-tək ağ düşən qalın qaşları çatıldı. Əlini çənəsinə söykəyib xeyli fikrə getdi:

– Qardaş, bu iş çox mürəkkəb və qorxulu işdir. O qızın Arazın o tayından gəldiyini və çox gözəl bir zənən olduğunu da eşitmişdim. Amma üzünü görməmişdim. Bizim yaşadığımız bu xaraba məmləkətdə haqq-ədalət axtarmaq, xüsusən də, qadın hüquqlarından danışmaq mənə elə gəlir ki, ağılsızlıqdır. O qız bizim bu hökumətin törətdiyi cinayət və cəzalardan xəbərsiz belə bir işə qoşulub. Güman eləmirəm ki, o indi sağ qala. İran hökmdarlarının ləğv etdiyi gizli zindanı zatıqırıq Rza xan təzədən bərpa elədi ki, öz keçmişini ört-basdır eləsin. Onun haqqında bir şey bilənlərin hamısı o gizli zindanda çürüdülər. İndi də oğlanları, qızları onun yolunu davam etdirir, taxt-taca qorxu yaradan, necə de-

yim, başqasından çox bilənləri ora atdırırlar. Ordan bir canlı hələ sağ çıxmayıb. Bir də ki, İranın ən iri və qorxulu, öz dəhşətləri ilə tanınan «Qəsri-Qacar» zindanında belə xüsusi dustaqlar saxlanılır. Bilirsən ki, Seyid Cəfər Pişəvəri on il orda can çürüdüb. İndi kim bilir...

O, xeyli susdu.

– Məni qınayırlar ki, sən belə siyasi işlərdən kənarda durub, ancaq özünü qoruyursan. Bu belə deyil, qardaş! İndi sən danışırsan, qoy elə ürəyimi mən də boşaldım. Məni belə evsiz-ailəsiz həyat sürdürən də bu xalqın belə dərdləri olub. Üzdə biganə bir adam kimi göründüyüm üçün mənim içimdəki tələtümü duymaq çətindir. Əgər o qızı «Qəsri-Qacar»a salıblarsa, buna əncam çəkmək çox müşgül işdir. Qoy elə yeri gəlmişkən onu da deyim ki, belə gözəl qızlarımızı şəhvətxanalara, qumarxanalara zorla aparan alçaqlar da var. Onların sözləri də, əlləri də elə yerlərə çox tez çatır. Bax mən bundan qorxuram.

Mən dolanmaq üçün hər işə əl atmışam. Amma namus, qeyrət ləkələyənlərə qarşı çox qəddaram.

«Allah, bircə bu olmasın. Ağlıma gələn, başıma gələ bilər. Fatmanın gözəlliyi, bir tərəfdən də bu dağılmışda qəribliyi əclafların əlinə fürsət verə bilərdi. O qədər qadın taleyi ilə alver eləyən dəllallar var ki... Belələri pul xatirinə nəyə desən gedərlər».

Həmidin köhnə yaraları təzədən qanamışdı. Neçə illər bundan qabaqkı dərdi təzələnmiş, onu çəkib əzab burulğanına salmışdı:

–Qasımdan gizli nələr çəkdiyini bir özü bilirdi, bir də başının üstündəki Tanrı» – deyə içində yanıb tökülmüşdü.

Həmid ümidini üzməmişdi. Axırıncı dəfə Fatma ilə görüşündən sonra bədbinliyə qapılsa da, əlindən gələni eləyib günahlarını Tanrı qarşısında heç olmazsa bir az yumaq istəyirdi. Əsədullanın belə danışığı onun əl-qolunu qırsa da, özünü ələ alıb fikrini topladı.

– Mən gəlmişəm ki, sən Tehrana gedib Fatmadan bir xəbər öyrənəsən, həm də vəkil tutasan. Məni bu işlə bağlı hökumət idarələrinə buraxmırlar. Bilirsən ki, milli demokrat firqəsinin üzvləri indiki hökumətin gözündə ən qorxulu adamlardı. Xırdaca bir səhvdən güdaza gedə bilərlər. Mən də o cümlədən, şübhəli şəxslərin sırasındayam.

Həmid ağa qoltuq cibindən bir topa pul çıxarıb Əsədullanın qabağına qoydu.

– Sən məni nə hesab eləyirsən, Həmid? Burada namus-qeyrət məsələsi var. Götür pulunu, yoxsa inciyərəm. Əvvəlcə burada bir haramzadə var, ondan bəzi məlumatları öyrənməliyəm. Əgər onun əlinə o qız keçməyibsə, sonra sən deyəndi.

– Sən nə danışırsan? Siyasi bir dustaq onun əlinə necə keçə bilər? O həbsxanaya quş quşluğu ilə səkə bilmir. Bir də onu öldürmək, ya yox eləmək üçün bir səbəb lazımdır.

– Səbəb onun o taydan gəlməsi və demokrat arvadı olmasıdır. Heç o vaxt yox, elə indi də demokratları öldürənlərə sorğu-sual yoxdur. Mən nə dediyimi yaxşı bilirəm. Bir halda ki, mənə müraciət etmisən, qoy bildiyim kimi iş görüm. O adamın zatına da bələdəm. Əvvəllər Ərdəbildə danosçuluq edirdi, indi də Təbrizdə peyda olub. Bələləri mənə yaxşı tanışdı, qardaş. Hökumətin bütün çirkin işləri belələrinin əlilə görülür. Siyasi dustaqlardan can qurtarmaq üçün ya gizli zindanlara atırlar, ya da qadın ləyaqətini alçaldıcı yerlərə verməklə qürurlarını sındırırlar. Təki bu ikincisi olmasın.

Əsədullanın hirsindən dodaqları titrədi.

– O, kimdir, Əsədulla, bəlkə, elə tanıyıram? Axı o haradan Fatmanı tanıya bilər?

– Eh, qardaş, onu tanımayana lənət. Haylardandır, cəsusluğu ilə ad-san qazanan Karapet adlı birisidir. Onu hələ milli hökumətin dağıldığı vaxtdan tanıyıram. Alçaq neçə tanış-bilişimi güdaza verdi. Sonra da qumarxanalarda gün keçirə-keçirə neçəsinin evin dağıdıb xaraba qoydu. Bir dəfə də fürsət düşmüşdü ki, qanına bulayam onu, xəstə bacım və uşağı gözümün qabağına gəldi. Onların məndən başqa köməyi, dayağı yoxdur. Mən sənə söz verirəm, öyrənsəm ki, Fatmanın qaçırılmasında onun əli var, bu dəfə mənim bıçağımdan can qurtara bilməyəcək. Təki qız sağ olsun, sağdısa yerin altında olsa belə, tapacam onu.

Karapet adını eşitcək Həmid ağanı elə bil ilan vurdu. Onun adını az-çox eşitmişdi. Azərbaycan Demokrat Firqəsi və onun mübariz dəstəsi olan demokrat cavanların yığıncağında bu ad hallanırdı. Cavanlar təşkilatının «İntiqam məhkəməsi» öz siyahısında başdan bu adı yazanda o vaxt Həmid buna bir o qədər

əhəmiyyət verməmişdi. O günki məclisdə Karenanın dediklərini yadına salıb Əsədullanın sözlərində bir əsas görürdü. Eşitmişdi ki, harada bir dolaşıq iş varsa, orda ingilis barmağı var. İndi də qaranlıq zindanlara, bağlı qapılara, xəyanətkar yuvalara çata biləcək «erməni əli» mövcuddur. Belə olan surətdə bu cür murdarlara bizimlə bir torpaqda yaşamağa kim belə rəvac verib, kim? Baş verən qovğalarda necə olur ki, hayların birinin də burnu qanamır?

Həmid ağa ürəyini didib-gəmirən suallara özü də cavab verirdi. Ən güclü, yenilməz sərkərdəni, basılmaz ordunu xəyanətin əli yıxmayıbmı? Tarix bunu neçə dəfə sübut eləyib? Tarixin hər dönəmində karapetlər «şiri-nərə» dönüb məkrli niyyətlərinə rəvac veriblər. Belə qorxaqlar, xainlər münbit şəraitdən istifadə edib əlqol atırlar. Öz yaxınlarını belə satmaq üçün uf da demirlər.

Həmid ağa Əsədullaya bel bağlayırdı. Onun sözübütöv, mərd bir adam olduğuna bir daha inanırdı.

Ağa Həmid Karapetlə bağlı bildiklərini Əsədullaya demədi. Şərtləşdikləri kimi sağollaşıb ayrıldıqlarından bir həftəyə yaxın vaxt keçirdi. Ağa Həmid nigarançılıqdan özünə yer tapa bilmir, nə ailə üzvlərinə, nə də Qasım ağaya bir söz deyirdi. Onun pərişan halını naxoşluğu ilə bağlayırdılar. Həmid ağa bir neçə dəfə Əsədullanın evinin həndəvərində fırlansa da, şübhə doğurmamaq üçün tez də uzaqlaşıb getmişdi.

* * *

Əsədulla Tehranın qaynar həyatında çox sıxılır, havası çatmırdı. Hər küçə, hər dalan adamda bir xof yaradır, insanlar laqeyidcəsinə ötüb gedir, başqasının dərdi-səri heç kəsi maraqlandırmırdı. Əsədulla harada olur-olsun dünyanın cənnət güşəsi Təbrizi sayardı. Ordakı doğmalığı heç yerdə görə bilmirdi. Əsədullada bu qənaəti Tehran hökumətinin azərbaycanlı əhalisinə bəslədiyi ikili münasibət yaratmışdı. Hələ uşaqlıqdan kürəklərində zoğ kimi izi qalan şallaq yerlərinin ağrısını unutmamışdı. Bunlar azıymış kimi Tehran «İstila ordusu»nun Təbrizin küçə və meydanlarında törətdiyi talanlar onun gözü qarşısında olmuşdu. Odur ki, Tehrana gələndə qəribə hallar keçirir, yad ölkədə olan adam kimi özünü ögey sayırdı. Bir tərəfdən də, Təbrizlə müqayisədə Tehran-

dakı adam sıxlığı onu darıxdırırdı. İndi belə hisslərə qapılmağı artıq sayan Əsədulla bir xeyli boş-boşuna fırlandı. Xiyaban və bazar ətrafında iynə atsaydın, yerə düşməzdi. Əsədullanın başı fırlandı, gözlərinə qaranlıq çökdü. Nəhayət, səhərdən bəri bir şey yemədiyi yadına düşdü. Ayaq üstə heç olmasa bir şey alıb yemək pis olmazdı – deyə fikirləşdi. Hara baxdısa, uzun-uzadı növbələr görüb əsəbləşdi. Doğrudan da, Tehran nə böyük şəhər imiş. Zarafat deyil, doqquz-on milyon adam yaşayır burada – deyirlər. Yox, gərək mənə lazım olan adamlarla görüşüm, sonra bir şey fikirləşərəm, yemək qaçmır ki, öz-özünə deyindi.

– Havaxtı, Həmid ağaya söz verdim, amma bu iş çox çətin və dolaşıq işdi. Mənə deməzlər ki,- kommunistlərin vətənindən gələnlə sənin nə əlaqən var? Bunu heç düşünməmişdim. Düşünməmişdim ki, belələrinə siyasi dustaq möhürü vurub çox məxvi yerlərdə saxlayırlar. Belələrilə xırda bir tanışlıq adamı güdaza verə bilər. Bəs nə eləyim? Söz vermişəm, gərək sözümün yiyəsi olam. Kişi tüpürdüyünü yalamaz. Ölüm olsa belə, geriyə yol yoxdur. Bir həftə bundan qabaq bu haqda Karapetdən nə isə soruşduğuna peşiman oldu. Kim bilir bu allahsız kafir nə düşünüb-daşına bilər. Düzdür, mənə and-aman elədi ki, bu işdə yoxdur. Ta belə işlərlə məşğul olmur. Əsədulla ona inanmadı. İşlədiyi qumarxana onun düz-əməlli adam olduğuna zəmanət vermir. «Gərək heç məqsədimi aydınlaşdırmayaydım. Belə də səhv olar ki, mən elədim? Bu daha sirr olmadı ki... Qayğılar səni lap huşdan-başdan aparıb qocalmısan, ay Əsədulla. Əvvəllər sən axı qazdan da ayıq olardın. Öz əlimlə qoyunu qurda yem elədim? Keç günahımdan, qardaş!» – Deyə öz-özünə vaysındı.

Həmid ağa qadın həbsxanasının yerini təxminən ona demişdi: – Ora girmək çox çətin olacaqdır. Bunu heç ağlına da gətirmə, Əsədulla – deyə Həmid ağa xəbərdarlıq eləmişdi. Köhnə dostları Cəfər ağanı və kərbalayı Rəsulu tapmaq ümidi ilə əlini taksiyə qaldırdı. Bazar ətrafını xeyli dolaşdı. Bir dükanın qabağında taksini əyləyib düşdü. Dükan çox kiçik olsa da içində baş darağından, xınadan tutmuş yun şala, uşaq oyuncaqlarına qədər hər şey var idi. Əsədullanın bütün günü ayaq üstə müştəri soraqlayan bu dükan sahiblərinə nədənsə yazığı gəldi. Onlar mallarını tərifləyir, dil-boğaza qoymadan malları sadalayıb daha çox müştəri yığmağa

çalışırdılar. Dükançı qabağına qoyduğu dəftərdə nə isə hesablayıb əlindəki balaca sayğaca salırdı. Ya borcluların, ya da mədaxilin haqq-hesabını vurur-deyə fikirləşdi. Əsədulla bir neçə dəfə o yan-bu yana nəzər yetirib, yenə qayıdıb əvvəlki yerində durdu.

– Mən bu həndəvərdə cəmi iki-üç dəfə olmuşam. Bəlkə, elə yerini səhv salmışam? Ya elə dükanı satıb gediblər? Gərək bir xəbər öyrənib gələydim. Mən tanıdığım o adamlar hər saat tutula bilən adamlardı. Nə bilmək olar, bəlkə... Nə olur-olsun, bir iş görməliyəm. Ağa Həmidin üzünə baxa bilmərəm. Onları kimdən soruşum bəs? Kim mənə inanıb bildiyini deyər? Hamı bir-birindən xoflanır.

Dükançı o yan-bu yana tez-tez boylanmağından onun yad müsafir olduğunu başa düşüb soruşdu:

– Qardaş, deyəsən, buralara təzə gəlmisən? Axşam namazına az qalır, küçələrdə belə sərgərdan dolaşma. Tehranın bu hissələri çox qorxuludur. Yerin yoxsa, gedək qonağım ol. Qonağın ruzisini Allah özündən qabaq yetirir. Bir oğlum var evdə. Həyat yoldaşım bir neçə il bundan əvvəl rəhmətə gedib. Evimizdə gecələməyə sənə bir yer tapılar.

Kişi yarı Azərbaycan, yarı fars ləhcəsində elə danışdı ki, Əsədulla onu güclə başa düşdü.

– Bu da əslən bizlərdəndir. Gör xalqın dili nə günə düşüb! Bu bədbəxt millət nə vaxt zalımın zülmündən azad olacaq? Taxt-tacda pəhləvilər neçə dəfə dəyişibsə də, biz azərbaycanlılara münasibət dəyişməyib ki, dəyişməyib. Zatı, kökü bir Kazak vəkilindən o yana getməyən Rza xanın oğlanları, qızları məmləkəti gör nə günə qoydu? Eh, dərdimiz böyükdür- Dərindən köks ötürdü.

– Nə fikrə getmisən, qardaş? Adını da soruşmadım…

– Adım Əsədulladır. Özüm əslən Ərdəbildənəm. Amma çoxdandır ki, Təbrizə köçmüşük. Bir də nə fərqi var hardanam. İnsanıq da, eyni qayğılı, eyni dərdli adi insan. Sizdən isminizi soruşmadım. Məni müsafir eləyənin kim olduğunu mən də bilmək istərdim.

– Mənim adım Xəlildir, «ağa Xəlil» də çağıra bilərsən. Bəyliyimizdən, ağalığımızdan bir şey qalmayıbsa da, belə çağırırlar. Şah nəslindən qırılıb qalanlar daha it-bata düşüblər. Yerlərində qarğa-quzğunlar şahlıq eləyir.

Xəlil səsinin tonunu bir az dəyişib, yavaşca əlavə elədi:

– Atam milli azadlıq inqilabında can qoyanlardan biri olduğu üçün onu izləyib Təbrizdə tutdular. Gözümün qabağında dar ağacından asdılar. Anam məni götürüb kürdlər yaşayan obalara qaçdı. Uzun müddət gizli gəzib-dolandıq. Anam harda nə iş düşürdüsə, onu görüb məni yedizdirirdi ki, ölməyim. Kürdlərin də içərisində insaflıları, təmiz ürəkliləri var. Qarazəmi tərəfdə Safo adlı bir varlının həyət–bacasına baxır, qoyun-quzusunu otarırdım. Anam əlinə nə düşürdüsə, mənə yedizdirir, özü günlərlə ac qalırdı. Hökumətin təqibindən qorunmaq üçün adımı da başqa bir adla dəyişdirmişdi. Sahibkar bizə çox isti münasibət göstərirdi. Onun qorxusundan bizə dəyib-dolaşan yox idi. Evin xanımı isə bizi gözümçıxdıya salıb qovmaq istəyirdi. Anamı qəsdən ən ağır işlərə göndərir, ağa evdə olmayanda təhqiramiz söyüşlər söyür, incidirdi. Yazıq anam səsini çıxarmır, için-için ağlayırdı. Amma səbəbini bilmirdik. Bir gün xanım biz yatan daxmanın qapısını aralayıb içəri girdi. Anam gündüzün ağır işindən sonra daş kimi yatmışdı. Mən anamın sinəsinə qısılmışdım. Nə isə yuxum gəlmirdi. Ayaqlarım bərk ağrayır, sümüklərim sızıldayırdı. Dərədə-təpədə qoyun-quzu haylamaqdan yorulmuşdum. Xanım belindəki xəncəri anamın düz ürəyinə endirmək istəyəndə qışqırdım. Səsə sahibkar özünü yetirdi. Xəncəri qanırıb xanımın əlindən aldı. Məlum oldu ki, Safo anamı ikinci arvad kimi almaq fikrini xanımına bildirib razılığını almaq istəyib. Qadın da acığını anamı öldürməklə çıxmaq fikrinə düşüb. Biz elə həmin gün oranı tərk elədik. Qarlı-çovğunlu yollarda piyada getmək o tərəflərdə çox çətindir. Dağ yerləri olduğu üçün ilin çox hissəsi qış keçir, hər yan qarla örtülü olurdu. Anam bərk öskürür, taqətdən düşürdü. Onu kürəyimə alıb yol getsəm də gücüm-qüvvəm tükənmişdi. Anamın ağır bədənini qar üstündə sürümək mənə çətin idi.

Sənə baş ağrısı vermirəm ki, qardaş? Deyirlər ki, dərdini birinə söyləyəndə bir az yüngülləşir adam.

– Yox, yox, nə danışırsan? Məmləkətimizin hansı yerində xalqımızın belə acınacaqlı dərdləri ilə qarşılaşmamışam ki? Sözünü yarımçıq qoyma. Elə bil Tanrı millətimizi dərd çəkmək üçün yaradıb.

Onlar yanaşı addımlayır, qaranlığın necə çökdüyünü, işdən, bazar-dükandan qayıdıb evlərinə tələsən insanları sanki görmürdülər. Avtobusa, ya taksiyə də minmək istəmirdilər. Xəlil ağa elə bil Əsədullanı göydə axtarırdı, yerdə əlinə düşmüşdü. Öz keçmişinə başı elə qarışmışdı ki, qonağının yorulub, yorulmadığını da soruşmurdu. Nə məqsədlə bura gəldiyini də yaddan çıxarmışdı. Əsədulla kişinin sözünü kəsməyə cürət eləmirdi. Heç cəhd də göstərmirdi. Danışanın sözünü kəsməyi ədəbsizlik sayırdı.

«Qoy danışıb, ürəyini boşaltsın»-deyə fikirləşirdi. Bu az vaxtda tanımadığı bir adama necə etibar eləyə bilərdi Əsədulla? Gəlişinin səbəbini necə açıb söyləyə bilərdi? Heç məndən nə üçün Tehrana gəldiyimi, Cəfəri, Rəsulu nə üçün axtardığımı da soruşmadı. Yaxşı ki, heç soruşmadı. Nə bilmək olar, nə yuvanın quşudur? Axı nə tanıyıram onu? Bəlkə, məqsədimi öyrənib mənə kömək eləmək əvəzinə nə isə başqa fikrə düşər? Yox, ilk baxışdan bu dərdli adam ürəyimə yatıb. Pis adama oxşamır. Kim bilməzəgörməzə yoldan ötənin birini evinə dəvət eləyər? Nə olur-olsun, gəlişimin səbəbini deməliyəm. Bəlkə, mənə köməyi dəydi. Qoy hələ ürəyini boşaldıb qurtarsın sonra baxarıq. Onsuz da, şər qarışıb bir yerdə gecələməliyəm. Düzünü desək, Əsədulla çox yorulmuşdu. Ayaqlarını dalınca güclə sürüyürdü. Xəlil onun qoluna girmişdi. Əlindəki kiçik bağlamanı da ondan alıb çiyninə keçirmişdi.

– Hə, qardaş, yorulmusansa mən sözümü saxlayım axşama. Doğrusu, oğlum evdə olanda mənim keçmişimlə bağlı belə xoşagəlməz söhbətləri eləyə bilmirəm, neynim? Azca dodağı qaçdı. Deyəsən dodaqları lap titrədi, səsi xırıldadı. Elə şey var ki, övladda deyib qanını qaraltmaq istəmir adam. Bircə balamdan başqa heç kimim yoxdur.

Əsədulla Xəlilin gözündə yaş görməsə də, hər halda, ağladığına əmin idi. Özü də kövrəldi. Hər ikisi susdu. Xəlil bir neçə dəfə udqundu. Boğazını artladı, elə bil səsində bir aydınlıq, duruluq əmələ gəldi. Əsədulla onu əvvəlki əhvalına qaytarmaq üçün dilləndi:

– Hə, qardaş, biz türklər deyirik ki, oxunu atıb, yayını gizlətmə. İndi ki başlamısan, sözünü axıra yetir. Görürsən də, necə üzlü qonağam…– Hər ikisi güldü.

–İndi ki, təkid edirsən, qoy sən deyən olsun.– Xəlil sözünün

üstünə qayıtdı.– Kənddən çıxdığımız iki saat olardı. Hara baxırdıq qarlı çöllərdən, düzlərdən başqa bir şey görünmürdü. Hara gedəcəyimizi bilmirdik. Təki kənddən uzaqlaşaq deyə var gücümüzü toplamışdıq. Qabaqda qarla örtülmüş qoşa ağacı görüb anam sevindi. Bax, o ağaca çatsaq ondan o yana balaca bir kənd var, ora çatarıq, Xəlil, oğlum, bərk dayan.

Mənim əllərim, ayaqlarım donmuşdu. Anamı peşiman eləməmək üçün səsimi çıxartmırdım. Anam lap taqətdən düşmüşdü. Birdən bizdən xeyli aralıda bir neçə qaraltı gördük. Çox sevindik ki, yəqin kənd adamlarıdır. Gendən bizi görüb köməyə gəlirlər. Bir az yaxınlaşanda onların canavar olduğunu bilib mat qaldıq. Canavarlar dal ayaqları ilə qarı çölə sovura-sovura üstümüzə yüyürürdülər. Səsim elə batmışdı ki, çığıra da bilmirdim. Çığırmağın da mənası yox idi, bizi kim eşidəcəkdi ki? Anam qarın içinə çökdü.

İlk ağlıma gələn o oldu ki, anamı qarın içinə uzadıb, üstünü qarla örtüm. Özümə bir çarə qılmağa vaxt qalmamışdı. Canavarların mənə çatmağına yüz metrə kimi məsafə qalmışdı. Ölümümü yəqin eləmişdim. Eşitmişdim ki, qışın bu çağlarında canavarlar ac və amansız olurlar. Onlardan yaxa qurtarmaq müşgül işdir. Yerə çökdüm. Anamın qarla örtülmüş «qəbri»ni qucaqladım. Qəflətən sanki möcüzə baş verdi. Başımın üstündən bir neçə güllə keçdi. Canavarlar pərən-pərən düşdülər. Bu xilaskar Safo ağa idi. Lakin canavarlardan biri onu yaxalamışdı. Onun tüfəngi qarın üstünə düşmüşdü. O, qan içində idi. Əlləri ilə canavarın boğazından bərk-bərk yapışsa da, canavar ona üstün gəlirdi. Onu parçalamağa çalışırdı. Safo ağa yaralı olduğu üçün taqətdən düşürdü. Ağlıma nə gəldisə, qarın üstünə düşən tüfəngə sarı atıldım. Heç vaxt əlimə silah alıb işlətməmişdim. O tüfəngi qoyunquzunu qorumaq üçün çiynimdə gəzdirsəm də, ondan bir güllə də atmamışdım. Əlimi tətiyə atıb var gücümlə özümə doğru dartdım. Canavar zingildəyə-zingildəyə qarın üstünə sərildi. Safo ağa qalxıb məni qucaqladı. Başındakı çalmasından cırıb, qolundan axan qanı saxlamaq üçün dirsəkdən bir neçə barmaq yuxarını bərk-bərk sıxmağı xahiş elədi. Biz işimizi qurtarandan sonra anam yadıma düşdü. Ağlaya-ağlaya qarı eşələyəndə Safo hər şeyi başa düşdü. Köməkləşib anamı qarın altından çıxaranda, o, gö-

mgöy olmuşdu. Qolu-qılçası taxta kimi idi. Safo anamın quru cəsədini qucaqlayıb xeyli ağladı. Onu kürəyinə alıb kəndə qədər gətirdi. Kəndin girəcəyindəki bir evin qapısını döydü. Ev yiyəsi nə qədər çalışdısa da, anam bir daha həyata qayıtmadı.

Xəlil xeyli susdu. Əsədulla da dinib– danışmadı. Onun gözündən axan yaş yaxasını islatdı. Çiyinləri titrədi:

– Bilirsən, qardaş, mən həyatım boyu bu günahı çiyinlərimdə daşıya-daşıya qəbr evinə aparacam. Mən anamın qarşısında özümü günahkar hesab eləyirəm. Günahla çiyin-çiyinə yaşamağın nə qədər ağır olduğunu mən bilirəm. Belə bir şeir eşitmişdim, dayan, deyəsən iki, misrası yadımda qalıb.

«Borclu yaşasaq da, biz bu dünyada,
Borc altda dünyadan köçmək çətindir.

Xəlili bu vəziyyətdən çıxarmaq üçün elə bil Əsədulla bir çarə tapmışdı:

Onun kövrəldiyini görüb ovqatını durultmaq məqsədilə yavaşca qulağına əyildi. Kiminsə eşidə biləcəyindən ehtiyatlanıb pıçıltı ilə dedi:

– İstəyirsən bir bənd də mən deyim söhbətimiz şirin olsun. O binəva bir şad xəbər sənə söz verirəm ki, gecə səhərə qədər sənə şair Xətaidən, Abbas Tufarqanlıdan, Dirili Qurbanidən şeir oxuyacam.

Xəlil məmnunluqla gülümsədi. Bayaqkı ovqatından əsər-əlamət qalmamışdı.

Əsədulla Xəlilin qolundan yapışıb ayaq saxladı:

– Nə ola, bir şadlıq xəbəri gələ,
Yüklənə barxanam ellərə doğru.
Naşı ovçu bərə bəklər, əylənər,
Marallar sayrışar yollara doğru.

Qurbani der: «Naləm yandırar daşı,
Üstümə gəlməsin təbibi-naşı.
Ümmana dönəndə gözümün yaşı,
Axanda tökülər sellərə doğru…

Xəlilin əhvalı xeyli durulmuşdu, Əsədullanın qolundan dartıb yavaşca dilləndi:

– Yaxşı hafizən var, qardaş, bax buna sözüm yoxdur. Xalqımızın ürəyi şeirlə qidalanır. Mayamız şeirdən qoyulub. Düz sözə nə deyəsən?

Amma eşitsələr ki, ana dilində şeir oxuyuruq aqibətimiz bilirsən də necə olar? Bir az asta danış.

– Mən bir vaxtlar şeir yazardım. Harda xoşuma gələn şeir tapsaydım, əzbərləyərdim. Dövran, güzaran qoydu ki...

Əsədulla əzəlki söhbətlərinin üstünə gəldi:

Hə, bəs necə oldu ki, Tehranda yaşamalı oldun? Axı pulsuz, köməksiz bir uşaq şəhərin bu qaynar, deyərdim ki, qorxulu abıhavasına necə alışdı? Bir gündür gəlmişəm, elə bil boğuluram, havam çatmır bu xarabada. Düzünü desəm, əlimdə əlac olsa bura ayaq da basmaram. Elə bilirəm ki, bütün bəlalarımızın kökü burdadır.

Xəlil bir qədər duruxdu:

– Səni öz macəralarımla yormaq istəmirəm. Bir də o günləri, saatları təzədən yaşamaq mənə çox ağır və çətindir. Bu tini də burulsaq evə çatacağıq. Nə var ki, gecə uzun, biz də sağ-salamat. Evdə söhbətimizi başa vurarıq.

– Yox, indi ki, başlamısan, yarımçıq qoyma. Şirin söhbət uzun yolun ürəyini üzər – deyiblər.

Təkid eləməkdə Əsədullanın bir məqsədi də var idi. Bu təsadüfi tanışlığın başqa niyyət daşımadığına əmin olmaq istəyirdi. İkinci bir tərəfdən də bura gəlməyinin səbəbini danışıb kömək almaq istəsə, onun etibarına güvənə bilərmi? Axı o elə bir daşın altına girmişdi ki, onu qaldırmaq tək adamın işi deyildi. Rəsulgili tapmamışdı. Xəlil yüngülcə onun qoluna toxundu.

– Başıma gələnləri bir qələm əhlinə danışsam, kitab bağlayar. Deyirsən, qoyun-quzu otaran bir adam necə oldu ki, axırda böyük bir şəhərdə dükan-bazar işi ilə məşğul oldu? Axı, mənim haqq-hesab eləməyə savadım da yox idi. Ərdəbildə olanda ana dilində bir sinif oxumuşdum. Sonralar oxumaq haqda düşünmək belə istəmirdim. Heç buna imkan da yox idi. Kürdlərin içində nə məktəb, nə savaddan söhbət gedə bilərdi? Onların səksən-doxsan faizi savadsız idi. Bizim kimi ana dilində məktəbləri də yox idi.

– Düzünü desəm, ona bənzər bir şey fikirləşirəm – Əsədulla

birbaşa cavab verdi.

– Safo ağa o gündən, o saatdan məni öz himayəsinə götürdü. Anamı dəfn eləyib bura gətirdi. O gördüyün dükan da onundur. Mənə balaca bir mənzil kirayə eləyib, özü də sağalana qədər şəhərdə qaldı. Ata-oğul kimi yaşayırdıq. O, alverin bütün sirrini mənə öyrədib əmin olduqdan sonra kəndə qayıtdı. Tez-tez mənə baş çəkirdi. Anama olan məhəbbəti o kişini mənə bağlamışdı: «Səni tək qoya bilmərəm» – deyirdi. Özü də şəhərdə yaşaya bilmirdi – deyə bu dükanı və gördüyün balaca mənzili mənə bağışlayıb, kənddəki mülkünə qayıtdı. Bir daha görüşmədik. Görürsən, qardaş, belə etibarlılar da var həyatda. O kişidən çox şey öyrənmişəm. Etibarı, mərdliyi, dəyanəti, nə bilim əsl insana xas olan cəhətləri o öyrədib mənə. İndi mənə etibar eləyib ürəyini açа bilərsən: Əsədulla bura gəlməkdə məqsədini, niyyətini açıb Xəlilə söylədi. Ondan kömək istədi.

Bir həftə onlarda qonaq qalan Əsədulla demək olar ki, Xəlillə doğmalaşmışdı. Oğlu İbrahim də ona yaxın qohum kimi isnişmişdi. Xəlil onu diqqətlə dinləyib, əlini bığına-saqqalına çəkib salavat çevirdi. Sonra fikirli-fikirli dilləndi:

–Bu işin öhdəsindən oğlumdan başqa heç kəs gələ bilməz. O, Tehran Nəzmiyyə idarələrinin birində dövlət qulluqçusudur, çalışıb bu işə bir əncam çəkərik, narahat olma. Ölümdən başqa hər şeyin çarəsi var, təki sağlıq olsun, qardaş.

Doğrudan da İbrahim yoldaşlarının köməyi ilə həbsxanaların birində Fatmanın izinə düşə bilmişdi. Bu, Əsədullanı sevindirsə də, nigarançılığının da həddi-hüdudu yox idi. Təbriz üçün çox darıxırdı. Ona göstərilən qonaqpərvərlikdən az qala riqqətə gəlirdi. Xəlilin də eyni xeyli açılmışdı. Elə bil onun gəlişi ilə cənnətə düşmüşdü. Evin abı-havası da başqa idi. Ağa Xəlilin evi Tehranın ucqar məhəllələrindən birində idi. Əslində heç ona ev də demək olmazdı. Ətrafına divar əvəzinə taxta hasar çəkilmişdi. Balaca bir bağça evi küçədən ayırırdı. Alçaq tavanlı dar, kiçik otaqlar adama hücrəni xatırladırdı. Balaca həyətdəki yeganə xurma ağacına bərkidilmiş əlüzyuyandan və ağacın dibindəki xırda su kranından, göydə bir parça səmadan başqa gözə heç nə dəymirdi. Ətrafdakı evlər çətir kimi həyətin üstünü almışdı. Otaqların dar balaca gözlüklərindən içəri düşən işıq əl fənərinin uzaqdan görünən şüasına bənzəyirdi. Üstəlik də evdəki səliqəsizlik çox-

dandır ki, evə qadın əli dəymədiyindən xəbər verirdi. Ona elə gəlirdi ki, evin divarlarından da bir kimsəsizlik, yetimlik yağır. Əsədullanın Xəlilə yazığı gəldi. Bir anlığa özünün tənhalığını düşündü: «Onun yenə oğlu var. Bu gün-sabah baba olacaq, nəvə, nəticə səsi otaqları bürüyəcək». Mənsə?..

Əsədullanın ürəyi sıxıldı. Xəlilin bir neçə dəfə soyun, keç içəri – deməsinə baxmayaraq Əsədulla hələ də qapının ağzında heykəl kimi dayanıb durmuşdu. Oğlu İbrahim hələ işdən qayıtmamışdı. Qonaq üçün təmiz yatacaq və yeməyə bir şey hazırlamaqla məşğul olan ağa Xəlil onun hələ də ayaq üstə durduğunu görüb dilləndi:

– Bilirsən, qardaş, çoxdandır bu qapını bir bəni-insan açmırdı. İndi elə bil özümə dost yox, əsl qardaş tapmışam. Bu gündən mənim evimin qapısı üzünə açıq olacaq. Ailəni, uşaqlarını götürüb nə vaxt istəsən qonaq gələ bilərsən. Həyat yoldaşımın vaxtsız vəfatından sonra bu qədər deyib-danışmamışam.

Əsədullanın indiyə qədər ailə qura bilmədiyini, bacısını və uşağını saxladığını eşidib çox məyus oldu Xəlil. Səhərisi gün İbrahimin evə qanı qara qayıtmağı hamını məyus elədi.

O, Fatmanın bir həftə bundan qabaq başqa bir həbsxanaya dəyişmək adıyla aparıldığını deyəndə Əsədulla ikiəlli başına vurdu. Arqaçın haradan keçdiyinə əminliklə özünü lənətlədi:

–Bu, Karapetin işidir, - deyə qeyzləndi. Naməlum şəxslərin onu hara apardıqlarından heç kim bir xəbər verə bilməmişdi. Təsəlliverici o idi ki, İbrahim qadınlardan birinin ona xəlvəti ötürdüyü vərəqləri saralmış qalın bir dəftər gətirmişdi. Dəftər yarı Azərbaycan, yarı fars dilində qırıq-qırıq cümlələrlə yazılmışdı. Onu güclə oxumaq olurdu. Qadının dediklərinə görə dəftəri ona tək-tək və xəlvəti görüşdükləri bir dustaq qadın vermişdi. Sonralar onu da bir daha görmədim, – dedi. Uzun müddət təkadamlıq kamerada saxlandıqdan sonra yoxa çıxdı, onu gördüm deyən olmadı. Bundan başqa sizə heç nə deyə bilmərəm.

* * *

Bütün bu xatırladıqları ağa Həmidə çox əvvəllər görmüş olduğu qorxunc bir yuxu, öz doğma torpağında yox, başqa bir dünyada başına gəlmiş bir faciə kimi görünürdü. O dəftərdə yazılanlardan xəyalında bir neçə dağınıq lövhə, qəlbində isə heç vaxt

sağalmayan yara, soyuq bir nəşə qalmışdı. Nə qədər çalışırdısa, Fatmanın o dəftərdə yazdıqlarını xəyalında bir yerə yığa bilmirdi. Bəzən də heç səbəb olmadan o qorxunc səhnələr burulğanında Fatmanı yalqız, köməksiz, hayı-harayı heç yerə çatmayan quyunun dibində ayaqlarından, əllərindən dolaşan məzlum bir quzu kimi görür, dumanlı, uğultulu qarışıqlıq içinə düşürdü. Yox, öz qardaşları tərəfindən xaincəsinə quyuya salınan balaca Yusifi[2] xatırladırdı ona Fatma. Öz vətənində yurddaşları tərəfindən təhqir edilən, alçaldılıb, ağır zindanlara salınan Fatmanın taleyində Yusifdən fərqli olaraq qurtuluş zərrələri belə görmürdü ağa Həmid. Özünü bir anlığa dustaqxanada görür, ətrafını oradakı pis geyimli, pis çöhrəli kobudlaşmış, qəlizləşmiş qadınlar bürüyür, kameranın küncünə sığınmış üzü-gözü göyərib qançir olmuş Fatmanın qara, uzun kipriklərindən axan yaş damlaları üzünə, yaxasına çilənir, onu dəlilik dərəcəsinə qədər gətirirdi. Sanki Fatma əlini ona sarı uzadır: – Məni bu cəhənnəmdən qurtar, – deyir, o da uzanan ağ pambıq kimi əlləri sonsuz öpüşlərə qərq edirdi.

– Bağışla, Fatma, bağışla, bu çarəsiz dərdə düşən aşiqini. Allah eşqinə – deyə pıçıldayırdı. Onun sevgisindən yadigar qalan yeganə dəftər ağa Həmidə əlçatmaz, ünyetməz divlər, əjdahalar dünyasından götürülmüş bir təsəlli mənbəyi idi. Dönə-dönə oxunub qatlanmaqdan dəftər parça-parça olmuşdu. Bəzən də, bu əzablardan xəbərsiz olan ağa Qasıma qibtə eləyirdi. Vaxt ötüb keçdikcə ona elə gəlirdi ki, bu dağınıq xatirələr cavabsız duyğuların, gizli sevginin uğursuz izləri təsir qüvvəsini itirməyə, ruhu yavaş-yavaş əvvəlki müvazinətini almağa başlayır. Yox, belə olmadı. Vaxt öz işini görsə də, zaman-zaman təkrar olunan hadisələr onun yarasını qanadır sağalmağa qoymurdu. Neçə illərdən sonra o naməlum qadının yığıncaqda görünməsi ağa Həmidi yenidən silkələmiş, Əsədulla əhvalatını təzələyib yuxusunu ərşə çəkmişdi.

* * *

Ağa Həmid o gün özündə deyildi. Nə edəcəyini özü də bilmirdi. Boş-boş yuxarı evə qalxır, otağında bir az vurnuxub təzədən aşağı düşür, ətrafa boylanıb elə bil nə isə axtarır, tapa bilmirdi.

[2] Yusif peyğəmbər nəzərdə tutulur

Kişinin bu halı oğlu Kərəmin, Zeynəbin, qızı Güllünün də nəzərindən qaçmamışdı. «Kişi havalanıb deyəsən», – evdəkilərin qənaəti belə idi. Lakin Kərəmin bir həkim müşayəti ilə gəldiyi nəticə belə deyildi. Dünənki məşvərətdən sonra atasının kələfi qarışdığı, nə haqdasa düşünüb narahat olduğu qənaətinə gəlirdi. Amma ondan heç nə soruşmurdu. Xasiyyətinə bələd idi. Belə halda ondan nəsə bir söz qopartmağın müşgül olduğunu bilirdi. Karena Karapeti qaçırıb Mürsəlgilin zirzəmisində gizlətdikdən sonra hadisələrin daha da mürəkkəbləşəcəyini bilirdi. «Bu əbləhi ciddi-cəhdlə axtaracaqlar. Gümanın bir ucu da bizə, Qasım əmiyə gedib çata bilər, işimiz yarımçıq qalar, anamın, Güllünün aqibəti necə olar?» – Deyə daxili düşüncələr içində çırpınırdı Kərəm. Süfrə arxasında heç kəs dinib-danışmırdı. Atası buyurardı ki, yemək süfrəsi açılanda, dinib-danışmaq günahdır. Odur ki, anasının məcməyidə gətirdiyi nahara hələ heç kəs əl uzatmamışdı. Təkcə qabaqlarına qoyulan fincanların cingiltisi, bir də anasının tökdüyü çayın şırıltısı eşidilirdi. Hamı gözləyirdi ki, ağa Həmid bismillah deyib süfrəyə əl uzatsın. Ondan sonra nahara başlasınlar. Ağa Həmid süfrə arxasında sanki müqəvva idi, qoyulmuşdu. O, fikrini bir yerə yığmaq, olub-keçənləri bir daha çözələmək, şüurunu, düşüncəsini silkələyib təzələmək məqsədilə məscidə tələsirdi. Neçə illərdi əzan çəkdiyi minarədəki köhnə xalının altındakı dəftəri xatırladı. Onu yerli-yataqlı təzədən oxumaq, ürəyini narahat eləyən şübhələrinə bir əlac tapmaq məqsədilə ora gedirdi. Ağa Həmid təşkilatın belə çətin vəziyyətində bir daha ora qayıdıb ondan bəzi məlumatlar gözləyən gəncləri güdaza verməmək üçün bir də məscidə getməmək qərarına gəlsə də, öz qərarına özü də zidd gedirdi. Daxili çəkişmələri onu odla-su arasında qoymuşdu. O, süzülən çaya əl vurmadan ayağa qalxdı. Təsbehini çevirə-çevirə heç kəsə bir söz demədən qapıdan çıxanda evdəkilər sualedici nəzərlə bir-birinin üzünə baxdılar.

Ağa Həmid məscidə çatanda, məscid ağzına qədər adamla dolmuşdu. Neçə vaxtdır məscidə gəlməyən ağanın başını görcək: «Allahum-məsəlli-əla Məhəmmədin və ali Məhəmməd»-deyə salavat çevirməyə başladılar. Ancaq bir neçə nəfər ağanı başı ilə salamlayıb minbərə yaxın gəldilər. Həmid onları dərhal tanıdı. Onlar nəzmiyyə idarəsində işləyən fədailər və bir neçə də təşkilat üzvləri idi. Ağa Həmid bir baş gedib minbərə çıxdı. Minbərin di-

bində duranlardan biri ayağa qalxıb işarə verdi. Salavat kəsildi.

Yer-yerdən: Ağa qurbanın olum, bir də ayağını bu məsciddən kəsmə!–Sözləri hər yanda eşidildi. Ağa Həmid minbərə qalxanda yenə salavatlar başladı. O, bunların fərqində deyilirdi. Nə eşidir, nə görürdü. O, özünü minbərə yetirib xalını qaldırdı. Qat kəsmiş sarı vərəqli dəftəri görüb toxtadı. Bir anlığa sarı vərəqlər onun gözünə sarı gürzə ilan kimi göründü. Əlini uzadıb toxunsa, onu çalacaqdı. Əlləri titrədi, gözünü dəftərə zilləyib lal kimi dayandı:

– İlahi, niyə mənə bu qədər cəza verirsən? Mən heç vaxt, heç kəsin qarşısında bu dilsiz-ağızsız vərəqlərin qarşısında olduğu qədər özümü günahkar saymamışam. Demokratik inqilabın süqutundan sonra tutulanda, ata-anamı günahsız yerə itirəndə bu qədər əzab çəkməmişəm. İndi nə olub mənə? Neçə illərdi bir kimsənin xəbəri olmadan azı yüz kərə oxuduğum, hər oxuyanda ölüb-dirildiyim bu dəftər niyə mənə qənim kəsilib? Niyə onun zəhmindən azad ola bilmirəm?

Elə bu arada heç nədən xəbəri olmayan Qasıma qibtə elədi. Fatma əhvalatını oğlu Kərəmə danışanda niyə bu dəftər haqqında heç bir şey deməmişdi? Ürək eləyib onu evinə də aparmamışdı: «Arvadından ehtiyat eləmişdi. Zənən xeylağının ağzı bir az yava olur. Birdən nə isə deyər, Qasımın qulağına çatar»- deyə düşünmüşdü. Ağa Həmid başını qaldıranda böyük bir izdihamın onu səssiz-səmirsiz gözlədiyini görüb özünə gələn kimi oldu. Dəftəri qoltuğunda gizlədib əzana başlayanda get-gedə qatılaşan duman-çən Təbrizin başında yeni, qorxunc hadisələrin olacağından xəbər verirdi. Onun iki addımlığında dayanan şah ruhlu, Səttərxan hünərli igidləri yenə necə təqiblər, necə işgəncələr gözlədiyini düşünür, əzab çəkirdi.

Əzan qurtarmışdı. Günorta namazına məscidə toplaşanlar da çəkilib getmişdilər. Oturduğu yerdən ayağa qalxa bilmirdi, ağa Həmid. Hələ də məscidin həyətində var-gəl edən bir neçə gəncdən Zülfüqarın azad olunduğunu öyrənib xeyli sevindi. Bəzi məlumatları təşkilat üzvlərinə çatdırmaq üçün göstərişlər verib dərindən nəfəs aldı.

– Deməli, Karapetin tutulub, Mürsəlin zirzəmisində saxlanması bizim xeyrimizə olmuşdur. Sağ ol, Karena- deyə Ağa Həmid məmnunluqla gülümsədi – Allah eləməmiş, uşaqlar tələsib o dinsiz-imansızın başına bir iş gətirərlər? Bircə bu olmasın. O hələ

bizə lazım olacaq. Kim bilir onun murdar sinəsində neçə soydaşımızın izi, sorağı gizlənib. Kim bilir, bəlkə elə... Ürəyindəkini dilinə gətirmədi. Yenə şübhələr, gümanlar onu caynağına alıb didib parçaladı. Ağa Həmid, nəhayət məscidin bir küncündə səssizlik tapıb özünü ora çatdırdı. Dəftəri birinci dəfə görürmüş kimi bir neçə dəfə o üz-bu üzə çevirdi. Onun üçün çox dəyərli olan bu yazı o qədər qırıq-sökük sözlər və cümlələrlə yazılmışdı ki, onu nə müntəzəm gündəlik, nə də xatirə hesab eləmək olmurdu. Dəftərdə sadəcə olaraq qərib, sadəlövh bir qızın başına gələn müsibətlər yazılmışdı. Elə ilk cümlədən başa düşülürdü ki, yazı məktub şəklində Qasıma ünvanlanmışdı. Orada Həmidə aid bir sətir yox idi. Bəs indiyə qədər ağa Həmid o dəftəri niyə dostu Qasıma göstərməmişdi? Axı, Fatmadan bircə barmaq kağız, hər hansı bir xəbər üçün Qasım canından belə keçərdi? Bu intizar onun köhnə ruhi xəstəliyini təzələmiş, onu yarımcan etməmişdirmi?

Odur ki, dostunun səhhətini qorumaq üçün dəftəri ona vermədiyinə görə özünə haqq qazandırırdı. «O, Fatmanın çəkdiyi əzablara dözə bilməz», – deyə dostunu itirmək istəməmişdi. Bu da ağa Həmidə yuxusuz gecələrin, əzablı gündüzlərin hesabına başa gəlmişdi. Ağa Həmid birinci dəfə görürmüş kimi dəftəri açdı. Neçə il bundan qabaqda olduğu kimi əlləri əsir, dodaqları səyriyir, «Sərgərdan günlərim»i, yazan Fatmanı qarşısında görürdü. Baxışlarını üzündə hiss edib, ürək döyüntülərini eşidirdi. Əzab dolu sərgərdan günlərinin ağrı-acısını onunla birgə yaşayırdı ağa Həmid. Sətirdən-sətrə, vərəqdən-vərəqə keçdikcə o ağrı-acılar da artırdı.

Sərgərdan günlərim

– Necə, nə üçün tutulduğum özümə də bəlli deyildi, əzizim. Bu yazımı özümə məktub kimi də qəbul edə bilərsən. Çünki mən özümü səndən ayrı hesab etmirəm. Biz iki bədəndə bir canıq. Qoy tale küləyi məni hansı səmtə qovur-qovsun, qəza-qədər bəxtimə nə yazır-yazsın, səni, oğlumu sevməkdən yorulmayacam. Mən günahsız olduğumu bilirəm, Qasım. Səni və körpəmizi hansı bəlalara saldığımı da anlayıram. Bircə onu anlamıram ki, azadlığı bircə içim su, bir udum hava kimi arzulayanlar niyə qara zindanlarda əzab-əziyyət çəkməlidilər? Bu məktubum, bəlkə də,

sənə çatmayacaq. Amma yazıram sinəmin altındakı bu yumruq boyda ürək nə qədər çırpırsa, ona qədər yazacam. Çünki sən ürəyimin çırpıntılarını mənsiz də olsa, bu yazılarda duyacaqsan. Mən olmayanda göydəki ulduzumuzu tapıb, məni xəbər alacaqsan. Bəxt ulduzumuzun gözlərilə baxsan, məni görəcəksən. İşdir, görməsən, o bir dəfəlik batsa, sən də məndən əlini üz, Qasım. İndi məni sənin və Cavadın xəyallarından başqa heç nə düşündürüb, ovutmur. Hər xəyalda bir reallıq olsa da, xəyalın reallığa çevriləcəyi çox çətin olur.

O günü axşamacan yol getdik. Əlim-ayağım, ağzım bağlı idi. Hara aparıldığımı kəsdirə bilmirdim. Üstüaçıq yük maşınında daha üç nəfər var idi. İkisi daima üçüncünün göstəriş və əmrlərini yerinə yetirir, sanki lal-kardılar. Sürücü fars dilində nə isə donquldanır, acığını dilsiz-ağızsız maşından çıxmağa çalışırdı. Maşın bizi atıb-tutur, nehrə kimi çalxalayırdı. Toz-torpaqdan ürəyim bulanırdı. Əmrlər verən əyilib sürücüyə nəsə deyir, söyüş söyürdü. Maşın məni əli-ayağı bağlı qoyun kimi o tərəf-bu tərəfə yomalayırdı. Çarşabım sürüşüb düşmüşdü. Ayaqlarım açıq qalmışdı. Özündən çox razı, kobud, çal bığları süpürgəyə oxşayandan lap çox qorxurdum. Danışığından erməni millətindən olduğu bilinirdi. Başımın üstündə lal-kar dayanan oğlanın iyirmi beş, otuz yaşı olardı. Şəvə kimi qara bəbəklərini tez-tez sağa-sola hərləməyindən əsəbdəşdiyi açıq-aydın hiss olunurdu. Gün altında yanıb qaralmış qolları polad kimi gərilir, yumruğunu düyünləyib bir nöqtəyə – haraya isə uzaqlara baxırdı. O baxışlarda nə isə nifrət dolu bir doğmalıq hiss edirdim. «Bəlkə, yanılıram» –deyə tez də fikrimi dəyişirdim: «İlanın ağına da, qarasına da lənət» – deyiblər. Yaxşı adam olsaydı, belə çirkin işlərdə iştirak eləməzdi. Bir qadına güc göstərməyə nə var ki?.. Əsl kişi təhqirlərə bu qədər dözməz. Bir tikə çörəyi hər yerdə qazanmaq olar, çirkin işlərlə yox. Gün başıma, üzümə o qədər döymüşdü ki, heyim-hərəkətim tamam kəsilmişdi. Susuzluqdan boğazım qurumuş, dilim-dodağım saqqız kimi yapışmışdı. Dözürdüm, amma su istəmirdim. Tez-tez boyun-boğazını cibindən çıxardığı çirkli dəsmalla silən, əlindəki su qabından su töküb üzünə çiləyən sanki mənim vəziyyətimi başa düşür, bir növü mənə acıq verirdi. Çalışırdım ki, çarşabımı ayaqlarımın üstünə çəkib açıq baldırımı

örtüm. Bu anda üzünə su çiləyən əyilib açıq baldırımdan it kimi yapışmaq istədi. Mən ilan kimi qıvrılıb-açıldım. Ayaqlarımı qarnıma tərəf çəkməyə çalışdım. Üstümə əyilən bu murdarı bağlı ayaqlarımla elə vurdum ki, o paçasının arasını tutub ayı kimi bağırdı. Yerdən səndərləyə-səndərləyə qalxıb başıma-üzümə döyməyə başladı. Bayaqdan dinməz-söyləməz dayanan oğlan onun sinəsindən bərk itələdi. Çarşabımı çəkib ayaqlarımın üstünü örtdü.

Maşının ortasına yıxılan yaramaz yerindən qalxıb əlini belinə sancdığı silaha atdı. Oğlan onun qolunu necə burdusa tapança əlindən yerə düşdü.

Oğlan tapançanı cəld götürüb ona tuşladı.

– O murdar canın sənə belə əzizdirsə, bir də belə qələt eləmə! İndi sən mənim əlimdəsən. Yaltaq, satqın. Neçəsini bu sayaq bədbəxt eləmisən?

Sürücü öz işində idi. Maşın gah quru çöl-biyabandan, gah xırda kəndlərin, qəsəbələrin yanından keçir, gah da dağların belinə kəmər kimi dolanan yollarla nərildəyə-nərildəyə irəliləyirdi. Yerə yıxılan murdar erməni başını qaldırıb hədə- qorxuya keçdi:

– Ara, sən mənə əmr verəcəksən? Sənin kimilərini çox görmüşəm. Ölümünə öz əlinlə fərman yazırsan. Onu başa düşürsən, gic musurman?

Oğlan tapançanı əlində fırlaya-fırlaya laqeydcəsinə dilləndi:

– Mən səni yaxşı başa düşürəm və səni də tanıyıram. Nəzmiyə işçilərinin çəkməsini ətəyinlə silənlərdənsən. Bu yazıq qızın günahı nədir? Sən mənə axı belə deməmişdin, namussuz! Bu qız cinayətkara oxşayır? Sizin fitnə-fəsadınızın qurbanıdır. Mən imkan vermərəm ki, bu günahsız qıza murdar əllərinlə toxunasan.

Gözlərim böyümüşdü. Amma ürəyim riqqətlə döyünür, həmvətənlimin qeyrəti ilə öyünürdüm. İndi ölsəm də, heyifslənmərəmdeyə düşünürdüm. Erməni dığası yenə öz şücaətindən dəm vurmağa başladı:

– Sən nə qədər çalışsan da, o mənim əlimdən yaxa qurtara bilməyəcək. İndiyə qədər belə bir şey olmayıb. Bu bolşevik casusuna görə özünü ölümə vermə!

Hədə-qorxunun həddi-hüdudu yox idi. Oğlan sol əli ilə ağzımdakı yapışqanı açdı. Sağ əli əvvəlki kimi tapança qarışıq ona

doğru yönəlmişdi. Ağzım açılcaq sinə dolu nəfəs aldım.

– Ara, sən nə elədin. Bu göyərçini tutmaq üçün mən gecə-gündüz nə olduğunu bilməmişəm. Özünün, mənim də çörəyimə bais oldun. İstəyirsən sənlə bir razılığa gələk.

O, şirin dilini işə salmışdı.

– Mən ona daha əl vurmaram. Onu sənə verirəm. Deyilən yerə çatana qədər sənə mane olmayacağam, massab haqqı. Verilən pulu da yarı bölərik. Amma silahımı özümə qaytar. Mən bu qıza başımla cavabdehəm.

Az qala yalvarırdı. Oğlan kürəyini mənə doğru çevirmişdi. Başa düşürdüm ki, vaxt qazanmaq üçün o murdarın dediklərinə qulaq asır. Tez əllərimi açıb, əlavə elədi: – Xanım, ayaqlarını tez ol aç!

Su qabını mənə doğru itələdi. Su qabını acgözlüklə başıma çəkdim. O yaramaz gözlənilmədən oğlanın üstünə atıldı. Onu boğmağa başladı. Oğlan boğazını onun əlindən qurtarmaq üçün əlini qaldırdı. Silah yerə düşdü. Oğlanın gözləri az qala kəlləsinə çıxmışdı. Get-gedə qolları sustaldı. Dizləri qatlanıb yerə çökəndə elə bil yuxudan ayıldım. Sıçrayıb tapançanı yerdən götürdüm. O yaramaz çaşıb qalmışdı. Oğlanı buraxıb mənə sarı yeriyəndə gözlənilmədən atəş açdım. O, qolunu tutub yerə çökdü. Oğlan çətinliklə də olsa ayağa qalxıb silahı mənim əlimdən aldı. O murdarın əl-qolunu bağlayıb yerə yıxdı. Güllə səsinə maşın əlli-yüz metr gedib dayandı. Sürücünün gözləri bərəlmişdi. Heç nə başa düşmür, ağzını geniş açıb təəccüblə baxırdı. Nə baş verdiyini öyrənmək üçün gah onun, gah mənim üzümə baxır, bir söz soruşmağa cürət etmirdi.

– Nə ağzını balıq kimi açıb durmusan? Tez ol, əlimi-ayağımı aç, yoxsa hər ikinizə pis olacaq. Heç biriniz məndən bir real də almayacaqsınız.

Erməni hikkə ilə sürücünün üstünə qışqırdı. Oğlan tapançanı əlində fırlaya-fırlaya yaxın gəlib ayağı ilə onu itələdi. O yumaq kimi o tərəf-bu tərəfə yomalandı. Maşina tökülən küləşin içində heyvan kimi ağnadığından gülünc hala düşmüşdü. Üst-başı, saçları samana batmışdı.

– Gör Karapet nə günə qalıb ki, bu ac-yalavaclar onun üstünə qışqırır? Eybi yoxdur. Siz hələ mənə yalvarıb ayaqlarıma

düşəcəksiniz. Sizin kimilərini çox görmüşəm. Nə qədər sağam axırınıza çıxacam, turka dığalar.

Mən bir az özümə gəlmişdim. Maşın iki yol ayrıcında dayanmışdı. Hər tərəf yaşıl ağaclar, sıx kollarla örtülü idi. Qollubudaqlı bir qoz ağacı yola elə əyilmişdi ki, elə bil maşının üstünə çadır örtmüşdülər. Yaşıl yarpaqlarından bir neçəsini qopardıb ovucumun içində tutiya təbərik kimi qoxladım. Yadıma kənddə babamın həyətindəki qoz, armud, iydə ağacları düşdü. Heç bilmirəm bunları niyə yazıram, Qasım. Bununla doğma yerlərin, bağ-bağatımızın qoxusunu, bəlkə də, son dəfə ciyərlərimə çəkmək istəyirdim. Bəlkə, dodaqlarından süd qoxuyan yumru, toppuş əllərini qoynuma salıb yuxuda gülümsəyən Cavadın həsrətidi məni kövrəldən? Bunu bilmirəm. Amma ağlamırdım. Bu murdarın qarşısında ağlamağı özümə ar bilirdim. Göz yaşlarımı nifrətə çevirib damla-damla ürəyimə axıdırdım. Ərdəbildən xeyli aralanmışdıq, harda olduğumu bilmirdim. Bircə onu bilirdim ki, paralanmış, yaralanmış torpağımın bir parçasındayam. Neçə illərdi həsrətində olduğum bu yerlərdən əli- qolu bağlı keçmək mənə çox ağır gəlirdi. Birdən yadıma Dirili Qurbaninin: «Qolu bağlı keçdim, Xudafərindən» – sözləri düşdü. Müəllimimiz Dədə Qurbaninin Şeyx oğlu İsmayıl Xətayi ilə dostluğundan danışanda, keçirdiyim hissləri təzədən yaşadım. Göylərin dərinliyində bir sualıma cavab axtardım. İki türk oğlunu (Sultan Səlimlə Şah İsmayıl Xətayini) hansı səbəb üz-üzə qoymuşdu? Türk, türkün qanını axıtmış, nəticədə on minlərlə həmvətənlimiz Xudafərindən qolubağlı əsir aparılmışdı. Ulu babamız Şeyx Səfiyəddin, Şeyx oğlu İsmayılın, Şah Abbas cənnətməkanın (İran aslanı deyərdilər adına) qılınc oynatdığı, hökmündən bir quş da səkə bilmədiyi bu doğma yurdda niyə azad gəzə bilmirik, Qasım? Bax bu sualıma nə yer, nə göy, nə də tarix cavab verə bilirdi. Əllərimi qoynumda çarpazlayıb heykəl kimi lal dayanmışdım. Ətrafdakıları elə bil görmürdüm. Bu görünməz, ağlagəlməz işlər mənim yox, kimsə başqa adamın başına gəlmişdi, elə bil. Əli silahlı oğlanın səsi məni düşüncələrdən ayırdı:

– Aha, deməli, bu sənsən, yuxarıların sadiq köpəyi? Sən həmin Karapetsən ki, milli azadlıq inqilabından sonra neçə oğullarımızı güdaza verdin. Gör neçə vaxtdan sonra tale bizi görüşdürdü.

Deyirlər ki, «igidin» adını eşit, üzünü görmə. İndi üzünü də gördüm. Neçə illərdən sonra da xislətini dəyişməmisən. Bir məsəl var: «İlan hər il donunu dəyişər, amma ilan xislətini dəyişməz». Sən belə ilanlardansan. Birini də qoy deyim: «İlan ulduz görməsə, ölməz». İndi sən o ulduzu görmüsən, hazırlaş! Ölümünlə üzbəüz durmusan. O mənəm, qarşında dayanmışam. Qoy dar ağacından asılan oğlanlarımızın ruhu şad olsun!

Oğlan tapançanı Karapet adlandırdığına sarı tuşladı.

– Yox, matax, məni öldürsən, səni də asarlar. Mənim kim olduğumu hələ yaxşı bilmirsən.

– Qoy nə olur-olsun. Mənim itirməyə heç nəyim yoxdur. Bir canımdan başqa. Onu da xalqıma, torpağıma çoxdan qurban demişəm. Amma səni öldürsəm, yer üzündən satqının, murdarın, rəzilin biri azalar. Yaxınlaşıb tapançanın dalı ilə peysərindən bərk bir zərbə vurdu. Karapet yerdə cabalayıb huşunu itirdi. Sürücü də məmnunluqla gülümsəyirdi.

– Qardaş, indi nə eliyacux bu əbləhi? Vay dədəm, vay, mənim evim yıxıldı – deyə ağlamsındı.

– Bu mənim işimdi narahat olma. Bura Mazandaran tərəfə gedən yol ayrıcıdı. Demək, bu alçaq xanımı Mazandaran tərəfdəki gizli zindana aparmaq əmri alıb. Belə günahsızları birdəfəlik itirməkdən ötrü ora yeganə yerdir. Maşını bu gedər-gəlməz yoldan döndər. Dağların ətəyindəki kəndlərdən birinə bizi qoy, sonrasını özün bilərsən.

– Özüm nə bilirəm, başuva dolanım? Məni xətaya salma. Bir çətən küflət gözünü mənə dikib. Zindanda çürüyə bilmənəm. Gizli zindan nəmənədi, heç bilirsən? Ora heç düşmənim də düşməsin.

– Ağciyər olma, sən bilirsən o gizli zindan necə bir cəhənnəmdi? Təşkilata xəbər vermək lazımdır.

– O nə sayaq şeydi? Nə təşkilat, mən belə bir şey tanımıram, ağa. Mən sadə bir sürücüyəm. Dedim külfətimə bir tikə çörək pulu qazanım. Məni xətaya salma, qurbanın olum! Şürəvilər gəlib –gedəndən sonra atamı, əmimi əli-qolu bağlı apardılar. Hələ də bir səs-soraqları yoxdur. Elə o gündən belə şeylərdən əl çəkmişux. Nə özüm, nə də qardaşlarım hökumətin işinə qarışmurux. Bizə nə var ki, kim gəldi- kim getdi. İndi əmrün nədir, onu de! Mən əmr quluyam. Ağa hara desə, ora sürəcəm. Nahax deməyib-

lər ki, ağa deyir sür dərəyə, sür da...

Oğlan təəssüf hissiylə sürücünün üzünə xeyli baxdı. Onu başa salıb, bu sənin də, mənim də işimdi. Bu torpaq, bu yurd hər ikimizindi. Əli-qolu bağlı təhqir olunanın namusu da bizimdir – deməyin yersiz olduğunu başa düşüb dilləndi:

– Yaxşı, a buyruq qulu, sənə əmr edirəm bu əbləhi maşından yerə at, bizi də yaxındakı kəndlərdən birinə çatdır.

– Yaxşı, nə deyirəm, ağa, başuva dolanım, deyirsən at, atım da. Allah sonrasından saxlasın. Aduvu da bilmirəm, qardaş oğlu?

– O vacib deyil, sən öz işində ol. Maşını yolun kənarındakı yarğana tərəf çək. Bu alçaq ayılmamış biz gözdən itməliyik.

Sonra da əyilib yaramazın ayağından yapışdı. Sürücü maşının yan qapısını açıb, hazır durmuşdu. Oğlan onu saman çuvalı kimi yerə atdı. Əl atıb ciblərini yoxladı. Qoltuq cibindən bir kağız çıxardı. Kağızı oxuduqca gözləri böyüyür, əlləri titrəyir, dodağının üstündəki qalın bığlarını az qala gəmirirdi. Kağızı qatlayıb cibinə qoydu. Ayağı ilə itələyib onu yarğanın lap qırağına gətirdi. Yaramazı top kimi dərənin dibinə yuvarladı.

Mən heç nə başa düşmürdüm. Onu başa düşürdüm ki, bu kimdirsə, ciddi bir işin icraçısı, bir təşkilatın üzvüdür. Allaha yalvarırdım ki, məndən heç nə soruşmasın. Bu vəziyyətimdə yumşalıb «Qadın Hüquqları Uğrunda Mübarizə» təşkilatının üzvü olduğumu deyərəm. Səltənətin kim olduğunu, nəhayət mənə məktub yazıb, görüş təyin elədiyini, elə bu səbəbdən də bəlaya saldığını da danışaram. Özümü günahsız, zəif bir adam kimi aparırdım. Bundan istifadə edib oğlanın rəğbətini qazanmaq, düşdüyüm bu bəladan çıxış yolu axtarmaq istəyirdim. Çıxış yolu vardımı? Mən ölkəni pis tanıyırdım. Hara getdiyimi, harada olduğumu da bilmirdim. Nə pulum, nə sənədim var idi. Tutaq ki, qaça bildim. Mən necə geri qayıda biləcəkdim? Heç bir ümid yerim qalmamışdı. Çar-naçar oğlanın dediklərilə razılaşmalı oldum. O yerə tullanıb əlini mənə uzatdı. Mən bu ölkədə qadınların kişilərə əl uzadıb salamlaşmağının qadağa olduğunu bilirdimdeyə bir az çətinlik çəkdim.

– Tez ol, xanım, indi qayda-qanun gözləmək vaxtı deyil, əlini ver! – Deyə zəhmlə qışqırdı.

Mən əlimi çarşabın altından çıxarıb yerdə dayanan oğlana

uzatdım. O mənə maşından düşməyə kömək elədi. Biz özümüzü toplayıb hansı səmtə gedəcəyimizi müəyyənləşdirəndə maşın bizdən xeyli uzaqlaşmışdı. Yolun alt tərəfindəki ağaclığa sarı yönəldik. Ağacların altındakı təkəmseyrək kolların arası ilə bir az aşağı enib baş-başa söykənən iki sal daşın arxasına keçdik. Gün xeyi əyilmişdi. Biz irəlilədikcə günün də şaxı sınır, bizdən xeyli aralı olan çaydan qalxan hava sərinlik gətirir, canımıza yayılırdı. Daşın arxasında oturub dərindən köks ötürdüm. Aclıq, susuzluq yadıma düşmürdü. Bu azadlığın müvəqqəti olduğunu bilirdim. Yenə də onun şirinliyindən dadmaq üçün yatmaq, bir-iki saatlığa dərdlərimdən uzaqlaşmaq həvəsi oyanmışdı məndə. Yanımdakının yad adam olduğunu fikirləşib özümü ələ aldım. Od kimi isti daşı qucaqlayıb hönkürdüm. Mənə elə gəldi ki, bu dilsiz-ağızsız daşı yox səni, Cavadımı qollarımın arasında sıxıram. Oğlan matmat üzümə baxır, bir söz demirdi. Mənim ağlayıb ürəyimi boşaltmağımı gözləyirdi sanki.

– Gedək, Fatma, şər qarışmamış bir yana çatmalıyıq. Həm də izimizi itirmək üçün o gördüyün çaydan keçməliyik, bir az tələs!

Mən adımı oğlanın dilindən eşitcək cəld geri dönüb təəccüblə onun üzünə baxdım.

Sən məni hardan tanıyırsan? Sualı baxışlarımdan oxunurdu. O azacıq gülümsədi:

– Mən səni yaxşı tanıyıram, Fatma. Bura gəlməyimin də səbəbi o alçağın dediyi kimi pul qazanmaq yox, səni qorumaq idi.

– Məni necə tanıyırsan ki, neçə saatdı yol gəlirik, heç adını da bilmirəm?

– Adım Mürsəldi. Qaldı səni tanımağıma, onu da Səltənətdən öyrənmişdim. Sən təşkilata üzv yazılandan bütün gecə-gündüz səndən xəbərsiz səni qoruyurdum, Fatma xanım. Kimin xanımı olmağının da marağında deyildim. Mən tapşırığı yerinə yetirirdim. Ev dustağı olduğunu bilirdik. Bir az səbr etsəydin, etibarlı bir yerə aparacaydıq. Təəssüf…

Səltənət adını eşitcək elə bil məni ildırım vurdu.

– Səltənət məni güdaza verib, özü də gizləndi. Onun adını da eşitmək istəmirdim.

Mürsəl qeyizli danışdığımı görüb dilləndi:

– Sən əsassız yerə Səltənətdən bədgüman olursan, Fatma bacı,

Səltənəti gənclikdən tanıyıram. O, təşkilatın ən fəal üzvüdür. Onu deyə bilərəm ki, kişi qeyrətli qadındır. Neçə dəfə tutulub, işgəncə verilib, heç kəsi satmayıb. Ölənə qədər milli azadlıq hərəkatı üzvlərinin intiqamını almağa and içib. Sən nəsə səhv salmısan.

– Necə səhv sala bilərəm ki, məktub yazıb məni görüşə çağırmasaydı, bu hadisə də baş verməzdi. Məktub göndərir, özü görüşə gəlmir, bunu necə başa düşüm?

– Sən nə danışırsan, kimsə səni aldadıb… Səltənət dağ kəndlərindən hələ də qayıtmayıb. Bir həftə bundan qabaq təşkilat xüsusi tapşırıqla onu ora göndərib. Burda nə isə var, səni aldadıb evdən çıxarıblar. Mən sənə mane olmağa macal tapmadım. Həyat yoldaşından ehtiyatlandım. Sən gözlənilmədən evdən çıxdın, Fatma. Mən əlacsız qalıb o yaramazın şərtinə razılaşdım ki, sənin hara aparıldığını heç olmazsa öyrənim. Təşkilatın bu hadisədən xəbəri yoxdur.

Mat-məəttəl qalmışdım. Bəlkə, nə vaxtsa məni bağışlayacaqsan Qasım, bilmirəm. Amma indi qarşında günahkaram. Naməhrəm adamla belə yaxından söhbət eləməyim, bilirəm xoşuna gəlməyəcək. Artıq mənimçün heç bir fərqi yoxdur. Bu yolu tutanın başı hər cür bəlaya hazır olmalıdır. Məni nə gözlədiyini artıq bilirəm. Bir ona sevinirəm ki, mənə yazılan məktub o alçağın əlində deyil, Mürsəldədir. Məni yenidən tutsalar, məktub sübut, dəlil kimi öz rolunu oynaya bilməyəcək. Bir xahişim var ki, sənə, oğluma olan sədaqətimə inanasan.

Aclıq məni əldən salmışdı. Mürsəl də bunu başa düşürdü. Özü də məndən yaxşı vəziyyətdə deyildi. Bir az dincimizi almışdıq. Nə isə eləmək, hava qaralmamış bir kəndə çatmaq lazım idi. Başqa çarəmiz qalmamışdı. Bilirdik ki, çox keçməz bizi axtarışa başlayarlar. Heç birimiz suda üzməyi bacarmırdıq. İzi itirməyin yeganə çarəsi çayı keçmək idi. Çay boyu aşağı-yuxarı xeyli gəzişdik. Dayaz bir yer tapacağımıza ümid edirdik. Vaxt çox az idi. Mürsəlin Səltənət haqqında dedikləri nə isə məni qane etmirdi. Hər şeydən əvvəl fikrim məktubun yanında idi. Bərk tutulmuşdum. Dinib-danışmırdım. Ayaqlarımı könülsüz-könülsüz atırdım. Mürsəlin dediklərinə ya bəli, ya xeyr cavabı verməklə kifayətlənirdim. Düşünürdüm ki, tezliklə axşam düşəcək bu yad adamla çöl- biyabanda məni görənlər nə fikirləşəcəklər? Bəlkə də,

avara qadınlardan biri hesab eləyəcək, ünvanıma yüz cür nəlayiq sözlər yağdıracaqlar. Bax bu mənə ölüm qədər ağır gəlirdi.

– Xanım qız, nə dərin fikrə getmisən? Bəlkə, qorxursan? Mübarizə qurbanlar tələb edir. O qurban bu başı bəlalı vətənimizin yolunda verilən canımızdır. Can qayğısını çəkmək bizə yaraşmaz.

Vaxtilə İran aslanı Şah Abbasın yenidən birləşdirdiyi vətənimizdən heç nə qalmayıb. Bircə qalan ürəyimizin odudur ki, zaman-zaman alovlanır. Bax elə Babək qalasını götürək. Hər dəfə ora baxdıqca mənə elə gəlir ki, əli qılınclı Babəklə üzləşirəm. Onun ağır zəhmi qarşısında utanıram. Hanı Odlar Yurdunun mərdləri? – Deyə bizi məzəmmət eləyir. Qazandığımız o qısa azadlıq bizim mübarizəmizin yeni başlanğıcı olacaq. Milli azadlıq inqilabımızdan on ilə qədər bir vaxt keçməsinə baxmayaraq bizim «İntiqam Məhkəməsi» adlanan dəstəmiz Pəhləvi rejimini devirmək, haqqımızı özümüzə qaytarmaq işindən əl çəkməyib. Dəstəmiz get-gedə böyüyür, genişlənib ölkənin hər tərəfinə yayılır. Səltənət kimi onlarla qadınlarımız, qızlarımız bu mübarizəyə qoşulublar. Biz kommunist rejiminin fitnəsinə inanıb, deyərdim ki, aldanıb, güdaza gedən Seyid Cəfər Pişəvarinin arzu və ideyalarının davamçılarıyıq. Bu yol bizi mütləq qələbəyə aparacaq.

Mürsəlin dediklərinə itaətkarlıqla qulaq asır, dinməz-söyləməz dalınca addımlayırdım. Onun Səltənət haqqında dediklərinə heç cürə inana bilmirdim. Məktubun kim tərəfindən, nə məqsədlə yazıldığı qarşımda cavabsız bir sual kimi dururdu. Həyatımı məhv eləyən o kimdirsə, tapıb üzünə tüpürmək istəyilə alışıb-yanırdım. Axı mənim vəziyyətimdə bu mümkündürmü? Getdiyim cəhənnəmdən geri qayıda biləcəyəmmi? Bax buna ümidim qalmayıb, Qasım.

Bu yerə çatanda Həmid ağa duruxdu. Boğazı qurudu, əlləridodaqları titrədi. Bir uşaq kövrəkliyi ilə qəhərləndi: «Yox, bircə bunu qəbul eləyə bilmərəm. Dostumun, uşaqlarımın qarşısında bu mənə ölümdən betər olardı. Qoy mənim bu gizli sevdam, qardaş qədər sevdiyim dostuma olan xəyanətim, elədiyim günahımla birgə qəbr evinə getsin. Neçə illərdi sinəmdə gəzdirdiyim bir istək yenidən alovlanıb, məni yandırıb kül eləyir, Fatma. Nə vaxtsa məni bağışlaya biləcəksənmi? Buna ömrüm çatacaqmı?»

Həmid ağa öz-özünə sanki sayıqlayır, həm də şübhələrini əsaslandırmağa çalışırdı..

– Nə danışırsan, Həmid? İndiyə qədər bir xəbəri, bir barmaq kağızı gəlməyən bir adamdan halallıq istəmək ağılsızlıqdır. O sağ olsaydı, yəqin bir adamdan ismarış-zad göndərərdi. O xarabanı ki, sən görmüşəm, zərif qadın bədəni orda uzun müddət tab gətirməz. Yəqin çoxdan ölüb, sahibsiz bir adam kimi harda gəldi dəfn eləyiblər. Yox, dilim-ağzım qurusun, mən nə danışıram? O şümşad bədən torpaqda çürüyə bilməz. Əgər belədirsə, mən niyə yaşayıram, Tanrım? Axı mən sənə sadiq olmuşam. Əllərim gündə neçə dəfə dərgahına açılıb? Sənin ədalətinə, böyüklüyünə inanmışam. Səndən üstün varlıq bir də özünsən, – demişəm. Mənim əzablarımı görmürsənmi? Barı sən mənə bir yol göstər. Bəndəni düşdüyü vəziyyətdən səndən başqa heç kim çıxarda bilməz. Xeyiri dardan qurtaran, şəri şər quyusunun dibinə salan da sən özünsən? Gördüklərim, çəkdiklərim azmış kimi ömrümün bu qürub çağında bu nə əzabdır, mənə verirsən?

Elə bu anda minbərdən özünü bir baş yerə atıb vicdan əzabından qurtarmaq fikri ildırım sürətilə başından keçdi ağa Həmidin. Çayın kənarı ilə əlacsız, yorğun addımlayan kol-kos əl-ayağını didib qanadan Fatmanın xəyalı gözünün qabağına gəldi. Fatma acıqlı-acıqlı irəli gəlib ağa Həmidin üzünə bərk bir şillə çəkdi. «Xəyanətkar», – deyib üz çevirib uzaqlaşdı.

Ağa Həmid şillə səsinə xəyaldan ayıldı.

– Mən dəli oluram, nədi? Burda nə Fatma var, nə də onun dərdini başa düşən bir kimsə.

O, əlindəki sarı vərəqləri yandırıb kül eləmək, birdəfəlik keçmişinin üstündən adlayıb azad olmaq istədi. Ona da əli gəlmədi.

– Səndən mənə qalan yeganə bu dəftər də Qasımın məhəbbəti kimi oğurluqdur. Başqasına ünvanlanan bu sətirlərdə sənin iyirmi beş il əvvəlki camalını görürəm, Fatma. Ondan da aralanmaq mənə ölüm kimi bir şeydir. Allah verdiyi canı özü də almaq iqtidarına malikdir. Nə vaxt məsləhət bilsə, bu dəftərlə birlikdə canımı təslim eləyəcəm. İndi başladığımız bu böyük işi axıra çatdırmaq, minlərlə sənin kimi günahsızların intiqamını almaq üçün ölmək istəmirəm, Fatma. Biz sənlə ayrı-ayrı qurluşlarda, müxtəlif rejimin yumruğu altında yaşasaq da, vətən təsibini, torpaq,

azadlıq eşqini canımızdan, qanımızdan çıxara bilməyiblər.

Odlar yurdundan bizə miras qalan ancaq budur.

Ağa Həmidin fikri aydınlaşıb, ovqatı bir az durulmuşdu. Daxilindən gələn bir səs onu sanki məzəmmət edirdi.

«Öz şəxsi hisslərinin əsiri olmaq zəiflik əlamətidir, Həmid! Böyük əməllər uğrunda mübarizələr çox vaxt şəxsi intiqam, şəxsi münasibətlərdən yaranır. Bəzən adam məhəbbətini, şəxsi həyatını belə ümumi işə qurban verir».

Ağa Həmidin dizləri titrədi. Boğazı qəhərdən elə qurudu ki, neçə dəfə udqunsa da səsi çıxmadı. Ayağa qalxıb məsciddən uzaqlaşmaq istədi, bacarmadı. Dəftər dizinin üstündən sürüşüb yerə düşdü. Ağa Həmid bir addım atıb dayandı. Ona elə gəldi ki, Fatma dalınca əlini uzadıb: «geri qayıt!» -deyir.

Lənət sənə, şeytan, məni qara basır, nədir? Bir-iki dəfə gözünü ovuşdurdu. Minbərdə ondan və dəftərdən qeyri bir kimsə yox idi. Tez əyilib dəftəri yerdən qaldırdı. Qayıdıb yerində oturdu. Fatmanı axıra qədər dinləmək həvəsi səngiməmişdi. Belə fürsət bir də ələ düşəcəkmi?

Ağa Həmid dəftərdə yazılanları axıra qədər oxumağı qərarlaşdırıb təkrar kətilin üstünə çökdü. Fatma əzablı yollardan keçdikcə başına gələnləri can yanğısı, ürək ağrısı ilə elə yazırdı ki, ağa Həmid onu oxuduqca az qala dünyaya gəldiyi üçün özünü lənətləyir, ona heç bir köməyi dəymədiyinə görə yerə-göyə, külli aləmə qarşı sanki üsyan edirdi.

Əzablı yollarla

– Hara getdiyimizi özümüz də bilmirdik. Yəqin bizi bu yaxın kəndlərdə axtaracaqlar fikri ilə mümkün qədər uzaqlara getməyə çalışırdıq. Fəqət, hara? Kol-kos çarşabımı didib tökmüşdü. İstidən dodaqlarım çatlamış, üzüm xeyrə kimi qızarmışdı. Amma səsimi çıxarmırdım. Çay boyu xeyli yol getdik. Böyük bir meşəliklə qarşılaşdıq. Meşə ətrafında mütləq bir kənd və ya bir yaşayış yeri olduğunu güman edib addımımızı bir az yeyinlətdik. Qalın kolların, ağacların arasından keçib seyrək kollu bir talaya çıxdıq. Talada bir sürü qoyun-quzu otaran oğlan uşağını görüb ürəkləndik. Cəld uşağa yaxınlaşdıq. Oğlan həm qorxdu, həm də

təəccübləndi.

Şər qarışan vaxtı bu yad adamların burada nə işi var? – deyə yəqin düşündü. Onun ayağında rezin qaloş, əynində nimdaş bir üst geyimi var idi. Üz-gözü gündən yanıb qovrulmuşdu. Qıvrım saçlarına o qədər toz-torpaq hopmuşdu ki, saçının rəngi güclə seçilirdi. Əlindəki ağaca söykənib sakitcə bizə baxır, uzun kirpiklərini tez-tez çırpır, heç nə soruşmurdu. Mürsəl yaxınlaşıb salam verdi. Oğlan böyüklərə məxsus bir hərəkətlə əlini irəli uzatdı.

– Balaca, gəl tanış olaq, mənim adım Mürsəldir. Bəs sənin adın nədir?

– Adım Uğurdur, əmi- deyə uşaq təkrar əl verdi. – Xoş gəlmisiniz, xala da xoş gəlib. Mən naxırçı Abbas kişinin oğluyam. Atam xəstələnib. Odur ki, bu gün naxırı örüşə mən çıxarmışam.

– Uğur, deməzsən ki, bizim azıb gəldiyimiz bu yer haradır?

– Siz azmısınız, əmi? Mən elə də düşünürdüm. Bu yerlər çox qarışıq yerlərdi. Yad adam üçün elə də asan deyil. Bura Qəzvin, Fərəhabad tərəflərdir. Kəndimizin adı da Selaparandır. Fərəhabada aid torpaqlardır buralar.

Mürsəl bir az fikrə getdi.

– Hə, bu adı haradasa eşitmişəm. Ya elə bu kənd haqqında oxumuşam. Adı tarixə düşən bir kənddir. Selaparan qəribə addır. Məsəl var, deyərlər ki, hər adın altında bir tarix yatır. Tarixin yaddaşı məhək daşı kimi möhkəm olur. Başından necə qəzəvü-qədər keçirsə-keçsin, yenə onun yaddaşında yazılanları silib apara bilmir. Qoruyub saxladıqlarını nəsildən-nəsilə ötürə bilir.

– Öz-özünə nə danışırsan, Mürsəl? İndi tarixi araşdırmağın yeri deyil. Görmürsən, uşaq üzümüzə necə baxır? Sözünü desənə, – dirsəyinə toxundum. O, ayılan kimi oldu.

Neçə ildən sonra yazdığım bu sətirlərdən qısa da olsa, ondakı azadlığımın xoşbəxt anlarını görürəm, Qasım. Mənə çətin olsa da, bu daş zindanda başıma gələnləri bütün incəliklərinə qədər yazmaq, qəfəsdə quş kimi çırpınan ürəyimin odunu vərəqlərə tökmək istəyirəm. Bundan başqa əlimdən nə gəlir ki?...

Uğurla söhbətimizdən belə başa düşdük ki, günorta bir dəstə adam kəndə daraşıb bir qadın, bir kişi haqqında soruşurmuşlar. Onların dediyinə görə qatı cinayətkarları axtarırmışlar.

– Biz cinayətkar deyilik, Uğur. Cinayətkarların əlindən qaçan

günahsızlarıq. İnsanlara qarşı edilən haqsızlıqlara qarşı çıxanlarıq. Başa düşürsən, oğlum? – Deyə Mürsəl ona bir addım da yaxın gəldi.

– Niyə başa düşmürəm. Şah adamlarının camaata elədikləri zülmün mən də şahidi olmuşam. Təbrizdə öz hökumətimiz qurulanda onu alqışlayanlardan biri də atam olduğu üçün o qədər döymüşdülər ki, indi də o yaraların yeri belində durur. Bir az da böyüyüm mən də sizlərə qoşulacam. Atamı şikəst eləyənlərdən intiqam alacam.

– Biz kimlərik ki, Uğur?

– Siz camaatın haqqını müdafiə edənlər. Düz başa düşmüşəm, əmi?

– Lap düz başa düşmüsən. İndi bizi gördüyüynü deyib ələ verməzsən ki?..

– Yox, nə danışırsız, mən kişi deyiləm? – Güldü. Mürsəl bu on iki-on üç yaşlı uşağın mühakiməsinə məəttəl qalmışdı. Yeriyib onun alnından öpdü. Halal olsun, – dedi.

Uğur naxırı da unutmuşdu. Naxır meşəyə dağılıb itbat ola bilərdi. Köməkləşib naxırı bir yerə yığdıq.

Uğur çiynindəki torbasından bir bükülü çörək çıxardıb bizə uzatdı.

– Aclığınız olar, əmi, yol gəlmisiniz, – dedi.

Biz çörəyi acgözlüklə yedik. Ayağa qalxıb getmək istədikdə o dilləndi:

– Siz belə hara gedə bilərsiniz? Hər tərəfdə sizi axtarırlar. Burda oturub dincəlin, mən naxırı kəndə ötürüb qayıdıram. Sizi etibarlı bir yerə apararam.

Doğrusu, uşağın səmimiliyinə inana bilmirdik. Kim bilir... Gözləməkdən başqa çarəmiz qalmamışdı.

– Mürsəl, bayaq bu kəndin tarixindən nə isə deyirdin, o nə məsələdi? Danış, vaxtımızı öldürək, başqa çarəmiz yoxdur.

– Hə, Fatma, otur! Vaxtımızı öldürmək üçün bir məşğuliyyət olmalıdır da, görək başımıza nə gəlir.

Şah Abbas Qəndəhar tərəflərə yürüşlər eləyəndə, ya Qəzvin əyalətinə təşrif gətirəndə Fərəhabadda qalmağı çox sevərmiş. Fərəhabadın təbiəti, ov eləməli yerləri şahı özünə cəlb edərdi. Bir gün də istirahət eləmək üçün Fərəhabada gəlir. Onu çox mehri-

bançılıqla qarşılayırlar. Xalqın güzəranı ilə həmişə özü maraqlanar, qorçularına etibar eləməzmiş. Şahın fikri qışı Fərəhabadda keçirmək idi. Fərəhabadda düşərgə saldıqdan sonra dərviş paltarında xalqın güzəranını gözlərilə görmək üçün kəndlərə çıxır. İlk gəldiyi yer Selaparan kəndi idi. Paltarını dəyişən şahı heç kəs tanımır. Kəndin meydanında bir dəstə adam mübahisə eləyib güzəranlarının ağırlığından danışırmışlar.

– Bu il nə becərmişiksə, sel gəlib apardı. Vergiyığan da inanmır ki, inanmır. Yerin altından da olsa, vergini tapıb ödəməyi tələb eləyir. Vergini yığıb verməsəniz, sizi Şah Abbasın hüzuruna aparmayacam, özüm öldürəcəm, – deyir. İndi başımıza nə çarə qılaq? Şah onlar sakitləşəndən sonra onlara yaxınlaşır:

– Mübahisənizdən belə başa düşdüm ki, vergiyığan insafsız adamdır. Siz dərd eləməyin. Mənim kimi yurdsuz-yuvasız bir yolçunu qonaq eləyin ki, Allah da murazınızı versin.

Heç kəs onu qonaq saxlamağa razı olmur. Hamının vəziyyəti ağır idi. Yoldan keçən bir qoca qarı onu evinə aparıb qonaq eləyir. Şah Abbas qarıdan öyrənir ki, doğrudan da, camaatın əkib- becərdiyini sel aparıb. Vergiyığanlar da bir yandan onları soyub talayır. Evimizdə nə var, satıb onlara veririk. Qarının yeganə oğlu kəndin naxırına gedir, iş haqqı verilən çörəklə dolanırmışlar. O gecə oğlan hörmət əlaməti olaraq çörəyin hamısını qonağın qabağına qoyur. İki gündən sonra şah yenə başqa libasda «Selaparan» kəndinə gəlir. Eşidir ki, vergiyığanbaşı kənd ağsaqqallarını tutub Fərəhabad zindanına saldırıb. Şah yenə onlara müraciətlə:

– Kim məni evində qonaq saxlayar?

Yenə heç kim dillənmir. Qarı nənə irəli yeriyib deyir:

– Bala, ötən dəfə bizdə qonaq qalmısan. Bu dəfə də bizdə qal. Allaha da, onun bəndəsinə də, şahına da canım qurban.

Şah qarının oğlu örüşdən gələnə qədər onunla söhbət eləyir.

– Bu qədər ki eviniz genişdi, bir sualıma cavab ver, qarı nənə. Sizin eviniz, otağınız başqalarından çox fərqlidir. Düşünürəm ki, vaxtilə varlı olmusunuz, bəs indi niyə bu qədər kasıb dolanırsınız?

Qarı dərindən köks ötürüb deyir:

– Düz deyirsən, bu ev əvvəllər çox varlı bir nəslə mənsub olub. Sel gəldi, nəyimiz var yuyub apardı. Sonra da şahın vergiyığan-

ları bizi çapıb taladılar. Əvvəllər o qədər varlı-hallı idik ki, hətta qurban olduğum şahın digər ölkələrdən gələn qonaqlarına da yer verib saxlayardıq. İndi gördüyün kimi pis güzəran keçiririk. Buna da şükür.

Şah özünü tanıtmadan geri qayıdır. Saraya gələn kimi vergiləri azaldır. Qarının oğlunu və özünü saraya gətirib firəvan yaşadır. Bu haqda uzun-uzadı danışmaq olar, xanım Fatma. Elə o vaxtdan bu kənd öz adını indiyə qədər qoruyub saxlayıb.

Vaxt keçirdi. Biz çox narahatçılıq çəkirdik. Uğur gözə görünmürdü. Mürsəl ayağa qalxdı.

– Qalx, yola düşək, burda nə isə bir iş var, Fatma bacı. Ola bilər ki, uşağın dalınca düşüb bizi yaxalasınlar. Nə qədər gec deyil burdan uzaqlaşmalıyıq.

Elə bir neçə addım atmışdıq ki, Uğurun tövşüyə-tövşüyə bizə sarı qaçdığını gördük. Ayaq saxladıq. O, bir torba çörək, şor və bir qab su gətirmişdi.

– Atam dedi ki, burdan bir az aralı bir kənd var. Düz çayın kənarında yerləşir. Orda sizinkilərdən bir nəfər var. Ora gedin. O, sizə kömək eləyər. Adı Bayramdır. Atamın köhnə dostlarındandır. Bunu da sizə çatdırmağımı tapşırdı.

Təəccüblə uşağın üzünə baxırdıq.

–Uğur qoynundan əsgiyə bükülü nə isə çıxarıb Mürsələ uzatdı. Mürsəl bükülünü maraqla açdı. Bu, bir az paslanmış tapança idi.

– Atam verdi, əmi. Paslandığına baxma, düşmənə yaxşı açılır. Uğur qürurla dilləndi. Mürsəl Uğuru qucaqlayıb öpdü. Cəld yola düşdük. Elə yorulmuşdum ki, bir saatlıq yuxu üçün nəyə desən, gedərdim. Mürsəl bunu hiss eləyib dilləndi:

– Xanım Fatma, vəziyyətinizi başa düşürəm. Amma dayanmağın vaxtı deyil. Onlar bizi tapmamış, biz özümüzü Uğur deyən yerə çatdırmalıyıq. Əgər o mən tanıyan Bayramdırsa, təşkilatın ən inanılmış üzvlərindən biridir. Mütləq bizə kömək eləyəcək. Görürsənmi, intiqam həvəsilə silahı hələ də yerə qoymayan həmvətənlərimiz var. Biz onlara güvənməliyik.

Mən onun dedikləri ilə razılaşırdım. Amma özüm sanki qatı duman içinə düşmüş kimi nə edəcəyimi, hara gedəcəyimi bilmirdim. Başıma gələnlər məni çaşdırmışdı: Axı mən nə qədər, neçə il mübarizə aparmışdım ki, məni qatı cinayətkar, casus kimi

mühakimə etmək istəyirdilər? Başmaqlarım sıyrılıb ayağımdan az qala çıxmışdı. Meşədə bir kötüyə ilişib altı qopduğundan yeriyə bilmirdim. Bunu görən Mürsəl cib yaylığını çıxarıb başmağımı bərk-bərk ayağına bağladı. Qızdırmalı adamlar kimi fırlanır, gücdən-taqətdən düşürdüm. Od içində yanırdım, elə bil. Su qabından bir neçə qurtum su içib boğazımı yaşladım. Ağacların arasından ara-sıra işıq gəlirdi. Bir az irəliləyib gözlədik. Dalımızca güdükcü-zad olmadığına əmin olmaq üçün yoğun bir ağacın gövdəsinə söykənib oturduq. Fanar farası kimi iri bir işıq ağacları, kolları yara-yara bizə yaxınlaşırdı. O nə fanar, nə lampa işığına bənzəyirdi. Bizə yaxınlaşdıqca işıq haçalanıb, iki yerə bölündü. Mürsəl silahı çıxarıb hazır tutmuşdu. Ağlına nə gəldisə, çaxmağı alışdırıb yuxarı qaldırdı. Qorxudan yarpaq kimi əsirdim. Mürsələ qısılmışdım. İşıq gəldiyi kimi birdən-birə yox oldu. Dərindən nəfəs aldıq:

– Lənətə gəlmiş çaqqaldı, işığı görüb çıxıb getdi,– deyə Mürsəl pıçıldadı. Astadan güldü: – Bu meşələrdə tülkü, çaqqal çox olur. Allah gerisindən, iki ayaqlı çaqqallardan qorusun bizi.

Bu yazdıqlarımı oxumaq sənə qismət olsa, üzündəki ifadəni aydın görürəm, Qasım. Mürsəl çox alicənab, yüksək mədəniyyətli, tərbiyəli bir insandır. Ağlına heç nə gəlməsin. O da var ki, mənim başqa çarəm yoxdur. Tale məni hara qovurdusa, ora gedirdim. Necə deyərlər, calayi-vətən olmuşdum. Həsrətini çəkdiyim bu torpaqda mənə sığınmağa yer yox idi. Artıq kəndin kənarına çatmışdıq. Tək-tək yerlərdən itlərin səsini eşidirdik. Bəzi evlərdən lampanın zəif, sarı işığı gəlirdi. Kənd qəbristanlığı xatırladırdı. Zülmət qaranlığa qərq olmuşdu. Oturub yenə bir xeyli dincəldik. Çayın qıjıltısından, bir də orda-burda atılıb-düşən kol quşlarının səsindən başqa bir şey eşitmirdik. Kəndi görüb kövrəlmişdim. Yadıma biz bura gələndə kəndin kənarındakı dəyirmana qədər bizi ötürən Tamaşa nənəmin son sözləri düşdü:

– Yad yerlərə gedirsən, özünü qoru, qızım! Ya qismət, bir də görüşəcəyikmi? Səni Allaha tapşırıram. Harada olsan, xeyirduam qoy üstünçə getsin.

Dedim:

– Yad yerlər niyə olur, nənə? Ora da, bura da doğma torpağımızdır. İnşallah, tezliklə görüşəcəyik.

Ürəyim atlandı. Elə bildim axşamüstü toyuq hinləyən Tamaşa nənəm indicə mənim qaraltımı alacaq, əlini gözünün üstünə qoyub:

– Ay uşaq, darvazanın dalındakı kimdir? – Deyib yaxın gələcək, boynumu qucaqlayıb öpəcək. Mən də bir uşaq şıltaqlığı ilə onun boynuna sarılacam. Eh, xatirələr, xatirələr. Bəzən xatirələr həyat qədər şirin olur. Mənim bu arzumun çin olmağı üçün ömrümü verərdim, Qasım. Təəssüf ki, bu mümkün deyil.

Biz Uğurun atasının dediyi kimi göy rənglə rənglənmiş həyətində qollu-budaqlı iri qoz ağacı olan evi axtarıb tapdıq. Darvazanın dalında bir az ayaq saxladıq. Ayaq üstə güclə dururdum. Üstəlik yuxusuzluq da məni əldən salmışdı. Kəndin aralığında heç bir inni-cinni yox idi. Pəncərədən işıq gəlirdi. O qədər zəif idi ki, sanki yerin yeddi qatından çıxırdı. Qəribə idi. İşıq gəlsə də, heç kəs girib-çıxmırdı. İt bir neçə ağız hürdü. Hənirtimizi almışdı deyə darvazanın dalında atılıb-düşür, elə bil hasarın başından hoppanıb bir göz qırpımında üstümüzə cumacaqdı. Mən çox qorxdum. Elə uşaqlıqdan itdən qorxurdum. Nənəmgilin həyətində bir dəfə it məni dişləmişdi. Nənəm bir hay-həşir salmışdı ki, gəl görəsən. Həkim çağırıb iynə də vurdurdu. Ürəyi soyumadı. İtin başına ip salıb yaylağa gedən çobanların birinə verdi ki, aparıb azdırsın.

– Öz sahibini dişləyən itə quduz dəyib – deyərlər. Bəzi insanlar kimi o da nankordu. Çörək verəninə kəm baxanın aqibəti belə olmalıdır. İstər insan olsun, istər heyvan.

Mən nənəli-babalı günlərimdən aralanmamış Mürsəl pıçıltı ilə dilləndi:

– Burda nə isə bir iş var. İt az qala bütün kəndə səs salıb, sahibi çölə çıxmır.

– Sən burada gözlə, mən içəri girəcəm. Ancaq iti susdurmaq lazımdır. O, məni içəri girməyə qoymayacaq.

Torbadakı çörək yadına düşdü. O bizə hava-su qədər lazım olsa da, çarəmiz yox idi. Çörəyin hamısını itin qabağına tökdük. İtin başı qarışan kimi Mürsəl hasarı aşıb həyətə düşmək istəyəndə ətəyindən tutub buraxmadım.

– Mən tək qalmaqdan qorxuram, Mürsəl qardaş, mən də sənninlə gedəcəm. Qoy nə olacaq-olsun-dedim.

Mürsəl çarəsiz qalıb hasardan aşan kimi darvazanın cəftəsini çəkib açdı. Biz evə yaxınlaşar-yaxınlaşmaz əli silahlı bir tip üstümüzü kəsdi.

Mürsəl: – Biz tələyə düşmüşük, Fatma, qaç, – deyə bildi. Boynunun ardından vurulan zərbə onu susdurdu. Silahlı adam cəld tapançanı mənə tuşladı:

– Demək, sən burdaymışsan, sürəvi ləçəri? Elə bilirsən əlimizdən qaça biləcəksən? Yox, səhv eləyirsən. Hələ belə bir şey olmayıb ki, bizdən bir cinayətkar qaçıb can qurtarsın. Bax, bu da sənə qəhmar çıxanın. Sözün nədi?

Mənim nitqim batmışdı. Silahlı adam ayağı ilə əli-qolu bağlı Mürsəli zirzəmiyə itələdi.

Mənim qolumdan bərk yapışıb üç-dörd pilləkəni olan zirzəmiyə dartdı. Mürsəl özünə gəlmişdi. Macal tapıb silahı çıxara bilmirdi. Əlim yerdən-göydən üzülmüşdü. Onu öldürsələr, mənim halım necə olacaqdı? Bu yad yerlərdə başıma daha nələr gələrdi? – Düşündükcə sanki havalanırdım. Hər necə olursa-olsun bu işin tez qurtarmağını istəyirdim. Məni öldürməyəcəklərinə əmin idim. Çünki mən onlara ölü yox, diri lazım idim. O yaramaz qolumu elə sıxdı ki, gözümdən od çıxdı.

Mürsəl öz vəziyyətini unudub qışqırdı:

– Burax onu, alçaq. Onun heç bir günahı yoxdur. Heç bir cinayət də eləməyib. Cinayətkarlar sizin kimilərdir ki, köməksiz, dayaqsız, qərib bir qızın dalınca tula kimi düşmüsünüz.

– Necə cinayətkar deyil? Əri taxt-tacın düşməni olan səncə cinayətkar sayılmır, qoçaq oğlan? Fikrin nədir? Bu böyüklükdə məmləkətdə qabağına çıxan bəlkə tapılmadı fikirləşirsən? Əlini, qolunu bağladığın bilsəydin kimdir, bu işi tutmazdın. Qurduğunuz o hökumət Karapetlə bacarmadı, indi sən bacaracaqsan?

– Niyə bilmirəm? O alçağın, yaramazın biridir, sən də onun quyruğu.

Zirzəminin bir küncündə ev yiyəsinin əl-qolu bağlanmış, ağzına dəsmal tıxanmışdı. Mən yaddan çıxmışdım. Gözlərimlə zirzəminin hər tərəfini axtardım. Bayram kişi gözülə nəyəsə işarə eləyirdi. Başa düşə bilmirdim. Birdən az qala ayağımın altında olan dəmir yabanı gördüm. Ayağımla onu yaxına çəkmək istədim. Bunu görəcək silahı mənə sarı tuşladı:

– Deyəsən, hamıdan qabaq ölmək istəyirsən? Belə bir istəyin varsa, mən arzunu yerinə yetirməkdə sənə kömək eləyərəm – deyə üstümə cumanda elə bil mənə bir güc, qüvvət gəldi..

Dəmir yabanı yerdən götürüb geri zirzəminin nisbətən qaranlıq küncünə çəkildim. O mənə sarı bir-iki addım atdı. Mürsəldə silah olduğunu güman eləmirdi. Silahı yerə atıb artıq-əskik çərənləməyə başladı:

– Sən belə gözəl imişsən, şürəvi cəsusu? Çoxunun ağlını başından çıxarmısan- deyirlər. Əlindəkini yerə qoy, səninlə bir az əylənək.

Mən Mürsəli unutmuşdum. Bir az da geri çəkildim. Üstümə atılmaq istəyəndə dəmir yabanı düz üzünə sancdım. O, vəhşi heyvan kimi bağırıb, gözünü tutdu. Yerə yıxılıb cabaladı. Özüm də qorxmuşdum. Mürsəl Bayramın və arvadının əl-qolunu açmışdı.

– Sağ ol, Fatma, sən hamımızı xilas elədin. İndi bu əbləhdən necə yaxa qurtaraq? Onun dalınca bura gəlsələr, bizim halımız necə olacaq?

Zirzəmidən çıxdıq. Əvvəlcə anqıran alçağın indi səsi gəlmirdi. Mürsəllə Bayram təzədən zirzəmiyə qayıtdılar. Artıq onun öldüyünü görüb dəhşətə gəldilər. Dəmir yabanın bir qanadı gözündən girib, başının arxa tərəfindən çıxmışdı. Yabanı dartıb başından çıxartdılar.

– İndi bu alçağın meyitindən azad olmalıyıq, – deyə Bayram dilləndi. Siz qadınlar qan ləkələrini yuyub-təmizləyənə qədər, biz də səhər açılmamış meyiti çaya atıb qayıdarıq. Cəld tərpənin ki, bunun dalınca gələnlər ola bilər. Səhər açılmamış qonşu kənddə yaşayan baldızımgilə gedib orada gecələyək.

Biz evdən çıxanda gecə yarıdan keçmişdi. Bayramın arvadının ayaqqabısını geymişdim. Bir az ayağımı sıxırdı. Yenə özümünkündən yaxşı idi. Hamımız olanlardan dəhşətə gəlmişdik. Belə bir işə düşəcəyimiz bizə yuxu kimi gəlirdi. Heç kəs dinib-danışmırdı. Hətta Bayram bizim kim olduğumuzu, bizə görə başına bu müsibətin gəldiyinin səbəbini də soruşmurdu. Özü qabaqda gedir, bizi də tələsdirirdi. Yaşına uyğun olmayan cəldliklə irəliləyirdi. Mürsəl Bayrama ara-sıra suallar verir, hal-əhval tuturdu. Danışıqlarından onların bir-birini çoxdan tanıdıqlarını

başa düşürdüm. Bayramın arvadı elə ərinin qarasına deyinir, keçmişdə başlarına gələnlərdən dərs götürmədiyi üçün danlayırdı.

– Bəsdir, ay Mələk, heç olmasa qonağın yanında dilini ağzına sal. Olan olub, keçən keçib. Səncə, indi yolun yarısından qayıtmalıyam? İnsanın əqidəsi, məsləki bir olmalıdır. Mən gündə bir əqidə dəyişənlərdən deyiləm. Bunu birdəfəlik bil!

– Dediyindən dönmədin ki, bircə balamızı da güdaza verdin, bəs necə? Əqidə, məslək sənə balamızdan artıq oldu. İndi də didərgin düşdük. Əqidə-əqidə deməklə qarın doymur. Bu evi yıxılmış da hardan gəlib qanını üstümüzə tökdü. Kasıb komamızda yaşamağa da bizi qoymayacaqlar. Səni tutsalar, mənim günüm necə olacaq, Bayram?

– Hələ nə məni tutublar, nə də sən çöldə qalmısan. Özünü ələ al, ay bimürvətin qızı. Görək başımıza nə gəlir. Oğlumuz Allahverdinin qanı yerdə qalmayacaq. Sənə söz verirəm. Öləni geri qaytarmaq olmur. Amma qanını almaq olar.

Qadın qaranlıqda tez-tez büdrəyib yıxıldığımı görüb addımlarını yavaşıdıb mənə sarı döndü:

– Məni bağışla, bacı, heç adını da soruşmadım. Neynim, bircə balamın günahsız öldürülməsi yadıma düşəndə odlanıb-yanıram. Atanın elədiklərinə oğul cavabdeh olmalıdır? Bayram tutulandan sonra onu da demokrat balası kimi izləyib öldürdü bu qansızlar.

– Adım Fatmadır. Arazın o tayından gəlmişəm.

– Bıyy, Arazın o tayına da, bu tayına da qurban olum. Sənin günahın nədir ki, belə qaçqın olmusan?

Mələk vaysındı.

– Bu uzun əhvalatdı. Sizin kimi dostlar olmasaydı, mən görən indi hardaydım.

Başladığımız söhbətin uzanacağını bilən Bayram dilləndi:

– Danışıq dananı qurda verər, Mələk. Hələ xeyli yolumuz var, tələsin! İnşallah dərdləşməyə vaxtınız olacaq. Arvadlar söhbətə, qeybətə başladılar, ucundan tutub ucuzluğa gedirlər.

Lap yorulmuşdum. Biz irəlilədikcə meşə seyrəlir, xırda kolkosun aralarından asanlıqla keçirdik. Dünənki isti hava burada hiss olunmurdu. Aclıqdan, ya yuxusuzluqdanmı, bilmirəm, get-

dikcə dizlərim qatlanır, heyim-hərəkətim kəsilirdi. Onlardan xeyli dala qalmışdım. Mələk qayıdıb qolumdan yapışdı:

– Biz öyrənişikliyik, Fatma, sən bizimlə ayaqlaşa bilmirsən.

Soyuq məni yaman tutmuşdu. Buralar dağlıq yerlər idi. Havasından hiss eləmişdim. Biz obanın ayağına çatanda dağların zirvəzindən baş alıb gələn seyrək duman çəmənliklərə şeh çiləyə-çiləyə dağ yamaclarına doğru yayılır, qarşımızda ürəyi riqqətə gətirən qeyri-adi bir mənzərə açılırdı. Duman günəşin qarşısına tül kimi zərif pərdə çəkir, hər tərəf tutqun çəhrayı rəngə boyanırdı. Bizi yandıran istidən burda əsər-əlamət yox idi. Otların, müxtəlif çiçəklərin qoxusu adamı məst edirdi. Seyrək kənd evləri quş kimi dağın sinəsinə sığınmışdı. Səhərin gözü yuxudan açılsa da, hər yana öldürücü sükut çökmüşdü. Tək-tək evlərin damından burulan tüstü səhərin alatoranlığında dumana qarışıb yox olurdu. Bayram bizə dayanın! İşarəsi verdi. Biz bu halda kəndə girə bilmərik. Siz burada oturun, mən bir az ətrafa göz gəzdirim. Ehtiyat igidin yaraşığıdır, deyiblər.

Əlacımız yox idi. Yaş otun üstündə oturub xeyli gözlədik. Soyuq olsa da, bu mənə ləzzət elədi. Çoxdan bu fürsəti gözləyirdim. Yerimdən qovzanmaq belə istəmirdim. Susuzluqdan dodaqlarım çat-çat olmuşdu. Əlimi otların üstünə mirvari kimi düzülən şeh damcılarına sürtüb dodağıma çəkdim. Mənə elə gəldi ki, dodağımı bizim Damcılı bulağa söykəyib içirəm. Ürəyimə bir sərinlik yayıldı. Az qala, taqətdən düşən əzələlərimdə canlanma əmələ gəldi. Bunu bir neçə dəfə təkrar elədiyimi görən Mürsəl güldü.

– Xanım Fatma, soyuqlaya bilərsiniz. Buraların abı-havası ilə tanış deyilsiniz. Ayağa qalxın! İndi evə gedərik, rahatlanarsınız.

– Mənim günahım üzündən siz də əziyyət çəkirsiniz. Aqibətimiz necə olacaq, bilmirəm?

– Hər şey yaxşı olacaq, siz mənə inanın. Mən sizi darda qoya bilərdim? Bu rejimin sadiq qulları sizi diri-diri udardılar.

– Guya indi ağ günə çıxmışıq? – Mən gileyləndim.

– Əlbəttə yox. Ağ günə çıxmaq üçün başladığımız işi sona çatdırmalıyıq, bacı. O ağ günü bizə heç vaxt asanlıqla verməyəcəklər. Harda görünüb ki, zalım öz xoşu ilə taxtını başqasına versin?

Bayram geri qayıdıb öz qərarını verdi:

– Kəndə elə girməliyik ki, bizi heç kəs görməsin. Tərs kimi baldızımgilin evi kəndin lap ortasında, məscidin yanındadır. Bilirsən, bizim «Selaparan»dan fərqli olaraq bu kənd camaatı dediqodu yayandılar. Bura gözdən-könüldən uzaq dağ kəndi olduğu üçün müxtəlif kürd tayfalarından olanlar, nə bilim, anasından küsüb, atasından acıq eləyənlər gəlib yaşayırlar, – güldü. Birbirindən danoslar aparıb, çatdırmağı sevirlər. Baldızımın əri canlara dəyən oğlandı. Mənə görə iki dəfə tutublar onu. Heç bir sübut-sənəd tapmadıqlarına görə buraxıblar. Güman eləyirəm ki, bu dəfə də bizə kömək eləyər.

– Əlbəttə, güman edirəm ki, sənin dost dediyin adam sənin kimi etibarlı olar, Bayram.

Mürsəl ona sarı dönüb, azca gülümsədi. Öz adını qonağın dilindən eşitcək Bayram ayaq saxladı:

– Məni haradan tanıyırsan, qardaş? Bir üzümə baxsana!

– Qaranlıqda üzümü görüb tanıya bilməzdin. Mən səni zirzəmidə görən kimi tanıdım. Yadındadırmı, Ərdəbildə gizli məşvərət üçün toplanmışdıq. Seyid Məhəmməd Pişəvərinin həlak olmasından sonra təşkilat qərar qəbul eləməli idi. Bizim «İntiqam məhkəməsi» dəstəmizin üzvləri andiçmə mərasimi keçirirdi. Mən çox cavan idim. Üzümə baxıb dedin ki, bizim bu müqəddəs, lakin qorxulu işimizə belə gəncləri qarışdırmayın. Belələri hələ çox sınaqdan keçməlidir ki, onlara tam inanaq.

Onda mən irəli çıxıb dedim:

– Siz nə bilirsiniz bu cavan sinənin altında intiqam hissilə necə böyük ürək döyünür?

Yaxına gəlib alnımdan öpdün. Dedin ki, belə gənclərlə ancaq öyünmək olar!

Bayram qaranlıqda qolunu Mürsəlin boynuna salıb özünə sarı çəkdi. Adı yadına salmağa çalışdı:

– Səhv eləmirəmsə, sən Mürsəl olmalısan.

– Elədir ki, var – deyə Mürsəl onun boynuna sarıldı.

– Siz hara, buralar hara, qardaş? Bu nə güzərandı?

– Bəs sən niyə burda, kənddə yaşayırsan? Axı mən bilən...

– Düz fikirləşirsən. Ərdəbildəki evimi satıb təşkilatın göstərişi ilə bura köçdüm. Bir də ki, mən burada olmasaydım, sizin kimi dara düşənlərə kim kömək eləyərdi?

Hər ikisi güldü.

– Bu xanım qız kimdir, hansı günahı onu bəlaya salıb? – Deyə Bayram təkrar dilləndi.

Mürsəl bir az duruxdu:

– Bu uzun əhvalatdı, Bayram qağa, arxayınlıqda danışaram. Tələsib, sübh açılmamış evə çatmalıyıq.

Evə çatmaq üçün çox dalanlardan keçməli olduq. Bayram sanki qəsdən bizi evlərin başına doladırdı. Bəlkə də, çox ehtiyat elədiyindən idi. Az qala kənd məscidinin divarına birləşən ev xırda çay daşlarından tikilsə də, bir hissəsi kərpicdən idi. Yerdən bir neçə pilləkan yuxarıda olan evin həyət-bacası, səliqə-sahmanı onu başqa tikililərdən fərqləndirirdi. Yuxarıdakı otaqlarda uşaqları yatmışdı. Bizi ev yiyəsi yarıyuxulu arvadı ilə birgə qarşıladı. Arvadı qorxmuş halda bacısının boynuna sarıldı. Gecənin bu vaxtı gəlişimiz onu çaşdırmışdı. Bayramın Həşım – deyə bizə təqdim etdiyi oğlan ağ gecə köynəyini çıxarmağı unutmuşdu. Çaşqınlıq içində heç bir sual vermədən ora-bura qaçır, bizə oturmağa yer göstərirdi. Kişilər yan otağa keçib xeyli ləngidilər. Qısa sükutdan sonra Bayram yenə qərar verdi:

– Xanım Fatma əziz qonağımızdır. Həşım, sən mümkün qədər onu gizli saxlamağa çalışmalısan. Mən Mürsəl ilə Qəzvin tərəfə «alış-verişə» gedirəm. Sən məni başa düşürsən. Qonum-qonşudan ehtiyatlı olun. Tez qayıdacağıq.

Mürsəl məni yan otağa apardı. Aydınlaşdırdı ki, onlar bəzi yoldaşlarla görüşmək üçün gedirlər. İşləri səhmanlayıb qayıdacaqlar. Təzə sənəd düzəldib məni özləri ilə birlikdə Belucistan tərəfdən Əfqanıstana keçirəcəklər.

– Mən özüm də irtica illərində bu yoldan istifadə eləyib bir neçə il orada yaşamışam, – deyə Bayram ümidlə dilləndi. – Çoxlu dost-tanışlarım var orda. Sizin şürəvilərdən də orada işləyib yaşayanlar çoxdur. Bakıdan gələn həmvətənlərimlə də tanış olmuşdum. İlk günlər mənə xeyli kömək elədilər. Yoldaşlara tapşıracam, səni də onlarla tanış eləsinlər. Bəlkə, bir yol tapıb vətənə qaytararlar… Axı sən hələ oranın vətəndaşısan. Səfirliyə də müraciət eləyə bilərsən. Bundan başqa yol görmürəm. Allah böyük, səbri genişdir, bacı.

Məndə böyük ümid yaranmışdı. Haşımın ailəsinə, uşaqlarına

alışmışdım. Mənə böyük qayğı və diqqət göstərirdilər. Bir az özümə gəlmişdim. Evdən bayıra çıxmırdım. Amma Mürsəlgilin gec qayıtması məni, Haşımı şübhəyə salmışdı. Qadınlar da böyük tələş keçirirdilər. Bir gün Haşımın uşaqları kənddə bir neçə atlı adamın gəlib axtarış apardıqları xəbərini gətirdi. Axşamüstü idi. Haşım arvadının çarşabını üstümə atıb dedi:

– Tez ol, Fatma bacı, kənddən çıxmalıyıq! Yaxınlıqdakı örüş yerində xırda bir tikilimiz var, orda gizlənərik. Bu haramzadələr gedəndən sonra qayıdarıq.

Çarşab uzun olduğundan əl-ayağıma dolaşır, topuğum da görünmürdü. Tikintiyə çatmışdıq ki, içəridən çıxan silahlı başımızın üstünü kəsdi. Qaçmağın heç bir əhəmiyyəti yox idi. Bir də ki, hara qaçacaqdıq? Haşım əllərini yuxarı qaldırıb yaxın gəldi. Mən durduğum yerdən tərpənə bilmirdim. Jandarm silahı qaytarıb yerinə qoydu. Yoğun, yağlı qarnının üstündən güclə bağladığı qayışını hamarladı. Tula qulağı kimi sallanan uzun çal bığları alçaqboy, domba, yaşıl gözləri az qala hədəqəsindən çıxan yöndəmsiz bu adam tez-tez nə dedisə, başa düşə bilmədim. Elə qəliz danışırdı ki, heç vaxt belə azəri türkcəsini eşitməmişdim. Haşım mənim başa düşmədiyimi görüb dilləndi:

– Fatma bacı, sənə «diz çök!», – deyir.

– Mən heç vaxt diz çökmərəm, – deyə durduğum yerdən tərpənmədim.

Jandarm irəli yeriyib saçlarımdan yapışdı. Aşağı dartdı:

– Sənin kimilərinin çoxunu diz çökdürmüşəm. Tərsliyinin aqibətini indi görəcəksən.

Üst geyimini otun üstünə atdı. Məni vəhşi kimi qamarlayıb tikiliyə – içəri sürümək istədi. Mən onun üz-gözünü cırmaqlayır, çabalayıb qollarının arasından çıxmaq istəyirdim. Haşım nə edəcəyini bilmirdi, qəflətən sıçrayıb onu yerə sərdi. Əlbəyaxa döyüş başlandı.

– Qaç, Fatma xanım, – deyə qışqırdı.

Özümü itirmişdim.

Hara qaçaydım, onu da bilmirdim. Lap tutaq ki, qaçıb gizləndim, sonra nə olsun? Mən ki bu yerlərə bələd deyildim. Haşım qaç, – deyə təkrarlayırdı. –Tez ol! Çayın qırağına tərəf get, ağaclıq orda çox sıxdı orda gizlənmək asandır. Səni axtarıb ta-

pacam. Mən onu qoyub gedə bilməzdim. Jandarm onu yerə yıxıb ayağını boğazına qoymuşdu. Səsi daha çıxmırdı. Çox qorxduğumdan əl-ayağım titrəyirdi. Jandarm onun əlinə qandal vurmaq üçün bir əlini cibinə aparanda Haşım sıçrayıb yerdən qalxdı. Mənim lal-dinməz dayanıb baxdığımı görüb daha da hirsləndi.

– Qaç, Fatma! Bu alçaqlar səni tutsalar, məhv eləyəcəklər. Mən Mürsələ, Bayrama nə cavab verərəm?

O, artıq gücdən düşmüşdü. Nə isə bir şey eləməli idim. Mənə qayğı göstərən bu adamı köməksiz qoyub getmək istəmirdim. Qoy nə olacaq-olsun – dedim. İtirməyə bir şeyim qalmamışdı. Ətrafa boylandım. Bir ağac, bir dəmir parçası gözümə dəymirdi. Birdən otların arasında iri bir daş parçası gözümə sataşdı. Daşı götürüb arxadan jandarmın başına çırpdım. Onun qolları sustalıb arxası üstə yerə sərildi. Başından axan qan yaşıl otun üstündə qırmızı göl əmələ gətirmişdi. Haşım təngənəfəs ayağa qalxdı.

– Sən nə iş gördün? İndi bunun dalınca gələnlər bizi ölümdə günahlandıracaqlar. Bu ən azı dar ağacı deməkdi, Fatma.

– O, az qala səni öldürəcəkdi, Haşım qardaş. Mən buna razı ola bilməzdim. Bizi tutsalar, mən hər şeyi boynuma götürərəm. Sənin ailən, uşaqların var. Mən nəyim varsa, itirmişəm. Mənim başqa yolum yox idi. İndi nə eləyəcəyik, de!

Haşim yuxudan ayıldı elə bil. Qayıdıb onun belindən tapançasını götürdü.

– İndi gedə bilərik, – dedi. – Biz cəld meşəyə tərəf qaçdıq. Bacardığımız qədər meşənin dərinliyinə, ağacların sıx yerlərinə doğru gedirdik. Ağaclar sıxlaşdıqca bürkü də artır, nəfəs almaq olmurdu. Çürümüş otların, ağac qırıntılarının kəsif iyi adamı vururdu. Kollardan qəfil qalxan quşlar, ağacdələnlər tez-tez məni səksəndirirdi. Onda Haşım gülür, qabaqda gedib kol-kosu o yan, bu yana çəkib mənə yol açırdı.

– Mən heç vaxt meşə görməmişəm, Haşım qardaş. Gördüyüm yerlər bağlı-bağatlı olsa da, meşəlik yerlərdən çox uzaqda idi. Əlbəttə, bu nənəmin-babamın ata-baba yurdu idi. Biz isə şəhərdə böyümüşdük. Belə yerlər haqqında ya kitablarda oxuyardıq, ya da kinolarda görərdik. Sizin yerlərin qəribə təbiəti var. Ya adamı yandıran istiyə, ya da buz kimi soyuğa düşürsən.

– Bizim yerlər niyə, Fatma bacı? Buralar həm də sizindir. Tale

torpağımızı sizə, bizə bölüb. Get-gedə yadlaşırıq. Yadlaşdıqca da soy-kökümüzü itiririk. Sən hardan gəlib bu cəhənnəmə düşmüsən? Milli hökumətimiz yıxılandan sonra bu torpaq bizə əsl məhbəsə çevrilib. Zindana atılmayan tək-tək adam ola bilər. Bax bu bacanağım Bayrama görə altı il zindanda çürümüşəm. Onların yığıncaqları bir neçə dəfə bax o gördüyün yeraltı tikilidə olduğuna görə mənə işgəncələr verdilər.. Zindanda sağlamlığımı itirdim. İndi də o zəhrimar mərəzdən yaxa qurtara bilmirəm.

O uzun-uzadı öskürdü. Sinəsindən gələn xışıltı açıq-aydın eşidilirdi. İndi mənə görə özünü oda atan bu açıqürəkli adama yazığım gəldi. Düşdüyüm bu vəziyyət məni nə qədər ağrıdırdısa, mənə görə özlərini təhlükəyə atanlara baxıb ikiqat əzab çəkirdim. Yorğunluğum yadımdan çıxmışdı. Bunun son ucu ölümdür! – Deyə düşündükcə, acizliyimi də unutmuşdum. Ayaq saxladım:

– O jandarmdan götürdüyün silahı mənə ver! – Bir növü əmr edirmiş kimi Haşıma sarı döndüm. – Sən elə buradan da dön, evinə get! Jandarmı mən vurmuşam, silahı da mən götürmüşəm. Onsuz da gec-tez məni tutacaqlar. Səni bu işə görə yenə həbs eləsələr, bunu heç vaxt özümə bağışlamaram.

– Sən nə danışırsan, xanım Fatma? Qadını tək-tənha meşədə qoyub getmək kişilikdən deyil. Öldürsələr də, mən bu işi görə bilmərəm. Məni günaha batırma. Çay aşağı yuxarı tez-tez şütüyən xırda qayıqları görürsənmi? O, növbətçi qayıqlarıdır. Yəqin bizi axtarırlar. Yaxşısı budur yola çıxaq, bəlkə, bizi götürən bir maşın tapıldı. Minib buradan uzaqlaşarıq. Allahın mərhəməti böyükdür. Burada qalmaq cəhənnəm əzabından betərdi.

Deyəsən, o məni yola gətirə bilmişdi.

– Nolar, qoy sən deyən olsun. Orada, ya burada, nə fərqi var, bizi eyni təhlükə gözləyir.

Könülsüz cavab verdim və dartıb silahı onun əlindən aldım:

– Bax belə, indi arxayınlıqla evinə qayıda bilərsən, – dedim. O, dediyimə məhəl qoymadan məndən bir addım belə aralanmırdı. Biz artıq meşədən çıxmışdıq. Yoldan keçib gedən bir maşın belə görünmürdü. Oturub xeyli dincimizi aldıq. Axşama az qalırdı. Nəhayət, yolda bir minik maşını göründü. Haşım qorxa-qorxa əl qaldırdı. O, bizə məhəl qoymadan çıxıb getdi. Yəqin bizi hansısa avaralardan hesab elədi. Bu minvalla bir neçə maşı-

na əl qaldırdısa, heç biri əylənmədi. Haşıma dedim:

– İndi sən bu ağacın dalından çıxma, mən gələn maşınlara əl qaldıracam. Saxlasalar, bəlkə, mənə maşın saxlayarlar. Elə hesab eləyəcəklər ki, tək-tənhayam.

Haşım güldü. Mən yol kənarında durub gözləyirdim. Uzaqdan qara şüşəli bir maşın nəzərimi çəkdi. Onun adi minik maşını olmadığından əvvəlcədən şübhələnmişdim. Ürəyim şiddətlə döyünürdü. Geri çəkilməyin heç bir əhəmiyyəti yox idi. Məni artıq görmüşdülər. Mən Haşıma qışqırdım:

– Sən gözə görünmə, qardaş, qaç burdan uzaqlaş! Mənimki belə gətirdi.

Həşım bərkdən hönkürdü. Maşın məndən beş-on metr aralıda xırıldayıb dayandı. İçəridən iki jandarm və Karapet adlandırılan murdarsifət tez çölə atıldılar. Gözümə heç nə görünmürdü. Karapetə sarı bir güllə atdım. Gülləm çox təəssüf ki, boşa çıxdı. Həm həyəcanlı idim, həm də heç vaxt silahdan istifadə eləməmişdim. İki nəfər qolumu qatlayıb silahı əlimdən aldılar.

– Ara, bunun güllə atmağı da var imiş ki...Bu onun cinayətini bir az da artırır, massab haqqı. Silah əşyayi sübutdur…

Yaxın gəlib, çənəmdən tutdu. Bir əli ilə saçlarımı bərk dartıb itələdi. Az qala üzü üstə yıxılacaqdım. Üzümü şillələdi. Saralmış, çürük dişlərini göstərib elə hırıldadı ki, ürəyim bulandı. Özümü toplayıb üzünə tüpürdüm. O, təzədən saçlarımdan yapışıb məni sürümək istədi. Jandarmlardan biri dilləndi:

– Qadın nə qədər cinayətkar olursa-olsun, onunla belə rəftar eləmək heç bir qanunda yazılmayıb. Çox xoruzlanma! Cinayəti araşdırmaq nə mənim, nə də sənin işin deyil. Bunun üçün məhkəmə var, divan var, Karapet «kirvə».

O bir qədər ciddi, bir qədər də lağ eləyirmiş kimi yaxın gəlib saçlarımı onun əlindən aldı:

– Bax buna sənin ixtiyarın yoxdur. Cəsusluğunu elədin, öz borcunu yerinə yetirdin. İşin qurtardı.

Karapet tez silahı çıxarıb zabitə sarı yönəltdi.

– Deyəsən, sən də bu rus cəsusunun şərikisən? İndi mən səni...

Oğlan onun sözünü yarımçıq qoydu. Qolunu burub silahı əlindən aldı.

– Otur maşına! – Deyə əmr elədi. – Kimin tabeliyində ol-

duğunu unutma. Şadyanalığı gedib buyruq buyuranların yanında eləyərsən. Burada isə mənə tabesən. Kimin tulasısan bilmirəm. Belə çirkin işlər ancaq sənin kimisinin əlindən gələr.

Zabit çevrilib əlimdən aldıqları silahı qalın bir kolluğa atdı. Bunu ancaq mən gördüm. Nə sürücünün, nə də Karapetin bundan xəbəri olmadı.

İşimi ağırlaşdıran bu sübut-dəlildən azad olanda sinə dolusu nəfəs aldım. Zabit də üzümə məmnunluqla baxıb üzünü yana çevirdi. Ağacın arxasında ağlayan Haşımın səsi əbədilik qulağımda qaldı. Bu səs mənim qırılan taleyimin, didərgin günlərimin səsi idi, Qasım. Balasından, məhəbbətindən ayrı düşən qərib bir qızın ürəyinin çığırtısı, qəlbinin naləsi idi. Mənə elə gəlir ki, öləndə də axırıncı eşidəcəyim səs, elə bu səs olacaq. Mənim yaddaşıma, ürəyimə əbədilik həkk olan bu səsin içərisində də bu dünyadan köçəcəm. Sənlə olan izdivac nə mənə, nə də sənə umduğumuz səadəti verə bilmədi, Qasım. Lakin dünyada bir şey qəlbimdə, ruhumda həvəsə, ümidə bənzər hisslər oyadır. O da sənə və Cavadıma olan məhəbbətimdir. İndi bu dar məhbəsdə belə hisslər, duyğular haqqında düşünmək, ən azı sadəlövhlük və ağılsızlıqdır. Yenə başıma gələnləri kağıza tökməklə hər gün səninlə qiyabi bir neçə dəqiqə danışmaqla bir təsəlli tapıram.

Fatmanın yazısı qurtarsa da, onun həyatının əzablı tarixçəsinin sonu görünmürdü. Fatmanı aparan o iztirablı yollar sonsuzluğa qədər uzanırdı. Sonsuzluğa gedən yol geri dönərmi? O yollar yalnız Fatma kimilərinin boyuna biçilmişdi. Səmtini, yönünü dəyişmək üçün tarixin təkərini geri döndərmək kimi ağır yük başı bəlalı xalqımın üstünə düşür.

Həmidə elə gəlirdi ki, əli-ayağı yerdən-göydən üzülür, haradansa bir əl uzanıb, onu dərin, ucu-bucağı görünməyən yarğanın dibinə salır, səsi-harayı heç yana, heç kəsə çatmırdı. Həmid qışqırmaq, bağırmaq istədi. Lakin öz səsini ancaq özündən başqa bir kəs eşitmirdi. İstəyirdi ki, bu dəftərdəki yazı heç vaxt qurtarmasın, nə də Fatmanın xəyalı gözlərindən çəkilib getməsin.

– Danış, Fatma, susma, danış! –Deyə öz-özünə deyindi. – Qoy ürəyinin səsini, qəlbinin çırpıntılarını çəkdiyin əzabların ağrılarını mən də duyum, sənlə birlikdə, lakin səndən xəbərsiz çəkim. Bu gizli əzab, günah, peşimançılıq içərisində dünyadan köçmək

istəmirəm. Bir şey də var ki, özü yıxılan ağlamaz. Məni yıxan bu namərd ürəyimdir.

Yumruğu ilə bir neçə dəfə sinəsinə çırpdı.

Ağa Həmidi titrəmə tutmuşdu. Yayın istisində bu nə üşütmədi, canımı alıb, vücudumu lərzəyə salıb, İlahi? Əgər sənə canım lazımdırsa al, birdəfəlik məni bu əzabdan qurtar. Ağa Həmidin sinəsindən odlu bir fəryad qopdu.

Çətinqaya

Yayın son ayı olsa da, hava boğunuq idi. Ya elə ağa Həmidin havası çatmırdı, özü də kəsdirə bilmirdi. Köynəyinin yaxasını açdı. Özündə bir rahatlıq, bir yüngüllük hiss elədi. Bir neçə dəfə dərindən nəfəs aldı. Ömrü qədər əziz, şirin olan bu xatirələrdən ayrılmaq ona ölüm qədər ağır olsa da, dəftəri qatlayıb qoltuğunda gizlətdi. Bir mərtəbə yuxarı qalxdı. Otağının qapısını aralayıb bir qədər duruxdu. Birdən onu görən olar? – Deyə ətrafa xeyli boylandı. Heç kəsin olmadığına əmin olandan sonra, dəftəri əvvəlki yerinə qoyub, aşağı düşdü.

– Nahaq yerə dəftəri özümlə götürmədim. Bu qarışıqlıqda itə bilər. – Deyə çar-naçar addımladı.

Ətraf sakitlik idi. Tək-tək məscid xidmətçilərindən başqa heç kəs görünmürdü. Onlar da ürək eləyib məscidin minbərinə qalxa bilməzdilər. Ağa Həmidin ürəyi rahatlıqla döyündü. Məscidin çöl qapısına çatıb ayaq saxladı. Evə getmək həvəsi də ölmüşdü. Hər tərəf öldürücü sükut içərisində idi. Bu səssizlik içərisində ətrafda nə vardısa, nura qərq olmuş, göy üzündə bütün cizgiləri ilə görünürdü. Ağacların üstünə düşən ay işığı sularda rəqs edirmiş kimi görünür, insanın beynində ağır zəhmətdən sonra dincliyi xatırladan hisslərə bənzər rahatlıq yaradırdı. Bununla birlikdə yayın son ayını yarı bölən payız da öz işini görür, ilk notlarını vururdu. Bağ-bağata elə bil ağır kədər, yorğun bir məhzunluq çökmüşdü. Tək-tək saralan yarpaqlar qüssə ilə budaqlardan qopur, havada dövrə vurub ömrün illəri kimi ağacın dibinə düşürdü. Toy gecəsindən sonrakı səhərlər kimi bağların üstünə bir yorğunluq və səssizlik çökmüşdü. Ağa Həmidin içində də bir payız ovqatı, kədəri var idi. Sabahkı yığıncağı düşünüb addımlarını yeyinlətdi.

– Nəyin bahasına olur-olsun, o qadının kimliyini öyrənib, bütün varlığımı lərzəyə gətirən bu əzabdan xilas olmalıyam. Mümkün olsa, əvvəlcə Mürsəllə, sonra o əbləh Karapetlə görüşməliyəm. Hərçənd ki, belə görüşlər indi çox çətindi. Onlar Fatmanın taleyindən nə isə bir şey bilməmiş olmazlar. İndiyə qədər bu mənim ağlıma niyə gəlməyib? Əvvəla, Fatmanın sağ olduğuna inana bilmirdim. İkinci də bu qadın olmasaydı, yenə də bu fikirlərə düşməyəcəkdim.

Qasımın əzablarını bir daha təzələmək, yaralarının qaysağını qoparıb qanatmaq istəmirdi ağa Həmid. Allah-taala verdiyi ömrü bir gün belə dinc yaşamayan dostunun təzədən rahatlığını pozub yuxusuna haram qatmaq fikrində deyildi. Yeganə təsəllisi olan Cavadın Qasıma bəxş elədiyi sevincə ömrünün qürub çağında acı qatmaq istəmirdi ağa Həmid. – Bu işi mən qarışdırmışam, mən də əzabını çəkməliyəm, – deyə hətta bir dostunun nə vaxtsa ona dediklərinə də əhəmiyyət verməmiş, sözünə məhəl qoymamışdı. «Dəmiri isti-isti döyərlər». Bəlkə onda bir işıq ucu tapa bilərdim, - deyə Həmid ağa vaysındı. Çoxdan unutduğu bir əhvalat yadına düşdü.

«İntiqam məhkəməsi»nin növbəti yığıncağından çıxanda əslən Maku tərəflərdən olan bir nəfərlə həmsöhbət olmuşdu ağa Həmid. O vaxtdan neçə illər keçmiş, neçə fəsil dəyişmiş, sular neçə dəfə bulanmış, axıb durulmuşdu. Aralarında olan söhbətin dərinliyinə baş vurub, yerli-yataqlı hər şeyi soruşub öyrənməmişdi. Necə olmuşdu ki, yığıncaqda odlu-alovlu danışan bu niqablı qadın haqqında deyilənə əhəmiyyət verməmişdi? Belə olsaydı, bəlkə də, Fatmanın izinə düşə bilərdi. Ona görə eləməmişdi ki, Səltənətin də qarşısında özünü günahkar saymışdı ağa Həmid. Özünü nişan verib günahsız iki qadına elədiyi pisliyi yada salmaq istəməmişdi. Qoluna qandal vurularkən iri qara gözlərindən axan göz yaşlarını görmək, namərdlərin pəncəsinə keçərkən qanadsız quşcuğaz kimi çabalayan Fatmanın fəryadını bir daha eşitməmək üçün heç bir şey soruşmamışdı. Ağacın arxasından bütün bunları görən ağa Həmid kədərli, nəşəsiz gözlərini yumdu. Bir daha o əzablı günlərə, saatlara qayıtmaq istəmədi. Divara söykənib yornuq adam kimi nəfəsini dərdi. Qızdırmalı adamlar sayağı qılçaları əsdi, başı gicəlləndi. O keçmiş xəyallar içində

özünü unudur, yalnız ağacların arasından süzülüb divarlara düşən ay işığında fırlanan zəif kölgələri görürdü. Ona elə gəlirdi ki, ətrafda kimsə onu görür, könlündən keçirdiklərini eşidir. Yox, ətrafda heç kəs yox idi. Mən dəli oluram, nədi? – Deyə Ağa Həmid gözlərini bir neçə dəfə ovuşdurdu. Bütün bu xatırladıqlarım mənə iztirab, puç olmuş ümiddən başqa bir şey deyil. Puç olmuş bir ümid haqqında düşünmək, onu təzədən diriltmək, çiliklənib tökülmüş şüşəyə bənzəyir. Ya elə axıb tökülən, təzədən qaba dola bilməyən suya oxşayır.

Ağa Həmid məsciddən xeyli gec, əslində xəstə kimi qayıtdı. Bu puç olmuş xəyallardan doğan kədər üzücü bir xəstəlik kimi ruhuna hopdu.

Neçə il bundan öncə olan yığıncaqdan sonrakı şübhələrinə məhz indi nədən qayıtdığını ağa Həmid özü də bilmirdi. Yaddaşını çözələyib bəzi məqamları yadına gətirməyə, bu səsi haradasa eşitdiyinə əmin olmağa çalışırdı. Yox, yanılmamışdı. Bu elə o səs idi. İndi bir az da ötkəm, zabitəli olmuşdu. Qadın xalqımızın ümumi dərdlərindən yana-yana danışır, ana-bacılarımızın hüquqlarının tapdalandığını, qız-gəlinlərimizin bir parça çörək üçün alçalıb təhqir olunduqlarını sadaladıqca səsi bir az da sərtləşir, səbrin, dözümün bir həddi-hüdudu olar, - deyirdi. O üzünü sağda, solda düzülən cavanlara tutur, hərdən də yumruğunu qarşısındakı mizə çırpırdı. Belə halda mizin üstündəki öz dövrəsindən qırağı güclə işıqlandıran lampanın şüşəsi titrəyir, soyumuş çay dolu fincanlar cingildəyirdi. Həmid ağa fikirləşdikcə qadının ötkəm, sərt danışığı qulaqlarında səslənirdi:

O vaxt milli hökumətin təzəcə süqut elədiyi illərdə çox kişinin eləyə bilmədiyi işləri cəsarətlə görüb Vətən torpağını qarış-qarış gəzən, xalq arasında inqilabi ruhu təzədən diriltməyə çalışan o naməlum qadının çıxışı indiki kimi gözü qarşısına gəlirdi.

– Siz elə başa düşməyin ki, geri çəkilib mübarizəmizi dayandırmışıq, yoldaşlar! Əksinə, sıralarımız get-gedə möhkəmlənir. Ümid edirəm ki, bu cavanlardan gələcəkdə firqəmizin ən mübariz dəstələri yaranacaq.

O danışdıqca balaca dar otağa dolan tütün tüstüsündən gözgözü görmür, tək-tək eşidilən öskürək səsi danışanın sözünü yarımçıq kəsirdi. Çoxusu üst geyimlərini çıxarmadan ayaq üstündə

dayanmışdı. Təklif olundu ki, iki-bir, üç-bir küçəyə çıxıb dağılışsınlar. Ağa Həmidlə qoşa küçəyə çıxan adını tanımadığı cavan bir oğlan idi. Dodağının üstündən qoyduğu iri qara bığları onu yaşından böyük göstərirdi. Soyuq qış günü olduğundan əlcəksiz əllərini bir-birinə sürtüb tez-tez hovxurur, gah da ciblərinə salıb büzüşürdü. Başına qoyduğu köhnə qulaqlı papağını gözlərinin üstünə elə basmışdı ki, gözləri güclə işıldayırdı. Sol yanağında iri bir çapığı vardı. Hər dəfə əlini hovxurduqca ağzından çıxan isti nəfəsi paravoz buxarı kimi burula-burula göyə qalxır, soyuq havaya qarışıb yox olurdu. O, istiqanlıqla ağa Həmidin qoluna girdi.

– Bu qadında qurd ürəyi var, qardaş. Yalan deməyiblər ki, aslanın erkəyi-dişisi olmaz.

Oğlan öz-özünə deyindi. Həmid Ağa onun adını belə soruşmadan:

– Sən onu yaxından tanıyırsan? –Deyə ona sarı döndü. Oğlan bir az duruxdu:

– Tanıyırsan deyəndə ki, bir yerdən, bir obadanıq. O məndən yaşca böyükdür. Şəxsi yaxınlığımız yoxdur. Amma ata-anasını, qardaşlarını yaxşı tanıyıram. Bilirsən, qardaş, biz tərəflərdə qızı oxumağa qoymazlar. Tək-tək varlı kişilər öz uşaqlarını Avropada oxumağa göndərə bilir. Qalanları mənim kimi bir tikə çörək dalınca sərgərdan olub gəzir. Kənddə az-çox savad almaq istəyənlər də, necə deyərlər, qırx qanın damazlığı olan mollaların yanında şəriət dərsi alırlar. Axırda da olurlar...

O, sözünə xeyli ara verdi. Alnını, üzünü ovuşdurdu. Dərindən köks ötürdü. Mənim sualımı gözləmədən sözünə davam etdi:

– Bu qadın Avropada savad alıb qayıdanda milli azadlıq inqilabımızın günəşi üzümüzə təzəcə gülürdü. O, yorulmaq bilmədən kəndlərdə, obalarında təbliğat aparır, doğma hökumətimizi qorumaq üçün gənclər arasında işi gücləndirirdi. Bax elə onda mən də bu təşkilata yazıldım.

Maku tərəfdə Sarı qaya deyilən cəhənnəmə yaxın əyalətlərin birində inqilab komitəsinin sədri işləyən Sadiq adlı bir igid oğlana ərə getdi. Atası, qardaşları onun istəyi əleyhinə çıxmadıqlarına görə özlərinə çoxlu düşmən qazanmışdılar. Sadiq də savadlı, bacarıqlı oğlan idi. Kəndlərdə ona hörmət eləyir, xətrini çox istəyirdilər. Mərkəzdən gələn qəzet, jurnalları onlara mən yetirdi-

yimə görə məni elə döymüşdülər ki, bir ay yerimdən qalxa bilmədim. Bu üzümdəki çapıq da elə o vaxtdan qalıb. Təbrizdə Milli hökuməti yıxılandan sonra Azərbaycan Demokrat Firqəsi və onun mübariz dəstəsi Demokrat Cavanlar Təşkilatı yarandı. Onda bu təşkilatın o əyalətdəki sədri məni seçdilər. İndiyə qədər də gizli təşkilata mən rəhbərlik edirəm. Demokrat inqilabı süqut etdikdən sonra, doğrusu, kürd tayfaları arasında da bir inamsızlıq yarandı. Tehran irticası inqilaba dəstək verən kürdlərə də divan tutdu. Həmid ağa onun sözünü kəsdi:

– Qardaş, elə bayaqdan danışırsan, qadının adını demirsən görək bu kişi qeyrətli qadın kimdir ki, belə qorxulu işə girişib. Səsindən, danışığından bilinir ki, çox təcrübəli, eyni zamanda əzəblı yollardan keçən bir şəxsdir.

Mənim yaşadığım mənzilə yaxınlaşırdıq deyə addımlarımı xeyli yavaşıtmışdım. Bu qadın haqqında çox şey öyrənməyə marağım artmışdı deyə keçənləri yadına salmağa çalışırdım. Oğlan bir neçə dəfə üzümə baxıb dilləndi:

– Bilmirəm, sənə etibar eləmək olar, ya yox? Söz gəlib, gərək deyəsən, nə etməli. Madam ki, bizimlə bir cəbhədəsən, demək ağzı bütöv adamsan. Bu haqda komitənin xüsusi tapşırığı var.

Mənim artıq-əskik danışıb kiminsə haqqında məlumat verməyə ixtiyarım yoxdur.

O, yenə müəmmalı-müəmmalı üzümə baxdı.

Mən güldüm.

– Bura yığılanların hamısı bu altı-yeddi ildə oddan-alovdan keçib bərkiyənlərdi, qardaş. O cümlədən də mən. Əgər bu kiçik sirri saxlaya bilməyəcəmsə, onda gecənin bu vaxtı burada nə axtarıram? Sənə vurulan yara eynilə mənə də vurulub. Mənim də xalqımın dərdləri sizinkindən heç əskik deyil. Mübarizəmizin məqsədi İranda yaşayan bütün xalqların azadlığıdır.

Oğlan əlimdən tutub, yaxındakı oturacağa sarı çəkdi. Qolu ilə qarı süpürüb yerə tökdü. Yan-yana əyləşdik.

– Maku qalası Azərbaycanın şimali-qərbində dar bir dərədə yerləşir. Bayaq dediyim Sarı qaya ilə Cido qayası onun üstünə elə əyilib ki, burada yerləşən evlər onları bir körpü kimi birləşdirir. O tərəflərdə olmusanmı?

Oğlan sözünü yarımçıq kəsib sual verdi:

– Yox, düzünü desəm, o tərəflərdə olmamışam. Amma kürdlər arasında çoxlu dost-tanışım var, çox mərd və etibarlı adamlardır. Dosta verdikləri söz onlara qanundur.

Oğlan başladığı mövzunu davam etdirdi.

– Bu iki qayanın uzun tarixi var. Kəndin varlı azğınları kimə qəzəblənərmişlər, camaatın gözü qarşısında hündürlüyü üç yüz metrə çatan Sarı qayadan onu yerə atdırarmışlar. Bir tərəfdən də bu iki qayanın dibində şahların gizli zindanları yerləşirmiş. Bura məhkumları iplə sallayar, ömürlük orada saxlayarmışlar. Bu gizli zindanı səfəvi Şah Abbas ləğv eləmişdi. Sonralar bu zindanı zatı kazak vəkili olan Rza xan təzədən bərpa elətdirdi. Layiqli oğullarımızı orada çürütdü. O zindan Qacar qəsri kimi məşhurdur. Siz azərbaycanlı türklərinə qəzəbi tutanda təhqir eləmək üçün «Qəsri Qacara» saldırırdı.

Onun sözünü kəsdim:

– Tarixin dərinliklərini araşdırsan, taleyimizdə belə müsibətlərə çox rast gələrik. De görüm, bu qadını bu işlərə nə vadar eləyib və kimdir?

Nə biləydim ki, Fatmanın itgin düşməsində və həyatımın başdan-başa əzaba çevrilməsində bu qadının rolu olub. Əslinə baxsan, günahkar mən özüm idim. Bir də səhv eləyəcəyimdən ehtiyatlandığım üçün bunu onun dilindən eşitmək istəyirdim. Soyuq az qala lap iliyimə, qanıma işləyirdi. Onun astagəl danışığından lap cana-boğaza yığılmışdım. Görünür özü də çox üşümüşdü deyə sual verməmiş məni qabaqladı:

– Bayaq dediyim kimi, qadının əri də özü kimi savadlı, xalqın qeydinə qalıb təsibini çəkən bir oğlan idi. Onları gözü götürməyən, necə deyərlər, yeni milli hökuməti qəbul etməyənlər çox idi. Odur ki, bir dəfə gecə yarısı onu çağırıb evdən çıxarıb öldürmüşdülər. Səltənət xanım bunu kimin elədiyini təxminən bilirdi.

– Adı nə oldu xanımın? – Təəccüblə soruşdum. O üzümə mənalı bir nəzər salıb xeyli duruxdu.

– Onun əsl adı Səltənət olsa da, qohum-əqrəbadan savayı onu bu adla çox az adam tanıyırdı. Onu təşkilat üzvləri «Çətinqaya» (Bu ad təşkilatın nadir üzvlərinə verilirdi) ləqəbi ilə çağırırdılar. Elə doğrudan da, qaya kimi sərt, çətin adamdı. Nədir, onu tanıyırdın? – Həyəcan keçirdiyimi görüb narahat oldu.

– Yox, yox, sən söhbətinə davam elə. Harada isə bu adı eşitmişəm elə bil. Bəlkə, mənə elə gəlir? Əgər bu odursa, hardan gəlib bura çıxa bilərdi? Onun haqqında Ərdəbildə eşitmişdim.

Üşütməm getmişdi. İndi də canıma elə bil od vurmuşdular. Əlimi bir neçə dəfə alnımda, üzümdə gəzdirdim.

– Hə, onun ərini kim öldürmüşdü? – Deyə oğlanı yenə söhbətə çəkdim. Qadın haqqında mümkün qədər çox şey öyrənməyə çalışırdım.

– Kənddə Almasxan adlı qoluzorlu biri var idi. Milli hökumətin qatı düşməni idi. Hələ ondan çox əvvəl Səltənəti sevdiyini deyirdi. Qız ona məhəl qoymadı. Sadiqlə evlənəndən sonra onlara bir xəta yetirmək üçün bəhanə, fürsət axtarırdı. Səltənətin evdə olmadığından istifadə edib bu işi tutmuşdu. Sadiqi Sarıqayadan atıb öldürmüşdü.

– Bəs hökumət, divan ona heç bir cəza vermədi?

– Necə vermədi? Qardaşını tutdular. Özü də gizləndi. Söz gəzirdi ki, Sarıqayada gizlənir. Səltənət lal-kar olmuşdu elə bil. Ağlamır, heç yas da saxlamırdı. Camaat məəttəl qalmışdı. Camaata hüzr yerinə gəlməyə də icazə vermir, heç nə olmayıbmış kimi gəzib-dolanırdı. Bunu barışıq bilən Almasxan üzə çıxdı. Tez kənddə sözükeçən ağsaqqalları yığıb elçi göndərdi. Səltənət elçilikdən əvvəl onun özünü təklikdə görmək istədiyini bildirdi. Həm də gecə yarı Sadiq öldürülən vaxtda evinə dəvət etdi. Almasxan sevincək onun tələbini yerinə yetirir. Səhər camaat Almasxanın parçalanmış meyitini Sarıqayanın dibində tapırlar. Səltənət o vaxtdan obadan çıxıb. İndiyə qədər ailə də qurmayıb. Neçə dəfə tutulub zindana salınıb, yenə əri Sadiqin başladığı işi davam etdirir.

Artıq ona qulaq asmaq iqtidarında deyildi Ağa Həmid. Ayağa qalxıb sağollaşmadan geri döndü. Yolu birnəfəsə qaçıb yığıncaq keçirilən yerə çatdı. Hamı dağılıb getmiş, işıqlar da sönmüşdü. Yenə Fatmanı tapmaq ümidi qırılıb ayaqlarının altına töküldü. Darvazada xeyli lal-dinməz dayandı. Evə qayıdanda səhərə az qalırdı. Dan yeri yaxasını sökməyə hazırlaşırdı. Günəşin solğun şəfəqləri qar üzərinə tökülən ulduz kimi parıldayırdı. Qu tükünə bənzər yumşaq, ağ buludlar kimi pəmbə-pəmbə üst-yığılan qar ayaqları altında xırıldadıqca hardasa musiqi alətinin

tellərindən qopan qəmli, həsrət nəğmələrini xatırladan bir səs ətafa yayılırdı. Bu səs qulaqlarında elə guruldayırdı ki, sanki başında bir orkest çalırdı. Ağa Həmid qulaqlarını tutub yerə çökdü. Nə qədər belə qaldığını bilmədi.

Ağa Həmid o gün özünü heç cür ələ ala bilmirdi. Otaqda boşboşuna xeyli var-gəl elədi. Günortaya yaxınlaşırdı. Ruhunu sarsıtmış köhnə xatirənin acısından uzaqlaşmaq üçün pəncərənin taxtalarını taybatay açdı. Havada asta-asta fırlanan qar topalarına, insanı azacıq isidəcək qədər təsiri qalmış günəşə baxdı. Ətrafdakı mənzərinin solğunluğu içərisində o illərin ürəyində qırılıb tökülən acısını duydu. Buz kimi soyuq havanı sinə dolusu içinə çəkdi. İçində bir boşluq hiss elədi ağa Həmid. Ürəyi soyuyub boşalmış bir xarabalığa bənzəyirdi. Canına anlaşılmaz bir sıxıntı yayıldı. Ətrafa çökən süküt onu da süstləşdirmişdi. Qolunda, qılçalarında bir heysizlik hiss elədi. Ağacların budaqlarından, evlərin dəhlizindən cərgə-cərgə asılan buz lülələri elektrik məftillərinin üzərinə düzülən quşların qatarına bənzəyirdi. Bir azdan onlar da əriyəcək, quşların da dəstələrindən bir nişanə, bir iz qalmayacaqdı. Bir həqiqət var ki, buz qatarları əriyib torpağın sinəsinə hopacaq, rahatlanacaq. Öz sevincini torpağın əbədi sevgisi olan otlarda, gül-çiçəkdə tapacaq. Ancaq onun gizli könül əyləncəsinə çevrilən məhəbbətinin odu, istisi özündən başqa heç kəsi yandırmayan duyğuları içinin xarabalığında sərgərdan bir xatirə olaraq dolaşacaqdır.

Karena

Məşədi Mürsəlin evindəki yığıncaqdan ağa Həmidin səssizsəmirsiz çıxıb, hətta sağollaşmadan Güllünün qolundan tutub getməsi ağa Qasıma yaman toxunmuşdu. Oğlu Cavadla yanyana addımlayan ağa Qasım sanki oğlunu görmürdü. Cavad da öz növbəsində olanları saf-çürük eləyirdi. Ölkədə yaranan vəziyyət haqqında atasının ondan bir kəlmə də soruşmaması ona qəribə gəlirdi. Onun Güllü ilə harada görüşdüyünü və ora necə gəlib çıxdığını da soruşmurdu. Atasının susmasından nə isə ciddi bir hadisə baş verdiyini anlayırdı. Onun xasiyyətinə yaxşı bələd idi Cavad. Belə hallarda ona heç bir sual verməz, əhvalını kor-

lamazdı. Cavad bu gün çox gərgin işləmişdi. Necə deyərlər, bir güllə ilə iki ov vurmuşdu. Bu işdə Karenaya minnətdar olsa da, öz işindən də razı qalmışdı. Həm Karapetin tutulmasından məmnunlaşmış, həm də Müzəffərin azadlığa çıxmasına nail olmuşdu. Bu sevinci atasına çatdırıb onu sevindirmək istədiyi halda, onun ovqatını təlx görüb yenə susmuşdu.

Atasının xəstəliyini nəzərə alıb təşkilatın bütün ağırlığını üstünə götürsə də, bu günkü iclasda görüb-eşitdiklərindən sonra çox düşünməli olmuşdu. Gündüz xəstəxanada işləmək, bütün tapşırıqları Kərəmsiz yerinə yetirmək ona ağır gəlirdi. Ona yaxından kömək eləyən Karenaya çox minnətdar idi. Amma atasından izinsiz iş gördüyü üçün də xəcalət çəkirdi. Bu gün ağa Qasımın tutduğu iradlar, Mürsəlin, danışan niqablı qadının onunla hesablaşması atasını onun gözündə bir pillə də ucaltmışdı.

Atasının təşkilatın Təbriz komitəsinin sədri olduğunu Cavad ilk dəfə eşidirdi. Bütün tapşırıq və göstərişlər ondan gəldiyi halda, Cavad nəfəs-nəfəsə yaşadığı atasının işlərindən bu son günlərdə xəbər tutmuşdu. Karapetin etirafına görə dünən gecə onu aradan götürüb, məni də məhv eləməliymişlər. Necə olur-olsun, atamı ciddi qorumalıyam. Yaxınlaşan inqilabda Cavad şəxsi mülahizələri, gələcək planları ilə baş-başa qalır, atasının susmasını, ona bir kəlmə də deməməsini yüz səmtə yozurdu:

– Bəlkə, mənə inanmır, ona görə dinib-danışmır? İcazəsiz iş gördüyüm üçün, bəlkə, narazıdır?

Cavad saysız suallar, bəlkələr içində atasının üzünə yanakı bir nəzər saldı. Ona elə gəldi ki, bütün dünyanın dərdləri onun alnında, üzündəki qırışlarda toplaşıb. O, bu dərdlərin ağırlığından yeiyə bilmir. Anası qarışıq bu dərdlər onun qəddini –qamətini əyir, onu qaraqabaq, sərt bir adama çevirir. Cavadın ürəyi ağrıdı. Anası haqqında o günkü söhbətlərinə görə peşimançılıq çəkdi. Onun köhnə dərdini təzələyib incitdiyi üçün özünü danladı.

Hava qaranlıq və soyuq idi. Ələnd dağından əsən külək köhnə qarın üstünə göydən ələnən təzə qarı xırman kimi sovurur, üzgözlərinə çırpır, qoyun-qoltuqlarına doldururdu. Onlar bəzən evlərin divarlarına söykənib küləkdən özlərini qoruyur, bəzən də, addımlarını yeyinlədib səhər açılmamış evə çatmağa tələsirdilər. Ətrafda bir canlı görünmür, bəzən səhərə qədər fasiləsiz işləyən

növbətçi taksilər də elə bil yoxa çıxmışdılar. Amma bəzi evlərin divarlarına yapışdırılmış şüarlar, asılmış bayraqlar gözə dəyirdi. Yəqin bizimkilərin işidir deyə Cavad məmnunluqla gülümsədi. Qırmızı parçadan olan bayraqlar üstündə əvvəlki Şiri-Xurşid nişanı olan İran bayrağı yox, Milli Azərbaycan bayrağı idi. Bayrağın üstündə ipək sapla «Yaşasın Azadlıq» sözləri yazılmışdı. Qocaman Təbriz neçə dəfə belə tarixi günlər yaşamışdı. Nahaqdan onu inqilab beşiyi adlandırmamışdılar ki? Tökülən qanımız bahasına qazandığımız azadlıq körpə uşaq kimi elə bələyindəcə boğulmuşdu. İndi zaman başqa zamandı. Bu qurluş kökündən dəyişməlidir. Amma kimin xeyrinə? Kimin xeyrinə olursa-olsun, biz də bütün imkanlarımızdan istifadə etməliyik. Amma küçə izdihamlarında tez-tez dini şüarların səslənməsindən «İslam bayrağı altına toplaşın!» - Deyənlərin canfəşanlığından belə nəticəyə gəlmişdi ki, bu xına o xınadan deyil. İndi də dövləti idarə din xadimlərinin əlinə keçəcək. Mahiyət birdir. Bu düşündüklərini nə atasına, nə təşkilat üzvlərinə demişdi, Cavad. Amma özündə bir süstlük, içində nəhayətsiz boşluq əmələ gəlmişdi. Başladıqları bu işin belə nəticələnəcəyini, bu mübarizədə xalqın yenə əliboş qalacağını ağlına da gətirmirdi. Amma geri çəkilmək də olmazdı. İşdə, evlərinin ətrafında, hara gedirdisə orada onu kabus kimi izləyənlərin məqsədini yaxşı başa düşürdü. Demək, hakimimütləq və əlaltıları qorxurlar. Keçmiş demokrat balasının bu işlərdə əli olduğuna əmindilər. Bir il bundan qabaq onu nahaqdan tutdurub nəzmiyyə idarəsinə apartdıran Karapetin: «İlanın balası da ilan olar, buna inanmayın!» – Sözləri yadına düşdü. Bəli, ot öz kökü üstə bitər, Karapet kirvə! Elə ona görə də zirzəmidə ulaq kimi samanlıqda ağnayırsan. Cavad öz-özünə ürəkdən güldü.

Ağa Qasım sanki ağzına su almışdı. Ağ bir-qara iki heç bir söz demirdi. Cavad lap darıxdı. Evlərinə çatanda ağacın dibindən darvazaya sarı ötən bir kölgə gözünə dəydi. Atasının qolundan dartıb dayandı.

Ağa Qasım təəccüblə oğluna sarı döndü:

– Niyə dayandın, oğlum?

– Deyəsən, bizi qarşılayanlar var, evin arxasına keçək, ata.

– Bu soyuqda kim ola bilər? Bəlkə, sənə elə gəlir, Cavad?

– Xeyir, ata, mən yanılmamışam. Məni hər yanda izləyirlər, səni bilmirəm. Yəqin bu da növbəti güdükçülərdən biridir. Bu axşam gözlərinə yuxu getməyib, deyəsən.

Elə məni də dinc qoymurlar, oğlum, – demək istədi, lakin oğlunu narahat eləmək fikrindən yan keçdi.

– Ola bilsin ki, bu günkü yığıncaqdan da xəbərləri var. Sən nahaq yerə Güllünü ora gətirmişdin. Ona bir şey olsa... –Sözünün dalını gətirməyə utandı.

– Sən nə danışırsan, oğlum! Güllü özü atasının tapşırığını mənə çatdırmaq üçün gəlmişdi. Onu mən ora yox, evə aparacaqdım. Biz belə itləri azdırmaq üçün ora təsadüfən getmişdik. Heç yığıncaq barəsində mənə xəbərdarlıq da eləməmişdilər. Yəqin imkan tapa bilməyiblər. Bir az da ağa Hə, bəlkə?

– Yox, bu sən fikirləşdiyin kimi deyil.

– Bəs nədi? Bu neçə illərdə aranızdan su da keçməyib. Özün deyirdin ki, biz ağır günlərin dostuyuq, qardaşıyıq, ata?

– Buna sənin şübhən var, oğlum? Bizim dostluğumuza heç nə xələl gətirə bilməz.

Ancaq elə məsələlər var ki, dostluğa, qardaşlığa baxmır.

Onlar evin başına fırlandıqca, kölgə də onlarla qarabaqara fırlanır, evə girməyə macal tapa bilmirdilər.

– Bizim planımız başqa idi, Cavad. Bu əliqanlı hökumətin fitnə-fəsadlarına yaxşı bələdəm. Yenə də xalqı aldatmaq istəyirlər. Demokratiyadan, islahatdan ağız dolusu danışıb sudan quru çıxmaq üçün min bir oyuna əl atırlar. Yenə biz deyən olmadı, oğlum. Azadlıq istəyən xalqın ümidlərini qırdılar yenə. İndi də mollaları atıblar araya. İslam respublikası qurmaq istəyirlər. Biz yağışdan çıxıb yağmura düşəcəyik. Mən artıq qocalmışam, istəyirəm ki...

Cavad diksindi elə bil. Demək, atası da onun kimi düşünür.

– Necə, mübarizədən əl çəkmək fikrin var, ata? Qocalığını bəhanə eləyirsən?

– Yox, sən məni düz başa düşmədin. Mübarizə mənim içimdə, canımda, qanımdadır. Hələ intiqamımı almamışam. Həm də söhbət təkcə məndən getmir.

– Bəs nədən gedir, ata?

– Söhbət aldadılmış xalqdan gedir. Məhv olan arzularıma,

puç olan taleyimə işıq salan bir ümidgahım varsa, o da sənsən. Səni qorumaq üçün Güllü ilə toyunuzu mümkün qədər tez eləmək və çıxıb getmək planını qurmuşduq. Nə isə Həmid bunu ləngidir. Elə bil məndən qaçır. Məclisdə də təsadüfən görüşdük. O mən tanıyan Həmiddən əsər-əlamət qalmayıb. Qaradinməz, fikirli olub. Elə bil bütün dünyanın qəmini təkcə onun üzərinə töküblər. Güllü də növbəti yığıncağımızı onlarda yox, başqa yerdə keçirməyi xəbər vermək üçün gəlmişdi. Məqsədləri bizim evdə toplaşmaq idi. Sonra nə isə planları dəyişib. Vəziyyət çox ağırdı, Cavad. Dünən axşam evlərinə bu əbləh Karapet başda olmaqla bir neçə jandarm soxulub axtarış aparıblar. Heç nə tapmayıblar. Əsası da səni tapmaq istəyiblər. Güman eləyiblər ki, sən orada olarsan. Əlləri boşa çıxıb. Bəs necə? Demokrat oğlu ən qorxulu düşmənidir hökumətin…

Soyuq qılıqc kimi onları kəsirdi. Ata-bala kürək-kürəyə verib küləkdən, soyuqdan xeyli qorundular. Nə qədər ordan-burdan söz salsalar da, vaxtı öldürə bilmirdilər. Ağa Qasım ayaq üstə dura bilmirdi. Cavada söykənib ayaqlarını götürüb- qoyur, əllərini ovuşdururdu. Cavad atasını divara söykəyib bir az aralandı. Güdükçünü azdırmaq məqsədilə qulaqlı papağını gözünün üstünə basıb Karapetin darvazasına yaxınlaşdı. Qapını yavaşca tıqqıldatdı. Ona tərəf heç kəsin gəlmədiyini görüb atasını çəkib içəri saldı. Onlara ancaq ağa Qasımın qapısı lazım idi. Qoy indi səhərə qədər gözləsinlər, –dedi. Oğlunun hərəkəti, düzünü desək, ağa Qasıma qəribə gəldi. İkinci dəfə ayaq qoyduğu bu həyətdən iyrəndi elə bil. Cavaddan bir şey soruşmamış Karenanın səsini eşidib özünü itirən kimi oldu. Hərəkətindən, görkəmindən onun da indicə evə çatdığı bilinirdi. Qız mavi rəngdə, ayaqlarının üstünə qədər uzun xalat geymişdi. Qara gur saçları kürəyini bulud kimi tutmuşdu. Ağa Qasımı görüb çiynindəki yaylığını çəkib düzəltdi. Tez içəri keçib zəifləməkdə olan lapmanın işığını bir az artırdı. Otaqdakı çılçırağa toxunmadan anasını səslədi.

– Gör bizə kim qonaq gəlib, ana?– Bir az qəlbidən dedi.

Anası yuxulu gözlərini bir neçə dəfə ovuşdurdu. Ağa Qasımı görüb çarşabını götürmək üçün yan otağa keçdi. Ağa Qasım hələ də qapının ağzında dayanmışdı. Fürsət tapıb oğlundan bir şey soruşa bilmirdi.

– Bəlkə, bu Karena ilə Cavadın arasında nə isə var? Yığıncağa qoşa gəlməyindən elə dalağım sancmışdı. Bəlkə, Həmid elə ona görə qaş-qabaqlı idi? Yox, bu ola bilməz. Karena olsa-olsa, Cavadın əqidə yoldaşı ola bilər. Onlar beş il Almaniyada bir universitetdə oxuyublar. Neçə vaxtdır o qızı tanıyıram. Sözübütöv, mərd, kişilərdən heç də geri qalmayan bir cuvanəzəndir. Sirac ağanın yeganə varisi, Nüsrətin yeganə qızıdır. Onun çörəyini yeyib suyunu içirsə, nankor ola bilməz. O qədər həmvətənlərimizi tanıyıram ki, milli hökumətimiz süqut eləyən vaxtları qılıncının dalı da, qabağı da kəsirdi. Bizim neçə-neçə yoldaşlarımızı güdaza verdilər. Elə molla İmamqulunun oğlu məşədi Səfəri götürək. Şeşgilan məhəlləsində onu buyruq qulu kimi tanımayan yox idi. Bakıdan az-çox geri qayıdanlarımızı da güdaza verən elə o oldu. O cümlədən də məni. Axırı sahibi öz itini cəhənnəmlik elədi. Qudurmuş it əzəl-axır sahibinin gülləsinə tuş gəlir. O dünyaya gorbagor olsundan başqa heç nə aparmadı. Amma bu Karena atası Nüsrət ağanın adına layiq hərəkət eləyir. Axır ki, bu murdarı tutub çoxunun canını qurtardı. Karenanın səsi Ağa Qasımı düşüncələrdən ayırdı.

– Buyurun, içəri keçin, ağa Qasım! Cavad, sən də sobaya yaxın dur. Soyuqdan gəlmisiniz. Bu gün yığıncaqdan gec çıxdığımıza görə babamı narahat eləmədim. Anamın yanında gecələməli oldum. Bir də anam «əri» üçün darıxardı axı.

Karena qəhqəhə çəkib güldü. Onun sədəf kimi ağ dişləri sanki dodaqlarına işıq saldı. Gözlərini dolandırıb Cavadın bir az tutulub qaralan üzündə saxladı. Qasım ağa qızın gözünün dərinliyində ümidsiz bir həsrətin nişanələrini sezdi. Bu onun Cavadla danışanda azca titrəyən dodaqlarında tez-tez yayındırdığı baxışlarında hiss olunurdu. Ağa Qasımın nədənsə ürəyindən bir sızıltı keçdi.

Karena sözünü ikinci dəfə təkrarlayanda Cavadın bir az əvvəlki şiddətli əsəbiliyi yavaş-yavaş soyuyur, əzəlki məğrur sakitliyi yenidən öz yerini tutmağa başlayırdı. Qızın üzünə şax baxmadan Cavad dilləndi:

– Çox əziyyət çəkməyin, Karena xanım. Səhər az qala açılır. Biz öz evimizə gedib rahatlanarıq. Anana da narahatlıq gətirdik. Bizim işimiz belədi. Torpağımızda bizi daima kimlərsə izləyir. Ayırdlaşdıran yoxdur ki, qovan kimdir, qovulan kim? Tarix,

zaman özü ən yaxşı tərəzidir. Haqqı haqqın ayağına yazmaq məqamı gəlib çıxar. Biz evə çatmamış qabaqlamaq istədilər. Mən özümdən yox, atamdan ehtiyatlandığım üçün bura döndük.

– Bu həqiqəti bilsəydilər, bizim dağda-daşda nə işimiz vardı, Cavad? Vaxtı ilə bu ölkənin əsl sahiblərindən soruşmamış, torpağı ikiyə bölənlər bunun əsasını qoyublar. İndi də onların nəvə-nəticələri özlərini əsl sahibkar hesab eləyib at oynadırlar. Onları mindikləri atdan biz salmalıyıq, Cavad! Səttərxanın, Şeyx Xiyabaninin, Pişəvarinin nəvə-nəticələri.

Karena danışdıqca ağa Qasım onun gözlərindəki işıq qarışıq qəzəbi açıq-aydın sezirdi. Öz-özünə «halal olsun sənə, bu torpaqda yediyin çörək, udduğun hava» – deyirdi. Cavad qızın üzünə baxmadan onun dediklərini təsdiqləyir, hərdən də gözücü atasının üzünə baxır, sanki «nahaq yerə atamı bura gətirdim» -deyə peşimançılıq çəkirdi. Bura gəldiyimiz Güllüyə çatsa, necə olacaq? Onsuz da, məndən acıqlı idi. Karenanın qəlbinə dəyəcəyindən ehtiyatlanıb hərdən gözlərini yerdən qaldırıb qızın üzünə baxır, azca gülümsəməyə çalışırdı.

Bu axşam Cavadın səsi elə bil həmişəki şən, gümrah, bir az da əsəbi, yüngül, yumor dolu səs deyildi. Onun səsində yorğunluq qarışıq bir kədər, bəlkə də, nigarançılıq vardı. Qız qızdırmalı xəstələr kimi öz hissləri, düşüncələri ilə əlbəyaxa çarpışan Cavadın üzündən gözlərini çəkmirdi. Duyğularını cilovlamağa, özünü ələ almağa çalışsa da, bacarmırdı. Əlləri titrəyir, üzündən-gözündən elə bil alov qalxırdı.

Cavadın üzü, gözləri də səsi kimi idi. Qaşlarının arası düyünlənmiş, qarayanız çöhrəsində qartal baxışlı, cürətli qara gözlərində həlim, şəfqət qarışıq nisgil duyulardı. Karena o baxışların, o gözlərin cazibəsindən qurtara bilmədiyi bu adamı heç vaxt bu qədər məzlum və məsum görməmişdi. Hərdən ona elə gəlirdi ki, Cavadın qolları arasında pişik balası kimi tumarlanır, əlləri, barmaqları saçlarında gəzir. Qolları belinə dolanır, hərarətli nəfəsini üzündə, dodaqlarında hiss edirdi. Son dəfə ayrılarkən universitetdə təşkil olunmuş məclisdə olduğu kimi. Karena o axşam qəribə bir gecə yaşamışdı. Onun nəzərində bu məhəbbət deyildi. Olsa-olsa bir duyğu oyuncağı idi- deyə Karena şirin anlara, saatlara qayıtdı. "Bu kiçik sərgüzəşt insan həyatımı gözəlləşdirən,

mənalandıran dərin sevdadan daha şirin idi, Cavad. Mən bu sevginin ürəyimdə əbədi qoyub getdiyi şirinliyi unutmayacağam. Bəli, ömrümün sonuna qədər qoruyub saxlayacağam. Bəzən mən yalnız bir məhəbbətin əbədilik qoruyucusu olmaq fikrini düzgün saymıram. Sevginin də müəyyən ömrü olur. Onu zorla əbədi saxlamağa çalışırlar. Bu uşaq xəyalından başqa bir şey deyil. Həyatda bütün canlı və cansız nə varsa, dəyişdiyi kimi elə mən də nə vaxtsa kimisə sevəcəm. Sən Güllüyə bağlandığın kimi. Könlümə, duyğuma yaşamaq üçün bir əyləncə tapacam, bilmirəm, ancaq bu əsl sevgi olacaqmı, Cavad? İndi biz sənինlə bir əqidənin, bir məsləkin yolçularıyıq. Bu yolda ölüm olsa belə, bizi geri döndərə bilməyəcək. O beş ildə biz belə and içməmişdikmi? Atasız, anasız böyüdüyüm acı uşaqlıq illərim, üzünü görmədiyim atamın puç olan arzuları, gözüyaşlı anamın qırılan taleyi, mənə bu yolları öyrədib. Babam Siracın canını-qanını verdiyi bu nisgilli torpağın başına gələn faciələri öyrənə-öyrənə bu yolu seçmişəm. Atam Nüsrətin damarlarımdan axan qan dayanana qədər yolundan qayıtmayacağam.

Hər üçü susmuşdu. Hər biri öz daxili aləmi ilə söhbətləşir, heç biri düşündüyünü biruzə vermirdi. Səhər əzanı verilənə qədər beləcə oturub gözlədilər. Bu qarışıqlıq içində təşkilatın planları haqda heç biri danışmırdı. Bu qərarı axşam hamı eşitmişdi. Növbəti yığıncaq Həmid ağanın əzan çəkdiyi məsciddə olmalıydı. Ağa Həmidin də səssiz-səmirsiz çıxıb getməsi hamını narahat etdiyi kimi Karenanı da düşünməyə vadar eləmişdi. Gözləyirdi ki, ağa Qasım bu haqda özü danışsın. Sonra o Karapet haqqında düşündüklərini bildirsin. Karena bunu şər üzərində özünün ilk qələbəsi hesab eləyir, sevinci yerə-göyə sığmırdı. Anasının gözlərində sevinc yaşları görəndə sanki ona dünyanı bağışlamışdılar. İlk dəfə olaraq anasının sinəsinə sığınıb, cocuqlaşmış özünü dünyanın ən xoşbəxti hiss eləmişdi. Ana nəvazişini, ana mehrini indicə duymuşdu, Karena. İndi babası Sirac ağa son mənzilə rahat köçə bilər. Lakin Karapetlə hesablaşmağın elə asan iş olmadığını da başa düşürdü. O əbləh bizə hələ sağ lazımdır. Hissə qapılıb özbaşına iş görmək təşkilatın planlarına zərər vurardı. Odur ki, Karena hələlik susmağı, ağa Qasımın verəcəyi qərarı üstün tutdu.

Nigarançılıq

Kərəm ətraf əyalətlərə, xüsusən dağətəyi kəndlərə bir-bir baş çəksə də, təşkilatın tapşırığını tam yerinə yetirə bilməmişdi. Cavadın, Qasım əminin üstündə xüsusi göz olduğunu bilib əsas tapşırığı Kərəm Cavadla öz üzərinə götürmüşdü. Nə qədər ciddicəhd eləsə də, İsfahanda– ən əsası Tehrandakı gizli təşkilatın üzvlərinə baş çəkə bilməmişdi deyə çox dilxor idi. Qasım Azərinin:

– Mübarizənin həlledici məqamında bütün qüvvələrimizi birləşdirmək əsas məqsədimiz olmalıdır. İndi ümidimiz siz gənclərədir, Kərəm, bunu unutma! – Sözlərini xatırlayıb xəcalət çəkən kimi oldu. Heç Etibarla da əlaqə saxlaya bilməmişəm. Bu çox vacib olsa da, təhlükəlidir deyə özünə təskinlik verdi.

Hər addımbaşı yoxlamalar aparılır, şübhəli görünən hər kəsi tutub həbsxanalara doldururdular. Ehtiyatlı dolanmalıyıq deyə gündüzlər bir təhər gizlənir, ancaq gecələr bəzi yoldaşlarla görüşə bilirdi. Dünənki görüşdə az qala izlərinə düşüb hamısını tutacaqdılar. Müzəffərin sayıqlığı yenə onları xilas elədi. Təbrizdəki vəziyyəti nəzərə alıb, onu da geri göndərdilər. Müzəffərlə də iş görmək sən deyən elə asan deyildi. Tutulandan sonra onun da dalınca güdükçülər gəzirdi. Onun köməyi məndən çox Təbrizdəkilərə lazımdır deyə Kərəm onu geri göndərmişdi. Odur ki, bütün çətinlik onun üstünə düşmüşdü. İnsafən Müzəffər onu tək qoymaq istəməmişdi. «Ağa Həmidə söz vermişəm ki, səni qoruyum», – deyə israr eləmişdi. Kərəm: –Bu təşkilatın qərarıdır, – deyib onu yola salmışdı.

Müzəffər özü Qarazəmi tərəfdən olsa da, mənşəcə azərbaycanlı türklərindən idi. Anasının üzünü heç görməsə də, atalı günləri də uzun sürməmişdi. Atası milli demokratlardan olduğuna görə təcavüz nəticəsində öldürüldükdən sonra, yeniyetmə Müzfffər baş götürüb Təbrizə gəlmiş, xoş bir təsadüf nəticəsində ağa Həmidlə tanış olmuşdu.

Ağa Həmidin dükanında işləyə-işləyə təşkilatın ən inanılmış sadiq üzvlərindən birinə çevrilmişdi. Ağa Həmid evinin alt mərtəbəsində ona otaqların birində yaşamağa da icazə vermişdi. Odur ki, Müzəffər ailənin az qala ikinci oğluna çevrilmişdi.

Güllünü, Kərəmi özünə bacı, qardaş hesab eləyirdi. Yaşca Kərəmdən çox böyük olsa da, onun bir sözünü iki eləməmiş, mitinqlərdə odlu-alovlu çıxışlar eləyən Güllünü, Cavadı qorumaq üçün Kərəmin təkidi ilə Təbrizə qayıtmışdı. Neçə gündür təşkbaşına işləyən Kərəm paytaxtdakı hadisələrin get-gedə qızışdığını, təşkilat üzvlərilə əlaqə yaratmağın çətinliyini nəzərə alıb özü də geri dönməli olmuşdu.

Arvadı Sürəyyadan və gələcək körpəsindən nigaran kənddən gec, lap gecə yarısı qayıtdığından Kərəmin məşədi Mürsəlin evindəki yığıncaqdan xəbəri yox idi. Atasını, Güllünü də yuxudan oyatmaq istəməmişdi. Tələsik soyunub yatağa girmişdi. Ölkədə tüğyan edən xalq hərəkatının və inqilab tərəfdarlarının əleyhinə gedən hökumət terrorundan xəbərdar idi. Odur ki, xeyli gözlədikdən sonra yola çıxmış, evlərinə belə gec qayıtmışdı. Keçən dəfə evlərinə edilən basqının nəyə işarə olduğunu da başa düşmüşdü. Cavaddan xoş bir xəbər eşitmək məqsədilə atasının otağına sarı getdi. Qapını azca aralayıb Həmid ağanın yatağına baxdı. O, atasını narahat eləməmək məqsədilə səsini çıxartmırdı. Səhər naharına hələ xeyli var idi. O, atası ilə bəzi məsələlər barədə təklikdə danışmaq istəyirdi. Qasım əminin, Cavadın yetişməkdə olan inqilab barədə son fikirləri və dünənki yığıncağın qərarı onun üçün çox gərəkli idi. Təqiblərdən göz açıb işləmək çox çətin idi. Hətta getdikləri yolda yatdıqları yerdə hər biri güdaza gedə bilərdi. Kərəm əvvəllər «gəlin bu məmləkətdən çıxıb gedək, balalarımızın gələcəyini qoruyaq» deyən atasının və Qasım əminin qərarındakı dəyişiklikdən heç nə başa düşə bilmirdi. Daima fikirli, dalğın gəzib dolanan atasından ürək eləyib bir söz də soruşmurdu. Kərəm atasından səs çıxmadığını görüb bir az da çarpayıya yaxın gəldi. Qəribə idi, atasının yatağı boş idi. Onun qılçaları titrədi, ürəyi qəribə bir qorxu içərisində çırpındı. Kişini tək qoyub getdiyi üçün özünü danladı. Ağlına gələnlər başına gəlmişdi elə bil. Allah eləməmiş kişinin başına bir iş gələr? Özümü ömürlük bağışlaya bilmərəm deyə tələş keçirdi. Kərəm tez üst geyməsini çiyninə atıb pilləkənlərlə aşağı düşdü. Güllü də yuxudan ayılmışdı. Kərəmin o baş-bu başa qaçmağından şübhəyə düşdü:

– Niyə elə tələşlısan, dadaş? Bir şey-zad olub, nədir? Bizə xoş xəbər gətirmisən? Gəlinimiz ana, mən bibi olmamışam ki? Kənd-

də nə var, nə yox? Niyə dillənmirsən, ağzına su almısan? Gec gəldiyinə görə səni narahat eləmək istəmədim.

Kərəm Güllünün bir qaranəfəsə yağdırdığı sualları sanki eşitmirdi. Çöl qapısını açıb özünü həyətə atdı. Soyuq hava nəfəsinə qarışıb buxar kimi havada fırlandı. Evin arxasına burulub darvazaya sarı yüyürdü. Gözünə heç nə dəymədi–«Bu necə ola bilər? Atam naharsız, bizə deməmiş hara gedə bilərdi? Bəlkə, onu tutublar?

Geri dönüb telefonun dəstəyinin götürmək, bəzi yerlərə, xüsusən də Cavada zəng vurmaq istədi. Telefonlarının üstündə nəzarət ola biləcəyini düşünüb fikrindən əl çəkdi. Yuxarıda anasının və Güllünün də vaysındığını eşitdi. Onların da məsələdən xəbərdar olmadıqlarına əminliklə yuxarı qalxdı. Anasını sakitləşdirmək məqsədilə özünü ələ aldı. Anası ağlaya-ağlaya Kərəmin boynuna sarıldı:

– Atanı son vaxtlar tanıya bilmirəm, Kərəm? Elə bil kişi havalanıb. Oturduğu, durduğu yerdə öz-özünə danışır, bəzən də əllərini qoynunda çarpazlayıb saatlarla susur. İndi də görürsən başımıza nə oyun açdı? Evim yıxıldı, çırağım söndü, bala. Qonum-qonşular deyəcəklər ki, kişi dəli olub. Onsuz da ayağımızın altını qazanlar çoxdur. Dünən gördün ki, evimizi necə alt-üst elədilər? Mən sizin gediş-gəlişinizdən çox qorxuram, Kərəm. Bu məmləkətin, bu camaatın dərdini çəkmək elə siz ata-balaya qalıb? Güllünü də öz işlərinizə qatmısınız. Qız xaylağının belə qorxulu məsələlərlə məşğul olması düz deyil axı? Sən uşaq idin, yadına gəlməz. Cavadın anasının başına gələnlərdən dərs götürüb gərək atan ona icazə verməyəydi. Hər gün səksəkə içində yatıb-oyanmaqdan az qala xəstəliyə düşmüşəm. Sizi bilmirəm, bax budu deyirəm, Güllünün başına bir iş gəlsə, məni də ölmüş bilin.

Kərəm anasını qucaqlayıb bərk-bərk sinəsinə sıxdı:

– Sən nə danışırsan, ana! Atama heç nə olmayıb. O, bu işlərin köhnə ustasıdır. İndi vəziyyət çox mürəkkəbləşib. Elə mən özüm də odla su arasında qalmışam. Çəkdiyimiz bu qədər əziyyətdən sonra inanmıram ki...

Kərəm sözünün dalını gətirmədi. Anasının daha da əsəbiləşməsini istəmirdi. Həmişə sakit, səssiz dolanan, həlim xasiyyətli anasını heç vaxt belə sərt danışan görməmişdi. Adətən, o heç bir

söz-söhbətə qarışmaz, ev işlərini görər, ağanın qulluğunda durardu. Ağa Həmid də hörmət mənasında onu adı ilə çağırmaz, uşaqların anası deyə müraciət eləyərdi. Bir sözlə, ata-anasının mehriban davranışı, ailədə heç bir artıq münaqişənin olmaması uşaqlara da sirayət eləmiş, onlar da valideynlərinə qarşı ədəb-ərkanı saxlamışdılar. Amma bu gün atasının xəbərdarlıqsız evdən getməsi Kərəmi düşündürməyə bilməzdi. Kərəm Güllünün üzünə yanakı bir nəzər saldı. Qız təmkinini pozmadan səhər yeməyini hazırlamaqla məşğul idi. O çox vaxt belə çətin anlarda nə isə bir çıxış yolu tapar, Kərəmə yardımçı olardı. Güllü susurdusa, deməli, nə isə düşünürdü. Kərəm bacısının xasiyyətinə bələd idi. Odur ki, əllərini yuyub tez süfrə başında əyləşdi. Anasının qoyduğu süd kasasını qabağına çəkdi. Yağdan, pendirdən bir azca yeyib qalxanda ona çay s, – demək istədi. Kərəm təkrar yerində əyləşdi. Nahardan bir az sonra ikisi də atalarının otağına qalxdılar. Güllü dünənki axşam yığıncağından, ora necə gedib çıxdıqlarından, növbəti görüşün harada olacağından yerli-yataqlı danışdı.

– Sən get öz işinə, – deyə Güllü qardaşının dağınıq saçlarını qarışdırıb, alnından öpdü. – Atamı harda axtarmağı mən bilirəm. Axşamkı yığıncaqda çıxış eləyən Ərdəbil gizli təşkilatından gələn qadın elə bil atamın ovqatını qarışdırdı. Dünəndən kişi özünə gələ bilmir. Burda nə isə var, Kərəm! Oradan bir baş məscidə gedib, halı çox pəjmürdə evə qayıtdı. Axırı xeyir olsun.

– Nə qadın? – Deyə Kərəm bacısının qolundan tutub silkələdi. Tez ol, danış!

– Mən özüm də məəttəl qalmışam vallah, dadaş! Dünən ağamı güc-bəla ilə evə gətirdim. O, özündə deyildi. Elə bil o dünya ilə danışırdı. Nə yeyir, nə bir qurtum su içir, nə də bizimlə bir kəlmə kəsirdi. İndi də...

Kərəm, deyəsən, işin nə yerdə olduğunu təxminən bilirdi. Atasının ona danışdığı, sona çatdırmadığı qadın əhvalı yadına düşdü. Bəlkə, Cavadın anası qayıdıb? Yox, bu ola bilməz. Gör ortadan neçə illər keçib. Belə deyilsə, bəs onu bu qadın niyə bu qədər narahat eləsin? Kərəm heç bir şey başa düşmürdü. Hər halda nə isə bir işıq ucu göründüyünə sevindi. Lakin düşündüklərini Güllüyə, anasına demədi. Bu atasına xəyanət demək idi.

Güllü Kərəmdəki dəyişikliyi o saat sezdi. O özündən cəmi cümlətanı bir yaş böyük olan qardaşının sözünün üstə söz deməyi sevməzdi. Odur ki, indi də bir söz demədi.

Kərəm bacısına sarı dönüb:

– Hə, mənim ağıllı bacım, de görək nə fikirləşirsən? Bu günsabah şahın qanlı taxtı çevriləcək. Xalq kütləsi küçələrdə, meydanlarda yatıb-durur. Hər birimizin arzuladığı şahlıq rejiminə son qoyulacaq. Hökumət birinci növbədə bizim təşkilatımızı günahkar bildiyinə görə, üstümüzdə qılınc oynadır. Hər birimiz həbsdən, terrordan qorunmalıyıq. Sonrakı hadisələr barədə əvvəlcədən danışmayaq.

– Mən də sənin kimi düşünürəm, Kərəm. Amma indi birinci növbədə atamızı tapmalıyıq. Kişiyə bir şey olsa, anamız bizi heç vaxt bağışlamaz.

– Bəs nə eləyək? Küçələrə düşüb onu axtarmaq indi ağılsızlıqdır.

– Hə, yeri gəlmişkən, bir şad xəbəri də sənə çatdırım qoy ovqatın bir az düzəlsin.

– Hə, de görüm!

Kərəm bacısının qollarından tutub silkələdi.

–Atam toyunuza razılıq verib? Bu yaxşı oldu. Çoxdandır qulağımız musiqi səsinə həsrətdi. Kərəm çəkib Güllünün alnından öpdü.

– Dayan, sən nə edirsən? Məsələ başqa cürdür. Kar könlündəkini deyər. İndi toy-bayram vaxtıdır?

– Əvvəla, Müzəffər azadlığa buraxılıb, bu bir.

– Tez ol, ikincisini de, lap hövsələm bir tikəlik oldu.

– İkincisi də odur ki, qoy deyim, ürəyin yerinə düşsün. Karapeti tutub Mürsəl əminin zirzəmisinə salıblar. Daha bundan artıq nə şad xəbər olar, dadaş?

Güllü kirpiyini aşağı salıb yavaşca dilləndi:

– Karena da Cavadla gəlmişdi.

– Hə, başa düşdüm, qısqanırsan demək. Cavadı məndən yaxşı heç kəs tanıya bilməz, Güllü. O, dediyi sözü, verdiyi vədi heç vaxt dəyişməz, ay mənim qısqanc bacım.

Kərəm onun yanağına yüngül bir çırtma vurdu.

– Sən ancaq şad xəbərlər üçün yaranmısan, de gəlsin!

– Əşi, sən də bacını bu qədər tərifləmə, Karapeti başı torbalı ora gətirən qızı – Karenanı tərifllə.

– Öz atasını tutub ora özü gətirib?

– Tək deyildi, dadaş, Cavadla birlikdə gətirmişdilər.

Cavadla birlikdə deyəndə Güllünün özündən asılı olmayaraq səsi yenə titrədi. Kərəm bunu Güllünün üzünü yana tutmağından hiss elədi.

– Sən Cavadı qısqanırsan, Güllü. Mənə inandığın qədər Cavadın saflığına, sözübütövlüyünə inan. O, səni heç kəsə dəyişməz.

Güllünün yanaqları güz alması kimi qızardı. Bunu eşitmək ona nə qədər xoş idi. Kaş bu sözləri Cavadın özü ona deyəydi. Dilindən bir kəlmə eşitsə, dünyanı verərdi.

– Biz çox ağır işə girişmişik, bacı. Bu günlərdə hər birimizi öldürə, ya tuta bilərlər. Mən ağa Həmidin oğlu kimi, hardasa, özümü qoruya bilərəm. Atam «mömin» bir bəndədir, bəs necə? Siyasətlə işi olan adam deyil. Ondan bir qədər şübhələnməzlər, - güldü.

Demokrat Qasım ağanın oğlu kimi Cavad diqqət mərkəzindədir. Ovçular indi bu ata-balanın güdüyündədilər. Qoy bu işlər qaydasına düşsün, sizə bir toy çaldıracağam ki, səsi nəinki Təbrizə, hətta Arazın o tayına da çatsın.

Güllü məclisdə olanların hamısını yerli-yataqlı danışdıqca, Kərəmin sevincdən uçmağa bircə qanadı çatmırdı.

– İndi o əbləhlə haqq-hesab çəkməyin vaxtıdır. Belələrindən ölkədə nə qədər istəsən, var, bacı. Qara ilan kimi həmişə ayağımıza dolaşırlar, – deyə nahar üçün aşağıya düşdü.

Süfrə arxasında ağa Həmiddən başqa hamı oturmuşdu. Dinib-danışan yox idi. Hər üçü elə bil bir-biri ilə küsülüydülər.

Kərəm anasının narahatlığını başa düşür, amma nə edəcəyini bilmirdi. Güllü çaydan bir neçə qurtum içib ayağa qalxdı.

– Mən getdim, dadaş, – deyib anasının, qardaşının alnından öpdü.

Anasına elə gəldi ki, qızı onlarla vidalaşır. Oturduğu yerdən sıçrayıb özünü qapıya atdı:

– Sizi heç yana buraxan deyiləm. Mən nə ərsiz, nə də oğulsuz–qızsız yaşaya bilmərəm!

Uşaqlar təəccüblə bir-birinin üzünə baxdılar. Nə baş verdiyini

anlamırmış kimi yerlərindən tərpənmədilər. Zeynəb xala çadrasını başına atıb qapıdan çıxmaq istəyəndə Kərəm onun qolundan tutub saxladı.

– Sən hara gedirsən, ana? İndi küçələrdəki izdihamdan heç xəbərin var? Ayaq altında qalarsan.

– Sizi itirməkdənsə, qoy mən ayaq altında qalım, Kərəm. Atandan bir xəbər tutmamış geri dönən deyiləm. Ağa Qasıma qoşulmaq əvvəldən bu evə dinclik gətirməyib. Siz də olmusuz onların tayı. Ola bilməz ki, biz də qonum-qonşular kimi bir tikə çörəyimizi dinc yeyək?

– Bu sənin işin deyil, ana. Mən təxminən atamın harda olduğunu bilirəm.

Zeynəb xanım xeyli qeyziləndi:

– Elə bilirdinsə, niyə bayaqdan bəri ürəyimi üzürdün? Başımı aldadıb heç yana getməyəcəksən!

Güllü anasını qucaqladı:

– Sən başı aldanan analardan yox, dünyanın ən yaxşı analarındansan. Darıxma, atam qayıdıb gələcək.

– Gör necə dilini işə salıb… İndi de görək atan hara gedib?

Güllü ürəkdən güldü:

– Bax bircə bunu sənə deyə bilməyəcəyəm. İcazə ver gedib gətirim.

Kərəm bacısının nə isə kələk işlətdiyini başa düşürdü. Bütün bunları deməkdə Güllünün məqsədi küçəyə çıxmaq üçün icazə almaq idi. Zeynəb xanımın başqa çarəsi qalmamışdı. Kövrələ-kövrələ:

– Gedin, Allah sizi mənə çox görməsin. Başımızın üstünü alan bu xəta-bəladan Tanrı sizi qorusun,–dedi.

Küçəyə çıxdılar, Kərəm xəstəxanaya, Güllü isə Məşədi Mürsəlgilə getdi.

* * *

Həmid ağa evdən çıxanda sübh namazına hələ xeyli qalmışdı. Alatoranlıqda göz-gözü görmürdü. Tək-tək ötüb keçən maşınların işığı adamın gözünü qamaşdırır, tez də yoxa çıxırdı. Sübh əzanını da yaddan çıxarmışdı ağa Həmid. İndi onu başqa məsələlər daha çox maraqlandırırdı. Əzan məsələsini dünəndən Kərbə-

layı Abbasa tapşırmışdı. Özünün naxoş olduğunu səbəb gətirərək bir neçə gün məscidə gələ bilməyəcəyini söyləmişdi. Amma yığıncağın qərarlaşdırdıqları kimi məsciddə yox, başqa bir yerdə keçiriləcəyi xəbərini təşkilata çatdırmağa tələsirdi. Bu qərarı Qasım ağa ilə də müzakirə eləmək fikri yox idi. Onu ağlına gələn şübhələrdən kənarda qoymaq istəyirdi. Son vaxtlar ürəyindən və zindanda olarkən aldığı zədələrdən şikayətlənməsi, Həmid ağanı çox narahat edirdi. Neçə dəfə Kərəmə, Cavada onu müayinə eləməyi tapşırsa da, bir nəticə alınmamışdı. Həm ölkədə gedən siyasi çəkişmələr, həm təşkilatın işində yaranan çətinliklər buna imkan verməmişdi. Bununla belə inqilabın taleyinə Qasımın belə laqeydliyi onu narahat eləyirdi. Onu laqeydsizlik də adlandırmaq olmazdı. Çünki Qasım Azəri inqilabının taleini əvvəlcədən gördüyü üçün susurdu.

Onun yerinə bütün bu işlərə Cavad baxırdı. Həmid ağanı Mürsəllə ikinci dəfə görüşə aparan daha bir məsələ vardı ki, özündən başqa heç kəsə bəlli deyildi. Ağa Həmidin yığıncağı onun əzan çəkdiyi məscidə salmaq qərarına indi peşiman olmuşdu. Cəsus lap qulağının dibində idi. Onun hər addımı izlənir, gəlib-gedən yoxlanırdı. Məscid ciddi nəzarət altında idi. Son vaxtlar macal tapıb Qasım ağa ilə yaxından dərdləşməmişdilər. İndi, şükürlər olsun ki, qurdu öz yuvasında boğmuşdular. Karapet tutulmuşdu. – Bəlkə görüşməyə imkanımız oldu, deyə Həmid ağa yol boyu götür-qoy eləmişdi.

Güllü məsələsi olmasaydı, onları köçürüb evə gətirərdi. Bu inqilab başa çatandan sonra evlərinə qayıdardılar. Qonum-qonşulardan ayıbım gəlir. Adama nə deyərlər? Qız ərə getməmiş oğlan evin başına keçib deyərlər. Bir də ki, Cavadı bax bu qollarımın üstündə böyüdüb saxlamışam. O mənə övladlarım qədər əzizdir. Bunu kim bilmir? Yox, bu mənə yaraşmaz. Bir qız atası kimi adətlərimizə zidd gedə bilmərəm. Qasım hələ toy barəsində mənə bir söz deməyib. Bir yandan da bu Karena məsələsi məni çox düşündürür. Güllünün üzünə baxa bilmirəm. Bəlkə, doğrudan da, Cavad fikrində bir başqasını tutub, onda necə? Hər halda vaxt tapıb Qasımla danışmalıyam. İndi ondan da vacib məsələlər var. Mən Mürsəllə görüşüb qadının kim olduğunu öyrənməmiş ondan əl çəkməyəcəm. Fatmanın yazdığına əsasən bu

alçaq Karapet qızın taleyindən xəbərsiz deyil. Mən buna əminəm. Birdən ehtiyatsızlıq edib mən gedənə qədər uşaqlar onu cəhənnəmə göndərərlər? Bircə bu olmasın, ey bizi yaradan! Bütün bu haqsızlıqları gözləri ilə görən, Tanrım! Zalımın əlindən qılınc düşən vaxtı bizə göstər! Axı haqq nahaqla tərəzinin eyni gözündə çəkilə bilməz. Şərin taxtının uçub xanimanının tarmar olan məqamı çatıb. Öldürülən oğullarımızın, qırılan talelərin intiqamını almaqda bizə kömək elə!

Həmid ağa gündə neçə kərə üz tutduğu adil Allahla mübhəm danışdıqca qollarına təpər, ürəyinə ümid işığı dolurdu. O işıq getdikcə gurlaşır, çoxalıb ətrafı nura qərq eləyir, ağa Həmidə yol göstərirdi. Özündə yeni bir qüvvə tapıb addımlarını yeyinlətdi.

Ağa Həmid Mürsəlin evinə eyni yolla getmək fikrində deyildi. Dalınca güdükçü aparacağından qorxurdu. Dar dalanlardan keçib örtülü bazara sarı xeyli yol getdi. Bazarın dəmirçilər adlanan hissəsindən içəri girdi. Bazar üstü örtülü tunelə bənzər azı yüz metr uzunduğunda idi. Səsdən qulaq tutulurdu. Bura onun yolu çox az hallarda düşərdi. Dəmirçilər deyilən hissədə səs ancaq namaz qılınan vaxt kəsər, bu sakitlik çox da çəkməzdi. Həmid ağa burda bir məqsəd güdürdü. Onu heç kəsin izləmədiyinə əmin olduqdan sonra yoluna davam etmək istəyirdi. Bir xeyli ləngiyəndən sonra bazardan aralanıb dar bir dalana girdi. Dalan çox qaranlıq idi. Gediş-gəliş də nisbətən azalmışdı. O dalanın qaranlıq yerinə keçdi. Böyük yola adlamaq üçün çıxış axtarırdı. Köhnə kərpic divarın lap dibindən kiçik bir adamın güclə keçə biləcəyi bir qapı gözünə dəydi. Ağa Həmid yorulmuşdu. Ayaqlarını güclə sürüyürdü. Qapıdan çıxan kimi geniş asfalt yola döndü. Mürsəlin evini görüb xeyli sakitləşdi. Qapını yavaşdan iki dəfə tıqqıldatdı. İçəridən:

– Kimsən? – Deyə verilən suala o:

–Ərdəbil – deyə cavab verdi.

Qapının cəftəsinin səsi eşidildi. Həmid ağa qapını itələyib açdı. İçəri gircək onu iki nəfər silahlı adam qarşıladı. Onlar bir ağızdan:

– Təbriz! –deyə səsləndilər.

Onlar yenə bir neçə əyri-üyrü yeraltı keçiddən keçib zirzəmiyə yetişdilər. Zirzəmiyə çatanda silahlı bələdçi bir dəfə ucadan öskürdü. Onun öskürəyinin səsi qaranlıq zirzəmidə əks-səda ver-

məmiş içəridən bir səs eşidildi:

– Buyurun!

Pilləkənlərlə yuxarı qalxan ağa Həmid genişliyə çıxanda rahat nəfəs aldı. İndi o, nisbətən geniş otaqda idi. Sağ tərəfdəki iki balaca pəncərədən işıq gəlirdi. Bələdçi ağa Həmidi işıq gələn pəncərəyə yaxın qapının ağzına gətirib dedi:

– Girin, burdadılar.

O, lal adamlara məxsus hərəkətlərlə içəriyə işarə edib çıxıb getdi. Həmid ağa başı az qala tavana dəyən otağın qapısında görünəndə içəridə oturanlar söhbətlərini kəsib diqqətlə ona baxdılar. Hər ikisi dirsəkləndikləri mitəkkəni geri itələyib hörmət əlaməti olaraq ayağa qalxdılar. Salamlaşıb yer göstərdilər. Ağa Həmid onları tanımırdı. Üzlərinin ifadəsindən başa düşdü ki, onun bura gəlişi onlar üçün gözlənilməzdir. Heç biri sual vermədən səssiz-səmirsiz qayıdıb yerlərində oturanda içəridən gələn səs bayaqdan müəmmalı-müəmmalı dörd tərəfə boylanan ağa Həmidi ayıltdı. Səs ona tanışdı.

– Deyəsən, qonağımız var –deyə oturanlara sual verən adam onun gəlişindən xəbərdar kimi özünü aparırdı. Sonra arxadakı qapını yavaşca aralayıb içəri girəndə ağa Həmid Mürsəli tanıyıb dilləndi:

– Ya Allah, ya Allah, ağa, siz hara, bura hara? – Mürsəl istiqanlılıqla əl verib görüşdü. – Axı biz növbəti dəfə burada görüşməyəcəkdik? Bura bizim gizli görüş yerimiz olduğu üçün fövqəladə hallarda gəlirik. Keçən dəfə axırıncı yığıncağın yerini və vaxtını hamıya elan eləmişdik.

– Elə hesab et ki, fövqəlada haldır, sizin evə təşrif gətirmişəm. Yığıncağın məsciddə olacağı fikrinə də razı deyiləm, vəziyyəti özünüz bilirsiniz. Ağa Qasımı da xəbərdar etməliyik.

Mürsəl ikinci dəfə gördüyü bu adamı isti qarşılayıb hal-əhval tutanda evdəkilər rahatlandılar. Onlardan biri qırx-qırx beş yaşlarında uzun, qara bığları aşağı çənəsinə doğru əyilən ayağa qalxıb ikinci dəfə onu salamladı. Onun gəlişində nə isə məxfi bir məsələnin olduğunu güman eləyib dilləndi:

– Mürsəl əmi, bəlkə, biz gedək?

– Mən sizi tanış eləmədim. Ağa Həmid təşkilatın hörmətli, ağsaqqalı qocaman üzvlərindən biridir.

– Qoca niyə olur, maşallah, çox gümrah görünür.

– Mən elə qocalığı nəzərdə tutmuram, uşaqlar.

– Bəs nəyi nəzərdə tutursunuz?

– Təşkilatın ilk yaradıcılarından olduğuna görə qocaman deyirəm. Əlbəttə, necə deyərlər, ağa Həmid min cavana dəyər. Ondan gizli heç bir işimiz ola bilməz. Növbəti dəfə yığıncaq ağanın əzan çəkdiyi məsciddə olmalı idi. Mən bu haqda bayaq sizə məlumat vermişdim. İndi onun gəlişi sizin kimi məni də təəccübləndirdi.

– Narahatçılığa səbəb yoxdur. Mənim təşrifim şəxsi məsələ ilə bağlıdır. Ancaq mənə və Mürsələ aiddir, –deyə ağa Həmid açıq-aydın gəlişinin məqsədini bildirdi.

Qonaqlar sağollaşıb getdilər. Araya ağır bir sükut çökdü. Heç biri sözə birinci başlaya bilmirdi. Ağa Həmid sözü necə açmaq, haradan başlamaq, neçə illərdi ürəyindən daş kimi asılan mücərrəd sualların hansını əvvələ salmaq haqqında xeyli düşünüb susdu. Fikrini götür-qoy elədi.

– Bəlkə, Fatmanın dəftərdə yazdığı Mürsəl başqa bir adamdı? O qədər eyni adlı adamlar var ki... Birdən sirri açıb bəyan elədim, məndən soruşdu ki, bunun sənə nə aidiyyatı var? Nə cavab verəcəm? Dəftərin hansı yolla əlimə keçdiyini öyrənmək istəyəcək. Ağa Qasıma ünvanlanmış bu yazının indiyə qədər sahibinə çatdırılmamasında məqsəd nədir? Onda pis vəziyyətdə qalaram. Eh, nahaq yerə bura gəldim. Vaxtı gələndə hər gizli mətləb istər-istəməz üzə çıxır. Bu da onun kimi. İndi evdəkilər də məndən nigarandılar. İşimizin bu gərgin çağında şəxsi məsələlərlə məşğul olmağın heç yeri deyildi.

Ağa Həmidin belə susması Mürsəli lap darıxdırdı.

Öz-özünə: Nə qəribə adamdı? Öz ayağı ilə gəlib ki, şəxsi məsələdən danışsın, özü də bir söz demir.

Onun tərəddüd elədiyini görüb Mürsəl özü dilləndi:

– Ağa, mən sizin qulluğunuzdayam. Nə buyurursunuz canla-başla hazıram. Bu mənim üçün böyük şərəfdi ki, siz məni sayıb evimə gəlmisiniz.

Ağa Həmid başını qaldırıb Mürsəli xeyli intizarda qoyduğu üçün üzr istədi. Yol gələ-gələ hazıradığı sualların birini də dilinə gətirə bilmədi. Uşaq kimi dili topuq vura-vura indiki və gələcək

planlardan danışdı. Özü də bu dediklərinin Mürsəli zərrə qədər qane elədiyinə inanmırdı. Onun qəribə baxışlarında neçə-neçə sual olduğunu başa düşüb sözünün səmtini dəyişdi.

– Şəxsi məsələ deyəndə elə bir ciddi şey yoxdur. Sadəcə icazənizlə istədim, o zirzəmidəki əfi ilanı dindirib bəzi məsələlərə aydınlıq gətirim. Neçə illərdi bunu gözləmişəm. Necə bilirsən?

– Karena özu onun taleyini həll edəcəyini açıq-aydın söylədi. O gün verdiyim sözə necə xilaf çıxım? Cavan olsa da, ürəyi intiqam hissi ilə doludur. Atasının qatilinə indiyə qədər ata deyən qızdakı dözümə heyranam, vallah! Heç kim onun başına gələnlərə dözməzdi. Açığını desəm, mənim də bu əbləhlə şəxsi haqq-hesabım var. Tale elə gətirib ki, bir vaxtlar əlimdən çıxan fürsət, indi əlimə düşüb. Bilirsiniz, ağa Həmid, xalqımız müdrik xalqdır. Hər məsələ-misalında bir həqiqət var. Tanrı buynuzsuz qoçun qisasını buynuzlu qoçda qoymaz deyiblər. Onunla xüsusi haqq-hesab çəkməliyəm.

– Sən məndən də yanıqlıymışsan, qardaş! O nə məsələdi elə səni narahat eləyir?

Ağa Həmid bir az da yaxın durdu:

– Hərçənd aramızda sirr yoxdur, yenə icazə versəydin, bunu dostumun xatirinə gizli saxlayardım. Mən onun qarşısında günahkaram. Dar günlərin dostu, qardaşı, əqidə yoldaşı olsaq da, ailə məsələlərində biz gərək diqqətli olaq.

Bu çoxdan olan əhvalatdı. Mən onda çox gənc idim. Onu qorumaq mənə tapşırılmışdı. Onun son vaxtlara qədər qardaşdan artıq sevdiyim dostumun zövcəsi olduğunu bilməmişəm. Gör neçə illər keçib o vaxtdan.

Xeyli susdu. Mürsəl bir neçə dəfə udqundu. Gözləri yaşardı. Boğazına dolan qəhərdən bir neçə dəqiqə danışa bilmədi. Ağa Həmidi intizarda qoymaq istəmədiyi üçün özünü ələ aldı.

– O, Bakıdan əri ilə iki-üç il olardı gəlmişdi. Ərinin adını eşitsəm də, şəxsən tanış deyildim. Bu tapşırığı mənə «Qadın Hüquqları Uğrunda Mübarizə» təşkilatı vermişdi.

O yenə susdu. Dediyi hər sözü ölçüb-biçir, söhbəti başa vurmaqda çətinlik çəkirdi. Zindanda aldığı zədədən tez-tez kəkələyir, bəzən də nitqində ləngimələr olurdu. Əsəbləşdiyi göz qabağında idi. Əlləri qeyri-ixtiyari titrəyirdi. Göy mahud örtüklü

mizin üstündə iki fincan çay çoxdan soyumuşdu. O, soyuq çaydan bir qurtum içib pəncərəyə yaxın gəldi. Ağa Həmid yerində sanki donmuşdu. Onun adını soruşmağa qorxurdu. Lakin söhbətin kimdən getdiyini təxminən müəyyən etmişdi.

Çox şükürlər olsun ki, məsələni mən açmadım. Nahaq yerə deməyiblər ki, Tanrı yol göstərəndi.

– Onda siz harada yaşayırdınız? – Deyə ağa Həmid onun sözünü kəsdi. Bununla məsələnin lap məğzini öyrənmək istəyirdi.

– Mən məmləkətin hər tərəfində yaşayırdım, qardaş. Ataanam rəhmətə gedəndə mənim on beş yaşım vardı. Əmim Məşədi Qulam evimizi satıb məni öz himayəsinə götürdü. Onun el içində böyük hörməti var idi. Oğlan övladı olmadığından mənə oğlu kimi baxırdı. Məni oxudub bir sənət sahibi eləmək fikrində idi. Əmim deyirdi ki, səni hüquqşünas eləyəcəm ki, bu camaatın hüquqlarını müdafiə eləyəsən. Əmim savadlı, dünyagörüşü zəngin bir adam idi. Marağada onu tanımayan yox idi. Hamı dərdini ona deyər, məsləhətlər alardı. Dostumun anası bir gün bizə gəlib əmimin üstünə ağladı. Məktəb pulunu ödəyə bilmədiyi üçün mollanın təhriki ilə jandarmlar evdə nə var çəkib aparmışdılar. Səhərisi gün dərsin axırına qalıb qapını içəridən bağladım. Mollanı o ki var döydüm. Məni tutdular. Azyaşlı olduğumu nəzərə alıb üç gündən sonra buraxdılar. Söz yox ki, burada əmimin nüfuzu da böyük rol oynamışdı. İkinci dəfə bazarda baqqalı döydüm.

Həmid ağa güldü.

– Onun nə günahı vardı? –deyə söhbətinə müdaxilə elədi.

– Heç nə, qardaş, ət alan qadını çəkidə aldatdığına görə. Əmim məni heç vaxt danlamazdı. Bu dəfə otağına çağırıb, dedi:

– Sən bu yolla camaatı müdafiə eləməkdən əl çək, bala. Bir-iki nəfəri döyməklə bu cəmiyyəti düzəldə bilməzsən. Quruluş dibindən, kökündən dəyişməsə, haqqımız özümüzə qayıtmayacaq. Millət öz dilini, tarixini öyrənə bilməyəcək. Belə üsulla mübarizə aparsan, özünü məhv eləyərsən.

O vaxtlar əmimin dediklərini yaxşı başa düşməsəm də, onun söhbətləri, nəsihətləri içimdə bir çevriliş əmələ gətirmişdi elə bil. Dostlarımdan ibarət bir dəstə yaratmışdım. And içmişdik ki, təhqir olunan kasıbların hüquqlarını qoruyaq. Bu o ərəfədə idi ki, rus qoşunları Təbrizə, Ərdəbilə, Rəştə, Zəncana daxil olmuş-

du. Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə milli azadlıq hərəkatı qələbə çalmışdı. Hər tərəf bayram əhval-ruhiyyəsində idi. Şah rejimi yıxılıb deyə milli hökuməti alqışlayanlardan biri də biz idik. Gənclər arasında açıq-aşikar təbliğat aparır, milli hökumətimizi qorumaq üçün var qüvvəmizlə çalışırdıq. Əmimin uçmağa qanadı yox idi. Mənə bəzi məsləhətlər verir, gözlədiyi günə çıxdığımıza görə özünü xoşbəxt sayırdı. Az keçmədi ki, əmim rəhmətə getdi. Atası Tehran hökumətində vəzifə tutan əmim arvadı məni evdən qovdu. Qərargahda gecələyir, ən çətin işləri görürdüm. Elə o vaxtdan həyatımı inqilab ocağı Təbrizlə bağladım. Eh, qardaş, mənim başıma gələnləri yazsan, bir dastana sığmaz. Sonrası münasib bir vaxta qalsın. İndi ki gəlmisən, nə deyirəm, qoy sən deyən olsun.

Ağa Həmid sözü düz hədəfə vurduğu üçün bir az yüngülləşmişdisə də, onun ürəyini axıra qədər açmadığına əmin idi. Deməli, Fatmanın haqqında yazdığı Mürsəl elə bu özüdür. Ürəyində «sağ ol, qardaş», deyə minnətdarlığını bildirdi.

– Nə çox fikrə getdin? – Mürsəl onun qolundan tutub qaldırdı. Hər ikisi pilləkənlərlə zirzəmiyə düşəndə gün qüruba doğru əyilirdi. Ağa Həmid bayaqdan bura gəldiyinə peşman olsa da, indi məmnunluqla nəfəs aldı. Mürsəlin heç bir şeydən şübhələnmədiyinə, artıq-əksik sual vermədiyinə sevindi.

Deməli, Mürsəllə ağa Qasım həbsxanada tanış olub dostlaşıblar. Bəs necə olub ki, öz dostuna ailəsi haqda heç bir söz deməyib? Onların arasındakı dostluqdan indiyə qədər mənə bir söz də olsun danışmayıb? O dəftəri oxumuş olsaydı, bəlkə də, nə isə soruşardı. Onları məndən başqa heç kəs oxumayıb. Deməli, ağa Qasımın məndən də gizli saxlaya biləcək sirri ola bilərmiş. Bəlkə, indi də məndən nə isə gizli saxlayır? Nə bilmək olar? Elə bilirdim ki, mən Qasımdan hər şeyi öyrənmişəm. Deməli, bilmədiklərim də var. Onu məzəmmətləməyə mənim nə haqqım var axı? Xəcalət çəkirmiş kimi ağa Həmidi tər basdı.

Zirzəmidə görüş

Fatma tutulub aparılandan sonra Haşım uzun müddət oturduğu yerdən qalxa bilmədi. Üzünü torpağa söykəyib için-için ağladı.

– Onu mənə tapşırıb getmişdilər, ey Yaradan, o kimsəsiz qızı qoruya bilmədimsə, mən niyə yaşayıram? Onun qədər də qeyrətim olmadı. Əlimdən silahı verib qorxaqcasına kolların arxasında gizləndim. Quzunu qurda öz əllərimlə verdim. Əgər haqqın, ədalətin tərəfdarısansa, niyə bir möcuzə göstərmədin? İndi başıma nə çarə qılım? Bayramgil qayıdanda nə cavab verəcəm? Qızı apardıqları səmti də öyrənə bilmədim. O yazıq qızı hansı məşəqqətlər gözləyir, bilirəm. Mən o gedən yolları çox görmüşəm. Dağılsın belə zəmanə – deyib qoşa əlli başına vurdu.

Canına titrətmə düşmüşdü. Ağladığından öskürəyi ara vermirdi. Səndərləyə-səndərləyə kəndə tərəf üz tutdu. Axşam düşmüşdü. Zülmət ətrafı elə almışdı ki kiçik bir şıqqıltıdan adamı vahimə bürüyürdü. Bu bağların, bu dağın-daşın hər qarışına bələd olduğu halda hara gedəcəyini uzun müddət kəsdirə bilmədi Haşım. Gah çayın qırağına düşür, gah da kolların, ağacların arası ilə irəliləyirdi.

– Bəlkə, elə evdə məni ajanlar gözləyir? Çatan kimi tutub aparacaqlar? Ya elə vurduğumuz ölməyib, məni görən kimi tanıyacaq?

Haşım özü ilə o qədər həsbi-hal elədi ki, Fatma da yaddan çıxdı. Yalan deməyiblər ki, qarın qardaşdan irəlidir. «İndi «daş məndən ötsün, qardaşıma dəysin» zamanıdır. Milli hökumətin düşmənləri xalqın gözünün odunu almaq üçün necə zülmlər etmədilər? Həbsxanadan bir çoxu mənim kimi xəstə, bir hissəsi şikəst qayıtdılar, yarımcan oldular. Balaca torpaq payımı da əkib-becərməyə gücüm çatmır. İndi bir çətən külfəti təzədən bəlaya saldım. Yaxşı ki silah məndə deyil.

Haşım götür-qoy eləyə-eləyə tikiliyə çatdı. Ehtiyatla evin arxasına keçib dinlədi. Heç bir səs-soraq gəlmirdi. Meyitin orada olub-olmadığına əmin olmaq üçün xeyli boylandı. Gözünə bir inni-cinni dəymədi. Divara söykədiyi nərdivanı görüb sevindi.

– Hə, indi həyəti açıq-aydın görə bilərəm, – deyib bir neçə pilləkən qalxıb dayandı. Həyət, qapı açıq-aydın görünürdü. Şübhəli heç bir şey gözünə dəymədi. Nərdivandan aşağı düşdü. Ürəyi bərk döyünür, başı gicəllənir, gözlərinə qaranlıq çökürdü. Aclıq, yorğunluq onu əldən salırdı. Qorxurdu ki, öskürəyi başlayıb onu ələ versin. Cibindən dəsmalını çıxarıb ağzına tutdu.

Evlərindən xeyli aralıda olan bu köhnə tikili Haşıma atasından

qalmışdı. Sonralar ana babasının yanına köçüb buranı bir növü anbar eləmişdilər. Qış azuqəsini, əkin-biçin ləvazimatını bura yığardılar. Bu ikigözlü evdə hər şey ona babasını xatırlatdığı üçün, Haşım tez-tez bura gəlib saatlarla qalmağa hələ uşaqlıqdan adət eləmişdi. Anası otağı necə var, elə də saxlamış, heç nəyə əl vurmağa qoymamışdı. Babası mirzə Yusif balaca Haşımı dizləri üstündə oturdar, özünün keçdiyi çətin və eyni zamanda şərəfli yoldan, Səttərxan, Bağırxanla bir cəbhədə vuruşduğundan, məşrutə inqilabının ən fəal üzvlərindən biri olduğundan danışardı. Əslən Zəncanlı olan babası Təbrizdə yaranan gizli inqilabı komitə üzvlüyünə ilk yazılanlardan olmuşdu. Təbriz azadlıq hərəkatı genişlənib ölkənin hər tərəfinə yayılanda Səttərxanın, Bağırxanın şöhrəti dillərdə əzbər olanda onu tapşırıqla Zəncəna göndərmişdilər.

Hələ o vaxt dillərdə əzbər olan, Səttərxanın şərəfinə qoşulan bir mahnını da Haşıma babası öyrətmişdi. Haşim harda gəldi mahnını oxuyardı. Hətta bir dəfə fars dilini öyrədən müəllim Müsəvi onu möhkəmcə cəzalandırmışdı.

– Taxtı-tacın qatı düşməni babandan öyrənmisən bu mahnını? Onun aqibəti inqilab deyənlərə dərs olmadımı? Pəhləvilərin taxt-tacı ilə zarafat eləmək hər gədanın işi olsaydı, sizin «aslan» adlandırdığınız Səttərxan da indi taxtda oturardı. Qacarlar dövründə tikilən at, qatır, ulaq tövlələrində çürüməzdilər. Necə ki, ondan sonra gələnlər «Qəsri-Qacar» adlanan gizli zindanda bitə-birəyə, siçovullara yem oldular. Bir dəfəlik bilin ki, taxt-tac siz türklərə deyil, farslara yaraşar.

Bir dəfə də bu nitqi coğrafiya müəllimindən eşitmişdi Haşım. Onu yaş boğmuş, nəfəsi boğazına tıxanıb qalmışdı. Əlini qaldırıb ayağa qalxdı. Müəllim onun «qələt eləmişəm» deyəcəyini gözləyirmiş kimi qımışdı. Üzünə xoş bir ifadə verib, Xob, xob, (yaxşı, yaxşı) buyur, Haşım – dedi.

Haşım ayağa qalxıb mahnını oxumağa başlayanda sinifdəki uşaqlar da ona qoşuldular:

Qonaq gəlir, qoşa-qoşa,
Dərə-təpə aşa-aşa.
Səs düşübdür dağa-daşa,
Yaşa, Səttərxan, çox yaşa!

Gələn qonaq Səttərxandı,
O, qoç igid qəhrəmandı.
Vəliəhddən bac alandı,
Yaşa, Səttərxan, çox yaşa!..

Müəllim çubuğu masaya nə qədər döydüsə, uşaqların səsini kəsə bilmədi. Hirsindən ağzı köpüklənə-köpüklənə sinifdən çıxıb getdi. Mahnı yenə davam elədi:

Səttərxan demə, bir aslan,
Düşmənlərə uddurur qan.
El yolunda keçər candan,
Yaşa, Səttərxan, çox yaşa!..

Bu əhvalatı eşidəndə babası gülmüş, Haşımın saçını sığallayıb alnından öpmüşdü. Babası o vaxt Bakıdan gəlib inqilabı hərəkata yol göstərən, Arazın o tayındakı qardaşlarımızın təcrübəsini yayan Əli Səhlanlı ilə tanışlığından qürurla danışdıqca, Haşım bu qoca, çəlimsiz adamla fəxr edərdi. Yusif kişi İsfahan, Urmiya, Xoy, Zəncan tərəflərdə inqilabı iş aparmağın yollarını Əli Səhlanlıdan öyrənmişdi. Səttərxanın rəğbətini qazandığını danışarkən Haşımın sinəsi dəniz dalğaları kimi qabarırdı. O mübarizənin əsl mahiyyətini dərindən başa düşməsə də, babasının igid bir adam olduğundan qürur duyurdu. O atası Şərifi ancaq şəkillərdən tanımışdı. Haşım dünyaya gəlməmiş atasını elə bu balaca mənzildə öldürmüşdülər. Babasının uzun müddət həbsdə olması üzündən ailə bir parça çörəyə möhtac olmuşdu. Bu səbəbdən Şərif Zəncandakı işləmişdi. Çox çəkməmişdi ki, atasının kim olduğunu öyrənib elə yatdığı yerdə güllələmişdilər. Haşım meylini qoca babasına salmışdı. İndi bu balaca ev, həyət çox mətləblərdən xəbər verdiyi üçün ona doğma və əzizdi.

Haşım xəyallardan ayrılıb balaca xurma ağacının dibinə doğru sürüdü. Birdən-birə evə girməyə ürək eləmədi. İçəridən gələn insan hənirtisindən ayaq saxlayıb duruxdu. Canına qorxu qarışıq titrətmə yayıldı.

– Hə, demək məni qarşıyalanlar qaranlıqda içəridə durub gözləyirmişlər. Bu belə də olmalı idi. Geriyə yol yoxdur. Uşaqlar yenə başsız qaldı. Bu dəfə o gedər-gəlməzdə əbədi qalacam. Bu xəstəlik-

lə oradan sağ çıxmayacam. Nə etməli, demək, qismət belə imiş.

Haşım fikirləşə-fikirləşə qapını yavaşca itələyib içəri keçdi. Cibindən kibrit qutusunu çıxarıb yandırmaq istəyəndə:

– Dayan, Haşım, işığı yandırma, qardaş, – deyə kimsə dillən-di. Haşım əl saxladı, qaranlıqda ona tərəf gələnin Bayram olduğunu bilib toxtadı.

– Ay Allah saxlamış, bir dillənsənə, lap ürəyimi yedim ki... Dedim, bəlkə, o xane-xarabı axtaranlardı, burda gizlənib məni gözləyirlər.

– Ürəyini yemə, əvəzində al bu tikəni. Sənin üçün saxlamışdıq.

– Mənim üçün? Hardan bildiniz ki, acam? Necə olub bura düşmüsünüz?

– Sənin sığınacağını mən də bilməsəm, daha kim bilər? Bizim kimi qocalara peşəkar inqilabçı adını nahaq yerə verməyiblər ki?

– Birdən-birə evə gedə bilmədik. Hə, indi danış görək nə var, nə yox? Fatma xanım özünü sizin aranızda necə hiss eləyir. Yəqin darıxır? Darıxar da... Onun yerinə kim olsa, dəli olardı. Ona yaxşı xəbərimiz var. Yaman günün ömrü az olar. Tezliklə buradan uzaqlaşacağıq, – deyə Mürsəl dilləndi.

– Düz deyirsən, qardaş, o daş qəfəsdənsə, bax elə bu dağdadaşda gizlənmək, ya bir tərəfə qaçmaq üstündür. Zalımın zülmündən qaçıb can qurtarmaq da bir qoçaqlıqdı. Onun kimi cüvənazəni daş divarlar əjdaha kimi udub həzm eləyər. Onu o canavar cildli murdarın əlinə verməkdənsə, öldürmək daha yaxşı olar.

Mürsəl, Bayram danışdıqca Haşım susur, nə cavab verəcəyini bilmir, qırıla-qırıla qalırdı.

– Ə, elə bayaqdan biz danışırıq, heç səsin çıxmır? Ağzına su almısan nədi?

Haşım haçandan-haçana dilləndi:

– Fatmanı apardılar, dadaş.

– Hara, kim apardı? Tez ol, danış!

– Ay pir olmuş, bayaqdan bir kitablıq söz danışırıq, hələ indi deyirsən apardılar?

Mürsəl tapançaya əl atıb çölə sıçrayanda Bayram onu saxladı.

– Dayan, Mürsəl, qoy bizi axıra qədər başa salsın, sonra bir tədbir görərik.

– Bundan sonra nə tədbir-tədbir salmısan, Bayram! Pasportu

ona necə düzəltdiyimizi unutmusan? Bütün bunlar hədər getdi. Biz bir neçə saata sərhədə çatıb Əfqanıstana keçəcəydik. İndi xaliqin özü də onu qurtara bilməz. Sən ki o xarabaya düşüb görmüsən?

– Sən düz buyurursan, Mürsəl. İndi mənim və Haşımın vəziyyəti səninkindən qat-qat ağırdır. Bizim «İntiqam» dəstəsinin üzvlərinin hər birinin taleyi bir tükdən asılıdır. Kiçik bir səhv hər birimizi güdaza verə bilər. Bu öldürülən jandarmın əvəzini neçə həmvətənlərimizdən çıxacaqlar. Bizim də başımızı sığallamayacaqlar.

Haşıma işarə elədi, – İki ailəni saxlamaq üçün, bizim birimiz sağ qalmalıyıq. Odur ki, mən də səninlə gedirəm. Fatmanı axtarmaq çox asan olmayacaq. Onu siyasi dustaq adı ilə ya Təbrizə, ya Tehrana aparacaqlar. Əvvəlcə nəzmiyə idarələrindən başlamalıyıq. Söz yox ki, dindiriləcək, «günahı» sübut olunacaq, sonra həbsxanaya aparılacaq, tələsmə.

– Sən nə danışırsan, Bayram? Hansı siyasi dustaq möhüru vurulan adamın işinə ədalət məhkəməsi baxıb? Rəhbərimiz Seyid Cəfər Pişivariyə on il cəzanı ədalət məhkəməsi kəsmişdi? Ya elə aldadılıb vətənimizin şimalına aparılanda, qəsdən qəzaya salınanda ədalət məhkəməsi hökm çıxarmışdı? Yox, qardaş, yanılırsan. Bu qurluşdan ədalətmi gözləyirsən? Min zəhmətlə qurduğumuz milli hökumətin devrilməsi üçün neft yataqlarını ruslara bağışlayıb özünü Orta şərqin böyük «siyasətçisi» adlandıran baş nazir Əhməd Qavamül hökumətinin ədalətinəmi bel bağlayırsan? Sovet-İran sövdələşməsi nəticəsində Cənubi Azərbaycan yenə Tehran hökumətinin caynağına keçdi. Ondan bu qədər vaxt keçdiyinə baxmayaraq təqiblərdən evimizdə rahat yata bilmirik. İndi də sevgisinin, məhəbbətinin dalınca o taydan- bu taya gələn günahsız bir qadını cani kimi izləyib didərgin salıblar. Kim nə deyirdesin, mən bütün həyatımın bahasına olsa belə, nəzmiyyə, ədliyyə idarələrini, həbsxanaları axtarıb Fatmanı tapacam.

Mürsəl qapıdan çıxmaq istəyəndə, Bayram qolundan tutub saxladı.

– Dayan, haradan, nədən başlayacağımızı qərarlaşdıraq, sonra səhər açılmamış yola düşərik. Sənin dediklərinlə mən də tanışam. Bizim mübarizəmiz hələ çox çəkəcək. Azərabaycan torpaqlarını zəbt edib ona bir əyalət kimi ögey münasibət bəsləyən Teh-

ran hökuməti ilə savaşımız bundan sonra başlayacaq, qardaş. Biz geri çəkilməmişik ki, yağlı tikə kimi Azərbaycanı rahatca udsunlar. Onlar tarixdə dəfələrlə bunun şahidi olublar. Biz intiqam alaala mübarizəmizin yeni mərhələsinə keçəcəyik. Xəyanət heç vaxt bağışlanmır. Xalqımızın qatı düşməni ata və oğul Pəhləvilərin xəyanəti taxt-tacın kökündən devrilməsi ilə nəticələnəcək. Biz də o günü görəcəyik. Əfqanıstan Demokratik Respublikasının qurulması bizim mübarizəmizə yeni təkan verdi. Nəticənin necə olacağından asılı olmayaraq, biz bu inqilabda yaxından iştirak etməliyik. Xüsusən, dağ kəndlərində olan dayaq nöqtələrimizlə işi gücləndirməliyik, Bayram. Zəncan, Urmiya, Rəşd, Marağa, Həmədan, hətta Tehranda yaşayan azərbaycanlı türklərini birləşdirən təşkilatları Ərdəbil, Təbriz komitələri ətrafında sıx birləşdirməliyik. Qoy hökumət bizim varlığımızı hər zaman hiss eləsin. Varlığımızdan qorxsun. Tökdüyü qanlar gözünə dursun!

«Ev doğulub, ölmək üçündür, həyat yollardadır».
Məhəmməd Peyğəmbər (ə.s.)

Hava çoxdan qaralmışdı. Ay dağların zirvəsindən xeyli yuxarı qalxmışdı. Göyün kəhkaşanında irili-xırdalı ulduzlar oynaşır, zərif külək əsir, burula-burula dağların ətəyi ilə dolanıb dağ yuxarı yolla şütüyən qara şüşəli maşının azacıq açıq pəncərəsindən içəri dolur, qəribə bir uğultu yaradırdı. Maşın sürət götürdükcə hava daha da sərinləşir, insanın canına soyuq bir gizilti yayılırdı. Sükanın arxasında oturan sürücü yatmamaq üçün tez-tez saçlarını qarışdırır, dilinin ucunda nə isə mızıldanıb oxuyur, gecənin lal sükutunu pozurdu. Bir neçə saat bundan əvvəlki bürküdən əsər-əlamət qalmamışdı. Havanın nəfəsi soyumuşdu. Hardansa ağır-ağır gələn payızın nəfəsi duyulur, bu ovqat insanlarda, yollara əyilən çılpaq budaqlarda, kol-kosda, bir sözlə bütün təbiətdə hiss olunurdu. Dağ boyu nərildəyə-nərildəyə qalxan maşının motorundan yola yayılan isti havadan yol təngiyir, ağır-ağır nəfəs alır, gah da sinəsini əzib keçən insanların dərdindən, ah-naləsindən qubarlana-qubarlana susurdu.

Hər şey yoldan başlayır, yolda da qurtarır. Nahaq yerə ulu peyğəmbərimiz deməyib ki, ev doğulub ölmək üçün, yol isə ya-

şamaq üçündür. İnsan oğlu həyata gəldiyi gündən ruhunun kölgəsinə çevrilib, gözəgörünməzin, dərkolunmazın dərgahına doğru yolun axarını, səmtini axtarır. Özünə yol gəzir, yol seçir. Özü boyda sirli-sehirli dünya çarxını fırlada-fırlada öz qanunu ilə hərəyə bir yol açır, hər kəsi bir yolun yolçusu eləyir. Həyat yolu, mübarizə yolu, el yolu, Tanrı yolu, tale yolu… Hansını istəyirsən seç deyir. Hər kəsin taleini, qismətini alnının qırışlarında, ovcunun şırımlarında yazır. İndi bacarırsan alın yazısını dəyişdir, istədiyin səmtə, axara yönəlt. Heç kəs alın yazısını dəyişdirə bilmək qabiliyyətinə malik deyil. Olsa-olsa, onu öz ömrü qədər dəyişdirə bilər ki, onun da sonu ölümdür. Ölümdən o yanası mövcud deyil.

Əlləri, ayaqları qurbanlıq qoyun kimi bağlı maşının yük yerinə iki qat yerləşdirilən Fatma indi ölümün bir addımlıqda olduğunu başa düşür, onu gözləyən bu kabusun iti caynaqlarını boğazında hiss elədikcə boğulur, bağlı ayaqları ilə dilsiz dəmiri döyəcləyir, hayı-harayı heç yerə çatmırdı. Ağzına tıxanan neftli, mazutlu əsginin iyindən nəfəsi tıncıxır, ürəyi bulanırdı. Dəmirin arasındakı balaca işıq yerinə ağzını söykəyir, burnu ilə az da olsa nəfəs almaq ümidi ilə çabalayırdı. İnsan qəribə məxluqdur. Ölümün qara qorxusu bədəninə düşəndə bircə an yaşamaq üçün namümkünü də mümkün eləməyə çalışır. Suda boğulan saman çöpündən yapışan kimi. Amma Fatma heç bir şey qərarlaşdırıb, bir nəticəyə gələ bilmirdi: Yəqin qismət bu dar yerdə boğulub ölməkmiş deyə taleyi ilə barışmaqdan başqa çarə tapmırdı. Getdikcə düşünmək qabiliyyətini itirirdi. Maşın daşlı-kəsəkli yollarda onu atıb-tutur, çalxalayırdı. Əli-qolu keyiyir, get-gedə huşunu itirirmək dərəcəsinə gəlirdi.

İlahi, ölümün insanı divara dirədiyi o qısa müddətdə nələr anılmır, nələr düşünmürsən. Bütün həyatın kino lenti kimi gözündən gəlib keçir. Axı Fatma nə yaşamışdı ki? Necə deyərlər, nə yatdı ki, nə yuxu görsün? O heç vaxt ölüm haqqında düşünməzdi. Gəncliyin qaynar çağında o qədər düşünülməli məsələlər, xoş anlar, saatlar vardı ki.. Amma universitetdə oxuyanda bir dəfə fəlsəfədən onlara dərs deyən, öz fəlsəfi fikirləri ilə bəzən yorucu mühazirə oxuyan Sərxan müəllimə «ölüm nədir»? sualını vermişdi. Sərxan müəllimin üzücü danışığı tələbə yoldaşlarına xoş gəlmədiyi üçün yer-yerdən dillənənlər olmuşdu. Otaqda bir qarışıq-

lıq əmələ gəlmişdi. Sərxan müəllim ustalıqla tələbələri sakitləşdirib ələ almışdı. Otağa bir anlıq ölüm sükutu çökmüşdü. Ölümün özü kimi otaqda abı-hava da ağır idi. Sərxan müəllim xeyli susmuşdu. Pəncərənin qabağına gəlib uzun-uzadı çölə baxıb dillənmişdi:

– Ölüm-olum bu iki məfhum bir-birindən ayrılmazdı. Birindən digəri başlanır. Ölüm yeni olumun başlanğıcıdır. Ona görə də ölümlə həyat heç vaxt qurtarmır, uşaqlar. Bir şəxsin ölümü üzərində digərinin ömrü qurulur. Mənalı ömür ölümdən sonra da insanı yaşadır. O ki qaldı ölümün özünə, ölüm insanı soyundurur, yaxşının-pisin üstündən pərdəni götürür, nə əmələn yiyəsisənsə, gizli-aşkar günahlarını bütün çılpaqlığı ilə ortaya qoyur. Ölüm o qara əlləri ilə gözlərini qapayandan sonra əsl həqiqətlər, unudulan yaxşılıqlar, unudulmayan pisliklər xatırlanır. Çünki heç kəs sabah sənin üz-üzə gələcəyindən ehtiyatlanmır. Sənin yoxluğun başlayan gündən həyatda necə olmusansa, qiymətini eləcə də alırsan. O anlarda yalan, riya, ikiüzlülük olmaz. Haqq olar, həqiqət olar. Sənin haqqında deyilənlərə sevinə, etiraz eləyə və ya qürrələnə bilməzsən. Çünki sən artıq ölümün sükutuna qərq olmusan. Ölümün dəhşəti də bu lal-kar sükutdur. O sənin sükutundur. Ondan o yanası yoxdur.

– Bəs ruh nədir? Deyirlər ruh gözəgörünməzdir, Sadiq müəllim. – İkinci sualı verdim. O, məni yaxşı oxuyan tələbəsi kimi çox sevdiyindən, eynəyini gözündən çıxarıb masanın üstünə qoydu. Xeyli üzümə baxdı. Tək-tək çal düşən qaşları çatıldı. İmtahanda çətin suala cavab verən tələbə kimi ağır-ağır dilləndi.

– Mən deyərdim ki, bu, sənin düşündüyün kimi deyil. Ruh hər kəsin gördüyü işində, əməlində, yazıb-yaratdığında, xeyirxahlığında görünür. Ruha gözəgörünməz demək düzgün deyil. Əgər sən haqqa-ədalətə tapınıb el üçün, xalq üçün ömrünü sərf eləmisənsə, ruhun əbədi yaşayacaq, gözə görünəcək. Əgər əllərinlə bağ salıb bir ağac bitirmisənsə, bircə çiçək becərmisənsə səndən sonra ruhun orda görünəcək. Ölümdən o adamlar qorxur ki, ruhunu yaşatmadan, quru müqavva kimi köçüb həyatdan gedirlər. Özlərinə ikinci ömür qazana bilmirlər. İkinci ömrü az adam qazana bilir, qızım, – deyə üzümə xeyli baxdı. Çalışın o az adamların cərgəsində olasınız.

Bura gələndə Fatmanın müqəddəs vətən torpağına, onun övladlarına qəlbində böyüyüb pərvəriş tapan məhəbbəti nə qədər böyük və sonsuz idisə, vətənin taleyi ilə oynayanlara nifrəti də bir o qədər artmışdı. Fatmanın içində vətənin tarixi keçmişindən, qeyrətli oğullarının tale yolundan söhbət açan bir ömür kitabı boy atırdı. Ömür kitabına indi gördüyü haqsızlıqlardan bulaq kimi çağlayan göz yaşları qanla qarışıq süzülürdü. Yazacağı bu kitab onun eyni zamanda qırılmış taleyinin, didərgin günlərinin kitabı olmalıdır. Qasımsız, Cavadsız yaşadığı günlərin hər an, hər dəqiqə çəkdiyi əzablarının kitabı kimi içində göyərirdi. Bir gün, bir saat yaşamağa ümidi olmadığı halda Fatma yenə əlini Tanrının ətəyindən üzmür, huşunu itirənə qədər düşünür, bir möcüzə baş verəcəyinə, Məlikməmməd kimi onu quyudan dartıb çıxara biləcək bir qüvvəyə ümid bəsləyirdi.

Maşın elə hey gedir, dayanmaq bilmir, susuzluq, aclıq onu əldən salırdı. İçində bir dünya qırılıb sınmışdı Fatmanın. Lakin qəlbində elə bir nifrət məşəli yanmışdı ki, onu daha heç nəylə söndürmək olmazdı. Hətta onu öldürsəydilər, o məşəlin göylərə qalxan qırmızı dilləri torpağın altında da sönməzdi. Bu nifrət onu tamam başqa bir adama çevirmişdi indi. O daha əvvəlki Fatma deyildi. Sadiq müəllimin dediklərini indi-indi başa düşdüyü üçün içində bir cəsarət, inadkarlıq, qürur baş qaldırmışdı. Ölümdən qorxmağın özü də bir cəsarətsizlikdir. Fatma yenə huşunu itirdi. Daş parçası kimi maşının yük yerində düşüb qaldı.

Maşın dağ yuxarı irəlilədikcə, arxa oturacaqda oturanların ədəbsiz zarafatları, əttökən gülüşləri sürücünü hövsələdən çıxarırdı. Sürücü gah siqaret çəkir, gah başını pəncərədən çölə çıxarır, soyuq havanı ciyərlərinə çəkir, gah da öz-özünə düşünürdü.

– Bu qansız, ürəksizlərə bax ki bir qərib, kimsəsiz qadını yük yerinə əl-ayağı bağlı soxub özləri bayram eləyirlər. Nə bu maşını yarğanların birinə aşırıb cəhənnəmə vasil eləyərəm bunları? Bu murdar hayın səsini eşidəndə beynimdə hər şey qarışır, başım dumanlanır, ürəyim az qala yerindən çıxır, əlimdən xəta çıxmasın deyə özümü zorla saxlayıram. O bədbəxti də nəzmiyyə idarəsinə təhvil verdilər (Fatmaya kömək eləyən oğlanı nəzərdə tuturdu). Yenə yazıq qızı, bəlkə, bu canavarlardan o qoruyardı. İndi mən nə edim, Allah? Özün adilsən, zülmü görə-görə susursan. Bu yer

üzündə yaşamaq niyə bizə zillətə dönüb? Təzəcə azad nəfəs almağa başlamışdıq. Həyatımızı cəhənnəmə döndəriblər. Bu yazığın günahı nədir, görəsən?

Arxa oturacaqda baş-başa verib yatanların xorultusu adamı lap iyrəndirirdi. Səhərə az qalırdı. Deyilən yerə çatmağa da elə bir uzun yol qalmamışdı. Sürücünün başından sürətlə bir fikir keçdi. Bu yolları beş barmağı kimi tanıyırdı. Bir az yuxarıda, kəndin girəcəyində kiçik yarğanın başına dolanan yolun olduğunu da bilirdi. Bu fikir hələ bir neçə saat bundan əvvəl onun ağlına gəlmişdi. Karapet qoltuq cibindən çıxardığı balaca, yastı visgi şüşəsini başına çəkib yanındakına uzadanda qərar qəbul edirmiş kimi, fikrini qətiləşdirmişdi sürücü.

– Ara, içax o adamların sağlığına ki, əlahəzrət şaxımızın taxtını bu gədalardan bizim kimi qoruyurlar. Bax massab haqqı, bütün həyatımı bu yolda qoymuşam. Bu quşcığazı sağ-salamat çatdırıb təhvil versəydim, dərdim olmazdı. Düzünü bilmək istəsən, mən onu əlimdən vermək istəməzdim. Onunla bir az mazalanib bilirsən də hara verərdim. O gözəlliyə çoxlu pul verərdilər. İndi nə etmax olar, hökumətlə kəllə-kəlləyə gəlmax olmur. Yanındakı dili topuq vura-vura dilləndi:

– Qardaş, gəl içək, sonra nə edəcəyimizi fikirləşərik.

– Səndə baş var ki, fikirləşəsən? Baş məndəydi ki, o xoruzlananın silahını əlindən necə aldım. Azı üç-beş il yatacaq. Namus, qeyrət deyə-deyə özünü qoçaq göstərməyə çalışırdı. Güc hər yerdə işləmir, qardaş. Bıclıx, hiylə öz işini gücdən, qüvvədən qabaq görür. Elə məqamda adamı tələyə salır ki, heç özü də bilmir başına gələnləri kim elədi. Bəla hardan gəldi, necə oldu? Bu musurmanların bədbəxtlikləri ondadır ki, gec ayılırlar. Qatar gedir, dalıyca yüyürürlər.

Karapetin həmsöhbəti çoxdan yuxuya getmişdi. Bəlkə, onun dediklərini heç eşitmirdi. Sürücünün hirsindən, necə deyərlər, dişi boğazını kəsirdi. Çox keçmədi ki, hər ikisinin xorultusu maşını bürüdü. Sürücü qazı get-gedə azaltdı. Elə sürətlə gedirdi ki, gendən baxan onun dayandığını zənn edirdi. Arxadakılardan səssəmir çıxmırdı. Elə bil əbədilik yuxuya getmişdilər. Maşın yarğana çatıb xırıltı ilə dayandı. Sürücü maşından düşməyə ürək eləmirdi. Birdən bu alçaq dediyi kimi özünü tülkülüyə vurar? Bax

onda evim yıxılar. Bir-iki dəfə Karapet deyə səslədi. İçəridən səs çıxmadı. Sürücü kabinədən çıxıb, yük yerini açdı. Fatmanın rəngi ölü kimi sapsarı idi. Dodaqları quruyub yapışmışdı. Tez Fatmanın göz qapağını qaldırdı, əlini boğazının yan tərəfinə aparıb sağ olub-olmadığını yoxladı. Sanki Fatmada həyat əlaməti qalmamışdı. Sürücü cəld onun ağzına tıxanan əsgini çıxardıb əl-ayağını açdı. Güclə sürüyüb maşından çıxartdı. Su qabından ağzına bir neçə damcı su tökdü. Əl-ayağını ovxaladı. Üzünə su çilədi. Fatma yavaş-yavaş özünə gəlib başını qaldırdı. Sürücü sevindi. Özünün boynu dərili geyməsini gətirib tir-tir əsən Fatmanın üstünə atdı. Çiyinlərindən tutub silkələdi. Fatma demək olar ki, ayılmışdı. Amma nə baş verdiyini anlaya bilmirdi. Onu türməyə təhvil verdiklərini güman eləsə də, ətrafına göz gəzdirib heç nə başa düşmürdü. Sürücü tələsə-tələsə:

– Fatma bacı, fikirləşməyin yeri deyil. Dağın döşündə o işıq gələn yerdə balaca bir kənd var. Çalış özünü ora çatdır. Sonrası Allah kərimdi. Görüm bu əclaflarla nə eləyə bilərəm.

– Yox, yox, nə danışırsan, mənə görə öz həyatını təhlükəyə salarsan. Mən buna razı ola bilmərəm. Qoy hara aparırlar- aparsınlar. Onsuz da mən dəvəsi ölmüş ərəb kimiyəm. Getməyə nə yerim, nə də sığınmağa bir simsarım var. Məndən ötrü belə fədakarlıq etməyə, özünü güdaza verməyə dəyməz, qardaş. Mən artıq evimi, ailəmi, məhəbbətimi itirmişəm. Mən təhqir olunmuş bir qadın kimi ürəyimdə hər şeylə vidalaşmışam. Həyatla, arzularımla... İndi sonu görünməyən bu yarğana atılıb, birdəfəlik dünyanın əzablarından qurtarmağı üstün tutardım. Ərimin, oğlumun namusunu tapdalamaq istəyən bu həşaratların əlinə düşməkdənsə, ölüm yaxşıdır.

Sürücü heyrətlə onun qolundan tutub silkələdi:

– Sən hələ cavansan, ölümdən danışmaq çox tezdir, Fatma bacı. Mənə qulaq as. Onlar ayılmamış tez aradan çıx! Kənd camaatı çox hörmətcildi. Sənə hər kəs sığınacaq verər. Sən o türmənin məşəqqətləri ilə tanış deyilsən, bacı. Dostların səni axtarıb taparlar. Buradan Əfqanıstana keçmək çox asandı. Xeyirxah insanlardan xali deyil dünya. Al, bu üst geyimimi, cibində də bir az pul var. Tez ol, vaxta az qalıb. İndicə səhər açılacaq. Yük yerini açıq qoyacam. Onlar məndən şübhələnməzlər.

Fatma könülsüz-könülsüz kürkü alıb, çiyninə salanda, maşın xeyli uzaqlaşmışdı. Sürücünün adını soruşmadığına heyifsiləndi.

Fatma yolu adlayıb ağaclığa keçdi. Ayaqları sözünə baxmırdı. Gecə zülmət qaranlıq idi. Bir tərəfdən də təkliyin xofu üstünü elə almışdı ki, Fatma kolun dibinə çöküb xeyli ağladı. Paltarı nazik olduğundan bədəni tir-tir əsirdi. Soyuqdan, ya qorxudanmı özü də bilmirdi. Deyirlər, insan ac olanda, bir də yuxusuzluqdan üşüyər. Bir tərəfdən də aclıq onu əldən salmışdı. Sürücünün verdiyi boynu dərili kürkün yaxasını bərk-bərk bağladı. Canına istilik, hərarət gəldi. Əlini yan cibinə salıb oradakı kiçik bü. Burda o mənə gərək deyil hələ ki... Digər ciblərini yoxladı. Kiçik bir şor dürməyi elə bil ona dünya bağışladı. Çörəyi acgözlkülə yedi, gözlərinə elə bil işıq gəldi. Sağ ol, qardaş! Deyə tanımadığı o adama minnətdarlığını bildirdi. Kolluqda xeyli oturub dincini aldı. Səhərin soyuğu alatoranlıqda canına-qanına işləyəndə sübh uzaqdan xəfif buxar kimi ağarırdı. Kolların arasından keçən cığırı, yolu seçmək olurdu. O hansı səmtə getməyi qərarlaşdıra bilmirdi. Sürücünün dediyi kimi qarşı kənddəki işığı nişan tutub gedirdi. Birdən üzü təzə-təzə zəif buzla örtülən dağ çayı qabağına çıxdı. Fatma duruxdu. Çayı adlayıb kəndə getmək üçün aşağı-yuxarı xeyli var-gəl elədi. Çay çox dərin deyildi. Bəzən suyun dayaz olduğu yerlərdə daşlar da görünürdü. Fatma kəndlərini, nənəsini xatırladı. İstədi bir ağız nənəsini çağıra, səsini qısdı. Harada olduğunu xatırlayıb susdu. Yox, belə həyat heç kimə, heç nəyə lazım deyil deyə qəti qərar verdi. Elə bu dağ çayının qoynuna atılıb hər şeyə, hər nəyə son qoymaq üçün özünü hazırladı. Bir az çay aşağı gedib münasib yer axtardı.

Onsuz da məni tutacaqlar. Mən uzun müddət burada yaşaya bilməyəcəm. Gərək heç sürücüyə qulaq asıb, razılaşmayaydım.

Fatma tərəddüd içində xeyli gəzişdi.

Cana qəsd eləmək nə qədər çətinmiş. Nənəm deyərdi ki, Tanrının verdiyi canı özü də geri ala bilər. İntihar ən böyük günah sayılır. Nənəmin dediyi düz olsa da, mən bu yolu getməliyəm. Bu çıxılmaz vəziyyətdən məni ancaq o qurtara bilər. Sən mənə gücqüvvət, cəsarət ver, ey Yaradan! Mən cəsarətsiz deyiləm. Bəs nədən tərəddüd edirəm? Niyə bəs cəsarətim çatıb bu sərgərdan, məkansız, məskənsiz varlığı suların qoynuna atıb onu əzab-

əziyyətdən qurtara bilmirəm? Məni tutub saxlayan nədir, ey bizi, küllü aləmi yoxdan xəlq eləyən?

Fatma bir neçə addım da irəli gəldi. Çayın lap qıjıltı ilə axan səmtində dayandı. Çayın qalxıb-yenən dalğaları sükutla, aram-aram sahili yalayır, gah saçlarını suya sallayan söyüdlərin tellərini sığallayır, gah ətrafında baş verənlərə məhəl qoymadan laqeydcəsinə axıb gedirdi. Dağların göz yaşı olan billur kimi saf, dupduru sularını nahaq qana salmağın özü günah deyilmi? Bəs nə edim? Çox çəkməz ki, məni axtara-axtara gəlib buralara çıxarlar. Onda nə olsun? Bir çıxış yolu görmürəm axı?

Fatma çayın qırağında elə dayanmışdı ki, bir göz qırpımında suya düşər, bununla da hər şey qurtarıb gedərdi. Əgər arxadan bir ağır əl onun çiynindən yapışmasaydı. Fatma geri döndü. İyirmi-iyirmi beş yaşlarında qarabuğdayı, papağının altından qara qıvrım telləri görünən bir cavanı görüb diksinən kimi oldu. Az qala üz-üzə dayandılar. Üzü açıq, cırıq çarşabı çiyinlərindən sallanan bu qadın oğlanı həm çaşdırmış, həm də təəccübləndirmişdi. Oğlan ilk baxışdan onun buraların adamı olmadığını başa düşmüşdü.

Bu biçarə nə günah işlədib ki, özünü öldürmək istəyir? Haradan gəlib buralara çıxıb?

Adətən bu kəndlər mərkəzdən kənərda əl-ayaq dəyməyən yerdə olduğuna görə gəlib-getmək çətin olur. Həm də payız qurtarmamış burada qış düşür. Əl-ayaq yoldan-irizdən yığılır. Qış azuqəsini yaydan toplayan əhali bir növü evlərinə çəkilir, qışın sərt havasından qorunmağa çalışırlar. Əli-ayağı yer tutan cavanlar yaxın şəhərlərdə çörək pulu qazanmaq üçün işləyir, ildə bir-iki dəfə valideynlərinə baş çəkməyə gəlirlər. Oğlan əlindəki yol çantasını yerə qoyub soyuqdan gömgöy göyərən Fatmanı yoğun ağacın gövdəsinə tərəf çəkdi. Fatmanın iri qara gözlərində yaş gilələndi. Gözlərini geniş açıb vahimə içində oğlanı başdan-ayağa süzdü. Sonra geri çəkilib sinəsindən itələdi. Oğlan cəsarətlə dilləndi:

– Sən kimsən, niyə özünə qəsd eləmək istəyirsən, bacı? –Fatma səsə geri döndü. Oğlanın mülayim danışığı, şirin ləhcəsi onu bir qədər ürəkləndirdi. İtələdiyinə peşiman oldu. Fatmanın dili söz tutmurdu. Bir də bu kimsəsiz yerdə onun haradan peyda olduğu

onu o qədər təşvişə salmışdı ki, özünü itirmişdi. Ürəyində təəssüf hissimi, minnətdarlıqmı baş qaldırdığını anlaya bilmirdi. Odur ki, onu ölümün əlindən alan bu cavanın nə sualına cavab verir, nə də minnətdarlığını bildirirdi. Onlar lal-kar xeyli baxışdılar. Oğlan bu vəziyyətdə ondan heç bir cavab ala bilməyəcəyini hiss edib artıq sual vermədi. Onun dillənəcəyini gözləyib susdu.

– Bizim biçarə qadınlarımız düşdükləri bədbəxtlikdən çıxmağın yolunu özlərinə qəsd eləməkdə görürlər. Bu ancaq acizlərin işidir. Acizlik insanı məhv edir, axırda da günaha batırır.

Onlar bir xeyli üz-üzə dayandılar. Bütün başına gələnləri əzəldən axıra qədər danışmaqdan başqa Fatmanın əlacı qalmamışdı. Oğlan onu axıracan dinləyib xeyli fikrə getdi. Nə deyəcəyini uzun-uzadı götür-qoy elədi. Onun yerə dikilmiş gözlərindən leysan kimi yaş ələnib sinəsini isladırdı. O, başını qaldırmasa da, oğlan onun gözlərinin dərinliyində hansısa toxunulmaz bir kədərin, yandırıcı bir həsrətin yuva saldığına əmin idi. Bu kədərin səbəbi nə idi? Məhəbbət naminə bu qədər əzab-əziyyətə dözmək hər adamın işi deyil. Bir də nə bilmək olar, bəlkə, cəmi bircə saat gördüyü bu qadını bu hala salıb, sonra da intihara sürükləyən daha ciddi səbəblər var? O bilmirdi ki, qadını qınasın, ya haqq qazandırsın. Oğlanın beyni sürətlə işləyir, hey ölçüb-biçir, onun haqlımı-haqsızmı olduğunu müəyyən etməyə çalışırdı. Çox mürəkkəb məsələdi. Həyat özü onun nəzərində bir dənizə bənzəyir. O dənizin fırtınalı qoynuna düşən məhv ola da bilər, bir təhər sahilə çata da bilər. Tutduğu yolun səmtindən, yönündən asılı olaraq yaxşı və ya pis adama da çevrilər. Həyatın sərt qanunları mərdi qova-qova namərd eləyə də bilər. Su kimi axan aylar-illər insanın zahirində deyil, onun daxili aləmində, hissində, duyğularında da dəyişiklik eləyə bilər. Onun məhəbbətini, nifrətini yonub parçalayar və ya təzələyib durulda bilər. Su bir yerdə durmadığı kimi, insan ömrü də dəyişir, başqalaşır, yad doğmaya, doğmalar yada çevrilir, nə isə ölüb gedir, nə isə yenidən həyata qayıdır. Bütün bu təlatümlərdən keçə bilənlər yaşayır, keçə bilməyənlərsə hissinin quluna, köləsinə çevrilib məhv olurlar. Bu az yaşımda nələr görməmişəm? Anam öləndən sonra başıma gələnlərdən bir kitab bağlamaq olar. Mən özüm neçə dəfə bu vəziyyətə düşmüşəm. Dostlar sağ olsunlar ki, mənim yenidən yaşamağım

üçün əllərindən gələni elədilər. İndi bu dərdli qadına nəyin bahasına olursa-olsun, dostlarla məsləşətləşib, kömək eləməliyəm.

Amma onun qəlbindəki daha incə mətləblərə toxunacağından ehtiyatlanıb qadının sakitləşəcəyini gözlədi Etibar. Özünün qəm dolu keçmişini xatırlayıb ürəyi sıxıldı.

Səhər demək olar ki, açılmışdı. Günəşin sarımtıl şüaları ağacların, kolların üstündə gəzir, axan çayın sularına düşüb parıldayırdı. Ağır payız sükutu insanda kədər, hüzn dolu əhvalruhiyyə yaradırdı. Adama elə gəlirdi ki, bir vaxt insan ömrü də bax o ayaq altda əzilib, torpağa qovuşan yarpaq kimi ölüm sükutuna qərq olacaq. Bu sənin sükutun olacaq, hər şey onunla bitəcək. Ölüm sükutunun qoynundan bir də geri qayıda bilməyəcəyini bilə-bilə ora atılmaq ağılsızlıqdır.

Bir vaxtlar mənim də kədər dolu göz yaşlarından ibarət bir keçmişim var idi. Mən o keçmişimlə hissiz, duyğusuz, məhəbbətsiz yaşayırdım. Mənim nə sabahım, nə gələcəyim var idi. Həyatdan, dünyadan ümidsiz olan bir şəxsin qəlbi çətin ki təzədən dirilə, gözləri nurla dola. Lakin anlaşılmaz hisslərin əlində yanıb kül olan vaxt qolumdan tutanlar içimdə nə isə baş açılmaz qarışıq bir dünya yaratdı. Məni özümə qaytardı. Atalı yetim idim. Mənim doğma, munis bir adamım olmasa da, düşdüyüm şəhər həyatı, dostlarımla haqq işi uğrunda apardığım mübarizə gözlərimi açdı, dünya gözlərimdə gözəlləşməyə, daha dolğun məna kəsb etməyə başladı. Keçmişimin acısını, nakam məhəbbətimi yad eləyib göz yaşı tökmürdüm. Üzüm yavaş-yavaş gülməyə başlayırdı. Elə bil həyatı, dünyanı bir kitab kimi oxuyurdum. Keçmişimi unuda-unuda ürəyimdə həyat sevgisi deyilən anlaşılmaz, lakin xoş bir duyğu yarandığını hiss eləyirdim. On səkkiz yaşlı bir gəncin ürəyini qoyub getdiyi bu el-obaya qayıdışı da anlaşılmaz idi. Hara, kimin yanına getdiyini özü də bilmirdi. Lakin yaşadığı yurd, hər qarışında ayaq izləri qalan torpaq onu özünə çəkirdi. Ögey bacı-qardaşlarının içində özünü yad hesab eləyirdi. Hansı duyğu onu səkkiz ildən sonra bura qaytarmışdı, bilmirdi. Doğma övladını didərgin salan bir ataya övlad münasibətimi, yoxsa onun sinəsinə dağ çəkən köhnə xatirələrimi? Özü də bilmirdi. Səhərin soyuq havası üzünə dəyib Etibarı acılı-şirinli xatirələrdən, sonsuz düşüncələrdən ayıltdı.

Hələ də başını aşağı əyib göz yaşını leysan ələyən Fatmaya sarı döndü:

– O gözlərinə heyifin gəlsin, xanım, ağlama! Başına gələnlərdən başa düşürəm ki, möhkəm adamsan. Ağlamaq insanı acizləşdirir, kiçildir. Bir halda ki, bu qədər əzablara dözmüsən, kiçilməyə dəyməz.

Tanımadığı bu adamın səsi elə bil Fatmanı silkələdi, ayıltdı. Ürəyində elə bir fikir yarandı ki, başının üstündəki oğlan Allahtaala tərəfindən onu dözülməz həyatın işgəncələrindən qurtarmaq üçün göndərilən bir məxluqdur. Səsində qəribə bir doğmalıq, mehribanlıq duydu. Elə bildi ki, möcuzə baş verdi. Bu doğma, yaxın adamı ağır gününü hiss eləyib dadına çatmaq üçün mələklər göndərib.

Fatma kirpiklərini yerdən qaldırmadan dilləndi:

– Sağ ol, qardaş! Amma, nahaq yerə... – Səsi qırıldı.

Fatma sözü necə dediyini özü də bilmədi. Ayağına dolaşan çarşabını çəkib düzəltmək istədi, bacarmadı. Çünki çarşabı cırılıb yarısı maşının yük yerində qalmışdı. Yarı çarşabla həm başını, həm də əndamını örtmək mümkün deyildi. Bir tərəfin örtəndə, o biri tərəfi açıq qalırdı. Fatmanın çox cəhd elədiyini görən oğlan, mehribanlıqla onu çökdüyü yaş torpağın üstündən qaldırmaq üçün əlini uzatdı.

– Lazım deyil, xanım, siz çarşabsız daha gözəl görünürsünüz. Bu çarşablar ana-bacılarımızın ay kimi aydın, su kimi duru gözlərini, mələk kimi məsum sifətlərini gizləmək üçün uydurulub. Daha bilməyiblər ki, gözəllik görünmək üçündür. Görünməyən gözəllik kimə və nəyə gərəkdir? Göz məhəbbət yuvası, insanın ürəyinin güzgüzüdür. Bir baxışda nə qədər sirr, kin-küdurət, etiraz, üsyan, sevgi, şəfqət yatır. Onu bilə-bilə gözləri o baxışdan məhrum eləyib bu qara çadra altında dustaq qoymaq kimin ağlına gəlib, bilinmir.

Bu sözlərdən ürəyində qəribə bir ləzzət duyan Fatma həm də təəccüblənmişdi. Lal kimi dinib-danışmır, bu qəfil qonaqda bir yaxınlıqla bərabər qəribəlik duyurdu. Amma səsini çıxarmadan təslimçilik görkəmi alıb onun qarşısında heykəl kimi dayanmışdı. Oğlan bir az da ürəklənib:

– Bayaqdan bəri danışırıq, amma adınızı da soruşmuram.

Bax, bu mənim nöqsanımdır. Adım Etibardı, – əlini irəli uzatdı.

– Mənim də adım Fatmadır.

O, soyuqdan gömgöy olmuş əlini titrəyə-titrəyə çarşabdan çıxarıb irəli uzatdı. Ocaqda əli yanmış adam kimi tez də geri çəkdi:

– Mən nə etdim. İndi o mənim haqqımda nə düşünəcək? Eşitmişəm ki, bunların adətincə qadının kişi ilə əl verib görüşməsi yasaqdı. Bəs onda o özü niyə mənə əl uzatdı? Bəlkə, məni o qadınlardan hesab elədi?... Yox, yox, bu ola bilməz. Mənə bundan ağır nə ola bilər. Gərək mən əl verməyəydim.

Fatmaya elə gəldi ki, yanaqları od kimi yanır. Sifətinin qızarıb, pörtdüyünü oğlan da görürdü. Əlini üzünə, alnına sürtdü. Özündə bir qəribəlik hiss elədi. Düzünü desək, Etibarın danışığı elə ilk dəqiqədən Fatmanı özünə cəlb eləmişdi. Onda bir qeyriadilik, əzab-əziyyət, qəm-kədər dolu qəribəlik duymuşdu. Etibar bu üç-dörd ildə tanıdığı adamların heç birinə bənzəmirdi. Sözləri xüsusi ləhçə ilə tələffüz eləyir, fars sözlərini az işlədir, kəlmələri qırıq-qırıq tapırdı. Tez-tez duruxur, danışığında qısa fasilələr yaranırdı. Onunla danışmaq Fatmanın ürəyincə olsa da, bir söz soruşmağa ürək eləmirdi. Fatmanın devikib tez-tez dörd yana boylanmasından narahat olan Etibar sanki yuxudan ayıldı. Burda vaxt itirdiklərinə heyfsləndi.

– Qalx, Fatma bacı, burada durmaq qorxuludur. Bizi görən olar. Şosse yolu bura çox yaxındı. Sənin dalınca qayıda bilərlər. Buradan bir az aşağıda kiçik taxta körpü var. Kəndə keçib bir şey fikirləşərik.

– Məni bu görkəmdə sənin yanında görən qohum-əqrəbaların nə düşünərlər? Mənə körpünü göstər, sonra necə eləyəcəm, hara gedəcəm özüm qərarlaşdırım. Məndən ötrü başın ağraya bilər. Mənim alnıma «şürəvi cəsusu» kimi qondarma bir möhür vurulub. Yetən məni qızıl yumurta gətirən quş kimi ovlamaq istəyir. Səni bu işlərə qarışdırmaq istəmirəm. Ərdəbildən bura çatana qədər yolda mənə kömək eləmək istəyənlər çox olub. Bir nəticə alınmayıb. Hətta sənəd düzəldib məni Əfqanıstana da keçirmək istədilər. Gedib, geri qayıtmadılar. Onlar iki, ya üç günə qayıtmalı idilər. Bir həftəyə yaxındır ki, gözləyirəm. İndi də gördüyün kimi burdayam. Nə bilmək olar, bəlkə də, başlarında bir qəzəvüqədər var. İndi nə desən, gözləmək olar. Mürsəl elə sözübütöv

oğlan idi ki, onun haqqında başqa cürə düşünməyə utanıram. Məni qaçırmaq üçün neçə dəfə həyatını təhlükəyə atdı. Sağ olsun belə vətən oğulları. Nə eləsin ki, mənim taleyim belə yazılıb. Yazıya pozu yoxdur.

Etibar diksinən kimi oldu. Cəld Fatmaya sarı döndü:

– Necə, nə idi o adamın adı?

– Mürsəl idi, sənə nə olub? Onu tanıyırsan bəlkə?

– Necə tanımıram? O, bizim Ərdəbildəki gizli «İntiqam məhkəməsi» təşkilatının üzvlərindən biridir. Canlara dəyən oğlandı. Məni də təşkilata üzvlüyə o yazıb. Mürsəl qayıtmağa söz veribsə, demək qayıdacaq. Sən məni çox sevindirdin, Fatma. İndi mən təxminən hara gedəcəyimizi bilirəm. Təki körpüdən keçdiyimiz vaxt bizi bir tanıyan olmasın. Atama, qardaşlarıma xəbər verə bilərlər.

– Bəs sən onları görmək üçün gəlməmişdin, səni görəcəklərindən niyə ehtiyat eləyirsən?

– Yox, Fatma, məni bura xüsusi tapşırıqla göndəriblər. Qardaşlarımı yox, desəm ki, atamı görmək belə istəmirəm, inanmayacaqsan.

Bunu başqası desə, bəlkə, mən də inanmazdım. Doğma ataya da belə nifrət eləyərlər? – Deyərdim.

– Təəssüflər olsun ki, bu belədir. Bu mənim taleyimdir, alın yazımdır. Tale yazanı pozmaq olmur.

Fatma gözücü Etibarın bulud kimi qaralan üzünə baxdı, amma heç nə soruşmadı. Çayın o tayına keçib ayaq saxladılar. Üzüzə, göz-gözə dayandılar. Etibar susurdu. Onun susmağında da bir müəmma hiss eləyirdi Fatma. İri qonur gözlərini dolandırıb kənd yuxarı baxdı. Xeyli dinməz-söylənməz dayandı. Gözləri yol çəkirdi. Fatma o gözlərdə elə böyük, dərin bir həsrət gördü ki, onu heç nəylə silmək olmazdı. Etibarın ürəyi elə bil gözlərində yanırdı, qəlbinin yanğısı bəbəklərində şölələnirdi. Səssiz-səmirsiz kirpiklərindən asılan göz yaşlarını gizlətməyə çalışsa da, gözləri onu satırdı. Sanki lal olmuşdu. Elə bil içində közərə-közərə tüstülənən bir ocaq var idi. O ocağın alovu indicə dilim-dilim şahə qalxacaq, özünü də, ətrafı da alışdırıb yandıracaqdı.

Fatma o yanar ocağa toxunmamaq üçün dinmirdi. Onun xəyaldan ayılıb qayıdacağını gözləyirdi. Fatma o gözlərə baxa-baxa

ürəyində hazırladığı ömür kitabına yeni, qatı açılmamış bir səhifə yazırdı. İçində qərib, anlaşılmaz bir duyğu yarandığını hiss eləyib çabalayırdı.

– Dərdsiz insan yoxmuş, İlahi. Nahaq deməyiblər ki, dərd insanı birləşdirir, yaxınlaşdırır, doğmalaşdırır. Sevinc uzaqlaşdırır. Dərdli insanlar bir-birini dərd dili ilə başa düşürlər, dilləndirib danışdırırlar. Dərdi dərdlə ovundurur, dərdi dərdlə kiridirlər. İndi onu mən necə kiridim, necə ovudum? Axı dərdini bilmirəm.

Fatma onun dərdindən hali olmasa da, ürəyinin lap dərinliyində qövr eləyən yarası olduğuna əmin idi. O indi öz dərdini, bura niyə gəldiyini, onu hansı bəlalar gözlədiyini də unutmuşdu. Fatma onun qulağının dalında səliqə ilə yığılan saçlarındakı ağ tüklərin vaxtsız görünməyinin səbəbsiz olmadığına əmin idi.

Etibar gözlərini kəndin baş tərəfindəki ikimərtəbəli, darvazası göy boyalı evdən çəkib, yoluna davam elədi. Elə bil ətrafında heç kəs yox idi. O, tək-tənha idi. Dalınca addımlayan Fatmanı da görmürdü. Fatma bundan incimirdi, itaətkar kimi dalınca addımlayırdı. Onun başqa çıxış yolu da yox idi. Getdikləri yollar o qədər əyri-üyrü, daşların arasından, kiçik qayaların yanından keçirdi ki, ətrafda bir inni-cinni görünmürdü. Bu Fatmanı sevindirsə də, Etibarın birdən-birə sükutu, hətta onun varlığını unutması ona toxunurdu.

Gözlənilmədən Etibar geri dönüb Fatmanı at yəhərinə bənzəyən bir qayanın dalına çəkdi. Şəhadət barmağını dodaqlarına yaxınlaşdırmaqla səsini çıxarma demək istəyirdi. Onlar qayanın dalında çox gözləmədilər. Qalxıb yollarına davam elədilər. Fatma hara gedirik demək istəyirdi ki, Etibar onu qabaqladı:

– Gördüyün o quzu otaran uşaq mənim qardaşım idi, Fatma. Mən kənddən çıxanda o hələ dünyaya gəlməmişdi. Mən onu tanıyanda cəmi üç yaşı var idi. Böyük oğlan olub, maşallah. Boybuxun atıb, lap kişiləşib.

– İndi onları görmədənmi çıxıb gedəcəksən? – Fatma qəflətən dilləndi.

O, xeyli duruxdu. Yenə iri, qonur gözləri doldu, dodaqları titrədi. Bəlkə də, hər yetənə ürək açıb, sirr vermək istəmirdi. Fatma onu az qala divara dirəmişdi. Bəlkə, ürəyinin yaralı yerinə toxunmuşdu? Nə isə onu çalxalayıb tərpətmişdi. Söhbətarası başa

düşdü ki, əsli şimali Azərbaycandandı. Anası Qarabağlı qızı, atası Təbrizdəndir. Sərhədlər açılana qədər Bakıda neft buruqlarında işləyirmiş atası.

Etibar Fatmanın marağını duyub söhbətini kəsmədi:

– Milli demokratik hökumət qurulanda bizi də götürüb Təbrizə gəldi, – deyə dərindən köks ötürdü– Mən onda birinci sinifdə oxuyurdum. Bakıdakı evimiz, həyətimiz yadımda çox qaranlıq qalıb. Bir həyətdə neçə qonşu var idi. Nənəm, babam sağ idilər. Biz onların evində olurduq. Anam atamı çox sevirdi. Atam qaraqabaq, sərt, kobud bir adam idi. Babamın, nənəmin qayğılarına rəğmən anamı çox incidirdi. Anam onun bütün şıltaqlığına dözürdü. Çox çəkmədi ki, babam rəhmətə getdi. Nənəm evi satıb başqa yerdə ev almaq istəyirdi. Min doqquz yüz qırx beşinci ildə, sərhədlər açılanda atam öz yurduna qayıtmaq istədi. Buna çox israr elədikdə, nənəm nə pulu vardısa, onun əlindən alıb dedi:

– İndi hara istəyirsən get! Mən nə nəvəmi, nə də qızımı səninlə getməyə qoymayacam. Yeganə övladımı gözümdən kənara qoya bilmərəm.

Nənəm bir neçə günlüyə öz qohumlarına baş çəkmək üçün hara isə getmişdi. Atam nənəmin evdə olmadığından istifadə edib nənəmin ev pulunu, anamı və məni götürüb bura gətirdi. Üstəlik də atam, nənəm bizə gün-dirrik vermirdilər. Anamı ağır işlərdə işlədir, məni döyüb yamanlayırdılar. Anam qəflətən xəstələndi. Ona heç bir dava-dərman almırdılar. Mənim yalvarışımdan sonra atam həkim çağırdı. Həkim başını bulaya-bulaya yan otağa keçib atamı da çağırdı. Anamın çox yaşamayacağını dedilər qulağımla eşitdim. Anamın yaşadığı bir neçə ay ərzində ona məndən başqa qulluq eləyən yox idi. Bir gün vəziyyəti ağırlaşdı. Məni yanına çağırdı. Sinəsi ağır-ağır qalxıb-enir, təngənəfəslikdən səsi güclə eşidilirdi. Əlini qaldırıb boynuma saldı. Başımı özünə sarı əyib alnımdan öpdü. Səsi qırıla-qırıla dedi:

– Mən öləndən sonra buradan qaç, Bakıya – nənəngilin yanına get. Təbrizdən tez-tez gedib-gələn olur. Birinə qoşul, çıx bu xarabadan. Səni də mənim kimi öldürər bu qansızlar.

Nənəmin anama bağışladığı boyunbağını boynundan açıb ovcuma basdı. Bərk yerdə gizlət, atan əlindən almasın. Satıb yol pulu eləyərsən.

Etibarın səsi qırıldı. Qəhər boğazına tıxanıb danışmağa qoymurdu. Çox mütəəssir olmuşdu Fatma. Öz dərdi dünyalar qədər olduğu halda bu da dərdinin üstə dərd qoymuşdu. Nə deyəcəyini bilmirdi. Soyuq, aclıq onu əldən salmışdı. Amma cınqırını çıxarmırdı. Ona elə gəlirdi ki, dinib bir söz desə, onun qəmli xatirələrindən nə isə qırılıb düşəcək, fikrini yuvasından perikib pərən-pərən düşmüş quşlar kimi bir yerə yığa bilməyəcək. Bir tərəfdən də düşünürdü ki, Etibarı bu kənddən qaçmağa məcbur eləyən təkcə doğma atasına nifrət deyil. Nə isə onun sinəsində qəmli bir hekayətin odu-alovu var. Onu belə yandırıb yaxır. Etibar gözlərini ondan gizlədirdi. Üzünə baxmaqdan çəkinir, tez-tez köks ötürürdü. Araya duman kimi çökən acı sükut, uzun müddət davam eləyə bilməzdi:

Bu sükutun buzunu mən qırmalıyam deyə Fatma düşündü. Özünü toplayıb Etibarı mətləb üstünə qaytarmaq üçün bir qəmli hekayət dinləyirmiş kimi üzünü ona çevirdi:

– Axırı nə oldu, qardaş?

Etibar üzünü ona çevirmədən dərindən ah çəkdi, gözlərini kənd boyu dolandırıb dilləndi:

– Anam öləndən sonra qara günlərim başlandı. Atam, nənəm məni yad bir adam kimi gözümçıxdıya salır, gücüm çatan və çatmayan nə iş vardısa, mənə gördürürdülər. Bir neçə dəfə kənddən qaçmağa cəhd göstərdim, tutub yoldan qaytardılar. Əsl faciəm isə anamın yeganə boyunbağısını nənəm tapıb götürəndən sonra oldu. Atam məni möhkəm kötəklədi. Gözlərindən kənara qoymadı. Yeganə ümid yerim, məsləhətçim, atamın keçmiş dostu mirzə Yəhya və arvadı Məsumə xanım idi. Mirzə Yəhya sərhədlər açılanda bizimlə bərabər Bakıdan gəlmişdi. Atamın uşaqlıq dostu idi. Bakıda bir yerdə işləyirdilər. Həm də savadlı idi. Atamın hərəkətlərini bildiyi üçün onunla ailəvi əlaqəni kəsmişdi. Bir gün məni yanına çağırdı:

– Başına gələnlərdən xəbərdaram. Bu yaxınlarda Məsumə xalanın qohumlarına baş çəkməyə gedəcəyik. Səni də özümlə aparıb nənən Gülsümə çatdıracam. Hərdən qaç, gəl Məsumə xalaya çöl işlərində kömək elə. –Deyə qayğıkeşliklə Yəhya Mirzə dilləndi.

Evə qayıdanda uçmağa qanadım yox idi. Əhvalım bir az du-

rulmuşdu. Məsumə xala məni tez-tez evə çağırır, odun doğratdırır, sobanı yandırtdırır, qoyuna-quzuya ot, su verməyə göndərirdi. Şirin söhbətləri ilə başımı qatır, tezliklə Bakıda olacağımı, doğmalarla görüşəcəyim anlardan danışıb dərdimi unutdururdu. Elə bilirdim ki, anamdı. Uşaq kimi ona qısılıb ağlayır, ürəyimi boşaldırdım. Kənd camaatı ilə qaynayıb-qarışmışdım elə bil. Nədənsə, mənim xətrimi istəyir, hörmət eləyirdilər. Uşaqdan böyüyə hamı mənə Məsumə xalanın bacısı oğlu deyirdi. Mənə tez-tez sataşıb: – Şürəvi küçüyü deyən həmyaşıdlarım, hətta dindar saqqallı «uşaqlar» da var idi. Onda atam əsəbləşir, hirsini-hikkəsini üstümə tökürdü. Belə anlarda yenə qaçmaq, bu kənddən baş götürüb çöl-biyabana da olsa, getmək istəyirdim. Yenə Yəhya əmi məni ovundurur, Məsumə xala: «Yaman günün ömrü az olar» deyə könlümü alır, təskinlik verirdi. Məsumə xala da Arazın o tayından idi. Bütün doğmaları, əzizləri orada olduğundan çox darıxırdı. Yaxın günlərdə onlara qovuşacağı ümidilə yaşayırdı.

Etibar yenə duruxdu. Ağır yük altında qalan adam kimi töyşüdü. Sözünün ardını gətirməyə çətinlik çəkirdi. Fatmanın növbəti sualını gözləmədən:

– Seyid Cəfər Pişəvərinin min əziyyətlə qurduğu Milli Azərbaycan Cümhuriyyəti yıxıldı. Sərhədlər bağlandı. Məsumə xala yorğan-döşəyə düşdü. Yəhya Mirzə Miyana Fədai dəstəsinə qoşuldu. Şah qoşunları geniş miqyaslı hücuma başladı. Şah ordusuna maddi dəstəklə birlikdə ABŞ, İngiltərə şahpərəstləri müxtəlif ağır silah, dünya müharibəsində istifadə olunan tank, top, bombardımançı təyyarələrlə də kömək göstərirdi. Xain Tehran hökumətinə yerli varlılar da kömək edirdilər. Yadımdadır, min doqquz yüz qırx altıncı ilin noyabrında şah qoşunları Zəncana daxil olanda, qoşunları himayə edən varlı mülkədar Zülfüqarilər dəstəsi xalqın başına ağlasığmaz müsibətlər gətirdiyini söyləyirdilər. «Qaflantı» fədai dəstəsi təklənib silah və ərzaqsız qalmışdı. Rza şah rejimi Milli Azərbaycan Hökuməti ilə bağladığı müqaviləni pozmuş, xəyanətə əl atmışdı. Azərbaycanda milli nə vardısa, məhv edilib yandırıldı. Azərbaycan dilində yazılan kitablar məhv edildi, məktəblər bağlandı. Elə o vaxtdan da mənim məktəbə gedən yolum kəsildi. Mən fars dilini mənimsəyə bilmirdim.

– Yəhya Mirzənin taleyi necə oldu, Etibar? – Fatma ürək ağrı-

sı ilə soruşdu.

– Fədai dəstələrinin döyüşçülərinə divan tutulanda Yəhya Mirzə dar ağacından asıldı. Məsumə xanım yataqdan qalxa bilmədi.

– Bəs sənin atan bu dar gündə silahsız, köməksiz müqavimət göstərən fədailər dəstəsinə heç bir kömək göstərmədi? Mən bilən Tehran ordusunun qarşısında silahsız qalan fədailərə xalq böyük kömək edirdi? Onlara silah verilməsini tələb edirdilər.

– Eh, Fatma! Bu ifadəmə görə üzr istəyirəm, məni nankor sayma. Qocalara, ahıllara böyük hörmətim var. Ancaq bir söz deyə bilərəm ki, «meşə çaqqalsız olmaz» – deyiblər. Bu mövzuda arxayın bir vaxt olsa danışarıq. Səncə öz doğma balasına, arvadına zülm eləyən xalqın dərdinə qala bilərmi?

Fatma onun cavabdan boyun qaçırdığını, bəlkə də bu haqda danışmağın ona ağır olduğunu başa düşüb başqa suala keçdi.

– Şimali Azərbaycan hökumətinə müraciət edib, kömək və silah almaq olmazdımı? Mənim həyat yoldaşım da o illərin faciələrinin qurbanı kimi çox əzab, işgəncələr görüb. Amma bu haqda çox az danışardı.

– Dəfələrlə Pişəvari Azərbaycan sovet hökumətinə, şəxsən Bağırova vəziyyətin ağırlığı haqda müraciət eləmiş, kömək istəmişdi. Təbrizdə hərbi vəziyyət elan edildiyi 1946-cı ilin dekabrında xalq qəhrəmanı Babəkin adını daşıyan könüllülər dəstəsinə yazılış başlandığı haqda məlumat vermişdi. Bütün əyalətlərdən kəndlilər hökumətə müraciət edib silah istəyirdilər. Silah isə yox idi. Seyid Cəfər Pişəvərinin müraciətinə, düzünü desək, Bağırov müsbət cavab vermiş, Güney Azərbaycanına silah, sursat verilməsini Stalindən xahiş etmişdi. Onun teleqramı cavabsız qalmışdı. Kreml hökuməti hər zaman olduğu kimi yenə xəyanət yolunu tutmuşdu. Kömək əvəzinə Tehran qoşunlarına yol verməyi, silahlı müqavimət göstərməməyi tövsiyə etmişdi. Pişəvəri vəziyyətin ağırlığını başa düşsə də, sarsılmırdı. O, artıq aldandığını, sovetlərin açıq-aşikar xəyanətini hiss edə-edə çıxışlarında deyirdi ki, əgər biz təslim olsaq, tarix bizi lənətləyəcək. Geri çəkilmə olmamalıdır. Dünyada heç bir xalq öz qüdrətini öz əlilə məhv etməməlidir. Əldə etdiyimiz azadlığı asanlıqla itirməyə haqqımız yoxdur. Əks halda nə tarix, nə də gələn nəsillər bizi bağışlamaz.

Silah-sursat sovet hökuməti tərəfindən nəinki verildi, açıqca bildirildi ki, bu, İran hökumətinin öz işidir, şah qoşunlarına Azərbaycana keçməyə yol verilməlidir. Müqavimət göstərmək ağılsızlıqdır.

– Belə olduğu halda Pişəvəri bəs nəyə arxalanıb mübarizəni davam etdirmək istəyirdi?

– Xalqa arxalanırdı, Fatma. Elin gücü sel gücüdür deyiblər. Xalq ayağa qalxıb əldə elədiyi azadlığı nəyin bahına olur-olsun müdafiə etmək üçün ona müraciət edirdi. Silah tələb edirdi. Xalq içindən çıxan könüllülər geri çəkilmək istəmirdi.

Hər ikisi susdu. Söhbətlərində xeyli fasilə yarandı. Gün günortadan keçmişdi. Etibargilin kəndləri xeyli uzaqda qalmışdı. Dağ yuxarı qalxdıqca dərələrin dibində qırov ağarırdı. Fatma ürək eləyib dərənin dibinə baxmırdı. Kolların xırda budaqlarından qırov sırğa kimi sallanırdı. Dağların sinəsinə çökən duman qatılaşdıqca göz gözü görmürdü. Buludların arasından günəş ara-sıra görünür, yox olur, hər tərəf səssizliyə, qaranlığa qərq olurdu. Koldan-kola qaçan quşlar adamı səksəndirirdi. Getdikcə çoxalan qar, qırov ayaq altında xışıldadıqca adama elə gəlirdi ki, haradasa uzaqda qəmli bir nəğmə oxunur, talelərini zamanın hökmünə tapşıran bu iki fədaini ardınca çəkib aparırdı. Fatmaya elə gəlirdi ki, o qəm nəğməsi uzaqda deyil, elə onun ürəyində oxunur. Nə nəğmə bitəcək, nə də məkanı, məskəni görünməyən yolların sonu olacaq. Lakin haradansa qəlbinə düşən bir işıq əvvəldə olduğu kimi uçub dağılmış könül otağında əbədi bir çıraq yandırmış, dünyaya gəlişi ilə ömrünü bahara döndərmişdi. Onun içində Cavadlı, Qasımlı işıqlı bir dünya yaşayırdı. Onu Fatma ancaq özü bilir, özü görürdü. Bu onun əlçatmaz, ünyetməz xəyal dünyasına, düşüncəsinə çevrilmişdi. Dar ayaqda, çətin məqamlarda Fatma o işıqlı dünyasına sığınır, təskinlik tapırdı. O xəyal dünyası heç vaxt ondan ayrılmır, get-gedə həyatının bir parçasına dönürdü. O dünya qayğı, nəvazişlə, sevgi ilə dolu idi. Balaca Cavadın qığıltısı, gülüşü ilə dolu dünyasına ani də olsa qayıdanda, Fatma daxili, məsdedici ehtirasla titrəyirdi. Ötən günlərinin şirinliyindən doymur, ağrı-acısı sanki yadından çıxırdı. Bəzən də fikri, xəyalı dumanlanır, kövrək, həzin xatirələr dilə gəlir, qəlbini kövrəldirdi. Belə hallarda o, balaca ciyərparasının iri, qonur göz-

lərini, balaca qızılgül qönçəsi kimi toppuş əllərini, ağ işıqlı sifətini gözü önündə canlandırır, özünü dünyanın bəxtəvəri sayırdı. O xoşbəxtlik həzin bir xatirəyə qarışıb əlçatmaz olanda daha şirin, daha mənalı olurdu.

Dağların soyuğu qanına, canına işlədikcə Fatma özünü isti yorğan-döşəkdə Qasımın polad kimi möhkəm qolları arasında görür, nəvaziş dolu əllərini saçlarında, boyun-boğazında hiss edirdi. Gözlərini yumub bu şirin təmasın təsirindən az qala məst olurdu. Bir qadın həssaslığı ilə duyduğu şirinlik köhnə xatirələri ölüb getməyə, unutmağa qoymurdu. Qasımı qəlbinin dərinliyində həzin bir mahnı, bir musiqi sədası kimi yaşadırdı. Çətinə düşəndə, təkliyin əzabında sıxılanda oduna qızınmışdı, bu od ona sonsuz dözüm vermişdi. Bütün başına gələnləri düşündükcə, haradasa istəkli, onu sevən bir adamın olduğunu hiss edib ovunmuşdu Fatma. Bundan belə onu nə gözlədiyindən xəbərsiz, boş xəyallar içində könülsüz-könülsüz addımlayır, hara getdiklərinin, də fərqinə varmır, susurdu. Ona elə gəlirdi ki, tez-tez ona bacı deyə müraciət eləyən Etibarı çoxdan, lap uşaqlıqdan tanıyır. Bu mehriban, sadə, ürəyiaçıq oğlan özünü nə qədər sərbəst aparsa da, onun ömür kitabının oxunmamış müəmmalı bir səhifəsi var. O, öz iç dünyasını axıra qədər açıb vərəqləmir. Bu müəmmanı Etibarın öz dilindən eşitmək istəyirdi Fatma. Düzünü desək, Fatma elə durumda indi ki, heç bir hekayət dinləmək həvəsində də deyildi. Təki bir məkana çatıb bir az dincələk də demirdi.

Aralarındakı öldürücü sükutun buzunu bu dəfə Etibar qırdı.

– Nə yaman fikrə getmisən, Fatma bacı? Səni düşüncələrindən ayırmaq istəmədim.

Etibar bir neçə saatdı tanıdığı bu qadının taleyində özünəbənzər bir oxşarlıq olduğunu bilə-bilə sualın yönünü tez də dəyişdi.

– Yüz fikir bir borcu ödəməz. İnsan yarandığı gündən qəmlə, sevinclə qoşa yol gedir. Bunun hər ikisini çiynimizdə çəkməyə məhkumuq. Bunlarsız yaşayış mövcud deyil. Yaşadığımız və yaşaya bilmədiyimiz hər gün ömürdən gedir. Ömür də bildiyimiz kimi çox uzun deyil. Gəncliyi, cavanlığı yaşamamış, qocalıq qapının ağzını kəsdirir. Nəyi eləmişəm, nəyi eləməmişəm deməyə macal tapmamış ömür qurtarır. Mənim az qala otuzu haqlayan ömrümə nəzər salsaq, orada işıqlı nə varsa, son illərdə dostlarım-

la birgə apardığımız mübarizədir, Fatma bacı. Qalanı əzab-əziyyət, mərhumiyyət, alçaldılıb təhqir olunmaqdan başqa bir şey deyil. Ürəkdə təzəcə qönçələyib çiçək açmadan məhv olan ilk məhəbbətin əzab-əziyyəti, sonsuz iztirabıdır. Sənin çəkdiyin o iztirab mənə tanışdı, doğmadı. Gəl bütün bunları bir yana qoyub nə edəcəyimiz haqda düşünək. Səni axtara-axtara izimizə düşəcəklərindən ehtiyat edirəm. Bax bu görünən kəndin lap ucqarındakı işıqgələnə getsək, elə bilirəm ki, yaxşı olar. Mənim çantamda bir az yemək ehtiyatı var. Bu qayanın altında həm yeyərik, həm də dincələrik. Sənə görə bütün planlarımı dəyişmişəm. Səni bir tərəfə çıxardana qədər heç yana getməyəcəm.

Fatma qəfildən Etibara sarı döndü:

– Mənə görə verilən tapşırığı yerin yetirməmək düzgün deyil. Mən sənə mane olmaq istəmirəm. Ölümdən qurtardığın az deyil, üstəlik öz planlarını pozursan? Xahiş edirəm məni yalqız burax.

Fatmanın gözləri bahar buludu kimi dolmuşdu. Bulud topalarının bir balaca toqquşması gərək idi ki, leysan axıb kirpiklərindən aşağı süzülə. O, tez-tez kirpiklərini çalır, gözlərini Etibardan gizlətməyə çalışırdı. Etibar qərib, kimsəsiz bir qızın dərdlərindən mütəəssir olub kədərlənsə də, zarafatyana dilləndi:

– Səni bilmirəm, mənim acından qarnım lap quruldayır. Kəndin kənarına çatmağımıza lap az qalıb. Ac adam üşüyən olar, Fatma bacı. Soyuq da bir tərəfdən kələyimi kəsib. Söhbət eləməyə vaxtımız çatar.

Fatma bir neçə dəfə öskürdü. Səsi elə bil xırıldadı. Boğazına yığılan qəhər onu danışmağa qoymurdu. Yana çevirib çarşabının ucu ilə gözlərini sildi: Yox, sən güclü, dözümlü olmalısan, Fatma. Bəlkə elə həyatının ən gözəl anını indi yaşayırsan? Bu gözlənilməz qonağın qeybdən peyda olması, səni ölümün əlindən çəkib alması bir möcüzədi. Nə bilirsən, başına sonralar nələr gələcək? Elə məşəqqətlərə düşəcəksən ki, bu günkü günün xoşbəxtliyini əziz bir xatirə kimi xatırlayacaqsan? Onsuz da, tale səni hansı səmtə qovursa ora gedirsən. Sən buna məcbursan. Dünyaya gələndən yəqin alnına didərginlik taleyi yazılıb.

Fatmanın qəlbi qəribə, özünün də anlamadığı hissin təsiri altında sıxılırdı. Keçirdiyi haldan özü də baş açmırdı. Onunla çiyin-çiyinə addımlayan möhkəm iradəli, sözündə qətiyyət, inam

duyulan bu arıq, ucaboy cavan oğlan haradansa naməlum aləmdən gəlib. Ona səadətini, sevincini, rahatlığını gətirib. O danışanda Fatmanın sinirləri boşalır, gərginliyi harasa uçub gedir, rahat nəfəs alırdı. Belə durumda Fatma özünü xoşbəxt hiss edirdi. Fatma hər halda belə hesab eləyirdi. Bu naməlum bir qüvvə tərəfindən ona xilaskar göndərilən oğlana qarşı özündə qəribə bir hiss yaranmışdı. Bəlkə, o yanılırdı, özü-özünü aldadırdı? Çaşıb qalmışdı. İstəmirdi ki, fikrində, xəyalında belə məhəbbətini dözüm, etibar timsalı saydığı Qasım o ucalıqdan düşüb çilik-çilik olsun. Bu ona ağır dərd, həyatının sonuna qədər sağalmayan yara ola bilərdi. İstəmirdi ki, Etibar onun haldan-hala düşdüyünü, nə edəcəyini bilməyən bir adam kimi mücərrəd fikirlər içində çabaladığını görüb, hiss eləsin. Yox, yox, bu ölümdən betər olardı. O, Qasımın arvadıdır və ömürlük belə olacaq. Etibara qoşulub bura gəlməyinə peşman oldu, çox peşman. Gəlməsəydi, bu hisslər, düşüncələr də olmazdı. Fatma bunu Qasıma xəyalən xəyanət kimi hesab eləyirdi. O, öz hisslərində Qasımın məhəbbətinə xələl gətirə biləcək heç bir qəbahətə yol verməməyi, həyatı boyu ümidlə, intizarla, həsrətlə yaşayacağı qənaətində idi. Haçansa onu, çiyərparəsi Cavadı tapacağı ümidi ilə yaşayırdı. Bu ümidin sapı get-gedə nazilirdi. Bir balaca möhkəm dartılsa, qırıla bilərdi. Qırılsa, yaşa görüm bundan sonra necə yaşayırsan, Fatma? – Deyə üzülürdü.

– Çatırıq, – deyə Etibarın səsi onu özünə də qorxunc görünən xəyallar aləmindən ayırdı. Qarşıda təkəmseyrək kənd evlərindən sarımtıl lampa işığı gəlirdi. Haradasa it hürür, insanlar tələsə-tələsə qoyun-quzu haylayıb damların altına yığırdılar. Beləcə xeyli yanaşı getdilər. Heç biri dinib, danışmırdı. Aralarına ağır sükut çökmüşdü. Fatma istədi: Bura haradır, Etibar, məni haralara gətirib çıxarmısan? – Desin. Lakin soyuqdan elə əsirdi ki, dili, ağzı söz tutmurdu. Yenə özünü toplayıb:

– Burada yaxın adamın-zadın var, Etibar? – Deyə üzünü ona çevirdi.

– Əslində, bu məmləkətdə yaşayan azərbaycanlı həmvətənlərimiz bizim yaxın doğmalarımızdır. Bizim işimizlə əlaqədar bu kəndlərin hər birində nümayəndəmiz var. Əlbəttə, gizli.

O, gülümsədi.

– Xalq arasında dayaq nöqtəmiz olmasa, çox çətin olar, Fat-

ma bacı. Xalqın dayağı böyük qüvvədir. Xalqa söykənən məğlub olmaz. Babəki əyilməz, qüdrətli eləyən xalqın gücü idi.

– Düz deyirsən, qardaş, mən bunun şahidi olmuşam. Neçə dəfədir məni xilas edirlər, yenə canavarların caynağına keçirəm, yenə xilas edirlər. Mürsəl, Bayram, Haşım, o cümlədən də sən...

Fatma yerə baxa-baxa güldü.

– Bu mərdlik, xeyirxahlıq hardandır? Əlbəttə, xalqdan gəlir.

Etibar öz adını Fatmanın dilindən eşitcək etiraz elədi.

– Xeyir, mən nə etmişəm ki, bacı? Onların gördükləri mərdliyin qarşısında bu heç nədir? Hər halda, bir əlaqə yaradıb yoldaşlardan məsləhətlər alacam. Səni hər tərəfi şahın xəfiyələri ilə dolu məmləkətdə köməksiz qoya bilmərəm.

– İndi biz görməzə-bilməzə kimin qapısına gedirik? Vallah, gözüm elə qorxub ki, Etibar qardaş. Oturub dincimizi almamış qovurlar, izləyirlər, nə bilim bunun bir axırı olsun ki, əzablarıma son qoyulsun.

– Əzabların sonu olmayacaq, Fatma bacı.

– Bəsdir, mənə bacı-bacı dedin, Etibar, sadəcə adımla çağır.

Fatma bir az ciddi, bir az da zarafatyana Etibarın qolundan dartıb üzünə baxdı.

– Yaxşı, qoy sən deyən olsun. Nə qədər ki, bu xalq istədiyinə çatmayıb, əzablara son qoyulmayacaq. Mürsəl qağa deyirdi ki, əli-qolu bağlı, dili, bütövlüyü olmayan bir xalq xoşbəxt ola bilməz. Bu əzabları çəkən təkcə sən deyilsən. Bizim də yaşayışımız bir yaşayış deyil. Zülm, qan üstə qurulan bir taxt-tacdan intiqamımızı almayınca dincəlməyəcəyik. Geriyə çəkilməyəcəyik. Bunun da vaxtı, zamanı var. Hər cür yaranı zaman sağaltdığı kimi inqilabı da (hansı formada olur olsun) zaman yetişdirir. Tarix bunu bizə neçə dəfə sübut edib.

Fatma onun sözünü kəsdi.

– Sən lap əsl inqilabçı kimi danışırsan, qardaş. Belə fikirləri sənə kim öyrədib?

– Həyatı, bu keşməkeşləri məndən çox bilənlər öyrədib. Mən bu mühitə düşəndə qorxaq, müti, atasının əmrlərini yerinə yetirən bir uşaq idim. Həyat məni sıxdı, silkələdi, çalxalayıb oyatdı, özümə gəldim. Kimliyimi, bu yurdun, torpağın sahiblərindən biri də mən olduğumu anladım. Burda yad olduğumu unutdum.

Doğmalarla qaynayıb qarışdım. Bax elə sən də mənim kimi olacaqsan. Doğma atam, qardaşlarım ola-ola kimsəsiz bir qərib olduğumu unutmuşam, Fatma bacı. İndi şükürlər olsun ki, sənə rast gəlmişəm. Görünür oxşar taleimiz bizi birləşdirib.

Etibar duruxdu. Sözünü qırıq-qırıq deməyindən Fatma başa düşdü ki, o kövrəlib. Söhbətin məcrasını başqa səmtə yönəltmək üçün yenə zarafata keçdi:

– Yenə mənə Fatma bacı deyirsən? Bunun üçün cəzalanacaqsan. Harada dayanacağımızı mənə de. Soyuq məni əldən saldı, Etibar qardaş.

– Sən də mənə qardaş demə, Fatma bacı. Adım Etibardı

Hər ikisi güldü.

– Aclıq olsun, keyf olsun. Gülüş də insana qida verə bilər. Deyirlər sağlam gülüş xəstəni müalicə eləyə bilir.– Fatma düz mətləbə keçdi. Ac olduğunu açıq-aşikar bildirdi. Etibar bir neçə addımlıqda olan palçıq kərpicdən hörülmüş bir hasarın kənarına çatıb ayaq saxladı. Fatma sevindi. Etibar iki barmağını dodaqlarına söykəyib iki dəfə fit çaldı. Qulaqlarının sallaqlığından tulaya oxşayan it alçaq hasardan hoppanıb Etibarın qabağına qaçdı. Qabaq ayaqlarını qatlayıb çökdü. Etibarın ayaqlarını yalamağa başladı.

– Xoş gördük, Xallı, -deyə Etibar itin başını nəvazişlə sığalladı. Xallı iki ağız hürdü. İtin səsinə evdən ağsaçlı, altmış-altmış beş yaşlı qadın çölə çıxdı. Elə bil qadın Xallının dost adama hürdüyünü başa düşmüşdü. Adamla danışırmış kimi dilləndi:

– Gəlirəm, gəlirəm – deyə iti sakitləşdirdi. Qadın qapıdan çıxan kimi Xallı çəkilib hasarın dibində dal ayaqları üstə çöməldi. Sanki vəzifəmi yerinə yetirdim, indi növbə sənindir demək istəyirdi. Qadın Etibarla çox isti görüşüb Fatmaya sarı döndü.

– Sən də xoş gəlib, səfa gətirmisən, qızım!

Təkrar Etibara sarı dönüb, gülə-gülə:

– Xanımın çox gözəl cüvənəzəndi, ha.. Gülün ən gözəlini dərmisən, ay saqqalı ağarmış. Bəs Nübar ananı niyə toyuna çağırmamısan? – Özü də özünə cavab verdi. – İndi zəmanə dəyişib. Cavanların ayağı şəhərə düşən kimi ata-baba adətlərini yaddan çıxarırlar. Bəzən də özləri tapıb, özləri sevib, özləri də alırlar.

Etibar çıxılmaz vəziyyətə düşmüşdü. Nübar nənə imkan ver-

mirdi ki, ona izah eləyib hər şeyi başa salsın. Fatma da gizli-gizli gülür, Etibarın donuq sifətinə gözucu nəzər salır, üzünün rəngdənrəngə düşdüyünü açıq-aşikar görür, heç bir kömək eləyə bilmirdi. Nübar ana darvazadan içəri keçib Fatmanın qolundan tutdu.

– Keç, qızım, keç içəri. Ayağın sayalı olsun. Mənim bu kasıb komamın qapısı üzünə həmişə açıq olacaq. Daha Etibar balam kimi sən də ildə bir-iki dəfə yox, tez-tez bizim tərəflərə təşrif buyur. Gözüm üstə yerin olacaq.

Onlar itaət etməkdən başqa bu dilli-dilavər, mehriban arvada heç nə deyə bilmədilər. Səssiz-səmirsiz içəri keçdilər. Nübar ananın iki gözlü mənzilində səliqə-sahman gözə çarpırdı. Pəncərələrə tutulmuş gödək pərdə ağappaq qar kimi idi. Evin ortasındakı odun sobası balaca otaqları kifayət qədər qızdırmışdı. Baş tərəfdəki divara vurulmuş kişi şəkli ilk baxışdan diqqəti çəkirdi. Şəkildəki adamın sərt, iti baxışlarından onun ciddi bir şəxs olduğu bilinirdi. Pəncərə tərəfdə alçaq çarpayının üstünə ipək yorğan-döşək səliqə ilə elə yığılmışdı ki, bu çarpayıda sanki heç kəs yatmamışdı. Sobanın qabağında üst-üstə doğranmış odun parçaları qat-qat düzülmüşdü. Nübar ana sobanın qabağındakı samavarın suyu soyumasın deyə, maşa ilə qırmızı közləri götürüb odluğa tökdü. Balaca çayniki dəmkeşin üstünə qoyub onlara sarı döndü:

–Bıyy.. başıma xeyir, hələ soyunmamısınız? Keçin Şamilin otağına. Əyin-başınızı dəyişib rahatlanın. Mən nahar hazırlayana qədər dincinizi alın. Etibar bala, sən də qonaqsan? Şamil gələndə sağlıq olsun, gəlini öz yanıma keçirərəm. Al, qızım, Nübar ananın çarşabını, əynini dəyiş. Köhnə olsa da, təmizdi. İnşallah, Şamil gələndə hədiyyəni verərik. Kasıb olsaq da, sənə bağışlamağa bir şey taparıq. Amma Şamilin belə gec qayıtmağı məni çox narahat eləyib. Allah xeyirə döndərsin.

– Şamil hara gedib? – Deyə Etibar indi yadına düşmüş kimi narahatlıqla soruşdu.

– Bayaqdan yadımdan çıxıb sənə deyəm. Şəhərə qış azuqəsi almaq üçün gedib. Heç belə gec gəldiyi olmamışdı. Bəlkə, başında bir qəzə var? O, məni nigaran qoymazdı.

Etibar gəlişlərinin səbəbini, Fatmanın kim olduğunu Nübar anaya heç cürə deyə bilmirdi. Yaxşı, bəs axşam bizim yatağımızı bir yerdə açsalar, onda necə olsun?

Etibar da, Fatma da çıxılmaz vəziyyətdə qalmışdılar.

– Bizim gəlişimizdən kənddə heç kəs xəbər tutmamalıdır, Nübar ana! – Etibar güclə dilləndi.

– Xəbər biləndə nə olar ki, ay oğul? Kimin qonağı gəlmir ki? Bu balaca kənddə gələn-gedənləri hamı bilir, cidanı çuvalda gizlətmək olar, gözümün işığı? Qonaqlı ev xeyirli-bərəkətli olar.

– Yox e, Nübar ana, iş başqa cürdür.

Etibar Nübar ananın əlindən tutub yan otağa apardı. Onlar qayıdanda Fatma sobanın böyründəki taxtın üstündə yatmışdı. İstidən yanaqları pörtüb qızarmışdı. O, yuxuda gah gülümsəyir, gah da diksinib hövlənək qalxırdı. Etibar Nübar ananın düzəltdiyi çaydan içə-içə dərin fikrə getmişdi. Otaqda heç biri dinib-danışmırdı.

Fatma yox, yox, deyə qışqırıb yuxudan qalxanda onları görüb utandı.

– Bağışlayın, özümdən asılı olmadı. O qədər yornuq idim ki, sizi gözləyə bilmədim. Bəzən yuxu adama yeməkdən irəli olur.

Öz dediyinə özü də utandı. Onların ac olduğunu bildiyi üçün Nübar ana hazırladığı nahar sinisini ortalığa qoydu.

– Narahat olma, qızım, yol gəlmisən. Bu evi özününkü saya bilərsən.

* * *

Bir həftə idi ki, Etibargil Şamili gözləyirdilər. Çox narahat idilər. Həm də bir həftədən sonra Etibarın ezamiyyəti başa çatırdı. O, hələ verilən tapşırığı yerinə yetirməmişdi. Fatmanı belə qoyub gedə bilmirdi. Başına gələnləri komitəyə çatdırmaq, hər hansı göstəriş almaq da mümkün deyildi. Nübar anadan başqa evə gəlib-gedənlər, onları yeni ailə qurmuş cavan ər-arvad hesab eləyirdilər. Amma Etibar hər an, hər dəqiqə Fatmanı axtaranların bura gələcəklərini də istisna etmirdi. Axşam evin qabağında balaca bağçaya çıxmışdılar. Hava ayazımışdı. Qar yağmasa da, soyuq idi. Fatmanın ürəyi sıxıldı. Çarəsiz adamlar kimi o baş- bu baş gedir, nə edəcəyini ölçüb-biçir, bir çıxış yolu tapa bilmirdi. Elə bil Etibarı yanında görmürdü. Yolda gələndə onun hekayətini dinləmək həvəsi var idisə, indi o həvəs də ölüb getmişdi. Onu narahat eləyən bir şey vardısa, o da peşimançılıq hissi idi.

– Bu işin axırı yaxşı qurtarmayacaq. Bunları da əzab-əziyyətə saldım. Kaş elə məni tez tutaydılar. Bunlar da əziyyətdən qurtaraydı.

Xəcalət təri onu basır, Nübar ananın, Etibarın üzünə baxa bilmirdi. Onu ikinci bir şey də narahat eləyirdi. Etibarın kənardan durub ona həsrətlə baxmasından özünü pis hiss eləyirdi. Bu cavan oğlanın bir neçə gün ərzində ona bağlanmasından narahatlıq keçirir, gözlərinə düz baxmaqdan çəkinir, özünün də keçirdiyi anlaşılmaz bir hissi içindən qovub çıxarmağa çalışırdı. O dəhşətli, eyni zamanda şirin xəyallı fikri başından qovmaq üçün bir az bundan əvvəl Qasıma xəyalən dediklərini yadına saldı. Qasımın məhəbbət dolu gözlərini, ağlar, titrək səsini, körpəsinin ona uzanan əllərini, süd qoxulu dodaqlarını xatırladı. Ürəyindən şəfqət dolu bir ağrı keçdi: Deməli, mən bütün bunların üstündən adlayıb keçməli, taleyin qurduğu sonu acı vüsallı oyunla barışmalıyam? Onsuz da, bədbəxt taleli bir insanı təzədən bədbəxt eləməyin mənası nədir? Yox, belə düşünməyə hətta gizli də olsa, xəyalən də mənim haqqım yoxdur. Etibarın odlu baxışlarından ürəyinə tökülən qığılcımların da tezliklə sönüb gedəcəyinə ümid bağlayırdı. Bunu olsa-olsa içini silkələyib vücudunu təlatümə gətirən bir gəncin müvəqqəti əyləncəsi hesab edirdi Fatma. Tale yollarının harada, nə vaxt qırılacağı bilinməyən bir qadın heç kəsə, o cümlədən də, Etibara xoşbəxtlik gətirəcəyi ağlasığmazdı, inanılmazdı. Bəlkə, elə mən yanılıram? – Deyə fikirləşdi.

Kəndlərinin yanından keçərkən Etibarın çəkdiyi yanıqlı ahlar, mənə nə isə yanıb-közərən, tüstüsü, alovu çölə çıxmayan bir həsrətdən, nisgildən xəbər verirdi. O həsrət ki, onun yanğısı illər keçdikcə Etibarın can yanğısına, ürək oduna çevrilib onu çınqır-çınqır yandırıb külə döndərmişdi. Bu ağrını çəkə-çəkə, necə deyərlər, gözünün qabağında qocalan gəncliyinə az qala əlvida deyirdi. Bu dar məqamda ona kömək əli uzadan, tanımadığı, görmədiyi bir qadından mərhəmətini əsirgəməyən gəncə Fatmanın yazığı gəlirdi. Axşamın soyuğu onun buz kimi soyuq, anlaşılmaz düşüncələri kimi canına, qanına yayılıb vücudunu silkələdi. Evə qayıdıb sürücünün ona verdiyi boynu dərili kürkü götürüb çiyninə saldı.

Etibar daş pilləkənin böyründəki ağacın dibində dayanıb siqa-

ret çəkir, səsini çıxarmır, Fatmanın fikirdən, xəyaldan nə vaxt ayılacağını gözləyirdi. Onun bayaqdan bəri Etibarın varlığını belə hiss eləməməsi xətrinə dəyirdi.

Fatma yaxın gəldi. Qaranlıqda Etibarın gözlərini görməsə də, danışığından vücudunun əsdiyini, dodaqlarının titrədiyini hiss eləyib, narahat oldu. Bir anlığa ona elə gəldi ki, Qasım qarşısında dayanıb. Ürəyindən dəli bir istək qalxıb vücuduna yayıldı. Qolları boşalıb yanına düşdü. Bədənini şirin bir duyğu bürüdü. Bir anda qadın zəifliyi onun bütün düşüncələrinə üstün gəldi. Onu qucaqlayıb öpmək, əzizləmək, ovutmaq istədi.

– Yox, yox, bu olmaz, bu fikirdən uzaq, uzaq, - deyə geri çəkildi. Başı gicəlləndi, səndərlədi. Etibar vaxtında tutmasaydı, yıxılacaqdı.

Etibar onun bu halını çəkdiyi əzablarda, keçirdiyi iztirablarda görsə də, ondakı dəyişiklik də nəzərindən qaçmadı. Onlar ehtiyatla evin arxasına buruldular. Divara söykənmiş, bir yanı çürüyüb sökülmüş taxta oturacaqda yanaşı əyləşdilər. Xeyli dinib-danışmadılar.

– Kəndin adamın əsəblərini dincəldən səssizliyinin vurğunuyam, Etibar, – deyə Fatma sükutu pozdu. Acgözlüklə soyuq havanı ciyərlərinə çəkdi:

– Elə lap uşaqlıqdan kənd aləmi məni özünə çəkərdi. Ona görə də, bacı-qardaşlarımdan fərqli olaraq kəndə – babamgilə tez-tez gedərdim. Saatlarla ulduzların axmasına, ayın çıxıb ətrafı süd kimi işığa qərq eləməsinə baxardım. Həyətimizdən axıb keçən arxın dupduru suyunda ayın necə batıb-çıxdığına tamaşa eləməkdən doymazdım. Bəzən də lap uşaq sadəlövhlüyü ilə suda çimən ayı axan ulduzları əl atıb tutmaq fikrinə düşərdim. Əlimi suya salıb əliboş da qalardım. Belə hallarda nənəm gülə-gülə deyərdi:

– Ulduzların içində hərənin bir ulduzu var. O, ulduz bir dəfə parlayır, qızım. O, insanın bəxt ulduzudur. O ulduz parlayanda insan öz xoşbəxtliyini də tapır.

– Bəs mən öz ulduzumu onların içində necə tapacam, nənə? – Deyə soruşardım.

– Hələ sən çox uşaqsan. Ulduzun parlayanda hamıdan qabaq sən özün onu görəcəksən. Vay o gündən ki, o ulduz əbədilik sönə, bir də gözə görünməyə, mənim balam. İnanıram ki, sən öz uldu-

zunu tapacaqsan. Onda mən dünyanın ən xoşbəxt nənəsi olacam, Fatma.

–Eh, – deyə nənəm köksünü ötürəndə mən heç bir şey başa düşmür, gözlərimi döyə-döyə üzünə baxardım. İndi nənəmin sözlərində bir həqiqət olduğunu, ulduzumun ədəbi söndüyünü anlayıram, Etibar. Nənəmin dediyi kimi o heç vaxt parlamayacaq. Bəli, o bəxt ulduzum məndən üz döndərib. Əlçatmaz-ünyetməz olub ki, bu çöllərdə sərgərdan qalmışam.

Fatma kövrəldi. Etibar onun titrəyən çiyinlərindən tutub, ovundurmaqdan özünü güclə saxladı.

– Niyə elə danışırsan, Fatma? Yenə səni sevən, yolunu gözləyən oğlun, həyat yoldaşın var. İnşallah, tezliklə bir-birimizə qovuşacaşqsınız. Bəs mən necə eləyim ki, bu işıqlı dünyada dostlarımdan başqa bir simsarım yoxdur. Ətindən, qanından mənə can verən, həyat verən atam mənə düşmən kəsilib. Anamın, Məsumə xalanın məzarına həsrət qalmışam. Kiçik qardaşlarım məni itgin düşmüş hesab eləyirlər.

– Yeri gəlmişkən, qoy verdiyin vədi yadına salım.

Etibar duruxdu. Ağır yük çəkən araba kimi səsi xırıldayıb qəhər tutan boğazından güclə çıxdı.

– Nə söz, Fatma?

– Necə nə söz? Yolda yarımçıq qalan söhbətimizə yenidən qayıdacağını demişdin.

– Nə bilim, biz yolda o qədər mövzudan danışmışıq ki. Sən hansını nəzərdə tutursan?

Etibar yenə söhbətdən qaçıb, uzaqlaşmaq məqsədilə sorğusuala keçdi. Fatma da asanlıqla təslim olanlardan deyildi. Odur ki, israrla onun qolundan tutub silkələdi. Etibarın tutulduğunu, söhbətdən qaçdığını başa düşsə də, əl çəkmədi:

– Atanla aranızdakı soyuq münasibətin az qala düşmənçiliyə çevrilməsindən danışırdın. De, ürəyini boşalt, Etibar. Adam illərlə sinəsində gizli gəzdirdiyi fikrini, dərdini danışanda ürəyi boşalır, yüngüllük tapır.

Etibar yenə dərindən köks ötürdü. Sanki on ilə yaxındı içində gəzdirdiyi bu yükdən azad olmaq üçün, özünə güc toplayır, ürəyini didib-dağıdan ağrını çölə atmaq, yüngülləşmək üçün fürsət düşdüyünə sevinirdi.

Etibarın hekayəti

– Yəhya əminin ölümündən sonra Məsumə xala lap tək qalmışdı. Onların övladları yox idi. Mehrlərini mənə salmışdılar. Evdəki iş-gücdən azad olan kimi onlara qaçırdım. Onun güzəranı çoxundan yaxşı olsa da, ərinin ölümündən sonra bərk xəstələnib yatağa düşmüşdü. Evi, təsərrüfatı idarə eləyə bilmirdi. Yəhya əminin bir bacısı qızı var idi. Məsumə xalanın xörəyini bişirir, əyin-başını, paltarını yuyurdu. Məsumə xalaya ərindən üç-dörd çeşməli, kifəyət qədər geniş bir ev, qoyun-quzu, iki-üç cərib* torpaq sahəsi qalmışdı. Atam Yəhya əminin ölümündən sonra ondan qalan mal-mülkə sahib olmaq üçün Məsumə xalaya elçi düşdü. Dəridən-qabıqdan çıxırdı ki, səni əlimin içində saxlayacam, təsərrüfatını əkib-becərəcəm, daha bilmirəm nələr…

Elə ilk sözündən Məsumə xala onu yamanlayıb evdən qovdu. Ona qulluq eləyən baldızı qızı da yetim idi. Atası ölmüş, anası ərə gedəndə onu özü ilə ögey ata yanına aparmamışdı. Gülsarə dayısı evində böyümüşdü. O, boylu-buxunlu idi, uzun qara hörükləri kürəyindən aşağı sallananda bir cüt qara ilanı xatırladırdı. Onun on dörd yaşı var idi. İri yaşıl gözlərinə baxanda dərin dəryaları yada salırdı. Uzun kirpikləri çətir kimi yanaqlarını döyür, yanaqları tez-tez allanır, qızarırdı. Xüsusən də, Gülsarə məni görəndə qəribə hallar keçirir, məni də çaşdırırdı. Mən çöl işlərini görürdüm deyə içəri otaqlara çox nadir hallarda girərdim…

İki evin təsərrüfatını idarə etmək məni əldən salmışdı. Məsumə xala aramızdakı münasibəti duymuşdu. Açığı desək, mən ona əməlli-başlı vurulmuşdum. Lakin bunu büruzə vermirdim. Qızı yoldan çıxmaq Məsumə xalaya hörmətsizlik olardı. Bir gün məni və Gülsarəni otağına çağırıb dedi:

– Mən Yəhya əmidən sonra çox yaşamayacam. Öz vətənimə qayıtmağa da ümidim yoxdur. Qohum-əqrabamdan da uzaq düşmüşəm. Demək, sizdən başqa mənə yaxın heç kəs ola biməz. Hər ikiniz bu evdə böyümüsünüz. Nə varım-dövlətim var, Gülsarənin adına yazdırmışam. Səni də ondan heç seçməmişəm. Əl-ələ

* 0,2 hektar torpaq sahəsidir

verib ailə qurun. Elə indidən də xeyir-duamı qəbul edin. Bir xahişim var, ilk övladınızın adını Xəzər, ya Bakı qoyarsınız. Onda mənim də ruhum şad olar. O, titrəyə-titrəyə əllərimizi tutub birləşdirdi. Sol əlinədki yaqut qaşlı üzüyünü çıxarıb Gülsarənin barmağına taxdı. Mən Etibarın anası kimi sizi nişanlayıram – dedi.

Hər ikimizin alnından öpüb üzünü yana çevirdi. Onun ağlamağı bizi yaman kövrəltmişdi. Biz də ona sarılıb xeyli ağladıq. Məsumə xala yenə üzünü mənə çevirib dilləndi:

– Sən bunu atana xəbər ver. Elin adəti var. Qoy özü elçi düşüb Gülsarənin nişanlandığını bəyan eləsin ki, kənd adamları da bu izdivacı bilsinlər. Kənddə qıza elçi düşmək istəyənlərin də əli üzülsün.

Gülsarəyə evlənmək istəyənlər də meydana çıxmışdı. Məsumə xala çox narahat idi. Mən onu heç vaxt unutmayacam. Mənə analıq eləyən, dərdimi-qəmimi ovudub unutduran o qadın, hörmətə, izzətə layiqdir, Fatma. O mənim dərdimi, istəyimi gözümdən oxuyurdu. O ailədə keçirdiyim Məsumə xala, Gülsarəli günlərimi həyatımın ən gözəl, ən əziz anları sayacağam.

Etibar xeyli susdu. Danışığına ara verib bir neçə dəfə boğazını artladı. Bu söhbəti başa vurmaqda çətinlik, hətta əzab çəkdiyini başa düşürdü Fatma. Ona artıq sual verməkdən çəkinirdi. Onu incidəcəyindən qorxurdu. Yenə hövsələsizlik edib dilləndi:

– Sən də onu eyni məhəbbətlə sevdiyinə əmin idinmi, Etibar?

Fatma bu sualı niyə verir, nəyi öyrənib yerinə yetmək istədiyini özü də bilmirdi. Qaranlıqda yanaqlarının qızarıb- pörtdüyünü, ürəyinin aramsız döyündüyünü hiss edirdi.

– Bəli, Fatma, onu dünyalar qədər sevirdim. Əvvəllər onu uşaq sayırdım. Məndən dörd-beş yaş balaca idi. Bir məktəbdə oxuyurduq. Mən ikinci sinifdəydim. Gülsarə əlaçı idi. Şagirdedərəcəye – əvvəl* hesab olunurdu. Onun mənə qarşı münasibətini bir uşaq şıltaqlığı və ya marağı hesab eləyirdim. Axı mən kim idim? Ata-anasız, yetim bir uşaq ona nə verə bilərdi? Düşünürdüm ki, mənim vəziyyətimdə sevgi haqqında danışmaq ağılsızlıqdır. Amma ürək başqa cür hökm çıxarırdı.

Mənim də bütün insanlar kimi sevib-sevilmək istəyən ürəyim

*birinci dərəcəli şagird deməkdi

var idi. Lakin bu duyğu içimdə çoxdan məhv olmuşdu. Anam öləndən bir kəsi, nəyisə sevmək hisslərimdən heç nə qalmamışdı. İçimdəki o boşluğu heç nəylə doldura bilmirdim.

Mən Gülsarənin mənə vurulduğunu bildiyim günə qədər cansız-qansız cəsəd, müqəvva kimi yaşayırdım. Gülsarə mənə elə vurulmuşdu ki, özündə-sözündə deyildi. Bilirsən, məhəbbət insanın öz əlində deyil. O elə mərəzdi ki, xəbərsiz-filansız ürəyinə elə axıb-dolur ki, heç özün də bu mərəzə nə vaxt tutulduğunu bilmirsən. Məhəbbət dilimi lal eləmişdi. Qarşımda yaz qönçəsi kimi titrəyə-titrəyə sevgisini bəyan eləyən Gülsarəyə qibtə eləyirdim. O məndən cəsarətli idi. O məhəbbətini dilə gətirə bilirdi. Mənsə içimdən közərə-közərə qalmışdım. Tüstüm də çölə çıxmırdı. Mənim vəziyyətimdə bu sevgiyə heç kim cavab verə bilməzdi? Ona yazığım gəlirdi. Sevən adamın ürəyi kövrək olur, onu ehtyatsızlıq eləyib sındırsan, heç vaxt xoşbəxt ola bilməzsən, Fatma. Mən ona ürəyimi açmasam da, onu ilahi bir məhəbbətlə sevirdim. Dilimə gətirib qızın iztirablarını artırmaq, hisslərini daha da alovlandırmaq istəmirdim.

– Niyə? – deyə Fatma hirslə dilləndi.

– Ona görə ki, atamın bu işə razı olacağına, Gülsarənin mənimlə xoşbəxtliyinə inanmırdım. O, mənim üçün əlçatmaz bir varlıq idi. Gecə də, gündüz də yanımda idi. Hər an, hər dəqiqə ürəyinin döyüntülərini, gözlərindəki həsrət qığılcımlarını görür, hiss edirdim. Onunla qarşılaşmaqdan qorxurdum. Hərdən də mənə elə gəlirdi ki, onu yaxına çəkib sinəmə sıxacaq, kirpiklərindən asılan yaş damlalarını silib titrəyən dodaqlarından öpəcəyəm. İstədiyimi nə eləyə bilirdim, nə də bir söz deyə bilirdim.

Hə, Gülsarə, mən də səni sevirəm, özü də lap çox deyəcəyimdən özümü güclə saxlayırdım. Onun bu hallarının ötüb gedəcəyini güman edirdim. Amma yanılırdım. Onun məhəbbətində heç bir qeyri-adilik yox idi. Bu məhəbbətin sonralar ona xoşbəxtlik, ya bədbəxtlikmi gətirəcəyini düşünmədən sadəcə sevirdi. Mən evimizə daha getmirdim. Gülsarənin kölgəsinə çevrilmişdim. Susa-susa onu gözümdən qırağa qoymurdum. Atam bir neçə dəfə məni söyüb- yamanlamışdı. Ev işlərini tək gördüyü üçün hətta hədələmişdi də. Məsumə xala mənim bütün tərəddüdlərimə son qoyduğu günə qədər beləcə xoşbəxt anlar, xoş

saatlar keçirirdim. Ömrüm boyu beləcə yaşamağı üstün tutardım. Kiminsə səni dəlicəsinə sevdiyini, səni canından üstün tutduğunu bilə-bilə yaşamaq bir ömrə bərabərdi, Fatma. Lakin bir gün...

– Nə bir gün, nə oldu?

Fatma oturacaqdan sıçrayıb dik qalxdı.

Etibar başını aşağı sallayıb eləcə xeyli dayandı. Soyuq az qala Fatmanın iliyinə, qanına işləyirdi. Gecənin qaranlığında yan-yana oturub söhbət elədiklərini görən Nübar ana onlar haqqında nə düşünə bilərdi? Ərli qadınla ərgən oğlanın nə gizli söhbəti ola bilərdi? Fatmanın marağı bütün bunlara üstün gəlmişdi. Çiyinlərinin titrəməsindən Etibarın ağladığını hiss edirdi Fatma. İkinci dəfə sual verməyə, onu başladığı söhbətin üstünə qaytarmağa ürək eləmirdi. Ürəyinin ən incə mətləbinə toxunub onu incidəcəyindən qorxurdu.

Etibar əlini dizinə çırpıb başını qaldırdı. Çətin sual qarşısında qalan adam kimi özünü topladı. Qarşısında Fatmanın hələ də ayaq üstə durduğunu görüb sözünə davam elədi:

– Bu işi belə qoymaq olmazdı. Məsumə xalanın vəziyyəti getgedə ağırlaşırdı. Həm də Gülsarəyə müştəri çıxanların sayı artmışdı. Gülsarə özü məni tələsdirir, bir-birimizə qovuşacağımız günü səbirsizliklə gözləyirdi. Məhəbbət mənim də əlimi iş-gücdən soyutmuşdu. İsti bir ocağı, sevdiyim qızla xoşbəxt ailə qurmağı mən ondan az arzulamırdım, Fatma. Lakin bu işin baş tutacağına şübhəm gün-gündən artırdı. İşimi tez qurtarıb evimizə qayıtdım. Atam həmişəki kimi yenə acıqlı idi. Demək olar ki, heç üzümə baxmırdı. Çöldən əl-ayaq yığışıb çıraqlar yananda atam səssiz-səmirsiz öz otağına çəkildi. Elə bil mən yox idim. Nəhayət özümü toplayıb, yataq otağının qapısını döydüm. Səs-səmir gəlmirdi. İkinci dəfə döyəndə atam hirslə qapını açdı, tez də qayıdıb yerində oturdu.

– Xeyir ola, qonşuların damında banlayan xoruz? Sənin kimi fərsiz oğul heç olmasa yaxşıdır,– deyə məni sancmağından qalmadı.

Atamın sözü mənə təsir eləsə də, özümü birtəhər yığışdırdım. Mən onun, nənəmin tikanlı sözlərinə öyrəşmişdim. Özümü ələ almağa çalışdım. O, dibdən, dəhnədən olub-keçənləri də yada salıb uzun-uzadı deyindi.

– Doğma atasını qoyub, şürəvi ləçərinin qulluğunu bitirir. Nankor oğul bax buna deyərlər. İndi təşrif buyurmağının səbəbi nədir?

«Səndən nə atalıq görmüşəm? Şürəvi ləçər idisə niyə elçi düşüb o xəstə qadını rüsvay edirdin? – Deyə ürəyimdə cavabını versəm də, dillənmədim».

– Ay ana, hardasan? Gəl bura, deyəsən nəvənin yadına düşmüşük, – nənəm Reyhanı səslədi.

Mən bircə bunu istəmirdim. Düşünürdüm ki, atamı bəlkə yola gətirə bildim. Ancaq nənəmlə danışıb nəyə isə onu razı salmaq qeyri-mümkün idi. Məni görməyə gözü yox idi. Tez özünü atamın otağına saldı:

– Neynək, o bizim qulluğumuzu bitirmir, biz ona qulluq eləyərik.

Mənə sarı dönüb:

– Ədə, ay sümüyü bizdən, südü kafirdən olan! Atanı, nənəni anan Telli kimi rus çörəyi ilə böyüyən Məsumə xanım qapıdan qovanda sən niyə tənsibimizi çəkib ordan əl çəkmədin? Onun yalı bir az artıqdı? Özünə rahat yuva tapmısan? Tələsmə, Yəhya əmin kimi sənin də bir gün əlinə, qoluna qandal vuracaqlar. Sənin kimilərini dustaqxanaya salmaq üçün səbəb tapmağa nə var– deyə üzümə bozardı.

Daha dözə bilmədim:

– Mən it deyiləm, nənə. Yalı it yeyər. Mən o xəstə qadını köməksiz qoya bilməzdim. O sizə nə eləyib ki, bu qədər qəzəbli danışırsınız? Sizin dediyiniz kimi «Əl tutmaq Əlidən qalıb». Evimizin də işlərini mən görürəm. Birdən-ikiyə ağır iş-zad görmüsən ki, belə danışırsan?

– Belə de.. Bu dilləri hardan öyrənmisən? O boğazdan asılan demokratın arvadından dərs almısan? Narahat olma, onlar kimi sizin də kökünüzü kəsəcəklər. Milli hökumət eyə çox öyünürdülər. Onlar hara, taxt-tac hara? Bir il bayram elədilər, axırda da elə dərs aldılar ki, çətin bir də ayağa dura bilsinlər.

Nəhayət atamın dili açıldı:

– Ay ana, biz burda hökumət məsələsin həll eləmirik ki, əsibcoşmusan. Sənin bu taxt-tacında da bir etibar görmədik. Yenə həmin su, həmin dibəkdi. Nə artırmışıq? Sərhəd açıq olanda yenə

gedib o tayda bir iş tapıb işləyirdik. Beş-altı keçidən, ulaqdan başqa nəyimiz var ki, onunla güzaran keçirək? Atamın bir parça torpağı olsaydı, mən də əkib-becərərdim, günümüz-güzaranımız, bəlkə, düzələrdi. Demokratlar getdi, yenə şahlıq gəldi, biz kasıblar nə əldə elədik? O məktəblər bağlandı, bu birisi açıldı. Sonra nə oldu? Tehranda oturan o məmurların işi düzəldi. Vergi ilə belimizi qırırlar. Qoy görək nə istəyir bu fərsiz oğul. Ağlı olmasa da, bəlkə, ağlabatan bir söz deyəcək? Dil-boğaza qoymursan.

Mən çıxılmaz vəziyyətə düşmüşdüm. Geriyə yol yoxdur deyə fikrimi cəmləşdirdim:

– Ata, mən evlənmək istəyirəm. Sənin xoşuna gəlsəm də, gəlməsəm də, mənim atam, ağsaqqalımsan. Böyüklük elə, mənə elçi düş. Qızın dayısı Qəzvindən üç günlüyə qonaq gəlib. Elə yerinə düşər Gülsarəni gedib ondan istəyəsən. Bu sənin atalıq borcundu. Mən başqasını elçi göndərə bilmərəm. Camaat mənə nə deyər? Məsumə xala xatircamlıq üçün üzüyünü Gülsarənin barmağına taxdı. Anamın mənə verdiyi o yeganə boyunbağını verin, mən də nə isə hədiyyə apara bilim.

Atam əvvəl sakitcə mənə qulaq asırdı. Elə ki, Məsumə xalanın adını çəkdim, göyə çıxdı. Əsdi-coşdu. Boyunbağının adını tutanda nənəm göydən sanki od tökdü. Özü boyda od olub dünyanı yandıracaqdı elə bil:

– Nə boyunbağı-boyunbağı salmısan? Nə yaxşı ki, gorbagor anan o taydan bir dəvə yükü cehiz gətirməyib. Yoxsa bizi qoz qabığına soxardın. Nənən oğluma bir tümən də olsun pul verməyib. Gələndə qızını da lüt-mazanda ötürüb körpüdən bəri. Bəs səni kim yedizdirib, boya-başa çatdırıb? Bəlkə elə özbaşına kol dibindən göyərib qalxmısan?

Atam mütəkkəyə söykənib fikrə getdi. Anasının sözünün üstünə söz gətirməyin mənasız olduğunu başa düşdüyü üçün susurdu. Bir anlığa atama yazığım gəldi. Uşaq kimi boynuna sarılmaq, saçlarını qarışdırıb onu güldürmək istəyi oyandı ürəyimdə. Onda da bir dəfə onun ürəkdən güldüyünü görməmişdim. Həmişə qaş-qabaqlı olardı. Anamın: «Ay Səlim, sən canın o uşağın xətrinə dəymə. Əlindən tut, bircə dəfə dəniz qırağına apar, qoy o da sevinsin», – sözləri qulaqlarımda cingildəyirdi. Onda da: «Sən doğmusan, özün də apar», – deyə soyuqqanlıqla məni

itələyib qapıdan çıxardı. Bura gələndən sonra bir az da tündməcazlığı artmışdı atamın. Qollarım boşaldı, bu sərt, duyğusuz, hissiz insana qarşı ikrah hissim bunu eləməyə imkan vermədi. Bir addım geri çəkilib yenə yerimdə oturdum.

Aralıdan atamın üzündə, alnındakı qırışlara, tüklü cod sifətinə xeyli tamaşa elədim. Yaşına uyğun olmayacaq dərəcədə saçları ağarmışdı. Köhnə cecim salınan taxtın üstündə büzüşüb elə oturmuşdu ki, gözümə balacalaşıb, kiçilmiş bir uşaq kimi göründü. Tavandan daman yağış-qar sularının izləri divarda cığır açmışdı. Məsumə xalanın evinin yanında bu ev mənə çox misgin göründü. Atam nə haqdasa düşünüb bir çıxış yolu tapmayan adam kimi gözünü tavana zilləmişdi. Mənə elə gəldi ki, atam peşimançılıq çəkə-çəkə iki sahil arasında qalıb elə bil. Bir vaxtlar həsrətini çəkdiyi doğma yerlərdə niyə özünə yer tapa bilmir? Zəmanədən şikayətlənə-şikayətlənə acığını, hikkəsini əvvəl anamın, indi mənim üstümə tökür. Tutaq ki, Arazın o tayında bolşevik rejimi ilə barışmırdısa, buralar onun doğulub boya-başa çatdığı yerlər idi axı? Ona nə olmuşdu özüm də ayırdlaşdıra bilmirdim. Gecə-gündüz işləyir, çalışır, yenə özünə güzaran qura bilmirdi. Atam uzandığı yerdən qovzanmadan dilləndi:

– Get yat, indi gecdi, bir şey fikirləşərik.

Əli ilə mənə otaqdan çıxmağı işarə elədi. Nənəm atamın otağından çıxanda artıq gecə yarıdan keçmişdi. Səhər yuxudan duranda məni hamıdan qabaq qarşılayan nənəm Reyhan oldu:

– Sabahın xeyir, bala, necə yatmısan? Axşam mən də artıq-əksik çox danışdım. Gərək qoca nənəni bağışlayasan. Get əl-üzünü yu, nahar hazırlamışam, atanla birgə süfrəyə oturun. Mən də namaz qılıb gəlirəm.

İlk dəfə nənəmi görürmüş kimi yerimdə sanki donmuşdum. Onun dilindən çıxan «bala» kəlməsi məni heyrətə gətirmişdi. Atam dəyirmi taxtanın arxasında qılçalarını qatlayıb oturmuşdu. Mənə əli ilə yer göstərib bismillah deyib çörəyə əl uzatdı. Sonra ayağa qalxıb otağına getməyim üçün işarə elədi. Nədənsə nənəm namazını qurtarıb qayıtmamışdı. Bu məni çox şübhələndirdi. Namaz qılmaq bu qədər vaxt aparmazdı. Bir neçə dəfə boylanıb evə, eyvana baxdım. Nənəm gözə dəymirdi. Atam mənə bir məktub uzadıb dedi:

– Bu məktubu al, bu gün, elə bu saat aparıb Xalxalda yaşayan əmin Seyfəddinə çatdırarsan. Bizə bir qədər pul çatacaq, onu al gətir xeyir iş üçün lazım olacaq. Bir az da yol azuqəsi hazırlayıb nənən. Onu da götürməyi unutma. Çöl işlərini mən birtəhər yola verərəm.

Bu sifarişi yerinə yetirmək üçün azı üç gün vaxt lazım olduğunu bildiyim üçnü etiraz elədim:

– Ata, bu çox çəkəcək. Yazıq Məsumə xalanın işlərini kim görəcək? Üstəlik, qonağı da var. Gülsarənin dayısı üç günlüyə gəlib, Qəzvinə işə qayıdacaq.

Mən gedə bilmərəm. Başqa bir adam tap göndər. Bilirsən ki...

Sözümü yarımçıq kəsdi.

– Sənə atan nə deyir, onu da elə. Heç kəslə işin olmasın. Tez get ki, tez də qayıdasan, yubanma. Mən çar-naçar bağlamanı alıb yola çıxdım. Bir tərəfdən də güman edirdim ki, xeyir işi təxirə salmaq istəmədiyi üçün atam tələsir. Bu mənə qol-qanad verirdi. Atamda nəhayət mənə qarşı mərhəmət oyandığını güman edirdim. Amma Gülsarəni, Məsumə xalanı xəbərdar etmədən getdiyimə görə heyifsilənirdim. Mənim Xalxala gedib-qayıtmağım üç gün yox, azı on gün çəkdi. Əmim Urmiyada yaşayan oğlunun yanına getmişdi. Onu gözləməli oldum. Əliboş qayıtsam, yaxamı atamın, nənəmin əlindən qurtara bilməyəcəkdim. Sonradan öyrəndim ki, atam bunu bilirmiş. Məni qəsdən ora göndərmişdi. Mən evə qayıdanda...

– Hə, nə oldu, Etibar, ürəyimi üzmə, – deyə Fatma onun qolundan tutub silkələdi. Etibar əvvəlcə daşa dönmüş kimi laldinməz xeyli baxdı. Sonra hönkürüb, ağladı. Kişinin belə ağlamağını Fatma heç vaxt görməmişdi. Deməli, dərd kişini də belə ağladarmış deyə düşündü. Dinməz-söyləməz onun sakitləşəcəyini gözləməkdən başqa çarəsi qalmamışdı.

– Sizə soyuq olar, – deyə Nübar ana bir neçə dəfə onları səslədi.

Heç biri soyuğu hiss eləmirmiş kimi yerindən tərpənmədi. Nübar ana oğlu Şamilin qarasına deyindi:

– O Allah insaf vermiş evdə olsaydı, qonaqları belə darıxmazdı. Niyə belə gec qayıtdı, görəsən? Deyirlər, yenə ara qarışıb. Allah eləməmiş başında bir qəza-zad olmasın... Eh, bir balaca sevinib qırışığımız açılmışdı ki, yenə bu zatı qırıq ölkəni qana çalxadı. Ağzıgöyçəklər də küncdə-bucaqda danışırdılar ki, şah

atası Rza xandan fərqlidir. Demokratlar onu silkələyəndən sonra xasiyyətini, siyasətini dəyişəcək, biz ağ gün görəcəyik. Noldu bəs? Farsların dilincə desək: «Xər həmən xər əst, vəli çuləş digər əst» (Eşşək həmin eşşəkdir, ancaq çulu başqadır). Bu kor olmuş sülalə nə eləyir-eləsin, yenə köhnə hamam, köhnə tasdı. Boyunduruq yenə bizimkilərin boynundadır. Çulu yox, eşşəyin özünü dəyişdirmək lazımdır, bala.

Hər üçü güldü.

Fatma savadsız ev qadınının dediklərinə heyran qalmışdı.

Bizim analarımız hər nə iş olur-olsun atalarından, qardaşlarından geri qalmayıblar. Döyüşdə kişilərlə çiyin-çiyinə hünər göstəriblər. Nahaq yerə deməyiblər ki, türk qadınları at üstündə uşaq doğub böyüdərmişlər. Tomris, Sara xatun, Burla xatun, Tutubikə ulu nənələrimiz deyillərmi? Azərbaycan xalqının qəhrəman oğlu İranda yaşayan xalqlar arasında sülh, dostluq yaratmağa çalışan Səttərxanı dünyaya məhz türk qadını gətirmişdi. Onun Bağırxanla başçılıq etdikləri azadlıq hərəkatı Azərbaycan xalqının milli mübarizəsi idi. O, doğrudan da, Yaxın Şərqdə başlanacaq Milli Azadlıq hərəkatının əlifbası sayılırdı.

Etibarın susduğunu görən Fatma yenə öz mülahizələrinə, elədiyi tədqiqatlara qayıdıb yaddaşını təzələməyə fürsət tapmışdı.

Oxuduqlarına görə məşhur Azərbaycan yazıçısı, filosofu, demokratı Mirzə Fətəli Axundzadə, satirik şair Mirzə Ələkbər Sabir İran inqilabının ilk carçılarından olmuşdular. Xalqı qəflət yuxusundan oyatmaqda onların əsərləri o dövrün ən öndə gedən dərgilərindən olan «Suri-İsrafil»dən də artıq təsirli olmuşdu. Onlar təkcə Azərbaycan deyil, fars və kürd xalqları arasında birliyin, bərabərliyin yaranması üçün mübarizəyə qoşulmuşdular.

Fatma Cənubi Azərbaycan Milli Azadlıq hərəkatından və ilk azadxah Səttərxanın həyat fəaliyyətindən bəhs edən elmi əsər yazmaq fikrində idi. O inqilab dövründə xalqın milli şüurunun oyanmasında bir ordu qədər rol oynayan «Molla Nəsrəddin» jurnalının, «Azərbaycan» qəzetinin fəaliyyətini az-çox öyrənib, məlumatlar əldə etmişdi. O vaxt «Molla Nəsrəddin»in bir nömərsində gedən (Atabəyin öldürülməsi münasibətilə yazılan) bir şeiri Səttərxanın şəxsən oxuduğunu, bəyənib güldüyünü də qeyd dəftərinə yazmışdı:

«... Qətl elədiz Atabəyi, mən ki, bu əmri danmıram,
Var yenə min Atabəyiz, yoxsa əməlli qanmıram?
Dinmə, danışma, yat, bala, sən deyən olmayıb hələ..»

Səttərxanla çiyin-çiyinə ingilislərin Azərbaycandakı az qala yüz illik ağalığına və onların sadiq qulu Məmmədəli şah rejiminə qarşı gedən milli azadlıq hərəkatında vuruşan oğullarımızın anaları, arvadları da onlara kömək eləyir, qələbəyə ruhlandırırdılar. Tehran taxt-tacının Təbrizdəki ağası şahzadə Eynüldövləyə yazdıqları məktubda Təbriz qadınları türk analarının nəyə qadir olduqlarını açıq-aşikar bildirmişdilər.

Təbriz qadınları yazırdılar «Cənab Eynüldövlə, bizim kişilərimiz dava edir, biz də evdə oturub onların yaralarını sarımaqla məşğuluq. Biz qadınlar dava eləməyi bacarmasaq da, kişilərimizə mane olmamaq üçün ağac qabığı yeməyə hazırıq, təki sənə təslim olmasınlar».

Eynuldövlə Təbriz qadınlarının yazdığı məktubdan elə qəzəblənib ki, lap gülünc vəziyyətə düşüb demişdi:

– Ağac qabığı nədir ki, onlara lap torpaq da yedizdirəcəm.

Fatma əlini dizinə çırpdı:

– Yaxşı deyiblər ki, sən saydığını say, gör fələk nə sayır. Bakıdan bura gələndə arzuladığım ümidlər şüşə kimi çiliklənib yerə töküldü. Bütün bunlar xoş xəyaldan başqa bir şey deyilmiş. Mən özüm-özümü aldatmışam. İki əsrə qədər bir vaxda İranın başı sayılan Azərbaycanı tikə-tikə parçalayıb içində əridən bu əsilsiz-köksüzün taxtda oturmasından nə gözləmək olar? Təqib oluna-oluna öz yurdunda didərgin gəzən soydaşlarımın taleyi məni odsuz-ocaqsız yandırır. Mən tutulandan sonra Qasımın başı nə bəlalar çəkəcək, onu Allah bilir. Hələ dünyaya təzəcə göz açan körpəmizi demirəm. Eh, bircə dəfə səni bağrıma basa bilsəydim, Cavad! Birtəhər yəqin böyüyəcəksən. Amma sonralar ata-ananın didərgin tale yaşadığı üçün səni dinc qoyacaqlarmı? Atana demokrat, mənə «şürəvi cəsusu» adını alnımıza bir damğa kimi vuran bu cəmiyyət səni yaşadacaqmı? Bəlkə də, mənim adıma uydurulan cürbəcür şayiələr, fərziyyələr üçün böyüyəndə xəcalət çəkəcəksən? İndi hələ başımızın çəkdiyi bu bəlalardan xəbərsiz, günahsız, məsum bir körpəsən, oğul! Kim bilir, bəlkə, Mürsəl,

Bayram, Haşım, Etibar kimi dövran səni də öz düyünündən, doğanağından keçirəcək? Amma bir şeyə inanıram ki, nə olur-olsun onların ürəklərindəki inqitam, qisas alovunu dəryalar bağlansa, söndürə bilməyəcək. Qoy mənim haqqımda nə uydu-racaqlar, uydursunlar bir onu bilirəm ki, sən heç vaxt anana görə xəcalət çəkməyəcəksən. Bu bir neçə ayın ərzində anan tamam başqa adam olub, oğlum. Əgər zülmün əlindən sağ çıxsam, mən də bu soydaşlarımızın cərgəsində olacam. Atan başladığı işin davamçısı kimi mənimlə fəxr eləyəcəksən. Bir can nədir ki, onu bu xalqın xoşbəxtliyinə verməyə mən də hazıram.

Fatma qəti qərar qəbul edirmiş kimi qətiyyətlə ayağa qalxıb evə getmək istəyəndə, Etibar yüngülcə qoluna toxundu. İstər-istəməz aşağı çökdü. Onun qəlbinə dəyib incidəcəyindən qorxur-du. Bəlkə, belə fürsət bir də ələ düşmədi? Sabah, biri gün başımı-za nə gələcək, bilmək olmur deyə fikirləşdi.

– Başına gələnləri məndən savayı bir adama danışmısan, Eti-bar? – Deyə Fatma dilləndi.

– Yox, Fatma, ürəyimə bir adamı yaxın buraxıb etibar elə-məmişəm. Ürək elə qıfıllı qapıdır ki, onu hər adama açmaq ol-mur. Səni düzmü, səhvmi başa düşəcəyindən ehtiyat eləyirsən. İndi dərdi olmayan adam az tapılır. Sənin dərdinə şərik çıxıb daşımağa hər kəs maraq göstərməz. Odur ki, susmuşam. Susa-susa indiyə qədər bu ağır yükü içimdə tək daşımışam. Danışmaq gümüşdənsə, susmaq qızıldandır hesab eləmişəm.

– İndi bəs necə? Məni ürəyinin qapısına nədən yaxın buraxır-san? Məni cəmi bir neçə gündür tanıyırsan.

– Bilmirəm, Fatma, bunu mənim ürəyimdən soruş. Hökmü verən də odur, qərar çıxaran da.

Gözucu Fatmaya nəzər saldı. Ürəyi titrəyə-titrəyə Fatma dil-ləndi:

– Elə isə qoy qərarını çıxartsın, görək səni bu neçə illərdi sus-mağa nə məcbur eləyib?

Gecənin qaranlığında hər ikisi güldü. Nübar ananı şübhəyə salmamaq üçün evə keçdilər. Nübar ana içəri evdə çoxdan yat-mışdı. Buxarıya qoyulan odun-kömür parçaları yanıb öləzimişdi. Otağın havası da xeyli soyumuşdu. Etibar maşanı götürüb isti külü qarışdırdı. Kül altında qalan iri-xırda köz parçalarını bir

yerə yığdı. Əlindəki dəftərlə bir neçə dəfə yelləyib közərtdi. Üstünə bir neçə odun parçası da qoyub təzədən yandırdı. Evdə bir canlanma əmələ gəldi. Fatma çölün soyuğundan sonra pörtüb-qızarmışdı. Çiyninə saldığı kürkü çarpayının üstünə atıb Etibarla yan-yana oturdu. Divardakı taxçada yanan çırağın işığı get-gedə azalır, çölün zülməti evə çökürdü. Etibar çırağın piltəsini yuxarı qaldırdı. Otağa yayılan sarı işıq şöləsi bir az artdı. Samavarın ilıq suyundan bir fincan töküb içdi. Sanki gümrahlaşdı, ürəkləndi. Söhbətinə davam etdi:

– Əmimdən atama çatan əmanəti alıb elə o saat da evə yola düşdüm. Evə çatacağım anı, saatı səbirsizliklə gözləyirdim. Maşından düşüb kəndə çathaçatda meşədə odun yığan hacı Manafın oğlu məşədi Həmzə kənardan qışqırdı:

– Səni təbrik edirəm, Etibar dadaş.

Heç nə başa düşmədim. Fikirləşdim ki, balaca kənddi də, yəqin Gülsarə ilə aramızdakı münasibəti eşidib. Ya elə Gülsarə üzüyü rəfiqələrindən birinə hövsələsizlik eləyib göstərib. Ürəyim aramsız döyünür, səsi az qala qulağıma çatırdı. Özümü hövlənək həyətə saldım. Çəpərin qırağındakı gül kollarına su səpən nənəmlə qarşılaşdım. Nənəm haçandan-haçana başını qaldırıb üzümə xeyli mat-mat baxdı. Sonra acıqlı-acıqlı:

– Hə, nə gətirmisən, ver görüm, – deyə kiçik bükülünü əlimdən alıb qoynunda gizlətdi.– Keç içəri, qonağımız da var. Sənin gözəlçə havadarın Məsumə xanım dalınca kənddə adam qalmayıb ki, göndərməsin. Deyəsən, bizimlə şərikli oğlu-zadı var. Tanrı lazım bilsəydi, elə özünə övlad verərdi, a xanə-xərab. Özgə buzovundan inək olmaz adama. Özgənin inəyin bağlayanın çatısı əlində qalar deyiblər.

Onun deyinməyindən qanım qaralsa da, bir o qədər əhəmiyyət vermədim. Dörd yana ha göz gəzdirdim yad adam-zad görmədim. Nənəm dediyi qonaq bəs hanı? – Deyə mətbəxə keçmək istəyirdim ki, qapının ağzında atam məni qarşılayıb öz otağına apardı. Tanrı qisməti, alın yazısı deyə uzun-uzadı danışdı. Otağı bayramsayağı bəzədilmişdi. Çarpayının üstünə qırmızı örtük salınmışdı. Qızılı rəngli üzlüyü olan qoşa yastıq və mitəkkələr qoyulmuşdu. Atam daima tüklü saxladığı üzünü, bığını, saqqalını təraş etdirmişdi. Göy mahuddan tikilmiş geyimi onu xeyli cavan

göstərsə də, gülməyim tutdu. Axı saqqalı qırxdırmaq bu ölkədə yaşayan müsəlmanlara qadağan idi. Dini-nöqteyi nəzərdən günah sayılırdı. Atamdakı dəyişiklik məndə qəribə hisslər oyatdı. Onun bir elə qoca olmadığına hətta sevindim.

– Atan yeni həyata başlayıb, bala. Gərək bu gündən aramızdakı incikliyə son qoyaq. Mehriban yaşayaq, Etibar.

– Hə, ata təzə iş-zad tapmısan nədi? – Sevincək soruşdum.

Atam neçə vaxt idi ki, işsiz qalmışdı. Hesab etdim ki, iş tapmaq bizə toy-bayramdır. Dillənib onu təbrik etmək istəyirdim ki, atam ağır-ağır sözə başladı:

–Təzə iş deyəndə ki, nə bilim, vallah, bu xarabada iş tapmaq bilirsən də çox müşgüldür. Mən evlənmişəm, Etibar! Evimizin bundan sonra abı-havası dəyişəcək. Nə qədər yaslı gəzib-dolanmaq olar.

Onun heç vaxt anama yas saxlamadığını bilə-bilə yenə sevincək dilləndim:

– Mən buna ancaq sevinə bilərəm, ata. – Onu qucaqladım. Atam qolumu boynundan açıb üzümə baxmadan dilləndi:

– Nənən səni təzə ananla tanış eləyər. O, nənənin otağındadı, oğul. Aramızda bir az anlaşılmazlıq oldu. O da, inşallah, yavaş-yavaş düzələr. Bir az keçər, hirsi-hikkəsi yatar, sonra yumşalı-san-yumşalı. Bu qadınların hamısı belədilər. İstəyirlər onların naz-qəmzələrini çəkəsən. Mənim də o vaxtım deyil, axı? Cavan qadınla evlənmək tək mənim başımda görünməyib ki?

Özbaşına nənəmin otağına girə bilməzdim. Hələ bu çağa qədər nənəmin otağının qapısı haradan açılır, bilmirdim. Heç özu də buna imkan verməzdi. Nənəm çöldə xeyli ləngidi. Bir tərəfdən də atamın tələsik evlənib, məni gözləmədiyindən inciyən kimi oldum. Axı nə baş vermişdi? Elə bu on günün içində atam gərək evlənəydi? Qaçhaqaç-zad düşməmişdi ki?.. Mənim xeyir işimi eləmək əvəzinə, özünə arvad almışdı. Məni əmimgilə göndərməkdə, deməli, başqa məqsədi var imiş deyə öz-özümə deyindim. On gün bundan qabaqkı ümidim tamam qırılmışdı. Doğma atam belə eləyəndə bəs başqasından nə gözləmək olardı? Deyirlər ki, yetimə gəl-gəl deyən çox olar, çörək verən az. Aldanıb ora getdiyimə peşiman oldum. Dolaşıq fikirlər içində Məsumə xalanın darvazasına nə vaxt çatdığımı özüm də bilmədim. Qapı bağlı idi.

Həyətdə bir inni-cinni görünmürdü. Otaqların birindən zəif işıq gəlirdi. Hasardan adlayıb qapının cəfdəsini çəkdim. Yuxarı qalxıb işıq gələn otağın qapısına çatdım. Qapını aralayıb içəri keçəndə Məsumə xalanın çarpayısının başında üzü divara sarı başqa bir qadın oturmuşdu. Ürəyim şiddətlə döyündü. «Bəs Gülsarə hanı, bəlkə, ona bir şey olub?» – Deyə özümü çarpayıya sarı atdım. Məsumə xala gözü yarıyumulu uzanmışdı. Qadını tanımadım. O, başının işarəsi ilə məni yan otağa çağırdı. Mən itaətkar uşaq kimi onun dalınca getdim. Ağır bir xəbər eşidəcəyimi güman edirdim. Gözlərimi geniş açıb onun üzünə zillədim. İlk öncə onun kimliyini öyrənmək istədim. Qadın məni başa düşürmüş kimi dilləndi:

– Mən Yəhya mirzənin bacısı Mərziyə xanımam, oğul. Bəlkə, eşitmiş olarsan. Məşədi Qulamın külfəti. Bu tərəflərə az-az gəldiyimə görə məni tanımırsan.

– Demək, Gülsarənin bibisisiniz, xala? Düz tapmışam? Nə yaxşı gəlmisiniz, bəs Gülsarə hanı?

On gündür üzünə, nəfəsinə həsrətəm deməkdən özümü güclə saxladım. Böyüyə hörmət mənasında başımı aşağı salıb gözlədim. Qadın bir az acıqlı, bir az da qəribə baxışla məni süzdü.

– Bu bədbəxti bəlaya salan Gülsarə olmadımı? Oğulsuz-qızsız qərib, xəstə bir qadının təhqir olunub döyülməsi Allaha da xoş getməz, oğlum.

Mən heç nə başa düşmürdüm. Mərziyə xanım mənim doğrudan da, heç nədən xəbərim olmadığını başa düşüb, əhvalatı olduğu kimi danışdı.

Etibar yenə başını sallayıb susdu.

– Hə, tez ol, danış-deyə Fatma Etibarın qolundan tutub yenə silkələdi. Etibarın üzündən süzülən yaş titrəyən dodaqlarının üstündən axıb yaxasına tökülürdü. Əlinin dalı ilə göz yaşlarını sildi. Fatmanı intizardan qurtarmaq üçün özünü topladı:

– Mən gedən günü nənəm Reyhan məşədi Əzimin yanına gedib Gülsarəyə elçi düşür. Heç bir şeydən xəbəri olmayan məşədi Əzim yetim, tək-tənha qalan bacısı qızını, nəhayət, bir adama ərə verib bu yollardan canını qurtarmaq məqsədilə razılığını bildirir. Amma qızı gətirtdirib öz dilindən razılıq almağı məsləhət görür. Atam, nənəm Gülsarənin gəlişini gözləyirlər. Bu əsnada kəndin

mollasını da tapıb gətirirlər. Gülsarə atamı, nənəmi görcək sevinir. Güman eləyir ki, onu mənə nişanlamağa gəliblər. Nənəm anamın boyunbağısını qızın boynundan asanda Gülsarənin sevincdən az qalır ki, ürəyi yerindən çıxsın. Əvvəlcədən bu işləri molla ilə düzüb-qoşan nənəm tez kəbin də kəsdirir. İşin axırını gözləməyən Gülsarə Məsumə xalanın yanına qaçıb bu şad xəbəri ona çatdırmağa çalışır. Məsumə xala belə tez-bazar işdən şübhələnir. Nigah oxunarkən orada olmadığına görə Gülsarəni danlayır. O gün Etibarın görünməməyi Məsumə xanıma qəribə gəlir. Burda nə isə bir iş var deyə düşünür.

– O, heç bu gün işə-gücə əl yetirmək üçün də gəlməyib, – deyəndə Gülsarə də təəccüblənir. Məşədi Əzim işin nə yerdə olduğunu başa düşəndə artıq gec idi. Gülsarə atamın kəbinli arvadı sayılırdı. Məsumə xala qızı otağa salıb qapını bağlayır. Gülsarə özünü öldürəcəyini bəyan eləyir. Məsumə xanımın ürək tutması şiddətlənir. Atam qanunu arvadını aparmağa gələndə Məsumə xanım ərinin ov tüfəngini götürüb onu qıza yaxınlaşmağa qoymur. Lakin onun nənəm Reyhanla əlbəyaxa olduğundan istifadə edən atam onu itələyib otağa keçir. Gülsarəni sürüyə-sürüyə bayıra çıxardır. Heç kəs dinib-danışmır. Qız onun qanunu arvadıdır deyə dağılıb gedirlər. Gülsarə atamı yaxın qoymur, özünü öldürəcəyi ilə hədələyirmiş. Bundan ehtiyatlanan nənəm qızı otağına gətirib özü ilə yatızdırırmış. Gec-tez yola gələcəyini güman edirmiş. Mərziyə xanım sözünü qurtarıb üzünü mənə tərəf tutdu:

– Bu gündən bu tərəflərə gəlməyi unut! Səni görsə, onun halı bir az da pisləşə bilər. Get o namussuz atanın yanına. O yetimin axırı nə olacaq, bilmirəm?

Mən oturduğum yerdən qalxa bilmirdim. Dinməz-söyləməz ağlayırdım. Belə aldandığıma, sadəlövhlüyümə ağlayırdım. İndi nə edim deyə fikirləşdim. Getməyə yerim, bir simsarım yox idi. Bu məni bir elə narahat eləmirdi. Əlimi doğma ata sayılan bir murdarın qanına bulayıb qatil olmaqdan qorxurdum. Bundan başqa çarəm yox idi. Mirzə Yəhyanın tüfəngini divardan alıb özümü həyətə atdım. Evimizə gəlib bir neçə dəfə «nənə» deyə səslədim. Otaqlara girib axtardım. Atam evdə yox idi. Haçandan-haçana nənəm tövlədən bayıra çıxdı:

– Nə bağırırsan, a küçük, mən sənin uşağınam? Haçandan sə-

nə nənə olmuşam? Bilirsən ki, sənin başını kəssələr, qanını içərəm, sözünü de!

Elə bil qan beynimə sıçradı. Nənəmə sarı bir güllə atdım. Qayıdıb mal tövləsinə girdi. Səsə Gülsarə ağlaya-ağlaya mənə sarı yüyürdü. Sinəsində anamın yadigarını görüb duruxdum. Məsumə xalanın verdiyi üzük də barmağında idi. Özünü boynuma atıb mənə sarıldı.

– O murdarlardan birini öldürsən, özünü də, məni də bədbəxt eləyərsən. Mən ya sənin olacam, ya torpaqda çürüyəcəm. Bunu unutma! – Dedi.

Qollarım boşaldı. Tüfəngi yerə atıb Gülsarəni qucaqladım. Ürək yanğısı, böyük həsrətlə gözlərindən, yanağından öpdüm. Neçə vaxtdır ki, həsrətilə yandığımı öpüşlərimə qərq elədim. Gülsarə bir az geri çəkilib yalvardı:

– Bir az döz, başına dönüm, buna bir əncam çəkərik. Əl-ələ verib gecənin birində qaçıb bu xarabadan uzaqlaşarıq. Dünyanı səbrlə yeyiblər, Etibar. Qızışmış başla heç nə eləyə bilməzsən. Mən onlara elə bir dağ çəkəcəm ki, ömrləri boyu yadlarından çıxmasın.

Gülsarənin təmkinliyinə heyran qalmışdım. Bəlkə, məni sakitləşdirib eləyə biləcəyim cinayətdən uzaqlaşdırmaq üçün belə deyirdi, bilmirəm. Nənəm hələ də tövlədən çıxmamışdı. Səsə toplaşanlar da dağılışıb getmişdilər. Mənim birdən-birə sakitləşməyimin də səbəbini bilmirdi, nənəm. Fürsətdən istifadə edib xeyli dərdləşdik. Tüfəngi öz yiyəsinə qaytarıb heç nə olmayıbmış kimi özümü aparmağı məsləhət görürdü, Gülsarə. Biz ara-sıra gizli görüşürdük. Onlar elə bilirdilər ki, mən taleyimlə barışmışam. Amma atamın tez-tez deyinməyini eşidirdim:

– Sən mənim başıma bu oyunu açmısan, ana! Mən özümə yox, sənə arvad almışam? Budur üç ay olar ki, mən gözləyirəm. Hər dəfə, səbr elə deyirsən. Bir kasıb babanın qızını alardım. Axı ömrümə nə qalıb ki, uşaq-muşaqla siçan-pişik oyunu oynayıram. Mən əbləh gərək sənin sözünə baxmayaydım. Oğlumu da, məni də bədbəxt elədin. O yetim də bir ağ gün görərdi. Nə qədər pis olsa da, yenə mənim ətimdən-qanımdan yaranıb.

Qulaqlarıma inanmırdım. Atam bir atımla iki dovşan vurmaq istəyirdi. Guya peşimançılıq çəkirdi. Mənim qarşımda günahla-

rını yumaq məqsədilə desə də, ona inanmırdım. İlan vuran ala çatıdan qorxar deyiblər. Nənəm də hikkə ilə cavab verirdi:

– Səbr elə, ay Səlim, o qız sənin ayaqlarına düşüb axırda yalvarmasa, mən adımı dəyişdirərəm. Belə işlərdən mən çox çıxmışam. Fala baxan Xeyransa da mən deyəni deyir. Mən bilirəm bu iş necə olur. Sən çox darıxma. Əsası odur ki, şikar mənim toruma düşüb. O tordan çıxmaq elə də asan deyil.

Gülsarə olmasaydı, bu xəbis, ikiüzlü insanlardan uzaq bir yerə qaçıb sakit güzəran sürərdim. Məni burada Gülsarəni görmək təsəllisi saxlayırdı. Gözümü atamdan çəkmirdim. Gülsarənin otağına yaxınlaşanda bir şeyi bəhanə eləyib dərhal otağa girirdim. Divarın o tayında nənəmlə yatan Gülsarənin nəfəsini duyub təsginlik tapırdım. Hər ikimiz sevə-sevə susmaqda idik. Düzü, son vaxtlar çox fikirli olmuşdum. Bu işin axırının yaxşı qurtarmayacağını hiss eləmişdim. Qorxu, qəribə bir qorxu düşmüşdü canıma. Onu nə qədər sevsəm də, atamın kəbinli arvadı olduğunu fikirləşəndə özümə nifrət edirdim. Atamın namusuna xəyanət etdiyimi düşünəndə başıma sanki hava gəlirdi. Gülsarənin ağlar gözləri, kədərli sifəti, uzaqdan-uzağa yandırıb-yaxan odlu ahları məni bu xarabadan uzaqlaşmağa qoymurdu. Hərdən:

Yox, bir də ona yaxın getməyəcəm desəm də hər gün, hər an addım-addım ona doğru gedirdim. Yox, olmaz deyə-deyə ona sarı əvvəlkindən də çox can atırdım. Öz hisslərimlə bacara bilmirdim. Yaşadığım bu hisslərdə bir az sevinc, bir az qorxu var idi. Onunla qarşılaşanda göz-gözə gəlməkdən, nəfəsini yaxından duymaqdan qorxurdum. Bəzən də odlu nəfəsini üzümdə hiss eləyib gözlərimi yumurdum. Yox, gözlərimi yumsam da ətrafda, hər yerdə Gülsarəni görürdüm. Bu əlçatmaz xoşbəxtlikdən sanki məst olmuşdum. Bu qədər sevdiyimə baxmayaraq, onu xoşbəxt eləyə bilməzdim. Hər dəfə düşünəndə ki, o atamın kəbinli arvadıdır, özümü dünyanın ən alçaq adamı hesab eləyirdim. Elə olurdu ki, gecənin bir vaxtında Gülsarə yatan otağa keçib onu bağrıma basmaq, əzizləmək, xoşbəxt eləmək istəyirdim. Sonrakı bədnamlığımı düşünərək bu dəli istəkdən əl çəkirdim. Gülsarə heç nəyə baxmadan, çəkinmədən sevirdi. Bu onun ürəkdən silinməyən ilk məhəbbəti idi. İlk məhəbbət unudulmur deyirlər. Mən qərarımı vermişdim. Burda qala bilməzdim. Ya bədnam

olmalı, ya da çıxıb getməli idim. Səhər süfrə arxasında onu kefi kök, şən gördüm. Ancaq gözlərinə baxa bilmirdim. Onun qonur gözlərindəki naməlum xoşbəxtliyi görmədən çıxıb getmək istəmirdim. Dünən görüşəndə ona getmək haqqında bir kəlmə də söz deməmişdim. Qoy məni əhdində, ilqarında dönük bilsin. Vəfasız, etibarsız saysın, əlini üzüb öz həyatını yaşasın deyirdim. Amma rüsvayçılığı qəbul edə bilməzdim.

Gülsarə bütün ciddi-cəhdlə boşanmağa çalışırdı. Hər dəfə atamın söyüşü, təhqirləri ilə rastlaşırdı. Nənəm əvvəlki sözləşməyimizdən sonra mənə bir söz deyə bilmirdi. Məndən qorxurdu. Amma Gülsarənin gününü, necə deyərlər, göy əsgiyə bükmüşdü.

– Sənin ancaq ölün bu evdən çıxa bilər. Aç qulağını, eşit! Səni boşamağa almamışıq ki... Dilində əzbər eləmisən. Bu gün-sabah sənin o dayın arvadı gorbagor olar, ərinlə köçüb qanunu evinizdə yaşayarsınız. Bəs necə? Ərlə-ərvadın malı da, canı da bir olmalıdır. İndi get ağlını başına yığ. Su doldu bardağa, oldu içməli. Nə vaxta qədər nazınla oynayacağıq?

Onun bu sözlərini Mərziyə xanım əri məşədi Əzimə çatdıranda kişini od götürmüşdü. O, belə aldandığını heç vaxt bu ana-balaya bağışlaya bilmirdi. Məşədi Əzim Qəzvində vəkil işləyirdi. Məsumə xanım sağ ikən vəsiyətnaməni dəyişdirib Mirzə Yəhyanın bacısı Mərziyənin adına eləmişdi. Məsumə xanım da qol çəkmişdi. Mən bunu bilirdim. İstəyirdim ki, bu ana-bala vardövlətin nəşəsi ilə bir az «keyf» eləsinlər. Bu mənə ləzzət verirdi. Gülsarənin boşanacağına ümid bəslədiyim vaxtda gözlənilməz bir hadisə məni sarsıtdı. Gülsarə hamilə idi. Uçmağa qanadı yox idi. Mən isə başımı soxmağa yer tapa bilmirdim. Bu iş bəyan olsa Gülsarəni, məni nə gözləyirdi, ağlıma sığışdırmırdım. Ömrüm boyu bu səadəti axtardığım halda yasa batmışdım. Gülsarənin nəşəsinə acı qatmamaq üçün könülsüz-könülsüz gülümsədim. Gözümlə onu otağa qədər müşayət eləyib öz otağıma çəkildim.

Gecə yarı idi, yay gününün istisindən sonra kəndin üstünə bir az sərinlik çökmüşdü. Həyətdəki çardağın üstündə uzanmışdım. Gözümü səmanın dərinliyinə, baxışlarımı ulduzlara zilləyib düşünürdüm. Gözümə yuxu getmirdi. Ulduzlar göydə saysız-hesabsız idi. Mən öz ülkərimi axtarırdım. Bu ağlabatmaz fikir məni yorurdu. Bu qədər ulduz kəhkaşanında mənimki hansı idi, nə bi-

ləydim? Ümumiyyətlə, o ulduz mövcud idimi? Ya elə özüm-özümü aldadırdım? Tanısaydım, ardınca düşüb dünyanın insan ayağı dəyməyən yerlərinə məni apar deyərdim. Ulduz karvanı ürəyimin ağrılarına məhəl qoymadan bir ucdan axıb gedirdi. Elə bil səsim batmışdı. Çardağın üstünə döşənən narın ot, küləş od olub kürəyimə yapışmışdı. Çıxış yolu axtarırdım, tapa bilmirdim. Şirin xəyal məni çəkib Bakıdakı həyətimizə – nənəli, babalı xoşbəxt uşaqlığıma aparırdı. Ürəyim şiddətlə döyünürdü. Elə bu vaxt bir ağlaşma, ağı səsi gecənin səssizliyinə qarışıb yarıyuxulu kəndə yayıldı. Gecənin zülmətinə batan evlərdə işıqlar yanmağa, həyət itləri aramsız hürməyə başladı. Çardaq hündür olduğundan qonum-qonşunun bir-birini səsləyib Məsumə xalanın evinə tərəf axışdıqlarını açıq-aşkar görürdüm. Çardaqdan sıçrayıb yerə düşdüm. Atam, nənəm işdən hələ halı deyildilər. Bundan necə sevinəcəklərini təsəvvür edirdim. Bəs Gülsarə? O necə olsun? Ona anadan artıq olan o biçarə qadının ölümü Gülsarəni bu vəziyyətdə necə sarsıdacağını düşünüb səssizcə geyindim. Hamilə qadınların onsuz da əsəbi olduğunu eşitmişdim. Onun hamilə olduğunu biləndə yasa batdığım halda indi onu niyə qorumaq istəyirdim, bilmirdim? Bəlkə, içimdə şipşirin atalıq hissi oyanmışdı? Bu haqqı, hüququ mənə kim vermişdi? Əslində mənim olub, qanunla özgənin olana yiyələnməyə mənə kim haqq vermişdi? Yox, yox, bu haqq mənim deyildi. Bu yaşında atamı el içində rüsvay eləməyimə heç kəs haqq qazandıra bilməzdi. Düzünə qalsa, bu haqqı mənim əlimdən bilə-bilə atam almışdı. O, mənə elə bir yara vurub ki, ömrümün axırına qədər sağalmayacaq. Bununla belə çəkdiyim vicdan əzabı məni yatmağa, yeməyə, gəzib- dolanmağa qoymurdu.

Məsumə xanımı dəfn eləmək üçün tez evə qaçıb paltarımı dəyişmək istəyəndə evdə böyük qalmaqalla üzləşdim. Quruyub qapının ağzında dayanmışdım. Gülsarənin ağız-burnundan axan qan yaxasını islatmış, saçları üzünə dağılmışdı. Atam məni görcək dəmir yabanı götürüb üstümə cumdu. Nənəm özünəyaraşan söyüşlərlə anamın ruhunu təhqir edirdi. Gülsarə özünü üstümə atıb yalvardı:

– Bu qurd yuvasından qaç, uzaqlaş, Etibar! Boşanma kağızını alan kimi səni özüm axtarıb tapacam. Başına dönüm, təki sənə

bir xəta dəyməsin. Mən bunlardan qisasımı almasam, sakitləşməyəcəm.

Mən yerimdən tərpənmirdim. Atam ikinci dəfə üstümə hücum çəkəndə əlindəki yabanı alıb kənara tulladım. Atama əl qaldırmaq arıma gəldi.

– Öz çirkin əməlindi, qabağına çıxıb, – dedim.

İki gündən sonra öyrəndim ki, gecə mənim çardaqda yatdığımı bilən atam Gülsarəni sürüyüb yatağına aparmaq istəyib. Nənəm də ona köməkçi olub. Çarəsiz qalan Gülsarə hər şeyi açıb deyib. Uşağın da məndən olduğunu açıq-aşikar bəyan eləyəndə nənəm atamı sakitləşdirmək üçün deyib:

– Səlim, oğlum, əlini bu ləçərin qanına bulayıb türmələrdə çürüməkmi istəyirsən? Kəndə yayacam ki, Səlimin arvadı boyludu. Uşaq doğulandan sonra ona bir əncam çəkmək mənim işimdi. Sən səbr elə. Eşitməmisən: «Səbr ilə halva bişər, ey qora səndən».

Gülsarə uşaqdan azad olana qədər Mərziyə xalanın evində yaşayıb təsərrüfatını idarə eləyirdim.

– Gülsarə ilə görüşdünüzmü, Etibar? Yazıq qızın günü yəqin qara imiş, – deyə Fatma soruşdu.

– Onu mən yaxşı bilirdim. Çünki nənəmin xasiyyətinə bələd idim. Evimizin qapısından belə ötmürdüm. Gülsarəyə cəza veriləcəyindən ehtiyatlanırdım, Fatma. Bir gün qızımızın olduğunu eşitdim. İnan ki, sevindiyimdən ağladım. Nənəmin təkidinə baxmayaraq Gülsarə onu Məsumə adlandırmışdı. Bu münasibətlə qohumu-qonşunu nənəm evə yığıb şadyanalıq eləmək üçün süfrə açıbmış. Qızın adını qulağına oxuyub, sənəd yazılanda Gülsarə elə camaatın içində etirazını bildirir.

– Niyə, burda nə var ki? – Deyə qadınlar təəccüblənirlər.

Nənəm uşağı Səlim qızı adlandıranda, Gülsarə çəkinmədən camaata bildirib ki, qız Səlimin yox, Etibarındı. Gülsarə bununla onlardan qisas almaq istəyir. Məsumə xanımın əmlakının ona yox, Mərziyə xanıma çatdığını bəyan eləyir. Camaat səssiz-səmirsiz məclisdən durub gedirlər. Nənəm Gülsarədən bunun əvəzini çıxmaq üçün yollar axtarır. Nəhayət, nənəm istəyinə çatır. Həmin gecə uşaq səhərə sağ çıxmır.

Etibar dərindən köks ötürdü. Səsi çıxmasın deyə üzünü əllərilə

örtüb, için-için ağladı. Fatma da ona qoşuldu. Bir anlığa ona elə gəldi ki, balaca Cavadı əlindən sürüşüb dərin bir yarğanın dibinə düşdü. Yarğanın nəhayətsiz dərinliyindən ana deyə qışqırır. Fatma özünü onun dalınca atıb canından can verdiyi ciyərparəsini xilas eləmək istəyir. Geri dönəndə arxasında dayanan Karapetin sarı, çürük dişlərini, hiylə, məkr yağan qıyıq gözlərini görür. Karapet itələyib onu da, oğlunun dalınca yarğana salır. Fatma qorxunc xəyaldan ayılıb özünə gələndə Etibar da toxtamışdı. Səhərə çox az qalırdı. Onlar hələ də yatmaq haqqında düşünmürdülər. Bunu heç istəmirdilər də. Yuxuları qaçmışdı. Etibarın ürəklərə od salan hekayəti Fatmanı mütəəssir eləmişdi. Sobaya qoyulan odun yanıb qurtarmışdı. Evin divarları soyuyub buza dönmüşdü. Heç biri tərpənib yatmağa təşəbbüs göstərmirdi. Bu əhvalata olan marağı Fatmanı dillənməyə vadar elədi:

– Uşağın ölümünün səbəbini aydınlaşdırmadınız?

– Eh, bu nədir ki, nənəmin fitnə-fəsadından heç Tanrı da baş açmaz. Qeyrisi olsaydı, kənddə onu daş-qalaq eləyərdilər. Malmülkə görə nənəm onu elə ört-basdır elədi ki... Doğuşdan sonra Gülsarənin ağlını itirdiyini, uşağın şikəst doğulduğunu, daha bilmirəm nələr uydurdu. Sən mənim bu az yaşımda başıma gələnlərin ardına qulaq as! – Deyə Etibar özündə güc tapıb söhbətinə davam elədi:

– Camaat arasında gəzən söz-söhbətə dözə bilmirdim. Bilən də, bilməyən də məni qınayırdı. Qızımızın ölümü məni yaman sarsıtmışdı. Bir həftə olardı ki, evdən bayıra çıxmırdım. Mərziyə xala hər şeydən hali olduğu üçün gah qeybət qıranlara özü cavab verir, gah da mənə təsginlik olsun deyə ara-sıra Gülsarədən xəbər toplayıb gətirirdi. O, mənim evdən çıxıb getməyimi istəmir, bu işin düzələcəyinə, Gülsarənin boşanıb azad olacağına inandırmağa çalışırdı. Amma mən bunu dəryada balıq sevdasına bənzədirdim. Məşədi Əzim məzuniyyətə çıxıb bu işlə özü məşğul olacağına söz vermişdi. Gözləməkdən başqa əlacımız qalmamışdı. Bir gün ağlıma gəlməyən başıma gəldi.

Ərinin, qaynanasının verdiyi əzablara dözməyən Gülsarə bir baş dayısıgilə gəldi. Otaqların birini Mərziyə xanım ona ayırmışdı. Mən aşağı mərtəbədəki kiçik otaqların birində yatırdım. Görüşüb xeyli dərdləşdik.

– Öldürsələr də, dayım gələnə qədər burdan heç yana getməyəcəm, – deyə Gülsarə öz qərarını verdi. Uşağım kimi onlar məni də öldürəcəklər, – deyib ağladı.

–Onda mən gedərəm, – fikrimi bildirdim.– Kəbinli arvadın naməhrəm kişi ilə bir dam altında yaşamağı düzgün deyil, Gülsarə. Sən özün fikirləş. Tam azad olub kəbinin geri oxunana qədər öz ərinin evində qalmalısan. Onu nə qədər başa salırdımsa, o öz dediyindən dönmürdü.

– Mən sənin qadınınam, Etibar. Mən ki bunu camaat eşidə-eşidə etiraf eləmişəm. Sənin bu qədər qorxaq olduğunu bilməzdim. İstədiyini əldə etmək üçün gərək çalışasan, vuruşasan, Etibar. İnsanın azadlığı da, cəmiyyətin azadlığı kimi bir şeydi. O xoşbəxtliyi, səadəti adama hazır vermirlər. Onu gərək özün əldə eləyəsən, – deyərdi dayım Mirzə Yəhya. Biz əli əl üstünə qoyub otursaq, kim bizim əvəzimizdən çalışacaq? Mən məktəbdə də yaxşı oxuyurdum, özün bilirsən. Öz ana dilimizdə dərs keçiləndə məndən irəlidə gedən şagird yox idi. Evdə də dayım və rəhmətlik arvadı Məsumə xanım mənə çox şey öyrədiblər «İnsan öz şəxsi həyatını qura bilmirsə, başqalarına nə gün ağlaya bilər? Bax, dayım «uf» demədən həyatını xalqa qurban verdi. Mən həyatım qədər sevdiyim bir insanı asanlıqla itirmək istəmirəm. Sən mənim həyatımsan, Etibar. Xoşbəxtliyimi pul-dövdət üçün doğma oğlunu el içində xəcil eləyən atana qurban vermərəm. Sən razı olsan da, olmasan da, kəbindən azad olan kimi dayım Yəhyanın özünü qurban verdiyi mübarizə yolu ilə gedəcəm. Sən olmayan həyat mənə lazım deyil. İnsan havasız, susuz yaşaya bilmədiyi kimi məhəbbətsiz də yaşaya bilməz».

– Mən qorxaq deyiləm, Gülsarə. Səni də dünyalar qədər sevirəm. Sadəcə olaraq, ata-oğul münasibətinin bu qədər dərinləşəcəyini istəməzdim. Onun da bir kişi kimi mənliyi var. El içində indi ona kim hörmət eləyib salam verər? Nə qədər rəzil olsa belə, mənə həyat verən atamdır. Bax məni narahat eləyən də budur. Gərək biz səbrli olaydıq. Hər şeyin həddi var. Biz o həddi aşdıq.

– Özü günahkardır, qoy cəzasını da çəksin. Elin qınağı bizi yox, onu utandırsın, – deyə o sərt cavab verdi.

Mən dünən balaca qız saydığım Gülsarədəki bu hünərə, cəsarətə məəttəl qalmışdım.

Hər birimiz gecə keçənə qədər yuxuya gedə bilmədik. Gülsarənin pəncərəsindən işıq kəsilənə qədər yerimə uzanıb yata bilmirdim. Dolaşıq fikirlər, çarəsiz düşüncələr məni yatmağa qoymurdu. Çırağı söndürüb yatağıma uzansam da, yatmamışdım. Mərziyə xalanın da işığı sönmüşdü. Birdən haradansa yanğın iyi məni vurdu. Çox keçmədi ki, qatı tüstü evi bürüdü. Aşağı mərtəbədə yatdığıma görə mətbəxə çox yaxın idim. Düşündüm ki, mətbəxdə nə isə yanır. Tez qalxıb mətbəxə qaçmaq istədim. Qapı bağlı idi. Pəncərəyə yüyürdüm, o da açılmadı. Kimsə onu arxadan möhkəmcə bağlamışdı. Əgər yad adam həyətə gəlmişdisə, bəs itin səsi niyə eşidilmirdi? Ağlıma qəribə fikirlər gəldi. Artıq hər şey mənə aydın idi. Kimsə iti zəhərləyib evə od vurmuşdu. Ev bir saatın içində hər tərəfdən alova büründü. Yuxudan oyanan kənd camaatı köməyə gəlmişdi. Heç kəs alovlanan pilləkanla yuxarı qalxmağa ürək eləmirdi. Yanıb tökülən taxta qapıdan sıçrayıb yuxarı qalxmaq istədim. Mümkün olmadı. Pəncərənin qabağındakı iri gövdəli tut ağacına dırmaşdım. Gülsarə od içində yanırdı. Kaş gözlərim kor olaydı, görməyəydim. Mərziyə xanımın otağına qaçdım. Onu da xilas eləmək mümkün olmadı. Elə o gündən- bu günə qədər bir də kəndə qayıtmadım. İndi də görürsən ki, burdayam. Artıq o kəndlə məni heç bir şey bağlamır. Məni dünyaya gətirən atam doğma oğlundan belə qisas almışdı, Fatma.

– Bəs, o gün gördüyün qardaşını haradan tanıyırdın, Etibar?

– Atam üçüncü dəfə evlənib dedilər. Bir dəfə gizli kəndə gəlmişdim. Məsumə ananın, Gülsarənin, Mərziyə xanımın məzarını ziyarət elədim.Bir uşaqlıq dostum onu mənə göstərdi. Onlara atam mənim itgin düşdüyümü deyibmiş. Anamın, Gülsarənin, Məsumə xalanın ruhu dolaşan o kənd üçün burnumun üçün göynəyir. Nə etmək olar? Gülsarə ilə tale yollarımız belə ayrıldı. Bir də heç vaxt birləşməyəcək. Tanrı qarğamışa kim kömək eləyə bilər?

Etibar söhbətini qurtaranda səhərin gözü yuxudan açılha-açılda idi. Dan yerinin zərif telləri nazik qar təbəqəsinin üstünə düşüb ulduz-ulduz parıldayırdı. Fatma qalxıb pəncərəni açdı. Təmiz dağ havası dirilik suyu kimi insanı cana gətirirdi. Sinə dolusu nəfəs aldı. Xoruzun birinci banı idi. Kənd hələ yuxudan

oyanmamışdı. Fatma yuxulu gözlərini ovuşdura-ovuşdura qapını azacıq aralayıb çölə çıxdı. Sübhün soyuğundan canına üşütmə düşdü. Tez qayıdıb evə girmək istəyirdi ki, həyət qapısı bərk döyüldü. Həyəcan qarışıq bir qorxu onu silkələdi «Dalımca gəliblər» deyə yəqinliklə öz-özünə pıçıldadı. İkinci dəfə qapı döyüləndə Etibar cəld yerindən qalxdı. Fatmanı Nübar ananın otağına salıb çölə çıxdı. Qəribəydi, it bir ağız hürüb səsini kəsdi.

– Yad adam deyil – deyə Etibar darvazaya sarı bir neçə addım atıb, yenə ehtiyat üçün duruxdu. Alatoranlıqda Şamili tanıyıb sevincək qapını açanda, Nübar ana Fatmanı etibarlı yerdə gizlədib həyətə çıxdı.

– Ay saqqalı ağarmış, ürəyimizi qırdın ki...

Nübar ana narazı halda oğlunu qucaqladı. Şamil Etibarla görüşüb içəri keçdi. Gətirdiyi ağır zənbil yadına düşdü, təkrar həyətə qayıtdı.

– Yaman üşümüşəm, ana, tez ol, bir fincan çay gətir, döysən də qəbulumdu. Şamil Etibara sarı döndü:

– Səndən nə əcəb, qardaş? Çoxdandı görüşmürük. Mən bir az bazarlığa getmişdim. Bizim bu yerlərin havası bilirsən də, necə olur? Ləngiməli oldum. Vacib işlərimiz çoxdur, Etibar. Necə deyərlər, «həm ziyarət, həm ticarət» oldu. Yoldaşlar məni Təbrizə göndərməli oldular. Avtobus Zəncandan tərpənmişdi ki, Xürrəm dərəyə çathaçatda bir dəstə əli silahlı avtobusa doluşdu. Nə axtardıqlarını ayırd eləmək çətin idi. Hətta çadralı qadınların üzlərinə də baxırdılar.

– Bilmədin, nə axtarırlar? Kürklərinə birə düşüb. Hər inqilabın ilhamvericisini Azərbaycanlı türkləri hesab eləyirlər. Hökumətin düşmənini ancaq bizim aramızda gəzirlər. Bizi asanlıqla çilovlamaq, ya tovlayıb tilovun qarmağına keçirmək olmaz, Şamil! Hökumət bizi -üsyankar bir xalq kimi əzib gözümüzün odunu almaq istəyir, amma bacarmır. Biz hər dəfə geri çəkilib, yeni qüvvə ilə irəli atılırıq. Bu onları qorxudur. Yaxşı bilirlər ki, bu dəfə yaxalarını xalqın əlindən qurtara bilməyəcəklər.

– Düz deyirsən, Etibar. İki gündür ki, yollardayam. Hər addımbaşı maşından düşürüb yoxlayırlar. Deyilənə görə qatı cinayətkar bir qadın axtarırlar. Yollar, bağ, meşələr əsgər- zabitlərlə doludur. Biri haylardan idi. Azca qalmışdı ki, vurub çürük dişlə-

rini qarnına tökəm. Camaatın arvadlarının çadrasını başından götürüb üzlərinə baxırdı. Onun özü elə quldura, cinayətkara oxşayırdı. Vəziyyət çox ağırdı, qardaş. Bəzi məlumatları ikilikdə oturub aydınlaşdırarıq.

Bütün deyilənləri qapının arasından eşidən Fatma irəl gəldi. Bu Şamilə gözlənilməz olsa da, dinmədi. Təəccüblə gah anasının, gah da Etibarın üzünə baxdı.

– Haqqında eşitdiyin qatı cinayətkar mənəm, qardaş. Elə indicə bu saat bu evi tərk etməliyəm ki, sizi bu işə qarışdırmayım. Yoxsa, sizi də tuta bilərlər. Dincliyinizə acı qatmağa haqqım yoxdur. Onsuz da, bir həftəyə yaxındır ki, Nübar anaya əziyyət verirəm. Yerinizi dar eləmişəm. Gərək məni bağışlayasınız.

Etibar Şamilin əlindən tutub yan otağa keçdi. Söhbətləri xeyli uzandı. Hadisədən ağıllı-başlı xəbərdar olan Şamil çayını içib ayağa qalxmaq istəyən Fatmanın qolundan yapışıb yerində oturtdu:

– Sən heç qanını qaraltma, Fatma xanım. Bir qadını qoruya bilməyəcəyiksə, onda bu mübarizəyə niyə qoşulmuşuq? Heç yana getməyəcəksən. Etibarın «həyat yoldaşı» kimi səni qələmə verməkdə düz hərəkət eləmisiniz. Nolar, yalan olsa da, qoy özünü bəy hesab eləsin. Bəlkə, yola gəlib evlənə.

Hamı güldü. Fatma qıpqırmızı qızarmışdı.

– Heç özündən danışmırsan, Şamil! Sənin yaşındakıların az qala oğlu evlənir, qızı ərə gedir. Sən hələ Nübar ananı nənə eləmək fikrində deyilsən? Özündən əvvəlcə başla, qardaş, özündən.

– İş-güc qoyur ki, özümüz haqqında düşünək? Görmürsən, ölkə ocaq kimi tutuşub? Bu gündən-sabaha etibar yoxdur. Kim bilir, bizi nə gözləyir? Qoy ara-bərə sakitləşsin, bu qapıda bir toy çaldıracağam ki, səsi nəinki Savalana, Səhəndə, lap Arazın o tayına – Kəpəzə, Qoşqara da çatsın. Amma bir şərtlə.

– O nədir elə, Şamil, bizimlə şərtlə danışırsan?

– Qızı tapmaq sizdən.

Hər ikisi güldü.

– Hə, bax bu mənim boynuma! – Nübar ana sevincək dilləndi.

– Anama elə bu bəsdir ki, «Arşın mal alan» tamaşasındakı kimi çadrasını başına salıb, bütün kəndi bir-birinə vursun. Ərə getməli qızı olan analar da dörd yanında fırlansınlar. Öz oğlunu başa düşən belə ana kimdə var? Bu mənim oxumamış siyasətci anamdır, Etibar. Bütün işlərimdə məsləhətçim, yol göstərənimdi.

Şamil anasını qucaqlayıb öpdü.

– Şamil düz deyir, Etibar. İlk gündən Nübar ananın danışığından mən bunu hiss elədim. Yəqin bu da sənin təsirindəndir, anamı yaxşı maarifləndirmisən, – deyə Fatma sözə qarışdı.

– Uşaqlar, indi üçümüzün bir anamız var. Hər şeydən əvvəl onu qorumalıyıq. Ümumi işimiz üçün bu çox vacibdir. Etibar söhbəti yekunlaşdırıb əsas məsələyə keçdi.

– Elə bu gün geri qayıdıb burdakı vəziyyəti kömitəyə çatdırıb məsləhət almalısan, Şamil. Təşkilatdan icazəsiz iş görməyə haqqımız yoxdur. Mən Fatmanı belə köməksiz qoyub gedə bilmərəm. Həm də bayaq dediyin kimi kənd camaatı məni «təzə bəy» hesab eləyir axı?

Fatmanın üzünə baxıb gülümsədi.

Fatmanın dediyinə görə Mürsəl yoldaş ona sənəd düzəltmək üçün gedibmiş. Ola bilməz ki, yoldaş Mürsəl haqda bir məlumat verən olmasın. İmkan olsa bir xəbər gətir.

– Mən əsas hara getməliyəm, Etibar? Sən axı uzun müddət burada qala bilməzsən? Bura Fatma bacı üçün də təhlükəlidir.

– Bax elə bu haqda da məlumat verib cavab gətirməlisən. Bilirsən ki, Qaradağ mahalında, Ərdəbil, Xalxalda, ətraf rayon və kəndlərdə, Zəncanda Culfada, Astarada, Maku və Səlmasda – ölkəmizin hər bucağında Azərbaycan Demokrat Firqəsinin təşkilat söbələri gizli fəaliyyət göstərir. Bu gizli fəaliyyət tezliklə aşikar mübarizəyə keçəcək, Şamil. Təşkilatın «İntiqam məhkəməsi» milli muxtariyyatımızı əlimizdən zorla alan bu rejimdən öz qisasını alacaq, qardaş. Bir az dincəl, tez yola hazırlaş. Mən öz başına heç bir qərar qəbul eləyə bilmərəm. Fatmanı burada köməksiz qoysaq, təşkilat onu bizi bağışlamaz. Bu da bizim işimizin bir hissəsidir.

Məhərrəmlik ayı başlamışdı. Hər kəs ziyarətgahlara, məscidlərə, imamzadələrə öz əli ilə nəzir-niyaz qoymaq, şam yandırıb təziyədarlıqda şəxsən iştirak eləmək istəyirdi. Varlılar yaşıl ələm düzəldib üstünə beş barmaqlı qızıl əl taxar, yetimə, kasıba pul paylayar, bir məclisdən çıxıb o birinə gedərdilər. Bu balaca kəndin ziyarətgahı, taziyə mərasimi keçirilən bir məscidi var idi. Məhərrəm ayı başlanmamış Nübar ana özünə qara ipəkdən çadra tikdirib Şamilin adına nəzir-niyaz hazırlamışdı. Fatmanı da özü ilə aparmaq istəyirdi. Etibar bu fikrə bir az şübhə ilə yanaşdı. Fatmanı üzdən heç kəsə tanıtmaq istəmirdi.

Kənddə hər cür adam ola bilər. Elə mənim özümü də bura belə məclislərdən istifadə eləyib gələcək planlarımızı camaat arasında yaymağa göndəriblər. Fatma məsələsi mənim də əl-qolumu bağlayıb. Mümkün qədər kənd arasında görünməməyi məsləhətdi.

Nübar ana bundan incimədi. Əksinə, «Ehtiyat igidin yaraşığıdır» deyib evdən çıxdı.

Üç həftəyə yaxın idi ki, Şamilin yolunu gözləyirdilər. Fatma özünə də məlum olmayan sirli-sehirli, qorxulu-sevincli bir ömür yaşayırdı. Onun Qasımlı, Cavadlı sevinc dolu bir dünyası vardı. Artıq Fatmanın o dünyası qırılıb-tökülmüş, tar-mar olmuşdu. Qəm, kədər, göz yaşları ilə dolu bugünkü həyatı ilə yaşayırdı. Fatmanın Etibarla aralarında dostluqdan da artıq bir ünsiyyət yaranmışdı. Fatma istəmirdi ki, dünyadan naümid bir insanın qəlbi təzədən qırılsın. Etibarın anlaşılmaz duyğuların əlində ixtiyarsız yanıb qovrulduğunu hiss edirdi. Keçmişini yad edib göz yaşı tökən Etibarın qəmli, pərişan üzü yavaş-yavaş gülməyə başlamışdı. Gözləri sanki nurlanırdı. Dərdli bir keçmiş yaşayan şəxsi həyatında gələcəyinə, sabahına qara xətt çəkən Etibarın qəlbində yeni arzular rişələnir, boy atırdı. Ondakı bu dəyişiklik istər-istəməz Fatmada özünün də baş açmadığı qarışıq, dolaşıq bir dünya yaradırdı. Fatma Qasımdan qeyri bir adam haqqında düşünmək fikrindən çox uzaq idi. Qasımlı dünyasına heç bir kəsini yaxın buraxmaq istəmirdi. Sadəcə olaraq dərdlərini unutmaq, özünü ovundurmaq üçün qəlbində ona qarşı bir maraq oyanmışdı. Bu marağı söndürmək üçün Qasımın kəbinli arvadı, axtarışda olan «cani» olduğunu fikirləşib ondan uzaqlaşmağa çalışırdı. Gündüzlər evdən çölə çıxmır, gecələr ay işığında Nübar ananın kiçik bağçasında gəzir, ya saatlarla nəzərlərini uzaqlara dikib səssizcə susurdular. Etibar öz hissləri haqqında ona bir söz belə deməmişdi. Lakin onun odlu baxışları, kədərli ahları bunu açıq-aşikar deyirdi. Məhəbbətin məskəni, ilk müjdəçisi gözdür deyirlər. Etibarın gözünün dərinliyində nakam məhəbbətin xarabalığını nurlandıran yeni, işıqlı bir dünya vardı. O yeni dünya ona qol-qanad verir, təzə bir aləmə qaytarırdı. Fatma o yeni dünyada özünü görmürdü: «Hər sevirəm deyənin hissinə cavab verib özünü alçatmaz qadın. Qadın öz namusunu hər şeydən artıq özü üçün qorumalıdır. Dünyada ən böyük var-dövlət qadının mənliyi, qürurudur. O qüruru sındırıb başqalarının gözündə alçalmaq

ölümdən üstündür», – fikirləşirdi.

Fatma dolaşıq, çalpaşıq fikirlər içində çabalayırdı. Etibar qəlbinə süzülüb dilinə gətirə bilmədiyi, gec də olsa, onu xoşbəxt eləyə biləcək bir sevginin şirinliyini duya-duya susurdu. Bəlkə, heç ilk məhəbbəti Gülsarə də onu bu qədər xoşbəxt eləyə bilməzdi. Yan-yana oturduqları anlar, saatlar ömrünə təkrarolunmaz ilahi bir səadət yazırdı. Lakin cürətsizlik onun taqətini əlindən alır, əl-qolunu boşaldıb yanına salırdı. Axtardığı səadətinə bu qədər yaxın olduğu halda, ondan bu qədər uzaqda idi Etibar. Ölüm hökmü kimi gecənin qaranlığına hopub onu bu qədər cansıxıcı edən sükutu Fatma pozdu:

– Şamilin gec gəlməyi məni çox narahat edir, Etibar? Ürəyimə damıb ki, nə isə pis xəbər eşidəcəyik. Eh, bütün günahlar məndədir. Mən olmasaydım...

Fatma sözünün dalını gətirə bilmədi, qəhər onu boğdu.

– Özünü günahlandırdığın bəsdir, Fatma. Bizim hamımızın taleyinə yazılan ümumi dərdləri birgə çəkməliyik. Səni də, məni də bu çəkilməz dərdlərin məngənəsinə salıb sıxan da odur. Şahlara, sultanlara baş əyməyən məmləkətimiz bizə zindan olub. Yaman günün ömrü az olar, darıxma. Bu gün, sabah Şamil şad xəbərlə qayıdar, inşallah.

Etibar bayaqdan fikirləşdiklərini dilinə gətirə bilməyib söhbətin yönünü dəyişdi. Bunu hər şeydən əvvəl Fatma hiss elədi. Qaranlıqda Etibarın əlini əlinə aldı. Onun əlləri od tutub yanırdı. Hər iki əli ilə onu bərk-bərk sıxsa da, tir-tir titrəyirdi. Onun bu halı yenə Fatmaya uzaqda, lap uzaqda qalan bir xatirəni xatırlatdı. Etibara yazığı gəldi.

Yay tətili idi, Fatma nənəsigilə – Göytəpəyə getmişdi. Bağda gəzərkən alçaq nar ağacının haçasında bir yuva gördü. Nənəsinin başı ağacların dibini boşaltmağa qarışmışdı. Fatma yerdən bir ağac götürüb yuvanı yerə saldı. İçindən iki ətçəbala sığırçın yerə düşdü. Fatma sevinə-sevinə balaları ovcuna alıb nənəsinin yanına qaçdı. Sevincinin həddi-hüdudu yox idi. Onları nənəsinin köhnə xəlbirinə qoyub saxlayacaq, gedəndə məktəbin biologiya güşəsinə verəcəyini düşünürdü. Sığırçın balaları onun ovucunda elə əsirdilər ki, sanki ürəkləri yerindən çıxacaqdı. Yuvası dağılan ana sığırçın özünü ağacın budaqlarına çırpır, az qala həlak eləyirdi. Fatma ana sığırçının dərdinə məhəl qoymadan şadyanalıq

edir, atılıb-düşürdü. Nəhayət, nənəsi başını yuxarı qalıdırıb məsələnin nə yerdə olduğunu başa düşdü. Sığırçın balalarını ovucunda tutan Fatmaya tərs bir nəzər saldı:

– Sən nə elədiyini heç başa düşürsən, qızım?

– Mən nə eləmişəm ki, nənə? Onları yedizdirib bəsləyəcəm. Burda pis nə var ki?

– Yox bala, burda pis olan çox şey var, sən başa düşmürsən.

Fatmanın üzündəki nəşə çəkilib yox oldu. Günahkar kimi nənəsinin üzünə mat-mat baxdı.

– Sən onu xəlbirin içində nə qədər əzizləyib saxlasan, onlar yenə tələf olacaqlar, Fatma. Həm də onların analarının ahınaləsi səni tutar. Ananı incitmək böyük günahdır, qızım. Üstəlik də onların yuvalarını dağıtmısan. İnsan kimi heyvanın da, quşun da öz doğma yurd-yuvası olmalıdır. Doğma yurddan-yuvadan ayrı yaşayan tez tələf olar. İnsanlar kimi onların da yuvaları özlərinə əzizdir, doğmadır. Ananı baladan ayırmaq olmaz.

Fatmanı ağlamaq tutmuşdu. Ovcundakı sığırçın balalarını ilk dəfə görürmüş kimi onlara təkrar baxdı. Onlara yazığı gəldi. Tez nar ağacının dibinə yüyürdü. Yuvanı təzədən qurmaqda nənəsi ona kömək elədi. Ətcəbalaları yuvaya qoyub rahat nəfəs aldı. Ana sığırçın dinməz-söyləməz yuvanın üstündə dayanmışdı. Qanadlarını yuvanın üstünə yayıb balalarını sanki bütün dərd-bəladan qorumaq istəyirdi.

Fatmanın onun əlini hələ də ovcunda tutub fikrə getməsi Etibarın ürəyincə idi. Fatmanın bəxş etdiyi bu səadətdən uzaqlaşmamaq üçün əllərini çəkmək istəmirdi.

– Nə yaman fikrə getmisən, – deyə Etibar dilləndi.

Onun səsinə Fatma elə bil yuxudan ayıldı. Etibarın əlini buraxıb ayağa qalxdı. Darvazaya yaxın gəlib dayandı. Etibar da ona yaxın gəldi. Bir-birinə sığınıb xeyli dinlədilər. Haradansa, uzaqdan atışma səsi gəlirdi. Fatma, bəlkə, yanılıram deyə özözünə fikirləşdi. Nübar ana da çölə çıxmışdı. Şala bürünüb onlara yaxınlaşdı.

– Bala, yanılmıramsa, atışma səsi gəlir, deyəsən?

Nübar ana yanılmırdı. Bu həqiqət idi. Etibar qadınları qorxutmamaq üçün dilləndi:

– Buralarda o qədər dəliqanlılar var ki.. Narahat olmağa dəyməz.

Özü belinə sancıb gəzdirdiyi və heç kəsin ondan xəbəri olmadığı balaca tapançanı hazır vəziyyətə gətirdi. Güllə səsi get-gedə yaxınlaşırdı. Tək-tək evlərdən adamlar da bayıra çıxmışdılar. Hər kəs öz fikrini deyir, hadisəyə hərə bir cür don geydirməyə çalışırdı. Hamıdan çox narahat olan Nübar arvad idi.

– Yox, ürəyim məni aldatmaz, Etibar, Şamilin başında nə isə bir qəza var.

Nübar ana qayıdıb evə girdi. Şamilin babası Kəlbəlayi Seyfulladan oğluna qalan indiyə qədər qoruyub saxladığı tüfəngi və bir qatar patrondaşı samanın içindən çıxarıb gətirəndə iki nəfər darvazadan içəri girdi. Qaranlıqda təxminən birinin yaralı olduğunu yəqinləşdirən Etibar özünü irəli atdı. Şamilin sinəsindən axan qan ikincini tamam islatmışdı.

–Bu sizsiniz, Mürsəl dadaş? – Deyə Etibar nə edəcəyini bilmirdi.

– Tez ol, Fatmanı aradan çıxar!- Şamilin səsi xırıldadı.– Sorğu-sual yeri deyil.

Fatma geyinib hazır vəziyyətdə durmuşdu. Etibar Fatmanın qolundan yapışıb özünü darvazaya yetirəndə üç-dörd nəfər əlisilahlı onları qarşıladı.

– Belə əlimizə keçərsən, vəhşi pişik. Buralara da gəlib çıxmısan, demək. Bizi bir neçə aydı bu dağda-daşda əsir-yesir eləyən ləçər. Ara, tez bunun əl-qolunu bağlayın. Yoxsa yenə əlimizdən çıxar, – deyə Karapet əmr verdi. Etibar sonra gec olar, –deyə onun gicgahına elə bir zərbə vurdu ki, bir neçə dəfə fırlanıb yerə dəydi. O biriləri Mürsəlin, Etibarın qollarını bağlayıb maşına qoyanda səhərə az qalırdı. Maşın uzaqlaşıb gözdən itənə qədər Nübar ananın ah-naləsi Fatmanın qulaqlarından getmədi. Beynində, şüurunda həkk olub, əbədilik qaldı.

Zindandan-zindana

– Çoxdandır ki, dəftərimə bir sətir də olsa, yazmamışam. Buna nə imkan, nə vaxt olub. Bu dar qəfəsdə başıma gələn müsibətləri təfsilatı ilə yazmağa ehtiyac duyuram, Qasım! Lakin yenə ehtiyat eləyiərm. Tez-tez axtarışlar aparır, nə varsa, tapıb məhv eləyir bu qansızlar. Artıq bu dünyada ürək sözlərimdən başqa qoruyub saxlaya biləcəyim heç nəyim qalmayıb. Onun da ələ

keçib məhv olacağından qorxuram. Nə olursa-olsun, məni ovunduracaq məşğuliyyətimdən əl çəkmək ölüm qədər ağırdır. Məni sizli dünyamdan ayırmaq o qədər də asan deyil, Qasım.

Məni Mürsəldən, Etibardan ayırıb başqa maşina qoymuşdular. Nübar ananın evindən aralanandan sonra çox da uzaq yol getmədik. Mənim qolumu qandallayan zabitlə o murdar Karapetin söhbətindən öyrəndim ki, məni Tehran həbsxanalarından birinə aparırlar. Ara-sıra onların ədəbsiz söyüşlərindən başqa heç nə eşitmirdim. Bir də, artıq özümü taleyin ixtiyarına vermişdim. Bütün fikrim-düşüncəm qanı axan yeganə balasını qucaqlayıb fəryad eləyən Nübar ananın yanında idi. Peşimançılıq, təəssüf hissi məni yandırıb-yaxır, günahkar olduğum üçün əzab çəkirdim. Hara aparıldığımının, nə cəza alacağımın fərqində də deyildim. Neçə günahsız insanın həyatını korladığım üçün özümü danlayır, məni sevənlərin acı taleyi üçün yerə-göyə, az qala Tanrının özünə də üsyan edirdim:

– Harada olsan, səni axtarıb tapacam, Fatma, möhkəm ol.

Etibarın qırıq-qırıq mənə çatıb, itən səsi qulaqlarımdan getmirdi.

Hara, necə gətirildiyimi bilmirdim. Gözlərimi, əl-qolumu bağlamışdılar, Qasım. Bircə onu başa düşürdüm ki, həbsxana deyilən cəhənnəmdəyəm. Qadın təcrimdxanasının ağır, dəmir qapısı açılan kimi arxadan məni itələyib içəri salan nəzarətçi yüksəkdən qışqırdı:

– Sizin içinizə ən qorxulu cinayətkarı gətirmişəm. Onu tərbiyə eləmək sizin boynunuzadı.

Bunun nə demək olduğunu dustaqlar üstümə tökülüşüb məni döyəndə bildim. Hətta bir yekəpər, danışanda səsi kişi səsindən seçilməyənin biri saqqız çeynəyə-çeynəyə çənəmin altına yeriyib əlindəki balaca bıçağı bir neçə dəfə fırladı. Saçımdan tutub xeyli silkələdi.

– İndi kimin tabeliyində olduğunu və səni nə gözlədiyini unutma! – Deyib məni bərk itələdi.

O, yenə bıçağı o yan-bu yana bir neçə dəfə fırladı. Paltarım demək olar ki, cırıq-cırıq olmuşdu. Gözümün biri elə şişib qaralmışdı ki, heç yeri görmürdüm. Yerdən qalxa bilmirdim. Məndən yaşca böyük olan bir qadın qolumdan tutub qaldırmaq is-

təyəndə onu da möhkəm döydülər. Biz onunla yanbayan çarpayıda yatırdıq. İlahi, ona çarpayı demək mümkün idimi? Üstünə sərilən köhnə boz yorğanı əvəz eləyən örtükdən çirk tökülürdü. Yastığın ortası elə saralmışdı ki, baş qoymaq istəmirdim, iyrənirdim. Sonra get-gedə mən də bu cəhənnəm həyatına alışdım. Hər dəfə sorğu-suala aparanda məni döyür, təhqir edirdilər. Suallara nə olur-olsun öz ana dilimdə cavab verirdim. Bu onları qəzəbləndirir, acıqlarını çıxmaq üçün məni döyürdülər. Mən əsl cəhənnəmə düşmüşdüm. Bir gün kişi sifət qadın yaxınlaşıb, hökm ilə əl-üz yuyulan yerə getməyimi tələb elədi. Yanımdakı qadın mənə analıq eləmişdi, Qasım. O, bu cəhənnəmdə baş verənlərlə məni az-çox tanış eləyir, nəyin pis, nəyin yaxşı olduğunu başa salırdı. Özü əslən Təbrizli olan bu qadın da bir şərin, böhtanın qurbanı idi. Hamı onu bacı deyə çağırırdı. Çünki hamıya analıq, bacılıq eləyirdi. Əsl adı Cəmilə idi. Mənə əvvəlcədən xəbərdarlıq eləmişdi ki:

– Səni öldürsələr də, o zəhrimar siqareti alıb çəkmə. Onun təsiri altında boynuna istədikləri cinayəti qoya bilərlər. Həm də səndən pul tələb eləyəcəklər. Yoxsa səni öldürə bilərlər.

Mən onun tələbi ilə ayaq yoluna getsəm də, onun istədiyini yerinə yetirmədim. Yenə məni döydülər. Səhərisi gün istintaqa apardılar. İlk sualları bu oldu:

– Sən kimsən?

– İnsanam, – deyə cavab verdim.

– Bizim sualarımıza özünün «çoban» dilində yox, fars dilində cavab verməlisən, bunu unutma!

– Mən heç vaxt verdiyim sözü unutmuram. Siz də «çoban dili» adlandırdığınız xalqın torpağı üstündə bərqərar olduğunuzu unutmayın. Mənim dilim Şeyx Nizaminin, Füzulinin, Şeyx oğlu İsmayıl Xətayinin dilidir. Bəlkə, yenə sadalayım. Şəhriyarın, Səhəndin, Seyid Cəfər Pişəvarinin, Şeyx Xiyabanini, böyük Babəkin dilidir. Bunu unutmamısınız ki? Əgər unutmusunuzsa yadınıza salıram.

Məni sorğu-suala tutana elə bil od vurdular. Oturduğu yerdən dik qalxdı.

– Dilin çox uzundur, deyəsən. Bir az onu qısaltmaq lazımdır. Onların aqibəti həm bizə, həm də sizə bəllidir. Sən ancaq bizim

suallarımıza cavab verməlisən. O taydan (Araz çayının ikiyə böldüyü vətən torpağının şimalı nəzərdə tutulur) nə məqsədlə gəldiyin bəs deyilmiş kimi şübhəli şəxslərlə də əlaqəyə girib taxt-tacın əleyhinə iş aparırsan. Buna nə deyirsən?

Onun gözləri az qala hədəqəsindən çıxacaqdı. Hirsindən ağzı köpüklənmişdi.

– Mən öz ailəmlə birlikdə yaşamaq üçün gəlmişəm. Heç bir şübhəli şəxslə də əlaqəm yoxdur. Mən sizin sorğu-sualınıza ilk istintaqda cavab vermişəm. Daha nə istəyirsiniz?

– Mürsəl, Etibar, Səltənət – bu adlar sənə heç nə demir ki?

Sorğu aparan qışqırıb əlini qabağındakı masaya çırpdı. Gözünə taxdığı qara eynəyi masanın üstünə düşdü. Mənim susmağım onu yaman hiddətləndirmişdi. Mən yerimdə donmuş kimi dayanmışdım. Bir nöqtəyə baxıb nə cavab verəcəyimi qərarlaşdıra bilmirdim.

–Sənin rəfiqən də, əlimizdədi, sənə yazdığı məktub da. Bəlkə, tanış olasan? Sadaladığımız dəlil-sübutlar sənin günahkar olduğunu təsdiqləyir.

– Niyə, pis olmaz, – deyə özümü toxtadıb məktubu aldım. Kağız əzik-üzük, elə bil it ağzından çıxmışdı. Bu onun – o murdar hayın işidir. Baxmaq istəyirsənmi? – deyə fikirləşə-fikirləşə məktubu gözümün qabağına yaxın gətirdim. Bu mənə yazılan həmin məktub idi. Güclə höcələyə-höcələyə oxuyub qaytardım. O kağızı tutulanda Mürsəlin cibindən çıxarmışdılar.

– Mən belə bir kağız görməmişəm. Kim yazıbsa, mənə böhtan, şər məqsədilə yazıb. Yaxşı quraşdırmısınız. Afərin bacarığınıza. Şər, böhtan atmaqda çox mahirsiniz.

– Əgər görməmisənsə, şəhər kənarına niyə gəlmişdin?– Hirslə qışqırdı.

Deməyə sözüm qalmamışdı.

– İndi sözün yoxdursa, məhkəmədə yəqin bir sözün olacaq. Səni rəfiqənlə üzləşdirəndə deyərsən.

Susmaqdan başqa çarəm qalmamışdı. Ayaq üstə dura bilmirdim.

Məni yenə döyüb otağa atdılar. Yüngül keçən bu istintaqdan bir aya qədər vaxt keçirdi. Günümü başıma gələnləri yazmaqla keçirirdim, Qasım. Sənin lə dərdləşə-dərdləşə günümü, saatımı

sayırdım. Sizi yuxularımda, həbsxananın balaca gözlüyündən görünən ayda, ulduzlarda axtarırdım. Yuxum göyə çəkilir, köynəyimə elə bil qor dolurdu. Otaqdakılar məndən elə uzaq gəzirdilər ki, elə bil məndə yolxucu xəstəlik var, tutulacaqlar. Tez-tez yazdığım gündəliyimi, gələcək kitabım üçün həbsxana qeydlərimi axtarıb tapır, əlimdən alırdılar. Mən yenə yazırdım, Qasım. Cəmilə mənim yeganə sirdaşım idi. Çölə gəzintiyə çıxanda da məni dinc qoymurdular. Bir ona sevinirdim ki, təkadamlıq kameraya salmırdılar. Bircə bundan qorxurdum, əzizim. Bilirsən ki, mən tək qalmaqdan çox qorxuram. İstintaq əsnasında Mürsəlin, Etibarın da tutulduqlarını öyrəndim. Vicdan əzabı çəkirdim. Onlar mənim günahım ucundan bu cəhənnəmə düşmüşdülər. Səltənətin hansı səbəbdən tutulduğundan xəbərim yox idi. Bir gün yeməkxanadan otağa qayıdıb dəftərimi yerində görmədim. Dəli adamlar kimi çarpayının altını üstünə çevirdim. Heç yerdə yox idi. Cəmilə məndən artıq həyəcan keçirirdi. Otaqdakılar mənim başıma döyüb ağladığıma gendən durub seyirci kimi tamaşa edirdilər. Heç kəs dinib-danışmırdı. Dəftərin kimdə olduğunu təxminən bilirdim. Ancaq heç bir sübutum, şahidim yox idi. O, ayağa qalxıb nümayişkarcasına dəftəri başının üstünə qaldıranda əsəblərim yerindən oynadı. Onun üstünə nə vaxt atıldığımı bilmədim. Saçından tutub o ki var döydüm. Cəmilə hər vəchlə məni başa salmağa çalışırdı ki, bu qəsdən qurulmuş hiylədi. Səni günahlandırıb cəza vermək üçün eləyirlər. Mənim gözümə o anda heç nə görünmürdü. Bir onu bilirdim ki, bir neçə ayda onun mənə elədiklərinin əvəzini çıxdım. Məni sürüyüb təkadamlıq kameraya apardılar. Elədiklərim üçün peşiman deyildim. Mənə nə cəza veriləcəyini düşünürdüm. Ürəyim sakitləşmişdi. Kimsə arxadan qışqırdı:

– Gələn dəfə payını başqa cür alacaqsan. Buna and içirəm, şürəvi cəsusu.

Bu həmin kişisifət dediyim qadın idi. Hırıldaya-hırıldaya yanındakına yenə nə isə dedi. Onlar məhlə qoçuları kimi həmişə cüt gəzirdilər.

Alçaq, dar gözlüklü kameraların qabağından keçəndə nəzarətçi ayaq saxladı. Belindəki dəstə açarı çıxarıb qapını açanda qonşu gözlükdən tanış bir üz gözümə sataşdı. Bu Səltənət idi. O da məni, deyəsən, tanımışdı. Baxışlarımız bir anlığa qarşılaşdı.

Nəzarətçi mülayimcəsinə pıçıldadı:

– Bir az səbrli olmaq lazım idi. Hər nə soruşsalar, «yox», «tanımıram», deyərsən. Yoxsa səni qatı cinayətkar kimi ağır cəza gözləyir. Qonşun təcrübəli adamdı, səni başa salar. Kamera dili ilə danışmağı öyrən. Mürsəl yoldaşdan sənə salamlar var. Hər suala cavab vermə!

O te-tez dörd yanına boylanır, həyəcan keçirirdi.

– Keç içəri, şürəvi ləçəri. Burda ağlın başına gələr, – deyə nəzarətçi bərkdən qışqırdı. Dəmir qapını üzümə bağlayıb getdi. Kameradakı üfunət, nəmişlik iyindən başım gicəlləndi. Dəmir barmaqlığın arasından yüksək tonla əlavə etdi:

– O çarpayıda səssiz-səmirsiz oturub yerindən tərpənməməlisən. Elə eləməlisən ki, qapının gözlüyündən baxanda səni görə bilim.

O, əl çırağını götürüb uzaqlaşdı. Mən yoğun dəmirləri belimi əzən çarpayıda güclə otura bildim. Yatmaqdan söhbət belə gedə bilməzdi. Mənə kəsilən üç günlük bu cəza sanki bir ömrə bərabər oldu, Qasım. Çəkdiyim bu əzablar üçün səni günahlandırmıram. Bu yolu özüm seçmişəm. Tale yolundan heç kəs geri dönə bilməz. Nəzarətçinin çıxıb getməsi ilə başıma min cür xəyal və fikirlər gəlirdi. Uzunluğu üç metrdən artıq olmayan kamerada daim gəzişir, düşüncələrimi bir yerə cəmləşdirməyə çalışırdım ki, bu düşdüyüm cəhənnəm quyusundan nə vaxt, necə çıxım? Mənim vəziyyətim bir yana dursun, Mürsəldən, Etibardan nigaran idim. Hər istintaqda yeni-yeni dəlil, sübutlar uydurur, onlarla əlbir işlədiyimi təsdiqləməyə məcbur edirdilər. Qəmli bir tale yaşayan Etibarın haqqında daha çox düşünür, özümü günahkar sayıb, əzab çəkirdim. Şamilin sağ qalıb-qalmaması fikri mənə dinclik vermirdi. Mənə hər şeydən əziz olan Nübar ananın tək çırağını mən söndürmüşdüm deyə özümü bağışlaya bilmirdim. Bir ananın gəlin gətirib nəvə görmək arzusunu sinəsində öldürmüşdüm. Bundan artıq günah tanımırdım.

Aylar bir-birini əvəz edir, nə məhkəmə olur, nə hökm çıxarılırdı. Bu cəhənnəmdə çox şey öyrənmişdim. Çəkdiyim əzablar sanki gözümü açmışdı. Düşüncəsinə, əqidəsinə görə insanların bu qədər əzab çəkdiyini heç vaxt ağlıma gətirməmişdim. Çox əsəbləşirdim. Hətta deyərdim ki, həyatdan belə doymuşdum. Bu əzab-

verici fikirlərin pəncəsindən yaxamı necə qurtarmaq haqda düşünür, çarə tapmırdım. Çarəsizlik məni get-gedə bədbinliyə doğru aparırdı. Belə hallarda Etibarın əzab-əziyyət dolu həyatını yadıma gətirirdim. Onun Nübar ananın evində yaşadığımız günlərdə vərəq-vərəq oxuduğum həyat kitabı, elə bil mənə ürək-dirək verirdi. Qəm-qüssə dolu ürəyimin hansısa bir hücrəsində zəif bir ümid işığı görürdüm. O işıq əlimdən tutub məni bu düşdüyüm quyudan çıxarır, əl-ələ tutub xoşbəxtlik selində çimirik sanki. Xoş xəyallar, əlçatmaz arzular içində məst olmuşdum. Bunun mümkünsüzlüyünü bilə-bilə düşündüklərimə görə özüm öz halıma gülürdüm, Qasım. Məni bağışla ki, bu etirafım sənə əzab verəcək.

Birinci gecəni qorxu və düşüncələr içində başa vurdum. Səhər həmin nəzarətçi əvəzinə, başqa biri dəmir məcməyidə ilıq çay və bir tikə çörək gətirib içəri qoydu. Lal-kar adam kimi yenə qapını örtüb getdi. Əlimi çörəyə uzada bilmirdim. Mənə elə gəlirdi ki, elə indicə qusacam. Ürəyim heç nə istəmirdi. Ayaq yolunun üfunətindən mədəm bulanırdı. Susuzluğum da yaddan çıxmışdı. Axşama yaxın qapının iri qıfılı taqqıldadı. Dünənki nəzarətçi yox idi. Səhər mənə yemək gətirən nə isə donquldandı. Heç nə başa düşmədim. O da fars dilindən başqa heç bir dil bilmirdi. Mən də farsca qırıq-qırıq danışırdım. Onun buna lap acığı tuturdu. Başa düşdüm ki, niyə yemədiyimi soruşur. Mən susurdum. İçəridə havam çatmırdı. Məni ən çox narahat edən, tez-tez qaranlıqda üstümə atılan siçanlar, siçovullar idi. Qorxudan gözümə yuxu getmirdi. Kameranın divarlarında müxtəlif xətlər, şəkillər, hətta təqvim də çəkilmişdi. Bunun nə demək olduğunu az-çox başa düşürdüm. Köməksiz, hər tərəfdən əli çıxan insanlar günlərini, saatlarını bu məşğuliyyətlə öldürürmüşlər. Çarpayının baş tərəfində iri bir qadın şəkili divara yapışdırılmışdı. Kiminsə arvadı, ya nişanlısı olduğunu zənn edib əl vurmurdum. Marağım yenə üstün gəldi. Əl atıb şəkili çıxardım. Kameranın alaqaranlığında şəklə yaxından baxmaq istədim. Gördüyümdən özüm də qorxdum. Şəkilin altında kiçik bir baca açılmışdı. Oradan qonşu kameradakı məhbusla asan danışmaq olurdu. İndi başa düşdüm ki, dünənki nəzarətçi niyə mənə «qonşun səni başa salar», - deyirmiş. Hələ axşama xeyli qalırdı. Dünəndən yuxusuz olsam da, çarpayının qırağında azacıq yer eləyib oturmuşdum. Başımı yastıq

deyilənin üstünə qoyub köhnəlikdən didik-didik olan adyalı üstümə çəkmək istəmirdim. Müxtəlif adamların yatdığı bu çirkabdan cürbəcür xəstəliklərə tutulduqlarından mənə çox danışmışdılar. Odur ki, bir az ehtiyatlı davranırdım. Qorxa-qorxa divardan açılan bacaya yaxınlaşdım. İki dəfə tıqqıldatdım. Əllərim əsir, ürəyim bərk döyünürdü: Nə olacaq olsun, təki bir insanın səsini eşidim – deyə fikirləşirdim. Mənim tıqqıltıma tez də cavab gəldi.

– Mənə diqqətlə qulaq as, – deyə Səltənətin mülayim səsi otağa yayıldı

– Səni yaxşı eşidirəm, – cavab verdim.

– Burada istintaq eləyənlərdən insaf, mürvət gözləmə, səni məcbur edib «hə» cavabı alsalar, Etibar da, mən də, Mürsəl də siyasi dustaqlar kimi mühakimə olunacağıq. Səni kameraya gətirən nəzarətçiyə inan. Nə soruşsalar «bilmirəm», «yox» cavabı verərsən. Məni axtarma, sənin lə əlaqəni özüm yaradacam. Uşaqlar tezliklə səni burdan çıxaracaqlar. Buna hazır ol. Özünü avamlığa qoy, sərt cavab vermə. Yadında saxla, harada olsan səni axtarıb tapacam. Beş aya yaxındır mən bu xarabadayam. Hələ də məhkəmə, filan deyilən şey yoxdur. Möhkəm ol!

– Başa düşdüm, – deyə astadan cavab verdim. Tez şəkili yerinə asdım. O gün elə bil gözlərimə işıq, qoluma təpər, güc-qüvvət gəlmişdi, Qasım. Nəzarətçinin gələn vaxtı idi. Bir neçə dəfə gözlükdən baxsa da, hələ qapı açılmamışdı. Hər ehtimala qarşı yerimi rahatlayıb çarpayının kənarında oturdum. Yenə də əlimi yeməyə vurmamışdım. Acından başım gicəllənir, az qala huşumu itirirdim. Səhərdən gətirilən sudan bir neçə qurtum içdim. Elə bil aclığım susuzluğa dönmüşdü. Qapının açılmamasından çox nigaran idim. Ağlıma cürbəcür fikirlər gəlirdi. Qaranlıqda o baş-bu başa xeyli var-gəl elədim. Nə isə xoşagəlməz bir hadisə baş verəcəyi ürəyimə dammışdı. Çox narahat idim. Bir neçə dəfə Səltənətlə dərdləşib ürəyimizi boşaltdıq. Mənə yazılan məktubdan onun əsla xəbəri olmadığına bir daha əmin oldum. Səltənət məni başa saldı ki, məktub onun xətti ilə yazılmayıbsa, bundan əsla qorxmaq lazım deyil. Sadəcə səni şəhər kənarına məktuba maraq gətirib. Mürsəl və Etibarla tanışlığınsa təsadüfüdür.

Bir az Toxtasam da, səhəri qorxu və narahatçılıq içində açdım. Bir az ürəklənmişdim deyə özümü gümrah hiss edirdim.

Dəmir qapının xırda gözlüyündən işıq görünəndə səhərin açıldığını başa düşdüm. Çox çəkmədi ki, qapı taqqıltı ilə açıldı. Birinci gün məni gətirən nəzarətçi qapıda görünəndə sevindimsə də, yerimdən tərpənmədim. Ehtiyat edirdim.

– Mən gələndə ayağa durmalısan. Bunu sənə öyrətməyiblər, şürəvi cəsusu? Əlbəttə, əlbəttə, sizin tərbiyənizi ruslar veriblər. Mən bunu gərək unutmayaydım. Qalx, gedirik. Buraya istirahətə gəlməmisən. Sizin kimilərini çox görmüşük. Əvvəl qaçdılar Arazdan o taya, ağızları «bala» batdı, sonra da gəlib taxt-tac sahibindən üzr istəyib yalvar-yaxar elədilər. Aqibətləri də sənin kimi göz qabağındadı. Gec-tez sən də cəzanı alacaqsan.

Çölə çıxanda əllərimlə gözümü xeyli ovuşdurdum. Həsrətində olduğum havanı acgözlüklə ciyərlərimə çəkdim. Gözümə elə bil qum tökmüşdülər. Açа bilmirdim. Kameranın qabağında dayanıb nə isə açarla əlləşən nəzarətçi mənə sarı çevrildi:

– Nə durmusan, tərpənsənə. Parkda gəzməyə-zada çıxmamısan ki…Belə kameraları çox görəcəksən, xanım qız.

Mən qorxa-qorxa dəmir barmaqlıqdan baxan Səltənətlə başımı tərpətməklə vidalaşdım.

Mahtaban

İki-üç gün mənə dəyib-dolaşan olmadı. Cəmilə üzümdə, bədənimdəki qançırları sağaltmaqla məşğul idi. Mən arxası üstə yata bilmirdim. Üzümü örtüb elə ağlayırdım. Çölə, gəzintiyə də çıxmırdım. Başçı çağrılan kişisifət də gendən mənə qanlı-qanlı baxıb gedirdi. Bir həftəyə yaxın idi ki, dəftərimə heç nə yazmırdım. Onun itməsi məni yaralarımdan çox ağrıdırdı. Otağa gəldiyim üçüncü günü yatağımın üstündə dizlərimi qucaqlayıb oturmuşdum. Cəmilənin təkidinə baxmayaraq yenə gəzintiyə çıxmamışdım. Səltənətin, nəzarətçi qadının dediklərini yadıma salıb götürqoy edirdim. Neçə aydır gözlədiyim «ədalət» məhkəməsindən əsər-əlamət görünmürdü. Vaxt uzandıqca ümidim də get-gedə tükənirdi. Ailəmdən, uşağımdan xəbərsiz idim. Anam, bacı-qardaşım yadıma düşmüşdü. Uşaq kimi kövrəlmişdim. Üzdə özümü tox tutsam da, içimdə qəzəb, nifrət, həsrət dolu bir tufan var idi. O tufanı cilovlaya bilmirdim. Cəmilənin yoxluğundan

istifadə edib hönkürtü ilə ağladım. Bir əlin qəfildən çiynimə toxunduğunu hiss edib başımı qaldırdım. Təəccüb dolu nəzərlərlə onun üzünə baxdım. Lal-dinməz xeyli baxışdıq. Onun gözləri dolmuşdu. Gözünün dərinliyində kindən-qəzəbdən əsər-əlamət yox idi. Hər halda bunu mən belə hiss elədim. O qoltuğunda gizlətdiyi dəftəri mənə uzatdı. Gözlərimə inanmırdım. Kiçik əl yaylığı ilə gözlərini silib məni qucaqladı.

– Bizim hər birimiz qəmli bir tale yaşamağa məhkumuq. Sən kamerada olmayanda dəftərini o kişi sifətdən xəlvət götürüb başdan-ayağa oxumuşam. Başına gələnlər, yazdığın hekayətlər mənə çox toxundu, Fatma. Başına gələnlərin içində mən özümü, öz taleyimi gördüm. Məni bir o qədər də ürəksiz, qansız hesab eləmə. Bizi bir-birimizin qanını tökməyə vadar eləyən Pəhləvi xənadanının mən də düşməniyəm, bacı. Anam Gəncədən, atam Təbrizdəndi. Milli hökumət yıxılandan sonra başım nələr çəkmədi. Mənim dərdim yerə-göyə sığmaz. Sərhədlər bağlananda mən burda yox idim. Almaniyada təhsil alırdım. Geri qayıtmağım qorxulu idi. Atam-anamdan, qardaşımdan xəbər tuta bilmirdim. Geri qayıtsam, dar ağacından asılacağıma şübhəm yox idi. Çünki atam-anam milli hökumətimizi quran Seyid Cəfər Pişəvərinin silahdaşları, Demokrat Firqəsinin üzvü idilər. Aqibətləri mənə gün kimi aydın idi. Qardaşımın taleyi isə acı bir sonluqla qurtarmış, gecə evimizdə yatdığı yerdə öldürülmüşdü. Mənim Təbrizə dönməyim üçün heç bir işıq ucu görünmürdü.

O bərk kövrəlmişdi. Əlləri, dodaqları titrəyir, əlinin dalı ilə göz yaşını tez-tez silirdi.

Mən təəccüblə dilləndim:

– Bəs niyə bu xarabaya döndün? Axı gəlməyə bilərdin. Orada bir iş tapıb qulağı dinc dolanardın, – deyə ondan soruşdum. Əhvalım bir az durulmuşdu.

– Bu sənin düşündüyün kimi asan deyildi, Fatma. Mənim təhsil pulumu milli hökumətimiz ödəyirdi. O da kəsilmişdi. Dili yaxşı bilmədiyimə görə heç yerdə işə götürmürdülər. Vətən, torpaq şirin şeydi. Deyirlər, Vətənin qədrini bilmək istəyirsənsə, bir müddət ondan uzaqda yaşa. Təbriz üçün burnumun ucu göynəyirdi. Geri qayıtmağa yol pulum yox idi. Məni başa saldılar ki, İranın Almaniyadakı səfirliyindən kömək istəyim. Bu mənim heç

ağlıma gəlməmişdi. Sevincək ora getdim. Çətinliklə olsa da, səfirlə görüşə bildim. Mənə olan soyuq münasibəti ilk sözdən başa düşdüm.

– Məni bağışla, neçə vaxtdır bir yerdəyik, əsl adını da bilmirəm. İlk gündən bir-birimizə qənim kəsildik. Neynək, burda başqa cür mümkün deyil. Hamı səni «başçı» çağırır deyə sözünü kəsdim. Amma o sənə əmrlər verəndən fərqli olaraq sənə qarşı az da olsa, bir doğmalıq hiss edirdim ürəyimdə.

O, azacıq güldü. Əlini çiynimə qoyub dilləndi.

– Əşi, nə başçıbazlıqdı, canım. Mən də sizin kimi məhkumun biriyəm. Əgər burda qoluzorlu deyilsənsə, səni qarışqa kimi əzəcəklər. Hər kəs bacardığı kimi başını girləyir. Burda gərək ya pulunu, ya da qolunun gücünü görələr. Yoxsa nəzarətçilər səni soyarlar. Universitetdə oxuyanda bir az idmanla məşğul olmuşdum. Üç ildir ki, bu xarabadayam. İlk günlər məni də sənin gününə saldılar. Biri aşbaz köməkçisi, biri çay paylayan, xörək paylayan, ya nəzarətçi olmaq istəyirsə, pul verməlidir. Burda bir növü alver gedir. Hər kəs bir-birinin üstündə göz olmalıdır. Birinci gün mənə səni tiryəkə alışdırmaq tapşırığı verilmişdi. Yaxşı ki, məcbur eləyə bilmədim. İnanmazsan ki, ürəyimdə nə qədər razı qalmışdım? Bunun üstündə məni də cəzalandırdılar. O kişi sifət onların buyruqçusudur. Bir dəfə qolumun gücünü görüb deyə mənə dəyib-dolaşa bilmir. Bu dəftəri də ondan oğrlamışam.

– Bəs səndən necə əl çəkdilər?

– Əl çəkmədilər. Gördülər ki, sənin bir nəfər də olsun ziyarətçin yoxdur, qəribsən, dahi israr eləmədilər. Mənim də canım qurtardı, sənin də.

– Yenə də adını öyrənə bilmədim, başçı!

Hər ikimiz güldük.

– Başçı sözünü bu gündən unut, adım Mahtabandır. Çox vaxt atam məni Mehin deyə çağırardı.

Yenə gözləri bulud kimi doldu:

– Mehin də çağır. Mən adımı Mehin kimi kimin ağzından eşidirəmsə, bax beləcə kövrəlirəm. Atalı-analı xoşbəxt çağlarım yadıma düşür. Hələ indiyə qədər onların talelərindən xəbər tuta bilməmişəm. Ümid edirəm kt, o qarışıq günlərdə imkan tapıb vətənimizin şimalına keçiblər. Ümidlə yaşamağın özü də bir

ömürdü. Güman edirəm ki, vətənimizin şimalında yaşayan ana qohumlarım onlara kömək dururlar. Dünyanı ümidlə yeyiblər deyirlər.

Mehin başını qulağıma tərəf əyib pıçıldadı.

– Deyirlər sizin padşahınız Stalin ölüb. O taydakı qardaşlarımızın başında oynatdığı qılıncı əlindən düşüb. O da bundan geri qalmaz cəlladdı. Bəlkə, bir az rejim yumşalacaq? Ata-anamdan bir xəbər tutacam, bacı. Sən buna necə baxırsan? Oxuduğuma, eşitdiyimə görə xalqımızın say seçmə neçə oğlanlarını gedərgəlməzə göndərib. Baş qaldıranı Sibir deyilən yerdə çürüdüb. Bizimkiləri ölkənin cənubunda – Kaşanda çürütdükləri kimi. O Kaşan adlandırılan xaraba heç də Sibirdən geri qalan deyil. O taylı-bu taylı gün-güzəranımız belədir, Fatma. Əsirlərlə torpağımız bu iki müstəbid rejimin təzyiqi ilə parçalanıb, xalqımızın hüququ əlindən alınıb, ölkələrə səpələnib. Odur ki, Stalin taxtının devrilməsi bizi sevindirir, ürəyimizdə ümid işığı yandırır. Mübarizəmizin hədər getməyəcəyinə inandırır. Qanla batırılan azadlığımızın geri qayıdacağına ümid yaradır.

– Allahın kəraməti böyükdür. Eşitməmisən belə bir misal var, deyirlər, Allah bir adamın qapısını bağlayanda, pəncərəsini açıq qoyur ki, işıq gəlsin. O ümid işığıdır. Bəlkə bir gün bu əzablarımıza son qoyub səsimizi eşidəcək? Mən buna inanıram, Fatma. Sən də ümidini üzmə, bacı.

– Hə, İran səfirliyində sənə köməklik elədilərmi? –Mən böyük maraqla soruşdum.

Mən söhbətin ardını böyük həvəslə dinləmək istəyirdim. Neçə aydır, ona bəslədiyim kin-küdurətim büsbütün yox olub getmişdi. Elə bil hər an ondan elədiklərinin qisasını almaq üçün fürsət axtaran mən deyildim. Ürəyimdə ona qarşı bir şəfqət hissi oyanmışdı. Düşünürdüm ki, yüzlərlə, minlərlə soydaşlarımızın eyni tale yaşadığı bu məmləkətdə Tehranın şahpərəstləri tərəfindən yeritdiyi təqiblərdən, dar ağaclarından, həbsxanalardan başqa yaxşı heç nə yoxdu. Bunlar 1937-1938-ci illərdə Stalin-Mikayon diktaturasının xalqımızın başına açdığı müsibətlərə bənzəyir. Sovet hərb maşını xalqın görən gözünü, düşünən beynini təkərləri altında əzib məhv etdiyi kimi, Azərbaycan Milli Hökumətinin süqutundan az qala on ilə qədər vaxt keçməsinə baxmayaraq

Tehran hökumətini təmsil eləyənlər sakitləşmək bilmir, valideynlərinin qətlindən sonra övladlarını da dinc qoymurlar. Deməli, qurluşlar ayrı olsa da, zülm, zorakılıq, azadlıq istəyənin ağzına daş basmaq, haqq istəyəni əzib məhv etmək siyasəti hər ikisində eynidir. Mən bir vaxt bu mövzuda kitab yazmaq istədiyimi babama bildirəndə o məni xəyalpərvər adlandırıb dedi:

– Qızım, qılınc hələ tiranın əlindədir. Mən özüm o qılıncın zərbəsini çox görmüşəm. Böyük Vətən Müharibəsinə könüllü getməsiydim, indi səninlə burada oturmazdım. Hər şey üçün zaman lazımdır. Nahaq yerə deməyiblər ki, zaman hər cür yaranı sağaldan ən yaxşı məlhəmdir. Belə getməz. Zülm eləyənlərin burnu mütləq ovulmalıdır, səbr elə. Görmək istədiyin iş çox lazımlı olsa da, vaxtı deyil. Mən mir Cəfər Pişəvərinin Təbrizdən gəlib Şəkidə, Gəncədə fədailərdən ibarət «Qızılbaş»lılar alayı düzəldib Tehranın işğalçı ordusuna qarşı təzədən mübarizə aparmaq istədiyinin şəxsən şahidi olmuşam. O böyük şəxsiyyət vətənpərvər, odlu-alovlu ürəyə malik bir siyasətçi idi. Bolşevik rejimi onu da tora salıb məhv etdi. Tehran irtica ordusu köməksiz qalan Azərbaycan torpağını ayaqları altında tapdaladı. Yüzlərlə yazıçı, şairlərimiz, alim, siyasətçilərimiz -Seyid Cəfər Pişəvarinin silahdaşları boğazdan asıldı. Amma bir şeyi unutma ki, irtica hər yerdə eynidir. Mahiyyət birdir: «Parçala, ayır, böl!»

Onda hələ orta məktəbdə oxuyurdum. Kənddə tarix müəllimi işləyən babamın dediklərini bir elə də başa düşə bilmirdim. Odur ki, babamdan soruşdum:

– Niyə belə oldu, baba? Axı onlar bizdən nə istəyirlər? O ucuna ensiz qırmızı lent bağladığım saçımı əlində sığallaya-sığallaya dedi:

– Torpağımızın sərvətlərinə sahib olmaq üçün rus dövləti ilə İran hakim dairələri həmişə didişiblər, qızım! Əsası da odur ki, qızıl xəzinəmiz olan neft yataqlarını aralarında bölüşdürsünlər. 1946-ci ildə yenə də hər iki irticaçı dövlətin köhnə «mərəzləri» baş qaldırdı. Azərbaycanın neft sərvətini Moskvaya bağışlamaqla Tehran hökuməti qurbanlar bahasına əldə etdiyimiz azadlığımızı qan gölündə boğdu, qızım! Bunun ikinci tərəfi də var, mənim balam. Bunları bilmək sənə hələ tezdir.

– O nədir, məni başa sal, baba? – Deyə əl çəkmədim.

– Stalin –Mikoyan hökuməti bütöv Azərbaycan dövlətinin bərqərarını istəmirdilər. Farslar isə oradakı torpaqlarımızı İranın bir əyaləti kimi saxlamaq, milli muxtariyyətdən məhrum eləmək üçün dəridən-qabıqdan çıxırdılar. Bax əsas məqsədlər bunlar idi. Vaxt gələr, özün oxuyub hər şeyi bilərsən.

Burda gördüklərim babamın vaxtilə dediklərinə bir sübut idi. Başqa vaxt olsaydı və burda yaşamasaydım, bəlkə də, bu haqda düşünməzdim. Necə olur-olsun bu yazdıqlarımı qoruyub saxlamalıyam deyə özümə qəti söz verdim. Bu barədə Mahtabanın mənə köməyi dəyə bilərdi. Səltənət haqda ona bir söz deməyə ehtiyat edirdim. Nə bilmək olar... Hər şeydə ehtiyatlı olmaq, yüz ölçüb bir biçmək lazım idi. Artıq insanlara inamım, etibarım itmişdi deyə hər kəsə ürək qızdıra bilmirdim.

Bu əsnada əlində iki fincan çay gələn Mahtaban gülə-gülə dilləndi:

– Bərk fikrə getmişdin. Səni düşüncələrindən ayırmaq istəmədim, Fatma. Al, bu çayı iç, bayaqkı sualının cavabına da hazır ol. Biz burda bəd işlər, dolaşıq fikirlər eşitməyə öyrənmişik.

– Hə, lap məni utandırdın, Məhin. Belə hallar məndə tez-tez olur. Qəribliyin necə ağır olduğunu hər kəs bilməz. Əlim hər yerdən üzüləndə köhnə xatirələrə dalıram. Bəzən bu mənə çox kömək eləyir. Deyirlər kimin xatirəsi yoxdursa, onun keçmişi də, indisi də yoxdur. Elə xatirə var ki, insana təzədən yaşamaq öyrədir. Həyatın mənası elə yaşamaq deyilmi?

Mehin ağır-ağır dilləndi:

– Qəribliyin ağrı-acısını elə daddığıma görə öz yurd-yuvama qayıtdım, Fatma. Sənin hisslərin mənə tanışdı. Elə ona görə də sənə mane olmamaq üçün çay dəmləmişəm. İçinə mixək də atmışam. Keçən dəfə görüşə gələndə xalam gətirmişdi. Bu nəzarətçilər var ha, oğru itdən betərdilər. Evdən nə gətirirlərsə, yarıbayarı eləməsələr, əl çəkməzlər. Dəyib-dolaşmasınlar deyə nə istəyirlər veririk. Nə etməli, bizimki belə gətirib.

– Mənim verməyə heç nəyim yoxdur. Elə yəqin ona görə də məni tez-tez döyüb təkadamlıq kameraya salırlar da.

Məhin Fatmanın nəyə işarə elədiyini başa düşdüyü üçün şaqqıltı ilə güldü.

– Gəl söhbətimizi başa vuraq, indicə Cəmilə gələcək. Bilirəm,

səni çox istəyir. Ürəyi yumşaq, təmiz qadındı. Bura düşəndən bir il sonra əri onu boşayıb başqa qadınla evləndi. Uşaqlarını qoca anası saxlayır. Ehtiyac içində yaşayırlar. Guya arvadının həbsdə olması onun heysiyyətinə toxunur. Elə qeyrət çəkən kişisənsə, bir vəkil tutub uşaqlarının anasını azad elətdirəydin, sonra nə qələt istəyirdin, eləyəydin. Yazıq çox üzüldü, çox göz yaşı töküb ağladı. O da taleyi ilə daha barışıb.

– Hə, mənə hamısını danışıb. Çox təəssüf ki, igid, mərd, sözübütöv kişilərimizlə bərabər bələləri də var. Dərindən düşünəndə görürsən ki, bu türmələrdə günahlılardan çox günahsızlar yatır. Həbsxana insanın qürurunu sındıran, həm də bərkə-boşa salıb dünyanın hər üzünü bütün çılpaqlığı ilə göstərən yerdir. Bəzilərinin bu divarların arasında ruhu kiçilir, sarsılır, bədbinliyə qapılıb məhv olur, bəziləri də, haqsızlığı görə-görə məhək daşı kimi bərkiyir, sərtləşir. Öz qohumlarını, yaxın dostlarını yaxşı tanıyır. Görürsən ki, duz-çörək kəsdiyin, neçə illərin dostu öz rütbəsi naminə səni satır, etibarını itirir. Uzun zindan həyatı Pişəvərini bir daha püxtələşdirdi. Yeni siyasi əqidəli dost, həmfikir tapmağına kömək elədi. Doktor Tağı Ərani, Əli Şərqi, Yusif İftixari, Şair Fərruxi kimi əqidə yolunda canlarını verən azadxahlar Seyid Cəfər Pişəvərinin ətrafında toplaşdılar. Sonralar milli iftixarimiz olan yüzlərlə bələləri hərəsi bir cürə zülmün əlində məhv olub getdilər. Amma onların canları, qanları ilə bu torpağa səpdikləri milli azadlıq toxumu yenə göyərəcək, Məhin. Buna inan. Belə dərdlərimizi çox sadalamaq olar. Nə qədər ki, bu torpaqda Səttərxan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri ruhu göyərməyib, belə itgilərimiz çox olacaq. Bunu ataq tarixin boynuna, biz öz dərdlərimizdən, çəkdiyimiz əzab-əziyyətlərdən danışaq, bacı. Almaniyadan bura niyə gəlib, özünü oda-alova atdın? Sənin aqibətin ki özünə aydın idi?

– Düzünü desək, məni aldatdılar. Atamın kim olduğunu bilənlər necə olur-olsun məni cəzalandırmaq istəyirdilər.

– Necə aldatdılar? Sən axı uşaq deyildin?

– Bilirsən, Fatma, ehtiyac çox pis bəladı. Elə olur ki, istəməyə-istəməyə bir işi görməyə məcbur olursan. Getmək istəmirsən, amma gedirsən. Ehtiyac mərdi namərdə, təmiz adamı oğruya, qatilə çevirə bilər. Bax elə indi mənim vəziyyətimi göz qabağına

gətir. Mənim çəkdiyim əzabları heç kəs çəkə bilməz. Çünki nifrət elədiyim işə, hərəkətə məni təhrik eləyirlər. Vicdanımın qarşısında mənə əzab verirlər. Bu əzab həbsxananın əzabından ağırdı. Yatanda, duranda, yeyib-içəndə belə bu əzab daş olub ürəyimdən asılır. Özümə nifrət edirəm. Başa düşürəm ki, həbsxanada belimə vurulan o şallaq yarası sağalıb gedər, amma vicdan əzabının yara yerləri sağalmaz. Mən ehtiyacdan o simasızlara müraciət elədiyim üçün gecə-gündüz vicdan əzabı çəkirəm. Deyirlər ki, keçmə namərd körpüsündən, qoy aparsın sel səni. Mən gərək namərdin köməyinə bel bağlamayaydım.

Almaniyada pulum qurtarmışdı. Universitetdən məni xaric eləmişdilər. Bir neçə həmyerlimə üz tutdum. Mənə kömək eləməkdən imtina elədilər. Hətta mənimlə danışmaqdan qorxurdular. Özlərinin şühbəli adamlar sırasına düşməklərindən ehtiyat edirdilər. Nə olur-olsun, geri qayıtmağa hazır idim. Yad ölkədə mənim dərdimə qalan, başa düşən bir adam tapmaq mümkün deyildi. Bilirsən, bu Avropadakı insanlar bizimkilərdən çox fərqlidilər. Soyuqqanlılıq, laqeydlik iliklərinə, qanlarına işləyib. Mənimlə bir qrupda oxuyan bir alman qızı var idi. Atası kifayət qədər imkanlı idi. Heç olmazsa, bir iş almaq üçün müraciət etdim. Məni çox soyuq qarşıladı. Evlərində qulluqçu işləməyə də razı idim. Rədd cavabı verdi:

– Sizin vəziyyətinizdə heç kəs sənə iş verib, başını bəlaya salmaz. İranın Almaniyadakı səfərətxanasına müraciət etsən, yaxşı olar. Hər halda sənə kömək göstərərlər, – dedi.

Əlacım kəsilmişdi, qalmağa yer tapmırdım. Mən onun dediyi kimi səfərətxanadan kömək istədim. Səfərətxanadan bildirdilər ki, o zaman sənə kömək eləyə bilərik ki, vətənə qayıdasan. Mən vəziyyəti onlara aydınlaşdıranda təhlükəsizliyimə tam təminat olacağına söz verdilər. Vətənə qayıtdım. Kaş heç qayıtmayaydım. Evimizin daşı-daş üstündə qalmamışdı. Qardaşımın aqibətini xalam mənə danışdısa da, ata-anamdan heç bir xəbər tuta bilmədik. Bir müddət xalamgildə yaşadım. Sən demə xalamın oğlu «İntiqam məhkəməsi» deyilən təşkilatın üzvü imiş. Bir gün evlərində axtarış aparanda bəzi sənədləri tapıb götürdülər. Məni də bu işdə günahlandırıb həps etdilər. Mənə qarşı əllərində ciddi sübut, dəlil olmasa da, çox incitdilər. Ata-anamın qaçqınlığını,

xalam oğlunun günahını mənə sübut-dəlil gətirib zindandan-zindana atmaqla sındırmaq istədilər. Kişi məhbusların mənə zor işlədəcəkləri ilə hədələdilər. Bu illər ərzində üçüncü dəfədir ki, bu xarabaya düşürəm. Əvvəl Təbrizdə saxlayırdılar, sonra bu xarabaya köçürdülər. Təbriz Milli Azadlıq inqilabı gözlərini elə qorxudub ki, mənim kimilərini orda saxlamaqdan da ehtiyat edirdilər. Bir ilə yaxındı məhkəməsiz-filansız bu cəhənnəmdəyəm. Bir gün qabağıma kağız qoyub dedilər ki, bura qol çək, səni azad eləyək. Mən kağızı oxumaq, nəyə qol çəkdiyimi bilmək istəyəndə, razı olmalıdılar.

Oxumadan heç nəyə qol çəkmərəm, dedim. –Məni günahsız, məhkəməsiz burada saxlamaqda qanunu pozursunuz- dedim. Mən Şahənşaha ərizə yazacağımı bildirəndə, təsəvvür elə ki, mənə gülüşdülərsə də, qəzəbləri yerə-göyə sığmadı:

Sənin kimilərinin ərizəsini oxumağa onun vaxtı yoxdur. Hər yetirən ərizə yazıb göndərsə, saray ağzına qədər kağız-kuğuzla dolar ki. Get yaxşı fikirləş, ya bizdən ol, ya bizə qarşı durduğunu etiraf elə, canın qurtarsın. Qardaşının, ata-ananın aqibəti səni də gözləyə bilər deyə qorxudurdular. Şahənşahın siyasətinin iç üzüdür bu həbsxana. Möhkəm olmadın, sənin öz əlinlə özünə ölüm fərmanı yazdıracaqlar. Onu bil, Fatma, ölməmək naminə yeri gələndə şeytanı aldatmaq da bir igidlikdir.

Şeytanla görüş

Günümü birtəhər yazı-pozu ilə keçirirdim. Mahtabanla dostluq mənə xeyli kömək eləmişdi. Özümə inamım birə-iki artmışdı. Otaqda yoxlama olan kimi dəftərimi ona ötürürdüm. Çox sağ olsun. Həyatda cürbəcür insanlar var imiş. Amma yaxşılar təktəkdi. Sizinlə görüşdən sonra günüm lap qara olmuşdu. Gecə-gündüz vəkil gözləyirdim. Nə sizdən, nə vəkildən xəbər var idi, Qasım. Bir gün məni sorğu-suala çağırdılar. Mehin yumruğunu bərk sıxıb yuxarı qaldıranda onun nə demək istədiyini sözsüz başa düşmüşdüm. Əvvəlkindən bir az ötkəm, bir az cürətli, cəsarətli rəisin otağına girdim. Masanın arxasında aypara şəklində sallaq bığları çənəsinin altına qədər əyilən, yoğun gövdəsi kresloya güclə sığışan qaraqabaq, eynəkli biri oturmuşdu. Onu bi-

rinci dəfə idi görürdüm. Məni görcək özünü bir qədər də zəhmli göstərib başını qaldırmadan soruşdu:

– Sən hələ öz dediyində durmusan? Deyəsən, buranın əbədi sakini olmaq istəyirsən? Nolar, qoy sən deyən olsun. Sənin burada olmağın həbsxanamıza gözəllik verir.

– Adamın bir sözü olar. Onu da demişəm. Mən heç bir kağıza qol çəkməyəcəm, heç kimi də tanımıram.

Bu əsnada qapıdan icazəsiz-filansız kimsə içəri girdi. Mən üzü divara sarı oturduğumdan kim olduğunu aydınlaşdıra bilmirdim.

– Neynək, belə inadçıl adamsan, onda səni başqa həbsxanaya dəyişdirməkdən başqa çarəmiz qalmayıb. Orda səni danışdırmağın yolunu taparlar. Səltənət-sənin əqidə yoldaşın, sənin təşkilatın üzvü olduğunu boynuna alıb. Üzünə dirənsə necə?

– Nahaqdan mənim üzümə dirənə bilməzlər. Mən heç kəsi tanımıram.

Səltənətin hələ də təkadamlıq kamerada olduğunu bildiyim üçün onun yalan dediyinə əmin idim. Odur ki, arxayınca cavab verir, mümkün qədər əhvalımı pozmurdum. Fikirləşirdim ki, karlı bir sübutları olsaydı, indi qışqırığı başına düşərdi bu alçağın.

– Əgər sizin o Səltənət dediyiniz xanım kimdirsə, üzümə durub bir sübut gətirsə, o sizin qələbəniz olar dedim.

Arxamda dayanan bir addım da irəli gəldi. Səssiz-səmirsiz keçib kresloda əyləşdi. Gözücü ona doğru bir nəzər saldım. Bu o lənətə gəlmiş Karapet idi. Murdar dişlərini ağardıb hırıldadı. Ürəyim şiddətlə döyünür, gözlərimə qaranlıq çökürdü. Hirsimdən əlim-ayağım titrəyirdi. Yıxılmamaq üçün əl atıb yanımdakı kürsüdən yapışdım.

– Ara, bəlkə, bu xanım qız deyacax ki, məni də tanımır, ha? Onu iki dəfə mənim əlimdən qaçıranları necə tanımaya bilərsən, matax? – Yaxınlaşıb kürsüdən tutduğum əlimi sığallamaq istəyəndə əlimi çəkib, döşündən itələdim:

– Cinayətkar əllərinlə mənə bir də toxunma – dedim.

O, həyasızcasına yenə hırıldadı:

– Mənim sığal çəkməyimi istəmirsən, orda sənə yaxşı sığal çəkənlər tapılar, hi hi hi...

Sorğu aparan fısıldaya-fısıldaya ayağa qalxdı.

Yan otağa keçib nə isə məxfi məsləhətləşmə apardılar. Bu dəfə döyülmədiyimə sevindim. Üz-gözündən zəhər tökülən yoğun gövdəlinin səsini azacıq aralı qalan qapıdan aydın eşidirdim.

– Sənin işlərindən rəisin heç xoşu gəlmir. Belə ki, ordan bura gəlib israr edirsən, qoy bu da sənin olsun. Amma onu bil ki, bu dəfə də deyilən məbləği gətirməsən, rəis dərinə saman təpəcək. Rus səfərətxanasından onu axtarsalar, bu siyasi qalmaqala səbəb olacaq. O qız hələ buranın vətəndaşı deyil.

Qayıdıb masanın yanındakı düyməni basdı.

– Bu şürəvi «cəsusu»nu apara bilərsiniz, – dedi.

Mən belə sözlərə alışmışdım. Heç nə başa düşmürdüm. Bu alçağın gəlişi narahatçılığımı artırmışdı. Nə baş verdiyini aydınlaşdırıb bir fikrə də gələ bilmirdim. Məni sorğu-suala çəkənin nə məqsədlə belə asanlıqla məndən əl çəkməsində nə isə bir gizli mətləb var idi. Mehinlə çox götür-qoy eləsək də, bir qərara gələ bilmirdik. Nə isə xoşagəlməz bir hadisə baş verəcəyini başa düşürdük. Hər üçümüz narahat idik. Həmin gecə dəftərimə axırıncı dəfə olaraq qeydlərimi yazıb gizlətdim. Onun yerini Mahtabandan başqa heç kəs bilmirdi.

Uçuruma doğru

Bu sorğu-sualdan sonra bir neçə gün Fatmaya dəyib-dolaşan olmadı. Mahtaban nəzarətçilərin «inanılmış» adamları olduğu üçün nə qədər cəhd eləsə də, heç nə öyrənə bilmirdi. Səltənətin etibar elədiyi nəzarətçi qadın da gözə görünmürdü. Hər axşam gecə yarısına qədər qızlar baş-başa verib onları götür-qoy edir, bir qərara gələ bilmirdilər. Bir gün səhərə yaxın nəzarətçi qadın Fatmanı silkələyib yuxudan oyatdı:

– Tez ol, ardımca gəl, – dedi.

Hərəkətlərində nə isə bir məxvilik duyulur, tələsdiyi aydınca bilinirdi.

Fatmanın ilk öncə ağlına Səltənətin. «Yoldaşlar səni buradan çıxaracaqlar» sözləri gəldi. Təəccübdən çox sevindi Fatma. Mahtabanı, Cəmiləni yuxudan oyatmadan özünü qapıya atdı. Nəzarətçi qəflətən geri dönüb sərt, amiranə bir tərzdə dedi:

– Get şeylərini də götür.

Sonra nə fikirləşdisə Fatmaya nəinki şeylərini götürməyə, heç qızlarla vidalaşmağa da imkan vermədi. Onu tələsik ayaqyoluna tərəf çəkdi. Orada iki qara paltarlı, üzü bağlı adam o baş-bu başa var-gəl eləyirdi. Ləngidiyi üçün nəzarətçi qadına acıqlanıb Fatmanı qapıdan çölə itələdilər. Çölün təmiz havası üzünə dəyəndə Fatma qəfəsdən çıxan quş kimi sevindi. Ürəyi ümidlə elə döyündü ki, sevincdən az qala qışqıracaqdı:

«Yəqin Səltənətin dediyi adamlardır məni qaçıranlar. Etibarla, Mürsəl də demişdilər ki, harada olsan səni axtarıb tapacağıq». Bir anlıq azadlıq dünyanın bütün nemətindən üstündür – deyə dərindən nəfəs aldı, Fatma. Birdən Fatmanın yadına nə düşdüsə, sanki diksindi. Axı, Etibar, Mürsəl hələ həbsdədilər. Birdən qeyri bir adam olsa, nə eləyərəm, İlahi? Üzlərini də açmırlar ki, kim olduqlarını biləm. Sanki lal-kardılar. Yenə öz-özünə toxtaqlıq verib:

– Hər halda indiki vəziyyətim o cəhənnəmdən üstündür – deyə ürəyində fikirləşdi.

Üstüörtülü maşın həbsxananın qapısına lap yaxın dayanmışdı. İçəridə sürücü hazır vəziyyətdə oturub irəli-geri tez-tez boylanırdı. Onlar maşina oturar-oturmaz qazı basıb sürətlə uzaqlaşdı. Üç saata yaxın idi ki, yol gedirdilər. Heç biri dinib-danışmırdı. Fatmanın qəlbindən qara qanlar axsa da, heç nə sourşmurdu. Hansı səbəbdənsə maşın dayanmalı oldu. Fatma ayaqyoluna getmək istədi. Qəribə idi, onun əllərini də bağlamamışdılar. Maşından çıxmağa da heç bir maneə olmadı. Fatma qaranlıqda yolun kənarındakı kolun dalına hərləndi. Ürəyi qəribə bir tələşlə döyündü. Bura nə kənd, nə də şəhər kənarına bənzəyirdi. Ətraf kol-kosla örtülü bomboz səhralıqdan ibarət idi. Fatmanın burnuna doğma yerlərin yovşan qoxusu dəydi elə bil. Qəhərlənsə də özünü toxtadıb maşina qayıtdı. Maşında oturanlardan biri çantadan çörək, pendir çıxarıb səssiz-səmirsiz ona uzatdı. Fatma çörəyi acgözlüklə yeyib qurtarmamışdı ki, arxada oturub ona daima göz qoyan üzündəki qara örtüyü açıb hırıldadı. Onu hər yerdə kabus kimi izləyən Karapetin murdar üzünü görcək çörək Fatmanın əlindən yerə düşdü. Əli yerdən-göydən üzüldü elə bil. Bayaqdan bəri qurduğu xəyalların şirin anları bir anda yox olub getdi.

Yay öz ömrünü başa vurmaqda idi. İsti havalar bağ-bağçadan

ətəyini yığışdırmış, ağacların barı sovulmuş, bağların növrağı dağılmışdı. Saralmış yarpaqlar tökülüb ağacların dibinə qalanır, kiçik təpəciklər yaradırdı. Aylar, illər bir-birinin üstünə qalandıqda bir insan ömrünü tamamladığı kimi bu solğun yarpaqlar da ağacların, bağların yay ömrünü tamamlayırdı. İnsanlar kimi təbiətin fəsillərinin də ömür yaşı var. İndi təbiət payız ömrünü yaşayırdı.

Havanın nəfəsi soyumuşdu. Hardansa ağır-ağır yaxınlaşan payızın hənirtisi duyulur, addım səsləri eşidilirdi, Fatmanın ixtiyarı olsaydı təbiətə hökm eləyər, çiskinli, yağışlı, qarlı, tufanlı qışı tez yola salar, ürəklərə hərarət, sevgi, sevinc bəxş eləyən baharı gətirərdi. Payızın cansıxıcı ovqatı qəribliyin nisgilinə qarışıb ürəyini bu qədər sıxmazdı. Üzdə özünü tox tutub sındırmasa da, başına gələndər Fatmanı çox silkələmişdi. Bu qısa zaman qəlbinə nə qədər ağır zərbələr vurmuşdu. Neçə cür sarsıntılar keçirmişdi. Hərəsi də bir cür sarsıtmış, göynətmişdi onu. İlk eşqinin, ilk övladının sevincini qədərincə dadmamışdı, Fatma. Ata-anasından ayrı düşmüşdü. Etibarın sinəsində təzədən göyərən məhəbbətini cavabsız qoymuşdu. Bura düşəndən başına gələn əhvalatlar Fatmaya yuxu kimi gəlir, gözülə gördüklərinə də inanmaq istəmirdi. Elə Mahtabanla dostluğunu götürsək, özündən xeyli kiçik olan bu qızın içində iki dünya yaşadığını biləndə bir müddət özünə gələ bilməmişdi. Ya elə dinməz söyləməz maşına oturub bura gələndə gözlərinə inanmamış, müvəqqəti səadətindən xoflanmışdı. Onunla yan-yana oturanın həmin rəzil adam olduğuna gözü görə-görə az qala inanmağı gəlməmişdi. Odur ki. Fatma nə ağlayır, nə söyüb təhqir eləyir, nə də hara aparıldığını soruşurdu. Bütünlükdə özünü talenin ixtiyarına vermişdi. Onun içində sadəcə olaraq anlaşılmaz fikirlər dolaşan bir dünya sökülüb dağılmışdı. Üzünü maşının pəncərəsinə söykəyib fikir aləmində çabalayırdı.

İndi doğrudanmı azadlığa çıxmışdı, yoxsa yeni oyunların qurbanı kimi qaçırılıb bu kimsəsiz yerlərə gətirilmişdi? Bilmirdi. Belə hallarında çaşıb qalır, fikrinin, düşüncəsinin kələfi pırtlaşır, çıxılmaz vəziyyətə düşür, nicat yolu tapa bilmirdi, Fatma.

Səhərin gözü yenicə açılmışdı. Alatoranlıqda çölü güclə seçmək olurdu. Maşının pəncərəsindən çölə acgözlüklə tamaşa edən Fatmanın yuxusu göyə çəkilmiş, bütün gecəni huş-xəyal içində

keçirmişdi. İçindən keçən qəribə nisgil, acı həsrət çöldə yağan xırda payız yağışına qarışıb gözlərinə doldu. Sinədolusu ah çəkdi. Göz yaşları ixtiyarsız axıb üzünü, boyun-boğazını islatdı. Xəyalı yenə uçub Nübar ananın balaca evində keçirdiyi o qeyriadi günlərə, saatlara döndü:

– Necə gözəl anlar idi, İlahi. Nübar ana odunla qızdırdığı, bir adam güclə yerləşən hamamdan Fatma yenicə çıxmışdı. Qırağı sınıq güzgünün qabağında saçını qurulayırdı. Xəyal onu yenə təzəcə evləndikləri illərə çəkib aparırdı.

Belə hallarda Qasım ona geyinməkdə, qara gur saçlarını yığmaqda kömək eləyər, sonra da:

– Bu köməyi elə-belə eləmirəm ha. – Belindən tutub özünə doğru çəkər, istidən qızarıb, pörtmüş yanağından dönə-dönə öpərdi: – Qadın gözəlliyindən və sədaqətindən üstün dünyada heç nə tanımıram, Fatma. Mənim ruhumu təzədən dirildən, həyata qaytarıb xoşbəxt eləyən sənin varlığın, gözəlliyindi. Bu gözəlliyə bir yad göz baxsa, yaşaya bilərəm, ya yox, bilmirəm? –Deyərdi.

İndi Etibar gendən ona həsrətlə baxıb: «Bu gün ayrı cür gözəlləşmisən»– deyəndə Fatma qəribə hisslər keçirmiş, Qasımla yaşadığı o qısa, lakin şirin anları xatırlamışdı.

Gərək Etibara bu cür sözləri deməyə ixtiyar verməyəydim. Xəyalən olsa da belə, o böyük məhəbbətə xəyanət etməyə haqqım yoxdur. Xəyanət eləmək günahdı, həm də böyük günahdı demişdi.

Orası da var ki, Etibar onu sevirdi. Heç nəyə baxmadan, fikirləşmədən sevirdi. Bu sevgi onun ürəyinə qeybdən dolmamışdı. Etibarın çoxdan ölüb gedən məhəbbətindən qalan qığılcımları yenicə közərtmişdi, Fatma. Ürəyində yandırdığı sevgi ocağında təzəcə qızınırdı. O ocağı söndürmək, ürəyini sındırıb ona zülm eləmək də böyük günahdı. Deyirlər ki, sevən adamın ürəyinə toxunmaq, ona zülm etmək adamı xoşbəxt eləməz. Odur ki, Fatma bir qadın həssaslığı ilə onu başa düşür, ehtiyatlı dolanır, Etibarın ümidsiz sevgisinə cavab verməkdən qaçırdı. Bu da Etibara azacıq da olsa, ümid verirdi. Fatma sınıq ürəyi bir daha qırmaq, dirilmiş ruhu təzədən öldürmək istəmirdi. Hər kəsin sevməyə ixtiyarı var. Bu hüququ onun əlindən almaq istəmirdi.

Doğrusunu desək, bu bir qadın kimi Fatmanın da xoşuna gə-

lirdi. Qadın xoş söz, xoş münasibət üçün yaranıb. Hansı yaşda olduğundan asılı olmayaraq sevgiyə, məhəbbətə, diqqətə, qayğıya möhtacdı. Məhəbbətsiz nə həyat, nə təbiət, nə də insan yaşaya bilər. O elə böyük duyğu, elə müqəddəs hissdir ki, canlı və cansız varlığı həm öldürə, həm də dirildə bilir. Sevgi təmizdirsə, safdırsa müqəddəsləşir, ilahiləşir, bəşəriləşir. Böyük Füzulinin «Leyli-Məcnun» əsərindəki kimi. Füzuli qəmi insanın içindən çıxarıb dünyəviləşdirdi. Firdovsi, Hafiz şeir dünyasının peyğəmbəri olduğu kimi, Füzuli məhəbbət, qəm dünyasının, sözün peyğəmbəri, Allahı oldu. Qəmin, kədərin poeziyada fəlsəfəsini yaratdı.

Fatma düşüncələrinin dərinliyinə endikcə gah şirin, gah acı duyğular aləmində çabalayırdı. Bəzən düşüncələrinə haqq qazandırır, bəzən də özünü qınayırdı. Axı o böyük filosofların, dahi söz ustalarının məhəbbət haqda dediklərinə nə əlavə edə bilərdi?

Gözlənilmədən sürücü radionun düyməsini basdı. Maşına ürəkləri riqqətə gətirən musiqi sədaları yayıldı. İstər-istəməz Fatma düşüncələr aləmindən ayrılıb musiqiyə diqqət kəsildi. Neçə vaxt idi ki, qulağı musiqi səsinə, müğənni nəfəsinə möhtac qalmışdı.

... Təbrizin küçələri dolamadolan, Qaragilə, dolamadolan,
Əgər məni sevmirsən, get ayrı dolan, Qaragilə, ged ayrı dolan...

Hansısa, tanımadığı müğənni yanıqlı-yanıqlı oxuyurdu. Fatma bu mahnını Təbrizdən aralı həsrət odunda alışıb-yanan, «Təbriz» deyə-deyə dili-ağzı quruyan Rübabə xanımın ifasında dinləməyə alışmışdı. O bu nəğməni elə bir yanğı ilə oxuyardı ki, dinləyicini səsinin ecazkar qüvvəsindən çıxmağa qoymurdu. Adama elə gəlirdi ki, bu mahnı əlləri Arazın o tayından bu tayına uzalı qalan bir ananın, sevgilisinin həsrəti ilə yanıb qovrulan bir aşiqin göz yaşları, ürək ağrıları ilə doludur. Fatma bu mahnını eşidəndə həmişə kədərlənərdi. İndi ürəyinin bu nisgilli vaxtında onu dinləyib ağlamaya bilmədi. İki damla yaş yuvarlanıb yanağında dondu. Axşamdan bəri içgili, iyrənc nəfəsilə maşının içini dolduran Karapet yuxudan oyanıb dik atıldı.

– Ara, kəs onun səsini, sən də maxnı tapdın dinlamağa?

– Ağa, bəs hansı nəğməni xoşlayırsan? Erməni mahnısını sifa-

riş elə, qoy oxusunlar. Oxuyurlar, qulaq asırıq, sən xoşlamırsan öz işindi.

– Sən sarsaq-sarsaq danışma! Təbrizin küçələrini dolanmaq lazım deyil. Mən deyən yerə çatmağa az qalıb. Orda nə sən, nə də sənin maxnın olacax. Orda ancaq man hökm eliyacağam, man qərar çıxardacam. Man çalacam, bu gözəl xanım da oynayacax, eli.

Sürücü dodağının altında mızıldandı:

– Allah dəvəyə qanad verməsin uça, yoxsa dünyanı dağıdar.

– Ara, dodağının altında nə danışırsan? Bu qabaqdakı yol ayrıcından sola dön. Yol qırağındakı yeməkxanada bir qəlyanaltı eliyax, eli. Bərk acmışam. Bu günkü «ova» görə bir şadyanalıx eliyax. Elə bilirəm ki, xanım da sevinacax. Həbsxana onun gözəlliyinə bərk zərbə vurub, rəngi saralıb. Eyb etməz, tezliklə elə bir cənnətə düşəcax ki, hamısını unudacax.

Fatma onun adamı iyrəndirən sırtıq sözlərinə alışmışdı deyə bu dəfə də səsini çıxarmadı. Harada olduqlarını təxminən araşdırdı. Hardasa Təbrizə yaxın yerlər olduğunu başa düşdü. Yəqin məni Təbriz həbsxanalarından birinə aparırlar. Nə fərqi var, ora olmasın, bura olsun deyə düşündü. Elə buna görə də sakitcə oturub öz aləmi ilə məşğul idi. Amma bir şeyə təəssüflənir, yanıb-yaxılırdı. Yazdığı dəftərin aqibəti necə olacaq? Axı xarici aləmlə, oğlum, ərimlə məni birləşdirən bir şey varsa, o da dəftərim idi. Məhin onu itirməyəcək ki, ya qismət, bir də görüşə biləcəyikmi? Hər halda Təbrizə gətirilməyindən məmnun kimi görünürdü.

Bəlkə, Qasımdan, oğlumdan bir xəbər öyrənə bildim? Fatma həbsxanaya düşdüyü ilk günləri yadına saldıqca, keçirdiyi ağrıacı dolu gecələri, məşəqqətli gündüzləri xatırladıqca əhvalı qarışır, tapdalanan hüquqlar, əzilib, sındırılan insan taleləri gözü önünə gəlirdi. Qəzəbdən vücudu titrəyib lərzəyə gəlir, kini, nifrəti get-gedə artırdı. Onu belə bir fikir narahat edirdi. Bu böyüklükdə şahənşah ölkəsində ədalətsizliyi, zülmü, haqsızlığı görüb bir çarə qılan niyə yoxdur? Ağzına qədər insanla dolan həbsxanalardakı zorakılığı, xırda ehtiyac üzündən dəmir qəfəslərdə əzilib qüruru sındırılan insanların boynuna zorla istədikləri cinayəti qoyan ürəksiz, qansız məmurlardan xəbəri olan tapılmır? Dinənin dilini kəsib, görənin gözünü tökənlərə niyə cəza verilmir?

Fatma bu sualların cavabını Məhinin gizli oxuyub ona verdiyi

bir kitabda açıq-aydın tapmışdı. O, İranda azadxah kimi tanınıb, «Qəsri-Qacar» zindanında saxlanılan şair Məhəmməd Fərruxinin kitabı idi ki, Fatma onu oxuyanda dəhşətə gəlmişdi. Hələ 1908-ci ildə şahın əmri ilə sözün həqiqi mənasında ağzı tikilən, uzun müddət «Qəsr» həbsxanasında saxlanılan şair 1939-cu ildə öz evinin astanasında qətlə yetirilmişdi. Şair məmləkətin başına min bir oyun gətirməklə taxt-tacda yerini bərkidənlərin rejiminə qarşı etirazını şeirlərlə deyirdi. Seyid Cəfər Pişəvari ilə bir koridorda məhbus saxlanılan Məhəmməd Fərruxi heç kəsin deyə bilmədiyini şeir dili ilə açıq-aydın, çəkinmədən deyə bilirdi. Fərruxi yazırdı: «Pənc ruz eydi-xun» (hər il 5 gün qan bayramı keçirilsin). Xalqın haqqını oğurlayanları xalqın gözü qarşısında cəzalandırsınlar. Haqq-nahaqla qarışdırılmasın. Ölkəni, bəlkə, bu yolla düzəltmək mümkün oldu.

Fərruxinin söylədikləri danılmaz həqiqət, insanların başına gətirilən ağlasığmaz işgəncələrə qarşı üsyan idi.

O gündən üzü bəri axı nə dəyişmişdi? Ölkə Karapet kimilərinin əlində bir oyuncağa çevrilmişdi.

Fatmadan fərqli olaraq Karapetin əhvalı xeyli durulmuşdu. Fatmanı nə qədər dilə tutsa da, onunla üzbəüz oturub çörək kəsməyə məcbur eləyə bilməmişdi.

Fatma «Çörək tapdalayan, bir budaqda oturub, yüzün silkələyən nankorla mən düz-çörək kəsmərəm - demişdi – Sənin kimi murdarla kəsilən duz-çörək də haramdı», maşından düşməmişdi. Maşın geniş küçələrdən keçib dalanlarda dolansa da, Fatma buranın hələ də Təbriz olmadığını başa düşürdü. O, iki dəfə Təbrizə Qasımla birlikdə gəlmiş, arzuladığı görkəmli yerləri gəzib on ikinci əsrdən bu yana dünyanın ən böyük bazarı olan qədim üstüörtülü bazarı görüb, «Göy məscid»i ziyarət eləmişdi. O, bu məscid haqqında müxtəlif rəvayətlər də oxumuşdu. Başı bəlalı, qoca Təbrizin başına gələn müsibətləri, onunla bərabər çəkmişdi, bu məscid.

Deyirlər, on dörd, on beşinci əsrin böyük fatehi Əmir Teymur çox ölkələri fəth etmiş, çox şəhərləri dağıtmış, kəndlər, obalar yandırıb külə döndərmişdi. Növbə Azərbaycan torpağına çatmış, Təbrizi özünə tabe eləyib çoxlu əsir və qiymətli şeyləri Səmərqəndə daşıtdırmışdı. Təbrizdən gətirilən gözəl qızlardan birini

özünə arvad eləmişdi. Qız gecə-gündüz Təbriz deyə ağlayıb darıxır, göz yaşı tökürmüş. Əmir Teymur qızdan soruşur:

– Sənə nə hədiyyə verim ki, qəm çəkməyəsən? Bu qədər varidatım sənindi. Daha nə istəyirsən?

Qız ağlaya-ağlaya deyir ki, heç nə istəmirəm. Burda Təbrizdəki kimi bir «Göy məscid» tikdir ki, ona baxanda Təbrizi xatırlayıb darıxmayım. Əmir Teymur ən bilikli, bacarıqlı ustaları bütün zəbt etdiyi ölkələrdən dəvət eləyir. Heç biri məscidi tikməyə razı olmur. Əmir Teymur hamısının boynunu vurdurur. Təbrizdən o məscidi tikə bilən ustanı gətirtdirir. Usta hədəqorxuya baxmayaraq məscidi tikməkdən boyun qaçırır. Əmir Teymur Çinə səfərə getməli olur. Bundan istifadə eləyən qız Təbrizli ustanı yanına çağırıb məscidi onun şərəfinə tikməyi xahiş edir. Usta həmyerlisinin sözünü yerə salmır. Əmir Teymur səfərdən qayıdana qədər məscidi tikib başa çatdırır. Məscid səfərdən qayıdan Teymur xaqanın çox xoşuna gəlir. Ustanın onu qızın xahişi ilə tikdiyini eşidib qəzəblənir. Qızı da, ustanı da məscidin minarəsindən yerə atdırır. Vətənimizin sonralar taleyi bilinməyən minlərlə belə qədim tarixi abidələri olub. Şeyx Səfiəddin türbəsi, Şah Abbas sarayı, Babək qalası dağılıb, göz dağına çevrilib. Qiymətli nəyi varsa, müxtəlif ölkələrə çəkilib aparılıb. Azərbaycanın Şeyx Səfi xalısı, Nadir şahın qiyməti heç nəylə ölçülməyən üzüyü İngiltərənin, Şirvanşahların qızıl taxtı Rusiyanın muzeylərinin bəzəyi olub.

Fatma ürəkyandırıcı bir ah çəkdi. Maşın dar küçələrdən çıxıb Səttərxan xiyabanına tərəf dönəndə, Fatma doğrudan da, Təbrizə gətirildiyinə əminliklə köks ötürdü.

Bir az keçməmiş geniş küçələr, xiyabanlar arxada qaldı. Dalanlardan dolanıb maşın şəhərin kənarına tərəf üz tutanda Fatma türməyə aparıldığına əmin oldu.

Maşının qəflətən iri darvazalı, ikimərtəbəli binanın qarşısında dayanması Fatmanı dolaşıq-pırtlaşıq fikirlərin əlindən aldı. Həbsxanadan verdikləri nimdaş, boz sırıqlının yaxasını bağladı. Heç bir göstəriş-zad olmadan maşından düşdü. Günün günorta çağı idi. Hələ də çisgin yağış səngiməmişdi. Küçənin böyürbucağındakı çuxurlar su ilə dolu idi. Darvazanın özü hündürlüyündə hasarından baxanda evin ancaq qırmızı kirəmidli damı

görünürdü. Çisgin ağacların seyrək yarpaqlarına yığılıb iri damalarla ağacların dibinə tökülürdü. Çox qəribə idi ki, darvazada nə keşikçi, nə də çiyni avtomatlı bir adam var idi. Ətrafda şəhərin qaynar həyatından əsər-əlamət görünmürdü. Sürücü Fatmanın üzünə müəmmalı-müəmmalı baxır, üzünü çevirib nə isə donquldanırdı. Evlərdən, küçələrdən təcrid edilmiş bu bina həbsxanaya da bənzəmirdi. Karapet gedib-qayıdana qədər Fatma ətrafı xeyli nəzərdən keçirdi. Binadan aralıda tək-tək adamlar görünür, başlarını qaldırmadan keçib gedirdilər. Bura həbsxananın xüsusi dustaqlar üçün ayrılmış binasıdır deyə Fatma düşündü. Canından ağrı-acı qarışıq soyuq bir üşütmə keçdi. Həbsxanada keçirdiyi iyrənc günləri xatırlayıb kövrəldi. Yenə o sorğu-suallar, yenə o məcburiyyətlər təkrar olunacaq, yenə nəzarətçilərin murdar, donuq sifətlərini görəcək və sair və ilaxır. Hələ yolda gələndə bu istintaqa Fatma özünü hazırlamışdı. Mehinin Seyid Cəfər Pişəvarinin həyatından oxuduğu bir əhvalat yadına düşdü:

«Pişəvəri «Qəsri-Qacar» zindanında yatanda nəzarətçi kişinin hər gün qapının ağzında pişiklə söhbətini eşidirmiş. «Sənin-ləyəm, ey pişik, eşidirsən? Burada Allahından, dinindən, peyğəmbərindən dönən rəhimsiz, qansız insanlar işləyirlər. Onlardan özünü gözlə! Burda hər söz «yox»-dan başlayır, «hə» deyilən andan sən yoxsan».

Pişəvəri əvvəlcə nəzarətçinin dəli olduğunu güman eləyir. Sonralar başa düşür ki, ona heç nə ilə kömək eləyə bilməyən, heç nəyə gücü çatmayan nəzarətçi bu sözləri pişik adı ilə ona deyirmiş. Onu ayıq salmaq, heç bir təqsiri boynuna götürməmək üçün məsləhət verirmiş. Bir parça çörək xatirinə burda işləməyə məcbur olan bu sadə insan haqsızlığı, zülmü görüb dözə bilmir, bir vasitə tapıb əlindən gələn köməyi eləyir. Sonradan Pişəvariyə aydın olur ki, doğrudan da, azərbaycanlı türklərini təhqir eləmək məqsədilə Rza xanın təzədən bərpa elətdirdiyi bu «Qəsr» həbsxanasında elə işgəncə növləri var ki, insan daşdan da olsa, o əzablara dözə bilmir. Bəzi zəif iradəlilər istənilən cinayəti boynuna götürür ki, bu işgəncələrdən canı qurtarsın. Belə olan surətdə «cinayət sübut olundu» – deyib, ölüm hökmu verirlərmiş. Səltənətin ona dediyi: «Nə desələr, «yox» deyərsən» sözlərini xatırlayıb Fatma istintaqa hazırlaşırmış kimi özünü cəmləşdirdi.

Axşamdan bəri maşında onlarla yol gələn üçüncü adam hələ də masqasını çıxarmamış, nə də bir kəlmə söz danışmamışdı. Bu, Fatmaya çox qəribə gəldi:

İlanın ağına da, qarasına da lənət. Bunlara inanıb, etibar eləmək ağılsızlıqdı» deyə düşündü. Bu dəfə mənim Ağatlı igidim məni xilas eləməyə gəlmədi. Fatma Etibarı, Mürsəli, Bayramı xatırladı. Düzünü desək, Fatma heç özü bunu istəmirdi. Mənə görə neçə adam əzablara düşdü. İndi mənim günahım ucundan həbsxanada əziyyət çəkirlər. Günahım, doğrudan da, varsa, özüm cavab verməliyəm. Dünyaya gələndən qara çadra altında ərlərinin tələblərini qeydsiz-şərtsiz qul kimi yerinə yetirənlərin hüquqlarını müdafiə etmək günahdırsa, qoy məni yüz dəfə dara çəksinlər. Amma məni «casus»luqda suçlayıb, mühakimə eləmələrinə heç bir vəchlə dözə bilmərəm!

Karapet «ağa» nədənsə xeyli gec qayıtdı. Masqalı oğlan bir neçə dəfə maşının arxasına söykənib intizar baxışlarını uzaqlara dikən Fatmanın həndəvərinə dolandısa da, bir söz demədən qayıdıb öz yerində dayandı. Onun hərəkəti Fatmaya çox müəmmalı gəldi. Maraq onu götürsə də hər ehtimala qarşı özünü laqeyd göstərib heç nə demədi. Sürücü elə əvvəldə olduğu kimi öz yerində oturub hərdən də zümzümə eləyirdi. Elə bil bütün bunların ona heç bir dəxli yoxuydu. Bəs nəyi gözləyirdi? Məlum deyildi. Vaxtdan istifadə eləyib Fatma binanın hər tərəfini yaxşı-yaxşı gözdən keçirdi. Burda ancaq bir qapı, bir darvaza olduğuna, hasardan heç bir vəchlə aşmağın mümkünsüzlüyünə əmin oldu. Masqalı oğlan bir də təkrar Fatmaya yaxınlaşanda onun sözlü adam olduğuna şübhəsi qalmadı. Üzünü ona doğru çevirib masqadan parıldayan gözlərinə baxdı. O gözlər gündüzün işığında açıq-aşkar nə isə deyirdi. Nəhayət, oğlan dilləndi:

– Sən bilirsənmi hara gətirilmisən, bacı?

Oğlanın bacı deyə ona müraciəti Fatmanı ürəkləndirdi.

– Necə bəyəm? Bundan da artığı olur? Mənə heç fərq eləməz. İndi dəvəsi ölmüş ərəb kimiyəm, qardaş. Həbsxananın pisi, yaxşısı olmur ki? Bu şahənşah ölkəsinin hər tərəfi həbsxana deyilmi?

– Nə yerində deyilmiş sözdür, – deyə oğlan tələsik soruşdu.– Burada sənin bir simsarın yoxdurmu?

– Sizin kimi oğullar mənim simsarım, dostum-tanışımdı, qar-

daş. Bura hansı həbsxanadır, bu dinsiz, imansız əbləh məni hara gətirib? Məni başa salarsanmı? Mən Vətənin şürəvi sayılan şimalından bu xarabaya dörd-beş ildi gəlmişəm. Ölkə ilə yaxşı tanış deyiləm.

– Bura həbsxana deyil, bacı, – masqalı oğlan tələsik əlavə etdi.

Onun həyəcan keçirdiyi bilinirdi. O, dörd yana byolanır, əlini, alnını ovuşdururdu.

– Bəs haradır?– Fatma təlaşla soruşdu.

– Bura insan ləyaqətinin, qadın ismətinin alçaldığı yerdir, adını da dilimə gətirə bilmirəm. Bayaq dediyin kimi, bu Şahənşah ölkəsində həbsxanalar qədər də belə yerlər var. Bunun kimi alçaqlar da idarə eləyir.

– Adım Fatmadır, əslim Arazın o tayındandır, Bakıdan gəlmişəm, Ərdəbildə ərim, bir oğlum var. İndi mənim harada olduğumu bilmirlər. Yəqin məni hər yanda axtarırlar.– Fatma kövrəldi.

– Demək bu alçaq sənin kimsəsizliyini görüb, səni bu qumarxanaya pulla alıb gətirib? Bura bircə gün düşsən, üstündən o ləkəni heç vaxt yuya bilməyəcəksən. İndi məni başa düşdün, söhbət nədən gedir?

Fatma dünən istintaq otağında eşitdiyi«Deyilən məbləği gətirməsən, rəis dərinə saman təpəcək» sözünün nə demək olduğunu indicə başa düşdü. Fatma fikrini toplayıb özünə gəlməmiş masqalı oğlan belinə sancdığı tapançanı sürücünün qulağının dibinə dayayıb o biri əli ilə Fatmanı maşına itələdi.

– Sür, tez ol, yoxsa qulağının dibini dağıdacam. Ana-bacılarımızın ismətini tapdalamağa yol verə bilmərəm. Bu şərəfsiz qayıtmamış aradan çıxaq.

– Ay qardaş, dəlisən- nəsən? Bu pədərsüxtə mənim ailəmi də, özümü də süpürüb atar. Bəs mənim haqqımı kim verəcək? Axşamdan indiyə qədər maşın sürmüşəm. Haqqımı almalıyam, ya yox?

– O şərəfsiz sənin heç yanından da keçə bilməz. Haqqını mən ödəyərəm, sür!

Maşın dalandan burulub əsas yola çıxanda Karapet duyuq düşüb maşının dalınca xeyli qaçdı. Ayağı nəyəsə ilişib üzü üstə palçıq gölməçəsinə yıxılanda maşın artıq uzaqlaşmışdı. Bütün bunlar qısa vaxtda gözlənilmədən elə baş verdi ki, Fatma çaşqın-

lıq içində artıq sual verməyə də qorxdu, ürək eləmədi, sevindiyindən uşaq kimi ağladı. Göz yaşları maşının şüşəsindən süzülən payız yağışına qarışdı. Fatmanı bir az da kövrəltdi.

Maşın üzü şəhərə tərəf irəilədikcə sürücünün giley-güzarı artır, elə vaysınırdı ki, lap maşındakıların zəhləsinin tökürdü. Oğlan şəhərin qaynar yeri ilə sürməyi ona əmr edib sakit mülayimcəsinə dilləndi:

– Nə ağciyər adamsan? O murdar erməni köpəyi bir belə azərbaycanlı türklərinin içində əl-qol atır, say-seçmə oğullarımızı güdaza verir, qadın-qızlarımızın ismətini tapdalayır, bəs biz niyə bu torpaq üstündə gəzirik? Mənə cavab ver, buna haqqımız varmı? Qardaş, bizim təşkilatın o əbləhin üstündə göz olmaq üçün xüsusi göstərişi, tapşırığı var. Nə qədər canlarında can var, bizim intiqam dəstəmizin oğulları milli hökumətimizin mübarizə ocağını yenidən alovlandıracaq, xalqımızın, torpağımızın, dədə-baba düşməni olan belələrinə aman verməyəcəklər. Bunun üçün əl-ələ, kürək-kürəyə verməsək, bizi də ata-babalarımızın aqibəti gözləyir. Bunu unutma! Əgər bu mübarizəyə qoşulmaq istəsən, çəkinmə,bu ünvana gəl! Barmaq boyda kağızı sürücüyə uzatdı.

Oğlan üzündəki masqanı çıxarmışdı. Ona otuz-otuz beş yaş güclə vermək olardı. Amma saçlarındakı ağ tüklər onu əziyyət çəkmiş, qayğılı bir insana bənzədirdi. Üst dodağında xırda bir çapıq var idi. Uzun, nazik bığı qalın dodaqlarına çox yaraşırdı. İri qara gözləri qəzəb-nifrətlə parıldayır, yana ayrılmış qara telləri geniş alnına xüsusi yaraşıq verirdi. Boynuna doladığı mil-mil şərfi açıb Fatmaya uzatdı. Fatma bütün bu olanlara inanmır, hələ də özünə gələ bilmirdi. Bəlkə, bu bir möcüzə idi baş verirdi. Gözü qarşısında baş verən bu möcüzəyə hələ də şübhə eləyir, bir söz soruşmaq, sual vermək iqtidarını sanki itirirdi.

Fatma:

– Başımın üstündə xeyirxah mələklərin dolaşdığına indi şübhəm yoxdur – deyə azca gülümsədi. – Cəmilə hər dəfə deyərdi ki, Allahın kəraməti böyükdür. Yaratdığı bəndəsinin üstündən qayğısını çəkib onu darda qoymaz. Allahdan ümidini üzmə, bacı. Ümid üzülərsə, demək həyatda yoxsan. Ümid sonda üzülər, sona hələ çox var. İndi deyilənlərin həqiqət olduğuna inanır, ürəyində bir təsginlik tapırdı. Fatma səssiz-səmirsiz şərfi alıb boynuna

doladı. Sevindiyindən onu təkrar ağlamaq tutmuşdu. Bunu büruzə verməmək üçün əli ilə ağzını qapayıb üzünü maşının pəncərəsinə doğru çevirdi. Axşamın qaranlığı düşənə qədər oğlan maşını müxtəlif küçə, dalan və xiyabanlarda fırladı. Yəqin məni aparacağı yerin məxfiliyini bildirməmək üçün eləyir –deyə Fatma düşündü. Şübhəsi düz çıxmışdı. Küçələrdə adamların seyrəkliyindən və evlərin görkəmindən anladı ki, buralar şəhərin lap ucqar yeridir. Sonra öyrəndi ki, bura kasıblar yaşayan Əmrexiz məhəlləsidir. Aclıqdan, yorğunluqdan Fatmanın başı gicəllənirdi. Bu gəzintinin tez başa çatmağı ürəyincə olardı. Oğlanın səsi maşındakı sükutu pozdu:

– Bu qarşıdakı dalanda görünən o balaca dükanın yanında saxla, qardaş, – deyə yavaşcadan sürücünün qoluna toxundu. Burdan beləsini ayaqla gedəcəyik.

Fatma tez maşından düşdü. Maşının isti havasından sonra küçənin soyuğu canından keçdi. Nə yaxşı ki, qaranlıqdı göz-gözü görmür. Yoxsa bu görkəmdə məni görənlər, nə düşünərdilər?

Fatma arxayınlıqla nəfəs aldı. Oğlan sürücüyə yaxınlaşıb yan cibinə bir büküm pul qoydu.

– Məndən narazı qalmadın ki?

– Yox, nə danışırsan, qardaş, Allah səndən razı olsun. Verən əlini kəsməsin. Adını da bilmədim, qardaş? Bəlkə, mənə lazım oldun!

– Adım Zülfüqardı, Zülfü də çağırırlar.

– Mənim də adım Namazdı, ağa.

– Çox yaxşı, məni harada axtaracağın ünvanı yazmışam. Ancaq unutma ki, o kağız ələ keçməməlidir. Bu həm sənin, həm də mənim üçün təhlükəlidir. Bizim işimiz belədir. Öz evimizdə yadlar oturur, biz qorxa-qorxa yaşayırıq. Narahat olma, indi qorxa-qorxa dediyimiz sözləri bir vaxt ucadan elə deyəcəyik ki, indi bayram edənlərin qulaqları batsın. Ancaq su gələn arxdan yenə gələcək. Bulanıq su yenə də axıb durulacaq, qardaş, səbr elə!

Onlar bir neçə dar dalandan keçib alçaq hasarlı, balaca bir qapıda dayandılar. Zülfüqar qapının girəcəyində az qala torpağa batmış bir daşı qaldırdı. Balaca açarı çıxarıb qapını açdı. Qapı güclə xırıldayıb aralandı. Bu evdə çoxdan adam yaşamadığı gözə çarpırdı. Toz-torpaq basmış qapı-pəncərə az qala xarabalığı xatır-

ladırdı. Zülfüqar evin bir küncündə böyrü üstə yıxılan balaca kətili qaldırıb tozunu sildi. Cibindən çıxardığı alışqanla his basmış balaca lampanı yandırıb Fatmaya oturmaq üçün yer göstərdi.

– Sən bir az dincəl, mən bu saat qayıdıram, bacı.

– Adım Fatmadı, Zülfüqar qardaş.

– Çox pakizə, tanış olmağa da vaxt tapmamışıq. Yeməyə bir şey tapıb qayıdacam. Hər ehtimala qarşı lampanı söndür. Bu evdə çoxdan heç kəs yaşamayıb. Qonşular elə bilərlər ki, ev yiyəsi qayıdıb. Gələn olar, silahla darvanmağı bacarırsansa, qoy səndə qalsın.

Zülfüqar balaca tapançasını çıxarıb Fatmaya uzatdı.

Fatma güldü:

– Hə, bir dəfə o dünənki murdara atdım, o da dəymədi. İkinci dəfə atmalı olsam, şübhəsiz onu öldürəcəm. Başıma gələnlərin hamısının səbəbkarı odur. O olmasaydı, mən öz ev-eşiyimdən aralı, sərgərdan qalmazdım.

– Bütün olanları araşdırıb əncam çəkməyə yəqin ki, vaxtımız olacaq, darıxma. İndi isə qapını bağla və ehtiyatlı ol!

Fatma Zülfüqar gedəndən sonra küncdə qoyulmuş, bir ayağı sınıq, köhnə çarpayının üstünə uzandı. Əli-ayağı sızıldayırdı. Hər halda Karapetin əlindən qurtardığına şükür eləyir, uzandığı çarpayını, bu balaca yiyəsiz evi cənnət güşəsi sayırdı.

Üç ay olardı ki, Fatma bu gizli sığınacaqda yaşayırdı. Gündüzlər dar, taxta pilləkənlərlə zirzəmiyə düşür, gecələr yuxarı qalxırdı. Gecə yarısı Zülfüqar ona evində bişirilənlərdən nə olsa gətirir, bir də gündəlik qəzet-jurnalları çatdırırdı. Fatma belə həyat tərzinə bir növü öyrəşmişdi. Zirzəmidə öz gündəliyi üzərində işləmək üçün imkan tapdığına sevinirdi. Buranı adicə köhnə əşyalar yığılan zirzəmidən çox köhnə mətbəəyə oxşadırdı. Hər tərəfdə qəzet, jurnal bağlamaları, sınıq çap maşını, bəzi lazımsız mətbəə əşyaları atılıb qalmışdı. Fatmanın marağı üstün gəlmişdi. O, bağlamalardan birini açıb bir neçə qəzet götürdü. Səhifələrinə bir-bir baxıb vaxtını keçirirdi. Birdən gözünə sataşan şəkillərdən dəhşətə gəldi. Küçədə qurulmuş dar ağaclarından qadınlı-kişili adamlar asılmışdı. Yanında Tehran hökumətinin istila ordusunun əsgər-zabitləri ilə bərabər bir nəfər də dayanmışdı. Mülkü paltarda əlini belinə vurub təkəbbürlə dar ağacından asılanlara

baxan ona çox tanış gəldi. Qəzeti götürüb pəncərənin qabağına qaçdı. O adam Karapet idi, yanılmamışdı. Şəkildə nisbətən cavan və gümrah görünürdü. Deməli, bu alçaq milli hökumət azadxahlarının qanına yerikləyənlərdən biriymiş. Qəzetin arxa səhifəsində axtarışda olan Seyid Cəfər Pişəvarinin silahdaşlarının siyahısı verilmişdi. Fatmanın gözü bir adın üstündə sancılıb qaldı. Qasım Azəri qatı cinayətkar, hökumətin düşməni, sovet Azərbaycanına qaçan qorxulu inqilabçı kimi yazılmışdı. Fatma belə kişilərlə bir cərgədə Səltənətin və tanımadığı bir neçə qadının da adını oxuyub, bu cəsur qadınların cəsarətinə, hünərinə bir daha heyran olmuşdu. Əvvəllər Səltənət haqqında düşündüklərindən utandı. Əlləri əsir, dodaqları səyriyirdi. Özünü bir anlığa onların cərgəsində sayıb qürurlandı:

Fatma bir yazıda oxudu ki, İran torpağında Azərbaycan, Kürdüstan deyə milli muxtariyyət xülyasına düşənlərin aqibəti bu şəkildə gördüklərinіz kimi olacaq. Bu yazıya nə qədər qəzəblənsə də, gülməyi də tutdu. Yəqin bu yazını yazan yaltaq bilmir ki, İran dövləti əzəli Azərbaycan torpağının üzərində qurulub! Ölkə başdan-başa farslaşıb, dili mədəniyyəti, tarixi keçmişi, milli mədəniyyət abilədələri məhv edilib? Zaman keçsə də, xalq bunu heç vaxt onlara bağışlamayacaq. Haqqını almayınca silahı yerə qoymayacaq. Fatmanı ağlamaq tutmuşdu: «Haqqı əlindən alınıb, torpağı ikiyə parçalanan bizim kimi ikinci bir xalq görən varmı?» – Deyə düşündü. Fatma qəzet bağlamasını kənara qoyub, lap altdan bir bükülü qəzet çıxardı. Azərbaycan türkcəsində yazılan qəzet saralmışdı. Nəm çəkdiyi üçün çox hissəsi parça-parça tökülürdü. Öz ana dilində bu yazılanları oxuduqca ürəyi qürurla döyünürdü. Bu kiçik vərəqlərdə nələr yox idi? Milli hökumətin, milli məclisin dil, məktəb, söz azadlığı, torpaq, əmlak üstə xalqın hüquqları, musiqi, teatr, hətta ailə məsələlərinə, klassik milli xəzinəmizin qorunmasına dair qərar və qətnamələr, milli hökumətin yaradıcısı Seyid Cəfər Pişəvarinin neçə bəyanatları verilmişdi. «Azərbaycan» qəzetinin nömrələrinin səhifələrində ən mühüm xəbərləri oxuyurdu.

Pişəvəri Tehran hökumətinə müraciətlərinin birində deyirdi ki, biz sizdən heç nə istəmirik. İranda yaşayan bütün xalqların hüquqlarına hörmət, bir də muxtariyyət verməyinizi tələb edirik.

Bunun üçün sizinlə hər cür danışıqlara getməyə hazırıq. Təki qan tökülməsin, xalqa məxsus olanları özünə qaytarın! – Bunları deməklə Pişəvəri böyük səhvə yol verirdi. Zülmkarla, Qəvamülsəltənə hökuməti ilə danışığa getmək, ondan humanistlik gözləmək ağlasığmaz bir iş idi. Tehran hökuməti Azərbaycan kimi yağlı tikəni itirməmək üçün hər cür cinayətə hazır idi.

Fatma «Azərbaycan» qəzetinin 1945-1946-cı il nömrələrini vərəqlədikcə, Tehran hökuməti və onun məmurları tərəfindən Azərbaycan türklərinə qarşı aparılan ümumiran miqyaslı təzyiqi açıq-aydın görürdü. Bu təzyiqlər altında Azərbaycan Demokrat Firqəsinin və Pişəvərinin rəhbərliyi ilə aparılan mübarizədən vəcdə gəlirdi. Bir səhifədə oxuyurdu ki, xalq hərəkatı gücləndikcə Azərbaycan torpaqlarındakı ağalıqlarının sona çatdığını başa düşüb Tehranda yaşayan türklərə qarşı təqibi, zorakılığı artırır, siyahıya alma bəhanəsi altında azərbaycanlı ailələri nəzarətə götürülür. Hər cür soyğunçuluq, zorlama, oğurluq və digər qanunsuz hərəkətləri onların boynuna qoyub həbs edirdilər. Hətta Tehranda Azərbaycanın görkəmli şairi Xəqaninin adını daşıyan xiyabandan onun adını silib ingilis alimi Eduard Braunun adını yazmışdılar. Pişəvari bu münasibətlə yazırdı ki, biz bunu əvvəldən bilirdik ki, siz fürsət düşdükcə azərbaycanlıların var-yoxunu alıb yadlara verməyə hazırsınız.

Qəzetlərin bir nömrəsində oxuyurdu Fatma:

– Damarlarında azərbaycanlı qanı olan hər kəs, hər bir əsgər, zabit gərək Azərbaycanın və onun xalqının azadlığına kömək etsin. Analarımızın südü sizə o vaxt halal olacaq ki, siz onların namusunu qoruyaxaqsınız!

Fatmanın başı bu saralıb tökülmüş, lakin hər biri bir quran ayəsi qədər müqəddəs müraciət, kəskin cavablar, əvəzsiz fikirlərlə dolu qəzetlərə elə qarışmışdı ki, Zülfüqarın gələn vaxtını da unutmuşdu. Fatma üç dəfə taqqıltını eşidib özünü qapıya yetirdi. Zülfüqar qəzetləri görüb təəccüblənmədi, əksinə, bu evin Mürsəl adlı igid bir oğlanın olduğunu, onun mürəttib işlədiyini, bu qəzet- jurnalların da onun tərəfindən gizlədildiyini danışanda Fatma heyrətdən donub qaldı. Sonra da Mürsəl adlı bir nəfərin Ərdəbildən tutulub aparılanda ona elədiyi köməkdən yerli-yataqlı danışanda gecə yarıdan keçmişdi. Zülfüqar Mürsəli tanıdığından,

başına gələn müsibətlərdən, qorxulu inqilabçı kimi gizli zindanlarda saxlanıldığından danışanda Fatmanın qanı xeyli qaralmışdı. Bu sadə eloğluna qarşı hörməti, ehtiramı birə-beş artdı: Əgər yenə zindana düşməsəm, onu mütləq arayıb, axtaracam, deyə Fatma özünə söz verdi.

Təslimçilik olmayacaq

Fatma bu neçə ayın ərzində oxuduqlarının, Etibardan, Mürsəldən eşitdiklərinin təsiri altında şəxsi dərdlərini bir növ unutmuşdu elə bil. Bu başı bəlalı xalqın ağrıları onun içində, fikrində, düşüncəsində bir çevriliş əmələ gətirmişdi. Artıq özünü vətən oğullarının cərgəsində sayırdı Fatma. Onun şəxsiyyətini müəyyənləşdirən sənədi olmadığına görə hələlik gizli yaşamağa məcbur idi. Amma ara-sıra iclasları bu evdə keçirən təşkilat üzvlərinin odlu-alovlu çıxışlarını dinləməkdən xüsusi qürur duyurdu. Zülfüqar bu yaxında ona başqa ad altında pasport veriləcəyi xəbərini gətirəndə Fatma sevinmişdi. Lakin ürəyindən qara qanlar axıb onu məyus eləmişdi. Ona elə gəlmişdi ki, bu sənədlə ərini, oğlunu təzədən itirəcək. Ərdəbilə bir neçə dəfə gizli adam göndərsə də, Qasımdan, oğlundan bir doğru-düzgün xəbər ala bilməmişdi. Yəqin oğlum həyatda yoxdur, ya elə Qasım başqa qadınla evlənib, məni unudub. Həyatda hər nə desən ola bilər. Bir vaxt vəkil tapıb məni azad elətdirəcəyinə söz vermişdi. O çağdan gözüm yolda, qulağım səsdə qalıb. Bir xəbər-ətər yoxdur… Sən belə üzüdönük ola bilməzdin, Qasım. Mən səni aydan, ulduzlardan da soraqlamışam, əzizim. Səni itirməmək xatirinə, mənə olan məhəbbətinin xatirinə bu qədər əzablara düşməyi özümə rəva görmüşəm. Gəl gör sən adı da, özü də müqəddəs olan Fatman nə haldadır, Qasım. Axı sən buna heç vaxt razı olmazdın. Mən sənin mərdliyinə, xalqımızın yolunda elədiyin cəfakeşliyinə, nəhayət təmiz, sevən ürəyinə vurulmuşdum. Elimizdə, obamızda mənim bəxş eləyəcəyim səadətin arzusunda olanlar az deyildi. Heç birini seçmədim. Özün yaxşı bilirsən. Amma mən səni sevib, səni seçdim. Qızın, gəlinin elə bir vaxtı olur ki, Allah ağlını, düşüncəsini alır, təkcə gözləri görür, sevir. Çox vaxt göz aldadıcı olur. Adamı aldadır. Ancaq mən səni bütün ürəyimlə,

ağlımla sevmişdim. Sən də gözəllik aşiqi kimi az qala sevgidən ağlını itirmişdin. Gözəl qadını olan kişilər çox vaxt bədbəxt olurlar. Gözəllik hər kəsə nəsib olmayan xoşbəxtlikdisə, çox vaxt da bədbəxtlikdir. Çirkin arvadı olanlara qibtə edirəm. Heç olmasa, arvadları gözdən iraq olanda gecələr rahat yatırlar» deyirdin. Sənin narahatçılığının səbəbi mənə indi aydın olur, əzizim. Bizim torpaq təsibi çəkən oğullarımız, namusumuzu, qeyrətimizi də qorumağa qadirdilər. Məni əyyaşlar yuvasına düşməyə qoymadılar, Qasım. Bəlkə, bunlara inanmayacaqsan. Bizim aramızda birbirimizə inamımız olub axı?

Keçən günlər kino lenti kimi Fatmanın gözü qarşısından keçdikcə çox şeyləri yadına salır, gah sevinir, gah kədərlənir, «Keçən günə gün çatmaz, calasan günü günə»-deyirdi.

Qasım Bakıdan qayıdandan sonra onu yenidən həbsxanaya salmışdılar. Min əziyyətdən sonra evinə qayıtmışdı. Onda Qasımın yaxın dost-tanışlarını Fatma yaxşı tanımırdı. Hamı gəlib Qasıma gözaydınlığı verir, «həmişə evində, ailəndə olasan» deyib gedirdilər. Axşamüstü kimsə qapını döydü. Fatma qapıya gedib, tez də qayıtdı. Ağa Qasım çox təəccübləndi.

– Niyə qapını açmırsan, Fatma! –Deyə soruşdu. Onun ləng tərpəndiyini görüb özü ayağa qalxdı.

Fatma gülə-gülə ona sarı döndü:

– Doğrusunu bilmək istəyirsənsə, kişidən çox qorxdum. Sən olmayanda o kişi bir gün bizə gəlib səni soruşmuşdu. Qapının gözlüyündən baxıb qısaca cavab vermişdim. Kişi elə bədheybətdir ki, görkəmi adamda vahimə yaradır.

Bu Ərdəbildə tanınmış şahpərəst Möhsün ağa idi. İki oğlu Təbrizdə dövlət idarələrində işləyirdi. Ayağının biri orda, biri Ərdəbildə olardı. Qasım onun necə deyərlər dabbaqda gönünə də bələd idi. Vaxtilə çox evləri başsız, çox uşağı yetim qoymuşdu. Milli hökumət vaxtı Qasımın sayəsində ona bir ağsaqqal kimi dəyib-dolaşan olmamışdı. Amma, o «yıxılan ağaca əli baltalı da, baltasız da» deyə nankorcasına milli hökumət üzvlərini baltalamışdı. İndi gəlişinin səbəbi aydın idi. Qasıma olan «borcunu» yəqin yerinə yetirmək üçün təşrif buyurmuşdu. Hər halda, Qasım belə fikirləşirdi. Qasım ədəb-ərkanla ağa Möhsünü içəri dəvət eləyib oturmaq üçün yer göstərəndə Fatma o biri otağa keçib

söhbətlərinə qulaq kəsildi. Ağa Möhsün danışa-danışa əbasının qoltuq cibindən çıxardığı torbasından burnuna nə isə çəkir, ara vermədən asqırırdı. Hər dəfə güləndə yoğun qarnı titrəyir, ağ, uzun saqqalı sinəsində yelləncək kimi yellənir, bədəni əcaib bir görkəm alırdı. Xırda gözlərini ovçu pişik kimi evin bütün künc-bucağında dolandırıb sanki mühüm bir məsələni izah edib aydınlaşdırmaq üçün kiminsə eşidəcəyindən ehtiyatlanmış kimi yerini rahatladı, Möhsün ağa. Qasımın narahatçılığı gendən bilinirdi. Elə bil, tez ol, nə məqsədlə gəlmisən sözünü de, rədd ol, get deməkdən özünü güclə saxlayırdı. Möhsün ağa yerində xeyli qurcalanıb əlindəki uzun təsbehini bir neçə dəfə o yan-bu yana çevirdi. Üzünə qayğıkeş bir ifadə verib salavat çevirdi. Sonra astaca dilləndi:

– Sənin rəhmətlik atan canlara dəyən, ağayana, heç kəsin çəpərinə daş atmayan, bir qarışqanı tapdalamayan mömin bir Allah adamı idi. Onu da, anan rəhmətliyi də, bu mütrüflərə, qırmızıların havasına oynayanlara qoşulub güdaza verdin. Yazıqların günahı nə idi?

Qasım hövsələsizlik edib soruşdu:

– Mütrüf deyəndə siz kimləri nəzərdə tutursunuz, ağa?

– Kimləri dediyimi sən məndən yaxşı bilirsən. O adamlar ki, azadlıq deyə-deyə çoxunun evini yıxdılar, elə sənin də. Özlərinin də, bu fağır-füqaranın da boğazını şahın kəndirinə keçirdilər. Sənin nəyin əskik idi? Ata-anan, yaxşı təhsilin. Onu da başa vurmadın. Səndən min dəfə qabliyyətli oğlanlar var idi. Yolun yarısından qayıtdılar. Həyatın fırlanan dəyirmanında başları daşdan-daşa dəyib əzildilər, ovulub un oldular, amma ayıldılar. Sən kim oldun, soruşuram səndən? Həbsxanalarda çürüdün, qaçaq oldun. Axırda alnına şürəvi damğası vurdular. Mən sənin xatirini istəməsəydim, atanın ruhuna hörmətim olmasaydı, nə bura gələrdim, nə bu sözləri sənə deyərdim. Daşı ətəyindən tök, kafirlərdən uzaqlaş, normal həyat yaşa. Xanımını da bəzi adamlarla yaxınlıq eləməyə qoyma. İndi deyəcəksən, bu mənim əqidəmdi, məsləkimdi. Cavabın mənə gün kimi aydındı. Nə məslək, əqidə məsələsidir, oğul? Allah-taalanın yolundan qeyrisi yoxdur, Qasım! Müsəlman peyğəmbərlərimizin buyurduqlarından kənara çıxıb yolunu azmamalıdır.

Onların dedikləri boş, mənasız sözlərdi. İndi ağlı olan adam beşgünlük ömrünü firəvan yaşamağı bacarandı. Bizim zəmanəmizdə həqiqəti demək, özünü bu böyüklükdə hökumətlə üz-üzə qoymaq elə bilirsən qəhrəmanlıqdı? Bu ancaq axmaqlıqdı. Özünə, ailəsinə bədbəxtlik gətirməkdi. Əl-ayağını yığ, hökumətlə dil tap, dolan. Gəmidə oturub gəmiçi ilə dava eləmə.

Qasım qabağındakı süfrənin saçaqlarını qırıb-tökür, hirsindən dil-dodağını gəmirirdi. Başını qaldırıb ağa Möhsünün üzünə acıqlı-acıqlı elə baxdı ki, kişi diksinən kimi olub sözünü yarımçıq kəsdi. Gözünü döyə-döyə günahkar uşaq kimi boynunu bükdü. Onun bu saat üstünə atılıb əzişdirəcəyindən ehtiyat edirmiş kimi «kafirə lənət» deyə-deyə qalxıb təkrar oturdu. Təsbehini götürüb bir neçə dəfə fırlatdı. Əlini üzünə çəkib salavat çevirdi:

Belə yolunu azan dinsizləri sən özün dinə gətir, Tanrım. Bizi bir də şeytan şərinə uyan belə kaifrlərlə üzləşdirmə.

Ağa Möhsün Qasımın qımırını görüb susmağı üstün tutdu.

– Sənin dediyin o gəmi mənimdi, sənindi, ata-babalarımızındı, ağa. Mənim gəmimdə oturub mənimlə dava eləyənlər səni bura göndərənlərdi. Bu həqiqəti bildiklərinə görə belə əl-ayağa düşüblər. Həqiqəti mən deməyim, sən demə, o deməsin, bəs kim desin, ağa? Əsirlər boyu lal-kar boyun əyib yaşadığımız kimi yenə də susaq? Bir qarış torpağa haqqı çatmayanlar boynumuza boyunduruq qoyub yenə kürəyimizə minsinlər, bunumu istəyirsiniz? Axı siz ağsaqqallar bunu bizdən çox görmüsünüz? O boyunduruğu bizdən artıq çəkmisiniz? Sizin kimi ağsaqqaldan bu sözləri eşitmək bilsəydiniz mənə nə qədər ağırdır? Kişinin əqidəsi, məsləki, məramı bir olar. İki məsləkə qulluq eləməz. Siz elə başa düşürsünüz ki, milli hökumət süqut elədi, indi ağ günə çıxdınız? Xeyir, ondan da ağır bəlalara düçar olacaqsınız. Biz məğlub olmamışıq. Daha böyük qüvvə ilə üzə çıxacağıq. Sizin kimiləri demirəm, xalqın böyük əksəriyyəti mənim kimi düşünür. Bu məsələdə təslimçilik olmamalıdır, Möhsün ağa. Sənin kimi el ağsaqqalı bizə təslimçiliyi yox, mübarizə yolunu göstərməlidir. Mən səndən bunu gözlədiyim halda zülmkara baş əyib barışmağımı məsləhət görürsən?

Mirzə Möhsün təsbehini dizinin üstə qoyub, xeyli fikrə getdi. «Xob, xob, xeyli xob... (yaxşı, çox yaxşı)» –Deyə ağır-ağır başını

qaldırdı.

– Allah, keç günahımdan – deyəndə Fatma heç nə başa düşməmişdi onda.

– Belə ki görürəm, sən ipə-sapa yatmayacaqsan. Bakıda qırmızılar sənin başını yaxşı təmizləyiblər. Sənə bir şey olsa, «Çün bənde təqsir nədarəm» (məndə təqsir yoxdur) –deyə dodağının altında mızıld, dediyin həqiqətləri səndən başqa heç kəs bilmir? Görürlər, bilirlər, amma sənin kimi ağrımaz başlarına duz bağlamırlar. Budu, sənə deyirəm, bunun axırı yaxşı olmayacaq. Elə et ki, sonra peşman olmayasan. Yetim oğlansan. Övrətin də gözəl-göyçək cüvənəzəndı. Arvad-uşağı qoy yoldan çıxarmasın. Bunun axırının nə ilə qurtaracağını başa düşürsən.

Ağa Möhsün hədə-qorxu ilə hücuma keçsə də bunun mənasız olduğunu başa düşüb ayağa qalxmaq istəyəndə uzun əbası ayağına ilişdi. Yıxılmaqdan özünü güclə saxladı. Fatmanı gülmək tutmuşdu. Qasımın üzündəki qəzəbli ifadəni xatırlayanda indi də özünə gələ bilmirdi.

Qasım qapını ağa Möhsünün dalınca elə çırpdı ki, pəncərənin şüşələri az qala yerə töküləcəkdi.

– İlahi, bu nə dəhşətli, simasız, məsləksiz adam imiş– deyə-deyə uzun müddət sakitləşə bilmədi.

Ondan çox keçmədi ki, Fatmanın başına bu müsibətlər gəldi. Fatma Qasımın ona simasız deyib evdən qovmağına indi ikiqat artıq haqq qazandırırdı. Başlarına gələn bəlaların səbəbkarı belə milli simasızların olduğu qənaətinə gəlirdi Fatma.

– Məndə də günah çox oldu. Vəziyyətimizi başa düşmədim, tələsdim. Bu işdə tələsikliyə yol vermək olmazdı. Ağılla iş görmək lazım idi. Nə etməli, keçənə güzəşt deyərlər. İş olan yerdə səhv də olar. Düşməndən qorxmaq lazım deyil, belə kökümüzə balta çalanlardan qorxmaq lazımdır. Bəzən igid oğullarımızla bərabər bələləri də olur ki, onlar qatı düşməndən artıq qorxuludurlar.

Fatma yada düşən xatirələr aləmində vurnuxa-vurnuxa yenə Qasımla həsbi-hala keçdi:

«Düz buyurmuşdun onda, Qasım. Milli simasızlıq karapetlərin, ardaşes ovanesyanların ümumi işimizə, ayrı-ayrı xalq liderlərinə vurduqları ziyandan da qorxulu bəladır. Bələləri olmasaydı

Təbriz kimi qəhrəmanlar yurdu, inqilab beşiyi sayılan bir şəhərə ovanesyan kimi bir yad adam partiya rəhbərliyinə seçilməzdi. Fatma «Varlıq» jurnalının, «Peykar» qəzetinin səhifələrini oxuduqca 1940-1945-ci illərdə milli azadlıq hərəkatının aparıcı qüvvəsi, xalqın yeganə lideri Pişəvərinin neçə cəbhəyə qarşı döyüşdüyünün şahidi olurdu. Fatma fikirləşdikcə sovet-İran siyasətinin Azərbaycan tarixinə saldığı kölgə aydınlaşır, bəzi qaranlıq sahələrinə işıq düşürdü. Böyüyüb boya-başa çatdığı cəmiyyətlə düşdüyü rejim arasında çox yaxınlıq görürdü. İki yumruq bir başa ağırdır deyə xalqının, millətinin tale yolunu ancaq mübarizədə görürdü Fatma.

Axşamdan xeyli vaxt keçmişdi. Lakin Fatma hələ də əlinə düşən bu fürsətdən keçib qəzet-jurnallardan ayrıla bilmirdi. Bərk yorulmuşdu. Ruhi sarsıntı keçirən adam kimi özünə gəlib fikrini cəmləşdirə bilmirdi. Köhnə qəzet-jurnallardan qalxan toz boğazını elə qıcıqlandırdı ki, xeyli öskürdü. Yuxarı qalxıb pəncərənin qalın pərdəsini çəkdi. Şüşəsini his basmış onluq lampanı yandırdı. Lampanın zəif, sarı işığı otağın divarlarında gəzdi. Tənhalığın xofu bir anlığa üstünü alıb onu kövrəltdi. Ağlına nə gəldisə, lampanı söndürdü:

Zülfüqar bu axşam nə çox gecikdi? –Deyə ürəyində narahatçılıq keçirdi. Əlini qoynunda çarpazlayıb gecənin qaranlığına sarı döndü. Bu qədər cinayətlərin, haqsızlıqların üstündən sükutla keçən gecənin dili olsaydı, ürəyini deşən neçə sualın cavabını ondan soruşardı Fatma. Bu qədər evlər talayıb, qapılar bağlayıb qan tökməkdən doymayan əhrimənlərin məkrinə, hiyləsinə nə vaxt son qoyulacağını gecədən xəbər alardı. Çünki bu suallar hələ də cavabsız qalmışdı. Nə qədər içimizdən bizi didib parçalayan manqurdlar, qanımıza yerikləyən neçə karapetlər durur, bu suallar cavabsız qalacaqdır.

Fatmanın qanı bərk qaralmışdı. Vaxt keçdikcə şübhə dolu narahat fikirlər ona rahatlıq vermirdi. Nəhayət, qapı üç dəfə döyüldü. Fatma qaranlıqda qapıya doğru addımlasa da, əl qaldırıb cəftəni çəkməyə tərəddüd elədi. Ona elə gəldi ki, Zülfüqarın işarəsi deyil. Əlini cəftədən çəkib dayandı. Ürəyi şiddətlə döyünürdü. «Birdən o murdar yenə izimə düşüb gələr. Tək-tənha nə eləyərəm, Tanrım? Bəlkə, Zülfüqarın başında bir xəta var? Bəlkə,

o sürücü mənim yerimi xəbər verdi? Çox qorxaq adama oxşayırdı, uşaq kimi bir az da pulpərəst idi. Bir az hədə-qorxu gəlsələr, nə var hamısını açıb deyə bilər. Nə bilmək olar? Deyirlər, insan çiy süd əmib».

Bir anda Fatmanın başından neçə belə fikirlər keçdi. Qapının təkrar döyülməsi Fatmanı tərəddüddə qoymuşdu. Fatma bir neçə addım geri çəkildi. Nəfəsini içinə çəkib gözlədi. Az keçmədi ki, qapı yenidən döyüldü. Fatma Zülfüqarın işarəsini o saat tanıyıb qapını açdı. Zülfüqar tələş içində otağa girdi. Yanında beş-altı nəfər də var idi. Fatma onlardan bəzilərini tanıyırdı.

– Qapını açmamaqda çox ağıllı iş görmüsən, Fatma bacı. Bir az da geciksəydik, zəhmətimiz hədər gedəcəkdi. Şeytanın quyruğu, deyəsən, izimizə düşüb, – deyə Zülfiqar qəti bildirdi.

Qaranlıqda bəzi məsələləri aydınlaşdırdılar.

–Həbsxanadakı yoldaşların azad olunmasına nail olmaq, Mürsəl və Etibar yoldaşı həbsxanadan qaçırıb inanılmış bir yerdə gizlətməklə bərabər Fatmanın yerini elə bu saat dəyişdirmək. Təşkilatın qərarı belədir, –deyə Zülfüqar tələsik sözünü qurtardı. Sonra yadına bir şey düşmüş kimi təzədən dilləndi:

– Fatma xanım, bu cavan oğlan səni bir il bundan qabaq qaçıran Namazdı. Sən demə, özünü qorxaq və yazıq göstərə-göstərə işimizə çox böyük köməklik eləyirmiş. Sahibkarlarının böyük etimadını qazanıb. «Dayısı», yox, müəllimi Mürsəlin yanında «təlim» keçib. Ona inanmaq olar. Mənə verdiyi sözə əməl eləyib, axtarıb ünvanımı tapıb. Hələ desən silahı da var bu qoçağın.

– O silah xozeini sizdən qorumaq üçün idi, Zülfüqar qardaş. Gördüyün kimi mən burda o silahla sizi qoruyuram.

Hər ikisi güldü.

Fatma Mürsəl, Etibar adını eşitcək elə şad-xürrəm olmuşdu ki, deyilənlərin heç birini eşitmək durumunda deyildi. Bir anlığa çəkdiyi əzab-əziyyətlərin ağrısı canından çıxdı elə bil. Onların qarşısında günahkar olduğu üçün nə qədər vicdan əzabı çəkdiyini bir Allah bilirdi. Zülfüqar tələsik dillənməsəydi, Fatma oturduğu yerdə elə belə də qalacaqdı.

– Bu günkü yığıncağımız ürəyimizcə baş tutmasa da, qarşımızda duran məsələlər, elə bilirəm, hamıya aydındı. Biz heç vaxt sayıqlığımızı itirməməliyik, qardaşlar. İndicə gördünüz ki, şahın

tulaları dalımızca sülənirdilər. Biz mübarizə aparmaqla bahəm, özümüzü və silahdaşlarımızı da qorumalıyıq. Siz uzaq yoldan gələnlər ətrafınızda daha çox vətən təsibi çəkənləri cəmləşdirməyə çalışın. Ən ümdə məqsədimiz milli hökumətimizə xain çıxanlardan qisas almaq olsa da, xalqı yeni inqilabi mübarizəyə hazırlamağı unutmamalıyıq. İşimiz ancaq qisasçılıq olmamalıdır. Əks təqdirdə Pişəvarinin bizə qoyub getdiyi müqəddəs işə xəyanət eləmiş olarıq. Vətənimizin şimalında mühacirətdə olan yoldaşlardan da bəzi ümidverici xəbərlər alırıq. Orada da rejim bir az yumşalıb. Stalin rejimi dağılıb. Verdiyimiz qurbanlar bizi gərək ruhdan salmasın. Diqqət etsəniz, görərsiniz ki, Rza şah hakimiyyətə gələnə qədər İranın çırağı adlanan Azərbaycanın şəhər və kəndləri indi nə günlərə qalıb. Tehran hökuməti bizə həqarətlə baxır. Yenə həmin mərhumiyyətlər, milli ayrı-seçgilik baş alıb gedir. Ola bilər ki, bu gün bir çoxunuz qarın dolusu yeməyə möhtacıq. İşsizlik, yoxsulluq azərbaycanlı türkləri yaşayan əyalətlərdə, Kürdüstan, Ərəbistan (Xuzistan), əhalisi fars olmayan regionlarda az qala fəlakətə çevrilib, yoldaşlar. Biz yemək davası eləmirik. Evimizin içinə soxulub bizə həqarətlə yuxarıdan aşağıya baxanları qovub azad, müstəqil yaşamaq üçün mübarizə aparırıq.

Zülfüqar elə yanıqlı, elə aydın danışırdı ki, hamı cınqırını içinə çəkib qulaq asırdı. Danışığına bir az ara verib əlavə elədi.

– İndi uzun-uzadı danışmağın yeri deyil. Bunun üçün vaxt yoxdur. Onu bilin ki, bir ilə yaxın bizimlə birlikdə belə çətin şəraitdə mübarizəmizə dəstək verən Fatma Azərini daha tanımırsınız.

Yer-yerdən təəccüblə dilləndilər:

– Necə tanımırıq, bu nə sözdü, qardaş?– Namaz ötkəm bir səslə soruşdu.

– Bəli, biz gərək bu adı unudaq. Bu gündən aldığı təzə pasporta görə onu Maxrux Xəlili kimi tanıyacaqsız.

Alaqaranlıqda hamı rahatlıqla nəfəs alıb Fatmanı təbrik elədi.

Fatma öz keçmişi ilə vidalaşmış kimi qəhərləndi.

– Mənim də bir ricam var, qardaşlar, müsaidə etsəniz, – səsi qırıldı.

– Buyur, Maxrux xanım, nə istəyiniz varsa, yerinə yetirməyə hazırıq.– Hamı bir səslə dilləndi:

– Qadın həbsxanasında günahsız əziyyət çəkən Mehin (əsl adı Mahtabandı) Əlili və onun kimi onlarla qadınlar var. Ricam odur ki, mümkün qədər azad olmalarına çalışaq. Onun qardaşı günahsız yerə gecə yatdığı yerdə öldürülüb, ata-anası itgin düşüb. Özünü aldadıb Almaniyadan gətiriblər. Təhlükəsizliyinə söz versələr də, sözlərindən qaçıblar. Sonra xalası oğlunun bizim intiqam dəstəsinin üzvü olduğunu sübut gətirib tutublar. Yazıq qız yaman əziyyət çəkir. Çox qoçaq qızdı, işimizə xeyri dəyə bilər. Vətən təsibi çəkən, həm də savadlı qadındı. Mənim Səltənət xanımla görüşməyimin səbəbkarı o elə özü oldu.

Qaranlıqda kimsə dilləndi. Üzünü görməsə də Fatma onun səsindən ciddi adam olduğunu başa düşdü.

– Fatma bacı, bağışlayın, Maxrux xanım, bəlkə, o qızın xalası oğlunun adını xatırlaya biləsiniz? Bizə çox vacibdi.

Fatma xeyli fikrə getdi.

– Bu, iki il bundan qabaqkı söhbətdi. Amma yenə yaddaşım məni aldatmırsa, Müzəffər idi.

Oğlan sevincək dilləndi:

– Müzəffər? Bu oğlan, bəlkə, bizim təşkilatın Ərdəbil şöbəsinin ən fəal üzvlərindən olan Müzəffərdi? Çox möhkəm adamdı. Məncə o, yetim oğlandı. Təbrizə necə gəlib çıxıb? O qədər oxşar adlar var ki, nə bilmək olar? Hər kim olursa-olsun, bizim kimi əzilib tapdalanan soydaşımızdı. O qızı azad eləmək qarşımızda bir nömrəli vəzifə olmalıdır. Sən bizi çox sevindirdin, Maxrux bacı.

Oğlan böyük ürək yanğısı ilə sözünə davam etdi:

Görürsünüz, qardaşlar, hökumət tökdüyü bu qədər qanla kifayətlənmir. Ələ keçirdikləri demokrat firqəsinin üzvlərini Təbriz həbsxanalarından kənarda gizli zindanlarda saxlayır. Bu bizi qorxutmur. Ola bilsin ki, bizim burda, ya qeyri bir yerdə belə toplaşmağımız bu tezliklə mümkün olmasın. Gördüyünüz kimi bu ünvan nəzmiyyə jandarmlarının nəzarətindədir. Bilməliyik ki, milli hökumətimiz süqut edəndən bəri Qəvvam hökuməti siyasi qələbəsindən ruhlanıb Azərbaycan türklərinə qarşı iqtisadi təzyiqlərə başlayıb. Aclıq, işsizlik, fabrik və zavodların bağlanması, işçi qüvvələrinin, işbilənlərin Tehrana toplanması ilə bizə böyük zərbələr vurur. Xalq çaşqınlıq içində qalıb. Cavan mütə-

xəssislər təqiblərdən can qurtarmaq üçün xarici ölkələrə üz tuturlar. Bax biz bütün bunların qarşısını almaq üçün də mübarizə aparmalıyıq. Azərbaycan türklərinin kütləvi şəkildə işdən qovulmasının, dövlət idarələrində, xüsusən təhsil sahələrində fars dilli məmurların yerləşdirilməsinin qarşısını almalıyıq. Bazarlarda, xüsusən taxıl alqı-satqısında yaradılan süni bahalıq da, camaatın ehtiyacını artırıb. Rza şah hökuməti yenə eyni oyununu işə salıb. Məmurlar xalqın əlindən taxılı ucuz qiymətə zorla alıb təzədən baha qiymətə özlərinə satırlar. Fars dilində yazılmayan ərizə və şikayətlərə baxılmır. Tarix boyu bizə bəslədiyi kinküdurətini Tehran rejimi bu yoll, köhnə ssenari üzrə xalqın başında çartladır. Qadınlarımızın vəziyyəti daha acınacaqlıdı. Rza xan hakimiyyətinin ilk günlərində olduğu kimi boğazından asılmaq, daş-qalaq edilmək kimi murdar adətlər qadınlarımızın, qızlarımızın hüquqsuz, qul kimi saxlanmasına səbəb olub. Dərdlərimiz böyükdür, qardaşlar. İndi biz nə öz hökumətimizin, nə sovetlərin, nə də ingilis- amerikanların heç bir köməyinə və yağlı vədlərinə arxalanmamalıyıq. Bildiyimiz kimi, biz bunun nəticələrini artıq görmüşük.

Danışan sözünə bir qədər ara verdi. Zülfüqar yaranan fasilədən istifadə edib dilləndi:

– Vaxtımız az da olsa, elə bilirəm mənim toxunduğum məsələlər hamımızı düşündürməli və ayıq salmalıdır. Bəli, siyasi, iqtisadi təqiblərlə bahəm, belə çirkin əməllərlə bizi sındırmağa çalışırlar. Milli firqəmizin yaradıcısı Pişəvərinin sağlığında milli varlığımıza zərbə vurmağa çalışan sovetlərin və Stalin tərəfdarı Ardaşes Ovanesyan kimiləri var idisə, indi də karapetlər, akopyanlar, şamvellər yolumuzda qara tikan kimi bitiblər. Bütün quruluşlarda olduğu kimi kökümüzə balta vurmaqda düşmənlərimizin sağ əlinə çevriliblər. Cəsusluqla bahəm, qız-qadınlarımızın şəhvətxanalara aparılıb rüsvay edilməsində böyük rol oynayırlar. Bəzən də ehtiyac ucundan aldadılıb o murdarxanaya düşən qadınlarımız intihar edir, ərlərinin, qardaşlarının namusunu ləkələmək istəmirlər. Az qala bizim Maxrux bacımız da o cəhənnəmə düşəcəkdi. Bax bu cavan oğlanın köməkliyi ilə onu qurtara bildik. Belələri zəhərli ilandan da qorxuludur, qardaşlar. Burda yaşayan ermənilərin hüquqları Tehran hökumətinə inək kimi süd

verən türklərdən qat-qat artıqdır. Nədən onların burunları belə bu inqilab dövründə qanamadı? Məktəbləri bağlanmadı? Hətta dövləti idarə işində də az-çox onlar iştirak eləyirdilər. Torpaq bizim ola-ola bu yurdsuz, vətənsizlər at oynadırlar.

Kimsə Zülfüqarın sözünü kəsdi:

– Çünki hər tarixi şəraitdən istifadə eləyib qoltuqlara girməyi bacarırlar. Bəd ayaqda yaşadıqları məmləkətə xain çıxıb qapılarını düşmənə açmaqda, bələdçilik eləməkdə mahirdilər. Necə ki, Osmanlı sultanlarının, padşahlarının etimadını qazanıb, sonra da xain çıxdılar. Sonu da sizə məlumdur. Belələri ilə mübarizə aparmaq, bizim ümumi işimizin bir hissəsi olmalıdır. Belələri bütün əyalətlərdə mövcuddur. Bizim əsas qüvvəmiz dağılıb, pərən-pərən düşüb. Milli demokrat firqəsinin sadiq rəhbərlərinin çoxu həbsxanalardadır. Xüsusən, Təbriz təşkilatı indi başsız qalıb.

– Niyə elə deyirsən, qarda? Bəs biz kimik? Onlardan əsgiyik, ya qorxağıq? Təbriz təşkilatı etibarlı əllərdədir.

Qasım Azərinin adını çəkməkdən özünü güclə saxladı. Bu ad gizli qalmalı idi.

Namaz acıqlı-acıqlı dilləndi:

– Yox, mən elə demək istəmirdim. Ev ağsaqqalsız olmadığı kimi indi bizim də təcrübəli yoldaşlara ehtiyacımız var. Elə götürək «Qadın Hüquqları Uğrunda Mübarizə təşkilatı»nın sədri Səltənət yoldaşı. Pələng kimi qəfəsə salınıb. Bütün əyalətləri gəzib az-çox qadınlarımızı bu mübarizəyə cəlb eləyə bilmişdi. O cümlədən də Maxrux xanımı. Qadın böyük qüvvədir, qardaşlar. Mən elə hesab eləyirəm ki, Səltənət azadlığa çıxana qədər təşkilata rəhbərliyini Maxrux xanıma həvalə eləyək. Necə bilirsiniz?

Hamı yer-yerdən razılığını bildirsə də, Zülfüqar etiraz elədi.

– Maxrux bacı ölkəni yaxşı tanımır. Onu izləməkdən əl çəkdiklərinə əmin deyilik. Pasportunu təzə alıb. Hələ onu qorumalıyıq.

– Ölkəni gəzmək vacib deyil. Əmin olmalıyıq ki, təşkilata başçılıq eləyən var. Elə bilirəm ki, Maxrux xanım buna etiraz eləməz.

Zülfüqar yenə sözə qarışdı.

– Gecə keçir, qardaşlar, dağılışmalıyıq. Bu gün qapını döyənlər, sabah yəqin ki, yenə gələ bilərlər. Fikirləşib Maxrux

bacıya yeni «iqamətgah» tapmalıyıq.

Hamı güldü.

Zülfüqar nə fikirləşdisə, sevincək əlavə elədi:

– Təbrizdən bir az aralı Sofian kəndində bacım yaşayır, ora aparaq, sonrasına baxarıq. İndi tək-tək dağılışmaq lazımdır. Bir də təkrarlayıram: – Nə yaşlı, nə cavan üzvlərimiz Fatma adını eşitməməlidir. Onu üzdən tanıyanlar çox azdı. Odur ki, narahatçılığa dəyməz.

Səhər açılmamış bu evdən uzaqlaşmaq lazım idi. Zülfüqar axşamkı hadisəni unuda bilmirdi.

– Görünür, hardasa səhvə yol vermişik ki, izimizə düşə biblər. Əlbəttə, bir ildən artıq keçən vaxtda yəqin karapetlər gecə yuxu, gündüz dinclik tapmayıb ölkəni qarış-qarış axtarıblar. Ya elə neçə vaxtdır insan hənirtisi, insan nəfəsi gəlməyən, qapısının qıfılı pas atan evdən ara-sıra görünən işıq bizi ələ verib, kim bilir? Nə olursa-olsun Fatmanı qorumaq üçün əlimizdən gələni eləməliyik. Onsuz da sıralarımız seyrəlib. Bu düşməni sevindirir. Biz bu sevincin uzun çəkməsinə imkan verməməliyik deyə fikirləşə-fikirləşə Zülfüqar qapını bağlayıb aşağı düşdü. Onu Namaz və Fatma gözləyirdi. Qalanları dağılışıb getmişdilər.

Sofian kəndi Təbrizdən çox aralı deyildi. Bağ-bağatı, mehriban, gülərüz camaatı ilə başqa kəndlərdən çox fərqlənirdi. Bir fərqi də onda idi ki, camaat həddindən artıq dindar idi. Vaxtı ilə Ərdəbil sufiləri zəifləyəndən sonra şiə məzhəbinin tərəfdarları bu kənddə çoxalmışdı. Dini məzhəbin sərt qanunları bu kənddə yaşayan qadınlara qarşı daha amansız idi. İslamın qayda-qanunlarını mənimsəmək, hər bir sakinin borcu olduğu üçün, molla məktəbləri əl-qol açmışdı. Hər cür məsələ din xadimlərinin razılığı ilə həyata keçirilirdi. Qadınlar təpədən-dırnağa qədər örtülü gəzməli, ərlərinin, qardaşlarının bütün tələblərini sözsüz yerinə yetirməli, hər il Məşhədə, şiələrin səkkizinci imamı İmam Rza məqbərəsinə ziyarətə getməli idilər. Min illərdi analarının, nənələrinin çəkdikləri əzab-əziyyəti indi onların nəvə-nəticələri çəkirdi. Heç nə dəyişməmişdi. Milli hökumət dövründə ana dilində açılan məktəblər, buraxılan qəzet-jurnal, kitablar camaatın min illərlə qara kabusa bürünən arzularına təzəcə işıq salmışdı ki, yenə ölkəni qan gölünə döndərdilər. Şahpərəstlərin qılıncının

dalı da, qabağı da kəsirdi. Zülfüqarın yeganə bacısı Mədinə və əri Vahab bu çaxnaşmanın acısını dadmışdılar. Zülfüqarın tutulması ilə evləri yandırılmış, kiçik oğlu yanğında həlak olmuşdu. Özü uzun müddət yatağa düşmüşdü. Odur ki, əri onları Zəncandan qaçırıb ana nənəsinin kəndinə – Sofiyana gətirmişdi. Zülfüqar az qala altı-yeddi il onlarla əlaqə saxlaya bilməmişdi. Həbsxanadan azad olan kimi ölkəni axtarışa çıxmış, bacısını tapmışdı. İndi Fatma gəldiyi bu din yuvası olan kəndin qayda-qanunlarını qəbul edib yaşaya biləcəkmi? Bilmirdi.

Zülfüqar dolaşıq fikirlər, anlaşılmaz suallar içində maşının nə vaxt darvazada dayandığını bilmədi. Namaz gəldikləri yolu geri qayıtmalı, səhər açılmamış xozeyinin qulluğunda durmalı idi. Odur ki, sağollaşıb cəld geri döndü.

Tanrıya gedən yolda…

Bu il bahar vaxtından tez gəlmişdi elə bil. Yenə öz əbədi, gözəllik nəğmələrini oxuyur, ağaclarda təzəcə açılan yarpaqları, gül-çiçəkləri ana laylası kimi oxşayırdı. Çəmənliklərdə qara xallı, əlvan donlu lalələr, utancaq bənövşələr bahar mehinin öpüşləri ilə nazlanır, başlarını utancaq gəlin kimi o tərəf, bu tərəfə əyirdilər. Lalənin, nərgizin həzin pıçıltıları musiqi səsi kimi ətrafa yayılır, insanın beyni, şüuru bu gözəllikdə dincəlirdi. Kəndin kənarından keçən dağ çayı uğultuyla, köpüklənə-köpüklənə dərələrə sığmadan qayaları yarıb torpağı oyum-oyum oyub gəlirdi. Həyətdə təzəcə çiçəkləyən alça, badam ağacı ağ örpəkli gəlin kimi ətrafa xüsusi gözəllik verirdi. Fatma bu üç ilin ərzində gördüyü üçüncü baharın gəlişindən heç sevinməmiş, təbiətin bəxş etdiyi bu əbədi və əzəli gözəlliyi sanki görməmişdi. Ona isti, xoş münasibət bəsləsələr də, fikri-xəyalı doğma Xəzərin sahillərində dolaşır, boya-başa çatdığı Bakının əsirlər yadigarı «Qız qalası»nın, «Şirvanşahlar sarayı»nın ətrafında gəzir, qəmli gözlərində həsrət-həsrət üstə yurd salırdı. Fatma ona ayrılan alçaq tavanlı otağın pəncərəsindən qüssə dolu nəzərlərini uzaqlara zilləyir, köhnə xatirələrin yedəyində o yerləri gəzib dolanır, onu xoşbəxt keçmişi ilə birləşdirən bu xatirələrin şirinliyindən doymurdu.

Fatmanın ana nənəsi əslən Abşeronun Suraxanı qəsəbəsindən

olsa da, özü qədim Bibiheybət deyilən kəndə ərə gəlmişdi. Nənəsi Bibixanımın atası arxeoloq və tarixçi olduğu üçün qədim yurd yerlərinin, tarixi abidələrin və xüsusən Bayıl, Bibiheybət ərazilərində arxeoloji qazıntıların aparılması işində yaxından iştirak eləmişdi. Bu işə maraq Bibixanımda hələ uşaqlıqdan oyanmışdı. Eyni zamanda Fatmanın nənəsi Suraxanı və Bibiheybət ziyarətgahlarının tədqiqi ilə maraqlanan alim idi. Balaca Fatmanın adını da nənəsi qoymuş, peyğəmbər övladı Fatmeyi-Zəhranın adını uca tutmuşdu. Hər onlara gələndə özünün tədqiqatlarındakı tapıntılardan maraqlı əhvalatlar söyləyər, Şıx kəndində yerləşən ziyarətgaha aparardı.

Bir dəfə Fatma nənəsindən soruşdu:

– Nənə, niyə buranı Bibiheybət adlandırıblar? Suraxanıdakı o yanar od niyə məhz orda qorunub saxlanıb, başqa yerdə yoxdur?

Nənəsi bilmirdi ki, sualın hansına cavab verib, bu yaşından böyük danışan nəvəsini razı salsın. Bir də ki, sovet-bolşevik rejimi dövründə belə ziyarətgahların adını dilə gətirmək böyük cəsarət tələb eləyirdi. Fatma qara qayaların yaxınlığındakı məqbərəni göstərib təkid eləyəndə Bibixanım nənə özünəməxsus təmkinlə Fatmanı qaldırıb qayalardan birinin üstündə oturtdu. Gözlərini Xəzərin mavi sularında üzən qağayılara, uzaqda adda-budda görünən gəmilərə dikib dərindən köks ötürdü:

– Bu gördüyün məqbərənin və «Qırx qızlar» adlanan qayaların faciəli tarixçəsi var, qızım. Heç bir ad, yurd yeri elə belə yaranmır. Ərənlər deyiblər ki, hər daşın altında bir tarix yatır. Hansısa tarixi həqiqətə söykənib getdikcə rəvayətə, nağıla çevrilir, mənim balam. Bu adların tarixi mənim də yaşımdan çox-çox qədimlərə gedib çıxır.

– Bəs sən bunları haradan bilirsən, nənə? – Fatma əl çəkmədi.

– Mən də kitablardan, müdriklərin söhbətindən öyrənmişəm, Fatma. Böyüyəndə sən də oxuyub öyrənəcəksən. Babam danışardı ki, bir vaxt şiələrin səkkizinci imamı, İmam Rza xəlifə Məmun tərəfindən zəhərlənib öldürüləndən sonra bacısı Hökumə xatun təqibdən qaçıb Xəzər sahilinə pənah gətirir. Onun qırx kənizi də onunla birlikdə Heybət adlı bir şəxsin gəmisinə minib sahilə çıxırlar. Çox keçmir ki, Hökumə xatun vəfat edir. Onu elə bu gördüyün məqbərədə torpağa tapşırırlar. Qızlar isə rəvayətə

görə bu qayaların dibində vətən üçün ağlayıb sızlayır, daşa dönürlər. Bax o qayalardan sızan sular da, o qızların vətən üçün axıtdıqları göz yaşlarıdır. El arasında bu yeri Qırx qız ona görə adlandırıblar, Fatma.

Fatmanı ağlamaq tutmuşdu. Qızların belə taleyi onu yaman kövrəltmişdi. Lakin hər şeyi axıracan öyrənməmiş əl çəkmirdi.

– Onlar nə eləmişdilər, nənə? Şiələr kimlər idi ki, onları qırırdılar?

– Eh, qızım, bu uzun söhbətin mövzusudur. Sən belə məsələləri hələ başa düşməzsən.

– Elə de ki, başa düşüm, nənə! – Fatma əl çəkmədi.

Bibixanımı gülmək tutmuşdu. Nəvəsinin zirəkliyi, inadkarlığı onu sevindirirdi.

«Bu qızın gələcəyi çox parlaq olacaq» – deyə öz-özünə düşündü. Bəs necə. «ot, öz kökü üstə bitər» – deyiblər. Fatma da, nənəsinə, babasına oxşayacaq. Tariximizin açа bilmədiyimiz qaranlıq səhifələri hələ çoxdur. Onların açılıb öyrənilməsinin də zamanı gələcək. İndi bizim deyə bilmədiyimizi, yazmadığımızı onlar deyəcək, onlar yazacaqlar. Bibixanım nənə kimi alimlər nə qədər ki, sovet-bolşevik rejimi mövcuddu, araşdırdıqları çox məsələlərin, tarixi həqiqətlərin üstündən sükutla keçəcəklər. Əzəldən baş-ayaq yazılan tarixi həqiqətləri kim açacaq? Buna ömür çatacaqmı? –Bilmirdi.

Nəvəsinin onun əlindən dartıb silkələməyi olmasaydı, bu mövzuya təzədən qayıtmayacaqdı, Bibixanım:

– Sünnü-şiə İslam dinində sonradan yaranan iki təriqətdi, qızım. Bu təriqətlərin hər ikisi qəbilə adları ilə bağlıdır. Hər iki tərəfdən olanlar bir-biri ilə çəkişmələr apardıqca nahaq qanlar tökülmüşdü.

– Sünnü də, şiə də hamısı müsəlman sayılmır, nənə?

– Əlbəttə, müsəlmanlardı.

Ömrüm çatsaydı, səni şimallı, cənublu Azərbaycanımızın faciəli tarixinin tədqiqatçısı kimi görmək istərdim, mənim balam. Xalqımızın buna çox ehtiyacı var.

«Sənin arzularını belə yerinə yetirdim, nənə. İndi o arzular xoş xəyaldan başqa bir şey deyil. Bu arzu məni bura – ərənlər yurduna, şeyxlər səcdəgahına çəkib gətirdi. Bu mühit arzularımı,

istəyimi, canımdan artıq sevdiyim məhəbbətimi, övladımı da əlimdən aldı» – deyə köks ötürdü Fatma.

Qanı çox qaralmışdı. Pəncərənin qabağından çəkilib təzəcə gətirilən qəzetlərə baxmaq üçün əyləşdi. Dəftərinə bəzi qeydlər edib kənara qoydu. Qəzetin arxasında bir neçə elan gözünə sataşdı. Elandan yuxarıda öz şəklini görüb qolları sustaldı. Alnını soyuq tər basdı. Gözlərini ovcunun ortası ilə bir neçə dəfə silib təkrar baxdı. Yox, bu həqiqət idi. Elanda bu şəkildə gördüyünüz təhlükəli cani qadın neçə vaxtdır həbsxanadan qaçıb. Onu görüb yerini deyənləri mükafat gözləyir sözləri yazılmışdı.

Fatma əlləri yanan adam kimi qəzeti yerə atdı. Bir də götürüb təzədən oxudu. Burda səhv olan heç bir şey yox idi. Onu axtarırdılar. Fatma nə edəcəyini bilmirdi. Qəzeti götürüb mətbəxdə yemək hazırlayan Mədinənin yanına yüyürdü. Vahab hələ işdən qayıtmamışdı. Mədinə əlləri əsə-əsə qəzetdə onun şəklini görüb yerə çökdü.

–Evimiz yıxıldı, bacı! Mən bu dəhşəti bir dəfə görmüşəm. Bu cin-şeytanlardan yaxamızı təzəcə qurtarmışdıq. Bizi nələr gözləyir, İlahi –deyə başını tutdu.

– Sən narahat olma, Mədinə bacı. Mən indicə bu evdən çıxıb gedəcəm ki, sizin ailəyə xətər toxunmasın. Onsuz da, sizə çox əziyyət vermişəm. Sizin heç bir günahınız yoxdur. Mən gərək hökumətə çoxdan təslim olaydım.

– Sən nə danışırsan, Maxrux bacı? Vahab heç vaxt buna razı olmaz. Qoy işdən gəlsin, bir əncam çəkərik. Sən çalış çölə-bayıra çıxma. Burada elə haramzadələr var ki, pul xatirinə ana-bacılarından da keçərlər. Elə kəndin yuxarı başında Samvel adlı o murdar ermənilərdən biri ailəsi ilə yaşayır. Onlara yuxarılardan tez-tez gəlib-gedənlər olur. Onu Kərbəlayı Səməd kimi tanıyırlar. Məşədə, Kərbəlaya getsələr də, murdarlıqlarında da qalmırlar. Adlarımızı da özləri kimi murdarlayıb mənimsəyiblər. Ona Kərbəlayı deməyə adamın dili dönmür. Ondan ehtiyat eləmək lazımdır. Şübhəli adamlarla oturub-durur. Biz bura köçəndə göz verib, işıq vermirdi bizə. Kim olduğumuzu, hardan gəldiyimizi öyrənib bilməmiş əl çəkmirdi. Vahab onu bir dəfə möhkəm döydü. Gözünün odunu elə aldı ki, bir də biz olan tərəfə baxmadı. Onlardan kimsə sənin üzünü görübmü?

– Bu yaxında arvadı Qreta qızı ilə hamama gəlmişdi. Orda görüşdük. Üzümə çox müəmmalı baxırdı:

– Biz tərəflərdə belə gözəllərə az təsadüf edilir. Bu göyərçin haradan uçub gəlib, – deyə şaqqıltı ilə güldü.

Mədinə şəhadət barmağını dodağına söykəyib xeyli fikrə getdi.

– Belə de... İndi aydındır ki, daş hardan atılıb, arqac kimdən keçib...

– Qaş qaralan kimi mən burdan getməliyəm, Mədinə bacı. Sözsüz onlar Karapetin adamlarındandı. Mən həbsxanaya qayıtmağa hazıram, nəinki o alçağın əlinə keçməyə.

Vahab məsələdən agah olan kimi Təbrizə Zülfüqar və başqa yoldaşlarla görüşə getdi. Belə qərara gəldilər ki, Fatmanı gecəynən Namaz Astaraya aparsın. Astarada yeni yaranan «Qızılbaşlar» adlanan gənclər təşkilatı yerləşir. Mahtaban və Səltənətlə də əlaqə saxlamaq oradan asan olacaq. Ordakı təşkilata Fatmanın köməyi daha çox dəyə bilər.

Astara adını eşitcək Fatmanın ürəyi titrədi. Gözləri dolur, sevinirdi. Ona elə gəldi ki, orda vətənin mehini daha yaxından duya bilər. Arazın on beş-iyirmi kilometrliyində yerləşən doğma yerlərə sarı baxa bilər. Vətən küləyi əlinin biri o tayda, biri bu tayda qalan Fatmaya bir xəbər, xoş bir səda yetirər. Şam yeməyindən sonra yola hazırlaşdılar. Uşaqlı, böyüklü hamı bikefləmişdi. Bu neçə vaxtda Mədinə ona bir bacı kimi mehr salmışdı. Hər axşam Mədinənin uşaqları onun başına yığılırdılar. Fatma vətən torpağının bir parçası olan Arazın o tayını xəyalən gəzib dolanar, maraqlı hekayətlər, rəvayətlər danışar, tariximizdən, ədəbiyyatımızdan söhbət açardı. Mədinənin böyük qızı on dörd-on beş yaşlı Gültəkin ardı-arası kəsilmədən suallar verər, yuxusunda belə görə bilmədiyi yerlərdən daha çox məlumat almaq istəyərdi:

– Maxrux xala, mən böyüyəndə, necə olur-olsun, gedib o yerləri görəcəm. Sənin danışdığın o gözəlliklərə şeirlər qoşacam. (Gültəkin tək-tək şeir yazırdı).

Fatma ona Qarabağdan Tehrana Fətəlixana zorla arvad gətirilən Ağabəyim ağadan, onun şairliyindən danışardı:

–Mənim yaşadığım yerdə qız-gəlinlər də, kişilərlə bərabər şeir məclislərində iştirak edir, şeirlərini oxuyur, məktəblərdə üzüaçıq gəzirlər– deyəndə, Gültəkin elə bil nağıl dinləyirdi.

– Oradakı uşaqlar rusların dilində yazıb-oxuyurlar, Maxrux xala?- Deyə Gültəkin maraqla soruşurdu.

– Yox, qızım, öz ana dilimizdə məktəblər, unversitetlər var orda. Öz dilimizdə hamı oxuyur, yazır, danışır.

Gültəkinin ürəyi atlanır, gözləri sevincdən par-par yanırdı.

– Gedəndə məni də ora apararsanmı, xala? Mən də ana dilimizdə yazmaq, oxumaq, danışmaq istəyirəm.

Fatma odlu bir ah çəkib Gültəkinin başını sığalladı.

– Əgər gedə bilsəm, apararam. Bu çox çətindi, qızım. Bir vaxt mən də sənin kimi ürəyi odlu-alovlu idim. Sizin tərəflərdə olmağı çox arzulayırdım. Gəldim...

Fatma ağlamamaq üçün səsini içinə çəkib xeyli susdu. Gültəkin də qəbahət işləmiş kimi başını sinəsinə əyib onun nə vaxt dillənəcəyini gözləyirdi.

– Biz Zəncanda yaşayanda çox xoşbəxt idim, Maxrux xala. Öz dilimizdə açılan məktəbdə oxuyurdum. Müəllimim Şah İsmayıl Xətayinin qoşma, bayatılarından, Füzulinin ana dilimizdə yazdığı qəzəllərindən danışdıqca, mənim də şeir yazmaq həvəsim oyanır, öyrəndiyim şeirləri əzbərdən deyirdim. Hələ bax, Maxrux xala o vaxt məktəblərimiz, evimiz, kitablarımız yandırılanda müəllimimin Şah İsmayıl Xətayidən yazdırdığı şeirləri qoynumda gizlədib necə qorumuşam? Bunları bizə yazdıranda müəllimimiz qoruyub saxlamağı dönə-dönə tövsiyə edərdi. Şair Xətayi döyüş meydanlarından qayıdanda sevimli Taclı xanımına şeirlər oxuyar, özünün arzu və məqsədlərindən danışardı. Taclı xanım ağır səfərlərə əski qayda üzrə onu da özü ilə aparmasını, ya özünün də getməməsini rica edəndə şah belə cavab verərmiş:

– Səni döyüşlərə apara bilmərəm: «Qərənfilim, sərvim, sənubərim, bircəm mənim», – deyə Taclı xanımı oxşayıb-ovudarmış şair. Müəllimimizin yazdırdıqlarını istəyirsən, sənə oxuyum, Maxrux xala. Çox heyif ki o müəllimimizi də yanan məktəbimizin içinə atıb cəlladlar yandırdılar. Mən onun bizə şeir yazdırdığı dəftəri də odun içindən çıxardıb gizlətdim.

Gültəkinin gözləri bahar buludu kimi dolub-boşaldıqca Fatma onun balaca ürəyində yerləşən dünya boyda vətən, xalq məhəbbətini görürdü. Belə gənclərimizin sayını çoxaltmaq üçün biz hələ çox iş görməliyik deyə düşünürdü.

Mən niyə indiyə qədər mənimlə bir dam altında yaşayan bu qızcığazın böyük arzularından, istəyindən xəbər tutmamışam? Onu uşaq saymışam? Fatma özünü xeyli qınadı.

Gecə keçir, Vahab hələ də gəlib çıxmırdı. Fatma bu kənddə ətrafında toplaya bildiyi şəxslərlə görüşmədən getdiyinə görə çox təəssüflənirdi. Birdən yadına nə düşdüsə:

– Gültəkinə etibar eləyə bilərəmmi? –Deyə ürəyindən keçirdi. O qərarında yanılmamışdı. Təşkilatın nə tapşırığı, planı var ona etibar eləməyi qərarlaşdıranda Gültəkin əlində ikiqat bükülmüş dəftər içəri girdi.

– Qulaq as, Maxrux xala, şair Xətayi sevdiyi Taclı xanımla döyüşdən sonra necə söhbət eləyirmiş?

Fatmanın şeir dinləməyə vaxtı, həvəsi olmasa da, qızın ürəyini qırmamaq üçün bir az da ona yaxın oturdu. «Şeir oxumaq vaxtı deyil»– demək istədi. Amma qızın qəlbini qırmaq istəmədi. Gültəkin oxumağına davam elədi:

– Sərvim, sənubərim, süsənim, sünbülüm, bircəm mənim! Mən ata-babamın intiqamını düşmənlərdən almışam. Amma cümlə camaatın intiqamını alıb qurtara bilməmişəm. Pərakəndə düşən bütün qəbilələrimizi bir bayraq altında birləşdirib, sərhədlərimizi genişləndirmək ata-babalarımızın vəsiyyəti və nəsihətidir. Mən dini ayrı-seçkiliyi aradan götürmək üçün çalışıram. Bu yolda tökülən qanlar şair ürəyimi bəzən qanla doldurur. Axı ölən də, öldürən də mənim din qardaşlarımdı. Xaliqin verdiyi canı almağa bir başqasının haqqı çatırmı? Sərvim, sənubərim, süsənim, bircəm mənim? İndi bircə arzum durur, o da sənin məhəbbətindir. Mən haqqa qovuşmaq üçün yolumu o məhəbbətdən salacam. Məhəbbətə qovuşmaq, haqqa qovuşmaqdı. Bir qulaq as:

Ay doğar, aşmaq istər,
Gül dodaq yaşmaq istər.
Mənim bu dəli könlüm
Yara qovuşmaq istər...

Taclı xanım Şah İsmayılı qürurla, fərəhlə döyüşə yola salar, xeyir-dua verər, dalınca su atıb, uğur diləyərdi:

...Su içdim qurtum-qurtum,
Əl ver, əlindən tutum.
İki dünya bir ola,
Sənsən mənim umudum.

Taclı xanım ilk təhsilini fars dilində almışdı. Hərdən bir Hafizdən, Sədidən, Firdovsidən şeir oxuyanda şair Xətayi fikrə gedər, onun qəlbini qırmamaq üçün mehribancasına deyərdi:

– Hafizin, Sədinin, Firdovsinin şeirləri gözəldi. Onlar farsın böyük sənətkarlarıdır. Lakin bizim şairlərimiz Nizami, Füzuli, Xəqani Şərqin böyük dühalarıdır. Sən Nəsiminin məhəbbət, eşqi-ilahi tərənnüm eləyən qəzəllərini oxu, onda görərsən ana dilimiz necə ahəngdar, necə musiqilidir, rəvandır. İndi mənim bir qoşmamı dinlə:

...Ərənlər mənzili haqq mənzilidir,
Ərənlər sahibi ürfanə gəlsin.
Günahkarın günahından keçərlər,
Üz üstə sürünüb sultanə gəlsin.
Xətayi xəstədir, kani-səxavət,
Xəbər ver, dərdlilər dərmanə gəlsin...

Buradakı hər kəlmə, hər söz doğma anamızın dili deyilmi? Nə haqla biz öz dilimizdən üz döndərib, ərəbi, farsi yazaq? Nədən saraylarda dövlət dili anamızın şirin dili olmasın? Aşıqlarımız öz dilimizdə:

Ey divanə, ey divanə,
Aşıq olan qıyar canə.
Xətayi der: Taclı xanə,
Qalsın könül, yol qalmasın!

– Oxumasın?

–Bax mən buna çalışıram Taclım, sərvim, süsənim mənim!

Fatma Gültəkinin şeir oxumasına elə aluda olmuşdu ki, yol üstə olduğunu unutmuşdu. Bunu kimsə bilərsə, bu ailəni yenə hansı cəzalar gözlədiyini də başa düşürdü. Ana dilində bir nüsxə

dərslik, qəzet, jurnal qalmadığı halda, Xətayidən şeir oxumağın nə dərəcə xətalı olduğunu da bilirdi. Odur ki, Gültəkinin alnından öpüb dilləndi:

– Bu dəftəri etibarlı yerdə gizlət, Gültəkin. Sən hələ çox gəncsən, ailəni, özünü də xətaya salarsan. Milli inqilabımızın süqutundan neçə illər keçsə də, qanımıza susayanların bu taxt-taca kini-küdurəti hələ də səngiməyib.

– Məni bir elə də aciz saymayın, Maxrux xanım. Siz bilmirsiniz, bu gənc saydığınız sinənin altında elimizə-obamıza, dilimizə nə qədər məhəbbət varsa, bir o qədər də qurluşa, hakimiyyətə nifrət var. Bu mollalar var haa, onlar ilana ağu verən kərtənkələlərdi. Bu çadranı, şəriət qanunlarını işə salmaqla böyük ixtiyar sahibi olurlar. İlk öncə elə onlardan başlamaq lazımdı, Maxrux xala. Onların zəhlətökən möuzələrini dinləməyə getmədiyim üçün atama neçə dəfə xəbərdarlıq eləyiblər. Ata-anama yazığım gəlir, yoxsa sizə qoşulub gedərdim. Bəlkə, işinizə bir xeyrim dəydi.

Fatma mat-məəttəl qalmışdı.

– Sən bu dilləri haradan, kimdən öyrənmisən, mənim balam? – Onu qucaqladı.

– Sizdən qeyri kimdən öyrənəcəm ki?.. Hər dəfə yığıncağınız olanda gizli qulaq asırdım sizə. Danışığınız ürəyimcə olurdu. Atamın qorxusundan dinib danışmırdım. Məni də öz sıralarınıza yazın, Maxrux xala.

– Bu çox qorxulu yoldur, Gültəkin. Biz çəkdiklərimizə sən tablaya bilməzsən. Sənin gələcəyin hələ qabaqdadı, çox gəncsən. Həm də ata-anan çox əzablar çəkiblər. Qoy bundan belə rahat yaşasınlar.

Bu çadra altında solub gedən gənclik, nə də mərhumiyyətli gələcək mənə lazım deyil. Söz verirəm ki, sizin başladığınız iş üçün çalışacam, yaxın rəfiqələrimi də bura cəlb eləyəcəm. Gözümün qabağında alışıb-yanan evimiz, məktəbimiz kimi ürəyim intiqam hissilə alışır. Siz mənimlə fəxr eləyəcəksiniz, Maxrux xala.

Fatma əziyyətinin hədər getmədiyinə sevinirdi. Onlar söhbətlərini qurtarmamışdılar ki, qapı bərkdən döyüldü. Gültəkin dəftəri gizlətmək üçün zirzəmiyə qaçmaq istəyəndə, Fatma bəzi sənədlər yığdığı kiçik bağlamanı ona verdi. Nigarançılıq içində qızın üzünə baxdı. Gültəkin bağlamanı sinəsinə sıxıb özünün gizli

saxladığı yerə gedəndən sonra Fatma arxayınçılıqla nəfəs aldı. Yol üçün geydiyi üst paltarını çıxarıb bir yana qoydu. Süfrəni açıb üstünə şəkər, noğul, xurma düzdü. İki fincan çay süzdü. Mədinə kiçik oğlunu yatırdırdı. Qayıdanda süfrəni görüb təəccübləndi. Fatma başı ilə qapıya işarə elədi. Gələn Samvelin arvadı Qreta idi. Onun gəlişi hər ikisinə qəribə görünsə də, nə isə xoşagəlməz bir hadisənin baş verəcəyinə əminliklə bir-birinin üzünə baxdılar. Mədinə özünü itirmədi:

– Xeyr ola, Qreta xanım? Axı biz heç vaxt qonşuluq eləməmişik. Səndən nə əcəb gecənin bu vaxtı təşrif gətirmisən?

– Əcəb günün olsun, axçı, deyirlər ki, ha şax olasan, dilənçiyə bir gün işin düşər. Axçi, sizə balaca bir işim düşüb. Biz adam deyilixmi? Adamın da adama işi düşər, eli.

Mədinə kinayə ilə dilləndi:

– Nə sən şahsan, nə biz dilənçi. Sözünü de, gecənin bu vaxtında, sənin gəlişin xeyir işə oxşamır, Qreta xanım.

– Heylə demə, kibrəcan. Biz hamımız Məhəmməd hümbətində bir torpaxda yaşıyırıx eli. Bir-birimizə əl tutmalıyıx. Əl tutmax Əlidən qalıb deyirsiniz. Biz duşman-zad olmamuşux ki? Atababalarımız bu torpaxda yaşayıb, ömürlərini bizə bağışlayıb gediblər, biz də yaşayırıx. Bəzi axmaxlarımız köçüb sizin İrəvan, Qarabağ dediyiniz yerlərə tərəp getsələr də, bura bizim də dədəbaba yurdumuz sayılır. Biz harda yaşamışıqsa, oranı özümüzə doğma vətən saymışıq..

Mədinənin hövsələsi lap tükənmişdi. Zülfüqarın, Vahabın gəlişini gözlədikləri vaxtda bimürvət qızı haradan gəldi çıxdı? – Deyə Mədinə öz-özünə deyindi. Yaman yerdə axşamladıq. Bunu başımızdan necə eləyək, Allah! – Mədinə hövsələsizliklə dilləndi.

– Dərədən-təpədən az danış, de görək gecənin bu vaxtı bizə belə vacib nə işin düşüb? Gecə keçir, uşaqları yatızdırıram.

Qreta tez-tez Fatmanın üzünə baxır, o saat da gözünü yayındırırdı. Elə bil vaxt uzadır, kimi, nəyi isə gözləyirdi.

– Bizim Samvel sizin dediyiniz kimi Kərbəlayı Səməd bərk naxoşlayıb. Dünən ləkləri suvaranda soyuqlayıb. Yüksək hərarəti var. Dedim, bəlkə, balaca uşaxlı evsiniz. Ehtiyat dərmanınız olar. Həm də bir hal-əhval eliyax, eli. Gündüzlər vaxt olmur.

– Elə bundan ötrü kəndin o başından bura gəlmisən?

– Nə eləyim, heç kəs vermədi. Əlacım kəsildi, bura gəldim. Dedim, sabaxacan dözə blməz, qızdırma kişinin canını alar.

Fatma qalxıb yan otağa keçmək istədi. Bu zəhlətökən, qırsaqqız adam əl çəkmək fikrində deyildi. Qreta onun qolundan tutub özünə sarı çəkdi.

– Axçi, məndən niyə qaçırsan, mən ki adam yeyən deyiləm. Mən də sizin kimi qadınam, eli.

Fatma qolunu dartıb onun əlindən çıxartdı. Gültəkinin gec qayıtması onu çox narahat edirdi. Mədinə ona bir neçə hərarətsalıcı həb verib yola saldı. Amma ürəyi yenə narahat idi. Sən demə, Gültəkin Qretanı görcək zirzəminin arxa qapısından çıxıb atasının qabağına gedibmiş. Maşını yolda saxlatdırıb, əhvalatı danışıb onları yarı yoldan geri qaytarıb. Fatmanın görüşdüyü adamları da xəbərdar eləyib.

– Fatmanın qanı qaralmışdı:

–Hardan gəlib çıxdı bu mərdimazarın qızı. İndi çoxdan burdan uzaqlaşmışdıq. Bu qaçqınlıq nə vaxta qədər davam edəcək? Təzə adla pasport alanda sevinmişdi ki, bu sənədlə Ərdəbilə qayıdıb ailəsini, uşağını axtarıb tapsın. İndi bu sənəd də ona kömək eləmədi. Artıq ölkənin hər yerində onu axtarırdılar.

Fatma indi bir şeyə də sevinirdi. Bəlkə, qəzetdəki elandan sonra Qasım onun izinə düşə bildi. Son bir ildə Ərdəbilə neçə dəfə adam göndərmişdi. Qasımın orda yaşamadığı xəbərini gətirmişdilər. Fatma Qasımla çiyin-çiyinə bir təşkilatda işlədiyini haradan biləydi? Hardan biləydi ki, ağa Qasım həbsxanadanhəbsxanaya atılır, sonra kənddən-kəndə, obadan-obaya izlənəizlənə gedib çıxır. Balaca Cavad qoltuğunda vətəndən-vətənə sürgün həyatı keçirir. Təqiblər onu dinc yaşamağa qoymur, özünün «ləkəli» keçmişinə, Fatmaya görə min bir əzab-əziyyətlər çəkir.

Bu hadisədən üç-dörd gün keçirdi. Hələ sakitlik idi. Heç kəs onlara dəyib-dolaşmırdı. Vaxtı uzatmaqda Vahabın bir məqsədi var idi: «Bəlkə, heç Fatmanı narahat eləyib başqa yerə aparmayaq? Yazıq qız indi-indi rahatlıq tapmışdı. Uşaqların da üzü-gözü ona öyrəşib. Həm də yuxarılardan bir göstəriş olmasa, mən təkbaşına nə eləyə bilərəm? Buradakı yoldaşlar da gözləməyi tövsiyə eləyirlər. Səbr eləyə-eləyə quzunu qurda versək, necə olsun? Bə-

zən gözləmək də təslimçiliyə gətirib çıxara bilir». Şübhələr, fərziyyələr Vahabın beynini yorur, ona rahatlıq vermirdi. Hər gün səksəkə içində gəzib-dolanmaq üzülməkdən başqa bir şey deyildi. Bu evdə hamıdan çox sevinən Gültəkin idi. Sevincindən yerə-göyə sığmırdı. Artıq Fatma kənd arasına çıxmaqdan məhrum olmuşdu. Yoldaşlarla əlaqəni Gültəkin vasitəsilə yarada bilirdi. Mədinə buna razı olmasa da, dinib-danışmırdı. Bu balacaboy, gözlərindən od tökülən qız bütün tapşırıqları elə yerinə yetirirdi ki, heç kəs ondan şübhələnmirdi. Vahab susmağında, gözləməyində idi. Zülfüqardan səs-soraq yox idi. Bu onu çox narahat eləyirdi.

Bir gün Gültəkin məktəbdən evə çox qanı qara gəldi. Adama elə gəlirdi ki, uzun qara kirpiklərini qaldırsa, göz yaşı leysana dönüb axacaq. Rəngi ağarmış, əlləri uçunurdu. Fatma tez onu arxa otağa çəkdi.

– Nə olub, Gültəkin, rəngin un kimi ağarıb. Kimdən, nədən qorxmusan belə?

– Mən heç kəsdən qorxmuram, Maxrux xala. O, pəltək adamlar sayağı kəkələdi. Dili topuq vurdu. Ağlamaqdan özünü güclə saxladı. – Zülfüqar dayımı tutublar, Maxrux xala. Anam bilsə, yenə halı pisləşəcək. Axı onun ürəkkeçmə xəstəliyi var. Bəd xəbər onu öldürəcək.

Fatma qızın sözünün sonunu gözləmədən otağına yüyürüb, yığışmağa başladı. Məsləhət gördülər ki, şübhə yaratmamaq üçün məşədi Sübhanın ot arabasında Fatmanı Təbrizə aparsınlar. Mən də sənինlə gedəcəm, Maxrux xala. Orda bəzi yoldaşlar sənə kömək eləyəcəklər. Mən sizi tək buraxa bilmərəm. Yerbəyer olandan sonra qayıdaram. Gültəkin israrla dilləndi.

Fatma güldü.

– İndi mənə Tanrı da kömək eləyə bilməz, mənim balam. Mənimki bura qədər imiş. Atan bunu bilirmi?

– Xeyir, gedim örüşdə ona da xəbər verim. Səxavət axşam qaranlıqlaşan kimi səni buradan aparar. Çox qoçaq oğlandı. Ona etibar eləyə bilərsən, Maxrux xala.

– Nə bilirsən etibarlı adamdı, Gültəkin? İndi heç kəsə inanmaq olmur.

– Mən bilməsəm, bəs kim bilər? Tanımasam, heç səni ona eti-

bar eləyərdimmi?

Gültəkin yüngülcə gülümsədi.

– Hə, aydındır, ay şeytan.

Fatma onun çənəsindən tutub yüngülcə silkələdi.

– Bax, bundan xoşum gəldi. Könül sevdiyini seçmək xoşbəxtlikdi, Gültəkin.

– Doğrudan xoşunuz gəlir ondan? Görmüsünüz, Maxrux xala?

– Kimi?

– İndicə kimdən danışırdıq?

– Bu danışdığımızın bir adı-zadı var, ya yox? Mən fala baxan zad deyiləm ki biləm.

Gültəkin anası eşitməsin deyə pıçıltılı bir tərzdə dedi:

– Adı bayaq dediyim kimi Səxavətdi. Özü də kənd xəstəxanasında bu yaxınlarda işə girib. Təhsilini təzəcə bitirib. Yetim oğlandı. Ata-anası erkən həyatdan gediblər. Qoca nənəsi ilə yaşayır.

– Mən onu necə tanımaya bilərəm ki, bizim gizli təşkilat üzvləri onun otağında görüşürlər. Çox səxavətli, sözündə bütöv oğlandı. Halal olsun, yaxşı oğlan seçmisən.

– Mən seçməmişəm, Maxrux xala, o, məni seçib. Bu xəbəri də mənə Səxavət dedi ki, sizə çatdırım.

– Belə de?.. Siz əsil inqilabçısınız ki. Daha heç kəsdən qorxum yoxdur - o zarafata keçdi.

– Hə, düz deyirsiniz, Maxrux xala, doğrudan, bizə güvənirsiniz?

– Bəs necə, gənclərə güvənməmək olar? Siz gənclər bizi gələcəyə aparan yolumuzsunuz. Bu yola inanmamaq olar? İnamsız heç bir iş görmək olmaz, onu yadında saxla! Deməli, birbirimizdən xəbərsiz hər ikimiz Səxavəti sevirik.

Fatma yığışa-yığışa yenə güldü. Qızın bayaqdan korlanan ovqatını durultmuşdu, Fatma. Getməzdən qabaq onu bu ovqatda görmək istəmirdi. Gültəkin danışanda gözləri necə parıldayırdısa, Fatma onun sevdiyini sözsüz başa düşdü:

– Sevmək ən böyük xoşbəxtlikdir, Gültəkin, – deyə Fatma onun yanağına yüngülcə çırtma vurdu.

Fatma güldü.

– Sevmək nədir, Maxrux xala? Bunu sizə mən dedim?

– Yox, sənin gözlərin dedi. Burda qəbahət bir şey yoxdur, Gültəkin. Bir vaxt mən də bu sevginin həvəsilə göyün yeddinci qatında uçmuşam. Xeyli susdu... Sevgi gözəl duyğudu, mənim balam. Onsuz yaşanan ömür heç nəyə dəyməz.

– İndi ta sevmirsiniz, Maxrux xala?

– Niyə ki, sevirəm. Həm də əvvəlkindən qat-qat artıq sevirəm. Sevgi həyatın özüdür, Gültəkin. Bu duyğudan məhrum olan şəxs həyatda qol-qanadı sınıb tökülən quru ağacdan fərqlənmir. Ağac susuz yaşaya bilmədiyi kimi insan da məhəbbtə möhtacdı, qızım. İndiyəcən sevgi, məhəbbət məni yaşadıb, Gültəkin. Oğlum Cavadı, atasını bu qədər sevməsəydim, çoxdan məhv olub getmişdim. İnsan daima istəyinə, arzusuna can atmasa, onun uğrunda çalışıb vuruşmasa, ömrü də mənasız olar. Bax elə başladığımız bu müqəddəs işi götürək. Əgər torpağa, xalqa məhəbbətimiz tükənsə, bu işi də başa çatdıra bilməyəcəyik. Bu da istəkdən, məhəbbətdən irəli gəlir. İnsan ömrü boyu nəyə isə can atır. O istək, o arzu tükənmir. Biri başqasını əvəz eləyir. Elə məqsəd, əqidə, amal var ki, o gərək dəyişməsin. Səni dalınca addım-addım, qədəm-qədəm çəkib aparsın. Bizim təşkilatın vətənsevərləri bax bu əbədi yola sadiq qalanlardı, Gültəkin. Get-gedə cərgələrimiz sıxlaşır. Elə bu balaca kənddə qısa müddətdə gör neçə həmfikirlilərimiz var? Getdikcə bu daha çox olacaq. Dar ağacları, həbslər, terror camaatın gözünü qorxutsa da, yenə ayağa qalxa bilib.

– Məni də öz cərgənizdə sayırsan, Maxrux xala?

– Əlbəttə, elə olmasaydı, bütün bunları sənə deməzdim ki... Sənin kimi, Səxavət kimi gənclərə indi çox ehtiyacımız var, qızım.

– Sənin dediklərini mənə Səxavət də demişdi. Amma bir xahişim var, anam bu haqda bilməməlidi. O, yazıq çox əzablar görüb, buna dözə bilməz.

– Mədinə çox düşüncəli qadındır. O mərhumiyyətləri görəndən sonra sənə mane olacağına inanmıram. Bilirsənmi, Gültəkin, insan susuz, çörəksiz, havasız yaşaya bilmədiyi kimi, azadlıqsız da yaşaya bilməz.

– Bir gün azad yaşamaq, qırx il kölə kimi yaşamaqdan üstündür. Ulu Babək Xürrəmi ərəb xəlifələrinə inanıb onlarla

barışan oğluna belə deyib, ölümü üstün tutub, Gültəkin. Bizim azadlıq uğrunda mübarizə ənənələrimiz var. Onu bizə Cavidan, ərəb xilafətinə qarşı iyirmi il mübarizə aparan Babək, Səttərxan, sonra da Seyid Cəfər Pişəvəri miras qoyub gediblər. Biz –onların nəvə-nəticələri bu yoldan necə çəkinə bilərik? Mənim şəxsi həyatım məhv olub. İndi qalan həyatımın mənasını ancaq bu mübarizədə görürəm. Bura mənim də torpağımdır.

Gültəkin səsini içinə çəkib ona diqqətlə qulaq asdıqca, gözünün qabağından elə bil duman, çən çəkilir, aydın, işıqlı bir səma görünürdü. O, aydınlıq, mavilik içində öz gələcək yolunu açıq-aydın görürdü. O hələ bu yolun başlanğıcında durmuşdu. O, yolun hansı döngə-dönümdən keçəcəyini, arzularının sərhəddinə çata biləcəyini bilmirdi. Fatma onun dolaşıq, qarışıq düşüncələrinə yenicə doğulub, lakin hələ pərvazlanıb uça bilməyən arzularına aydınlıq gətirmişdi. Cavabını tapa bilmədiyi ziddiyyətli suallarına cavab verdiyi üçün Gültəkin özündə bir yüngüllük tapıb, Fatmanın boynunu qucaqladı. Bu söhbətin başa vurulmasını heç istəmirdi. Gültəkin yeni suala keçmək istəyirdi ki, atası işdən qayıdıb hövlənək içəri girdi.

– Yığışmısanmı, Maxrux xanım? –Deyə əsəbiliklə dilləndi.

– Mən çoxdan hazıram, sizi gözləyirdik, Vahab qardaş! Mədinə bacı məscidə namaza gedib, qayıtmayıb hələ. Deyəsən, görüşə bilməyəcəyik.

Fatma nigarançılıqla dilləndi.

Qapıda ot yüklü arabanın görünməsi bütün söhbətlərə son qoydu. Fatmanın balaca bağlamasını arabada etibarlı yerdə yerləşdirib yola çıxdılar. Araba gözdən itənə qədər Gültəkin ağladı.

Bir az olardı ki, kənddən aralanmışdılar. Qabaqda dayanan maşını görəndə Fatma narahatlıq içində boylandı. Qabaqdakı ağaclığa çatmağa az qalmış motor işə düşdü. Gəlib düz arabanın qabağında dayandı. Maşından tökülüşənlər arabanı dövrəyə aldılar.

– Araba sənə darlıq eləyər, xanım, düş maşına əyləş! – Deyə amiranə səslə kimsə dilləndi.

Fatma bu səsi haradasa eşitmişdi. Amma yadına gətirə bilmirdi. Çünki üzünü görmürdü. Qaranlıqda özünü elə itirmişdi ki, nə baş verdiyini anlamırdı. Onu dartıb arabadan yerə saldılar. Əl

atıb çadrasını açmaq istəyəni itələyib bərk-bərk çadradan yapışdı.

– Siz nə haqla bunu edirsiniz? Naməhrəm adamın bunu etməyə haqqı yoxdur. Mən bacımgildə qonaq qalmışdım. İndi qayıdıram, bunun sizə nə dəxli var? – Hələ də maşından düşməyən biri çölə çıxdı dartıb onun üzünü açdı. Fatma heyrətdən donub qalmışdı. Karapet yırtıcı heyvan kimi qarşısında dayanmışdı. Yenə çürük dişlərini göstərib hırıldayırdı.

Mübarizələrdə keçən ömür

Aradan qanlı-qadalı, mərhumiyyət, təqiblər dolu neçə illər gəlib keçmişdi. Milli hökumətin dağılıb pərən-pərən düşmüş üzvləri yeni inqilabın sorağından fərəhlənmiş, Təbriz təşkilatının ətrafına toplaşmağa başlamışdılar. Mühacirətdəkilərin bəziləri də imkan tapıb Vətənə qayıtmışdılar. Ağa Qasım mübarizə təşkilatının varlığını hökumətə bildirmək, canına qorxu, təlaş salmaq məqsədilə əyalətlərdəki gizli fəaliyyət göstərən azadlıq carçılarına göstərişlər vermiş, xəbərdarlıqlar eləmişdi.

İki gün olardı ki, evə gecələməyə də gəlməyən Cavaddan çox nigaran idi. Gecə-gündüz onu nəzarət altında saxladıqlarını bilib evdən çölə çıxmamışdı. Bir növü, ev dustağına çevrilmişdi. Bu qarşıqlıqda başına bir iş gələcəyi qorxusu nə isə onu çox narahat etmişdi: «Gərək elə o gün Həmidlə danışıb uşaqların xeyir işini qurtaraydım. Dünyanın işini bilmək olmaz, – fikirləşə-fikirləşə Fatmanın əşyaları saxlanan sandığın qabağına gəlib dayanmışdı, Qasım ağa.

Cavadın evdə olmadığından istifadə eləyib Fatmayla o ki var xəyali söhbət eləmişdi. Təşkilatlara bir neçə məktub yazıb inanılmış adamlarla göndərdikdən sonra toy haqqında Həmidə və Cavada ürək sözlərini, könül arzularını bildirən məktub da hazırlamışdı. Fatmayla toy günü çəkdirdikləri şəkilə dönə-dönə baxıb ağlamışdı ağa Qasım:

– Sənsiz oğlumuza necə toy eləyim, Fatma? Bu izdivacdan bir ana kimi kam almağa sənin də haqqın var idi, əzizim. Apardığım mübarizə ilə bahəm sənin dərdin canımı üzüb, taqətimi əlimdən alıb, Fatma. Neçə dəfə özümü öldürmək istəmişəm. Mənə yadigar qoyub getdiyin oğlumuzun xatirinə bacarmamışam. Məni

qorxaq bilib günahlandırma, Fatma. Bu sağlamlığımla qorxuram bu arzu mənim də ürəyimdə məzara gedə. Bağışla, məni, Fatma, bağışla!

Qasım ağanın başı gicəllənib yıxılmışdı. Gecə yarı evə gizli gələn Cavadın dostları onu sandığın qabağında huşsuz halda tapıblar. Heç kəsin xəbəri olmadan onu Cavad işləyən klinikaya gizli yerləşdiriblər. İki günün içində ağa Qasım xeyli arıqlamış, soluxmuşdu. Qırıq-qırıq sayıqlamaqdan başqa heç bir söz deməmişdi. Ayılandan sonra da danışığındakı pərakəndəlik ağa Qasımın köhnə xəstəliyinin baş qaldırmasına əsas verirdi. Lakin Cavad bir az gözləməyi məsləhət görmüşdü. Hökumət xəfiyələrinin onun izinə düşəcəklərindən ehtiyatlandı.

Yığıncaqdan keçən bir neçə gün ərzində nə mirzə Mürsəl, nə də Karena ağa Qasımdan bir xəbər tuta bilməmişdilər. Zirzəmidə neçə gündür sorğu-suala tutulan Karapetdən də doğru-düzgün cavab almamışdı Karena. Mürsəli hər şeydən əvvəl maraqlandıran o idi ki, bu murdar elədiyi cinayətləri boynuna alsın. Əlini o alçağın qanına bulamasın. Onsuz da, ölümə məhkumdur deyə qəti qərarlaşdırmışdı. Karena bir neçə dəfə zirzəmidən çıxıb Mürsəldən məsləhət, göstərişlər alıb qayıtmışdı. O, icazəsiz heç bir iş görə bilmədiyi üçün çox əsəbləşirdi. Karenanın ürəyi sıxıldı. Neçə vaxtdır bu murdarla üz-üzə oturmaqdan lap iyrənirdi. Yornuq halda pilləkanla yuxarı çıxanda Mirzə Mürsəli üzü pəncərəyə tərəf durduğunu gördü. Karena dillənməmiş Mirzə Mürsəl ona sarı döndü:

– Mən gedəndən sonra sən o alçağı danışdırdınmı?

– Danışdırdım. Dönə-dönə sorğu-suala çəkdim.

– Nə deyir? Bəlkə, itkin düşən yoldaşlar haqqında bir məlumat ala bildik. Bu canavarı ovlamaqda böyük iş görmüsən, qızım. Bunu çoxdan eləmək lazım idi.

– O, elədiklərinin heç birini boynuna almır. Bibim Qumrunun və doğma bacısı Siranuşun dedikləri həqiqət olsa da, tutarlı dəlil, sübut olmasa, heç nə eləyə bilməyəcəyik, Mürsəl əmi. Siz onun nazı ilə çox oynayırsınız. Onun əli çoxunun qanına batıb. Sizin tərəddüd etməyiniz mənə qəribə gəlir.

Mürsəl xeyli fikrə getdi:

– Bizim ondan da vacib işlərimiz var, qızım. Bizə çətin də ol-

sa, bir yerə toplaşmalı, firqənin qarşıda duran işlərini sonuncu dəfə aydınlaşdırmalıyıq. Həmid ağanın əzan çəkdiyi məsciddə yığıncağımız baş tutmadı. Kənar şəhərlərdə olan təşkilat üzvləri bizim qərarımızı gözləyirlər. Xüsusən də, gənclər izinsiz, özbaşına heç bir iş görə bilmirlər. O gün Qasım ağanın iradlarını özün eşitdin.

– Niyə yığıncaq baş tutmadı, Mürsəl əmi? –Karena təəccüblə soruşdu.

– Deyirlər ağa Həmid nə səbəbdənsə məscidə gəlmir. Qasım Azərinin də əhvalı dəyişib. Oğlunun toyuna hazırlaşmaq istəyəndə birdən-birə köhnə xəstəliyi kəskinləşib. Cavadın dostları onu huşsuz halda tapıb. Müalicə üçün xəstəxanaya yerləşdiriblər. Xəstəxana da təhlükəlidir. Uşaqlar oprda nəzarətçi qoyublar. Əlaqəmiz kəsilib, qızım. İndi hər cür əlaqədən çəkinmək gərəkdi.

Toya hazırlıq işini eşitcək, Karenanın rəngi saraldı. Ürəyi şiddətlə döyünüb sanki yerindən çıxmaq istədi. Qolları süstləşib yanına düşdü. Beş il gizli-gizli sinəsini yandıran məhəbbətini dili ilə etiraf eləyib özünü pis vəziyyətdə qoysa da, Cavaddan məhəbbətinə cavab ala bilməmişdi. Nə etsin ki, Cavadı yenə ürəyindən çıxara bilmirdi. Cavadda ona qarşı soyuqluğun, laqeydliyin səbəbini bir şeydə görürdü Kəbirə. O da atası ilə tək yaşamaqda, anasının itgin düşməsindən çəkdiyi xiffətdən irəli gəldiyini güman eləyirdi. Bir yandan da başladıqları işin çətinliyi, məsuliyyəti onu bu nəticəyə gətirirdi. İndi ağa Qasımın toya hazırlaşması ona qəribə gəlirdi. Əgər onu nəzərdə tuturdularsa, bəs niyə ona bu haqda bir söz deməmişdilər? Yox, burada başqa bir iş var.

Karena Güllü haqqında heç xəyalında da düşünməmişdi. Cavad kimi ağıllı, savadlı bir oğlan yəqin özünə uyğun qızla evlənər. Başqa cür ola bilməz. Bu kim ola bilər deyə Karena özünə yer tapa bilmirdi.

Karenanın nitqi tutuldu, səsi elə bil batdı. Oturduğu yerdən ayağa qalxa bilmədi. Haçandan-haçana özünü toplayıb Mürsələ sual verdi.

– Bəs Cavad, Kərəm hardadılar, iki gündür görünmürlər, Mürsəl əmi?

– Cavanlarsız biz heç bir iş görə bilməzdik, Karena. Dağılıblar ölkənin hər tərəfinə. Bizim köhnə firqəçilərin hərəsi bir sayaq

şikəst olublar. İşi indi onlar görürlər. Atasının xəstəliyindən Cavad bərk sarsılıb deyirlər. Ağa Həmidlə onlar köhnə əqidə yoldaşı və ayrılmaz dostdular. Gecə yarıya yaxın ağa Qasımdan qısa bir məktub gətirmişdilər mənə.

– Nə deyirdi, bəlkə, mən gedim yanına? Cavad da burda yoxdur deyirsiniz.

Karena toydan doğru bir xəbər öyrənmək ümidilə dilləndi.

– Elə mən də səndən bunu xahiş edəcəkdim ki, məktubu gətirdilər, fikrimi dəyişdim.

– Məktubda nə yazır, ağa Qasım?

– Təşkilatın rəhbərliyini mənə, gənclərlə işi Cavad qayıdana qədər sənə həvalə eləyir.

– Bu mənim üçün böyük etimaddı, Mürsəl əmi. Amma burdakı işimi də qurtarmalıyam. İndi məsləhətin nədir? – Karena Mirzə Mürsəli sorğu-suala tutub mətləb üstünə gətirmək məqsədilə dalbadal suallar verirdi.

– Onu aldatmalıyıq, Karena.

– Necə?

– Çox sadə. Onunla sövdələşməli və lazımı kağıza qol çəkdirməliyik. Sonrasına baxarıq.

Karena heç nə başa düşmürdü. Mürsəl öz fikrini aydınlaşdırmaq üçün ayağa qalxdı. Kağız, qələm gətirib onun qabağına qoydu.

– Onun qarşısına iki şərt qoymalıyıq, Karena.

– Hansı şərtlərdi? O, hər şərtə razı olan əbləh deyil. Onu ki, yaxşı tanıyırsınız.

– Mən bilirəm ki, o, çox günahsızları güdaza verib. Sağdırlarsa, onların saxlandıqları yeri bizə desin. Bir də elədiyi cinayətləri təsdiqləyib qol çəksin.

– Sonra nə olsun? – Qız hövsələsizliklə soruşdu. – Biz də onun təhlükəsizliyini təmin edib sağ-salamat evinə buraxaq.

Siz doğrudan belə düşünürsünüz? Bu canavarı çölə buraxmaq olar, Mürsəl əmi? Canavara bilirsiniz niyə yırtıcı deyirlər? Tutduğu ovun birini yeməklə kifayətlənmək əvəzinə bir neçəsini boğub leş eləyir. Bax bu belə yırtıcılardandı. Onu əldən buraxmaq olmaz, mən buna qəti razı deyiləm.

Mürsəl güldü:

– Sən məni düz başa düşmədin, Karena. Mənim onunla öz haqq-hesabım var. Hələlik, şübhələrimi dilə gətirmirəm. Tam əmin olmayana qədər açıb danışmaq istəmirəm. Bəzi təzə məlumatlar almışam. Dostum Qasım Azərinin bu vəziyyətinə də səbəb bu alçaq olub. Sənin bilmədiyin çox şeylər var, qızım. Çox narahatam. Sabah Səltənətin sifarişinə əsasən bir neçə qadın yoldaşlar bura gələcəklər. Aralarında Maxrux Xəlili deyilən bir qadın da var. Mən onun haqqında çox az məlumata malikəm, Karena. Deyirlər uzun müddət həbsxanalarda yatıb. Həbsxanadan qaçıb bəzi yoldaşlarla Əfqanıstanda bir müddət gizli yaşayıb. İnqilab ərəfəsində gizli yolla vətənə qayıdıb. Çox prinsipial adamdır deyirlər. Təşkilatın Zəncan şöbəsinə başçılıq edir. Deyilənə görə mənimlə şəxsən görüşmək üçün təşrif gətirir. Mən buna inanmıram. Onun mənə bizim bilmədiyimiz nə sözü ola bilər?

– Niyə inanmırsınız?

– Bu qarışıqlıqda Zəncandan bura elə belə tapşırıqsız-filansız gəlmək ağılsızlıqdı. Hökumət hər tərəfdə nəzarəti gücləndirib. Bu işin içində nə isə bir əmma var. Sabahacan yaşayarıq görəri– Mürsəl dərindən köks ötürdü.– İndi keçək bu günkü məsələyə. Sən bu şərtlər yazılmış kağızı qoy o murdarın qabağına görək nə deyəcək. Qol çəkdirəndən sonra «təhlükəsizliyini» sən qoruyarsan.

Hər ikisi güldü. Kağızı-qələmi Karenaya verib yenidən geri döndü.

– Elə eləməliyik ki, iki nəfər şahidimiz olsun.

– Bu çox asandı. Biri mən, biri də Namaz. O ki çoxdan bu əbləhin işlərindən halıdı? Bizdən də az əzab çəkməyib. Biz əlimizi bu alçağın qanına bulayıb günaha bata bilmərik. Bu gün-sabah hakimiyyət dəyişikliyi olacaq. Xalq divanı onun kimilərinin layiqli cəzasını verəcək. Mən bəzi həqiqətləri öyrənmək istəyirəm. Zəncandan Maxrux Xəlilinin təşrif gətirməsi elə yerinə düşər. Qoy mənim gümanlarımı təsdiq eləyən bir adam da olsun. Sən gedəndən sonra dünən onunla özüm söhbət elədim. Mənə dedikləri düz çıxsa, sən burda qəribə işlərin şahidi olacaqsan. Hələlik bu kağız məsələsi ilə məşğul ol. Bizim ixtiyarımızda çox olsa, iki gün vaxt qalıb.

Karena:

– Heç nə başa düşmürəm, – deyə zirzəmiyə düşdü.

Mürsəl yaxın-uzaq təşkilat şöbələrinə məktub göndərmişdi. Maxrux Xəlili haqda doğru-düzgün məlumat öyrənmək istədiyi halda, indi işin bu çətin vaxtında onun özünün gəlməsi Mürsəli həm maraqlandırmış, həm də təəccübləndirmişdi. Qasım Azərinin başına gələn müsibətlərlə o hələ həbsxanada tanış olmuşdu. Amma bir dəfə də olsun ailəsi haqda soruşmamışdı. Sonra uzun müddət ayrı düşmüşdülər. İndi bu alçağın dedikləri onu dəhşətə gətirmişdi. Qasım ağanın xəstəliyi, bir tərəfdən də Həmid ağanın sonuncu yığıncağa gəlməməsi onu narahat eləyirdi. Kərəmin Tehrandan belə gec qayıtması şübhələrini artırırdı. Bir neçə gündən sonra başlanacaq işlərin belə dolaşması Mürsəlin ürəyini heç açmırdı. Qəzetlər Amerika səfirliyi işçilərinin girov götürüldüyündən, dünyanın aparıcı dövlətlərinin bu işə münasibətindən yazırdı. Bu gün-sabah Avropa dövlətlərinin birində mühacirətdə olan din xadiminin hakimiyyətə gələcəyi, əhali öz «xilaskarı»nı qarşılayacağı xəbərləri Mürsəli az qala dəli eləyirdi. Nə etməli, xalqın böyük əksəriyyəti onu qarşılayıb qolları üstündə taxta oturtmağa hazır idi. Hələ də dinin təsirindən qurtara bilməyən xalqın iradəsinə qarşı çıxmaq olmazdı. Hər halda bizim firqəmiz yenə xalqın önündə getməlidir, – deyə Mürsəl düşündüklərinə özü də cavab verirdi. Mürsəli maraqlandıran hər dəfə olduğu kimi İran səltənətinin sabiq dostu, müttəfiqi rusların laqeydliyi idi. Əfqanıstana qoşun yeridilib Aprel inqilabını xalqın öz içindən çıxan nankorların əlilə boğduğu kimi sabiq dostu Rza şahın taxttacını qorumaq üçün açıqdan-açığa heç nə eləmirdi. Xalqın qəzəbindən qorxsa da, Amerika kimi dünyaya meydan oxuyan bir dövlətin İrandan belə qovulması rusların ürəyincə idi. Əgər istəsəydi, Əfqanıstan torpağındakı hərbi texnikasını və canlı qüvvəsini asanlıqla dostunun köməyinə çatdıra bilərdi. Amma belə deyildi. İran inqilabının dinc yolla, xalqın istəyi ilə dindarların xeyrinə başa çatacağı təqdirdə dovşana qaç, tazıya tut deyən russovet hökuməti susur, işin aqibətini gözləyir, İran kimi sabiq müttəfiqini əlindən çıxartmaq istəmirdi. «İt itinən boğuşdu, yolçunun yolu avand oldu» -deyirdi. Pəhləvi sülaləsinin sona çatdığını gendən seyr edirdi. Çox sonralar bilinəcəkdi ki, 1946-cı ildə azərbaycanlı türklərinin qanını tökən Rza şah – Stalin – Mi-

koyan üçlüyünün qoyduqları ənənəyə heç bir xələl gəlməmişdi. 1828-ci ildə dədə malı kimi yarı böldükləri Azərbaycan torpaqları yenə bu iki tiranın əlindədi. O da bilinəcəkdi ki, sonralar onların arasındakı sövdələşmə Qarabağda erməni faşizminə rəvac verəcək, kin-küdurətləri Azərbaycanın əzəli torpağı olan Qarabağda təzədən azərbaycanlı türklərinə doğru yönələcək. Tarix boyu bu iki dövlətin sədaqətli quluna çevrilən ermənilərin «torpaq xəstəliyi»nin sağalmasının dərman-davasını iyirmi faiz Azərbaycan torpağının qoparılıb alınmasında görəcəklər. Din bayrağı altında hakimiyyətə gələn ayətollalar Rza şahdan heç bir cəhətcə fərqlənməyəcək, «Xocalı soyqırımı»na, Qarabağda qanı axıdılan din qardaşlarının taleyinə laqeyd qalacaqlar. Erməni faşizminə ruh verən, arada qazan qaynadan rus hökuməti iyirmi il Qarabağ düyününü açılmağa qoymayacaq. Ermənilərin zəncirindən tutub hər əsrdə bir neçə dəfə azəri türklərinin üstünə qısqırdacaq. İyirminci əsrin axırında yaranan Müstəqil Azərbaycan dövlətinin varlığı gözlərinə ox kimi batacaq.

Hələ çox sonralar baş verəcək hadisələr Mürsəli bir elə məşğul etməsə də, bu hadisələrin əsl kökü ona gün kimi aydın idi. O başa düşürdü ki, xalqı əvvəllərdə olduğu kimi mərhumiyyət içərisində boğulacaq. Həmid, Qasım ağa, Səltənət, Zülfüqar, Müzəffər , Etibar, Səxavət kimi bütün həyatını bu mübarizəyə sərf eləyən həmvətənlilərini yenə əliboş qalacaqlar. Özü haqda heç düşünməyə dəyməzdi. Ailəsini, uşağını, şəxsi həyatını qurban verdiyi haqq işi yenə düyünə düşəcək. Mürsəl bütün bu qarışıq, dumanlı fikirlər içində Karenanın dalınca zirzəmiyə düşdü. Eşidib bildiklərinə bir daha əmin olmaq, həqiqəti yerli-yataqlı öyrənmək istəyirdi. Mürsəl kağızda yazılanlara Karenanın mütləq nail olacağına inanırdı. Çünki cinayətkar nə qədər daşqəlbli olsa, bir o qədər də zəif, qorxaq, cəsarətsiz, çətinliyə dözümsüz olur. Karapet də belələrindən idi. Murdar vücudunun üstündə əsirdi. Biriki təhdid, danışıq, xoş vədlərdən sonra etdiyi cinayətləri boynuna alacaq. Odur ki, Mürsəl balaca kətili Karenadan alıb əli-ayağı bağlı, divar dibində ulaq kimi ağnayan Karapetin qabağında oturdu. Gözünü onun üzünə zilləyib sanki dağılan xanimanların, tökülən qanların, oğlunun, arvadının, Fatmanın özünün qırılan taleyinə cavab ver – demək istəyirdi. Onun zəhmli baxışları al-

tında Karapet bilmədi üzünü hansı yana çevirsin. Karena kağızı Mürsələ göstərib məmnunluqla gülümsədi. Karapet əvvəldən axıra qədər elədiyi cinayətləri: Nüsrəti, Zülfüqarı öldürdüyünü, Fatmanı neçə dəfə həbsxanaya saldırıb incidildiyini, sonuncu dəfə şəhvətxanadan qaçırıldığını nağıl elədikcə Mürsəlin əlləri əsir, canına od vurulur, bu vücudu bir şahıya dəyməyən murdarı elə buradaca əllərilə boğub öldürməkdən özünü güclə saxlayırdı. Karapet sonuncu dəfə Fatmanın başqa ad altında həbsxanadan qaçırılıb harasa aparıldığından xəbərsiz olduğunu dəfələrlə etiraf etsə də, Mürsəl onun bir sözünə də inanmırdı. Heç bir şahid, sübut olmadan necə inanaydı axı?

Sağlamlığı yol verməsə də, Mürsəl Karapetin qarnına-böyürlərinə çırpa-çırpa canını yandıran odu-alovu elə bil söndürmək istəyirdi. Ola bilməz ki, neçə illər onun dalınca ovçu kimi gəzəsən, axırda ondan asanlıqla əl çəkəsən.

– Düzünü deməsən, bu zirzəmidə siçan, siçovullara yem olacaqsan, alçaq!

– Mürsəl əmi, icazənizlə bu əbləhi qoy verim uşaqların əlinə, özləri bilirlər nə eləmək lazımdır. Başınızı niyə ağrıdırsınız? Bunun yeri ancaq cəhənnəmdir. Əvvəllər Ərdəbildə çoxunu güdaza verib, sonra Qasım Azərinin izinə düşüb Təbrizə köçüb. Beləsinin yaşamağa haqqı yoxdur. Harda bir cinayət var, bu alçağın orda barmağı var. Öyrəndiyimə görə Sofiyan kəndində Samvel adlı biri var. Onun əlilə də çox işlər görüb bu murdar. Sonuncu dəfə onun əlilə Fatma Azərini tutub hökumət divanına verib.Onunla da haqq-hesab çəkməliyik.

– Yox Karena, mənim məqsədim başqadır. Əvvəla, çox yaxşı iş görmüsünüz ki, vaxtında bunu yaxalamısınız. Yoxsa, bu bir neçə gün ərzində gör neçəmizi güdaza verə bilərdi. Ağa Qasım narazı olsa da, mən işinizdən razıyam. Bu kağızla o elə bilir canını qurtarıb zəhər yayan ilan kimi insanların arasına yenə qayıdacaq. Onun söykəndiyi xanədan yıxılacaq. Şahlıq rejimi birdəfəlik yox olacaq. Bələləri törətdikləri cinayətlər üçün cavab verəcəklər.

– Siz elə düşünürsüz ki, molla hakimiyyətində bələləri olmayacaq? Yox, Mürsəl əmi, qurluşun forması dəyişəcək, mahiyyət isə eyni qalacaq.

Pəncərənin kiçik gözlüyündən zəif işıq içəri süzülür, ara –sıra qaranlıq zirzəmini işıqlandırırdı. Axşamdan bir az keçmiş nəzərdə tutulan yığıncağı xatırlayıb Mürsəl tələsik qaranlıq dar pilləkana sarı getmək istəyirdi ki, Karapet zarıdı:

– Ara, a kibrə, san da kişisən, man da, bir ayaq saxla, eli. Bu kəmfürsət qızı məni ayaqyoluna da getməyə qoymur. Axı belə olmaz, massab haqqı. Az qalır özümü isladam. İnsap, murvat da lazımdı insanda.

Mürsəli gülmək tutdu. Geri dönüb istehzalı bir səslə dilləndi.

– Mənim kişi olmağıma şübhə eləmirəm, amma sənin kişiliyinə inanmıram. Əynindəki paltara görə özünə kişi deyirsənsə, çox yanılırsan, Karapet kirvə. Sizlər kişiliyin nə demək olduğunu bilməzsiniz.

–Kişisənsə niyə anama o zülmləri verirdin? Doğma bacının evini yıxırdın?. Burda it dilini işə salmısan? Babam Siracın yeganə çırağını söndürdün. Kişilikdən danışmağa sənin haqqın yoxdur, tülkü!

– A kibrə, adını da bilmirəm, siz nə dediniz, mən razı oldum. Bundan belə bir də sizə dəyib-dolaşsam, sorğu-sualsız boynumu vurarsınız. İndi icazənizlə məni evimə buraxın gedim. Axı belə olmaz, man da yaşlı adamam. Evim, ailəm var. Doğma qızım mənə qənim kəsilib, barı sənin insapın olsun.

– Mən sənin qızın deyiləm, alçaq. Atamı öldürüb mənə qızım deyirsən? Sənin nə ailən, nə də evin var. Elə burada it kimi gəbərəcəksən. Mən buna bütün həyatımı sərf eləyəcəm.

Sonra üzünü Namaza sarı çevirib:

– Mən yorulmuşam, Namaz qardaş, bu ilandan göz-qulaq ol, bir az dincimi alım. Gecə bununla işimiz çox olacaq. Amma elə elə ki, səni çalmasın, – güldü.

Namaz zirzəmidəki küləş bağlamasının birini altına qoyub bir küncdə yerini rahatlaya-rahatlaya:

– Narahat olma, Karena xanım, mən çox ayığam, hələ bu alçağın bir işi də var, onu sübut elətdirməsəm, dincəlməyəcəm.

Namaz Fatmanın əhvalatını, özünün necə tutulub işgəncə verildiyini nəzərdə tuturdu. Fatmanı Mürsəlin evindən Sofiyan kəndinə apardıqdan sonra tutulub döyülərkən iki dişinin töküldüyünü, qolunun sındırıldığını yadından çıxarmamışdı. Xozeyi-

nin oğlanları olmasaydı, indi o, burada olmazdı. Onlar əzəldən axıra kimi ona sadiq, inanılmış adam kimi baxır, bu «yazıq, kimsəsiz» adamı qoruyurdular. Mürsəlin qardaşı oğlu kimi firqə üzvləri arasında Namazın böyük hörməti var idi. Onun da arzusu Fatma barədə bir şad xəbər eşitmək idi. Lakin o gündən indiyəcən Fatma elə bil yerə batıb göyə çıxmışdı. Aradan neçə illər ötsə də, Namaz bu məsələni təzələmiş, özünə bir dərd eləmişdi. Ancaq bunun səbəbi Namaza aydın olmadığına görə susurdu. Bir neçə gün əvvəl ona gətirilən bir məktubdan sonra Mürsəlin ovqatında əmələ gələn dəyişikliyi heç cürə başa düşə bilmirdi, Namaz. Amma təxminən bunun Fatma ilə əlaqədar olduğuna da tam əmin deyildi. Bəs əlimyandıda Qasım ağanı niyə gəzirdi? Ağa Qasımın xəstəliyi, Cavadın yoxluğu onu niyə belə narahat eləyirdi? Namaz öz-özünə sual verə-verə divara söykənən kimi huşa getdi. Yuxu duman kimi üstünə çöküb onu tərpənməyə qoymadı.

Karapet bunu gözləyirmiş kimi bayaqdan açıq qalan qapıdan xeyli boylandı. Bir hənir-zad gəlmirdi. Əllərini çoxdan açmışdı, Karapet. Namazın silahını götürmək üçün əyildi. Namaz bərk yuxuya getmişdi. Karapet Namazı çoxdan tanımışdı. Ayağından açdığı kəndiri Namazın boğazına dolayıb bərk sıxdı. Namaz xeyli çapalayıb taqətsiz halda döşəməyə yıxılandan sonra arxayınlıqla zirzəmidən çıxdı. Bir neçə pilləkan qalxmışdı ki, pilləkənın başında onu qarşılayan Mürsəli görüb kəkələdi:

– Kibrə, ayaqyolu axtarırdım, massab haqqı.

Mürsəl belə işlərdən çox çıxmışdı. Tüfəngin qundağı ilə gicgahından elə vurdu ki, Karapet yuvarlanıb tappıltı ilə gəldiyi zirzəmiyə düşdü. Tez Namazın boynuna dolanan ipi açıb üstünə əyildi. Namazın nəfəsi gəlmirdi. Yerdən qaldırmağa da gücü çatmırdı. Şikəst ayağı buna imkan vermirdi. Karenanı oyatmağa da ürəyi gəlmirdi. Bir az aralıdakı su qabını götürüb üzünə su çilədi. Namaz qımıldanmadı da. Mürsəl onun sinəsindən neçə dəfə gücü çatdıqca basdı. Birtəhər dizini yerə söykəyib nəfəs verdi. Namaz quruda çabalayan balıq kimi çalxalandı. Mürsəli az qala ağlamaq tutmuşdu. Bu neçə illər ərzində oğlu kimi onun sağ əlinə çevrilən adamı itirmək onu çox ağır gəlirdi. Mürsəl sevindiyindən çığırmaq istəyirdi. Başını qaldırıb, Namazı sinəsinə

sıxdı.

– Ölmək vaxtı deyil, qardaş, bu nə oyundu, başıma gətirirsən? İndi hər biriniz mənə əvvəlkindən yüz qat artıq lazımsınız. Necə oldu ki, ehtiyatsızlıq elədin?

– Məndə günah yoxdur, günah yuxudadır, Mürsəl dayı.

İki gecədir onun yornuq, yuxusuz olduğunu Mürsəl indicə xatırlayıb əlini dizinə çırpdı.

– Necə olub ki, mən bunu unutmuşam. Səni uşaqların biri əvəz eləyə bilərdi axı?

– Sizdə günah yoxdur, Mürsəl dayı. Bu işin iştirakçısı və şahidi olduğum üçün yerimi heç kəsə vermək istəmirəm. Görünür, mən də yaşdaşmışam. Yuxu mənə üstün gəlib. Bu dişi qarnında canavar xislətindən hələ əl çəkə bilməyib. Onu da bilməyib ki, zirzəminin yolu sənin otağının içindən keçir. Yoxsa indi o dünyada olardım.

Sizin və təşkilatın göstərişini gözləyirəm. Onu elə yerdə cəhənnəmə göndərəcəm ki, izi-tozu da tapılmasın. Bir şeyə təəssüflənirəm ki, onun murdar cəsədi bu torpağa zəhər yayacaq.

Karapet yalvarmaq istəyəndə Mürsəl onu itələyib pilləkənlə yuxarı qalxdı. O heç kəsin ölümündə günahkar olmamışdı və əlini də nahaq qana batırmamışdı. Bu günkü qədər də qəti və israrlı olmamışdı. Namazın üzünə xeyli baxıb öz-özünə qəti qərar verdi: – Yığıncağın icazəsi ilə sabahdan ona bir çarə qılmaq lazımdı. Elə bildim bu alçaq tövbə eləyib peşimançılıq çəkəcək. Görünür, o erməni xislətini heç vaxt dəyişməyəcək. Biz bunu çox vaxt unuduruq. Sən demə, «qozbeli qəbir düzəldər» deyənlər düz buyurubmuşlar. Bir işi vərdiş eləyənə nə tövbə? Heç bir şərtsiz, filansız elədiyi cinayətlərin cavabını verməlidir. Onda həm Tanrı, həm də vicdanımız qarşısında borcumuzu ödəmiş olarıq.

* * *

Gecə yenə zülmətini şəhərin üstünə qara duman kimi yaymışdı. Göz-gözü görmür, çisgin yağış qaranlığa qarışıb ürəksıxıcı bir ovqat yaratmışdı. Mürsəl qolunu çarpazlayıb pəncərədən çölə baxsa da, heç nə görə bilmirdi. Bu axşam yığıncağa toplaşmaq onlara qismət olmamışdı. Ölkənin hər tərəfini inqilab dalğası bürümüşdü. Din xadimlərinin biri tribunadan düşür, biri qalxır-

dı. Mürsəl dünənki nümayişdə çıxış edən gənc haqqında eşidib qürur hissi keçirmişdi. Danışanın ya Cavad, ya da Kərəmin olduğuna heç bir şübhəsi qalmamışdı. Lakin küçə mitinqlərində ən çox molla, müctəhidlər fəaliyyət göstərir, camaatı qızışdırırdılar.

– Cəmaət, mən böyük Allahın adından üzümü sizə tutub deyirəm ki, Allah-taalaya qarşı duran, İslam bayrağı altına gəlməyən kim olursa–olsun, ona qarşı cahad eləmək bütün müsəlmanların borcudur. İslamın qoyduğu qanunlara riayət eləməyən əcnəbiləri kafir hesab eləyirəm. İslam və din yolunda qılınc vuran müsəlmanları belə kafirlərin əlindən xilas eləməyi Allah adamı kimi özümə də, sizə də borc bilirəm. Əcnəbilər bizim dinimizə, dilimizə qarşı çıxırlar. Bəzən Allah evinə də soxulub müqəddəs, pak məscidlərimizi murdarlayırlar. Onları nəinki Allah evindən, ölkədən çıxarıb çoxdan arzumuza çatmalıydıq. Otuz-otuz beş il əvvəl hakimiyyətə gələn demokratların balaları, onlardan tökülüb qalan şürəvipərəstlər yenə azadlıq deyə küçələrə çıxırlar. Ara qarışdıranlara bu hakimiyyətdə yer vermək olmaz, ay mömin bəndələr!

– Biz bu müqəddəs iş üçün peyğəmbərimizin yolunda ölməyə hazırıq! Səslər eşidildi. Bir başqası onu əvəz elədi. Bu cavan oğlanı eşitmək üçün qəlbi bir taxtın üstünə qaldırdılar. Boyu elə balaca idi ki, izdihamın hansı yerindən baxsan, onun quş başına bənzər başından başqa heç nə görmək olmazdı. Danışan zəhlətökən cır səslə moizəsinə başlamamışdan əvvəl bir neçə dəfə öskürdü. Sonra qaz boğazı kimi uzun boğazını artlayıb salavat çevirdi. «Bismillah ərrəhmanir rəhim» – deyə sözə başladı:

– Əziz həmvətənlərim! Ağanın dediklərini hamınız eşitdiniz. Bir müsəlman olmaqla, biz Həzrəti Əli Əleyhsalamın, İmam Rzanın yolunda cahada hazırıq.

Camaatın arasına bir çaxnaşma düşdü. Peyğəmbərin, imamların adını eşitcək, kütlə sanki lərzəyə gəldi. Ağlaşmaq səsi mitinqi bürüdü. Başı əmməmalı birisi camaatı sakitləşdirmək üçün əlini qaldırdı. Danışan natiq sözünə davam elədi. O, tutu quşu kimi Allah, Peyğəmbər adından danışdıqca din fanatiklərinin ehtiraslarını bir az da coşdururdu. Cavan oğlan dediklərini sanki bir ay bundan qabaq yazıb əzbərləmişdi.

Allah eşqinə! Peyğəmbərimiz eşqinə sözləri yığıncaqda sanki

bomba kimi partladı. Allahu Əkbər, Allahu Əkbər sədaları göyə ucaldı.

Natiq sözünə davam elədi:

– Əziz həmvətənlər, islamın pak bəndələri! Bu gün-sabah Avropadan qayıdan dini liderimizi bax bu islam bayrağı altında qarşılamaq üçün hazırlaşın! Bu müqəddəs torpaqda nə ruslardan dərs alanlara, nə də Amerika, ingilis kafirlərinə yer olmamalıdır. Bir dəfə şürəvilərə meydan verdik. Milli hökumət qurdular. Dilimiz, tariximiz, muxtariyyətimiz deyənlər ölkədə ikitirəlik yaratdılar. İran torpağında milli muxtariyyət yaratmaq xülyasına düşdü azərbaycan türkləri. Torpağımızı parçalayıb müqəddəs dinimizə haram qatdılar. Bildiyiniz kimi axırları çox faciəli qurtardı. Qacarlardan qırılıb qalanlar çoban dillərində məktəblər açdılar. Qızları başıaçıq, üzüaçıq məktəblərə göndərdilər. Dinimizi, ləyaqətimizi alçaltdılar. Papağımızı yerə vurub namusumuza, qeyrətimizə də əl atdılar.

Yenə yerdən səslər gəldi:

– Kafirlər, kafirlər! Demokratlara ölüm! Onları öldürənə heç bir cəza yoxdur, ay müsəlmanlar. Halal torpağımızdan heç kəsə pay verməyə razı olmarıq. Onlara ən ağır cəza Allahın lənətidir. Biz islam övladları buna yol vermərik. Əcnəbilərə söykənib ölkəni bərbad eləyən Rza şah hökuməti bizə lazım deyil. İranda İslam Respublikası qurmağın vaxtı çatıb, qardaşlar! Tarix adama belə fürsəti həmişə vermir. Demokratya deyənləri bir də baş qaldırmağa qoymayın, ay islam övladları!

Bu əsnada bir gənc mitinqi yara-yara irəli can atdı. Elə bildilər ki, o da din, Allah adından uzun-uzadı danışacaq, hamını cahada çağıracaq. Yox, belə olmadı. Cavan oğlan elə bil quş kimi uçub kürsüyə çatdı. Sözə başlamazdan əvvəl əl atıb oğlanı yerə saldı.

– Sənin də, səni öyrədənin də deyə tələsə-tələsə sözünü deməkdən çəkinmədi.

– Təbriz əhli, bu Allah, din adından danışanlara qulaq asıb qızıl kimi vaxtınızı aparmayın. Əvvəla, bu İran dediyimiz məmləkət əzəli Azərbaycan torpaqları üstündə bərqərar olub, bunu bilin! Şeyx oğlu Şah İsmayılın qurduğu böyük Azərbaycan dövlətində Azərbaycan dili dövlət dili olub. Çoban dili adlandırılan dil

yenə şah yerini alacaq. İkincisi, bu batində bir, zahirdə başqa cür danışan mollaların dilinə, fitvasına uymayın. Rza şah nəslinin sizə verə bilmədiyi azadlığı bu mollalar da verməyəcəklər. Din əlqolunuzu daha möhkəm bağlayacaq. Qızlarımız, analarımız çadra altında çürüyəcəklər. Bizim məqsədimiz azad, xoşbəxt bir cəmiyyət qurmaq olmalıdır, ay mənim həmvətənlərim! Torpağımızdan, xalqımızdan oğurlanan nə varsa, Tehran hökuməti özümüzə qaytarmalıdır. Əgər belə eləsələr, onlara nəinki torpaq, heç hava, su da qalmaz. Gəlin Seyid Pişəvarinin qurduğu milli hökumətimizin yenidən bərpasına çalışaq. Mənim cəfakeş, əli qabarlı, qarnı ac xalqım! Bu hakimiyyətin başınıza açdığı müsibətləri nə tez unutdunuz, Təbriz əhli? Yox, biz siz mollaların dediyinə uymayacağıq. Biz ayrı yolla gedəcəyik. Məni başa düşənləri bu yolda cahada çağırıram. Mən sizi Milli Azərbaycan bayrağı altına çağırıram. Dar ağaclarından asılan atababalarınızın, odda yanan körpələrinizin, zindanlarda çürüyənlərinizin ruhu bunu deyir. Hələ də küçələrdən, xiyabanlardan silinməyən nahaq qanlar bunu sizə deyir, təbrizlilər!

Hər tərəfdən natiqə təhqiramiz sözlər yağdırır, kimisi də kürsüyə qalxmaq üçün can atırdı. Nümayişdəkilər bir-birinə vurulmuşdu. Danışan yumruğunu başı üstünə qaldırıb ulu Şəhriyarın qadağan olunmuş, hələ heç kəsin dilinə gətirə bilmədiyi şeirlərindən misraları oxumağa da vaxt tapdı:

«Fədakarlıq günüdür, qalx, anam Azərbaycan! Əbədiyyət beşiyi, ölümsüz bir cahansan! ...»

Camaatı yara-yara irəliləyib gənc oğlanı tutub aparmaq istəyən jandarmın yolunu bir dəstə adam kəsdi. Oğlanı qaldırıb yenidən tribunaya çıxartdılar.

– De sözünü, qardaş, axırıcan de! Canımızdan ağrı-acını çıxart, gözünə dönüm! – Deyənlərin sayı get-gedə artırdı.

Gəncin ikinci dəfə daha qüvvətli səslə danışığı mollaları daha da qəzəbləndirdi.

Mitinqə gizli gələn Fatmanın içində elə bil nə isə qırılıb-töküldü. Bu şeiri bir dəfə Qasımın dilindən eşitdiyi yadına düşdü. Gənc oğlanın çıxışı onun canını bu qədər təlaşa gətirdiyinin səbəbini özü də bilmədi. Gəncin üstünə yağış kimi səpələnən daşlar elə bil onun ürəyinə dəyirdi. Nə olub mənə? – Deyə Fatma özünü

ələ almağa çalışdı.

– O kafiri ordan yerə salın, islam övladları. Bu xalis kafir balasıdır, vurun onu!

Ətrafdakılar qışqırdılar. İzdiham hərəkətə gəldi.

Kütlə içərisindən danışana sarı daş, ağac parçası, ayaqqabı tayı yağış kimi yağdı. Alnından axan qan üzünü-yaxasını islatsa da, cavan oğlan danışığına ara vermədi. Əl-ələ tutuşub onu əhatə edənlərin sayı get-gedə artırdı. Jandarm nə qədər canfəşanlıq edirdisə, getdikcə sıxlaşan kütlə onları tribunaya yaxın buraxmırdı. Bir neçə yerdə göyə atılan güllə də kömək eləmirdi. Təbrizdə az-çox onu tanıyanlar var idi. Cavad lərzəyə gələn insan selini nəzərdən keçirdi. Başı gicəllənir, gözü qaralır, ağzına dolan qanı axdıqca qatı duman kimi gözünün qabağına sanki pərdə çəkilir, meydandakı insanlar ona kiçik uşaqlar kimi görünürdü. O yıxılmamaq üçün gücünü toplayıb bir də ayağa qalxdı. Yaxınlığında duran Müzəffər arxadan Cavadı qucaqladı.

– Özünü ələ al, qardaş, belə fürsət bir də ələ düşməyəcək. Bu din dəllallarının cavabını necə lazımdır ver. Ağa Həmidin məscidindəki mitinqi hökumətin tulaları mühasirəyə alıb, ora tələsməliyik.

Cavadın ayaq üstə durmağa gücü, taqəti qalmamışdı. Bir də özünü toplayıb ayağa qalxdı. Var gücilə insan dənizinə sarı dönüb qışqırdı:

– Bəsdir, fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!
Şəhriyarın ürəyi də, səninki tək yaralıdır,
Azadlıqdır, mənə məlhəm, sənə dərman, Azərbaycan…!

Xalq kütləsi nəhr kimi yırğalandı, «yaşa, eşq olsun!» sözləri dildə-ağızda gəzdi. «Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan»– misrası mitinqi bürüdü. Hamı bir ağızdan oxuya-oxuya kürsüyə sarı irəlilədi. Camaatı dağıtmaq çətin idi. Jandarmlar dəridən-qabıqdan çıxır, heç nə eləyə bilmirdilər.

– Oğlanda ürəyə bax, qanını lap ağzına alıb, –deyənlər də oldu.

Bir qeyrisi:

– Bu ki bizim doktordu. Allah qorusun, ciyərli adamdı. Biz səninləyik, qardaş, – deyə qəlbidən qışqırdı.

Bu əsnada uzun əbası əl-ayağına dolaşan molla Möhsün ağa sürünə-sürünə özünü kürsüyə çatdırdı. Uzun-uzadı bir surə oxuyub salavat çevirdi.

– A kişilər, havaxtacan bu kafirin moüzəsinə qulaq asacaqsınız? Niyə kafirin cavabını vermirsiniz? Bilirsiniz bu kimdi? Bilmirsiniz qoyun sizə tanıdım. Şürəvi Qasım ağanın oğludur, bu kafir. Qurdun balası da qurd olar. Demokrat ata-anasının qisasını almaq istəyir. Belə ara qızışdıranlara bizim içimizdə yer yoxdur. Hələ Ərdəbildə yaşayanda o dinsiz atasını Allah yoluna çağırdım, sözümə baxmadı. İndi də burda oğlu peyda olub. Oğlu da atasının yolu ilə gedir. Böyük islamın bu yaşıl bayrağı altına sizi çağırıram. Kafirlərin İran torpağını murdarlamasına yol verməyin!

Hər yandan:

Allahu Əkbər, Allahu Əkbər!–Nidaları göyə qalxdı. Camaat hərəkətə gəldi. Yumruqlar havada oynadı.

Demokrat Qasım sözü Fatmanın qulağında bomba kimi partladı. Qulaqları uğuldadı,başı gicəlləndi. Canından sanki isti bir cərəyan keçdi. Bütün vücudunu lərzəyə gətirdi. Olmaya bu Qasım deyilən illərlə dincliyimi əlimdən alan, gecəli- gündüzlü həsrətini çəkdiyim mənim ərimdi? Yox, bu ola bilməz. Qasım sağdırsa, öz yerini heç kəsə verməz. Bu odlu-alovlu çıxış eləyən cavan oğlana bəs niyə əvvəldən diqqət yetirmədim? Demokrat balası deyiləndə ağlıma başqa fikir gəlmədi?

Dumanlı fikirlər içində Fatma özünü irəli atıb sinəsi ilə cavan oğlanı qorumaq, bu mənim balamdı demək həvəsinə düşdü. Bu mümkün deyildi. Üzü-gözü qana boyanan cavanın tanınmalısı qalmamışdı.

Fatmanın alnını soyuq tər basdı. Camaatı yara-yara ona sarı bir az da irəlilədi. Sinəsinə dəyən dirsəkdən, başına çırpılan yumruqdan dizləri əsdi. Qəhər boğazını yandırdı. İçindən odlu bir fəryad qopdu. İnsan dənizi içində əlindən heç nə gəlmədi. Fatma özünü toplayıb fikrini bir yerə yığanda:

– Kafirə ölüm! –Deyənlərin sayı artmışdı. Hər nə desən, baş verə bilərdi. Molla Möhsün çoxdan yanıqlı olan ürəyini Təbriz

Demokrat Firqəsinin ünvanına boşaldıb hökumət əleyhinə kəskin sözlər deməyi də unutmadı. O, çox qoca olduğu üçün səsi boğazından güclə çıxır, onu ancaq yaxında duranlar eşidirdi.

– Ey Allahın mömin bəndələri, bizim məmləkətimizi bir vaxt şürəvilərin, sonra da ingilis, amerika tapdağına verən Rza şah səltənətindən bizə hökumət olmaz. Biz möminlər öz hökumətimizi qurub məmləkətdə qayda-qanun yaratmalıyıq. Dinsizləri, Allah evinə qarşı üsyan qaldıranları dinə gətirməliyik. İslam övladları, bu bayraq altında mən də sizi cahada çağırıram!

Hər tərəfdən:

– Ağa, imanın kamil, – deyə səslər ucaldı. – Peyğəmbərimiz Məhəmməd Əlehisalamın yolunda biz sizinləyik. Dinsiz mütrüflərə ölüm! İslam bayrağı altına toplaşın, müsəlman qardaşlar! – kütlə qışqırır, meydanda ağız deyəni qulaq eşitmirdi. Hökumət başını itirmişdi. Yuxarılarda, hətta jandarmların arasında da, böyük əksəriyyət mollaların ardınca gedir, İran İslam Respublikası yaratmaq üçün əllərindən gələni əsirgəmirdilər. Odur ki, mitinqdə söylənilən nitqlər, fikir və mülahizələrə qarşı ölçü götürmək üçün çox da canı- dildən çalışmırdılar. Amma bu gün Cavadı tutub din adından cəzalandırmaq hökumətdən çox mollaların arzusu idi və belə də olacaqdı. Heç kəs buna mane ola bilməyəcəkdi. Müzəffər və dostları bu qarışıqlıqdan Cavadı qurtarmaq üçün, bir çarə tapa bilmirdilər. Ona bir şey olsa, onsuz da ağır xəstə olan ağa Qasım ölə bilərdi. Necə olur-olsun, bir yol tapıb onu burdan çıxarmaq lazımdır, – deyə Müzəffər tələş keçirirdi. Bir tərəfdən də onun yaralanması buna çox mane olurdu. Başı, yaxası qanla islanan Cavad hara dönürdüsə, onu tanıyıb vurur, tutub jandarmın əlinə verməyə çalışırdı möminlər. İşin axırını gözləyib, onu qarabaqara izləyən Güllü cəld çadrasını açıb Cavadın başına atdı. Müzəffər bunu gözləmirdi. Amma başqa çarəsi qalmamışdı. Güllünü də güdaza verməyə razı ola bilməzdi. Bəs nə eləsin? Cavadı qarışıqlıqdan istifadə edib aradan çıxarmaq lazım idi.

– Nə edirsən, Güllü, səni daşqalaq eləyərlər, –Müzəffər heyrətlə dilləndi:

– Cavada bir şey olacaqsa, ona da hazıram. Çıxart onu bu xarabadan, Müzəffər. Mən sarıdan narahat qalmayın. Nə olacaq,

olsun. Qaradan da artıq rəng yoxdur ki...– Sonra cəld sıçrayıb molla Möhsünün əbasından dartıb yerə saldı. Güllü taxtın üstünə qalxanda kimsə çadrasını açıb onun çiyninə tulladı. Güllü məmnunluqla gülümsədi. Çiynindən sallanan çadranın bir ucunu çəkib başına örtəndə şəfqətlə parıldayan bir cüt yaşla dolu gözlə qarşılaşdı. Güllü bir an duruxdu. Bu anası yaşda qadının cəsarəti onu təsirləndirmişdi. Bayaqdan Cavad danışdıqca gözündən yaş süzülən bu qadının baxışlarında, münasibətində bir yaxınlıq, doğmalıq hiss elədi Güllü. Bayaqdan çadra altında gizlənən qara, iri, bir qədər də qəmgin gözlərdə nə qədər cazibə, nə qədər şəfqət var idi, İlahi. O gözlər Güllünü niyə bu qədər düşündürdü, özü də bilmədi. Qayıdıb qadına sarı bir də baxdı. Başı açıq, ətrafındakıların təhqirlərinə əhəmiyyət verməyən qadın azacıq gülümsəyib dilləndi:

– Qorxma, qızım, sözünü de, cəsarətli ol! Sən olmasaydın, ora mən çıxacaqdım.

Onun sözünə bir neçə qadın, qız da qüvvət verdi. Güllü çaşıb qalmışdı. Bir başqası da öz çadrasını açıb yaşlı qadına tullayanda Güllü rahatlıqla özünü ələ aldı. Yerdən ünvanına yağdırılan söyüşlər, hədə-qorxular sanki ona deyilmirdi. Güllünün fikri Cavadın yanında idi. Onun xilas olduğuna əmin olandan sonra dilləndi:

– Əziz qardaşlar, görürəm ki, mollaların din, Allah adından dediyi neçə əsrlərdi çeynənmiş sözlər siz binəvaları hələ də ağladır. Bilmirəm, tanıyırsınız, ya yox, belə bir şairimiz var, Mirzə Ələkbər Sabir. Yerlərdən tək-tək də olsa, cürət edib tanıyırıq, tanıyırıq,- deyənlər oldu. Sabir mirzə deyib ki, ağladıqca kişi qeyrətsiz olur. Qəzəb odunu, nifrəti heç çayları da bağlasan söndürməz. Buna görə də insanları peyğəmbərimiz, dinimiz adından ağladıb azadlığını, milli düşüncəsini əlindən alıb qəzəbini söndürənlər xalqın ən böyük düşmənləridir. Atalar yaxşı deyib:

«Ala qarğa suda çimsə də, qaz olmaz!». Bu molla tayfası var ha, başları dağ boyda olsa, boyunları qıl kimi olar. Tehran hökumətinin himayəsində dolanıb, indi ona dönük çıxan bu mollalar, sizi İslam bayrağı altında din birliyinə çağırıb əsl məqsədimizdən uzaqlaşdırırlar. Bizim əxlaqımız, mədəniyyətimiz İslam dəyərləri üstündə qurulub. Buna heç birimizin şübhəsi yoxdur.

Biz Allahımıza da, peyğənbərimizə də sadiqiq. Bunu biz müsəlmanlara bir daha xatırlatmaq lazım deyil. Onların məqsədi gün kimi aydındır. Biz din birliyinə deyil, türk birliyinə çalışmalıyıq, qardaşlar! Camaat, kimliyimizi başa düşüb, ulularımızın, ərənlərimizin elədikləri səhvləri təkrar etməməliyik. Nəzər salsaq, Nadir şahdan bu yana torpaqlarımız bu yolla parçalanıb. Şimala, cənuba bölünüb. Türk əsilli, lakin fars düşüncəli Nadir şah da məzhəb, din birliyi deyə-deyə torpaqlarımızdan yadlara pay verib, dövlətin farslaşmasına, torpağımızın bölünməsinə gətirib çıxartdı.

Haşiyə: **Güllü hələ sonralar başa düşüb, biləcəkdi ki Nadir şahın taxt-tac ehtirası və ya şəxsi münaqişə zəmnində Gəncə bəylərbəyinə vurduğu ağır zərbənin ağrısını azərbaycanlı türkləri yüz yetmiş ildir çəkirlər. Onun Qarabağla, Göyçə arasındakı yerləşən müqəddəs Alban kilsələrinin yerləşdiyi əzəli türk torpaqlarını XVIII əsrə qədər Qafqazda bir qarış torpağı olmayan ermənilərə hədiyyə etməsinin ağır nəticələri indi göz qabağındadır. O, İslam ümməti düşüncəsinə söykənərək Səfəvilərin dövlətçiliyinə ciddi xələl gətirdi. Xalqı Səfəvi təəssübkeşliyi düşüncəsindən ayrı salmaq məqsədi güdürdü. Qazax və Borçalı mahallarının Gəncə bəylərbəyindən qoparılması, erməni məliklərinə verilən imtiyazlar, Gürcüstan çarlığının güclənməsinə rəvac verdi. Türk soylu Nadir şahın belə səhvləri nəticəsində Gürcüstan çarlığı və erməni məlikləri əl-qol açıb sonralar və indilər də torpaq iddialarına düşdülər. Səfəvi dövləti vaxtında böyük gücə və nüfuza malik olan Gəncə bəylərbəyliyi Nadir şah Əfşarın yalnış siyasəti nəticəsində parçalanıb kiçildi. Qarabağ xanlığı, erməni məlikliyi, Şəmşəddin, Qazax mahalı, Borçalı, Mil-Muğan elatları kimi kiçik xanlıqlara bölündü.**

Güllü ölkəsinin şimalında qurulan müstəqil, azad Azərbaycan dövlətinin mövcudluğu vaxtı bütün bunları öyrənə biləcəkdi. Onu da biləcəkdi ki, bu parçalama, İran dövlətindən qopub- ayrılma bir növü müsbət hadisə idi. Çox təəssüf ki, bu ayrılma birləşmə ilə nəticələnmədi. Nəticədə erməni faşizmi Göyçə, Zəngəzur əraziləri kimi, Qarabağ – əzəli türk torpağını da işğal elədi. Ermənilər növbəti soyqırımı Qarabağ torpağında törətdilər. Güllü hələlik bunları o çıxdığı taxtdan deyə bilməzdi. Bütün bunları yaxın tariximizin boynuna qoyaq. Başqa yol yoxdur.

Güllü sözünə davam elədi. Güllünün məqsədi vaxtı uzadıb Cavada aradan çıxmaq üçün imkan yaratmaq idi:

– Bu mollalar da hakimiyyətə gələndə xalqa dönük çıxacaqlar. Onlar hakimiyyətə gəlmək üçün belə canfəşanlıq eləyirlər.– Güllü fikrini cəmləyib sözünə davam etdi. Tehranın yumruğu başının üstündə olan təbrizlilər, azərbaycanlı bacı-qardaşlar haqqınızı tələb eləyəndə törətdikləri qırğından bir elə də çox vaxt keçməyib? Siz ki bunun şahidi olmusunuz? Ana torpağımızı ikiyə bölüb ananı balaya, ərə, oğula həsrət qoyan bu rejimi nəhayət dəyişdirib mollaları taxta çıxarsaq, «dovşana qaç, tazıya tut» -deyən əmmaməlilər elə bilirsiniz halımıza yanacaqlar? Yox, belə olmayacaq, mənim qardaş-bacılarım! Bu mollalarla bizim suyumuz bir arxda axmaz. Bir yarımızı İran, bir yarımızı da rus dövləti yumruq altında saxlayır. Sizdən soruşuram, hanı bizim səsi ərşə çatan dövlətimizdən qalan torpaqlarımız? Bol-bol özgə cibinə axıb, bizi bir qarnı ac, bir qarnı tox qoyan sərvətlərimiz hanı, qardaşlar? Özümüz Cənubi Azərbaycanda iyirmi beş milyon olaola yasaq olan dilimiz, mədəniyyət abidələrimiz hanı? Analarımız ölən əzizlərini öz türk dilində oxşaya bilmirsə, ağımız, bayatımız, nəğmələrimiz yasaqdısa, hansı ədalətli molla hökumətindən danışırsınız? Bizim bir məqsədimiz olmalıdır. O da itirdiyimiz azadlığı geri almaq üçün mübarizəyə qoşulmaq. Bizim tale yolumuz bu mübarizədən keçir, həmvətənlərim!

Hər tərəfi səs-küy bürüdü. Güllünü fitə basdılar. Daş atanın sayı-hesabı yox idi. Bayaqkı qadın yumruğunu sıxıb başı üstünə qaldıranda, xeyli adam da ona qoşuldu. Güllünün ətrafındakı halqa get-gedə sıxıldı. Meydanda qəribə və çətin bir vəziyyət yaranmışdı. Ətrafda jandarm çoxalmış, kürsüyə sarı can atanların halqası get-gedə daralmışdı. Güllünün gözünə heç nə görünmürdü. Onu aradan çıxarmaq üçün heç bir imkan qalmamışdı. Xiyaban, küçə və meydanlar jandarmlarla dolu idi.

– Bu şeytana qulluq eləyən dinsizə ölüm! Qadın-qızlarımızın adını ləkələyən şeytana daş atmaq hər bir müsəlmanın borcudur! – Deyə mollalar camaatı qızışdırırdılar.

Bu anda iki jandarm camaatı yara-yara Güllüyə yaxınlaşmaq istədi. Jandarm hesab olunanlar Güllüyə çatar-çatmaz necə işarə verdilərsə, bayaqkı qadının dörd tərəfində dayanan bir neçə ca-

van oğlan cəld tərpənib kürsü adlanan, bir-birinin üstünə qoyulmuş taxta qutuları aşırıb yerə saldılar. Güllü yeşik qarışıq camaatın arasına yıxıldı. Camaatla jandarmlar arasında əlbəyaxa vuruş başladı. Elə bunu istəyən qadın yaşına yaraşmayan zirəkliklə Güllünü yerdən qaldırıb azadxahların köməyi ilə camaatı yara-yara yox oldu. Onun mühafizəçiləri də bir-birinin dalınca qarışıqlıqdan yararlanıb uzaqlaşdılar. Jandarm paltarı geyən azadxahlar qəzəblənmiş camaatı onlar gözdən itənə qədər yaxına buraxmadılar.

Yeni görüş

Mürsəl bayaqdan bəri əlləri qoynunda üzü pəncərəyə sarı dayanıb sanki heykələ dönmüşdü. Təbrizdə və ətraflarda başlayan üsyan dalğası get-gedə qızışırdı. Onun həbsxanalarda aldığı yaraları qarışıq ürəyi də sızıldayırdı. Sonralar 1979-cu il inqilabına təkan verəcək, bu üsyanda yenə həmvətənləri qırılacağı səhnəni elə bil indidən görürdü. Bu narahatçılıq Mürsələ dinclik vermir, yuxusunu ərşə çəkirdi. Zəncandan, Həmədandan, Urmiyadan, Ərdəbildən gələn nümayəndələrdən hələ bir xəbər yox idi. Bu ona hadisələrin heç də yaxşı nəticə ilə qurtarmayacağına əsas verirdi. Dünəndən ona gələn məlumatlar, qəzet və jurnallarda oxuduqları Təbrizin başının üstünü alan dəhşətlərdən xəbər verirdi. Yenə qan-qada, qırğınlar azərbaycanlı türklərindən yan keçməyəcək. Mürsəlin yadına bu yaxınlarda Tehran hökumətinin Cənubi Azərbaycan Demokrat firqəsinin boğulmasının 30 illiyinə həsr olunan təntənəli paradı düşdü. Bu təntənə Cənubi Azərbaycanın Milli matəmi idi ki, şah özü bu bayramda «İrticaye Azərbaycan» sözünü böyük şadyanalıqla işlətmişdi. – «İrticaye Azərbaycan...» deyəndə şah, deyəsən Tehranla Təbrizin yerini səhv salmışdı. Öz adını başqasına qoyub qürrələnmişdi. Azərbaycan haqq tələb eləyəndə, fars irticası tez barmaq silkələyirdi ki, «İranın bütövlüyünü pozursunuz», siz irticaçısınız. İran hakimiyyətinin Cənubi Azərbaycan Milli Hökumətini qan dənizində boğması «xəyanət», «qırğın», «irtica» deyildimi? 1946-ci ilin sentyabr ayının birində uşaqlar məktəb əvəzinə tankların altında xıncımlanıb torpağa qarışırdılar. Mürsəl gözlərilə

gördüyü yüzlərlə faciə qurbanlarını xatırladıqca, canına soyuq bir üşütmə düşürdü. İndi də xalqının işgəncə və mərhumiyyətlərə düçar olmasını istəmirdi. Ərdəbildə, Sərabda, Xoyda azadxahlar çiyin-çiyinə dar ağaclarının altına gedirdilər. Dillərində Azərbaycan himni səslənən 27 azərbaycanlı zabitinin ölümə getməsi Mürsəlin gözləri önündə olmuşdu. Onlar silahların səsini:

Ana yurdum, ey şanlı Vətən,
Həmişəlik yaşa, Azərbaycan!–

deyə-deyə batırırdılar.

Ərdəbil meydanlarında asılan inqilabçıların arasında neçə-neçə qadın, uşaq da var idi. Şahsevən qızı Səriyyə əri Əli Qəhrəmani ilə çiyin-çiyinə səngərdə vuruşub beş gün təslim olmamışdı. Beş gün təkbaşına vuruşduqdan sonra onu Qurana and içməklə aldadıb öldürəndə demişdi ki, Azərbaycan oğulları mənim intiqamımı alacaq. Əli Qəhrəmaninin kəsik başını nizəyə taxıb küçələrdə gəzdirirdilər. Milli hökumətin baş prokuroru Firudin İbrahimi altı ay işgəncələrə dözüb heç bir suala cavab verməmişdi. Ondan müsahibə götürmək istəyən Amerika müxbirinə demişdi: «Mən xalqımın düşmənləri ilə danışmaq istəmirəm!» Mürsəlin özünün, ailəsinin faciəsi yüzlərlə, minlərlə soydaşlarının faciəsindən geri qalmırdı.

Yox, bu «Quran» əllərində küçələrə çıxan Xomneyni tərəfdarlarının əl-qol açmasına, camaatı aldatmasına, yol vermək olmaz! Qoy olsun, lazımsa qanımız inqilab ocağına yenə halaldı –deyə Mürsəl bu ağır, əzabverici xatirələrdən sanki qaçmaq istəyirdi. Yox, insan özündən heç yana qaça bilməz. Biz ömrümüzün qalan illərini bu canımız saydığımız torpağın azadlığına yenə verməliyik. İtirməyə daha heç nəyimiz qalmayıb. Azərbaycan torpaqları İran ərazisinə qatılanda, Azərbaycan İranın dörd əyalətlərindən biri idi. Rza şah 1937-ci ildə Azərbaycan ərazisini «Şərqi Azərbaycan» və «Qərbi Azərbaycan» ostanlarına bölməndən sonra iki yerə ayrılan əraziləri oğlu Məmmədrza şah dörd yerə parçaladı. Azərbaycanlıların yaşadıqları ərazilər başqa ostanların içində əridilib yox oldu. Millətin varlığını yox etməkçün nəyi varsa, fars şovinizmi qoparıb əlindən aldı. İyirminci əsrin sonu yaxınlaşdığı

bir vaxtda sayca bizdən az olan xalqlar da, azadlığa, müstəqilliyə qovuşduğu halda Cənubi Azərbaycan İranda ən adi insan hüquqlarından məhrumdur. Dünyanın və Avropanın qabaqcıl inqilabı fikri və düşüncəsinin İranda, Şərqdə yayılması, məhz Azərbaycanlı türklərinin adı ilə bağlı olub. Təkcə bu əsrdə üç dəfə Təbriz azadlıq bayrağı qaldırıb. Fars şovinizmi bununla barışa bilmir. Hətta SSRİ kimi azman bir dövlətin tərkibində olan şimali Azərbaycanın varlığının qəzəbini də Cənubi Azərbaycan türklərinin üstünə tökür. Milli-mənəvi zülm, xalq ruhunun təhqiri baş alıb gedir.

Mürsəl pəncərədən ayrılıb otaqda o baş-bu başa xeyli var-gəl elədi. Təbriz qaynar qazan kimi yenə qaynadığı halda, evdə oturub gözləməyi özünə ar bildi, özü-özündən utandı: – «Mən daha oturub gözləyə bilmərəm. Nə isə bir iş görməliyəm. Mürsəl ehtiyat silahları ərdəbilli yoldaşlarına verəndə bir neçəsini saxlamışdı. Oturduğu taxtın altından tapançanı çıxarıb belinə sancdı. Pəncərələrin pərdəsini çəkib örtdü. Namaza bir neçə tapşırıq verib evdən çıxmaq istəyirdi ki, qapı üç dəfə tıqqıldadı. Mürsəl ayaq saxlayıb bir neçə addım qapıdan geri çəkildi. Hər ehtimala qarşı silahı hazır vəziyyətə gətirib qapıya yönəldi. İkinci dəfə eyni səslə döyüləndə qapını açdı. Gələn Səxavət idi. Yanındakı üzüörtülü qadını tanımırdı. Soruşmağa da utanırdı.

– Ay oğul, gecənin bu vaxtı haradan belə gəlirsiniz? Qasım yoldaşın bu gəlişinizdən xəbəri varmı?

Mən iki gündür yığıncağa gələnlərin yolunu gözləyirəm. Hələ də bir xəbər yoxdur. Bir danış görüm şəhərdə nə var, nə yox?

Səxavət şəhərin küçə və meydançalarındakı mitinqlərdən, təşkilat üzvlərinin dünənki mitinqdə cəsarətlə çıxış etmələrindən, iki nəfərin yaralanmasından ətraflı danışıb Mürsələ məlumat verdi.

– Belə kəskin çıxışlarla hökumət tulalarını qıcıqlandırmaq bir az qorxuludur. Gecəynən terrora başlayıb bizi həbsxanalara doldurmaq, ayrı-ayrı firqə üzvlərini öldürmək üçün onların əlinə fürsət vermək olmaz, Səxavət! Bu xalqın qanına yerikləyən Tehran hökumətinin köhnə adətidir. Biz bir az ehtiyatlı olmalı və mümkün qədər az itgi verməyə çalışmalıyıq. Bizə vurulan yaraların ağrısı hələ canımızdan getməyib, oğul. Milli inqilabımızdan otuz il keçməsinə baxmayaraq hələ də sakit yaşaya bilmirik.

O, ayağına işarə eləyib taxtın üstündəki mütəkkəni qoltuğuna tərəf çəkdi. Axşamdan söndürdüyü şamı kibrit çəkib yandırdı. Otağın divarları sarı, zəif işıq şüalarında güclə seçilirdi.

Kənddən bura güc-bəla ilə, demək olar ki, piyada gəlmişik. Heç yadıma düşmür, Gültəkinin və oğlumuz Babəkin sizə salamduası var. Bilirsiniz ki, Sofiyan kəndi ciddi nəzarət altındadır. Şəhərə çox yaxın olduğu üçün hökumət bütün bənd-bərəni kəsib. Şəhərə heç kəsi buraxmırlar. Amma Sofiyanda yaratdığımız təşkilat çox böyük işlər görür, Mürsəl qağa. Onu da deyim ki, indi Xiyaban, Əmrexiz, Şeşgilan məhəlləsəri daha ciddi nəzarətdədir. Seyid Həmzə, Bağmeşə küçələrində demək olar ki, ağıllı-başlı hökumət qüvvələrinə qarşı müqavimət var. Təşkilat Təbrizin belə diqqət çəkən məhəllələrində mənzillər kirayə eləyib ki, təqiblərdən daldalanan, yaralanan yoldaşlarımızı gətirməyə bir yer olsun.

– Bəs Gültəkini niyə gətirmədin, Səxavət? O qızı görəndə Ərdəbil küçələrində ölənə qədər vuruşan Səriyyə adlı bir həmvətənlim yadıma düşür, Səxavət. Belə qadın-qızlarımız yüz kişiyə bərabərdi.

– Hələ oğlum Babəki demirsən, Mürsəl əmi. Ana-bala mitinqlərdən çıxmırlar. Neçə dəfə tutub əzab-əziyyət veriblər. Yenə də dediyindən dönmür. Deyəndə ki, həbsxana, işgəncə, dar ağacı qadına yaraşmaz, bilirsiniz nə cavab verir?

Mürsəl azca gülümsədi. Yerindən qovzanıb Səxavətə sarı döndü.

– Nə deyir, Səxavət?

– Deyir ki, inqilabçı arvadının taleyi başqa cür ola bilməz. Azadlıq yolunda şəhid olan ərinin ruhunu tapdalayıb onun tutduğu yoldan geri çəkilməməlidir. Onun müəllimi çox bacarıqlı, qorxmaz, həyatın bütün məşəqqətlərinə dözməyi bacaran bir qadın soydaşımızdır. Ona verdiyi sözdən dönməyi özünə ölüm sayır. Yeganə oğlumuzu da, bu yola təhrik eləyib. Çox gözəl şeirlər də yazır. Xətayinin, Şəhriyarın, Səhəndin şeirləri dilinin əzbəridir. Bilmirəm, şairdi, ya inqilabçı?

Mürsəlin qaşları düyünləndi. Üzünə ciddi bir görkəm verdi. Şübhə, təəccüb dolu baxışları Səxavətin üzünə zilləndi.

– Necə dedin, Səxavət? O, hansı qadındır ki, mən indiyə qədər

onun varlığından xəbərsizəm?

Mürsəl evin nisbətən qaranlıq tərəfində oturan, hələ də çadrasının altında səssiz-səmirsiz onların söhbətlərinə qulaq asan qadını təzəcə görmüş kimi dikəldi. Ona diqqət göstərmədiyi üçün özünü danladı.

Fatma içəri girəndə bir ilə qədər gizli yaşadığı bu divarları, küncdə qoyulmuş köhnə paltar dolabı evin ortasındakı odun sobasını özünə doğma bilib öz evinə gəlirmiş kimi qəhərlənmişdi. Qaranlıqda Mürsəlin üzünü görməsə də, səsindən onu tanımışdı. Şam yandırdıqdan sonra Mürsəlin üzünü açıq-aydın görüb sarsılmışdı. İyirmi ildən artıq görmədiyi bu ürəyi vətən, torpaq təəssübkeşliyi ilə dolu insan nə qədər dəyişmişdi, İlahi deyə özözünə vaysınmışdı. Xalqımın aslan ürəkli belə oğullarını mərhumiyyətlər, təqiblər gör nə günə salıb? Öz halal torpaqlarında qaçqına, köçkünə dönüblər. Bu neçə ildə türmədən-türməyə, ölkədən-ölkəyə, şəhərdən-şəhərə keçib yaşadığı didərgin həyatı yadından çıxmışdı Fatmanın. Mürsəlin qırıq-qırıq danışığı, üzündəki çapıqlar, ayağını sürüyə-sürüyə güclə yeriməsi Fatmanı dəhşətə gətirmişdi. Vaxtı ilə vətəninin cənubundan yazmaq həvəsi indi sinəsində bir ocaq kimi sönmüşdü. Yerində qara küldən başqa heç nə qalmamışdı. Bir də hər dəfə irtica güclənəndə dəstədəstə qovulan, sürgün edilən, ölümün əlindən qaçıb yeni mübarizələrə hazırlıq məqsədilə dünyaya səpələnən yüz minlərlə mühaciri «pənahəndəni», «demokrat», «cənublu» bacı-qardaşlarının qırılan talelərinin ağrıları ilə yoğrulan bir qəzəb, nifrət qalmışdı. Fatma içində yaranan bu boşluğu doldurmağın yeganə çarəsini qanını almaqda görürdü.

Mürsəl arada zirzəmiyə düşüb geri qayıdanda hələ də dinibdanışmayan qadının kimliyini öyrənmək, nə məqsədlə gəldiyini bilmək marağı ilə Səxavətə sarı döndü.

– Dedin bizim Gültəkin balamızın müəllimi kim olub? Onun Bəhmən üsyanında sənlə çiyin-çiyinə vuruşmağı heç yadımdan çıxmır, Səxavət. Bizim belə ər-oğul qeyrətli qadınlarımızın döyüş ruhuna, mübarizə əzminə heyranam. Hər iyirmi, otuz ildən bir azadlıq, müstəqillik dedikcə xalqımızın başını əzir, düşünən başsız, vuran qolsuz qoyurlar. Lakin oğlan qızlarımız qanına qəltan ediləcəyini bilə-bilə ölümün üstünə daha böyük inamla, qətiyyətlə

atılırlar. Bu daima belə olub, belə də olacaq. Ta öz azadlığımıza qovuşana qədər. Dərdlərimiz çox və ağırdır. Deyəsən, mətləbdən uzaq düşdük, Səxavət!

– Hə, Mürsəl əmi, o sizə dediyim, neçə illərdi axtardığım qadın qarşınızdadır, Maxrux Xəlili. Vaxtilə sizin evinizdə yaşayıb. Sonra Sofiyan kəndində Gültəkinin ailəsində üç ilə yaxın bizə, xüsusən, Gültəkinə mübarizə yolu öyrədib. Sonrakı taleyi qalın bir kitab, sonu bitməyən dastana sığmayan hekayətlə doludu. Müsaidənizlə tanış eləyərdim. Sizinlə görüşməyi çox arzulayırdı.

– Məktubda mənə haqqında yazdığın Maxrux xanım budur? Mən bu görüşü səbirsizliklə gözləmişəm, Səxavət. Əgər mənim şübhələrim düz çıxsa, özümü dünyanın ən xoşbəxti hesab eləyirəm. Məktubunu alandan mənim nə gecəm, nə gündüzüm olub. Uzun illərdi qanımızı zəli kimi soran alçağın birini tutub neçə gündü zirzəmidə dustaq saxlamışıq. O alçaq bizim başımıza gələn çox bəlaların səbəbkarı olub. Onun vasitəsilə çox mətləbləri aça bilərik. Özü də milliyətcə erməni küçüyüdü. Onunla mənim köhnədən haqq-hesabım durur.

– Mürsəl əmi, adı nədi, bəlkə, tanıyıram?

– Tanımasan da, hesab elə ki, yer üzündəki murdarın, satqının birilə rastlaşmısan. Adı Kərbəlayı Karapetdi (o bunu xüsusi istehza ilə dedi).

Adı eşitcək Fatma niqabını üzündən qaldırdı. Mürsələ doğru bir neçə addım atıb dayandı. Qardaş deyə əlini irəli uzatdı. Mürsəl Fatmanı görüb yerindən tərpənə bilmədi. Kəkələyən nitqi bir az da tutuldu, səsi boğazından çıxmadı. Fatma deyə əlini irəli uzatdı. Fatma Mürsəli bir qardaş, dost kimi qucaqladı. Hər ikisinin gözündən axan yaş üz-gözlərini islatdı. Səxavət mat-məəttəl qalmışdı. Fatma kim idi? İndiyə qədər onu Maxrux Xəlili kimi tanıyan Səxavətin dili elə bil batmışdı. Bu əsnada zirzəmidən çıxan Namaz da onlara qoşulub ağlayırdı. Müxtəlif taleli, amma qanı bir, dili bir vətən övladlarını ayıran tale yolları gör harada, hansı şəraitdə yenə görüşürdü. Onları Mürsəlin bu kasıb komasına yığan sinələrində gəzdirdikləri vətən, torpaq məhəbbəti, sönməyən mübarizə məşəli idi. O məşəl azadlığa can atan, vətənin qeyrətli övladlarını suda batırsalar, batmağa, odda yandırsalar, yanmağa, öldürsələr, ölməyə qoymurdu.

Fatma heç bir şey başa düşməyən Səxavətə sarı döndü.

– Maxrux Xəlili adı ilə məni az adam tanıyır, Səxavət. Tutulandan sonra o saxta pasportu əlimdən alıb məni öz adımla mühakimə elədilər. Başıma gələnlərin çoxunu sizə deməmişəm. «Sofian» kəndinə, sizi görmək üçün gəlmişdim. Mürsəl adını sənin dilindən eşidəndə məndə bir maraq oyandı. Həm də Zəncan Demokrat Firqə üzvləri məni bura bəzi tapşırıqla göndərib. Çünki məni demək olar ki, Təbrizdə heç kəs üzdən tanımır. Dünənə qədər kirayə elədiyim mənzildən çölə çıxmırdım. Amma o günkü mitinq… Fatma sözünün dalını gətirmədi.

– Bir halda ki sizi tanıyan yoxdur, nədən qorxursunuz?

– Məsələ qorxmaqda deyil. Qorxsaydım, sizə gəlib çıxmazdım, Səxavət. Bazar günü xiyabandakı mitinqdə bir qız çıxış eləyəndə bərk yaralanıb. Təsəvvür edin ki, üstünə daş yağış kimi yağırdı. O, geniş çıxışı ilə mollalara yarınanlara yaxşı cavab verdi. Onu tək qoyub heç yana çıxa bilmirdim. Bir məqsədim də var, ərimi, oğlumu axtarmaq. Ya qismət. Ərdəbildə dedilər ki, çoxdan köçüb gediblər. Bircə oğlumu görə bilsəydim, ölsəm də dərdim olmazdı.

Fatma qəhərləndi.

– Gətirdiyiniz qızın adı nə idi, bəlkə, xatırlayasınız, Fatma xanım? Mürsəl maraqla dilləndi:

Fatma üzünü Səxavətə tərəf tutdu. Sanki əslini ondan soruşdemək istədi.

– Hələ huşu özündə deyil, Maxrux bacı. Bir neçə dəfə –ata, Kərəm sözünü işlətdi.

– Necə, Kərəm deyə sayaqladı? –Mürsəl təəccüb dolu tələşla Səxavətin qollarından tutub silkələdi.

– Bəli, Mürsəl əmi, təkcə bunları deyə bildi. Amma çox qoçaq qızdı. Özündən əvvəl odlu-alovlu danışan oğlanı jandarmdan necə xilas elədiyini gərək gözlərinizlə görəydiniz. Düzdür, Maxrux bacı da kömək elədi. Amma o, özünü böyük təhlükəyə atmaqdan çəkinmədi.

– O böyük izdihamdan demokrat balasını sağ-salamat çıxarmaq asan məsələ deyildi. O, qız çəkinmədən özünü oğlanın yolunda sanki qurban verdi. Çadrasını açıb üz-gözü qanlı oğlanın başına atdı. Doğrusu ondakı hünərə heyran qaldım. Sağ olsun-

lar, uşaqlar onu da meydandan çıxara bildilər. Sağ qalıb– qalmadığından xəbərimiz olmadı.

Mürsəl şəhadət barmağını dodağına aparıb bir az fikrə getdi.

– Ay Namaz, bu ağa Həmidin qızı Güllüdür, bəlkə? Qardaşının da adı Kərəmdi. İki qardaş-bacı bir-birindən geri qalmazlar. Ağa Həmidin məsciddə çıxışından sonra halı pisləşib deyirlər. Neçə vaxtdır Kərəmi tapşırıqla Tehrana göndərmişik. Hələ səs-sorağı yoxdur. O danışan oğlan Kərəm ola bilməz, bəlkə… Mürsəl sözünün dalını gətirmədi.

– Hökumət yaman quduzlaşıb yenə, kim bilir. İki gündür dalbadal mitinqdə iştirak edirəm. Vəziyyət çox ağırdır, Mürsəl əmi. Bəzi yoldaşlar tutulublar. Öldürülənlər də var. Bu inqilab da ölümsüz, qansız keçməyəcək. Ayıq-sayıq olmalıyıq.

Səxavət böyük kədərlə bildirdi.

Fatma ayağa qalxıb dedi:

– Mürsəl qardaş, sizin tutduğunuz o canavarı icazənizlə görmək istəyirəm.

– O ov bütövlükdə sənə qurbandı, Fatma xanım. Gülüşdülər.

Fatmagül zirzəmiyə düşəndə təşkilatın bir neçə üzvü də gəlib yığışmışdı.

Zirzəmiyə enən dar pilləkənə ayaq basanda Fatmanın hirsindən, qəzəbindən dizləri əsdi. Rəngi avazıyıb saraldı. Taleyini qırıb ailəsini dağıdan bu hökumət muzduruna qarşı ürəyində daşlaşan kini, nifrəti təzədən kükrəyib daşdı. Yıxılmamaq üçün zirzəminin daş divarlarına söykənə-söykənə aşağı düşdü. Zirzəminin nəm, rütubətli havası onu vurdu. Fatma ona az da olsa, fikir vermədi. Çünki belə abi-havaya, belə yerlərə öyrəşmişdi. Həbsxanalarda qazandığı xəstəlikdən qalan öskürəyi, zirzəminin nəmişliyində ona aman vermirdi. Onun yaşlaşdığı, yanaqlarının solduğu, lakin üzünün əvvəlki gözəlliyi, təravəti Mürsəlin gözündən qaçmadı. Güləndə ağ sədəf kimi parıldayan dişlərinin bir neçəsi düşmüşdü. Alt dodağının üstündəki nazik çapıq, alnında və çənəsinin kənarlarındakı qırışlar Fatmanın əvvəlki yaraşığına xələl gətirməmişdi. Əksinə, ona yaşa dolmuş, müdrikliyə doğru gedən bir qadın yaraşığı verirdi. Hər yaş dövrünün öz gözəlliyi, öz təravəti var deyirlər. Mürsəl öz-özünə deyindi. «Axı heç ailəsi barədə bir söz soruşmadım? Özü nə vaxt istəsə, danışar. O, indi-

nin söhbəti deyil. O vaxt imkan tapıb yerli-yataqlı bir şey öyrənə bilmədim. Başım aynayan kimi, gərək bu işlə özüm məşğul olum. Namazla Səxavət irəli yeriyib Karapeti küncə qoyulmuş taxıl çuvalı kimi itələyib zirzəminin ortasına saldılar. Mürsəl pəncərəni bərk-bərk bağlayıb pərdələri çəkdi. Sonra taxçaya qoyulmuş balaca şamı kibrit çəkib yandırdı. Karapet işıqdan qorxan yarasa kimi gözünü bir neçə dəfə ovuşdurdu. Gözlərini təzədən açıb başının üstündə dayanana baxdı. Tanımırmış kimi üzünü laqeydcəsinə çevirdi. Karena onun çənəsindən tutub başını yuxarı qaldırdı.

– Bəlkə, yaxşı baxasan, «atacan». Sənin günahsız şikarlarından biridir, gəlib sənlə haqq-hesab çəkməyə. İndi bu canlı şahidə nə sözün?

Fatma tez Karenaya sarı döndü.

– Doğrudan, bu əbləh sənin atandı?

Səxavət:

– Atası olmasaydı, bu zirzəmidə belə əzizləyib saxlamazdı ki...

Hamı bir ağızdan gülüşdü. Fatma irəli gəlib Karapetin düz qabağında dayandı:

–Bir gün elədiyin cinayətlərə görə cavab verəcəyini bilirdim, amma üzbəüz görüşümüzü gözləmirdim. Sənin yerinin özün kimi bu çirkablı zirzəmi olacağına da əmin idim. Bu neçə illərdə öz xislətinə uyğun mənim kimi neçə günahsızın həyatını zəhərlədin? Sənin kimisinə ancaq ölüm kömək eləyə bilər!

Sonra üzünü Karenaya çevirib: – Nahaq yerə indiyə qədər onu sağ saxlamısınız.

– Yox, elə demə, Fatmacan, mənim günahım yoxdur. Mən də özümdən böyüklərin əmrini yerinə yetirirdim.

Fatmanın ayaqlarını qucaqlayıb yalvaran Karapeti sürüyüb zirzəminin küncünə atdılar.

Fatma özünü ələ alıb sakitləşə bilmirdi. Əli çarşabının altında gizlətdiyi kiçik əl çantasındakı tapançada tir-tir əsirdi. Elə buradaca həyatını məhv eləyən bu zəhərli ilanı öldürməkdən özünü güclə saxlayırdı. Mürsəl onun fikrini çoxdan başa düşmüşdü deyə yaxınlaşıb Fatmanın çiyninə bir neçə dəfə əlilə toxunmaqla sakit ol demək istəyirdi. Fatma əlini silahdan çəkib, səndərləyə-səndərləyə divara söykəndi: Bu axşam bizim bundan vacib işimiz

var, Fatma xanım deyə Mürsəl bir az rəsmi, bir az da ötkəm səslə dilləndi:

– Mənə elə bu şahidlik və bir də bu kağız parçası lazım idi ki, uşaqlar onun işini bitirsinlər. Nə qədər ki, belələri yaşayır, yer üzündən paxıllıq, xəbislik, hərislik əksik olmayacaq. Bircə şey mənə aydın deyil ki, torpaq bizim, sərvət bizim ola-ola, necə deyiblər: – Gəmidə oturub gəmiçiylə dava eləmək bunların nəyinə lazımdır? Biz kimə nə eləmişik, kimin toyuğuna daş atmışıq?

Belələrilə bərabər bizim haqq işimizə özümüzün milli nankor larımız da mane olurlar.

Söz düşmüşkən, sənə bircə fakt deyəcəm, Fatma xanım. Bu murdar eşitməsin deyə Mürsəl Fatmanın qolundan tutub bir az kənara çəkdi. Mənim az yaşım yoxdur. Lap uşaqlığımdan, gəncliyimdən bu mübarizənin yolçusuyam. Bu günə qədər mübarizə yolundan ayrı düşməmişəm. Vəziyyətimi də görürsən.

Mürsəl azacıq gülümsədi. Kövrələn kimi oldu. Fatma bu acı taleli insanda lap ilk dəfə rastlaşdığı gündən bir doğmalıq, yaxınlıq hiss etdiyinə görə mütəəssir olmuşdu. Yarıqaranlıq zirzəmidə onun dodaqlarının əsdiyini, çəlik tutan əlinin titrədiyini açıq-aydın görürdü. Mürsəl sözünə ara verib bir neçə dəfə udqundu:

–Azərbaycandakı inqilab ocağını söndürmək üçün Tehran irticası Milli hökumətin jandarm rəisi Mirzə Hüseyn xan Majoru öz tərəfinə çəkib İran qoşununun komandanı kimi Azərbaycana göndərdi. Tehran rejimi Azərbaycanı işğal eləməkdə ondan çox yararlandı. Mirzə Hüseyn xan, Salari – Milli Bağır xanın kürəkəni idi. Bu xəyanətkar min cür bəhanə gətirib milli hökumətin silahlı qüvvələrini Təbrizdən çıxarıb onun işğalına yol açdı. Bircə il azad nəfəs alan azərbaycanlı türkləri qanına qəltan edildi. Eyni xəyanəti 1920-ci ildə də eləyən Mirzə Hüseynxan, Məhəmməd Xiyabaninin tutulub öldürülməsinə şərait yaratmışdı. Xiyabaninin aradan götürülməsi üçün hökumət küllü miqdarda vəsait ayırmışdı. Milli azadlıq bayrağını yenidən qaldıran Şeyx Xiyabaninin öldürülməsi Təbrizdəki alovlanan yeni inqilab ocağını söndürdü. İndi də ya qismət, belələri bir deyil, beş deyil, nə eləmək olar. Deyirlər, ağacı qurd içindən yeyər. Bax o qurdun ağaca düşməsinə heç cür yol vermək olmaz, Fatma xanım. Meşə çaqqalsız olmaz. Hər xalqın, millətin içində pisi ola bilər.

Karena irəli gəlib Mürsəli bərk-bərk qucaqladı.

– Mürsəl əmi, neçə gündür vaxtımı bu murdara sərf eləmişəm. İcazə verin, qurtaraq getsin. Axı mən bu arzu ilə yana-yana, belə deməyə haqqım varsa, sizin həmfikirlinizə, silahdaşınıza çevrilmişəm. Bir az da doğru desək, şagirdiniz olmuşam.

– Düz deyirsən, qızım. Tarixdə çox qəhrəman olub ki, şəxsi intiqam hissi ilə böyük mübarizə meydanına atılıblar. Sonra o mübarizəni ümumxalq, ümumbəşəri ideyaların yayılmasına, təbliğatçısına çeviriblər.

– İxtiyar sənindi, buna haqqın var – deyə Fatma pilləkənə sarı dönəndə Karapet onun ayaqlarını qucaqladı. Yalvarıcı bir səslə dedi:

– Yox, Fatmacan, buna imkan vermə! O getdiyim Kərbalaya and olsun ki, mənim sizinlə heç bir şəxsi-qərəzliyim olmayıb. Siz türklərə qarşı elədiklərim da, məndən asılı deyil. Bu mənim xasiyyətimdən irəli gəlip. Neynim, matax, bunsuz yaşaya bilmirəm, massab haqqı.

– Dediklərinin hamısı yalan olsa da, bircə bunu düz deyirsən. Sən murdara, paxıllığı, xəbisliyi ana südü ilə içiriblər. Mayanız hiylədən qoyulub.

Karena ayağı ilə onun sinəsindən itələyib yerə yıxdı. Fatmanın dediklərindən məmnunluqla başını silkələdi. Boynunu büküb yazıqlanan Karapetə sarı tüpürdü:

– Hər əsrdə bir neçə dəfə dilinizin altına yığdığınız zəhəri tökməsəniz, dincələ bilmirsiniz. Siz ermənilərin bu xisləti həmişə özünüzə bəla gətirəcək. Donuz kimi burnunuza döyülüb, belə samanlıqlara atılacaqsınız. Sizə çörək verənlərə nankorluq etdiyinizə görə ölkədən-ölkəyə qovulacaqsınız.

Əlacı kəsilən Karapet yenə dilini işə saldı:

– Fatmacan, sən buna qulaq asma! Mənim çörəyim ona haram olsun! Nankor övladdı bu türk küçüyü.– Karena dönüb Karapetin qarnına, üzünə döyəclədi.

Hər yerdən əli üzülən Karapet Fatmaya sarı döndü:

– Sənə bir yaxşı xəbərim də olacaq, Fatmacan! Məni bu çörək tapdalayanın əlindən qurtarsan, deyərəm. Amma bir şərtlə… Mənim burda qazancım nə olacaq? Mən dəqiq adamam, belə də işləmişəm.

Fatma geri döndü. Ürəyi nanə yarpağı kimi titrədi. Başı gicəllənib yerə çökdü.

– Tez ol, de, murdar! Bu vəziyyətində hələ bizə şərt də qoyursan? –Fatma qırıq-qırıq kəkələdi.

– Sənin ərin Qasımın və oğlun Cavadın yerini bilirəm. Mənə aman versəniz, deyərəm.

Onu eşitməyə Fatmada taqət qalmamışdı. Geri dönüb, bayaqkı yerində güclə otura bildi. Karena yerindən dik atıldı.

–Alçaq məlun, tez ol, de görüm, Cavad doğrudan Fatma xanımın oğludur, yoxsa bu da sənin növbəti kələklərindən biridir, işlədirsən? O bir qəpiyə dəyməyən canını xilas eləmək üçün ilan dilini işə salmısan?

Karenanın əsəbləşdiyini görüb Mürsəl sözə başladı:

– Dayan, Karena, mən onun alçaqlığının ilk şahidiyəm. Hələ Ərdəbildə olarkən Fatma xanımı qorumaq üçün qazanc bəhanəsilə onun maşınına oturdum. Nəticəsini o da, mən də bilirik. Bəzi məsələlər mənə də aydın deyil, qoy bildiyini desin, sonra nə iş görəcəyimizi müəyyənləşdirərik. Səndən də bu haqda heç nə soruşmadım, Fatma xanım. Deməli, belə çıxır ki, köhnə demokrat Qasım Azəri sənin həyat yoldaşın, Cavad oğlundur? Qasım Azəri Azərbaycan Milli Demokrat firqəsinin Təbriz təşkilatının sədri, Cavad təşkilatın fəal üzvlərindən biri, deyərdim ki, lap sağ əlidir. Əhali arasında böyük hörməti var. Niyə mən indiyə qədər ağır günlərimin ən yaxın dostundan heç nə soruşmamışam? Bəlkə, hər şey başqa cür olardı. Onun neçə illər həbsxana həyatında çəkdiyi əzabların şahidi olmuşam. O, çox soydaşımızı yenidən mübarizəyə qoşmaq üçün dəridən-qabıqdan çıxdığı halda öz şəxsi həyatından bir kəlmə də olsun danışmazdı. O, heç kəsə məktub yazmaz, heç kəsdən də məktub almazdı. Çünki bir demokrat kimi onun bütün əlaqələrini izləyirdilər. Çox müəmmalı və qəribə həyat yaşayırdı. Uzun müddət müxtəlif həbsxana həyatı, təqiblər, kənd-kənd, oba-oba dərviş kimi gəzib-dolanmaqdan xəstə düşdüyünə baxmayaraq əqidə, məsləkyolundan dönməyib. Oğlu Cavad atasından bir addım geri qalmayan baladı. Həm də adlısanlı həkimdi.

Karena Mürsəlin sözünü kəsdi:

– Qasım ağa ona həm ata, həm də ana olub. Evləri Təbrizdə,

«atamgilin» evinin qonşuluğundadır. Mənim bu «ata»cığım uzun illər onlara göz verib-işıq verməyib. Biz Almaniyada bir universitetdə oxumuşuq. Ata-anası üçün çəkdiyi əzabların şahidi olmuşam.

Karena ürəyi atlana-atlana Fatmanı qucaqladı.

Karenanın bu sözlərindən sonra Fatmanın ürəyi dağa döndü. Yıxılmamaq üçün divara söykəndi. Neçə vaxtdı bala həsrəti ilə döyünən ana ürəyi quş kimi çırpındı.

Fərəhdənmi, kədərdənmi göz yaşları axıb sinəsini islatdı. Karenanı təkrar qucaqlayıb bağrına basdı. Cavadı qucaqlayırmış kimi qollarının arasında xeyli saxladı.

–Əgər bu ata-bala biz tanıdığımız adamlardısa, qoy danışsın. Bilmədiyimiz nə varsa, öyrənək. – Mürsəl qətiyyətlə dilləndi.

Karapet Ərdəbildən Fatmanın qaçırılması hadisəsindən başlayaraq, indiyə qədər bu ailəni addım-addım izlədiyini, Fatmanı ikinci dəfə tutub hökumət orqanlarına təhvil verdiyini, nəhayət Cavadı və Qasım ağanı aradan götürmək üçün qonşuluqda ev almasına qədər hər şeyi bütün təfsilatı ilə açıb danışdı. Qalanlarını kağızda yazmışam. İndi növbə sizindi. Fatma xanımın sonrakı taleyindən mənim heç bir xəbərim olmayıb. Yıxdığını kəsmək kişilikdən deyil, kibrə. Aman istəyənə aman vermək mərdlikdir. Sizlər necə deyirsiniz: «Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin». Nər kişilər, sizə yalvarıram, keçin günahımdan. Bu gündən belə sizə can-başla qulluq edəcəm, massab haqqı.

– Belə dillər indi keçməz, Karapet kibrə – Karena istehza ilə dilləndi. –Sənin dediyin sözlər zahirən inandırıcı olsa da, səmimiliyinə inanmıram. Sənin kimilərində səmimilik ola bilməz.

– İnanmırsan, get türkdən sənin kimi atasının ətəyini kəsəni dünyaya xəlvət gətirən anandan soruş. Bütün bunlar hamısı onun gözü qarşısında baş verirdi. Bəs onda səsini niyə çıxarmırdı?

– Anamı bu işlərə qarışdırma, alçaq. Ona uzun illər elədiyin zülmləri heç nəylə ölçmək olmaz. Bu günü o, səbirsizliklə gözləyib. Sən onu qorxu altında saxlayırdın.

– Çox təəssüf edirəm ki, vaxtında sənin boğazını cüllüt boğazı kimiü üzməmişəm, – Karapet dartındı.

– Nolar, borclu –borculunun sağlığını istər. İndi sənin boğazın mənim əlimdədir, «atacan». Sağlıq olsun. Səni cəhənnəmə göndərmək mənə borc olsun. Allaha dua elə ki, Fatma xanımın hesabına bir neçə saat artıq yaşayırsan.

Fatma bütün bu eşitdiklərinə inana bilmirdi. Nə çox həyatda Qasım, Cavad adları. Bəlkə, yalan danışır? Canını qurtarmaq üçün hər şeyi uydurur? Suda boğulan saman çöpündən yapışar. Bu alçaq da «tutar qatıq, tutmaz ayran» -deyir, bəlkə? Yox, onun dedikləri həqiqətdirsə, onda inqilabın bu qaynar vaxtında təşkilat sədri hardadır? Bu aə müəmmalıdır. Deməli, ərim, oğlum sağdılar. Karenaya inanıram. Bu mənə bəsdir.

Fatma yadına nə isə düşmüş kimi barmağını dişlədi. Mitinqdə danışan gənc oğlana demokrat, balası deyə molla Möhsünün camaata müraciəti yadına düşdü: «Bu dinsiz, köhnə demokrat ata-anasının qisasını almaq istəyir» – deyəndə, mən niyə bunun fərqinə varmadım? Bəs onu ölümdən qurtaran, iki gündür huşsuz sayaqlayan qıza məndə bu qədər mərhəmət haradan yarandı? Bu qız kimdir? Bayaq Mürsəl onu ağa Həmidin qızı adlandıranda dərinə gedib ağa Həmidin kimliyini niyə soruşmadım? Bu elə həmin ağa Həmiddir ki, Qasımla mənim görüşümə gəlmişdi. Oğlumu da öz balası kimi böyüdüb deyirdi Qasım.

Fatma Qasımın köhnə dostu, Ərdəbilli ağa Həmidi çoxdan unutmuşdu. Onun Təbrizlə nə əlaqəsi olar deyə şübhələri özündən uzaqlaşdıra bilmirdi.

Fatma özünü ələ alıb, Mürsəldən ağa Həmid haqqında nə varsa öyrənmək istədi. Mürsəl onu ağa Qasımın cavanlıq, həm də əqidə dostu, qardaşı kimi iki dəfə gördüyünü, çox möhkəm, prinsipial yoldaş olduğunu söylədi. Məsciddə əzan vermək bəhanəsi ilə məscidi onların məsləkdaşlarını sığınacağına çevirdiyindən xeyli danışdı. Hətta aldığı xəbərə görə məscidin iki gündür mühasirəyə alındığını, heç kəsə girib-çıxmağa icazə verilmədiyini də söylədi. Minbərə çıxmağa icazə verilmədiyi təqdirdə ağa Həmidin ürək tutması olmuş, evinə gətirib onu ev dustağı eləyiblər. Bütün işləri oğlu Kərəm, qızı Güllü görür. Kərəmi xüsusi tapşırıqla əyalətlərə göndərmişəm. Hələ də gəlib çıxmayıb. Qasımla Cavaddan iki gündür xəbər tuta bilmirəm. Məndə olan məlumatlar bu qədərdi, Fatma xanım. O sizdəki yaralı qızın Ağa Həmi-

din qızı olduğuna şübhəm yoxdur. Qardaşı Kərəm də, Cavadla bir xəstəxanada işləyirlər. Siz onu nahaq yerə tək qoymusunuz.

– Yox, tamam tək deyil. Mənim köhnə tanışım Mahtabanın xalası ona qulluq eləyir. Mahtaban özü gendən, qıraqdan nəzarət eləyir. Bilirsiniz, indi biz təhlükəsizliyimizi unutmamalıyıq. Bu qədər qurban verdiyimiz yetər! Döyüşə-döyüşə ehtiyatı əldən verməyib sağ qalmaq igidlikdir. Biz mübarizəyə atılan soydaşlarımızın həyatını qorumalıyıq. Laqeydlik bütün zamanlardakı kimi qanımıza işləsə, yenə məhv ola bilərik. Laqeydlik elə bir bəladır ki, insanın ağlını, düşüncəsini kütləşdirir, özündən başqa heç kəsi, heç nəyi görmür, kar-kor eləyir. Başqasının dərdləri ilə özü arasında elə bir divar yaranır ki, divarın o üzündən xəbəri olmur. Belə hissləri özümüzə yaxın buraxmamalıyıq. Hamımız yumruq kimi birləşib zərbəni bir nöqtəyə vurmasaq, yuvamızı dağıdıb, yenə bizi pərən-pərən salacaqlar. Bu qədər əzabəziyyətlərə, mərhumiyyətlərə dözsək də, görünür, yenə pis işləmişik. Mollalar, din xadimləri çox usta tərpəniblər. Camaatı Allah adına ələ ala biliblər, Mürsəl qardaş. Mən iki gündür, iştirak etdiyim mitinqlərdəki abı-havaya əsasən bunu deyirəm. Baş qaldıran fəallarımızla yenə həbsxanalar dolub. Haqqı deyənlər daşqalaq edilir. Axı «Qurani-Kərim»də belə şeylər yazılmayıb. Bunlar necə Allah, din adamlarıdır? Gecə evində öldürülənlər, tutulub naməlum yerlərə aparılan soydaşdarımız da var. Məndə olan məlumata görə iki-üç gün ərzində təkcə Zəncan, Urmiya, Ərdəbil və ətraf kəndlərdə yüzlərlə fəallarımız tutulub. Bu inqilabdan kimin bəhrələnəcəyi bizi narahat etməməlidir. Bizim mübarizəmiz ümumi düşmənə qarşıdır ki, hər birimizin ürəyində ondan sağalmaz yara var. Balığa yaşamaq üçün su lazım olduğu kimi Azərbaycan xalqına azadlıq, müstəqillik lazımdır. Gəlin açıq etiraf eləyək ki, xalq cəmi otuz il bundan qabaqkı məğlubiyyətimizin ağrı-acılarını çəkə-çəkə hələ də özünə gələ bilməyib. Biz indi-indi ayaq tutub dirçəlsək də, böyük əksəriyyət onların dalınca gedir, bizim dalımızca yox. Gəlin həqiqəti deməkdən çəkinməyək. Bu gün elədiyimiz səhvləri sabah dansaq, yenə mübarizədə əli boş qalacağıq.

Bir il Mürsəl qardaşın bu kiçik evini sığıncaq eləyib yaşadığım vaxtlar, düşdüyüm həbsxanalar, rastlaşdığım eloğlanlarımın ba-

şına gələn müsibətlər, haqsızlıq, ədalətsizlik, ayrı-seçkilik məni sizin sıralarınıza gətirdi, qardaşlar. Bu başı bəlalı torpağı övladlarının qanı ilə suvarılan vətənin yolunda neçə dəfə can versəm yenə də azdır. Məni bir şey düşündürür, məyus edir.

Yerdən bir neçə adam birdən dilləndi:

– Deyin, Fatma bacı, sizi nə narahat eləyir? Nə istəyiniz varsa, yerinə yetirməyə hazırıq.

Fatma danışanların çoxunu tanımırdı. Amma ürəklə deyilən sözlərdən xoşhal oldu.

Başını qaldırıb dilləndi:

– Şəxsən mənə elə bir şey lazım deyil. Məni düşündürən hamımız üçün bəlaya çevrilən bir dərddir. Qanımıza, canımıza hopan açıqürəklilik, sadəlbvhlülük, tez inanmaq xəstəliyindən nə vaxt azad olacağıq? Şeytanın toruna nədən tez düşürük, xəyanətin qanlı əllərini kəsməkdə gecikirik? Tarixə nəzər salsaq, rusların Puqaçovu, balkanların Hannibalı adlanan Sərdari milli Səttərxan, Xiyabani, Pişəvəri inamın, etibarın qurbanı olmadılarmı? Başımıza gələnlərdən niyə vaxtında dərs götürmürük? Bütün bunlarla bahəm az iş görməmişik, qardaşlar. Hamımızın ümumi düşməni çürümüş bir xanadanın özülünü silkələməyə çox əmək sərf eləmişik. Bu məni sevindirir. Mübarizəmiz davam edir, qardaşlar. Alınan nəticədən asılı olmayaraq bu işdə mən həmişə sizinləyəm!

Fatma danışdıqca Mürsəl dərin yuxu, xəyal içində olan adam kimi yerindən tərpənmir, səssiz-səmirsiz qulaq asır, ondakı iyirmi il bundan qabaqkı Fatmadan əsər-əlamət görmürdü. Karapet saçlarından tutub sürüyəndə külək vurub yuvasından salan quşcuğaz kimi tir-tir əsən o kimsəsiz, qərib qız, indi puxtələşmiş bir inqilabçı, dönməz bir mübariz kimi danışırdı. Danışdıqca iri qara gözlərindən kin, nifrət yağırdı. Gözəlliyinin təravətini hələ də qoruyub saxlayan üzündən qəzəb tökülürdü. Qadın kimi zərif bir məxluqun, balasına əlləri uzalı qalan bir ananın, sədaqətli ömür yoldaşının bu qədər sərtləşməyi onu heyrətə salmışdı:

– Axı bizimlə çiyin-çiyinə bu qədər mərhumiyyətlərə dözən Səltənət, Güllü, Gültəkin, Karena, Mahtaban, Fatma kimi qadınlarımız sevib-sevilməyə, övlad, ər qulluğunda durmağa layiq olduqları halda, onları bu yola sövq edən nədir? Onların hərəsi

bir evin çırağını yandırmağa layiq xanımlardır. Od içində yanan arvadımın, doyunca görmədiyim dünyaya təzəcə göz açan oğlumun günahı nə idi? – Mürsəl yarası sızlayan adam kimi əlini sinəsinə basıb xeyli susdu. Fatmadan sonra söz alıb mübarizəni sona qədər davam etdirmək, geri çəkilməmək təklifi ilə çıxış edənlər bir-birini əvəz edəndə səhərə az qalırdı. Şəhərdən tək-tək atışma səsləri gəlirdi. Namazın Karena ilə arxa qapıdan çıxıb Karapeti apardığını heç kəs görmədi.

* * *

Kərəm Tehrandakı vəziyyəti öyrənib geri qayıdanda qaynatasıgilə dönüb, arvadının halından bir xəbər öyrənə bilmədiyi üçün çox narahat idi. Yollarda ciddi nəzarət, yoxlanış olduğundan Etibarın köməkliyi ilə Ərdəbilə güclə çata bilmişdi. Səltənətlə görüşüb Təbrizdə gedən mitinqlərdən, Cavadın, Güllünün çıxışlarından, yaralı vəziyyətdə yoldaşları onları haradasa gizlətdiklərindən xəbər tutub, xeyli narahat olmuşdu. Hətta naməlum bir qadın tərəfindən Güllünün xilas olduğunu desə də, dəqiq yerini, ünvanını demədi. O, bunu heç bilmirdi də. Təxminən onun kim olduğunu güman etsə də, buna əmin deyildi Səltənət. «Bizim təşkilatda elə birisi olsa, mən tanıyıram» deyə düşünmüşdü. Mürsələ yazdığı məktubda belə onların ayrı-ayrı təşkilatlardan gələcəyini yazmışdı. Maxrux Xəlilinin adını Mürsələ yazsa da, məktubun ələ keçəcəyindən ehtiyatlanıb onun firqənin Zəncan təşkilatından gəldiyini bildirməmişdi. Bəlkə, Fatma Mürsəli görüb, Qasım ağadan, oğlundan bir xəbər tutdu deyə fikirləşmişdi. Onlar köhnə dostlar hesab olunsalar da, Fatma Mürsəlin onun tanıdığı adam olduğuna bir elə əmin deyildi. Odur ki, Səltənət də məktubda hər şeyi bütün təfsilatı ilə yazmamışdı. Ona görə də o ürəkli qadının Fatma olduğuna əmin olsa da, yenə şübhələrini başından qovub çıxara bilmirdi. Kərəmə də bu haqda artıq bir söz deməkdən çəkinirdi. Bircə onu eləyə bildi ki, hansı küçələrdə sığınacaq üçün kirayələdikləri evlərin ünvanını ona verib yola saldı.

Kərəm Təbrizə gecə çatdı. Küçələrdə gəzişən əli silahlılardan ehtiyatlana-ehtiyatlana evlərinə çatıb darvazanın başından xeyli boylandı. Səhərin açılmasına az qaldığı üçün uzaqdan qaraltını

seçmək olurdu. Qəribə idi ki, gecənin bu vaxtında evlərinin bir pəncərəsindən işıq gəlirdi. Bu necə ola bilər? Qaranlığın sükutunda mürgüləyən, səhər açılanda yenə hansı faciələrin şahidi olacağını bilməyən qoca Təbrizin də heç yerində işıq olmadığı halda onların işığı yanırdı. Kərəm birdən-birə qapıya yaxınlaşmaqdan ehtiyatlandı. Darvazanın lap kənarında silaha söykənib mürgüləyən jandarmı görəndə hər şeyi başa düşdü:– Olmaya məni gözləyirlər? Bəlkə, elə Güllünün çıxışından sonra evimizə nəzarətçi qoyub, atamı tutublar? Kim nə deyir-desin, burda xeyirə bənzəyən bir elə iş görmürəm. Kərəm durduğu yerdə xeyli götür-qoy elədi.

Gərək bir baş Qasım əmigilə gedəydim. Ora da getmək indi qorxuludu. Cavada görə evin ətrafında şübhəsiz pusqu ola bilərdi. Cavadın yaralandığı ona artıq məlum idi. Səltənətin verdiyi ünvanların birinə getsəm, yaxşı olar – deyə fikirləşdi. O ünvanlar şəhərin mərkəzinə çox yaxın olduğundan oraya da getmək çətin idi. Həm də firqə üzvlərinin gizli görüş yerlərini tanıda bilərdi.

Kərəm necə olursa-olsun öz evlərinə girməyi qərarlaşdırdı. Qapıdan keçmək mümkün deyildi. Qonşu tərəfdən həyətlərinə əyilən iydə ağacının yoğun budağı yadına düşdü. Anası uşaq vaxtı o budaqdan yelləncək asardı. Güllü ilə yellənər, hərdən də dalaşardılar. Anası onun böyük olduğunu yadına salıb utandırardı. Təkcə Cavad onlara gələndə həm Güllüdən, həm də anasının danlağından canını qurtarıb rahatlanardı, Kərəm. Eh, keçən uşaqlıq günlərinə gün çatmaz. İndi oynadığı həyətə, göz açıb böyüdüyü xanimana bir oğru kimi girməyi onu ağrıtdı. Tez ağaca çıxıb, yavaşca pəncərənin qabağına atılıb, düşdü. Pəncərəni iki-üç dəfə tıqqıldatdı. Balaca pərdəni anası aralayıb, oğlunu görcək narahatçılıqla qapıya yüyürdü. İşığı yandırmadan qapını yavaşca açıb Kərəmi içəri çəkdi. Anasının tək olduğunu, Güllünün evdə olmadığını təxminən bilirdi, Kərəm. Odur ki, sual vermədən birbaş yuxarı – atasının otağına qalxdı. Atası yarı huşsuz vəziyyətdə uzanmışdı. Kərəm yaxınlaşıb onun əlindən, alnından öpdü. Ağa Həmid bunu gözləyirmiş kimi gözünü geniş açıb mat-mat oğlunun üzünə baxdı. Lakin bir söz deyə bilmədi. Tələş keçirdiyini, nə isə vacib bir söz demək istədiyini başa düşdü, Kərəm. Bir həkim kimi ürəyinə qulaq asdı. Göz qapaqlarını qaldırıb onun nig-

arançılıq, həsrət, nisgil qarışıq gözlərində sönməkdə olan həyatın son işartısını görüb sarsıldı. Atasının mübarizələrdə bərkiyən, çətin həyat yolu ilə birlikdə keçirdiyi daxili sarsıntıları, yaşının ahıl çağına qədər sinəsini yandıran əlçatmaz məhəbbətindən aralı keçirdiyi hisslər təkcə Kərəmə bəlli idi. Odur ki, anasına bir söz demədən yan otağa keçdi. Əlilə üzünü qapayıb için-için xeyli ağladı.

Nəhayət, başını qaldırıb anasının üzünə baxdı. Onun ağlamaqdan qızarmış, yuxusuz gözlərindən utandı. Ona bu qədər əzab verdikləri üçün günahkar adam kimi tez də başını aşağı saldı. Sanki anasının gözlərinə düz baxa bilmirdi. Atasının neçə illərdi içində gəzdirdiyi pünhani sirrini ona açmadığı üçün özünü günahkar sayırdı.

– Bu necə olub, ana? – Deyə boğula-boğula dilləndi!

Zeynəb xanım əlində tutduğu qara cildli dəftəri səssiz-səmirsiz oğluna uzatdı. Kərəm bir şey anlaya bilmədi.

– Burada yazılanları oxuya bilmirəm, oğul. Onu bu vəziyyətə məsciddəki hadisə, bir də elə bilirəm bu dəftər salıb.

Üç gün bundan qabaq məscidi mühasirəyə alanda atan minbərə qalxmağa cəhd eləyib. Jandarmlar da onun dalınca qalxıblar. O, dini kitabları götürmək bəhanəsi ilə orada gizlətdiyi bax bu nədirsə, onu götürüb qoynunda gizlədib. Jandarmlar onu minbərdən zorla endirmək istəyəndə bu hala düşüb. Onu evə gətirib, qapıda da keşikçi qoyublar. Əvvəl bir az danışa bilirdi. Mən onun sinəsi üstündəki bu dəftəri götürəndə xeyli təlaş keçirdi. Nə isə demək istədi, bacarmadı. Qərara aldım ki, gizlədim, bəlkə, gizli bir sənəddir, ələ keçməsin. Nə isə, bizim dildə yazılmayıb. Bilirsən ki, mən yazıb-oxuya bilmirəm.

Kərəm dəftərin bir neçə vərəqini aşırdı. Onun Qasım əmiyə ünvanlanan faciə dolu bir qadın taleyinin acı həqiqətlərini oxuyanda hər şeyi başa düşdü. Xeyli susdu. Dəftərin sarı vərəqlərini aşırdıqca, başqasına məxsus olan bir qadını pünhani bir sevginin oduna yana-yana sevmək, ömrün qürüb vaxtına qədər onun əzabını çəkmək necə əzablı, ağrılı imiş, İlahi! Bu sevgi atasına, bəlkə, hardasa elədiyi günahlara görə Allahın göndərdiyi bir cəza idi? Həmişə heç kimə bəyan etmədən daxilən öyündüyü təmizliyinə, mənəvi paklığına taleyin bu yaşda ona bəxş etdiyi sınağı,

imtahanı idi? Bəlkə də, atasının da başqaları kimi mələk olmadığını ona çatdırmaq üçün, bir görk idi iç dünyasına «təpilmiş» bu cavabsız sevda? Bəzən bu sevgi onu çəkib öz cazibəsinə salanda, iç dünyasını çalxalayıb hər şeyi unudaraq vüsalın məsum-məsum uzalı qollarına, ağuşunun təmasına, mərhəmliyinə doğru qaçanda bacısı Güllü, elə o özü idi bu istəyə, arzuya, içində dünyalar qədər sevgi yerləşən sinəsindən basıb geri oturdan atasını? Oğluna, qızına, ailəsinə olan ehtiram, ailə sədaqəti idi onu ömrünün xəzan çağına qədər bu sevdanın oduna pərvanə kimi yandıran? Yox, yox, sevmək heç də günah eləmək deyildi ki, atasının gözlərini sonuncu dəfə qapayanda da ona əzab verirdi. Kərəm başa düşürdü ki, gecikmiş məhəbbətin vurduğu yaraları qaysaq bağlasa da, anasından ayrı düşmüş cüyür balası kimi hərdən mələyir, insanı için-için, səssiz-səmirsiz yandırıb-yaxır. Onun daxili əzablarını bilə-bilə ona kömək eləməkdə aciz idi Kərəm. İçində iki dünya yaşadan atası onun gözündə bir az da böyüyüb ucaldı. Anasının şübhə qarışıq nəzərlərini görüb özünü ələ aldı. Səsinə gümrahlıq verib dilləndi:

– Sağ ol, ana, sən çox vacib bir sənədi qoruyub saxlamısan. Bu bizim işimizə lazım olan sənəddi. Atam onun ələ düşəcəyindən qorxub yəqin. Sən narahat olma. İndi de görüm Güllüdən bir xəbər eşitməmisən ki?

– Qonşunun oğlu qız danışanda orda olub. Sağ olsun, çox köməkliyi dəyib. Hansısa bir qadın onu evinə aparıb deyir. Təxminən yerini, ünvanın öyrənə bilib. Bax Kərəm, mən bu gündən qorxurdum. O qızı siz ata-bala öz dalınızca çəkib apardınız. Eşitdiyimə görə hökumət əleyhinə çox qəliz sözlər deyib. Xalqın dərdinə ağlamaq tək sizə qalmışdı? Atan da bu günə düşdü. Siz qardaş-bacının, hətta Cavadın aqibəti necə olacaq, bilmirəm? Güllüyə bir şey olsa, bunu ata-bala sizə bağışlamaram. Sənin burada olduğunu o qapıda yatan it bilsə, evim yıxılar, tez ol, qaç bu evdən bir yana get. Səhərə az qalıb.

– Sən nə danışırsan, ana? Atamı bu vəziyyətdə ölüm də olsa, qoyub gedə bilmərəm. Sən məni qorxaqmı sayırsan? Mən həkiməm axı! – Sonra onun qorxu dolu üzünə baxıb gülümsədi.– Qorxma, hər şey yaxşı olacaq. Biz heç kəsin toyuğuna daş atmamışıq. Gec-tez qanla yoğrulan torpaq bu səltənətin əlindən

qurtarmalı idi ki, o da baş verir. Sən bir az atamın yanında otur, mən zirzəmiyə düşüb qayıdıram.

Bu dəftər öz ünvanına çatmalıdır. İndiyə qədər ağa Qasımın əzab çəkməsinə atam necə razı olub, ulu Tanrı? –Deyə bir qədər qeyzləndi Kərəm. Dəftəri etibarlı yerdə gizlədib geri qayıdanda səhər artıq açılmaq üzrə idi. Kərəm atasının otağına qayıdanda anasının başına, sinəsinə döyüb ağladığını, atasının şam kimi sonuncu işığını yaydığını görüb başını ağa Həmidin sinəsinə doğru əydi. Alnından, əllərindən dönə-dönə öpdü. Atası sağ əlini qaldırıb nə isə demək istədi. Gözləri böyüyüb alacalandı. Kərəm onun dəftərdən narahat olduğunu başa düşüb təzədən zirzəmiyə qayıtdı. Dəftəri gətirib atasının sinəsinin üstünə qoydu. Ağa Həmid son dəfə başını qaldırıb razı halda Kərəmin üzünə baxdı. Bununla onun nə demək istədiyini Kərəm başa düşdü. Çox keçmədi anasının sübh çağı ətürpədici naləsi ətrafa yayıldı. Səsə darvazada keşik çəkən jandarmlar içəri doluşdular. Kərəmi görüb əl-qolunu bağlamaq üçün üstünə yeriyəndə Kərəm belindəkii tapançanı çıxarıb jandarmın üstünə atıldı. Əlbəyaxa döyüş başlanan vaxt qonşular da səsə tökülüşüb gəldilər.

– Atam mömin bir adamıdır. Ömrünü də ibadət işlərinə sərf eləyib. Bunu siz məndən yaxşı bilirsiniz. Onun meyitinə toxunmağa sizə imkan vermərəm. Atam Allah kəlamları ilə bir müsəlman kimi dəfn olunmalıdır. Başınız bədəninizə ağırlıq eləmirsə, bu evdən çıxın!

– Bu ağa dindarlıqdan çox taxt-tacın düşmənləri ilə əlbirdir. Bizdə məlumat var, – ajanların biri dilləndi.

Kərəm elə qışqırdı ki, səsi Təbrizin bütün xiyaban və küçələrini bürüyən izdihamın önündə gedən azadxahların səsinə qarışıb daha da gücləndi. Ağa Həmidin ölüm xəbəri dostları və qohumları arasında ildırım sürəti ilə yayıldı. Onun əzan çəkdiyi məscidə qoyulan nəzarət bir qat da gücləndirildi. Heç kəsi məscidə sarı buraxmırdılar. Bu neçə illərdə dövlət əleyhinə təşkil edilən yığıncaqların burada olduğu xəbərini alan jandarm zabitləri məscidi üzük qaşı kimi mühasirəyə almışdılar. Məqsəd ağa Həmidin dəfni üçün gələn təşkilat üzvlərini tutmaq və içəri buraxmamaq idi. Saat on olardı. Artıq məscidin bütün qapıları jandarrmlar tərəfindən tutulmuşdu. Jandarm zabitləri icra edəcəkləri əmrdən çox

narazı idilər. Onların əmrləri ilə darvazalar bağlansa da, kiçik qapılar açıq idi. Polis camaatın məscidə axınının qabağını almaq üçün kiçik qapıdan adamları bir-bir buraxırdı. Qapıda toplaşan camaatın sayı get-gedə artırdı. Vaxt keçdikcə camaat çoxalır, qəzəb, kin də artırdı. Ağlı kəsəndən bu məsciddə ağa Həmidin Allah kəlamlarını dinləyən gənc bir oğlan içəri buraxılmağını xahiş elədi. Rədd cavabı alınca zabitə üzünü tutdu:

– Siz beş-üç nəfər tulalarınıza güvənməyin. Əlinizdəki silah bu kütlənin qarşısında sizə kömək eləməyəcək. Lazım gələrsə, sizin boğazınızı dişimizlə qırarıq. Siz silahınızla zülmkarı qoruyanda, ağa haqqın, ədalətin müdafiəçisi olub. Bütün Təbriz əhli bunu bilir. Bizi ağa ilə vidalaşmağa qoymamağa haqqınız yoxdur.

Vəziyyət get-gedə çətinləşirdi. Jandarm zabitləri ilə camaat arasında xırda toqquşmalar başlamışdı. Bunun aqibəti çox ağır ola bilərdi. Kərəm çıxılmaz vəziyyətdə idi. Onu hər dəqiqə tuta bilərdilər. Atasının meyiti arada qalıb rüsvay olardı. Bu zaman məscidin yuxarı tərəfindən onlara sarı gələn böyük bir izdiham göründü. İzdihamın önündə bir neçə çadralı qadın, yanlarında Mürsəl və yoldaşları gəlirdi. Onlar yaxınlaşana qədər camaat məscidin bağlı qapısına doğru yol açırdılar.

Mürsəl əl ağacına söykənə-söykənə üzünü zabitə tutaraq amiranə bir səslə qışqırdı:

– Bu sizin yenə növbəti fitnənizdi, cənab zabit? Müsəlmanın meyitini Allah evinə buraxmamaq ən böyük günahdır. Biz buna təəccüb etmirik. Sizin boynunuzda bundan ağır günahlar var.

Zabit mülayim səslə və nəzakətlə cavab verdi:

– Dövlətin əmridir, ağa. Biz əmri yerinə yetiririk.

– Ömrünü Allah evində ibadətlə keçirən bəndənin meyitini məscidə buraxmamaq da dövlətin əmridir?

– Bəli, ağa, biz kimik ki, əmrə tabe olmayaq.

– Dövlətin belə işlərə qarışması İran tarixində görünməyən bir hərəkətdir, cənab zabit.

– Mən əmrə əməl edirəm, – deyə zabit eyni tərzdə cavab verəndə Fatma çadrasının altından əlini çıxarıb düyümlənmiş yumruğunu yuxarı qaldırdı.

– A kişilər, biz nə vaxta qədər bu ağaların çaldıqları havaya oynayacağıq? Onların cavabını verməyin vaxtı çatıb, qardaşlar.

Fatma öz qüvvəsini yoxlamaq istəyən bir komandan kimi üzünü camaata tutdu. –Allahın bəndələri, biz bir möminin namazına durmaqla Allahın əmrini yerinə yetiririk. Bizə heç kəs mane ola bilməz. Bu bütün müsəlmanların haqqıdır.

Fatma dörd tərəfində sıxlaşan, onun sözünə qüvvət verənlərin çoxalmağını istəyirdi. Molla Qəmbər oxuduğu Allah kəlamını qəsdən uzada-uzada yığışan camaata sarı döndü. Üzünü qibləyə çevirib var gücü ilə dilləndi:

– Allahu Əkbər!

Dörd tərəfdə duranlar onun sözünü təkrar elədilər.

– Allahu Əkbər!

Mürsəlin işarəsi ilə camaatın arasından çıxan firqə fəalları irəli atılıb Kərəmi tutmaq üçün dartınan jandarm zabitlərinin qabağında yarılmaz bir sədd çəkdilər. Namazın qurtarmağı ilə ağa Həmidin cənazəsi igidlərin başı üzərinə qaldırıldı. Camaatla polis arasında toqquşma başlandı. Açılan güllə səsindən də güclü bir «ura» səsi eşidildi. Onun ardınca «Yaşasın azad Azərbaycan», «Milli müstəqilliyimiz uğrunda canlarından keçənlərə eşq olsun!», «Qələbə bizim olacaq» – şüarları camaat arasında dağ seli kimi gurladı. Bu səsin dalınca böyük bir kütlə addımlayırdı. Camaat nəzmiyyə idarəsinin qabağından keçəndə dildə-ağızda gəzən bu şüarlar daha güclü səslənir, bütün həyatını bu mübarizəyə həsr edən ağa Həmidi son mənzilə yola salırdı. Təəssüf ki, otuz illik əqidə dostu, qardaşı ağa Qasımın bundan xəbəri olmadı.

Azərbaycan Demokrat Firqəsnin Təbriz təşkilatının qərarlaşdırdığı, hələ iki gün sonra başlanacağı nəzərdə tutulan mitinq, indi ağa Həmidin dəfn mərasimi ilə başlayıb axıra çatmalı idi. Qərara alındı ki, mitinqin önündə Mürsəl, Kərəm, Namaz, Səxavət, qadınlardan Fatma, Mahtaban, Səltənət və Karena getməli, nəzmiyyə idarəsinin qarşısından keçəndə dayanmalı, Mürsəl çıxış etməlidir. Bu dəfn mərasimini təşkilat üzvləri şah rejiminə qarşı mitinqə çevirməlidir. Başqa vaxt fürsət olmayacaq. Mürsəlin səhhəti buna imkan vermədiyinə görə cavanlar, onu, demək olar ki, növbə ilə əlləri, qolları üstündə aparırdılar. Hətta nümayişlərin hansı küçələrdən keçəcəyini də müəyyənləşdirmişdilər. Özünü güclə mərasimə çatdıran Etibarla, Gültəkin insanları yara-yara cənazəyə doğru addımlayırdılar. Etibar Mürsəli qolları üstə apa-

ran cavanın qulağına nə isə pıçıldayıb onun yerini əvəz eləyəndə, Fatma gözlərinə inanmadı. İndi sorğu-sual vaxtı olmadığı üçün səsini çıxarmadı. Lakin neçə illərdi sinəsinin altında daşa dönən bir hiss ürəyini titrədib canını lərzəyə gətirdi. Etibar bunu görüb hiss eləmədi. İnsan seli nəzmiyyə idarəsinə yetişəndə Fatma heç kəsə imkan vermədən adəti üzrə yenə yumruğunu başı üzərinə qaldırdı.

İzdiham bu işarəyə bəndimiş kimi, ləngərlənib dayandı.

– Xalqımızın azadlıqsevər oğullarının qatili azərbaycanlı türklərinin qanına yerikləyən şah rejimidir, qardaşlar. Bu rejim nə qədər durur, bu rejim nə qədər var, evimizdə rahat ölməyə də haqqımız olmayacaq. Dilimizə, mədəniyyətimizə, adətlərimizə, sərvətlərimizə haqqımız olmadığı kimi. Haqqımızı Pəhləvi səltənətindən tələb eləməyin vaxtı çatıb. Azərbaycan Milli Demokrat partiyasının ətrafında birləşməsək, muxtariyyətimizi bərpa etməsək, yenə bizi həbslər, mərhumiyyətlər gözləyir. Otuz il bundan qabaq xalqın əlindən alınıb qanla batırılan azadlıq xalqın özünə qayıtmalıdır. Təkcə azərbaycanlı türklərinin deyil, İranda yaşayan azsaylı xalqların da insan kimi sayılmağa ixtiyarları var, qardaşlar!

Mərasim asfalt yolla irəlilədikcə izdiham da böyüyürdü. İzdiham şəhərin içinə doğru irəlilədikcə yollardan keçənlər mərasimə qoşulur, izdiham getdikcə gurlaşırdı. Küçələrdə maşınların hərəkəti dayanmışdı. Jandarmlar hər ehtimala qarşı yolun hər iki tərəfində ağac kimi düzülmüşdülər. Bütün bunlara baxmayaraq insanlar cənazənin dalınca ağır-ağır addımlayır, ara-sıra ayaq saxlayır, hökumət əleyhinə ciddi şüarlar söyləyirdilər. Bu günkü izdihamda qəribə bir canlanma, böyük bir təntənə var idi.

Düz üç gündən sonra məharətlə icra olunmuş əməliyyat nəticəsində dəfn mərasimində şəkili çəkilmiş adamlar gecə evlərindən çıxarılaraq həbsxanalara doldurulduldular.

Günəşə doğru

İran İslam İnqilabının qələbəsindən iki ilə yaxın vaxt keçmişdi. Şahlıq rejimi dağılmış, yerində İran İslam Respublikası qurulmuşdu. Yenə sadə camaatın həyatında heç bir dəyişiklik əmə-

lə gəlməmişdi. Dəyişən yalnız dini qayda-qanunların daha da sərtləşməsi idi. İndi də ixtiyari-sahib din liderləri idi. Azadxahların bəziləri həbsdən azad edilməmiş, bəziləri də təqiblərdən can qurtarmaq üçün dünyaya səpələnmişdilər. Canlarını torpaq, vətən üçün qurban verənlər növbəti qaçqın-sürgün həyatı yaşayırdılar. Oğluna-ərinə qovuşmaq üçün işıq ucu tapdığı halda Fatma qorxulu cinayətkar kimi yenə dəmir barmaqlıq arxasında saxlanırdı. Onun xarici aləmlə əlaqəsi tamam kəsilmişdi. Qasımın ciddi xəstə, oğlunun yaralı olduğunu təxmini də olsa, bilirdi Fatma. Odur ki, onlara qovuşmaq ümidi, demək olar ki, puça çıxmışdı:
– Bəlkə o alçaq yalan deyirdi? Onun dediyi adamlar heç mənim oğlum, ərim deyillər. Nə bilmək olar?

Əgər Mürsəl azadlıqda olsaydı, bəlkə, məni axtarıb tapardı. Ya elə Cavada mənim haqqımda bir xəbər verərdi Amma, Səltənətin bu yaxınlarda onunla bir həbsxanada olduğunu, Mürsəlin hələ də həbsdə saxlandığını öyrənib xeyli sevinmişdi. Bununla belə qəlbini ağır bir kədər bürümüşdü. Onları üzləşdirmək məqsədi ilə Mürsəli məhkəmə zalına xərəkdə gətirmişdilər. Mürsəl onu görəndə yad bir adam kimi soyuq baxışlarını Fatmanın üzünə zilləyib xeyli susmuş, sonra yumruğunu sıxıb yuxarı qaldırmışdı. Fatma onu sözsüz başa düşmüşdü. Onları müdafiə eləyən vəkilin çıxışı ona böyük ümid vermişdi. Vəkil ustalıqla dəlil-sübutlar gətirir, onun ancaq şahlıq rejiminə qarşı mübarizə apardığını, hələ də İran İslam Respublikasının vətəndaşı olmadığını, yeni hökumətə qarşı heç bir iddiayla çıxış etmədiyini vurğulayırdı. Bu da salonda oturan başı əmmamələiləri razı salmırdı: O, bizim qadınlarımıza hüquqlarını qandırmaqla, onların əxlaqını pozur, özü kimi dinsiz-imansız eləmək istəyir deyə qışqırışırdılar.

Bu qarışıqlıqdan istifadə edən prokuror oturanların diqqətini cəlb etmək üçün gur səslə sözə başladı:

– Müttəhim bir neçə demokratla birlikdə həbsdən qaçıb uzun müddət Əfqanıstanda yaşamışdır. Əfqansıtan inqilabının liderləri ilə görüşmüş, şürəvi həmvətənliləri ilə əlaqə yaratmağa çalışmışdı. Gizli yollarla bura qayıdıb nümayişlərdə iştirak eləmişdi. Fatma Azəri demokrat əri Qasım Azəri kimi sovet casusudur və ən ağır cəzaya layiqdir.

Yerlərdən onun çıxışına haqq qazandıran, etiraz eləyən də ol-

du. Amma hakim onun sözlərinə, deyəsən, bir o qədər də fikir vermədi. Bu Fatmanın nəzərindən qaçmadı. Salona göz gəzdirdi. Mürsəli bir daha görmədi. Vəkil üzünü hakimə tutub yenidən söz aldı:

– İttiham edilən Fatma Azəri şahlıq rejiminin devrilməsi üçün nümayişlərə qatılıb. Şah taxt-tacı devrilmiş, onun verdiyi hökm və cəzalar da ləğv edilib qüvvədən düşmüşdür. Mən Fatma Azəriyə və yoldaşlarına bəraət tələb edərkən Tanrının, bir də sizin ədalətinizə güvənirəm.

Salondan yüngül alqış səsləri eşidildisə də, qərəzli çıxış eləyənlər də oldu. Həmişə olduğu kimi indi də yeni hökümətin etimadını qazanmaq istəyənlərin qərəzli çıxışlarının ardı-arası kəsilmirdi. Tez-tez Fatmanın Arazın o tayından, şimali Azərbaycandan gəldiyini vurğulayıb məhkəmənin diqqətini yayındırmağa çalışırdılar.

Sonuncu məhkəmədən iki-üç həftə vaxt keçmişdi. Qəflətən nəzarətçi içəri girib Fatmanı həbsxana rəisinin yanına çağırdı. Bu, Fatmaya çox gözlənilməz oldu. Otaqdakılar da təəccüblə birbirinin üzünə baxdılar. Yaşca hamıdan böyük olan Ayşə ana gülə-gülə Fatmaya yaxınlaşıb qolundan tutdu:

– Özünü itirmə, qızım. Deyirlər ki, bir gün dəvəyə xəbər gəlir ki, hökmdar səni toya çağırır. Dəvə çox qəmgin olur, deyir ki, məni çağırıb ya bağa oduna, ya bulağa suya göndərəcək. Mən hökmdarın nəyinə gərəyəm ki, toya çağıra. İndi, qızım, hər şeyə hazır ol! Möhkəm dayan. Sorğu-sualdan qeyri səni nəyə çağıracaq ki?..

Hamı bir ağızdan gülüşdü.

Fatma könülsüz-könülsüz qapıya yönələndə otaqdakılar donuq baxışlarla onu yola saldılar. Fatma rəisin qapısını ustufca araladı. Dizləri əsə-əsə içəri girəndə otaqda ondan, bir də nəzarətçi qadından başqa kimsəni görmədi. Rəis: –Yaxına gəl deyə kobud, quru səslə dillənəndə, Fatmanın ürəyi aramsız döyündü. Rəis yumurtaya bənzər domba gözünü kağızdan çəkmədən vərəqi onun qabağına itələdi:

– Al, oxu və qol çək!

Bu rəzilin növbəti kələklərindən biridir deyə fikirləşdi. Fatmaya elə gəldi ki, Karapet deyilən murdar indicə yan otaqdan

yenə hırıldaya-hırıldaya çıxacaq, bütün ümidləri alt-üst olacaq-Mən ölməmişəm, Fatma sənin qaraçuxana dönüb dalınca qədəm-qədəm gəzirəm deyəcək. Onun it kimi gəbərdiyini bilə-bilə Fatmanın canından bir üşütmə keçib bütün vücudunu titrətdi. Rəisin hələ də onu gözlədiyini görüb özünə gəldi. Vərəqi götürüb gözünə yaxınlaşdırdı. Oxuduqca əlləri əsir, gözləri alacalanıb böyüyür, az qala yerindən çıxırdı. Fatma kağızın onun azad olması haqda məhkəmənin qərarı olduğunu biləndə özünə xeyli gələ bimədi. Bunun həqiqət, ya yuxu olduğuna inanmaq üçün stola çöküb təkrar oxudu. Bu həqiqət idi. Onun gözlərindən yaş leysana dönüb axır, sinəsini isladırdı. Bunun sevinc, ya kədər yaşı olduğunu Fatma özü də bilmirdi.

Fatma kiçik bağlaması əlində küçəyə çıxanda baharın ilkin çağı idi. Ağacların budaqlarındakı tumurcuqlar düymələrini açıb qınından sıyrılıb çıxmaq istəyirdilər. Çəmənlər, göy otlar, çiçəklər meh dəydikcə tumarlanır, xırda çəmən gülləri gəlin kimi nazlanırdılar. Gah da qəfil bahar yağışından sonra mirvari sırğalar taxır, sanki toya-bayrama hazırlaşırdılar.

Fatmanın ürəyi sıxıldı. Dərindən köks ötürüb, təmiz bahar havasını acgözlüklə ciyərinə çəkdi. Onu heç kəs qarşılamırdı. Ona elə gəldi ki, boz səhraya tənha düşən, yolunun səmtini, yönünü tapa bilməyən qərib, kimsəsiz bir yolçudur. Bağlamanı sinəsinə sıxıb yolun kənarında oturub xeyli ağladı: «Hardasan, oğul? deyə sinəsindən odlu bir ah qopdu. Addımlarını yeyinlədib mümkün qədər bu binadan uzaqlaşmağa çalışdı. Bir xeyli yol gedib qanrılıb bir də geri baxdı. Həbsxana binası ona qara kabus, yeddi başlı əjdaha kimi göründü. Ona elə gəldi ki, kabusun qara əlləri onu yenə dartıb əjdahaların arasına atacaq, bir daha yaxasını qurtara bilməyəcək. Fatmanı vahimə bürümüşdü. O, yerimirdi, qaçırdı. İyirmi beş ildir doğma Vətənində onu Vətənsiz eləyən o qara kabusdan qaçıb can qurtarmaq istəyirdi. Qaçıb qurtaracağına da Fatma əmin deyildi. Çünki o kabus ölməmişdi, hələ sağ idi. O əjdaha bundan sonra neçə fatmaları çəkib udacaq, neçəsini qolsuz, qılçasız qoyub şikəst eləyəcək, neçə soydaşını didərgin salacaqdı.

Fatma içində nəhayətsiz bir boşluq hiss elədi. Neçə illərdi apardığı mübarizənin, belə sonluqla başa çatması onu ağrıdır,

soydaşlarının qırılan taleyi, məhv olan arzuları onu yandırıb-yaxırdı. Bütün bunlarla bahəm gələcək mübarizəyə böyük ümidlə addımlarını yeyinlətdi.

– Tarix bizi yenə bir sınaqdan keçirtdi. Bir əsrdə dörd dəfə azadlıq bayrağı qaldıran bu xalq yenə ayağa qalxacaq. Biz odda yandırsalar yanmaz, suda batırsalar batmaz bir xalqın övladlarıyıq!

Fatma ürəyində böyük qürur, inam hissi ilə Təbrizə doğru gedirdi.

O, həbsxanadan çıxıb birbaş Sofiyan kəndinə Vahabgilə getmiş, görüb-eşitdiklərindən kor-peşiman olmuşdu. Darvazadan asılan qıfılı görüb dəhşətə gəlmişdi. Bir neçə dəfə hasarın başına fırlansa da, heç kəsi görə bilməmişdi. Ağacların dibində oynayan qonşu uşağından onların hansı ölkəyəsə mühacirət elədiklərini öyrənib sarsılmışdı. Uşağın səsinə çölə çıxan anası Fatmanı görən kimi tanısa da, evə dəvət eləməmiş, qorxa-qorxa ailənin başına gələnləri danışıb, tez də oğlunu götürüb evə getmişdi. Qonşu qadından Vahabın həbs edilərkən öldürüldüyünü, Gültəkinin oğlu Babək, anası Mədinə ilə getdiyini öyrənərkən Fatma ayaq üstə uçunur, dili-ağzı söz tutmurdu. O qədər təsirlənmişdi ki, Səxavəti də soruşmamışdı. Üç il yaşadığı bu həyət ona nə qədər doğma, nə qədər əziz idi. Fatma baxışları ilə həyətlə vidalaşıb bir az aralanmışdı ki, qonşu qadın tövşiyə-tövşiyə yüyürüb ona çatdı. Əlindəki qara salafana sarıqlı kiçik bükülünü ona uzatdı.

– Bacı, bu nə isə Gültəkin mənə etibar eləmişdi. Yalvarmışdı ki, işdi, axtaran olsa ona verim, sizə çatdırsın. Evdə saxlamaqdan qorxuram. Ərim görsə, başıma müsibət gətirər. Heç kəsə etibar eləmək olmur. Demokratların təqibindən canımız qurtarmamış, indi də bunlar xalqa dinclik vermirlər. Yenə yağışdan çıxıb, yağmura düşmüşük. Gündə biri taxta çıxır, arada didərgin, səfil gəzən də bax belələri olur.

Qadın əlini Mədinəgilin həyətinə uzadıb ağlamsındı.

– Qonşuluqda mənə bacıdan artıq olmuşdu. İndi bilinmir dünyanın harasındadır. Zəncandan bura qaçıb gəlmişdilər, burdan da dərbədiyar oldular. Allah belə zamanı dağıtsın ki, biz gəlib çıxdıq. Baisin evi yıxılsın, qapısı çırpılsın.

Fatma qadınla sağollaşıb geri qayıtdı. Təbrizə gedən avtobus-

ların birində yer alıb oturdu. Qəhərlənə-qəhərlənə bağlamanı açdı. Bu Gültəkinin şeir dəftərləri, bir də Fatmanın onlarda qoyub getdiyi xatirə və qeyd dəftəri idi. Fatma: «Sağ ol Gültəkin, – deyə dəftərləri bağrına basdı.

Şər qarışmışdı. Fatma hara gəldiyini, kimin qapısını döyəcəyini kəsdirə bilmirdi. Mahtabanın ünvanını da unutmuşdu. Yəqin onun da başında bir qəza var, bəlkə, hələ də həbsxanadadır, nə bilmək olar deyə fikirləşə-fikirləşə Mürsəlin evinə çatdı. Ordan başqa heç bir ümidgahı qalmamışdı. Mürsəlin də azadlığa çıxdığına ümidlə qapını döydü. Qapını Namaz açdı. Qarşısında Fatmanı görüb özünü itirdi. Hər ikisi sevindiyindən ağlayırdı. Səsə Səltənət mətbəxdən gələndə hər üçü qucaqlaşdılar. Fatma öyrəndi ki, Namazı qulluq elədiyi sahibkarın oğlanları azad elətdirmiş, qayıdan kimi Mürsəli axtarmışdı. Məlum oldu ki, onlara vəkili də Namaz tutub. Səltənətlə köməkləşib Mürsəli də həbsxanadan birbaş xəstəxanaya aparmışdılar. Mürsəlin xahişi ilə onu bir dostunun oğlu müalicə edir. Müalicəsinə də heç bir xərc almır. Bunu eşitcək Fatma çarşabını götürüb özünü qapıya atdı: – Mən elə bu saat ora getməliyəm, Namaz deyə Fatma pilləkanlardan birnəfəsə aşağı düşdü. Namaz, Səltənət qapını bağlayıb çölə çıxanda Fatma artıq küçənin başına çatmışdı. Namaz maşını düz səkinin qırağında saxlayıb Fatmanın qolundan yapışdı:

–Sən xəstəxananı tanımırsan, bacı, – deyə onu maşına oturtmuşdu.

Namaz da, Səltənət də Fatmanın belə tələsik, başıalovlu evdən çıxmağının səbəbini anlaya bilmirdilər. Onun həyəcanını görüb, heç nə soruşmur, çaşıb qalmışdılar. Xəstəxananın ikinci mərtəbəsinə çıxıb Mürsəl yatan otağa çathaçatda Fatma sol tərəfdə qapının üstündəki lövhəni görüb özünü itirdi. Hövründən çarşabını başından atıb lövhədəki yazını bir də oxudu. Qapının üstünqdə doktor Cavad Azəri sözləri açıq-aydın yazılmışdı. Fatmanın gözləri qaraldı. Bütün ətrafdakılar kiçilib bir nöqtə kimi görünəndə huşunu itirdi.

Onun başına xeyli adam toplaşmışdı. Yerdə ölü kimi uzanan bu yad qadını heç kim tanımırdı. Fatma özünə gələndə çarpayının başında ağ xalatlılardan başqa heç kimi görmədi. Başını qaldırıb Səltənətin yanındakı byolu-buxunlu, qonur gözlü, qara,

qıvrım saçları alnına dağılmış gəncin şəfqətlə ona baxıb gülümsədiyini gördü. Gözləri alacalanıb böyüdü, pəltək adam kimi kəkələdi:

– Mən hardayam, Səltənət, bəs Mürsəl hanı? Hamınız tələşlı görünürsünüz, nə baş verib?

Səltənət onun durumunu başa düşüb, birdən-birə nə isə deməkdən çəkindi. Onun ağladığını, Namazın da dodaqlarının səyridiyini görüb Fatma yerindən dik qalxdı.

Həkim cəld özünü irəli verdi:

– Sənə belə həyəcanlanmaq olmaz, ana deyə Fatmanın boynuna sarıldı. Kənarda əlağacına söykənən Mürsəl də özünü saxlaya bilməyib hönkürdü.

Fatma iyirmi beş illik həsrətini oğlunun qolları üstündə ovuda-ovuda yenə huşunu itirdi, gözlərini açanda oğlunun sevinc yaşları ananın həsrət yaşlarına qarışıb axdıqca, axdı.

Fatma oğlunun boynuna sarılıb əllərindən, alnından, gözlərindən dönə-dönə öpür, iki yaşında ondan ayrılan balasının bığlı, saqqallı kişi olduğuna hələ də inanmağı gəlmirdi. Bu görüşün təsirindən ayılıb Qasımdan bir söz soruşmağı da unutmuşdu Fatma. Mürsəl Cavadı kənara çəkib nə isə pıçıldadı. Cavadın: – Yox, hələ vaxtı deyil, sözündən Fatma başa düşdü ki, Qasım həyatda yoxdur. Oğlundan ar eləyib sussa da, ürəyi, qəlbi, bütün varlığı ilə sevdiyi, həsrətini çəkdiyi adamın intizarı onu dilləndirirdi. Amma oğlunun səadət dolu ovqatına acı qatıb dərdini təzələmək istəmirdi. Fatma geri çəkilib bir də oğlunun boy-buxununa baxdı:

– Niyə mən o vaxt sən çıxış eləyəndə mənim balam olduğunu ağlıma gətirmirdim, oğul? Çadrasını başına atıb, səni ölümdən qurtaran qıza da sonsuz minnətdarlığımı bildirməyə vaxt tapmadım. O, çoxlu yaralar almışdı. Özünə gəlincə məni yenə şahın jandarmları «ezamiyyətə» göndərdilər.

Otaqdakılar bir ağızdan güldü. Aradakı gərginlik xeyli səngidi, hamı rahat nəfəs aldı.

Cavad xalatını soyunub anasının qabağında dik dayandı:

– Ayağa qalx, evimizə gedək, ana! Bizim bir-birimizə deməyə çoxlu sözümüz olacaq. Məni ölümdən qurtaran qız da burda, sənin qarşındadır.

Cavad kənarda səssiz-səmirsiz oturub göz yaşını gizlədə bilməyən Güllünü yaxına çağırdı. Güllü azacıq axsayırdı. Üzündə də bir neçə yerdə yara yerləri dururdu. O, Ftamanı çoxdan tanımışdı. İzdihamda gördüyü o şəfqət dolu gözlər heç dəyişməmiş, sifəti bir xeyli avazıyıb soluxmuşdu.

Fatma mənim balam deyə onu qucaqlayıb bağrına basdı.

– Hər ikiniz mənim övladlarımsınız, – deyib ayağa qalxdı. Güllü bu şad xəbəri anasına, Kərəmə çatdırmaq üçün tələsirdi.

Cavadgil evə axşamdan xeyli keçəndən sonra çatdılar. İkigözlü alçaq bu ev Fatmaya bir saray kimi göründü. Otaqların divarlarından doğmalıq yağırdı. Demək, uzun müddət Qasım burda mənsiz yaşayıb. Həyatda yoxdursa, Cavad mənə niyə demir? Bəlkə, onu yenə tutublar? Köhnə demokratı inanmıram ki, dinc qoyalar. Bəs hansı səbəbdən Cavad dillənmir?

Öz-özünə saysız-hesabsız suallar verən Fatmanın səbri lap tükənmişdi. Dillənib bu haqa soruşmaq istəyirdi ki, Cavad onu qabaqladı. Qolundan tutub yan otağa gətirdi.

– Bura atamın otağıdır, ana, indi sənə məxsusdur. Bilirəm, mənə çoxlu sualların var. Atam nə ölüb, nə də həbsxanadadır, ana.

Fatma cəld geri döndü:

– Bəs onda səni necə başa düşüm, Cavad? Tez ol, məni başa sal!

– Onu bu vəziyyətə salan bax elə bu köhnə sandıq olub, ana!

Fatma içəri girən kimi o köhnə sandığı tanımışdı. Sandıq Qasımın anasının yadigarı idi. Amma içindəki əşyalardan xəbərsiz idi deyə mat-mat oğlunun üzünə baxdı. Elə bil nitqi batmışdı. Əyilib sandığın qapağını qaldırdı. Amma əlini heç nəyə vurmadı.

–Biz mintinqdə çıxış edib yaralananda atamın xəbəri yox idi. Onu hər tərəfdə axtarırdılar deyə evdən çölə çıxmırdı. Hətta Həmid əminin öldüyünü də bilmirdi. Onu mühafizə edən bizim uşaqlar atamı sandığın qabağında, bax bu şəkildə huşsuz tapıb xəstəxanaya aparıblar.

Cavad ara verib sözünə davam etdi:

–Mən sağalıb üzə çıxandan sonra onu uzun müddət müalicə elədim. Çox təəssüf ki…

Cavad dərindən ah çəkib üzünü yana çevirdi.

Fatma toy günü Qasımla çəkirdikləri şəkili görüb xeyli qəhərləndi.

Fatma oğlunun ağladığını görüb özü də kövrəlmişdi. Onu daha artıq mütəəssir eləməmək üçün özünü toxtatdı. Əllərini otaqdakı əşyalara sürtə-sürtə dilləndi:

– Hə, oğlum, sonra nə oldu, danış! Mən bu iyirmi beş ildə bundan da çox əzab, işgəncələr görmüşəm, mənim balam. Narahat olma, buna da dözərəm. Mübarizəmizin belə sonluqla qurtarması bizim məğlubiyyətimiz deyil, Cavad. Atan burda olsaydı, o da mənimlə razılaşardı. Biz ruhdan düşməməliyik. Gələcəkdə daha böyük qüvvə ilə irəli çıxacağıq, oğlum. Mən buna inanıram. Bunu siz gənclər eləyəcəksiniz. Necə ki, biz elədik.

–Elə atam da sən deyəni fikirləşə-fikirləşə xəstəxanalara düşdü, ana. Hələ inqilab başlamamış o, bu sonluğu görürdü, ana. Odur ki, köhnə ruhi xəstəliyi şiddətləndi, üstəlik də huşunu itirib yıxılanda başı sandığın tilinə dəyib yaddaşını itirmişdi. Sənin izsiz-soraqsız itgin düşməyin, təqiblər də öz işini gördü, ana.

Cavad yenə kövrəlib uşaq kimi anasının sinəsinə sığındı. Fatma ağlamırdı. Göz yaşları qəzəbə, nifrətə dönüb kipriklərində donmuşdu. Qanı damarlarında elə bil heç axmırdı. Sıxılmış yumruğunu bir neçə dəfə divara vuranda sifətində bir kişi sərtliyi, əqidə, məslək yolçusunun dönməz, sarsılmaz iradəsini görürdü. Ona baxdıqca yuxusuz gecələrinin, qayğılı uşaqlıq illərinin ağrı-acısının unudurdu. Bununla belə ata-anasının yaşanmayan illərinə yanıb-yaxılsa da, tutduqları mübarizə yolu ilə fəxr edir. Qürur duyurdu.

Cavad bu neçə ildə özü də az iş görməmişdi. Neçə mühacir soydaşları ilə əlaqə yaratmış, Mürsəl tutulduqdan, atası xəstələnəndən sonra Azərbaycan Demokrat Firqəsinin köhnə və təzə fəallarını bir yerə toplayıb partiyanın Təbriz təşkilatını yenidən bərpa edib gizli fəaliyyətə keçirmişdi. Cavad əvvəlki inqilabların səhvini təkrarlamamaq üçün önəmlisi qarşısına milli birliyə nail olmaq kimi bir məqsədi qoymuşdu. Lakin o bu birliyə gedən yolun əzab və məşəqqətlə dolu olduğunu, hələ bu yolun başlanğıcında dayandığını da başa düşürdü.

Cavad bir neçə gündən sonra anasının təkidi ilə atasını xəstəxanadan çıxarıb evə gətirmiş, müalicəsini öz üzərinə götürmüşdü.

Bu neçə ildə Qasım Fatmaya əzab verirdi. İyirmi beş il əlləri birbirinə uzalı, cavanlıq keçirməmiş qocalan ata-anasının yad adamlar kimi dolanmaları Cavadın da ürəyini ağrıdırdı. Əzab dolu günlərin birində gözlənilmədən Qasımın yaddaşı özünə qayıtmışdı. Qasım ağa Fatmanı tanıyıb bu xoşbəxtlikdən huşunu təkrar itirmiş, xeyli vaxt özünə gələ bilməmişdi. Ayılıb huşa gələndə xoşbəxt çağlarının Fatmasından əsər-əlamət görmədi Qasım ağa.

Üzünü əllərilə örtüb uşaq kimi hönkürdü. Qarşısında ahıllaşıb yaşa dolmuş, illər saçlarında qrovlayan, solğun çöhrəli bir qadın gördü Qasım ağa. Təkcə kənarlarında seyrək qırışlar olan gözləri əvvəllərdə olduğu kimi şəfqət, məhəbbətlə dolu idi. O, kənarda dayanıb səssizcə ağlayan oğluna da məhəl qoymadan yaşına yaraşmayan bir çılğınlıqla cavanlıqda cazibəsindən qaça bilmədiyi Fatmanın gözlərindən, saçlarından dönə-dönə öpdü. Gördüyünə inanmırmış kimi hələ də əlindən yerə qoymadığı çərçivəyə salınmış şəkili bir yana qoyub köhnə sandığın qabağında diz çökdü. Onun yaddaşını qaytaran köhnə sandıq, bir də o şəkil olmuşdu. Cavad bir həkim kimi dava-dərmandan çox, bu əşyalara və bir də anasının keçmiş həyatları ilə bağlı söhbətlərinə üstünlük vermişdi: «Keçmişi yaddaşa qaytarmasaq, heç nə eləyə bilməyəcəyik, ana»,– demişdi. Unutqanlıq insan üçün ən xətalı xəstəlikdir. Atamı sənli, mənli bu xəstəlikdən qurtarmalıyıq. Başqa çarəmiz yoxdur deyirdi.

Hər üçü baş-başa verib ağlayırdılar. Onların hıçqırıqları Təbrizin üstündən çəkilməyən qatı dumana, gecənin zülmətinə qarışıb itirdi. Onlar o qara dumanın nə vaxtsa çəkiləcəyinə, axıtdıqları göz yaşlarının torpağın yanan sinəsini soyudacağına inanırdılar.

Qarlı, şaxtalı qışdan sonra başı bəlalı Təbrizə yenə bahar gəlmişdi. Təbiətin dəyişməz qanununa qarşı heç bir qüvvə dura bilməz. Yazın yaz, qışın da qış vaxtını dəyişdirmək mümkün deyil. Bu dəyişməz qanunun yaz çağı Novruz bayramına qarışanda daha təmtaraqlı olur. İnsanların ürəyi sevincdən, həvəsdən aşıb-daşır.

Neçə illərdi qadın nəfəsinə həsrət, bayram təntənəsi görməyən Qasım ağanın evində Novruz süfrəsi açılmışdı. Bu evə ikiqat

bayram sevinci gəlmişdi. Cavadla Güllünün oğlan övladları dünyaya göz açmışdı. Qasım ağa nəvəsinə İntiqam adı vermiş, bu münasibətlə dost-tanışlarını evinə dəvət eləmişdi. Süfrənin ətrafında yenicə ailə quran Mürsəllə Səltənət, Namaz, Kərəm, Zeynəb xala oturmuşdular. Kərəm bu yaxınlarda Bakıdan Səxavətin ailəsi və Mahtaban haqqında aldığı məlumatı, Cavad isə Avropada yaşayan Karena ilə İstanbulda görüşəcəyi xəbərini çatdıranda məclsidəkilərin sevinci yerə-göyə sığmadı. Fatma Gültəkinin çoxdankı – Şimali Azərbaycanı görmək arzusuna çatdığına nə qədər sevinsə də, hələ Etibardan doğru-düzgün cavab almadığına məyus olmuşdu. Cavadın Etibarla Mahtabanın ailə qurduqlarını və doğmalarına qovuşduqları xəbərini məclisdəkilərə çatdırması əsil bayrama çevrildi. Bağçadakı təzəcə çiçək açan badam ağacına söykənən Kərəm Fatmayla nə haqdasa şirin söhbət eşidirdilər. Qasım narahatlıqla bir neçə dəfə çölə çıxıb gəlmiş, məclisə hörmət əlaməti olaraq qayıdıb yenə yerində otğurmuşdu. Kərəm son nəfəsdə atasının sinəsindən götürdüyü bu dəftərin necə qorunub saxlanmasından danışsa da, atasının çəkdiyi mənəvi əzablardan ondan başqa heç kəsə bəlli olmayan özü ilə məzara apardığı gizli sevgisindən heç nə demədi. Fatma uzun illər qorunub saxlanılan bu əvəzsiz tapıntı üçün Gültəkinə və Həmid ağaya minnətdar idi. Fatmanın sevinc yaşları sakit yaz axşamının mehinə qarışdı. Kərəmi qucaqlayıb öz balası kimi bağrına basdı.

İllər keçmişdi. Fatma «Tale yolu» kitabını yazıb qurtarmışdı. Doğulub boya-başa çatdığı Vətəninə azadlıq günəşi doğmuşdu. Azərbaycanın Şimalında iki əsrə yaxın ağalıq edən rus imperiyasının işğalına son qoyulmuş, torpağını iki yerə bölən tikanlı məftillər sökülüb atılmışdı. Şimali Azərbaycanda müstəqil, azad respublika qurulmuşdu. Xalqın tale yoluna azadlıq günəşinin işığı düşmüşdü.

Etibarla Mahtabanın dəvəti ilə azadlıq günəşinin şimallı, cənublu bütöv Azərbaycanı işıqlandıracağı ümidi ilə vətəndənvətənə doğru üç nəfər gedirdi.

Kabil-Bakı
1979-2014

ƏBƏDİYYƏTƏ QƏDƏR

povest

Ağlıma gəlməzdi ki, bütün varlığımla bağlandığım, bu neçə ildə bir dəfə də olsun çətinliyindən, ağırlığından yorulub, bezmədiyim sevimli işim nə vaxtsa məni darıxdıracaq. Əlimdə nə varsa yarımçıq qoyub, sakit bir guşədə özümlə tək qalmaq ehtiyacı duyacam. Axı bu neçə illər ərzində ürəyimi didib parçalayan pünhanı dərdlərimi, ürək ağrılarımı heç kəsə bəlli olmayan duyğularımı bax elə bu otaqda, bu iki siyirməli masanın arxasında bölüşmüşəm. İşin çoxluğundan heç bir dəfə də olsun vaxt ayırıb özümlə baş-başa qalmaq arzusunda da olmamışam. Etiraf edim ki, bu masa mənə sığınacaq yeri olub. Siyirmənin birinci gözündə sənədlər saxladığım halda, ikinci gözünü çox nadir hallarda açardım. Elə bilirdim ki, bu siyirmədə bir od parçası var, əlimi uzatsam, məni o saat yandırıb külə döndərəcək. Tənədən, qınaqdan yaxa qurtara birməyəcəyəm. Əvvəlki cürətsizliyim baş qaldıracaq, əl-qolumu bağlayıb dilimə qıfıl vuracaq, yenə susacam, susduqca ürəyimin yükü artacaq, o ağrının altından çıxa bilməyəcəm. Təsəlli yerim olan o od parçası dediyim şəkili də itirmişdim. Necə itdiyini, kim götürdüyünü də başa düşmürdüm. Axı onun varlığı özümdən başqa heç kəsə bəlli deyildi.

Mehinlə axırıncı dəfə çəkdirdiyimiz o şəkillə birlikdə mənim keçmişim də düşüb itmişdi. Keçmişi olmayan insanın indisi, gələcəyi də mümkün deyil. O, mənim keçmişim, xatirəm, düşüncələrim, gəncliyim idi ki, yox olmuşdu.

O şəklin yoxluğu ilə ürəyim də billur qab kimi sınıb, çilik-çilik olmuşdu. İçimdə sonu görünməz nəhayətsiz bir boşluq yaranmışdı. Bu boşluğu doldurmaq üçün gecə-gündüz işləyir, vaxtımın çoxunu iş otağında keçirir, başım işdən ayazıyan kimi nəzərlərim siyirmənin ikinci gözünə dikilir, əlimi cəftədən çəkmirdim. Mənə elə gəlirdi ki, indicə möcüzə baş verəcək, axtardığımı tapacam, yanan ürəyimin həsrətinə su çiləyib ovudacam. Bu möcüzə baş vermirdi. Mənim ümidgahıma kiminsə qara əli uzanmış, qara niyyəti ilə onsuz da ağır olan dərdimi bir az da artırmışdı. Ömrün ən əziz günlərinə, şirin, acı xatirələrinə o şəkildən baxdığım halda indi sanki kor olmuşdum. Nə qədər fikirləşirdim şübhələrimi heç kəsə yönəldə bilmirdim. Son vaxtlar mənim iş yerimə ayaq açan

arvadımın da burda əli olduğunu istisna etmirdim. İnsafən, Rəna gələndə heç mənim iş masama yaxınlaşmaz, köməkçim Reyhanla söhbətləşib gedərdi. Bəs nə baş vermişdi? Həndəvərinə quş belə səkməyən nazirliyə o şəkildən ötrü oğrumu gəlmişdi, bilmirdim?

Sabah istirahət günü olduğunu unutmuşdum. Əlimi siyirmədən çəkib başımı qollarımın üstünə qoydum. Qalxıb evə və ya harasa getmək həvəsim də ölmüşdü. Nə qədər belə qaldığımı özüm də bilmədim. Başımı qaldıranda köməkçi qızın əlində bir dəstə kağız masanın lap qırağında durduğunu gördüm. Özümü itirən kimi oldum. Doğrusu, özümü pis vəziyyətə salmışdım. Başımı qaldırıb günahkar kimi qızın üzünə baxdım:

– Çoxdan gözləyirdin, Reyhan? – Deyə bildim.

Qız özünü itirib kağızları qarışdıra-qarışdıra dilləndi:

– Yox, yox, narahat olmağa dəyməz. Bu sənədləri gətirdim ki, imzalayasınız. Bir də…

Reyhan qırıq-qırıq danışır, gözümün içinə baxmır, baxışlarını tez-tez yayındırırdı:

– Bir də nə Reyhan? – Deyə elə bil yuxudan oyandım.

– Heç, elə bir ciddi şey deyil. Babayev sizə zəng vurmuşdu. İcazəniz olmadan səbəbini soruşa bilmədim. O da məktub şəklində göndərib.

– Nə məktub? Xeyir ola?

– Mənə də qəribə gəldi. Özünüz ayırdlaşdırın.

– Düz eləmisən, Reyhan. O şöbə ilə əlaqədar məsələlərə telefonla cavab vermək olmaz. Şamil Babayev məktub göndəribsə, deməli məxfi məsələdi. Sabah tezdən özüm şəxsən yanına gedərəm.

– Sabah iş günü olmadığını unutmusunuz? – Reyhanın dodağı azca qaçdı.– Şöbənin bütün işçiləri yarım saat bundan qabaq çıxıb gediblər. Axı bu gün qısaldılmış iş günü sayılır?

– Bağışla, Reyhan, bunu tamam yaddan çıxarmışdım. O qədər dərd, sər var ki… İnsanın başı kompüter-zad deyil ki, yaddaşına yazıb saxlasın, istədiyi vaxtda da silib atsın. Axı sən hər şənbə günü valideynlərinə baş çəkməyə gedirdin? Yəqin səni ləngitdim, bağışla.

Reyhan durduğu yerdən tərpənmir, elə bil daşa dönmüşdü.

Başımı qaldırıb təkrar dilləndim:

– Bəlkə, mənə bir sözün var, çəkinmə? Səndən köməyimi əsirgəmərəm. Çox fikirli görünürsən, Reyhan.

O yenə bir nöqtəyə baxır, səsini çıxarmırdı. Son vaxtlar onda belə qəribəlikləri tez-tez müşahidə edir, onu ata-anasının qaçqın-köçkün talei ilə əlaqələndirib dinmirdim. Qəlbinə toxunacağından ehtiyat edirdim. Son vaxtlar arvadım Rəna ilə telefonla danışıqları, deyib-gülmələri xoşuma gəlmirdi. Rənanın şöbənin işçisi ilə əlaqə saxlamağına, hərdən də bir şeyi bəhanə eləyib bura gəlməsinə heç razı deyildim. Atamla-anamın mübahisələrini o qədər eşitmişdim ki, belə işləri heç xoşlamırdım.

Reyhana, açıq deməsəm də, üstüörtülü neçə dəfə irad tutmuşdum. Evdə Rənanı danlayıb, mənim işimə qarışmağını qadağa eləmişdim. Heç bir təsiri olmamışdı. Bəzən də Rəna bayramlarda, qonaq gələndə Reyhanı da dəvət eləyərdi. Belə dəvətlərdən anamın da xoşu gəlməz, açıq-aydın səsini qaldırıb onu danlayardı:

– Sən cavansan, hələ çox şeyi başa düşmürsən. Adam ərinin tabeliyində olan işçini evinə dəvət eləyib, pisini-yaxşısını bildirməz. Sənin bu hərəkətin heç Dadaşın da xoşuna gəlmir, qızım. Ağacı qurd içindən yeyər. Nə bilirsən, bu dəbdəbəni görəndə onun qəlbindən nələr keçir? Adamın evini elə özünə yaxın saydığı yıxar. Bunu görə-görə gəlmişik, bala. Bu qızın ayağını bu evdən kəs!

Rəna daş dəyən donuz kimi donquldaya-donquldaya anama cavab qaytarardı:

– Siz necə kölgəsindən qorxan adamsınız, bilmirəm. Bir tikə çörək verib dalınca danışırsınız. İnsanlardan qaçıb nə vaxta qədər gizlənəcəksiniz?

Rənanın qırımını görüb anam yenə mülayimcəsinə onun könlünü almaq istəyirdi:

– Söhbət yeməkdən getmir, Rəna. Ərinin, qaynatanın vəzifəsini düşünsən, gərək suyu da üfürə-üfürə içəsən. Mən evimizin, ailəmizin xeyiri üçün danışıram. Bir halda ki, başa düşmürsən, sonra peşiman olacaqsan.

Anamın dediklərilə razılaşmasam da, onun qadağasından bir məmnunluq duyurdum. Anamın sözünün üstə söz gətirmək adətim olmadığı üçün dillənib mübahisəni dərinləşdirmirdim. Sa-

dəcə, səssiz-səmirsiz öz otağıma çəkilər, susardım. Belə danışıqlardan artıq cana gəlmişdim.

Anam Rənaya uzun-uzadı məsləhətlər verdikdən sonra mətbəxə keçər, acığını, hikkəsini qab-qacağa tökərdi. Gah da səsinin tonunu aşağa salıb deyərdi:

– Rayondan göndərilən ərzaqdan, balıqdan, ətdən anangilə də pay qoy, sürücüyə də ver ki, gözü qalmasın. Bu gördüklərin var ha, hamısı sürücünün əlindən gəlib-gedir. Vəzifədə oldun, gərək ağzıbütöv, etibarlı sürücün olsun. Bütün gizli mətləblər, məxfi işlər sürücülərin vasitəsi ilə görülür. Vallah, neçə ildir bu ailədəsən, yenə də səni öyrədə bilmirəm. Ər-arvad elə bil bu zəmanənin adamı deyilsiniz. Səni qandırmaq görürəm çox çətindir. Xörək bişirəni, qab yuyanı da razı sal. Yeməklərin artığını yerbəyer elə, qalanını da bağbana göndər. İtləri də yaddan çıxarma. Dadaşın köhnə yeməkdən xoşu gəlmir.

Rəna qorxa-qorxa dillənərdi:

– Ölkədə qıtlıq baş alıb gedir, hər tərəf Qarabağdan qovulan qaçqın-köçkünlərlə doludur. Adam xəcalət çəkir. Bu qədər israfçılıq kimə gərəkdi, axı?

Anam Rənanın dediyindən daha da hikkələnər, az qala od tutub yanardı.

– Sən bu dilləri ərindən öyrənmisən? Qaçqının-köçkünün bizə nə dəxli var? Zəmanə adamına nə vaxt oxşayacaqsınız bilmirəm? Nazir evi ilə başqaları bir olmalıdır? Sənin ərin nazir olanda qazandığını paylayarsan camaata. Qaçqın var, hökuməti də var. Bir çarə qılsın.

–Nazir də hökumətdə təmsil olunmur? – Deyəndə Rəna anamı daha çox cırnadardı.

Söhbətin, danlağın məcrasından çıxaracağını, anamın hirsini-hikkəsini yenə üstümə tökəcəyini bilib mətbəxdən çıxar, yenə öz iş otağımda sığınacaq tapardım.

İnsafən, Reyhan işə can yandıran, hamıya qarşı diqqətli və mehriban qız idi. Qarabağlılara məxsus ağayana, danışığının yerini bilən, böyüklərin ehtiramını saxlayan idi. Bir qədər «kobud» ləhçəli olmaqla şən, hazırcavablığı ilə hörmət qazanmışdı. Hərdən əl-ayaq çəkiləndə «Harda axtarım səni?» mahnısını elə ürəkdən zümzümə edərdi ki, adam istər-istəməz dinləməkdən

zövq alardı.

Bu qarabağlılara Tanrı heç kəsdə olmayan bir xoşbəxtlik verib ki, qocalı-cavanlı hamısının oxumaq qabiliyyəti var. Adi danışıqları da «Segah», «Şikəstə» üstə köklənib elə bil. Söz-söhbətlərində bir şirinlik, axıcılıq var. Reyhan hərdən radioda, televiziya kanallarında mahnılarımızı, muğamlarımızı elə yanıqlı oxuyurdu ki, dinləyicini məftun edərdi. Mən onun mahnısını əl telefonuma da yazmışdım. Evdə də asudə vaxtımda açıb qulaq asardım. Anamla sonuncu mübahisədən sonra Rəna o mahnını əl telefonumdan silmişdi. Buna görə də yenə aramıza qanıqaralıq düşmüşdü. İndi o Reyhandan əsər-əlamət qalmamışdı. Bu nəğməkar qızın çöhrəsində daima qara buludlar oyanayar, qanı qara, gözü yaşlı olardı. Reyhanla aramızda yaş fərqimiz çox olmadığına baxmayaraq çox yaşlı görünürdü. Geniş, yumru alnında, gözlərinin kənarlarında qırışlar əmələ gəlmişdi. Son vaxtlar fikirli gəzər, geyim-keçiminə də fikir verməzdi. Üzünə baxan elə hesab edərdi ki, onun çöhrəsində heç vaxt sevinc olmayıb. İşdən ayrılan kimi pəncərənin qabağına gələr, baxışlarını uzaqlara dikib köks ötürərdi. Qollarını çarpazlayıb, üşüyən adam kimi bərk-bərk büzüşərdi. Belə vaxtlarda ona söz deməz, daxili düşüncələrindən ayırmazdım. Qoy dərdlərilə baş-başa qalıb yüngülləşsin. Belə hallarda tənhalıq bəzən adamın dadına çatır deyə fikirləşirdim.

Reyhan Qarabağın Kərkicahan kəndindən idi. Universitetin hüquq fakültəsini əla qiymətlərlə bitirdiyinə görə işləmək üçün onun təyinatını Bakıya vermişdilər. Ata-anasını yeganə qardaşının ümidinə qoyub Bakıda işləməyə razı olmuşdu. İşgüzarlığına görə nazirlik onu birotaqlı mənzillə təmin etmişdi. Düşünmüşdü ki, qardaşı bu gün-sabah orta məktəbi qurtarar, hamısını yığıb yanına gətirər. Amma belə olmadı. Fələk dedi: – Sən saydığını say, indi gör mən nə sayıram! Erməni faşistlərinin bizi çəkdikləri elan olunmamış müharibənin elə ilk günlərində Qarabağın Daşaltı, Cəmilli, Kərkicahan, Meşəli kəndlərini vəhşicəsinə yandırıb kül elədilər. Minlərlə qadın, qoca, uşaq qətlə yetirildi və girov götürüldü. Reyhanın qardaşı Şahmar Şuşada yaradılan «Özünümüdafiə» dəstəsinə yazıldı. Gecə-gündüz dağlarda erməni yaraqlılarına qan udduran könüllülərdən ayrılmadı. Çox təəssüflər ki, yüz hiylə ilə aparılan «Daşaltı» əməliyyatı zamanı şəhid oldu.

Alınan məlumata görə erməni yaraqlıları uzun müddət döyüşüb Daşaltı kəndini ala bilməyiblər. Onlar bilirdilər ki, Daşaltı Şuşanın qapısı sayılır. Oranı almadan Şuşaya girmək qeyri-mümkündür. Odur ki, yenə erməni xislətinə xas olan hiyləyə əl atdılar. Düşmənlə qeyri-bərabər döyüşdə vətən, torpaq təsibi çəkən yüzlərlə oğullarımız qurban getdi. Düşmən alınmaz, qeyrət qalamız olan Şuşaya yol açdı. Şuşa dağlarının sinəsinə qartal kimi sığınan Şuşada milli nə varsa, ayaqlar altında tapdalandı. Xalqımızın ürəyinə düşmən sağalmaz dağ çəkdi, yara vurdu.

O gündən Reyhan yeganə qardaşının, yurdundan, obasından didərgin düşən ata-anasının dərdini ürəyində gəzdirdi. Üzü gülüb, qaş-qabağı açılmadı. Nə qədər çalışsa da, onlar kənd camaatından ayrılıb onun yanına gəlmirdilər.

Elinən gələn dərd toy-bayram olar, deyə dərdlərini camaatla bir yerdə çəkməyi üstün tutmuşdular. Reyhan hər şənbə, bazar Sabirabaddakı qaçqın düşərgəsinə – onlara baş çəkməyə gedir, bazar ertəsi işə qayıdırdı. İndi də lal-dinməz dayanıb məni gözləmişdi. Məni bu vəziyyətdə tək qoymaq istəməmişdi. Dönüb otaqdan çıxmaq istəyəndə yerimdən qalxdım. Qolundan yapışıb saxladım. Reyhan heyrətdən tir-tir əsirdi. Böyüyüb alacalanmış gözləri yaşla dolmuşdu. Dodaqları titrəyir, qəflətən nitqi batan adam kimi danışa bilmir, kəkələyirdi. Özümü itirmişdim. Ömrümdə heç vaxt yad qadının qolundan belə ərkiyana tutmamışdım deyə özüm də təsirlənmişdim. Reyhan qolunu əlimdən çıxarmağa cəhd də eləmədi. Bir həmkar kimi onu ovutmaq, bir şirin söz deyib könlünü almaq istədim. Yaxına gəlib çiyinlərindən tutdum. Başını sinəmə söykəyib saçlarını sığalladım. Bu dəfə də Reyhan etiraz eləmədi. Reyhanın hərəkətlərindəki qeyri-adilik mənə qəribə gəlsə də, özümü ələ aldım:

– Mənim bacım yoxdur, Reyhan! Bu neçə ildə işdən əlavə sən mənə bacı olmusan. İnan ki, xətrin yanımda çox əzizdir, dərdlərin də mənə doğmadır. Bu ağrılarla təkcə sən deyil, bütün xalqımız yaşayır. Biz möhkəm olmalıyıq, bacı. Axı beş, on, yüz nəfərin ölümü ilə həyat qurtarmır. Tapdaq altında qalan torpaq öz oğullarını gözləyir? Nə qədər ki, yurd yerlərimiz yağmalanıb, talan olub. biz çox belə qurbanlar verəcəyik. Gör nə qədər sənin kimi taleyi qırılan insanlar, nə qədər talanıb dağılan ailələr, ye-

tim qalan uşaqlar var? Belə ədalətsiz müharibədən xalqımız əzəl-axır qalib çıxacaq, buna inan.

Mən danışdıqca Reyhan hələ qanad açmayan quşcuğaz kimi sinəmə çığınır, dinmirdi. Ağır-ağır nəfəs almağından tələş keçirdiyini hiss edirdim. Onu sinəmdən aralamamış Reyhan yüngül bir etirazla başını dala çəkdi. Yenə qıvrım telləri alnında titrəyir, iri, qara gözlərindən axan yaş solğun sifətindən aşağı diyirlənir, qarayanız çöhrəsində şırımlar açırdı. Mən əlimin dalı ilə gözünün yaşını silmək istəyəndə Reyhan əlimi itələyib zəif bir səslə:

– Mənə yazığın gəlməsin, Nihad! Mən uşaq deyiləm, – deyə kəskin bir hərəkətlə qapıya tərəf qaçdı. Dalınca bir neçə addım gedib geri qayıtdım. Qəribə idi, Reyhan ilk dəfə idi ki, məni öz adımla çağırırdı. Heç nə başa düşmürdüm. Elədiyim hərəkət üçün peşiman olmuşdum. Onun dərdini təzələyib kövrəltdiyimə görə özümü danladım:

– Burada nə var ki?.. Hər kəs çətin məqamda, dar ayaqda kiminsə bircə xoş sözünə, təsəllisinə möhtac olur. Elə götürək mənim özümü. Hərdən könlümü ovudan bir duyğuya, incə bir məhəbbətə, qayğıya ehtiyac duymurammı? Axı, könlü əyləndirmək, onun zərif çırpıntılarını başa düşmək hər adamın işi deyil? Ürəyin qatı açılmamış sirlərini çölə çıxarıb hər yetənə etibar eləmək mümkün olsaydı, onda beş ildir nəfəs-nəfəsə bir dam altında yaşadığım Rəna ilə nədən dil tapıb dolana bilmirik?

Ürəyimdə özümə də bəlli olmayan anlaşılmaz bir sıxıntı hiss elədim. Sanki havam çatmırdı. Qalxıb pəncərəni taybatay açdım. Çöldəki yarı ilıq hava günəşin solğun cizgilərinə qarışıb içəri doldu. Havadan islanmış toz qoxusu gəlirdi. Yarpaqların kəsif iyi artıq yayın ömrünü başa vurduğundan xəbər verirdi. İlin bu vaxtları nazirliyin əhatəsindəki ağacların yarpaqlarının, yamyaşıl kolların saraldığına, talaların, yolların açıldığına heç fikir verməmişdim. Bir azdan dəli küləklər bu ağacların, otların arasında yalquzaq kimi ulayacaq. Bu ulartı könlümün dilsiz harayı kimi cansız varlıqları yandırıb xəzələ döndərəcək. Ah-nalələri heç yerə, heç kəsə çatmayacaq.

Hesab etdim ki, o xəzan elə indicə içimdə əsir. Qəlbimdə qırılan, saralıb tökülən duyğularımın arasında beş ildir yaşadığım solğun günləri, məndən çox-çox uzaqda qalan əlçatmaz sevgimin

acılarını duyurdum. Bundan başqa içimdə heç nə yox idi desəm, bir qədər inanılmaz olardı. Ömrümdən su kimi axıb gedən bu beş ildən nə isə bir iz, bir an, bir xoş xatirə qalmalı idi. Yox, heç nə tapa bilmirdim. O da itib getmişdi. Demək, hədər yaşamışdım. Hədər yaşamışam da deyə bilmirdim. Məni ovunduran sevimli işim, ovladlarım var idi. Əgər beləydisə, bəs niyə bu gen dünyada, dostların-tanışların arasında, evdə, ailədə özümə yer tapa bilmirdim? Qarışıq fikirlər, özümə də bəlii olmayan çalpaşıq duyğuların əlində çabalayırdım? Qarabağ müharibəsinin elə ilk günündən döyüşə könüllü gedib, yaralanıb qayıtsam da, o da içimdəki boşluğu doldura bilmirdi. Olsa-olsa ata-anamla, qardaşımla mənim aramda bir uçurum yaratmışdı. Anlaşılmazlıq, fikir ayrılığı bu uçurumu daha da dərinləşdirir, getdikcə məni sıxırdı.

Bütün sevgimi, məhəbbətimi iki övladıma, sevimli işimə vermişdim. Ömür insana yaşamaq üçün verilir, o cümlədən də mənə yaşamaq haqqı çatır. Axı bu haqqı məndən kim almışdı ki, özümü belə tənha hiss edirdim? Heç kim. O haqqı mən özüm-özümdən almışdım. Sevgisiz, duyğusuz, hissiz, yaşamaq xatirinə yaşanan ömür kimə gərəkdir? İnsanın dilsiz-ağızsız qara torpaqdan nə fərqi var? Bir də görürsən ömrün bütün əməlləri yarpaq kimi quruyur, tökülür. Hər şey- ümid də, arzu da sona yetir. Həyat da, səadət də bitdi, tükəndi deyirsən. Amma bir də görürsən ki, o solub-saralan, cadar-cadar ilan mələyən quru torpaq canlanır, çiçəkləyir, yaşıl yarpaqlar açır. Bax o çiçəklər, yarpaqlar da torpağın məhəbbətidir, sevgisidir, yenidən göyərir, rişələnir, boy atır. Belə olmasaydı, nə həyat, nə yaşamaq olardı. Onun kimi də insanın sevgisini, məhəbbətini qəlbdə doğulub ölən kimi qəbul etmək düzgün deyil. Sevgi safdırsa, təmizdirsə, sağlam ruhu olan bədəndə mütləq göyərəcək, arabir sızım-sızım sızlayacaq, baş qaldırıb havalandıqca insanı içindən yandırıb kül eləyəcək. Neçə illərdi içimi göynədə-göynədə, korun-korun, tüstülədə-tüstülədə özü yanıb, özü sönən məhəbbətim kimi. Kim bilir?..

Reyhan gedəndən sonra uzun müddət özümə gələ bilmədim. Kiçik açarı götürüb yenə siyirməni açdım. Şəkil əvvəlki yerində idi. Gözlərimə inanmadım. Sonsuz iztirablarımın ağrısını bir qədər də artıran o hissiz, duyğusuz kim idi? Elə hiddətlənmişdim ki, mənimlə, necə deyərlər, siçan-pişik oyunu oynayan əlimə

düşsəydi, öz əllərimlə onu boğar, öldürərdim. Otağımı etibar elədiyim şəxs ancaq Reyhan idi. Ondan şübhələnmək ağlıma belə gəlməzdi. Elə bil yuxudan ayıldım. Reyhanın bayaqkı hərəkəti– «mən uşaq deyiləm, Nihad» – deməsi mənə indi çatırdı. Dalınca yan otağa yüyürdüm. Heç kəs yox idi. Reyhan çoxdan getmişdi. İndiyə qədər niyə mən bunu başa düşməmişəm? – Deyə özümü o ki var danladım.

Artıq gec idi…

Qəzet parçasına bükülü şəkili oddan qorxan kimi toxunub qorxa-qorxa açdım. Arxasındakı «Əbədiyyətə qədər» sözləri əlimi yandırıb ürəyimi külə döndərdi. İlahi, eyni adamın nəfəsilə təsəlli tapmaq, eyni xatirəyə bağlı qalmaq da olarmış? Təzə-təzə çiçəklənən sevdamızı məzara qədər ürəyimdə qoruyub saxlayacağıma inanırdım. Ancaq bu ən azı uşaq sadəlövhlüyündən başqa bir şey deyildi. Hisslərin də insan kimi solmağı, qocalmağı, ölməyi var.Bizim sevgimiz şirin bir röyanın, yarımçıq qalan bir bussin nəşəsi kimi solub getdi, Mehin! – Deyə az qala qışqırdım.– O sevgi qocalmadan, ahıllıq dövrünü yaşamadan öldü, əzizim. Biz onu olsa-olsa qocalığımızın təsəllisiz günlərində keçmiş bir xatirə kimi yada salacağıq. Bu yarımçıq sevgi oxu ürəklərimizdə sağalmayan yaralar, böyük xarabalıqlar açacaq, sonra da ömrünü başa vuran şam kimi özünü odda yandıran pərvanəsinə həsrətlə başa vuracaq. Ruhumun dinciliyini, qərarsızlığını əlimdən alan yuxusuz gecələrimdə mənimlə bahəm gizli-gizli yanan sevgimiz bütün bu illərdə hər nəyi, hər şeyi gözümdə solğun göstərə-göstərə, indi daha böyük, torpaq, yurd dərdimin bir parçasına çevrilib. İndi sənsizlik həsrətimin üstünə xalqımızın düşdüyü nahaqq bəlaların da, ağrısı əlavə olunub, Mehin, bəzən insanlar düşdükləri fəlakətləri qəzavü-qədərdə, alın yazısında, tale qismətində görürlər. Yox, bu belə deyil. Tanrı hər kəsə bir doğru yol göstərir. O yoldan çıxıb nizamı pozmaq ömür yolunda fəlakətə gətirib çıxarır. Mən Tanrının o doğru yolundan çıxdım, öz yolumu gedə bilmədim. Mütiləşdim, itaəkar bir uşaq kimi taleimlə barışdım. Başqa bir həyat yolu seçdim. Başqa bir adam olduğuma özümü inandırdım. Sevdiyimi, xoşbəxt olduğumu güman etdim.

Rəna ilə ruhu yad adamlar kimi yaşadıq. Zaman öz işini gör-

dü, Mehin. Sən məndən qətiyyətli çıxdın. Mənim toy günümdən bir gün qabaq yanıma gəldin. Qara gözlərində yaş damlaları oynaya-oynaya təbrik elədin məni. Əlimdən tutub yaxından keçən, çiynində şəkilçəkən apparat gəzdirən oğlana şəkil də çəkdirdin mənimlə. Son dəfə başını çiynimə söykəyib saçlarımın, boyun–boğazımın qoxusunu ciyərlərinə ac adamlar kimi çəkdin. Bax onda da qətiyyətsizlik xəstəliyim yenə baş qaldırdı. Fürsət var ikən bir kərə də olsa, səni bağrıma basmadım. Onda sənin paklığına, məsumluğuna kölgə salmamaq üçün belə elədim. Əgər əhdimə sadiq qalmağı bacarmamışdımsa, mənim buna da haqqım çatmır deyə düşünürdüm. Soyuq qış günü idi. Boynuna doladığın yun şalının saçaqlarını didə-didə dilləndin:

– Məni daha sevmirsən, Nihad? Niyə mənimlə belə soyuq davranırsan?

– Sən belə hesab edirsən, Mehin? –Bu mənim son etirafım idi. Bilmirəm məni necə başa düşdün? Niyə deyə bilmədim ki, səndən başqa heç kəsi sevə bilməyəcəyəm. Ürəyimdə sənin həsrətin, gözlərimdə sənin xəyalın ilə öləcəyəm. Uzun gecələr gözümü yumanda dəfələrlə bu haqda düşünmüşəm. Bir çarə tapa bilməyib uçub gedən, xəyala çevrilən məhəbbətimi ürəyimdə qəbrə qoyub ağladıqca ağlamışam, Mehin. Günahkar uşaqlar kimi başımı aşağı əyib susdum. Sənə artıq əzab vermək istəmədim.

– Niyə cavab vermirsən, Nihad – deyə ağladın.

– …

İndi ağlamaq növbəsi mənə çatmışdı. Göz yaşlarımı gizlətmək üçün üzümü yana çevirdim. Bu göz yaşları sənə hər şeyi açıqaydın demirdimi, əzizim? Sən onda od kimi yanan əllərinlə əlimi sıxdın. Bir göz qırpımında özünü qollarımın arasına atmağa hazır idin. Lakin mən… Mənə verdiyin bu şəkli paltomun yan cibinə qoyub ilk sevgimizin odunu söndürmək üçün səndən uzaqlaşdım. Bu od-alov sönmədi, Mehin. İllər keçdikcə közərdi, közərdikcə alovlanıb ürəyimdə daha dərin iz saldı, cığırlar açdı. Bu izlər silinmədi, həzin, gizli bir həsrət oduna çevrilib məni yandırdı. İndi bu şəkildən, bu siyirmədən, bir də sənli xatirələrimdən başqa heç nəyim yoxdur. Susuzluğunu söndürən adam bulağa qaçan kimi sənsizləyəndə bu masanın arxasına qaçıb təsginlik tapıram. İndi hardasan? Ürəyimin dilsiz harayına cavab ver! Axı,

sən cürətlisən, məndən ötkəmsən!

Mən səni görəndə orta məktəb qıyafəsini hələ tamam-kamal atmamışdın. Universitetdə dərs ili təzəcə başlamışdı. Sən birinci, mən axırıncı kursda oxuyurduq. İkinci növbə dərsdən çıxanda hələ alatoranlıq idi. Dərsdən sonra tələsə-tələsə evə gedən tələbələr yan-yörələrinə məhəl qoymadan ötüb keçirdilər. Mən bir saat əvvəl dərsimi qurtardığım üçün universitetin çıxış qapısında durub Rüstəmi gözləyirdim. Sən dörd yana devikə-devikə cürətlə mənə yaxınlaşdın:

– Məni metroya qədər ötürərsənmi, qardaş! Anam yəqin işdən icazə ala bilməyib deyə dalımca gəlməyib.

Mən bu gözlənilməz təklifdən həm təəccüblənir, həm də həyəcan keçirirdim. Sən uşaq məsumluğu ilə yenə saçlarının ucunu qarışdırır, dilboğaza qoymadan danışıb-gülür, mövzudan-mövzuya keçirdin. Mən yenə elə indiki kimi dinib-danışmır, adını belə soruşmağa ürək eləmirdim. Dilim sanki batmışdı. Hərdənbir gözucu yanaqlarını döyən uzun qara kipriklərinə baxır, sadəliyinə, təmiz niyyətliliyinə məəttəl qalırdım. İlk addımı sən atmışdın, Mehin! Ayrılanda mənə əl uzadan da sən oldun. Dayanıb, metroya enənə qədər dalınca boylandım. Çevrilib bir dəfə dala baxdın. O baxış ürəyimdə əbədi həkk olub qaldı. O gündən etibarən aramızda dostluqdan da üstün bir münasibət yarandı. Bizə həsəd aparanlar da çox idi. O gözləri, o baxışı indi şəkildən seyr eləmək qismәti mənə nəsib olub. Niyə bir dəfə də olsun, məni axtarmağa cəhd eləmədin, Mehin? Mənə çəkdiyim xəcalət hissi, sənə də tapdalanmış heysiyyətin, sındırılmış qürurun yol vermədi. Məni bu axırıncı şəkilimizlə baş-başa buraxıb hara getdin, Mehin?

Harda axtarım səni, harda?

Şəkili büküb əvvəlki yerinə qoymaq istəyirdim ki, telefon aramsız zəng çaldı. Siyirməni bağlayıb dəstəyi qaldırdım. Zəng çalan həyat yoldaşım Rəna idi.

– Sənin heç ev-eşiyin, arvad-uşağın yoxdur? Bəli də, yenə deyəcəksən ki, vacib işim var, məxfi dövlət işidir. Yorulmuşam, daha nələr… nələr. Əlbəttə, hər şey sənə ailəndən, uşaqlarından artıqdır. Sən nə vaxt özünü bir ata, sevimli ər kimi göstərmisən ki? Bizim bütün qayğımızı anan çəkəcəksə, onda sən kimə gərək-

sən? Mənə cavab ver! Aptekdən uşağa hərarətsalıcı dərman, dükandan süd, bir də evdə şirniyyat qurtarıb, qonaq-qara ola bilər, al tez evə gəl!

O, yenə köhnə mahnısını oxuyurdu. Mənim qulaqlarım buna alışmışdı. Odur ki, sakitcə cavab verdim.

– Sözünü saxla, evə gələndə deyərsən. Atalıq borcunu mənə öyrətmə! Sənə ev işlərində köməkçi, uşağa da dayə tutmuşam. Mənim daha vacib işlərim var, evə də gec gələcəm. O ki, qaldı anama, bu onun qohumluq, sonra da nənəlik borcudur. Məni yox, səni xoşbəxt eləmək üçün çox çalışıb.

İllərlə sinəmdə susan hirsim-hikkəm gizli bir atəş kimi közərib-közərib, nəhayət alışmışdı. Yatmış vulkan kimi sinəmdən püsgürüb bayıra çıxmışdı. İstəiyrdim işimi, vəzifəmi, hər şeyimi atıb bir zərrə səadət dalınca dünyanın lap o başına gedəm. Əlimiqolumu bağlayan bu mütilikdən çıxam. Ey insanlar, məni eşidin! Xoşbəxt olmaq istəyirəm deyə qışqıram. Təəssüf ki, qəhər məni elə boğmuşdu ki, səsim boğazımdan çıxmırdı. Dəstəyi atıb otağımdan çıxmaq üçün ayağa qalxdım. İndi evdə qopacaq mərəkəni təsəvvür edirdim. Atama zəng vurulacaq, anam başıalovlu gəlib məni evdə gözləyəcək ki, hökmü-zabitəsini göstərsin və sair və ilaxir… Qovluğu götürüb qapıdan çıxmaq istəyirdim ki, telefon təkrar zəng çaldı. Telefonda danışmaq həvəsim artıq ölmüşdü. Odur ki, dəstəyi qaldırmaq üçün geri dönmədən pilləkənlərdən düşdüm. Əvvəl «Şəhidlər xiyabanı»nın yanından keçib Azneft dairəsinə piyada enmək, dəniz kənarında oturub ciyərlərimə təmiz hava çəkib yüngülləşmək istədim. Sonra atamın tanışlarından kiminsə məni görüb, ona çatdıracağını, mənim istər-istəməz hesabat verəcəyimi düşünüb, fikrimi dəyişdim. Atamın məsul vəzifədə işlədiyini elə bil unutmuşdum. Fikrimdən daşınıb maşının qapısını açdım. Bu nədir, İlahi? Sərbət düşünmək, fikrimlə, düşüncələrimlə baş-başa qalmaqdan məhrumamsa, ölmək bundan yaxşıdır. Çarəsiz hallarda ölüm haqda düşünsəm də, indi onu ağılsızlıq hesab edib başımdan qovmağa çalışdım. Ölüm insan əzablarına, iztirablarına son qoyacaq zəhərdi. Bu zəhəri könüllü udmağın, özü də acizlik, qorxaqlıq və nəhayət, Tanrı qarşısında ən ağır günahdı.

Dalda bir yer tapıb maşını saxladım. Ayağımın altına baxma-

dan sərxoş adamlar kimi yeriyirdim. Ətrafda adam azalsa da, tez-tez tanışlara rast gəlirdim. İlahi, bircə bu olmasın. İndi hansısa məni yanlayacaq, danışıb zarafatlaşacaq. Mən o durumda deyildim. Mən öz düşüncələrimlə tək qalmaq istərkən, bir laqeyidin boş suallarına cavab vermək istəmirdim. Bu axşam bütün bunlar mənə çox yorucu, zəhlətökən görünürdü. Oturacaqlara yaxınlaşanda addımlarım elə bil ağırlaşırdı. Üstümə bulud çökmüş, ayaqlarım dalımca getmir, bədənimin ağırlığına tab gətirmirdi. O gündən buralara ilk dəfə idi gəlirdim. Dənizkənarı parkda böyük quruculuq işləri başlanması ilə əlaqədar hər tərəfdə qarışıqlıq hökm sürürdü. Üstünə daş parçaları, ağac, taxta yığılmış oturacağı tapdım. Bir həzinlik, doğmalıq üstümü aldı. Bu oturacaq beş il bundan qabaq şəkil çəkdirdiyimiz, qoşa oturub dənizin şıltaq ləpələrinə tamaşa edərkən Mehinin son dəfə çiynimə söykənib «Məni daha sevmirsən, Nihad? – Dediyi sözlərin yeganə şahidi idi. Onda susmuşdum. Ürəyin köksümün altında çığırdığı bir vaxtda ürəyin dediyini niyə dilimə gətirmədim? Oturacağa yaxınlaşıb oturmaq istəmirdim. Otursam, xatirələrin hücum çəkib üstümü alacağından qorxurdum. Mənə elə gəlirdi ki, elə indicə Mehin yanımda peyda olacaq, yenə qara, uzun kipriklərindən yaş süzə-süzə məni qınayacaq. Yox, burda dayana bilməzdim. Qayıdıb yeyin addımlarla burdan uzaqlaşmaq, qaçmaq istəyirdim ki, əl telefonum səsləndi. Zəng vuran atam idi. Kim olursa-olsun, onunla danışmaq durumunda deyildim. Odur ki, könülsüz-könülsüz «alo» dedim.

İnsafən atam sözünü məni məzəmmətdən yox, mənə demək istəydiyindən başladı:

– Sabah Qubada tikdirdiyim evimizdə bir balaca şadyanalıq olacaq. Qohumlar, dostlar evimizi görmək istəyirlər.

– Məgər evimizi görməyiblər? Elə keçən həftə Şüvəlanda təzə tikdirdiyimiz evdə yığışmamışdılar? Yenə nə şadyanalıqdır, ata?

– Söz güləşdirməyi sənə qadağan edirəm. O bağ evi idi. Bura isə istirahət üçün tikdirdiyim təzə binadır. Mən də sizin üçün çalışıram da, bala. O boyda sarayı gizlətmək üçün tikdirməmişəm ki? Qoy dost sevinsin, düşmən yanıb-tökülsün.

Atamın sözünün üstünə söz gətirmək hər adamın işi deyildi. Yenə sakit-sakit əlavə etdim:

– Mənsiz keçinməz o məclis? Mən bir az dincəlmək istəyirəm. Bazar ertəsi yoldaş Babayevin yanında olmalıyam. Məktubundan başa düşdüm ki, ciddi bir məsələ üçün məni çağırır.

Atam hirslənən kimi olsa da, mülayimcəsinə əlavə etdi:

– Sən mənim qabağımda böyüklük eləmə! Nə dediyimi mən bilirəm. Şamil Babayevin özü də orda olacaq. Hələ, bəlkə, birinci də gəldi. Məqsədim səni birinciyə təqdim etməkdir. Babayevi də görüb söhbətləşərsiniz. Sözün qısası, ailənlə birlikdə səni gözləyəcəyəm.

Elə bil başıma bir qazan qaynar su tökdülər. Bu anamın işi idi. Məni danlatdırıb acıtmamaq üçün rəsmi dəvətə keçmişdilər. Doğrusu, bu ev haqqında birinci dəfə idi eşidirdim. Bir də, atam heç vaxt öz planlarını başqası ilə bölüşdürməzdi. Mənim də artıq sual verməkdən xoşum gəlmirdi. Dünya malı gözümdə bir saman çöpü qədər də qiymətli deyildi. Bircə zərrə səadəti bütün bunlardan üstün tutardım.

Atamın məzəmmətlərinə baxmayaraq qarajda bir neçə bahalı maşın dura-dura minlərlə, yüzlərlə tay-tuşum kimi adi «Jiquli» markalı maşını sürürdüm. Qoluma bağladığım saatımı, geyindiyim paltarı və hətta əl telefonumu da başqalarında fərqləndirməməyə çalışırdım. Toyda, məclisdə də vəzifəlilərin balaları kimi pul sovurmaqdan iyrənirdim. Hamı necə, mən də elə deyərdim.

Bir dəfə də özümə respublikamızda istehsal olan bir şalvar almışdım. Anam, arvadım bir mərəkə saldılar ki, gəl görəsən. Sən bizi biabır eləyirsən. Görən-bilən nə deyər? Əsib-coşdular. Halbuki hər ikisinin mənşəyi sadə, ziyalı ailəsinə mənsub idi.

– Beş-altı il bundan qabaq belə şalvarlardan atam da geyərdi. Sən onda heç belə təşviş keçirməzdim, ana? Axı indi nə olub, biz nə artırmışıq, bəlkə, məni başa salasan? – Dedim.

– Bu uşağın başına hava gəlib, deyəsən. Onda elə idi, indi də belədir. Respublikada sayılıb-seçilən iki vəzifəli kişi var, biri də atanızdır. Çox şükürlər olsun ki, qardaşın sənə oxşamayıb. Yandan-yörədən Dadaş Mansurovun oğludu deyəndə, vallah, ürəyim dağa dönür. Arvadım da ona qoşulanda öz otağıma keçib işlərimlə başımı qatmağa çalışardım. Ömrümdə birinci dəfəydir ki, öz keçmişimlə tək qalmaq, acı da olsa, o səadətin dadını xəyali almaq istəyirdim ki, buna da imkan vermədilər.

Atamın sözündən çıxmaq iqtidarında olmasam da, ayaqlarımı dalımca güclə çəkə-çəkə Dənizkənarı bulvarda xeyli dolaşdım. Vaxtımı öldürürdüm. Kiməsə rast gəlməmək üçün Allaha yalvarırdım. Başımı görən kimi atama xəbər verirdilər. O da mənə şəxsən deməmək üçün anama, anam da Rənaya çatdırırdı. Bu cansıxıcı mühit məni elə yormuşdu ki, baş götürüb qaçmaq, planetin əlçatmaz bir guşəsinə çəkilmək, elədiyim səhvlərin ağırlığını çiyinlərimdə bir daha çəkmək istəyirdim. Lakin hara, necə gedəydim?

Səhəri günü yuxudan gec oyandım. Bunlarla bərabər şəklin tapılması mənə elə bil yeni ruh, can vermişdi. Onu kim tapmışdı, kim öz yerinə qoymuşdu fikri başımdan getmirdi. Başım ağrayır, canımda əzginlik, yorğunluq hiss eləyirdim. Vanna otağına təzəcə girmək istəyirdim ki, həyətdə maşın dalbadal elə siqnal verdi ki, dik atıldım. İki dəqiqə keçməmiş anam başıalovlu içəri girdi.

Siz hələ hazır deyilsiniz, Rəna, bu nə adam saymamazlıqdır? Bəlkə ev yiyəsi qonaqlardan sonra getməlidir?

Rəna uşaqları geyindirə-geyindirə astadan dilləndi:

– Bunu sevimli oğlunuza desəniz, daha yaxşı olar. Mən bu evdə bu iki uşağın ancaq və ancaq qulluqçusuyam. Bu gün gecəyarı gəlib, indicə də yuxudan durub. Mən nə qədər çalışıram, onu başa sala bilmirəm ki, sən subay oğlan deyilsən, iki uşağın atasısan. Nə qədər vəzifən böyük olsa da, birinci yerdə ailən-uşağın durmalıdır. O yenə gördüyün kimi öz aləmindədir.

Rəna anamın xasiyyətini bildiyi üçün belə deyib, onu qızışdırırdı. Anam bu gün, insafən, danışmadı. Üzümə diqqətlə baxıb ana qayğısı ilə dedi:

– Rəngin yaman qaçıb, Nihad! Çox solğun görünürsən. Xəstələnib elməmisən ki? Vay, başıma xeyir. Bəlkə, həkim çağırtdırım?

Özüm də anamın hərəkətlərinə inana bilmirdim. Rənaya görə ondan həmişə danlaqdan başqa bir xoş söz eşitmədiyim üçün məəttəl qalmışdım.

– Yox, ay ana, həkimə ehtiyac yoxdur. Sadəcə, gecə pis yatmışam. Keçib gedər, narahat olma, – dedim.

– Gecə yarısı evə gələndə pis yatarsan da, – Rəna tez hücuma keçmək istəyəndə, anam onun necə deyərlər, ağzının üstünə vurdu:

– Sən də, a gəlin, çox baş aparırsan, ha… Onun işi çox ağırdı.

Dövlət Təhlükəsizliyi idarəsində çalışdığını unutma! Belə işdə işləyənlərin müəyyən bir istirahət saatları olmur. Odey, Dadaşı götürək elə, iki günlərlə evə gəlmir. Mən onu başa düşürəm. Sən də başa düşməlisən ki, kişini evə arvad bağlayar. Deyingən arvadın əri evdən qaçar da, hələ desən özünə başqasını axtarar da. Sən qohumumun qızısan, söz yox ki, xatirini çox istəyirəm. Amma o mənim can-ciyərim, gözümün ilk ovu, balamdı. Həm də ciddi xəstədir. Onun qayğısına qalmaq əvəzinə gah sən, gah mən, gah da atası qanın qaraldırıq.

Bu gün anamı tanıya bilmirdim. Özüm də çaşıb qalmışdım. O, mənim Qarabağ döyüşlərində aldığım yaranı nəzərdə tuturdu. Doğrusu, tez-tez başım ağrayır, sol ayağımı bəzən hiss eləmirdim. Açığını deyim ki, ata-anam məni həyata təzədən gətirmək üçün az qala evlərini də satacaqdılar. Onda maddi durumumuz çox ürəkaçan deyildi. Tək atamın məvacibi ilə beş nəfər güclə dolanırdıq. Nənəm Gülsümün boxçasında nə gizlinci vardısa, satıb mənim müalicəmə sərf eləmişdilər. Anamın sözlərindən riqqətə gəlmişdim. Qolumu boynuna salıb onu bərk-bərk qucaqladım.

– Ah, analar, analar! Sizin məhəbbətiniz nə qədər böyük, ürəyiniz geniş olur. Xüsusən də, siz azərbaycanlı qadınlar. Övladınızın bığı, saqqalı ağaranda da qayğınızı üstündən çəkmirsiniz. Bəlkə, elə ona görədir ki, bu neçə illərdə məni danlaya-danlaya ailəmi dağıtmağa imkan verməmisən, ana? Bəlkə də, həyatında ən böyük səhvə yol vermisən? Məni danlaya-danlaya Mehinə olan o gənclik ehtiraslarımı söndürməyə, məhv edib dağıtmağa çalışmısan. Rənaya olan hisslərim isə göydə axıb gedən ulduza bənzəyir, ana. Qəlbimə ötəri bir işıq, hərarət saldıqdan sonra ötüb gedir. İndi anlayıram ki, övlada təkcə öz məhəbbətini vermək kifayət deyil. Onu xoşbəxt eləmək üçün bu bəs eləmir. Vaxtilə iradəsizliyim, mütiliyim olmasaydı, mən özümü minlərin, milyonların içində, ailəmdə, balalarımın yanında belə tənha hiss etməzdim. İndi başa düşürəm ki, Mehin odlu baxışları ilə vaxtilə məni məhv edib, qəlbimi xarabalığa çevirib gedib, ana. O sevgi gecikmiş bir etiraf kimi günahlarım olub, mənə dinclik vermir. İndi-indi o sevgi, o ehtiras qəlbimin xarabalığından çıxıb onu axataran nigaran baxışlarımda, yarımçıq bir busədə yenidən yaşayır.

Axı sən bunları haradan biləsən? Nə biləsən ki, Mehinin o gözlərinin həsrəti ilə gizli-gizli nə qədər ağlamışam? Saatlarca bir kənara çəkilib özümü sanki korluğa vurmuşam ki, Mehinli xəyal aləmini görə, bir daha duya bilim. Ətrafımda nə varsa, hamısına qəsdən göz yummuşam. Axı dünya işığına həsrət qalanların hissləri daha güclü olur?

Əlüzsilən dəsmal əlimdə bu məstedici, deyərdim ki, üzücü xəyaldan ayrılanda anamın mat-məəttəl üzümə baxdığını görüb özümü itirən kimi oldum.

Anam:

– İndi dəqiq inandım ki, sən ciddi xəstəsən,-dedi-. Müalicə həkiminə bu saat zəng edərəm. Sən də, Rəna, uşaqları geyindir, həyətə düş. Sürücü bizi gözləyir. Dadaş yenə əsib-coşacaq.

– Yox, yox, ana, biz bu saat gedərik. Atamın qonaqları çox olacaq. Həkimə başqa bir vaxt müraciət edərəm, – deyə telefonun dəstəyini alıb yerinə qoydum.

Əhvalıma bir az gümrahlıq verdim ki, anam həkim fikrindən əl çəksin. Rənanın qanı bərk qaralmışdı. Mənə olan hirsini, acığını açıq-aşkar uşaqların üstünə tökürdü. Gah oğlumun üstünə qışqırır, gah da qızımı itələyirdi:

– Get də, get bir hovur da atanın dizlərini incit. Onsuz da günlərlə üzünü görmürsünüz. Sizi atam evindən gətirməmişəm ki…

Mən belə sözlərə vərdiş elədiyimdən, fikrimi toplayıb maşını mümkün qədər ehtiyatla idarə edirdim. Bu nasaz yollarda hər cür hadisə baş verə bilərdi.

Qubaya çatar-çatmaz bizdən əvvəldə gedən sürücü sağ tərəfə burulub əyləci basdı. Bizi itirmədiyinə əmin olub yoluna davam etdi. Maşın alma bağlarının arası ilə hərəkət etdikcə mənə elə gəlirdi ki, nağıllar aləminə düşmüşəm. İlahi, vətənimin necə gözəl guşələri var imiş. Niyə indiyə qədər buralarda olmamışam? Bir qədər də irəlilədik və heç yerdə tayı-bərabəri olmayan bir mənzərə məni heyrətə gətirdi. Meşənin arası ilə axan Qudyal çayın hər iki sahilində varlılara məxsus daş saraylar düzülmüşdü. Elə bil hündürlükdə, böyüklükdə bəhsə girmişdilər. Hündür daş hasarların qırmızı, yaşıl darvazalarının ağzında bağlanmış həyət itləri az qala göydə quşu da qapmağa hazır idilər. Bazara gedən, bağ-bostana qulluq eləyənlərin biri girir,- biri çıxırdı.

İstirahət günü olduğu üçün həyətlərdə bahalı maşınların sayı da çoxalmışdı. Ocaqların tüstüsü bu gözəl havanın ovqatını qarışdırır, manqallarda bişən kababın iyi gendən adamı vururdu. Maqnitafonlardan qalxan mahnı səsləri meşəyə yayılır, dağadaşa dəyib əks-səda verirdi.

Atam bu evlərdən xeyli aralı yerdən bir neçə daş hündür böyük bir ev tikdirmişdi. Mən buna təəccüblənmədim. Çünki onun xasiyyətinə bələd idim. O, tünlüyü sevmirdi. Başqalarından nə iləsə fərqlənməyə çalışırdı. İnsafən, evin quruluşu,tikilişi və yeri də burdakı saraylardan fərqlənirdi. Bütün otaqları əhatə edən eyvanların birinin üzü çaya tərəf idi. Bina milli üslubda elə tikilmişdi ki, içəridən, həm də çöldən baxana xan, bəy sarayını xatırladırdı. Maraqlı orasıydı ki, ikinci mərtəbədəki qonaq salonu başdan-başa şair və yazıçıların şəkilləri ilə bəzədilmişdi. Məni təəccüb qarışıq bir şit gülmək tutmuşdu. Axı, son vaxtlar onun bir şair, yazıçı şəkli aldığını, bir bədii əsər oxuduğunu görməmişəm. Şair, yazıçılardan söz düşəndə əlini yelləyər:

– Eh, boş sözlərdir kağıza tökürlər, başları dolu, cibləri boşdur deyərdi.– Oğlum, bütün dövrlərdə əhalinin ac təbəqəsi həmişə şairlər, alimlər olub. Elə indi də elədi.

– Elə demə, ata, hansı yazıçı, şairi sağlığında qiymətləndirib dövran? Zaman dəyişdikcə tarix öz süzgəcindən keçirib yaxşıları nəsildən-nəsilə ötürüb. Elə götürək Nizami Gəncəvini. On əsr bütün dünya xalqlarının sevimlisinə çevrilib. Füzuli, Xəqani, Nəsimi və onlarca xalqımızın fəxri saydıqlarımız da onun kimi. Bunların hansına yaşadığı mühit qiymət verib? Hamısının aqibətini də bilirik. Bizim yaşadığımız dövrün də öz sənətkarları var ki, hələ qiymətlərini ala bilməyiblər. Onların da zamana ehtiyatları var, ata. İndi çoxunu maddi ehtiyac düşündürür, mənəviyyat unudulub. Çoxu mədəsini qidalandırmağı üstün tutur, beynini yox!

Atam əlini yellədi:

– Sənինlə mübahisə eləmək çox çətindir, Nihad. Bir şeyi başa düş ki, ölkənin bu vəziyyətində kitab oxumaq kimə gərəkdir? O qədər dərd-sərimiz var ki…

– Bəs bu dəbdəbə kimə gərəkdir, ata, – demək istəyirdim ki, atam məndən aralanıb qonaqların yanına getdi. Öz-özümə sual verdim ki, sənətə, ədəbiyyata belə bəsit qiymət verən atama indi

nə olmuşdu? Nə baş vermişdi ki, zalı başdan-başa qiraət otağına çevirmişdi?

Lap yuxarı başda N.Gəncəvinin böyük portreti, «Xəmsə»yə çəkilmiş müxtəlif illüstrasiyalar düzülmüşdü. «Bəhrəmgur ovda», «Məcnun Leylinin məzarı üstündə», bir tərəfdə Fitnə çiynində inək pilləkənləri qalxır, bir yanda Fərhad dağ çapır və sair və ilaxır. Yerə döşənən xalıdan tutmuş xörəklərə qədər nə varsa özümüzünkü idi. Xörəklər də elə seçilmişdi ki, yarpaq dolması, plov neçə növ desən, ət, göy qutabı, müxtəlif növ balıqlar, dovğa… Bir sözlə süfrəyə baxan hər kəs Azərbaycan xalqının zəngin mətbəxinə heyran qalırdı. İlk öncə fikirləşdim ki, bunun nəyi pisdir? Sonra mənə qaranlıq qalan o oldu ki, yerli istehsalı olan bir şalvara görə mənə lağ eləyib danladıqları halda bütün bunlar nə üçündür? Mənim mat-məəttəl durub baxdığımı görən atam geri qayıdıb qoluma girdi. Təzəcə çapdan çıxmış «Dədə Qorqud dastanları»nı əlinə götürüb izahat verirmiş kimi dilləndi:

– Bax, bu kişinin bu gün burada görünməsi çox vacibdir. Bu bizim ailənin ziyalılığından xəbər verir. Bir də onu bildirir ki, biz keçmişimizə qiymət verməyi bacarırıq, oğlum. Səndən soruşan kimdir ki, bu kişi kimdir, nəçidir, nə işlər görüb? Əsas odur ki, başqasında olmayan bizim evdə görünsün. Böyük filosof, şair Mövlana Cəlaləddin Rumi səhv etmirəmsə, deyib ki, ya olduğun kimi görün, ya göründüyün kimi ol! Bəzən də olur ki, insan istədiyi kimi görünmək istəyir. Hər kəs də bunu bacarmır. Bizim yaşadığımız mühit belə tələb edir, Nihad. Kim olduğu kimi görünürsə, bax bütün bunlar da olmur. – O, əlini bəzənmiş açıq süfrəyə, divarlara uzadıb gülümsədi. Olduğu kimi görünənlər bu mühitdə çox davam gətirə bilmirlər. – Əqidələrinə, mövqelərinə görə taleləri çox acınacaqlı olur. Bunu sənə səni dünyaya gətirən, az-çox dünyagörmüş atan deyir, Nihad. Bunu bir dəfəlik başa düş.

– Bəs vicdan, xalq? Allah qarşısındakı borc? Mən astarı üzə çevirib görünməkdənsə, olduğum kimi görünməyə üstünlük verirəm! Atam, böyüyüm olsan da, Mövlanə Cəlaləddinin dediklərinə mən başqa cür yanaşıram. Vicdan təmizliyi, Allah qarşısında alnıaçıq, üzüağ olmaq hər birimizin borcudur. Sən həyatı məndən artıq görsən də, mən də çox oxumuşam, ata. Hər kəs getdiyi yoldan, qalxdığı pilləkənin başından qanrılıb geriyə, soya-kökə,

mənsub olduğu mənşəyə bir dəfə baxmalı, kim olduğunu unutmamalıdır. O pilləkən bu gün birinə, sabah digərinə mənsub ola bilər. Bağışla məni, ata! Sənin sözünün üstünə söz gətirdim. Kim olursa-olsun, mən öz sözümü deməyi sevirəm. Mövqeimi ortaya qoymaq, düşündüklərimi olduğu kimi çatdırmaqda heç kəsdən, heç nədən çəkinmirəm. Üzr istəyirəm, sənə bir sualım var.

– Buyur, səni eşidirəm, – yenə də mülayimcəsinə dilləndi.

– Axı, xalqın bu ağır güzaran keçirdiyi vaxtda belə məclisləri dalbadal keçirmək kimə lazımdır?

– Ay oğlum, lap uşaq kimi məni məzəmmətləyirsən. «Loxma-boğmadır» – deyirlər. Sənin, ananın, qardaşının belə firavan yaşaması üçün eləyirəm də… Bunsuz mümkün deyil axı?

– Yox, ata mümkündür. Biz əlil-zad deyilik. Anam da, qardaşım da savadlı insanlardır. İşləyib adi insanlar kimi dolana bilərlər. Zəhmətlə qazanılan çörək qiymətli olur. Bu bahalı maşınların biri bizim ailəyə kifayət eləyər. İkisi, üçü kimə gərəkdir? Onun əvəzinə beş qaçqın ailəsini sevindirsən, çadırlarda yaşayan, ata-anasını itirən uşaqlara himayədrlıq eləsən, mən sənin lə fəxr edərdim, ata! Müftə yeyən bu harınları yox, oğul itirən ataları, ər, nişanlı gözləyən qız-gəlinlərimizi sevindirsəydin, yaxşı olmazdımı?

– Mən, görünür, sənə çox sərbəstlik vermişəm, Nihad. Sənin belə mühakimələrin məni bir ata kimi sevindirir. Nəhayət, sənin kamil bir insan kimi yetişməyini alqışlayıram. Ancaq elə məsələlər, elə prinsiplər var ki, orda gecikmək olmaz. Geciksən, vurmasan, səni vuracaqlar. Görünür, bəzi məsələləri hələ lazımınca başa düşmürsən. Ovu vaxtında vurmaq lazımdır, – eşitməmisən ki?..

– Eşitmişəm, bu yaxşı kəlamdı, amma yerində.

– Məsələn, nədə?

– Bax, elə Qarabağ torpaqlarını itirməkdə gecikməsəydik, dostu, düşməni, bizə kimin əli ilə vurulan zərbəni vaxtında başa düşsəydik bir milyon qaçqını erməni faşistləri üstümüzə tökməzdilər. Onda sən deyən ov məsələsi bizə lazım idi, indi yox. Ov əlimizdən çıxıb, onu tutmaq beş-on nəfərin işi yox, hamımızın borcudur. Bircə dəfə mənim kimi düşmənlə üz-üzə dursan, anaların fəryadını eşitsən, alovlanan evləri görsən, sən də belə düşünərdin, ata!

Atam şəhadət barmağı ilə yüngülcə üzümə çırtma vurub qo-

luma girdi. Hiss edirdim ki, bu gün mənim qanımı qaraltmaq istəmir. Qayğılı-qayğılı üzümə nüfuzedici bir nəzər saldı:

– Səhhətin necədir, Nihad? Çoxdandır səninlə yaxından görüşmürük. İşlərin qaydasındadırmı?

– Hər şey yaxşıdır, ata, narahat olma. Bir az əsəblərim sözümə baxmır. Ayağımın ağrıları yenə başlayıb. Vaxt tapan kimi həkimə gedəcəm.

Görünür, anam Rəna ilə mübahisəmizi hələ ona çatdırmayıb, – öz-özümə düşündüm.

– Sən niyə vaxt sərf eləyib həkimə gedirsən, burax bu tərsliyi. Professor Cəfərova zəng vuraram, özü evə gələr. Bircə bu çatmırdı ki, gedib kabinetlərin qabağında növbə gözləyəsən.

– Professora ehtiyac yoxdur, ata! İcazə versəydin, çölə çıxıb bu dağların, meşələrin havasından ciyərlərimə bir az çəkərdim. İçəridə sıxılıram. Mən buraları heç belə gözəl təsəvvür etməzdim.

– Hə, əlbəttə, Nihad. Gördün ki, mən nahaqdan buraları seçməmişəm? Yurdumuzun hansı bölgəsinə getsən, belə cənnət yerlərlə qarşılaşarsan.

– Bəli, ata. Seçimin çox yaxşıdır. Buna söz ola bilməz. Amma belə israfçılıq nə sənə, nə də bu saray yiyələrinə lazım deyildi, təəssüf edirəm.

Atam sufrəyə gözucu nəzər sala-sala gülümsədi. Başa düşdüm ki, biz iki əks qütbün adamlarıyıq. Atam mənim mülahizələrimi ciddi qəbul etmir. Onun gülüşündə səmimiyyətdən çox istehza duyduğum üçün söhbətə son qoyub pilləkənlərlə həyətə düşdüm. Günortaya az qalırdı. Hava çox isti olmasa da, soyuq da deyildi.

Qonaqlar axışıb gəlsələr də, heç kəs yuxarı, süfrə arxasına keçmək istəmirdi. Həyətdəki ağaclar da xüsusi zövq ilə əkilmişdi. Bir tərəfdə yeddi-səkkiz arı ailəsi, bir başda isə daş hovuz var idi. Bulaqlardan çəkilən buz kimi su novlarla hovuza tökülürdü. İçində ördək, qaz üzürdü. Bir kiçik hovuzda isə bulaq saxlanılırdı. Uşaqlar xüsusi sevinclə hovuzun ətrafında atılıb, düşür, balıqlara, qaz, ördəyə baxmaqdan doymurdular. Qızım Günel də onlara qoşulmuşdu.

Tez burdan uzaqlaşmaq istəyirdim. Elə bil təbiət bütün səxavətini əsirgəmədiyi bu yerlərdə havam çatmır, boğulurdum. Darvazaya yaxın armud ağacının altında iki qadın dayanmışdı. On-

lardan biri mənə tanış gəlsə də, harada gördüyümü xatırlaya bilmirdim. O birisini heç bir mərasimdə, ya məclisdə görməmişdim. Məni tanısaydılar yəqin görüşərdilər. Onuncün mən də etinasız ötüb keçmək istədim. Əgər kubarlara məxsus xüsusi əda ilə danışan sarısaç, üst-başında xeyli qızıl, brilliant bəzək əşyaları olan qadının sözünü eşitməsəydim, bəlkə də, ayaq saxlamazdım. Ağacın gövdəsinə söykənib söhbətlərinə qulaq asmaq marağı məni üstələmişdi. Qadın həyətin lap kənarına çəkilib yanındakını dümsüklədi:

– Bax, buna deyərlər gec gəldi, tez öyrəndi, – əlini gözünün üstünə qoyub binanı aşağıdan yuxarı süzdü.

– Vəzifəyə gəldiyi heç beş il deyil, gör neçə saray tikdirib? Hələ maşınını demirəm. Beləsindən şəhərdə beş-üç nəfərdə olar, ya olmaz. Oğlu da maşında oturub sürəndə elə bil dünyanın yiyəsidir. Bizim Naza ilə bəhs eləyir, deyəsən. Heç demir ki, beş il yox ee, on il də dədəsi vəzifədə ola, yenə mənim qızımla bəhs edə bilməz. Öz yerişlərini qoyub qaz yerişi yeriyirlər. Sən Yaqut xanımın qulağındakı sırğaya fikir verdin, azz?.. Hər biri iki, üç karat olar. Belə brilliantlar ən qiymətli daş sayılırlar. Görən hardan tapıb onu? Bax bunu evə gedən kimi Əlişə çatdıracam.

Qadın hirslə başını geri döndərib saçlarını boynunun dalında düyümlədi. Kiçik əl yaylığını qoluna keçirdiyi, qaş-daşla bəzədilmiş dəri çantasından çıxarıb boyun-boğazının tərini sildi.

– Beləliəri haqda yuxarılarda məlumat olmalıdır ki, ayaqları yorğanından çıxanları yerində oturtsunlar. Əliş deyir ki, ayaq yorğana görə uzanmalıdır, elə ki, yorğandan çıxdı, kəsib gödəltmək lazımdır. Onda Yaqut xanım da, üçmərtəbədən bir az aşağa enər. Hirsi-forsu soyuyar. Əri də on beş ildir xalqın yolunda «can qoyan» Əlişin qabağında at oynatmaz.

İkinci qadın maddım-maddım onun üzünə baxır, ara-sıra başını bulayırdı. Üzünün ifadəsindən narazı olduğu, lakin dinə bilmədiyi hiss olunurdu. Qadın dil boğaza qoymadan hirsli-havalı danışan Zərri xanımın qoluna girib adam az olan yerə çəkmək ayıbdır, eşidərlər demək istəyirdi elə bil. Gün eynəyini gözündən çıxarıb qollarını elə geniş açdı ki, sanki kimi isə qucaqlayacaqdı. Dərindən nəfəs alıb həyətin yanından axan çaya doğru getdi.

–Sən mənim canım, Zərri, bir sakitləş, bu havadan udmamaq,

bu gözəlliyi duymamaq ən azı cinayətdi, vallah. Bu qarşıdan gələn tətil günlərində gərək yuxarı sinif şagirdlərini bura gəzintiyə gətirəm. Qoy görsünlər ki, torpağımızda neçə mənzərəli yerlər var. Elə belə gözəlliyi deyilmi yurdumuzun başına bəlalar açan? Burax bu söhbətləri, Zərri. Dünyada qala biləcək bu daş-divardan az danış. Biz bir insan olaraq sonda hamımız bərabər də köçüb gedəcəyik gəldiyimiz bu dünyada, tikdiyimiz bu saraylarda kirayəşin yaşayırıq. Bax hanı Quba, Şəki Xan saraylarını tikənlər? Onların tikdiklərinə bizim nəsillər muzey kimi baxırlar. Necə deyirlər:

…Tikmədim özüm qalam,
Tikdim ki, izim qala…

Zərri xanım, vallah, heç kəs tikdiyini özü ilə apara bilməyib. Bir də ki, xətrinə dəyməsin, sizinki bəyəm bundan azdır? Allah özünüzə qismət eləsin, tək elə Londonda aldığınız mülkü satsanız, üç bu boyda saray tikmək olar. Hələ İsveçrədəki sarayınızı demirəm. Cənnət bağıdı elə bil. Əliş müəllimə Allah can sağlığı versin ki, bizi də hərdən dəvət eləyirsiniz. Yoxsa uşaqlar yayda şəhərin havasında boğularlar.

Zərri xanım qarşısındakının üzünə sərt bir nəzər saldı:

– Günah kimdədir?

– Nə bilim, vallah, – qadın çiyinlərini çəkdi.

– Günah sənin ərindədir. O boyda vəzifə əlində ola-ola sizə bir gün ağlaya bilmir. Vəzifə daimi deyil. Ağlın Əlişə getməsin. On beş ildir bu xalqın yolunda Fərhad kimi «külüng çalır». Gördün, o «Xalq cəbhəsi»di, nədi, ha atılıb-düşdülər, bir şey eləyə bilmədilər. O kişini vəzifədən tərpətmək hər gədə-güdənin işi deyil.

Ərin vəzifəyə gələndə dedilər ki, a kişi, palaza bürün, elnən sürün. Hamı necə, sən də elə. Əgər keçid dövrüdür, qaçqınlar, köçgünlər var, düzlük, vicdan desən işləyə bilməyəcəksən. Bu boyda ölkəni həqiqət axtara-axtara düzəldə biləcəksənsə, buyur, düzəlt! Bax axırda da bir gün kürsüdən aşırıb salacaqlar, qalacaqsan bir həsir, bir məmmədnəsir.

Qadın əlini yüngülcə yelləyib gülə-gülə:

– Neyniyək, Allah onu da elə yaradıb. İndi durub təzədən onu

dəyişdirməyəcəyik ki… Bir söz də deyəndə bilirsən nə cavab verir?

– Nə deyir ki? –Zərri xanım onun qolundan tutub silkələdi.– Arvad deyilsən, vallah? Kişini arvad qədər kim yumşaldıb yola gətirər, azz?

Zərri xanımın söhbətini dinləyən qadın könülsüz-könülsüz dedi:

– Budur, neçə ildir Şüvələndəki bağ evimizi də qaçqın qohumlarına verib. Onlara ta qaçqın demək olmaz. Özlərinə elə şərait düzəldib ki, indi biz qaçqına oxşayırıq, onlar yox. Deyir ki, respublikanın ağır günlərində özümüzə bağ evi tikmək ən azı vicdansızlıqdır. Camaat çadırlarda yaşayır, indi durub saray tikdirmək bizə yaraşmaz. Evimiz var da, çöldə qalmamısınız ki?

– Eh, rəhmətliyin oğlu, denən qaçqın-köçgün dərdini çəkmək tək sənə qalıb? Zəhmət çəkib kəndlərini, obalarını qoruyaydılar. Torpağı erməniyə qoyub gəliblər bura. Yediyimiz də boğazımızdan keçmir. Budey… Dadaş müəllim də onun kimi nazirdir də, bəs necə bacardı? Əvvəllər o da düzlükdən, ədalətdən dəm vurdu. Sonra palaza bürünüb elinən süründü. Bu cahcəlala baxıb ərin qoy gözünə su versin.

– Düzünü desəm, Zərri xanım, elə mənim oğlumun, ərimin məvacibi bizə kifayət eləyir. Onu öz əqidəsindən döndərmək çox çətindir. Yaqut xanım elədir, mən də belə. Salamatçılıq olsun təki. Torpaqlarımız azad olsun hər şey düzələr.

Zərri xanım bir az da yaxın gəlib, astadan:

– Aaaz…, Dadaşın oğlu, doğrudan Qarabağ döyüşlərində iştirak edib? Necə bilirsən? Bəlkə, bu da bir şayədi. Özlərini hökumətə şirin salmaq üçün belə deyirlər?

– Hə, eşitmisən, hələ ciddi yara da alıb.

– Bilirsən, mən belə şeylərə heç inanmıram. Bu da Yaqut xanımın növbəti uydurmasıdır. Gözdən pərdə asmaqlıqdır. Qızım onu bir dəfə «Jiquli» maşınında görüb. O böyüklükdə nazirin oğlu, inanırsan, ucuz maşında gəzsin? İndi bu sarayı görənlər, qucaqlarına «Quran» götürüb and içsələr də, onlara inanmazlar.

– Niyə inanmazlar? Aramızda yalnız məvaciblə dolanan, vicdanlı vəzifəlilər bəyəm azdı?.. Bu uşağın xəmiri başqa undan yoğrulub elə bil. Belə sadə, təmizürəkli olduğuna görə atası ilə araları bir az sərindir. Yaqut xanım da elə yana-yana danışır ki… Adam firavan ailədə böyüyən belə sadə oğlana lap həsəd

aparır. Anası gileylənir ki, bu el-obanın dərdini çəkmək elə bil ona qalıb. Halal olsun, indi belələri çox azdır.

– Eşitmişəm ki, heç arvadı Rəna ilə də yol getmirlər. Bəs onlar qohum deyillər?

Zərri xanım gözlənilmədən soruşdu.

Qadın cavab verməyə tələsmədi. Cavabı gecikdirməyindən «Bu bizim işimiz deyil» demək istədiyi açıq-aydın duyulurdu. Zəringül xanım onu qolundan tutub silkələməsəydi, yəqin heç cavab da verməyəcəkdi.

Onun duruxduğunu görüb Zəringül xanım bir az qeyizləndi:

– Aazz, ağzına su almısan, nədir? Sözdü da, danışırıq. İndi səni busub eləyən-zad yoxdur ki..? Nə qədər mən varam, heç nədən qorxub çəkinmə.

– Nə bilim, Zərri xanım, vallah hər ailə qapalı, sirli bir dövlətdir. Dövlət işinə də qarışmaq bizim işimiz deyil. Siz o ailəyə çox yaxın olmamısınız. Mən isə əvvəllər az-çox gedib-gələrdim. Axı rayonda da həyətimiz bir-birinə yaxın idi. Axır vaxtlar bir az uzaqlaşmışıq. Nə isə qohum-əqrəbalar da indi seyrək görüşürlər. Yəqin zəmanədəndir.

– Belə de! Deməli, bir yerlisiniz? Yəqin qohumluğunuz da çatır. Bunu burda dedin, başqa yerdə danışma!

– Niyə, burada nə var ki?..

Zərri xanım bir az soyuq əda ilə:

– Yox, yerli olmaq bir qəbahət-zad deyil. Ona qalsa, bu ətrafında gördüklərin adamların, demək olar ki, hamısı Göytəpə bölgəsində doğulanların oğlanları, nəvə-nəticələridir. Bilirsən ki, su səmtinə sarı axar – bu qapalı dairəyə sənin ərin kimiləri tək-tək düşürlər. O da Əliş kimi arxası-dayağı varsa.

Zəringül xanım əlini-əlinə vurub şaqqıltı ilə güldü. Qadın bir az pərt olan kimi dodağı azca qaçdısa da, yenə susdu. Zərri xanım şappıltı ilə əlini qadının çiyninə çırpdı:

– Bəlkə, xətrinə dəydim, incimə! Sözümün canı var e…

– Nə olub ki?..

– Bir elə ciddi söhbət yoxdur. Ancaq söz ver ki, öz aramızda qalacaq. Yoxsa, Əlişin xasiyyətin bilirsən də…

– Birdən-ikiyə sənin sirrini, sözünü bir kəsə demişəm? Bu neçə illərdir Zoya adının Zəringül olduğunu məndən başqa bir kəsdən

eşitmisən?

– Yox, yox, insafən, çox ağzıbütöv adamsan. Elə ona görə də ərin o vəzifəyə yüksəlib, çörək yiyəsi olmusunuz da…

Qadın üzünü yana çevirib:

– O günə daş yağaydı. Göylər qopub töküləydi, – deyə heyfsiləndi. – Mən nə biləydim bunu nə məqsədlə eləyirsən. Ay süfrənin başına qədər sürünüb çatan, əfi ilan. İndi içim özümü, çölüm özgəni yandırır. Nə açа bilirəm, nə ağarda. Elə bu dərdlə də bu dünyadan köçəcəm, deyəsən.

– Nə deyirdin, Zərri xanım? Dedin ki, sözümün canı var. Sən sözü havaya verməzsən?

– Elə bir söz deyil, canın üçün. Narahat olursansa, bir yaxın dur.

Zərri xanım bir az onun qulağına tərəf əyildi:

– Yuxarılarda söz gəzir ki, ola bilməz nazir oğlu özünü bu kəndlərdən gəlib «azadlıq, azadlıq» qışqıranlarla bərabər aparsın. Yəqin müxalifətçilərlə əlaqəsi var. Siz onlardan bir az aralı gəzin. Vəzifəli adam gərək suyu da üfləyə-üfləyə içə. Yerin də qulağı var, ee deyillər.

– Yox, bu lap ağ oldu. Kim nə deyir-desin, mən Nihadın səmimiliyinə inanıram. Düzdür, onu çoxdandır görmürəm. Az qala sifəti də yadımdan çıxıb. Bilirsən də, o hansı idarədə işləyir? O uşağın təmizliyinə, səmimiliyinə söz ola bilməz.

– İnanıram, inanıram deyə-deyə elə bu günə qalmısınız da. Nə inanmaq, aaz? İndi dos-doğma ərə də, qardaşa da inanmaq olmur. Od yanmasa, tüstü çıxmaz, bunu unutma. Bu neçə illərdi məni bu qədər musurmanın içində qoruyub saxlayan o canciyərimə də inanmıram. Vəzifədən silkələsələr, məni də güdaza verər. Deyirlər ki, su meymunun boğazına çıxanda, balasını ayaqlayıb keçər.

İndi Əlişin qorxusundan mənə dəyib-dolaşan yoxdur. Bir də ki, onu o kresloda hakimi-mütləq eləyən bax bu Zərri lələşindi. Yaxşı ki, Əliş bunu heç vaxt unutmur.

– Bunlar sizin öz işinizdi. Bir onu bilirəm ki, Nihad o ailəyə elə bil başqa planetdən düşüb. Bütün ailə bir tərəfə, o bir tərəfə durdu ki, gərək Qarabağa döyüşə gedən ilk könüllülər dəstəsində

mən də olam. Bu sadə camaatın balalarından mənim nəyim artıqdır? Yaqut xanım az qala saçını yoldu ki, bircə nəfər səndən başqa nazir, ya elə başqa vəzifəli adamların oğlunu göstər ki, o Milli Ordu paltarını geysin, odun-alovun içinə özünü atsın. Biz də sənə yaxşı yol arzulayaq. Niyə bizi biabır eləyirsən? Bizim ətrafımızda olanların balaları onuncu, onbirinci sinifdən Londona, Parisə gedirlər ki, orada institutlara girib oxusunlar, sonra da orda qalsınlar. Müharibə qurtaranda da, qayıdarlar, qayıtmazlar özləri bilər. Sən indi gözüqaraca çıxmısan? Ya sənə medal-zad verəcəklər? O nazirlər arasında atanın nə hörməti olacaq? Küncdə-bucaqda qeybət eləyəcəklər ki, o neçə nazirdir ki, oğlunu əsgərlikdən saxlaya bilmədi. Bilirsən Nihad nə cavab verdi?

– Nə dedi, sən Allah?

– Dedi ki, ay ana, qoy nazir övladlarının içində mən birinci olum. Axı bu Vətən təkcə kasıb balalarının deyil. Hamımızın son məskənidir. Biz hamımız bu yurdun vətəndaşıyıq. Necə olur ki, xarici ölkələrdə asudə həyat tərzi keçirmək vəzifəli şəxslərin balalarına, vətəni qorumaq kasıbların boynuna düşür? İndiyə qədər Qarabağ torpağı uğrunda verdiyimiz şəhidlər arasında bircə məmur oğlunu, nazir uşağını göstər mənə! Axı bu ədalətsizliyi hansı insafa, mürvətə yaxmaq olar? Mən ora ürəyimin səsi ilə gedirəm. Məni də öz qərarımdan heç kəs döndərə bilməz.

Zərri xanım ağzını açıb mat-mat baxırdı.

Anam bu əsnada evin çaya tərəf baxan eyvanından onları bir neçə dəfə səsləyib süfrəyə dəvət etsə də, qadınlar söhbətlərindən ayrılmaq istəmirdilər. Qeybət üçün necə deyərlər, münbit yer tapmışdı Zərri xanım.

Rəfiqəsinin qolundan dartıb qeyizləndi:

– Mən dünənin uşağı deyiləm ki, mənə nağıl deyirsən, Sədəf! Buna «dovşanı araba ilə tutmaq» – deyərlər. Mən bu işlərin içində olan adam kimi bunu deyirəm. İndi biri qaçqın ailələrini, yetim uşaqları himayəyə götürməklə, biri qocalar evinə tez-tez yardım aparıb, sonra da televiziya ekranlarına özünü çəkdirməklə, biri də məktəb, məscid tikdirməklə vəzifədə yerlərini möhkəmləndirirlər. Bax elə götürək bizim Əlişi, Gününü elə qaçqın «çadır şəhərciyi»ndə keçirir. Xocalı soyqırımında hər iki valideynini itirən üç uşağı öz xərci ilə Türkiyədə oxudur. Qurban bayramın-

da, Orucluqda uşaq evlərinə nə qədər kömək edir. Bu nədir ki, dəryada bir zərrə. Amma birincinin gözündə ucalmağın ən asan yoludur. Bəs necə? İşlətdiyi bir fənddir. Sən belə incə məsələləri başa düşməzsən, bacı. Əgər mənə qulaq assaydın, sənin də malın, mülkün heç bundan az olmazdı.

Səbrim lap tükənmişdi. Başqalarının söhbətinə, qeybətinə qulaq asmağı sevməsəm də, ailəmiz haqqında belə zəngin məlumata malik olan bu qadınların söhbətlərinə qulaq asmaq marağı mənə durduğum yerdən tərpənməyə imkan vermirdi. Atam sərt bir adam olsa da, başqasının bostanına bir daş da atmamışdı. Necə olmuşdu ki, süfrəmizdə duz-çörək kəsməyə gələn bir adam bizim haqqımızda bu qədər qərəzli danışsın? Heç nə başa düşmürdüm. Sarı saçlarını tez-tez əda ilə dala atan, ya da çəngələyib düyünləyən Zəringül xanımın üzünü aydın gördüyüm halda, ikincini görə bilmirdim. O, əlini bir neçə dəfə yelləyib gül-çiçək ləklərinə əyildi. Bir neçəsini qopardıb burnuna yaxınlaşdırdı. Dərindən nəfəs alıb ətrini ciyərlərinə çəkdi.

– Sən canın bir iylə. Gör dünyada bundan artıq var-dövlət taparsan, ya yox?

Zəringül xanım rəfiqəsinin əlini itələdi. Ətli əndamını silkələyə-silkələyə nə isə mızıldandı. Rəfiqəsi əlindəki çiçəkləri qoxlaya-qoxlaya dilxor halda geri döndü. Mənim iki addımlıqda ağaca söykəndiyimi görüb, özünü itirən kimi oldu. Başı ilə salamlaşıb ikinci mərtəbəyə qalxdı. Bu tanış simanı harada gördüyümü xatırlaya bilmirdim. Bir də ki bunun indi heç bir əhəmiyyəti yox idi. Mən son vaxtlar günümün çoxunu ezamiyyətlərdə keçirir, evə gəlib-gedən qonaqlarla demək olar ki, maraqlanmırdım. Ailəmiz, xüsusən mənim haqqımda müsbət fikir deyən qadının kimsə yaxın qohumlardan olduğunu hesab eləyib uzaqlaşdım.

Eşitdiklərimdən ürəyim sıxılır, bu Tanrı qüdrətindən yaranan gözəlliklər arasında sanki boğulurdum. Qəlbimdə bir boşluq vardı, sinədolusu nəfəs ala bilməyən adama bənzəyirdim. Mümkün qədər buradan qaçıb uzaqlaşmaq, sakit bir guşədə keçmiş səhvlərimin acısını bir daha duymaq istəyi ilə çay qırağına düşüb üzü aşağı gələndə bir elə fikir vermədiyim iki sahili birləşdirən bir tərəfi sınıq taxta körpüyə tərəf addımladım. Suyun üzü ilə axan tək-tək sarı yarpaqlar, qırılıb çiliklənən arzularım kimi ümidsiz,

haysız-haraysız axıb gedir, özlərini taleyin ümidinə buraxıb yox olurdular.

Hərdənbir də qovuşmağa can atır, əlləri bir-birinə toxunmadan, çatmadan üzü aşağı çay boyunca gedirdilər. Ayaq saxladım. Çayın kənarında az qala sallanıb suya toxunan budaqda iki quş da dimdik-dimdiyə dayanmışdılar. Sanki öpüşmək, çoxdan arzusunda olduqları vüsala çatmaq üçün bir-birlərinə ürək açmaq istəyirdilər. Amma nə qədər dartınsalar da, dimdikləri bir-birinə toxuna bilmirdi. Toxunsaydı, nə baş verəcəkdi ki?.. Əsil xoşbəxtlik cismani qovuşmaqdadırmı? – Deyə xeyli fikrə getdim. İnsan ruhu da elə quş kimi bir şey deyilmi? Məhz ruhlar qovuşanda, arzular vüsala yetəndə insan xoşbəxt ola bilər. Təbiətin yaratdığı canlıların hamısı sevgiyə, xoş ülfətə möhtacdı. Lakin belə lövhələr bəzən təkrar olunmazdı. Belə anları tutmaq, onun gözəlliyindən mənəvi zövq almaq üçün ən azı şair ya rəssam olasan gərək. Məndə bu qabiliyyətlərdən heç biri yox idi. Nəhayət, suyun üzündə qalan tənha yarpaq özünü o yan-bu yana çırpa-çırpa yox olanda nəzərlərim bu lövhədən ayrıldı.

Nə qonaqlar, nə Rənanın tənəli baxışları, nə də anamın hirsi, zabitəsi məni düşündürmürdü. Bağların, otun, gül-çiçəyin saralmağına, yam-yaşıl otlarla məxmər kimi örtülən yolların, talaların indi yavaş-yavaş açıldığına heç fikir verməmişdim. Deməli, payız öz solğun çöhrəsini göstərməyə başlamışdı. Torpağın ot, çiçək sevgisi də mənim ürəyim kimi solub, saralmaqda idi. Təbiətin bu qanuni dəyişikliyini ruhumda da hiss edirdim. Elə bilirdim ki, indiyə qədər, işim, ailə qayğılarım ilə qəlbim elə dolmuşdu ki, heç bir uzaq xatirənin, heç bir köhnə duyğunun ora daxil olmasına yol, iriz qalmamışdı. Lakin indi onu da başa düşdüm ki, qəlbimdə də təbiət kimi xəzan yeli çövlan edir, bütün vücudumu silkəldikcə keçən günlərimin solğun xatirələrini oyadır, o anların ağrısını-acısını mənə təzədən yaşadır. Özümü heç cür ələ ala bilmirdim. Çayın qırağı boyu boş-boşuna xeyli dolandım. Ayaqlarımda, vücudumda sızıltı duyub bir ağacın altında arxası üstə uzanıb göydə bir-birini qovan kiçik bulud topalarına, dağın arxasına çəkilib, təsirini itirən solğun şüaları güclə seçiləcək günəşə xeyli tamaşa etdim. İnsan ömrü, arzusu-sevgisi də bax o günəş kimi bir vaxt parlayır, qocalır, solub gedir. Lakin məni yandırıb-yaxan o

idi ki, mənim Mehinə olan məhəbbətim qocalmadan, dodaqlarında yarımçıq bir busənin nəşəsi qalan bir gəncin ömrü kimi məhv olub getdi. Məni beş ildən sonra yenidən cücərən ümidsiz məhəbbətimin izinə-sorağına salan tanrım mənə dolaşıq ruhumun, xəyallarımın böhranlarından çıxmağa da kömək elə deyib ayağa qalxdım. Geri qayıtmaq həvəsim ölüb getmişdi. Bağların arası ilə addımlarımı yeyinlətdim. Bir-birindən aralı tikilmiş evlərin, hasarların yanından ötdükcə könlümün qaysaqlanan yaralarını qoparıb qanadan «Harda axtarım səni?» mahnısı məni yenə öz ecazkar qüvvəsi ilə sehirlədi. Ayaqlarım dalınca getmirdi. Reyhanın həzin, incə duyğuları titrədən səsi ətrafın səssizliyində elə bir haray qoparırdı ki, qulaqlarımı tutub qaçmaq, uzaqlaşmaq istəyirdim. Ayaqlarım, necə deyərlər, yerə yapışmışdı elə bil. Mahnının sonunu dinləmədən getmək istəmirdim.

…Dilləndirir dərd məni,
Həsrət sökür sinəmi.
Yenə sən axtar məni,
Harda axtarım səni?..

Reyhan mahnının son misralarını oxuyub qurtarsa da, mən hələ də durduğum yerdən tərpənmək iqtidarında deyildim. Yanımdan keçən bir maşın əylənci basıb dayanmasaydı, kim bilir, bəlkə nə qədər dayanacaqdım. Sürücü şüşəni aşağı salıb başını çölə çıxartdı. Üzünün tüklü olması çoxdan qırxılmadığını bildirirdi. Sarışın, cod saçları elə qarışmışdı ki, sanki heç daraq üzü görməmişdi. Dodağındakı siqarının kötüyünü yerə atıb dilləndi:

– Bağışla, bacıoğlu, bura adamına oxşamırsan, nə əcəb bu şər qarışan vaxt maşınsız- zadsız yola çıxmısan? Bu vaxtlar şəhər tərəfə çox az maşın yola çıxır.

Söhbətə girişməyə həvəsim olmadığı üçün susdum. Sürücü oğlan cavab gözləmədən atılıb maşından düşdü. Əynindəki yaxası, qolları sürtülmüş köhnə dəri üst geyimini çıxarıb mənə uzatdı.

– Bu yerlərin havasına biz öyrənmişik, qardaş. Siz səhər adamları bir az zərif olursunuz. Görürəm, yola hazırlıqsız çıxmısan. Axşamüstü burda belə nazik geyimdə gəzmək olmur. Bax o Şah dağını görürsən? Üzü dönüb dəliliyi tutanda yayın ortasında

da bizə qış, payız havası yaşatdırır.

Oğlan təmiz dağ havasını ciyərlərinə çəkirmiş kimi qollarını geniş açıb fırlandı.

– Sənə qəribə gəlməsin, mən uşaqlıqdan bu dağ havasının vurğunuyam.

Onun mavi gözlərindən yorğunluq qarışıq bir mehribanlıq yağırdı. Azca gülümsədi. Sol yanağındakı çapıq açıq-aydın görünürdü. Üst-başının tozunu çırpıb ağır yük maşınının arxasına keçəndə azca axsadığını gördüm. Kənd adamları çox dözümlü olurlar. Eyni zamanda da ürəyiaçıq, qonaqpərvər insanlardır deyə ürəyimdən keçirdim. Onun danışığında şirin dağlı ləhcəsi müşahidə etdim. Bu tərəflərdə yaşayan, azlıq təşkil eləyən millətlərdəndir deyə fikirləşdim. Niyə də olmasın? Deyilənə görə Qax, Balakən-Zaqatala tərəflərdə 21 millətin nümayəndəsi yaşayır. Xalqımız əsirlərlə bu camaatla nəfəs-nəfəsə bir ailənin üzvü kimi yaşayıb. O cümlədən də ermənilərlə mehriban qardaş kimi olmuşuq. Ən səfalı yerlərimizi qonaqdılar deyib onlara vermişdik ki, yaşasınlar. Bəs bu qədər nankorluq onlarda necə yaranıb? Qanım bir anlıq qaraldı. Qarabağın ən gözəl kəndlərində, Bakının, Gəncənin ən yaxşı yerlərində yaşaya-yaşaya bizə kin-küdurət bəsləyiblər.

Canımdan soyuq bir üşütmə keçdi. Sürücü oğlanın gülə-gülə-gülə mənə uzatdığı geyimi alıb çiynimə saldım. Doğrudan da, üşümüşdüm. Canıma yüngül istilik yayıldı. Gödəkçənin yaxasını çəkib axıra qədər düymələdim. Sürücü maşina yüklədiyi alma qutularını səhmanlayıb geri qayıtdı. Əlində bir neçə qırmızı, ağ alma mənə yaxınlaşdı.

– Bax, qardaş, bu alma növlərini görürsənmi? Bu nemətləri dədə-babalarımız əkib-becərib, indi də biz yetişdiririk. Bunlar mənim öz torpaq payımda bitirdiyim ağacların barıdır. Nə qədər ağlım kəsir, biz belə gözəl nemətlərin üzünü görməzdik. Dərib qutulara yığardı atamgil. Bərk-bərk də tapşırardılar ki, əl vurmaq olmaz. Bunlar Moskvaya, Leninqrada (Sankt-Peterburqa) gedəcək. Bax yetmiş il biz şimal qardaşlarımıza beləcə işləmişik. İndi şükürlər olsun ki, öz əlimiz, öz başımızdı. Təzə-təzə yurdumuzun nemətlərinə sahib olurduq ki, indi də bu çörək gözlərini tutmuş ermənilər dinc yaşamağa qoymurlar. Sürücü oğlan atılıb

maşına mindi.

– Çıx görək, qardaş, yolçu yolda gərək. Söhbətimizə yolda davam edərik.

Mən xeyli susdum. Yol yoldaşımın belə savadlı danışığından çox xoşlanmışdım. Ona sual verib kimliyini soruşmaq istəyirdim ki, şirin bir ləhcə ilə zümzümə elədi:

Qubanın ağ alması,
Yeməyə bağ alması.
Yarım gələnə qaldı,
Yaramın sağalması.
Ölürəm, ölürəm, yar,
Səni mən sevirəm, yar…

Ürəyim dolu olduğu üçün mahnı məni riqqətə gətirmişdi. Səsim boğazımdan çıxmırdı. Bir neçə dəfə udqunub dilləndim:

– Bayaqdan bəri bu qədər söz danışmışıq, heç bir-birimizin adını da soruşmamışıq. Bağışla, qardaş, sən hansı bölgədənsən?

Sürücü ucadan güldü.

– Düz deyirsən, bunu niyə unutmuşam. – Üzünü mənə çevirib əl uzatdı. – Adım Benyamindi, kəndarası mənə Beniq deyirlər. Tanıyırsan, tanımırsan bilmirəm, Qubadakı «Qırmızı qəsəbə»də yaşayan yahudilərdənəm. Qarabağ savaşına qədər kənddə Azərbaycan tarixindən dərs deyirdim. İndi gördüyün kimi… – o susdu. – Atam çox qoca olduğuna görə ailənin maddi çətinliyini çəkməli olmuşam. Məktəbdən özüm aralandım. Çarəm yox idi. Bir də ki xətrinə dəyməsin mənim «bölgə» sözündən heç xoşum gəlmir. Bir sözlə azərbaycanlıyam. Adımı soruşmadan düz gözlərimin içinə baxdı. – Bizim qəsəbədən bəzi ailələr köçüb İsrailə, Almaniyaya gedəndə atama çox israrla getməyi təklif edənlərə dedi: –Mənim atam, babam bu torpaqda yaşayıb haqq dünyasına qovuşublar, mən də bu torpaqda qalacam. Buranın insanları mənə doğmalarım qədər əzizdi. Sənə həyat verən torpağa, xalqa dönük çıxmaq ən azı nankorluqdur.

Elə bu murdar ermənilərin torpaq oyunları başlayan gündən atam məni ilk döyüşçülər dəstəsində Qarabağ uğrunda döyüşlərə göndərdi. Təəssüflər olsun ki, bir ildən sonra bir neçə yerdən ya-

ralandım. Sağlıq olsun, imkan olan kimi dəstəmizə qayıdacam.

Dərindən köks ötürüb ayağını qaza basdı. Maşın yerdən tərpəndi.

İndi gecənin sərinliyini canımda daha çox hiss eləyirdim. Gödəkçənin boynunu qaldırıb əllərimi qoynumda çarpazladım. Maşın getdikcə arxada qalan alma, armud ağaclarına, meyvə dolu yük maşınlarına maraqla baxdığımı görən Benyamin gümrah səslə dilləndi:

– Nə yaman diqqətlə baxırsan, qardaş. O meyvələri gərək öz əlinlə dərəsən ki, ətrini yaxından duyasan. Onun öz ləzzəti var. Barlı budaqlar başını torpağa əyib ətrini torpağın ətrinə qatanda adam özünü elə xoşbəxt hiss eləyir ki… İstəyirsən, qələm götürüb şeir yazasan. Təəssüf ki, məndə belə bir qabiliyyət yoxdur.

Bu torpaq ətirli insana ürəyimdə qibtə elədim. Nə xoşbəxt adamdır, elə bil heç dərdi-qəmi yoxdur deyə ürəyimdən keçirdim. Benyamin təkrar dilləndi:

– Bax, qardaş, gecə maşınla yola çıxan adamın yol yoldaşı gərək söhbətcil ola. Görürəm, sənin də söhbətlə aran yoxdur. Heç olmazsa, hərdən bir sual ver, mən də söhbətin, necə deyərlər, ucundan tutub ucuzluğuna gedim ki, yuxlamayım da, Allah saxlamış. Sözü də pulla vermirlər ki, qazana bilməyək.

– Benyamin ərklə əlini çiynimə vurdu. Hörmət xatirinə gözümü tək-tək orda-burda yanıb-sönən işıqlardan çəkib ona sarı döndüm. Bu açıqürəkli, zarafatcıl, sadə insanın qəlbini qırmaq istəmədim. O, bir əli sükanda, bir əli ilə saçlarını qarışdıra-qarışdıra güldü.

– Səni, deyəsən, fikirdən ayırdım, bağışla – bir az da günahkarcasına dilləndi.

Açığını desək, danışmağa heç həvəsim qalmamışdı. Öz hərəkətlərimə acığım tutmuşdu. İndi tanışlardan biri məni yük maşınının kabinəsində görsə, halım necə olacaq? Atam xəbər tutsa nə cavab verərəm? Gərək icazəsiz–filansız belə yarımçıq çıxıb getməyəydim. Anamın, Rənanın nə tufan qoparacaqları mənə aydın olsa da, atama, qonaqlara qarşı hörmətsizliyimə heç cürə haqq qazandıra bilmirdim. Xarici ölkələrin birində təhsil alan qardaşımdan fərqli olaraq atam mənə daha isti münasibət bəsləyir, bacarığıma, işə məsuliyyətimə görə mənimlə hətta fəxr edirdi.

Bunu açıq-aşkar deməsə də, başa düşürdüm. Elə vaxt olurdu ki, bəzi məsələlərdə mənim fikrim, mülahizələrimlə razılaşırdı.

«Sən mənim gəncliyimsən, işgüzarlığın, prinsipiallığın mənə özümü xatırladır, Nihad, – deyirdi. – Gül kimi ailən, uşaqların, ata-anan, vəzifən ola-ola həyatdan bu qədər küsgünlüyün ürəyimi sıxır. Bir ata kimi məni çox narahat eləyir, oğul. Ömrü həmişə qəm-kədərlə yaşamaq da olmaz. Axı sənin nəyin çatmır?»

Nə deyəydim atama? Onu qucaqlayıb hər şey yaxşı olacaq, narahat olma deməkdən savayı əlimdən nə gəlirdi kiə?..

Atam yetimçiliklə böyümüşdü. Təhsil almaq üçün şəhərə gələndə nə pulu, nə də qalmağa yeri olub. İnstituta imtahanları verib qurtarana qədər kirayədə yaşayan tələbə həmyerlilərinin yanında qalıb. Ev yiyəsi Rudik adlı bir erməni imiş. On beş günə bir ayın pulunu istəyib. Atam pul əvəzinə bütün paltarlarını ona verib çıxıb. Tələbə biletini alan kimi çox çətinliklə də olsa, özünə yataqxanada yer ala bilib. Oxuya-oxuya yaşamaq üçün ən ağır işlərdən yapışıb. Bacarığı, yaxşı təhsili onu pillə-pillə bu vəzifəyə qədər yüksəldib. Yetimçiliyin ağrı-acısını görən atam bizdən qayğı və diqqətini əsirgəməyib. İşdən sonra başımı dizlərinin üstə qoyar, zəhmətlə, namusla böyüməyim üçün saatlarla söhbət eləyərdi. İndi atama nə olmuşdu? Aradan nə keçmişdi ki, atamı tanıya bilmirəm?

Yadımdadır, hələ mən məktəbə getmirdim. Atam işdən yornuq qayıtmışdı. Mən onun şam yeməyini qurtarmasını səbrsizliklə gözləyirdim. Anamın təkidinə baxmayaraq mənə ya nağıl danışmağını, ya kitabdan maraqlı bir şey oxumağını istəyirdim. Atamın göz qapaqları az qala örtülürdü. Mən əl çəkmirdim. O, gözlərini ovuşdura-ovuşdura məni qaldırıb öz yanında yatağına uzatdı «Qazanılmış manat» nağılını şirin-şirin elə danışdı ki, indi də yadıma düşəndə bir uşaq şıltaqlığı ilə o şirinlikdən məst oluram.

– Hə, əziz balam, dövlətli bir kişinin ərkəsöyün oğlu var imiş. Ata-anası yeganə övladlarından heç nə əsirgəməzmişlər. Oğlanları da valideynlərinin belə səxavətindən istifadə edib harın böyüyər, atasının pullarını sağa-sola xərcləyərmiş. Bir gün atasının ona acığı tutur. Daha doğrusu ona həyat dərsi verib zəhmətlə yaşamağı öyrətmək fikrinə düşür. Oğlunu yanına çağırıb deyir:

– İsrafçılığı ki belə sevirsən, get işlə, mənə gündə bir manat pul gətir.

Zəhmətlə heç bir şey qazanmayan oğul təşvişə düşür. Oğlunun əziyyət çəkməyinə dözməyən ana oğluna gündə bir manat verir ki, aparıb atasına versin. Atası ondan əl çəksin. Ata hər gün oğlunun gətirdiyi manatı ocağa atıb onun gözü qarşısında yandırır. Oğlu pulun yanmağına görə heç bir narahatçılıq keçirmir. Dünyagörmüş ata axıra qədər sözünün üstündə durur. Bir neçə vaxt belə davam edir. Nəhayət, oğul qərar verir ki, işləyib pul qazansın. Bu dəfə qazandığı manatı atasına verəndə atası pulu yenə ocağa atır. Oğlu əlini atıb ocaqdan yarısı yanmış manatı çıxaranda atası məmnunluqla gülümsəyib deyir:

– Bax bu qazanılmış manatdır, ona görə əl atıb odun içərisindən çıxardın.

O gündən oğul zəhmətlə qazanılan pulun şirinliyini bilib səhvini başa düşür.

Şirin xatirələrə o qədər aludə olmuşdum ki, nə vaxt şəhərə çatdığımızı hiss eləməmişdim. Maşın qəfildən xırıldayıb dayananda Benyamin eyni hərəkətlə çiynimə toxundu:

– Hə, şəhərə çatdıq. Yolumuz hayanadı, qardaş? Onu sən deyəcəksən?

Qurd qapısından keçib prospektə dönən yolda maşını saxlamağı xahiş etdim. Burdan evimizə qədər cəmi yüz, yüz əlli metr yol var idi. Əlimi cibimə atıb sürücüyə pul vermək istədim. O, məni qabaqlayıb əlimi geri qaytardı:

– Biz qonaqdan pul almırıq, qardaş, qonağım ol!

Təkid etmək artıqdan idi. Döş cibimdən adresim, telefonum yazılan kiçik kağızı çıxarıb ona uzatdım. Çox təkid etsə də, geyindiyim gödəkçəsini çıxardıb çiyninə saldım. Bakının soyuq payız küləyi canıma hopub mənim payız ovqatıma qarışdı. Özümü toplayıb:

– İndi qonaq eləmək mənim növbəmdir. Nə vaxt yolun düşsə, mənə qonaq olmağı unutma! Burda telefon nömrəm, ev və iş ünvanım var.

Benyamin gözucu kağıza baxıb heyrətlə başını qaldırdı:

–Bəlkə, döyüşçülərin dilindən düşməyən nazir oğlu Nihad sənsən? İşə bir bax, gör harda görüşdük. İgidin adını eşit, üzünü

görmə deyiblər. Sənin üzünü də gördüm, qardaş.

Benyamin qollarını geniş açıb məni bərk-bərk qucaqladı:

–Biz səni ölmüş bilirdik, şükürlər olsun ki, sağ-salamatsan, qardaş. Elə ağır döyüşdən sonra kim deyərdi…

Bütün günün qanıqaralığını korlanmış ovqatımın üstünə gəlsək, bərk kövrəlmişdim. Həm də sevinirdim. Ona görə sevinirdim ki, kimlərsə mənim taleyimlə maraqlanıb.

– Nə böyük şücaət eləmişəm ki? – Deyib aralandım.

Əvvəl iş yerinə gedib elə öz masamın arxasında səhəri açmaq ürəyimdən keçsə də, bazar ertəsi Babayevlə görüşü yada salıb fikrimi dəyişdim. Həm də paltarımı götürüb yol hazırlığımı görməli idim. Ayaqlarımı güclə çəkirdim. Yad qapısını döyürmüş kimi evə yaxınlaşdım. Əlimi yan cibimə salıb açarı çıxardım. Otaqlar mənə əvvəlkindən də soyuq göründü. Yol boyu bir dəfə də olsun düyməsini basmadığım telefonumu çıxardım. Rəna, anam neçə dəfə zəng vurmuşdular, İlahi. Sabah nələr baş verəcəyini indidən görürdüm. Bunların heç biri məni narahat etmirdi. Təkcə atamın tənəli baxışlarından necə can qurtaracağımı təsəvvür edəndə, alnımı soyuq tər basdı. Günahkar uşaq kimi büzüşüb divanın bir küncündə dinməz-söyləməz xeyli oturdum. Uşaqlıq vərdişim yadıma düşmüşdü elə bil. Uşaqlıqda da beləcə səssiz-səmirsiz bir küncə çəkiləndə evdəkilər başa düşərdilər ki, nə isə xoşagəlməz bir iş tutmuşam, ya da dərslərdən aşağı qiymət almışam. Odur ki, belə vaxtlarda heç kəs məndən bir söz soruşmurdu. Təkcə məndən kiçik qardaşım gah atılıb dizimin üstündə oturar, gah da saçlarımı qarışdırıb məni cırnadardı.

Bilirdilər ki, özüm gəlib nə varsa olduğu kimi danışacam. Elə Rəna məsələsində də beləcə susdum. Anam bunu razılıq əlaməti kimi qəbul elədi. Süstlük, laqeydlik, anamın iradəsinə qarşı çıxmaqda cürətsizlik ovqatında bulunduğumu özümə necə bağışlayım, necə? Necə etiraf edim ki, acı peşimançılıq məni içimdən qurd kimi söküb yeyir. Varlığımı talayır. Özüm-özümə nifrət edirəm. Doğma anam, arvad, uşaq gözümdə getdikcə yadlaşır.

Alnımı, gicgahlarımı nə qədər ovuşdurdum ki, bəlkə yuxuya gedə bilim, mümkün olmadı. Tənhalıq şığıyıb qoşun kimi üstümü almışdı. Divarlar sanki üstümə gəlir, havam çatmır, boğulurdum. Qalxıb stolüstü lampanı yandırdım. Lampanın zəif şüaları otağın

divarlarını işıqlandırdı. Bir az özümə gəlib sakitləşdim. Telefon kitabçasını götürüb Rüstəmin nömrəsini yığmaq, ürəyimi boşaldıb yüngüləşmək istəyəndə gözüm saata sataşdı. Saat üçün yarısı idi. Əl saxladım. Rüstəmin yatdığını, uşaqlarının balaca olduğunu xatırlayıb fikrimi dəyişdim.

* * *

Rüstəmlə unversitetdə beş il bir qrupda oxumuşduq. Mənə qardaşdan artıq olan bu insanın qayğısına, ürəktoxtadan, təsəlli verən bir kəlmə sözünə belə ehtiyac duyurdum.

Rüstəm atasız böyümüşdü. Atası «Neft daşları»nda işləyirdi. Neft mühəndisi idi. Ayın on beş günü quruda, on beş günü dənizdə qalırdı. Bədbəxt bir hadisə – dənizdə qəflətən qopan qasırğa onun işlədiyi buruğu aşıranda atası da həlak olmuşdu. Anası o gündən oğlunu tək böyütmüş, bir daha ailə qurmamışdı.

Ağlına, tərbiyəsinə, yaxşı oxuduğuna görə atam onu çox sevər, məndən ayırmazdı. İnstitutu qurtarandan sonra onu bizim nazirlikdə işə də atam düzəltmişdi. O, məndən gec ailə qurmuşdu. Bunu ailə vəziyyəti ilə bağlayardı. Evimizdə elə məclis olmazdı ki, Rüstəmsiz keçsin. Atam yetimliyin ağrısını, çətinliyini özü yaşadığına görə Rüstəmə xüsusi diqqətlə yanaşırdı. Anam da hərdən zarafatyana deyərdi:

– A gəlin, sən o evə gələndən sonra Rüstəmin bizə gəlib-getməyi seyrəlib ha… Belə getsə, oğluma deyərəm səni boşayar. Qulağını aç, eşit. Rüstəm bu evin oğludur.

Sonra da gülə-gülə əlavə edərdi:

– Qəlbinə dəyməsin, zarafatla deyirəm. Sənin ayağın çörəkli imiş. O ailəyə gələndən Rüstəm təzə evə köçdü, maşın aldı. Sayalı da indi-indi gün görür. Ərsizliyin ağrı-acısı canından çıxır. Allah axıracan versin, yazıqdır.

Yazıq sözündən Rüstəmin heç xoşu gəlməzdi deyə söhbətə qarışardım:

– Ay ana, niyə elə deyirsən? Rüstəm işləyənə qədər Sayalı xala pis dolanırdı? Məktəbdə ən biləcəkli, hörmətli riyaziyyat müəllimi o idi. Bütün məktəb xətrini istəyərdi. Heç əlli yaşa çatmamış «Əməkdar müəllim» adına layiq görüldü. Bu elə ən yaxşı var-dövlət deyilmi? Var-dövləti çox dar mənada başa düşürsən. Özün

heç vaxt işləməmisən axı.

«Qazanılmış manat» əhvalatı yadıma düşsə də, anamla söz güləşdirmək, onu pərt eləmək istəmirdim. İnsafən, Rüstəmin həyat yoldaşı Mehparə bacı da onun sözündən inciməzdi. Anamın zarafatlarını ciddi qəbul eləməz, ev gəlini kimi hər işə əl yetirərdi. Rənanın ondan xoşu gəlməz, anamın ona isti münasibətini qısqanclıqla qarşılayardı. Mehparə Rüstəmin kənddə yaşayan uzaq qohumu Xaliq müəllimin yeganə övladı idi. Mehparə doğulanda anası dünyasını dəyişib. Xaliq müəllim onu qolları üstündə böyüdüb. Pedaqoji İnstituta qəbul olanda Mehparəni heç kəsə etibar eləməmiş, Sayalı xalaya tapşırmışdı. İlk görüşdən iki gənc bir-birinə vurulmuş və evlənmişdilər. Mehparə Sayalını öz anası bilir, Sayalı xala da onu öz qızı hesab eləyir, mehriban dolanırdılar. Rəna onların münasibətinə qısqanclıqla yanaşar, hərdən də yerli-yersiz sancardı.

– Gec gəlib-tez öyrənənlərdənsən e… Kənddən gəldiyin heç dörd-beş il deyil, şəhər abı-havasını elə götürmüsən ki, elə bil köklü, nəsilli şəhərli qızı kimi bütün ömrünü burda yaşamısan. Gözə girməyi də yaxşı bacarırsan. Sayalı xala da elə bil dünyanın gözün çıxarıb. Şəhərdə Rüstəmə yaraşan qız tapılmırdı? Nənəm deyərdi ki, yemişin yaxşısını tülkü-çaqqal yeyər. Vallah, düz deyiblər elə bu məsəli. Bir də deyərdi ki, hamı gedib quş gətirdi, Şaqqulu bayquş gətirdi,

– Şaqqıltı ilə gülərdi.

Mehparə cavab qaytarmır, özgə evinə qanıqaralıq salmaq istəmirdi. Onlar gedəndən sonra bizim Rəna ilə həmişə mübahisəmiz olardı. Onun hansı ailədən gəldiyini, kimin qızı olduğunu bir daha xatırladıb özümə başağrısı üçün mövzu yaradardım. Çünki dostumun seçiminə də, əsil sevgisinə də hörmətlə yanaşırdım. Açığını desəm, Rüstəmin xoşbəxtliyinə yaxşı mənada qibtə də edirdim. İndi bax elə bu saat, bu dəqiqə Rüstəmi yanımda görmək ehtiyacı duya-duya yuxuya necə getdiyimi özüm də bilmədim.

Məni yuxudan qurduğum saatın səsi oyadanda başım bərk ağrayırdı. Döyülən adamlar kimi yatağımdan qalxa bilmirdim. İş saatının yaxınlaşdığını görüb könülsüz-könülsüz yataqdan qalxdım. Axşamdan ac olduğum elə bil indi yadıma düşmüşdü.

Soyuducudan yağ-pendir çıxarıb nahar elədim. Stolun üstünü yığışdırıb səliqəyə saldım. Deyinmək üçün Rənaya bir mövzu olacağına əmin idim. Rəna kiçik bir xətanı böyüdüb deyinər, qanıqaralıq salardı. Geyinmək üçün dolabın qapısını açanda məəttəl qaldım. Bütün qalstuklarım, köynəklərim dolabın içində elə əzik-üzük qarışdırılmışdı ki, gözlərimə inanmadım. Elə əsəbləşmişdim ki, burada kim olmağından asılı olmayaraq acığımı üstünə tökəcəkdim. Heyif ki, heç kəs yox idi. Bu, Rənanın növbəti oyunu idi. Şənbə günü evə gec gəldiyimin acığını paltarımdan çıxmışdı.

Vaxtım çox az idi. İşə gecikməyim deyə əlimə gələn köynəklərdən birini geyib tələsik qapıdan çıxdım.

Başım bərk ağrayırdı. Qulaqlarım maşın motoru kimi guruldayır, müxtəlif səslər eşidirdim elə bil. Dünənki macəraları anlamaq, saf-çürük eləmək istəyirdim, bacarmırdım. Kimin düz, kimin səhv olduğunu ayırdlaşdırmaqda acizlik çəkirdim. Bəlkə də, atam düz deyirdi ki, mən zamanın nəbzini tutmaq əvəzinə, «Aldanmış kəvakib» əsərindəki Yusif Sərrac kimi xəyalımda qurduğum düz, ədalətli, billur kimi saf, təmiz bir dünya arzulayırdım? Bəlkə, elə belə təbiətimə görəydi ki, son vaxtlar atamla fikirlərimiz üst-üstə düşmürdü? Beladirsə, mənim tanıdığım sadə, təvəzökar, dünya malında gözü olmayan, şan-şöhrətdən uzaq atam necə olmuşdu, hara getmişdi? Hanı o ata ki, məni dizləri üstündə oturdub insani hisslərdən, vicdani təmizlikdən saatlarla danışardı? Bu beş ildə nə baş vermişdi? Bəlkə, vəzifə borcu idi onu belə dəyişdirən? Hər halda ona haqq qazandıra bilmirdim.

Haradan, nədən başlamaqda da çətinlik çəkirdim. Öncə içimə enib, özümü tapmaq, özümü dərk eləmək istəyirdim. Bu elə də asan iş deyildi. İşdən də, ailədən də soyumuşdum.

Mən o qənaətə gəlirdim ki, özümdən çox uzaqlaşmışam. İçimdə yaranan boşluğu doldurmaq, təzədən özüm olmaq çox çətin idi. Məchul suallardan yaxa qurtara bilmirdim. İnsan həyatda özünü axtara-axtara ömrünü başa vurmurmu? Bu asan olsaydı, bəs çəkdiyim bu iztirablar nə idi? Mən on il əvvəlki Nihadı, özümü axtarırdım. Məni tələtümə gətirib peşimançılıq içində çalxalayan, içi dilsiz, haysız-haraysız sevgiylə dolu Nihadı. O Nihad ki, dünyacan sevgisi acı təəssüflə dolu yuxusuz gecələrə

çevrilmişdi.

Hava xeyli sərinləşmişdi. Bunu buz kimi soyumuş içimdə də hiss edirdim. Bərk xəzri əsirdi. Külək çılpaq ağacların qol-budağını əyib-bükür, şaxını, qamətini sındırırdı. Yerə tökülən quru yarpaqlara hökmünü-hikkəsini göstərir, gah burub-bükmələyib yolun o tərəf-bu tərəfinə qovur, gah da göyə qaldırıb yerə çırpırdı. Həyatın özü də belə deyilmi? Bütün tarix boyu güclü gücsüzə, varlı kasıba, yuxarılar aşağıdakılara hökm eləməyibmi? Yaşamaq şansı güclülərdə çox olub. Həyatda kim güclüdürsə, o da yaşaya bilib. Zəiflər bax o sarı yarpaqlar kimi həyatın burulğanında məhv olub gediblər.

Dənizin də üzü bozarıb, halı qarışmışdı. Qağayılar qalxıb-düşən dalğaların üstündə sanki yaşamaq üçün mübarizə aparırdılar. Dənizin bulanıq sularında, onun mavi gözlərində səhərin təmizliyini, şəffaflığını duydum elə bil. Bəlkə, mənə elə gəlirdi. Xəzri əsəndə bunu duymaq, dənizin gözəlliyini dərk etmək çox çətin olurdu. Kaş bu saflıq, təmizlik insanların da qəlbində olaydı. Hər halda mən belə istəyirdim.

Dənizin də öz sirri, insanlar kimi öz nağıl dünyası var. İnsan həyatı da bir nağıla bənzəyir. Nağıl da haçansa sona çatır axı? İnsanın da ömür nağılı bir vaxt qurtarır. Nağılda qurub-yaratdıqlarına çatar-çatmaz əbədi dünyanın qapısına yetişir, insan. Eləyə bilmədiklərinə təəssüflənə-təəssüflənə, səni yandırıb-yaxa-yaxa həyatla vidalaşırsan.

Arxadan gələn maşınların siqnal səsinə xəyaldan, düşüncələrdən ayrılanda artıq iş yerinə çatmışdım.

Birinci mərtəbədə qapının ağzında oturan qadınla salamlaşıb yuxarı – otağıma qalxdım. Şöbədə tək-tək işçilər gözə dəyirdi. Adəti üzrə hər səhər şöbədə məni Reyhan qarşılayar, şöbənin həftəlik işi haqqında qısa məlumat verərdi. Sonra da armudu stəkanda çay gətirib stolun üstünə qoyar, səssiz-səmirsiz çıxıb gedərdi. Bu gün nədənsə Reyhan gözümə dəymirdi. Mən heç bunun fərqinə varmaq durumunda da deyildim. Masamın üstündəki məktubu götürüb Şamil Babayevlə görüşə getdim.

Babayevin iş otağının qarşısında xeyli adam var idi. Bazar ertəsi adətən belə olurdu. Hamı qəbula tez düşüb dərdini deməyə tələsirdi. Uzun bir növbə yaranmışdı. Camaatı aralayıb içəri

girməyə utandım. Bu mənim tərəfimdən camaata qarşı hörmətsizlik olardı. Babayevin köməkçisi məni görcək qolumdan yapışıb içəri çəkdi:

– Keçin içəri, Nihad müəllim, yoldaş Babayev sizi gözləyir.

O, atamın yaxın dostu idi. Dünənki qonaqlıqdan özbaşına çıxıb getdiyim üçün məni danlayacağını güman edirdim. Yox, belə olmadı. Başını masanın üstündə yazdığı kağızdan qaldırıb gülə-gülə:

– Gəl, Nihad, buyur əyləş. Sənlə söhbətimiz ciddi olacaq.

Ürəyimi narahatçılıq aldı. Yəqin atam məndən ona gileylənib, məni danlayacaq deyə fikirləşdim. Adətən tündməcaz xasiyyətli bu adam heç kəsə fərq qoymadan təhər-töhmət eləməyi sevirdi. Əlimdəki məktubu görüb köməkçisinə göstəriş verdi:

– Bir neçə dəqiqəliyə içəriyə heç kəsi buraxma, bizim Nihadla məxfi söhbətimiz var.

Narahatçılığım bir az da artmışdı. Nə deyəcəyini səbrsizliklə gözləyirdim. O, paketi açа-açа üzümə baxmadan dilləndi:

– Sən işlərini səhmana sal, elə bu gün axşam ezamiyyətə gedirsən.

– Axı Ərəb Əmirliyindən təzəcə gəlmişəm, yenə nə ezamiyyətdir elə? – Sual verdim.

– Sözümü kəsmə. Haradan, nə vaxt gəldiyini mən səndən yaxşı bilirəm. Bu işi səndən başqa heç kəsə həvalə edə bilmərəm. Sənin, Allaha şükür, belə işlərdə kifayət qədər səriştən var. Məlumat almışıq ki, bir qrup işbazlar yenə fəaliyyətə başlayıblar. Bizim duyuq düşdüyümüzü görüb istiqaməti dəyişiblər. Yenə sadəlövh qadın-qızlarımızı işə düzəltmək adı altında xarici ölkələrə aparıb ləyaqətsiz işlər görməyə məcbur edirlər. Buna yol vermək olmaz. Onların ləyaqətini qorumaq xalqımızın milli ləyaqətini qorumaq deməkdir. Bu növbəti dəstə keçən həftə yola düşüb. İşə isti-isti başlamalıyıq.

– İndi hara, hansı ölkəyə gedəcəm? – Deyə könülsüz dilləndim. Doğrusu, bu heç ürəyimcə deyildi Elə durumda idim ki, işə nə həvəsim, nə marağım qalmışdı.

– Sənin üçün Londona bilet sifariş edilib. İşlərini səhmana sal, axşam reysi ilə uçacaqsan. Amma işini ehtiyatlı gör, Nihad. Sənə çox arxayınam, öhdəsindən gələcəksən. Onları hürküdə bilərsən,

bir az səbirli ol. Yerli polisə də xəbər vermişik. Orda etibarlı, səriştəli bir nəfər sənə kömək eləyəcək. Şəxsi əlaqələrindən də istifadə eləyə bilərsən. – Əlini mehribancasına əlimin üstünə qoydu. – Qardaşın da orda oxuyur. Tanışı, dostu yəqin ki, var.

Sağollaşıb qapıdan çıxmaq istəyirdim ki, o məni arxadan səslədi:

– Nihad!

Cəld geri döndüm. Nəyi isə unutduğumu zənn etdim. Babayev ayağa qalxıb yavaş-yavaş mənə yaxınlaşdı. Mən durduğum yerdə elə bil qurumuşdum. Sözündə, davranışında bir sambal duyduğum adamın mənimlə tay-tuş kimi danışmasına təəccüblənmişdim.

–İncimirsənsə, sənə idarə rəisi kimi yox, ailənin yaxın dostu kimi bir məsləhət verim?

– Buyurun, sizi eşidirəm, sizin dediklərinizi nə vaxt yerinə yetirməmişəm ki?..

– Yox, məsələ eşidib-eşitməməkdə deyil. – Şamil müəllim başını qaldırmadan qayğılı-qayğılı sözünə davam etdi. – Səni bir işçi kimi yaxşı tərəfdən çoxdan tanıyıram, amma…

– Nə amma? Yoldaş Babayev, açıq danışın, xahiş edirəm. Yoxsa ağlıma cürbəcür fikirlər gələr.

O, təzədən qayıdıb masanın arxasında, öz yerində oturdu. Qarşısındakı soyuyan çaydan bir udum içdi. Mən ayaq üstə hələ də gözləiyrdim.

– Bilirsən, Nihad, mən də atayam. İndi, necə deyərlər dağarcıq çüvaldan böyük olub. Gənclər başqa ruhda böyüyürlər. Bir neçə dəfə dalbadal irad tutursan, cavab qaytarırlar. Ağsaqqal, ağbirçək yerini bilmirlər. Bizim gəncliyimiz belə hisslərdən, münasibətlərdən uzaqda böyüyüb, qocalıb. Bəlkə, ona görədir ki, sizin nəsli anlaya bilmirik? Hardasa, bəlkə, səhv də edirik?

Bu başlanğıcın hansı sonluqla qurtaracağını az-çox başa düşmüşdüm, deyəsən. Odur ki, sözünü kəsmək, söz güləşdirmək istəmirdim. Qarşısında dərsini bilməyən şagird kimi başımı sallayıb durmuşdum. O, əlindəki qələmi fırlaya-fırlaya ehtiyatla üzümə baxıb:

– Hərdən mənim dostumu-atanı peşiman eləyirsən. İşçilər də çox fikirli dolandığını deyirlər. Belə ovqat işinə də mane ola bi-

lər, səhhətinə də. Bizim hər birimizin iki ailəsi var, Nihad. Unutma ki, biri şəxsi ailə, biri də işdəki kollektivdir. Şəxsi ailədə münasibətlər dəyişəndə işimiz də, necə deyim, axsayır.

O, mənim yaralı yerimə toxunmuşdu. Özümü bilməməzliyə vurub, söhbəti başqa məcraya yönəltmək üçün dilləndim:

– Yox, nə danışırsınız, Şamil müəllim, mən atamı dünyalar qədər sevirəm. Sadəcə olaraq, axır vaxtlar bəzi fikirlərimiz üst-üstə düşmədiyi üçün hərdən mübahisəmiz olur.

– Ata-oğul münasibətlərində fikir ayrılığının olması, əvvəlcə dediyim kimi təbiidir və mümkündür. Gənclərimizin ağlabatan, sağlam düşüncəsini qəbul edib onunla fəxr etməliyik. İndi bizə sağlam düşüncə çox lazımdır. Bəzən biz də valideyn borcumuzu yerli-yersiz şişirdir, bunun müqabilində övladımızı öz fikrimizin icraçısına çevirmək istəyirik. Bəzən də, əksinə olur. İfrat sərbəstlik özbaşınalığa, cilovlanmayan itaətsizliyə çevrilir. Hər kəs bundan öz zövqünə, istəyinə uyğun istifadə edir. Azadlığa öz prizmasından baxıb, dəli Nəzərəm, belə gəzərəm deyir. Belə deyil axı, oğlum. Ailə də kiçik bir dövlətdir. Onun ki sükanını əlindən buraxdın, mütləq batacaq. Ata oğulu, qız ananı eşitməyəcək. Allah rəhmət eləsin, Mirzə İbrahimova. Necə deyib, ailə bir yumruq kimi olmalıdır. Barmağın biri açıldı, ondan ailə olmaz. Səhv eləmirəmsə, «Böyük dayaq» əsərində yazıb bunu. Necə gözəl deyib. Bu kiçik dövləti idarə eləyən də evin kişisidir. O ki bir balaca yolundan sapdı, qurduğu dövlət kökündən, dibindən laxlayar, Nihad.

Mən əvvəlki kimi dinib-danışmırdım. Babayevin köməkçisi əlində iki fincan çay içəri girdi. Bəlkə də, çöldə onu gözləyənlərin təkidi ilə bizi tələsdirmək üçün edirdi, bilmirəm. Hər halda onun gəlişinə sevindim. Elə bil boğazımı dar ağacından qurtardı.

– Üzr istəyirəm, qayıdandan sonra bu mövzunu davam eləyərik. İndi icazənizlə gedim. Yol çantamı da götürməliyəm, – deyib çölə çıxdım.

Tər məni basmışdı. Yaxşı qurtardım deyə pilləkənləri iki bir-üç bir sıçrayıb aşağıya düşdüm. Gün xeyli qalxmışdı. İki-üç saat bundan əvvəlki küləkdən əsər-əlamət qalmamışdı. Ətrafda sakitlik hökm sürürdü. Dəli xəzri yerini mülayim, ilıq gilavara vermişdi. Eh, yurdumun çox qəribə iqlimi var. Bir gündə neçə fəslin

havasını yaşayırıq. Xəzərin də bayaq bulanan üzündə bir parıltı var idi. Günəşin zərli telləri sakit ləpələrin üzündə oynaşırdı. Dənizin bulanıq suları durulur, işıqlanır, rəng getdikcə maviləşirdi. Mənə elə gəldi ki, əlimi uzatsam, suya tökülən o zərzibadan ovuc-ovuc yığıb qoynumu-qoltuğumu dolduracam. Günəş məndən də səxavətini əsirgəməyəcək, boşalıb, soyumuş ürəyimi hərarəti ilə dolduracaq, mənə güc-qüvvət verəcək.

Ovqatım bir az düzəlmişdi, deyəsən. Bəzi sənədləri götürmək üçün şöbəyə gəldim. Qapı açıq olsa da, gözümə heç kim dəymirdi. Reyhan yenə görünmürdü. Yəqin xəstələnib, ya da rayondan–valideynlərinin yanından qayıtmayıb, fikirləşdim. Nə isə, heç kəsdən də soruşmadım. Doğrusu, o günkü söhbətimizdən sonra bir az ehtiyat edirdim. Reyhanın qərirbə hərəkətləri məni düşündürməyə bilməzdi. Axı mənim haqqımda Reyhanın belə düşünməsinə heç bir əsas da verməmişdim? Necə olub ki, illərdən bəri abır-həyasına sığınan bu qızın dalğın baxışlarında gizlənən torpaq, yurd nisgilindən savayı, təmiz bir duyğunun qığılcımlarını görməmişəm? Nə etməli, hamı sevə bilər. Bunu heç kəsə qadağa eləmək olmaz. Mən Reyhanın hisslərinə hörmətlə yanaşırdım. Lakin bu haqda düşünmək belə istəmirdim. Mənim özüm elə o istəyin, o duyğuların əsiri olduğum üçün ona yazığım gəlirdi. Məgər bütün sevənlər belə yazıq olurlar? Yox, öz məhəbbəti, xoşbəxtliyi üçün mübarizə apara bilməyənlərə ancaq yazıq demək olar. Bax elə mənim kimi. Bir vaxt bahar çiçəyi tək qarşımda açılan Mehinimin təmiz duyğularından imtina elədim. Sevə-sevə Mehindən, onun təzə-tər, güldən təravətli məhəbbətidən hansı sehirli qüvvənin təsiri ilə əl çəkdim? Ata-anamın arzularını göyərdib özümünküləri məhv elədim? Bax bu qorxaqlıq, acizlik deyilmi?

Fikirləşdikcə, elə bil başıma hava gəlirdi. Əlim-qolum boşalır, ayaq üstə dayana bilmirdim. Təyyarədə olduğu kimi çəkisizliyə düşür, əlim yerdən-göydən üzülür, havada uçurdum elə bil. Əlimi telefonun dəstəyinə atıb Rüstəmin nömrəsini yığdım. Bir neçə saat vaxtım qalmışdı. Ürəyimi boşaltmamış getməyə çətinlik çəkirdim. Telefon bir neçə dəfə zəng çalıb susdu. Təkrar zəng vurdum, cavab verən olmadı. Əl telefonunu da dəyişdirmişdi. Odur ki, nömrəsini bilmirdim. Bir az gözlədim. Rüstəmin məni dan-

layacağını bilirdim. Mehinə olan sevgimin əzəldən axıra qədər şahidi olmuşdu. Mehinin xətrini də çox istəyirdi. Rəna ilə evləndikdən sonra Rüstəm xeyli vaxt bizə gəlmədi. Az qala dostluq-qardaşlıq münasibətimiz kəsiləcəkdi. Əgər bir hadisə baş verməsəydi. Mən çoxdan olan bir əhvalatı xatırladım.

– Atamın təkidindən, uzun-uzadı qınağından sonra köhnə maşını təzəsinə dəyişmişdim. Qarabağ döyüşlərində aldığım yara hələ tam sağalmamışdı. Sağ ayağımda olan zədə ayağımı normal atmağa imkan vermirdi. Hərdən elə olurdu ki, ayağım əyləci boşalan maşın kimi titrəyir, addım atmağıma mane olurdu. Atamgil bunu bəhanə hesab eləyirdilər.

Sən bu köhnə maşınla gəzəndə biz utanırıq. Belə maşına oturmaqdansa, taksi ilə gedərəm deyə Rəna baş-beynimi aparırdı. Maşını sürdüyüm heç iki həftə deyildi. Evdə Rəna ilə yenə mübahisə eləyib maşına oturdum. «Təzəpir» məscidinin yanından keçib tini burulmaq istəyirdim ki,maşını qarşıdakı divara vurduğumdan xəbərim olmadı. Yaxşı ki, o dar dalanda bir uşaq, ya bir qoca qarşıma çıxmadı. Yoxsa ömrüm boyu özümü bağışlaya bilməzdim. Xəstəxanada ayılanda nə baş verdiyini anladım. Heç kəsi görmək istəmirdim. Nə də iki gün olardı ki, dilimə su, çörək vurmurdum. İş yerindən təkcə Reyhan mənə baş çəkirdi. Onun yanımda oturduğunu, əlini yavaşcadan əlimin üstünə qoyduğunu hiss etcəm də, gözümü açmırdım. Reyhan beləcə xeyli oturur, dinib-danışmadan çıxıb gedirdi. Bunu onun mənə olan hörməti kimi qəbul edirdim. Sonralar başa düşdüm ki, cavabsız məhəbbət, kül altında közərən od kimi sonralar adamı necə yandırarmış. Sən demə, Reyhan məndən xəbərsiz, susa-susa sinəsində neçə illər dilsiz-ağızsız, lal bir məhəbbətin odunu gəzdirirmiş.

Mənə elə gəlirdi ki, gözümü yumanda Mehinə daha yaxın oluram. Xatirələrimin izi, sorağı ilə sevda dolu günlərə, aylara qayıdıram. Möcüzə baş verir, Mehin sinəsinin üstündən sallanan qara yoğun hörüyünün ucunu didişdirə-didişdirə başını qaldırıb üzümə baxmadan qarşımda dayanıb, suallarıma utancaq, qırıq-qırıq cavab verir. Sonra da bir uşaq təbəssümü ilə gülümsəyir, alışıb yanan gözləri, odlu baxışları bir eşqin hekayətini söyləyirdi. Möcüzəyə inananlar yanılırlar. Mən də arzuladığım möcüzəyə inana-inana yanılırdım. Deyirlər ki, məhəbbət nə yaşa, nə vaxta

baxır. Nə vaxtsa, heç olmazsa xəyalında o xoşbəxt anların şirinliyini dadanda sənə elə gəlir ki, yenidən bir ömür yaşayırsan. İnsan müəyyən yaş həddini adlayanda fiziki qocalığa doğru gedir. Qocalığı güzgüdə hər gün üzündə artan qırışlarda, qicgahlarında çallaşan saçlarda görəndə anlayırsan. Cavanlığında ağlına gəlməyən çox şeyi indi başa düşürsən. Lakin ruhun qocalmır. Quş sərhəd bilmədiyi kimi ruhun da sərhədi olmur. Havalandıqca göy üzünün maviliyində daha yüksəklərə qalxır. Yüksəldikcə də ilahi sevgiyə yaxınlaşır.

Ağrılarımı yüngülləşdirmək üçün həkimin vurduğu iynədən sonra yuxuya getmişdim. Yuxuda gördüm ki, Mehinlə əl-ələ tutuşub dənizin sahilində qaçırıq. Dənizin şıltaqlığı tutub. Ləpələr ayaqlarımıza çırpılır, paltarımızın ətəklərini isladır, duzlu su üzgözümüzə sıçrayırdı. Mehin sudan bir ovuc götürüb üzümə çırpmaq istəyir. Dəli bir dalğa göz qırpımında Mehini qucağında gizlədib görünməz eləyir. Qollarımı açıb onu qaytarmaq üçün irəli, dalğaların qoynuna atılıram. Mehin dənizin içində bir nöqtə kimi görünüb dalğaların arasında yox olur. Mehin deyə qışqırıram. Səsim boğazıma tıxanıb çıxmır. Qan-tər içində yuxudan oyanıb Rüstəmin yanımda oturduğunu gördüm.

Atam başımın üstündə dayanmışdı. Heyrət dolu gözləri geniş açılmışdı. Təlaş keçirdiyi, iztirab çəkdiyi aydın duyulurdu. Atama yazığım gəldi. Yenə gözümü yumub o yuxu nağılını təzədən görmək, acı da olsa, təkrar yaşamaq istəyirdim. Bu mümkün idimi? Atama acığım tutmuşdu. Rüstəmi tapıb gətirməyini istəməsəm də, ürəyimcə idi.

Atam qəhərlənə-qəhərlənə:

– Yuxu görürdün, oğlum? – Deyə dilləndi.

Görən ad çəkdiyimi eşitməyib ki? Rüstəmin üzünə müəmmalı bir nəzər saldım, amma bir şey soruşmadım. Yaralarım çox dərin deyildi. Tibb bacısı əlində oksigen balonu içəri girəndə atam sözünü yarımçıq kəsdi. Əlilə üzümü, saçlarımı sığalladı. Əllərinin mehrini uşaqlıqda olduğu kimi hiss elədim. Ağlamaq məni tutmuşdu. Üzümü çevirib kövrəldiyimi gizlətmək istədim. Atam əlini dizinə çırpdı: Allah anana insaf versin, uşağımı…– sözünün dalını gətirmədi.

Ayağa qalxıb sərt addımlarla qapıya yaxınlaşdı: –Rüstəm, oğ-

lum, sən burdasan, arxayınam, – deyib qapıdan çıxanda onun hər şeyi başa düşdüyünü anladım.

Atam məni həkim görmək istəyirdi. Mənim həvəsim, açığını desək, başqa ixtisasa idi. Şərq dillərinə həvəsim çox idi. Həmişə arzu edirdim ki, ərəb, fars dillərini öyrənim. Xalqımızın tarixi kökünə bələd olub klassiklərimizi məxəzlərdən oxuya bilim. Yəqin bu həvəs babamdan mənə miras qalmışdı. Babam ərəb-fars, rus dillərini mükəmməl bilirmiş. Anam hər dəfə atamın sözünün üstünə söz gətirib deyərdi:

– Sənin atan həkim olub deyə gərək oğlun da onun yolu ilə gedə? Qoy öz sevdiyi peşəsinin dalınca getsin, məcbur eləmə! Hansı peşənin yaxşı mütəxəssisi olsa, o bizim fəxrimizdir.

Kaş elə bütün istəklərimdə anam məni beləcə başa düşə biləydi. Belə olsaydı, indi belə əzabları çəkməzdim. Atam danışardı ki, nənəm Məhliqənin vaxtsız ölümü babam Mansuru bərk sarsıtmışdı. Babam nənəmi dünyalar qədər sevirmiş. Tez evləndiklərinə görə evladları da bir-birinin ardınca dünyaya gəlir. «Qori Müəllimlər Seminariyası»nda təhsil alan babam təhsilini başa vurmamış geri qayıdır. O, seminariyada Nəriman Nərimanov, Üzeyir bəy Hacıbəyli ilə bir yerdə oxuyurmuş. Qərbi Azərbaycanda yaşayan azərbaycanlı ailələri tez-tez erməni təcavüzünə məruz qaldıqlarından, atam ailəsini köçürüb Gəncədə yaşayan ana nənəm Sənəmin yanına gətirir. Xoşbulaq deyilən, Göygölə yaxın səfalı bir yerdə ev tikib məskunlaşırlar. Nərimanov babama məktub göndərib təhsilini başa vurmağa çağırır. Ona hər cür kömək edəcəyini vəd edir. Babam seminariyanı qurtarana yaxın seminariyanın tatar (azərbaycanlıları o vaxt belə adlandırırdılar) şöbəsi Qazağa köçür. Babam təhsilinin qalan hissəsini Qazaxda başa vurur. Firudin bəy Köçərlinin xeyir-duası ilə Gəncə və Qazax mahalında dərs deyir. Odessa Tibb institutunun məzunu Nəriman Nərimanovun təkidi ilə o da həkim ixtisasına yiyələnib Gəncəyə qayıdır. O, Gəncə və ətraf kəndlərdə yaşayan imkansız ailələrə tibbi yardım göstərir, əlindən gələn köməyi əsirgəmir. Lakin Nəriman Nərimanovun qoşulduğu bolşevik təşkilatından imtina edir. Dostların arası soyuyur. Azərbaycanda 1920-ci il sovet-bolşevik işğalı dövründə babamın işi ikiqat çətinləşir. Babam Azərbaycanda qırmızı bolşevik rejiminin qurulması ilə barı-

şa bilmədiyinə görə onu yerli-yersiz təqib edir, sorğu-suala çağırırlar. Sovet rejiminə müqavimət göstərən həmvətənlilərinə tibbi yardım göstərdiyini bəhanə gətirib onu tuturlar. Böyük bir ailə bibim Nisənin və ana babam usta Möhsünün ümidinə qalır. Ailənin kiçiyi atam evdən qaçıb Bakıya gəlir. İmtahan verib universitetin hüquq fakültəsinə qəbul olsa da, soykökünü araşdırıb universitetdən qovurlar. Növbəti dəfə Azərbaycan Neft Sənaye İnstitutuna qəbul olur. Bu ərəfədə babama bəraət verirlər (əlbəttə ölümündən sonra). Partiya üzvlüyünə qəbul edirlər. Amma ürəyində bu qurluşla heç cürə barışa bilmir.

Bütün bunları hər dəfə danışdıqca atamın gözləri dolur, yanıqlı ah çəkib saçlarımı qarışdıra-qarışdıra deyirdi:

– Sizin gəlib çıxdığınız bu dövran gələcəyinizin xoşbəxtliyindən xəbər verir, oğlum. Azadlıq, müstəqillik adama verilmir. Onu qan bahasına alırlar. Xalqımız onu qanı bahasına alıb. İllərdən, əsrlərdən bəri arzuladığımız bu əlçatmaz xoşbəxtliyi qorumaq sizin borcunuzdur. Nə edim ki, mən… – Udqunurdu, sözünün dalını gətirməkdə çətinlik çəkirdi elə bil.

Saatlarla diz-dizə, göz-gözə söhbət elədiyimiz o vaxtlar bəs harada qaldı? İndi ata-oğul bir məxrəcə gələ bilmirik. Sözümüz düz gəlmir, fikirlərimiz üst-üstə düşmür, get-gedə məni özündən uzaqlaşdırır atam.

İşdə, ailədə özümə yer tapa bilmirdim. Bir yandan da Rəna ilə münasibətlərimiz getdikcə dərinləşirdi.

Yadımdadır, unversitetin şərqşünaslıq fakültəsinə imtahan verib yüksək bal yığmışdım. Xəyal yenə məni ardınca o illərə çəkib apardı. Desəm ki, o gün həyatımı ən xoşbəxt günü idi, yanılmaram. Universitetə qəbul olanların siyahısı oxunmalı idi. Evdən nahar eləməmiş institutun qabağına tez çatmağa tələsirdim. Ən yaxşı köynəyimi geyib qalstuk taxmışdım. Ürəyim elə döyünürdü ki, sanki sinəmdən çıxacaqdı. Atam məni tək buraxmaq istəmirdi. Anam çay dolu fincanı əlində hazır saxlamışdı ki, naharsız getməyim. İştahım yox idi. Axşamdan yuxusuz olduğum üçün sanki duman içində fırlanırdım. Gözlərim qaralırdı «Eybi yoxdur, şad xəbərlə qayıdanda bunların hamısını unudacam» deyə fərəhlənirdim. İmtahanları əla verdiyim üçün buna əmin idim. Anamın etirazına baxmadan, naharsız qapıdan çıxdım. Yol boyu

elə bilirdim hamı mənə baxır. Qonum-qonşular da sevincimə şərik çıxırdılar. Biri tərifləyir, biri dalımca su atır, uğur arzulayırdılar. Tez-tez yan-yörəmə baxır, tanış-bilişlərdən qabağıma kiminsə çıxmasını arzulayırdım ki, sevincimi bölüşdürüm.

Universitetin həyətində böyük qələbəlik var idi, sanki izdiham idi. Divarlara vurulan siyahıları bir nəfəsə oxudum. Gözlərim alacalamışdı. Ad-familyamı tapa bilmirdim. Bu ola bilməz, deyə gözlərimi silib divara bir də yaxınlaşdım. Təkrar-təkrar oxudum, adımı qəbul olanlar arasında tapmadım. Dalın-dalın çəkilib divara söykəndim. Özümdə deyildim.

– Nə olub, qardaş, bəlkə, bir kömək lazımdır, – deyə qarayanız, arıq, çəlimsiz oğlan mənə yaxınlaşdı, qolumdan tutub qaldırdı. Gözlərim elə dolmuşdu ki, artıq bir söz deməydi, ağlayacaqdım. Ayağa qalxdım.

Bu ola bilməz, ola bilməz – deyə-deyə qəbul komissiyasının üzvləri oturan otağa yaxınlaşdım. Qapıdakı oğlan sinəmdən basıb geri itələdi.

– İçəri olmaz, ay qardaş. İndi heç kimi qəbul etmirlər. Sabah saat doqquzda şikayətlərə baxacaqlar.

Onun nə dediyi məni maraqlandırmırdı. Hətta eşitmək durumunda da deyildim. Oğlanı itələyib içəri girdim. Komissiya sədri elə bil hər şeyi əvvəldən bilirdi. Aram-aram dilləndi:

– Mansurov Nihad sənsən? Buyur, əyləş.

Mən ayaq üstə heç bir izahat gözləmədən sözümü birbaşa yağdırdım:

– Bütün imtahanlardan əla qiymət almışam. Haqqımı tələb eləyirəm. Mən qəbul olanların siyahısında niyə yoxam, yoldaş sədr? Sizi bura niyə təyin elyiblər bəs? Axı əladan artıq qiymət yoxdur?

Sədr orta yaşlı, gözü eynəkli, qarayanız bir adam idi. Yaşına uyğun olmayaraq saçları tamam ağarmışdı. Qarşısındakı kağıza nə isə yaza-yaza məni axıra qədər dinləyib başını qaldırdı. Əlindəki qələmi tez-tez fırlamasından əsəbləşdiyini hiss edirdim. Qarşısındakı «Badamlı» şüşəsindən suyu stəkana töküb başına çəkdi. Yan cibindən ütülü dəsmalı çıxarıb alnında muncuq kimi dayanan tərini sildi. Boğulurmuş kimi əl atıb qalstukunu boşaltdı. Qapıda dayanan oğlana bir neçə göstəriş verib üzünü mənə çevi-

rəndə bərk əsəbiləşmişdim. Səbrim lap tükənmişdi. Az qala atam yaşında olan bu adamı ən ağır sözlərlə təhqir eləyəcəkdi. Özümü güclə saxladım. Mənim tərbiyəm buna yol verə bilməzdi. Atamın danlağı gözümün qabağına gəldi, yenə səbrimi basdım. Amma mənim bu durumumda hər şey mümkün idi. Sədr, nəhayət, məni intizarda qoymadı:

– Nihad, oğlum, mən səni yaxşı başa düşürəm. Aldığın qiymətlər də sənin belə ürəkli danışmağına əsas verir. İnan ki, məndən asılı heç bir şey yoxdur. Qəbul olanların siyahısını tuturduq…

Sözünə yenə ara verdi. Elə bil danışmağa çətinlik çəkirdi. Bir neçə dəfə udqundu:

– Yoxam da, bu yuxarıların göstərişinə. Bilirsən də, mənim yerimə sən də olsan heç bir şey eləyə bilməzdin. Güclə ürəyimizi, vicdanımızı susdururuq, nə var, nə var, bir özündən müştəbehin əziz xələfi tələbə olmaq istəyir. Bayaq elə düz dedin ki, sizi bura niyə təyin eləyiblər? Ötkəm oğlansan, səndən xoşum gəldi. Bura özləri istədikləri adamı qoyurlar ki, ürəyinin səsinə qulaq asıb vicdanı qarşısında əzab çəkməsin. Bura mənim kimisinin yeri deyil, inan. Mən vicdan əzabı çəkirəm, oğlum.

Məsələnin nə yerdə olduğunu, deyəsən, başa düşmüşdüm. Yenə də professorun sözünü kəsmək istəmirdim. Onun nə vaxt nitqinə son qoyacağını gözləyirdim. Professor gözlərini qıyıb üzümə tələqinedici bir nəzər saldı. Bir az baxışlarını üzümdə gəzdirib təkrar dilləndi:

– Gəl sənə bir məsləhət verim. Artıq iş-işdən keçib, olacağa çarə yoxdur. Səni uyğun fakültələrin birinə keçirək. Söz verirəm ki, bir ildən sonra yenə sənə kömək edib öz sevdiyin ixtisasa qaytaracam. Belə biliklə sən çox irəli gedə bilərsən, oğlum! Mənim sənin kimi savadlı gənclərə hörmətim böyükdür. Siz bizim gələcəyimizsiniz.

Kreslodan sıçrayıb qalxdım. Bütün dünya başıma fırlandı elə bil.

– Mənim heç kəsin köməyinə ehtiyacım yoxdur. Bu işi belə qoymayacam, – deyib qapıdan çıxdım.

Tələbələr başıma toplaşdılar. Hərə bir cür məni ovutmağa çalışırdı. Rüstəm dinməz-söyləməz yaxınlaşıb qolumdan tutdu:

– Gedək, Nihad, inadçılığın əhəmiyyəti yoxdur. Günah professorda yox, bu kökü saxtakarlıqdan, yalandan qurulmuş cəmiyyəti idarə eləyən aktyorlardadır.

Onun bu sözləri ürəyimə elə yatdı ki, o gündən Rüstəm mənim yaxın dostum, can sirdaşım oldu. Onlara getdik. Anası sevinəsevinə qabağımıza çıxdı.

– Səni də, dostunu da təbrik eləyirəm. Bir yerdə oxuyacaqsınızmı? Maşallah, ürəyəyatan baladır, Rüstəm.

– Yox, ana, biz ayrı-ayrı fakültələrdə oxuyucağıq.

– Niyə, axı sən onu tərifləyirdin, niyə belə oldu?

– İndi də tərifləyirəm, ana, Nihad müsabiqədə hamımızdan üstün bal toplayıb! Nə edəsən ki, hər yerdə olduğu kimi təhsil ocaqlarında da gözgörəti haqsızlıq, amirlik baş alıb gedir. Nə isə…

O, sözünün dalını gətirib məni bir az da əsəbləşdirməmək üçün söhbətin məcrasını dəyişdi.

– Hə, indi nəyin var tök stolun üstünə, ana. Mən də, Nihad da neçə vaxtdır əməlli-başlı bir şey yeməmişik.

O gecə Rüstəmgildə qaldım. Evə zəng vurub dedim ki, narahat olmasınlar. O gündən Rüstəmlə aramızda möhkəm dostluq əlaqələri yarandı. Bir ildən sonra biz artıq bir fakültədə, bir qrupda oxuyurduq.

* * *

Onda olduğu kimi indi də Rüstəmə, onun məsləhətinə, qayğısına ehtiyacım var idi. Ürəyimdə baş qaldıran köhnə xatirələrin, təzədən cücərib rahatlığımı, dincliyimi əlimdən alan məhəbbətimin sinəmə vurduğu yaranın ağrı-acısını bölüşmək istəyirdim. Günahlarımı gec də olsa, etiraf eləmək istəyirdim ki, heç bir kənar hissin, duyğunun ruhuma girməyə, Mehinə olan məhəbbətimi sıxışdırıb çıxarmağa imkanı qalmasın. Ruhumdakı dəyişikliyi də hiss edirdim. Bu neçə illərdə boşalıb xarabalığa çevrilən qəlbim həyat, yaşamaq, sevmək eşqilə dolmuşdu. Təəssüf ki, tələsik aldığım, yerinə düşməyib ürəyimcə olmayan tapşırıq məni bu imkandan məhrum etmişdi. Çantamı götürüb könülsüz-könülsüz təyyarəyə qalxdım. Qayda üzrə lap əvvəlinci sırada oturmalı idim.

Londona getdiyim barədə qardaşım Nicata zəng vurub xəbər

də verməmişdim. Anama zəng eləyib çatdıracağını bilirdim… Sonra da Rənanın zənglərinin, giley-güzaranın ardı-arası kəsilməyəcəkdi. Ona görə də neçə ildi Londonda təhsil alıb indi də işləyən qardaşımdan xəbərsiz işə başlamaq fikri ilə taksini birbaş mehmanxanaya sürdürdüm. Mehmanxanada mənə ayrılmış otağa gəlib yatağa uzandım. Yemək də yadımdan çıxmışdı. Səhər yuxudan canımda anlaşılmaz bir ağrı, ürəyimdə ağır sıxıntı ilə oyandım. Başım bərk ağrayırdı. Pəncərənin örtülü qalın pərdələrini çəkib, açdım. Bayır başdan-başa duman, çiskin içində idi. Narın yağış yağırdı, hava çox tutqun idi. Bakıda olduğu kimi günəşin qızıl telləri titrəmir, əllərində çətir, harasa tələsən insanlar bir-birinə məhəl qoymadan, laqeydcəsinə ötüb keçirdilər. Bu ölkədə bir neçə dəfə olmuşdum. Hər gələndə burda olan daimi nəmişlik, rütubət məni tez də qaçırmışdı. Mənə elə gəlirdi ki, küləkli, günəşli Bakıdan, şıltaq ləpəli mavi Xəzərimdən qeyri gözəl, doğma bir məkan yoxdur. Bununla belə hər ölkənin özünəməxsus gözəlliyi olduğu da danılmazdı. Londonda olan qədimliklə müasirlik bir-birini elə tamamlayır ki, adam heyran olmaya bilmir. Şəhərdəki təmizlik, yaşıllıq, insanlarındakı yüksək mədəniyyət bir də qədim görməli yerlər, muzeylər, parklar adamı özünə cəlb edir. Hər dəfə «Viktoriya və Albert» muzeyinə baxmaqdan xüsusi zövq alırdım. Dünyanın hansı guşəsindən desən burda tarixi eksponatlar qorunub saxlanılır, o cümlədən də bizim Təbriz-Ərdəbil xalçaçılıq sənətinin nümunəsi, XVI əsrin nadir incisi sayılan «Şeyx Səfi» xalısı bu muzeydə gəlib-gedənləri heyran qoyurdu. Dəfələrlə ona baxmaqdan doymurdum. Lakin bu sənət münunəsinin İran xalqına məxsusluğunu bildirən yazını hər oxuyanda az qalırdı ki, damarımda qanım dona. Azərbaycan qızlarının, qadınlarının barmaqları ilə toqxunub dünya mədəniyyəti xəzinəsinə daxil olan bu tarixi abidə nə səbəbə başqa dövlətin, başqa xalqın adına çıxılmalı idi? Taleyüklü xalqımızın maddi mədəniyyət abidələrinin dünyanın hər tərəfinə səpələndiyini nəzərə alsaq, bütün bunları tarixin boynuna qoyub susurdum.

Bu gün işimi hardan, nədən başlamağı götür-qoy eləyirdim ki, telefon zəng çaldı. Heç bunu istəmirdim. Bircə gün öz-özümlə tək qalmağım, danlaqdan, tənədən uzaqlaşmağım üçün dünyanı verərdim. Nə edəsən ki, bu mümkün deyildi. Özümü heç cür ələ ala

bilmirdim. Telefondakının Rəna, ya anam olduğuna əmin idim. Odur ki, birdən-birə dəstəyi götürmədim. Əsəbi halda gah qapıya, gah pəncərəyə sarı var-gəl elədim. Telefonun əsəblərimə işləyən «du… du…» səsi kəsilənə qədər gendən durub baxdım. Səs kəsiləndə elə bil kefsizliyim, nəşəsizliyim keçib-getdi. Təzədən pəncərəni açdım. Əllərim əsir, təhlükəli yalqızlıq üstümü alırdı. Pəncərədən gömgöy yaşıllığa, ağacların budaqlarından sırğa kimi asılan yağış damcılarına, yağışdan sonra parpar parıldayan yarpaqlara baxmaqla həyəcanımı bir daha azaltmağa çalışırdım. Qayıdıb tələsik geyindim. Dünəndən ac olduğum indicə yadıma düşmüşdü. Mehmanxananın aşağı mərtəbəsindəki yeməkxanaya düşüb bir şey yemək istəyirdim. Nə qədər çalışırdımsa, yenə sakitləşə bilmirdim. Bu neçə ildə Rəna ilə bağlı olan xoş bir xatirə tapa bilmirdim ki, onu heç olmazsa xəyalımda oyandırıb təskinlik və təsəlli tapa bilim. Bundan əlim üzüləndə Mehinli günlərimin köhnə xatirələrindən çarə umurdum. Gəncliyimizin həyəcanı və məğrur anlarını qəlbimdə canlandırmaq istəyirdim ki, bu da əsəbliyimi, ümidsizliyimi daha da artırırdı. Köhnə mütilik, cəsarətsizlik «xəstəliyimin» yenə baş qaldırmağından qorxub ehtiyatlanırdım. Qayıdıb təzədən kresloda oturdum. Əl çantamdan saralmış qəzet parçasına bükülü şəkli çıxartdım. Burda heç kəs mənə mane ola bilmirdi. İstədiyim qədər keçmişimlə başbaşa, nəfəs-nəfəsə qala bilərdim! Arxayınlıqla nəfəs aldım. Mehinin iri, qara, bir az da hürkək, dalğın baxışlı gözləri mənə baxırdı. Həmişə məni görəndə par-par parıldayan gözlərdə bir qəmginlik, dodaqlarında qeyri-adi sönük təbəssüm, yanaqlarında büzüşən payız çiçəkləri kimi solğunluq var idi. Ürəyimdən ağır bir sızıltı keçdi. Köhnə bir xatirədən sanki məst oldum.

Universiteti qurtarmağımız münasibətilə Qubaya gəzintiyə getməyə hazırlaşırdıq. Mehinsiz ora getmək mənə çox çətin idi. Birinci kursu başa vuran Mehini nəzarətsiz heç yerə buraxmırdı anası. Mehinin atası çox cavan ikən maşın qəzasından həyatını itirmiş, anası məhəbbətinin ilk barı, yadigarı Mehini tək böyüdüb saç, bircəyini vaxtsız ağartmışdı. Odur ki, qız atasından sonra ürək xəstəliyi tapan anasının sözündən çıxmır, bir sözünü iki eləmirdi. Mehinin yaxın rəfiqələri Nərmin və Sitarənin də bizimlə getdiyini biləndən sonra anası ona da icazə vermişdi. O günü

həyatımın ən xoşbəxt çağı hesab eləyirəm desəm, yanılmaram. Uçmağa qanadım yox idi. Yan-yörədəkilərin söz-söhbətlərindən yaxa qurtarmaq üçün Mehin Rüstəmlə, mən də Nərminlə oturmuşdum. Nərminin nişanlı olduğunu nişanlısının Moskvada işlədiyini hamı bilirdi deyə özümü bir qədər sərbəst hiss edirdim. Axşam üstünə qədər Quba bağlarını, meşələrini gəzib dolanmalı, son anda dünyanın ən ecazkar guşəsi olan «Əkrəş» istirahət yerinə yığışıb Bakıya yola düşməli idik. Vaxtın qurtarmasını, günün batmasını istəmirdim. Şah dağın ətəyinə çatanda, ətrafımızda heç kəsi görməyib, bir az təəccüblənən kimi oldum. Uşaqlar hara çəkilib getdilər deyə fikirləşdim. Sonra öyrəndim ki, bu Rüstəmin işi imiş. Bizi ikilikdə qoymaq üçün qurduğu fənd uşaqların çəkilib getməklərinə səbəb olub. Mehinlə qoşa addımlayırdıq. «Şahdağ»ın lap zirvəsindən tökülən şəlalənin yaratdığı sərinlik hiss olunurdu. Üst geyimimi çıxarıb çiyninə saldım. Etiraz eləmədi. Əksinə, çiyninə çəkib sanki mənim qoxumu, mehimi alırmış kimi büzüşdü. Su iki yerə bölünüb dağın başından elə sallanmışdı ki, şəlalə dağların ozan kimi sinəsinə basıb çaldığı bir saza bənzəyirdi. Onun şırıltısındakı həzinlik adamın ürəyində xoş duyğular oyadan zərif bir nəğməni xatırladırdı. Daşın üstündə dinməz-söyləməz yan-yana oturmuşduq. Danışmırdıq. Ətrafdakı ağır sükut üstümüzə çökmüşdü. Mehin üzünü qəlbidən daşların üstünə tökülüb ağ gümüşü tellərə ayrılan suya çevirmişdi. Pambıq kimi ağ əllərini suyun altına tutur, suyun barmaqlarının arasından süzülüb tökülməyinə heyranlıqla baxır, dalğın, fikirli gözləri ilə təbiətin əlilə yaranan şəlalənin füsunkarlığına tamaşa edirdi. Əlimi uzadıb sudan bir ovuc götürdüm. Mehin diksindi. Bir uşaq şaşqınlığı ilə üzünü mənə sarı tutub gülümsədi. Qızılgül qönçəsi kimi yumru dodaqları aralandı. Ağ sədəfə bənzər dişləri gün işığında parıldadı. Aramızda çox az məsafə var idi. Mehin eyni hərəkətlə sudan götürüb mənə sarı atdı. Bir anlığa nəzərlərimiz qarşılaşdı. Onun odlu baxışlarına tab gətirə bilmirdim. Mənə elə gəlirdi ki, eyni hissləri Mehin də keçirir. Əllərindən tutub özümə sarı çəkdim. Nazik belindən yapışıb sinəmə sıxdım. Mehin dinməz-söyləməz başını aşağa salıb gözlərini yumdu. Onun mənim gözlənilməz hərəkətimə belə cavab verəcəyini güman eləmirdim. Hisslərimlə bacara bilmirdim. Əlimi, qo-

lumu idarə etməkdən sanki məhrum olmuşdum. Onu bir az da özümə sarı çəkib üzümü yanağına söykədim. Mehin isti nəfəsimi üzündə, boyun-boğazında hiss etdikcə tir-tir əsirdi. Tez-tez nəfəs alır, ürəyi quş kimi çırpınırdı. Qəfildən ayılan kimi oldu. Üzünü kəsgin hərəkətlə çevirəndə dodaqlarımız bir-birinə toxundu. Mehin uzun kirpiklərini qaldırıb gözlərini açdı. Onu birinci dəfə görürmüş kimi dumanlanmış baxışları, insanı heyran qoyan çöhrəsi məni məst elədi. Mehinin sərt hərəkətindən qara saçları daşlara dəyib qırçın-qırçın tökülən suyun ləpələri kimi çiyninə dağıldı. Dillənib bir söz demədi. Üzünü şəlaləyə sarı çevirib əvvəlki oyununu davam elədi. Mən gözlərimi ondan çəkə bilmirdim. Yumru çənəsi, geniş alnı, gözünün üstünə ayın haləsi kimi enən zərif qaşları onun cazibədarlığını daha da artırırdı.

Alnında qıvrım-qıvrım oynaşan qara tellərini yaş əlləri ilə geri sığallayır, daşın üstündə yerini rahatlayır, bu mənzərədən ayrılmaq istəmirdi, Mehin. Çantamdan bir Quba alması çıxarıb suyun altına tutdum. Bir dişlək alıb dodaqlarına yaxınlaşdırdım. Bayaqkı kimi diksindi. Bir azca titrəyən kimi oldu. Yaş almanı dodaqlarından ayırmadan xəfifcə güldü. Mehinin yaş biləklərindən yapışıb qaldırdım. Sinəmə sıxıb alnını, yanaqlarını, gözlərini saysız-hesabsız öpüşlərə qərq eləməkdən özümü güclə saxladım. Həmişə olduğu kimi yenə də cəsarətsizliyim buna yol vermədi. Mehin yüngülcə dartınsa da, başını sinəmdən ayırmadan xeyli hərəkətsiz dayandı. Sonra qollarımın arasından çıxıb titrək səslə dedi:

– Belə olmaz, Nihad. Bizə verilən azadlıqdan istifadə eləyib həddi aşmağa hər ikimizin haqqı yoxdur.

Düz gözlərimin içinə baxdı. O gözlərin dərinliyində keçirdiyi hisslərin qığılcımlarını açıq-aydın gördüm. Onun isməti, ləyaqəti, nəhayət, qüruru buna imkan vermirdi. Mehinin hələ də təcrübəsiz bir uşaq olduğuna inanıb əlimi belindən çəkdim. O, təkrar daşın üstünə oturdu. Saçlarının ucunu didişdirə-didişdirə uzun müddət üzümə baxmaqdan çəkindi. Əlimi çənəsindən çəkmədən bütün cəsarətimi toplayıb dilləndim:

– Sən mənim yeganə, əbədi məhəbbətimsən, Mehin. Heç kəs, heç bir qüvvə bunu mənim əlimdən ala bilməz.

Əvvəlki hisslərimdən, əsər-əlamət qalmamışdı. Birinci dəfə idi

ki, ürəyimin sıxıldığını, tez-tez döyünüb az qala çıxacağını hiss edirdim. Mehin qorxu, tələş dolu gözlərini üzümə zilləyib bir söz demirdi.

– Bəlkə, məni daha sevmir, fikrini dəiyşib? –Düşündüyümü ildırım surəti ilə başımdan keçirdim. Bircə bu olmasın, İlahi, gen dünyada özümə yer tapıb yaşaya bilmərəm. Axı Mehin ilk sevgisinin, heç kəsə açılmayan qəlbinin qapılarını mənə açmışdı, odunu, istisini mənə vermişdi! Məhəbbət məkanına ilk qədəmlərini qoyanda məni görmüşdü. Elə indinin özündə də, sinəmə elə qısılmışdı ki, mən onun qabarıq döşlərinin, kürəyinə tökülən gur saçlarının təmasını yaxından duymuşdum? Dodaqlarını az qala dodaqlarımda hiss eləmişdim? Yox, Mehinin məhəbbətinə şübhə ilə baxmaq, hətta xəyalda da belə düşünmək insafsızlıq olardı. Əlimi çənəsindən çəkmədən, başını yuxarı qaldırdım. Gördüyüm ilk gündən yuxumu, dincliyimi əlimdən alan, uşaq kimi məsum üzünə məhəbbət dolu gözlərinə təzədən baxdım.

Mehinin yanaqları güz alması kimi yanırdı. Uzun qara kipriklərlə əhatə olunmuş gözləri geniş açılmışdı. O gözlərdə istək və həyanı, isməti açıq-aydın sezmək olurdu. Mehin özünü tamam itirmişdi. Daşın üstündən qalxa bilmir, təəccüb dolu nəzərlərini üzümdən çəkmirdi.

– Məhəbbətimizə dönük çıxacağımı danışmağa necə dilin gəlir, Nihad? – Deyə nəhayət dilləndi. –Əbədiyyət dediyin o sonluğa qədər bu sevgi mənimlə qoşa addımlayacaq. Ürəyə süzülüb onu fəth edən ilk məhəbbət məgər öz yerini başqasına verə bilər?

– Bəs bizə mane olan nədir, Mehin? Mən səni başa düşmürəm.

– Nə mənada, Nihad?

– Sevgimiz qarşılıqlıdısa, səndəki soyuqluq məni qorxudur, Mehin.

– Mən buna soyuqluq deməzdim.

Mehin yaşına uyğun olmayan təmkinlə asta-asta danışır, əlləri, dodaqları əsir, üzümə belə baxmağa çəkinirdi.

– Bəs nə ad verərdin, Mehin?

– Sadəcə olaraq vaxtı, zamanı çox erkən qarşılamaq kimi baxardım. Sevib-sevilmək demokratiyadırsa, onun da öz həddi olmalıdır. Bizim hər ikimizi böyüdüb, əhdini, kamını almaq istəyən valideynimiz var. Axı…

O, sözünün dalını gətirməyə çətinlik çəkirdi. Mən hər şeyi başa düşmüşdüm. Bizim sevgimiz valideynlərimizin xeyir-duası ilə başa çatmalı idi. Lakin bu mümkün idimi? Ata-anamın iradəsinə qarşı çıxmağı bacara biləcəkdimmi? Buna əmin ola bilmədiyim üçün susdum. Anamla söhbətimdən sonra şəxsi səadətimi qorumaq imkanım elə bil əlimdən alınmışdı. Ata-anamın dediyindən kənara çıxmamaq lap uşaqlıqdan adətim olmuşdu. Böyüklərin məsləhətinə qulaq asıb ədəb-ərkan saxlamağa alışdığımdan anamın sözünün üstünə söz gətirib ürəyimdəkiləri heç vaxt biruzə verməmişdim. Mehinin sözlərindən sonra cürətsizliyimdən irəli gələn təəssüf və peşimançılıqdan çıxılmaz vəziyyətə düşmüşdüm. Dinib bir söz demək istəmirdim. Əlindən tutub daşın üstündən qaldırdım. Mehin yaş ətəyinin suyunu sıxdı. Su damcıları daşların üstünə mirvari dənələri kimi səpələndi. Şose yola enəndə dostlarımızın dedikləri vaxta bir neçə saat qalırdı. Qızdırmalı adamlar kimi səndirləyirdim. Mehin qoluma girməsəydi, bəlkə də, yıxılardım. Elə bil nitqim batmış, ürəyimdən ağır bir daş asılmışdı. Sonuncu dəfə anamla aramızda olan mübahisəmizi xatırladım. Bədənimdən soyuq bir cərəyan keçdi. Ümidlərim daşlara çırpılan su dənələri kimi çiliklənib Mehinlə son dəfə qoşa getdiyimiz yola töküldü. Susmaqdan başqa çarəm qalmamışdı. Tökülən su bir də qaba dolmaz deyirlər.

Mehinsiz günlərimdə mən onu dəfələrlə xatırlamışdım. Lakin bu günkü kimi Mehin heç vaxt mənə yaxın olub, varlığıma hakim kəsilməmişdi. Nahar yeməyini və mənə tapşırılan işin ciddiliyini də unudub özümü tamamilə xatirələrin ixtiyarına vermişdim. Şəkilə baxdıqca onun ən kiçik cizgiləri, dodaqları, saçlarının ətri belə gözlərimdə canlanırdı. İlahi, bütün bu düşündüklərimi bu balaca kağız parçası necə qoruyub saxlaya bilmişdi? İnsanın özü dəyişdiyi kimi axı onun hissləri, duyğuları da zaman keçdikcə dəyişir. Yox, Mehin mənim ürəyimdə bu şəkildəki kimi dəyişməz qalmışdı. Mehinli həsrətin ruhumda, qanımda, ürəyimdə necə böyük iz salıb cığır açdığını indi bütün vücudumla duyurdum. Bəzən də məhəbbətimizin uğursuzluğu üçün Mehini günahlandırıb özümə haqq qazandırır, onun da təslimçiliyinə acığım tuturdu. Bəzən Mehinin haradasa xoşbəxt olduğuna özümü inandırır, heç kəsdən, heç nə soruşmağa ürək eləmirdim.

Elə olurdu ki, onun xoşbəxtliyinə qısqanclıq da eləyirdim. Mehini kiminsə qolları arasında görür, hansı bəxtəvərinsə o qara saçları oxşadığını, nəfəsini nəfəsinə qatdığını təsəvvür edir, dəli olmaq dərəcəsinə gəlirdim. Belə vaxtlarda sonsuz bir kədər ürəyimi bürüyür, həyatdan, yaşamaqdan bezir, işləmək həvəsim get-gedə soyuyur, ailədə yad bir adama çevrilirdim. Anamın, Rənanın hər sözü, hər hərəkəti məni əsəbləşdirir, nə istədiyimi, nədən başlayacağımı özüm də bilmirdim. Heç nəyə baxmadan məni bürüyən xatirə, xəyal aləmindən çıxmaq, bir küncə qısılıb doyunca ağlamaq istəyirdim. Mənə elə gəlirdi ki, yarımca saat onu görmək mənə nəsib olsa, bütün bu iztirablarıma son qoyulacaq, bu məhzun yalqızlıq məni tərk edəcək. Bu boş xəyaldan başqa bir şey deyildi. Xidmətçi oğlan əlində bir fincan qəhvə içəri girdi. Ona acığım tutsa da, qəhvə lap ürəyimcə oldu. Sinirlərimin yorğunluğunu aradan qaldırmaq üçün qəhvə mənə çox kömək elədi. Bir az sakitləşib gümrahlanan kimi oldum. Kiçik çantamı götürüb qapıdan çıxmaq istəyirdim ki, əl telefonum aramsız zəng çaldı. İstər-istəməz cavab verməli oldum. Yenə Rəna idi. Cavabım çox qısa və sərt oldu:

– Mən çox məşğulam, imkan tapan kimi özüm zəng vuraram, – deyib telefonun qapağını örtdüm.

Bu, mənim tərəfimdən bir qədər ədalətsiz hərəkət olsa da, mübahisə etməyə nə həvəsim, nə də vaxtım var idi.

İnsafən, bu neçə illərdə hər ailədə olduğu kimi bizim də ailəmizdə xırda narazılıqlardan başqa ciddi bir toqquşma olmamışdı. Aramızda ər-arvad borcu, ata-ana məsuliyyəti kimi qarşılıqlı hörmət var idi. Qohumlar, dost-tanışlar bizi xoşbəxt bir ailə hesab edir, hətta qibtə elədikləri də qulağıma çatırdı. Lakin qəlbimin elə bir guşəsi var idi ki, Rəna indiyə qədər ora yol tapa bilməmişdi. Onu sevmirdim. Özünü buna məcbur da eləyə bilmirdim. Onunla yaşadığım illərdəki həyatım hardasa oxuduğum, eşitdiyim xəyalı bir sərgüzəştə, nağıla bənzəyirdi.

Mehmanxananın birinci mərtəbəsindəki yeməkxanaya düşəndə yağış-çisgin səngimişdi. Lakin küçələrdə, səkilərdə çətirsiz insana rast gəlmək olmurdu. Görünür, insanlar buranın dəyişkən təbiətinə alışdıqlarından ehtiyatı əldən vermirdilər. Salona göz gəzdirib lap küncdə özümə bir yer seçdim. Müxtəlif dillərdə danı-

şan insanlara əhəmiyyət verm ədən özümə nahar üçün yüngül bir şey sifariş edib gözlədim. Bir fincan qəhvədən sonra ovqatım bir az düzəlsə də, iştaham yox idi. Bu günkü ağır işimi nəzərə alıb naharsız işə başlamaq istəmirdim. Mənim masama hündürboy, ağ köynəyinin yaxasına qara nazik qalstuk taxan oğlan qulluq edirdi. Oğlanın qara saçları, yaşıla çalan gözləri var idi. Davranışındakı ədəb-ərkan, hərəkətlərindəki çeviklik, üzündəki təbəssüm hamı kimi mənim də nəzərini çəkirdi. Oğlan masadan-masaya keçir, hamının qulluğunu bitirir, nə isə sifariş alıb cəld aradan çıxır, yenə qayıdırdı. Onun ya bizimkilərdən, ya türklərdən olduğuna əminliklə şəhadət barmağımın işarəsi ilə yanıma çağırdım. İngilis dilini mükəmməl bilməsəm də, müsahibimlə kifayət qədər danışa bilirdim. Oğlan bir göz qırpımında yanımda hazır oldu. Mən özümdən asılı olmayaraq «mərhaba» – deyib, üzünə baxdım. Oğlan çaşqınlıqla güldü. Onun gülüşünün səbəbi mənə aydın olmadı. İkinci dəfə «əssalam-əleykum» dedim. Oğlanın gözündə sevincdənmi, çaşqınlıqdanmı irəli gələn bir parıltı gördüm. Salamımı alıb ingilis dilində nə istədiyimi soruşanda başa düşdüm ki, o, ingilis dilindən başqa dil bilmir.

İşi çox olsa da, stolu çəkib oturdu. Mən kim olduğumu, nə məqsədlə gəldiyimi bildirmək istəmirdim. Onun maraq və təəccüb dolu baxışlarını üzümdə hiss edib dilləndim:

– Bizdən bir neçə masa aralıda oturanların kimliyini öyrənə bilərsənmi? Mənə çox lazımdır. Bir yüzlük çıxardıb ovcuna basdım. O geri qaytarıb ayağa qalxmaq istədi. Mən əl çəkmədim.

– Bizim patron bilsə, mən işimi itirərəm. Bunu götürün, nə buyruğunuz varsa, yerinə yetirərəm.

Oğlan hərlənib təzədən mənə yaxınlaşdı. Öyrəndim ki, adı Söhrabdı. Ata-anası Rza Şah rejimindən qaçıb bura gəliblər. Burada çoxdan yaşayırlar. Özü burda doğulub, oxuyub deyə ana dilini pis bilir. Cənubi Azərbaycanın Rəsd şəhərindən olan atası burda dünyasını dəyişəndən sonra anasını, bacılarını dolandırmaq onun boynuna düşüb. Fars qızı olan anası onlara azərbaycanca danışmağa icazə verməyib. Mən «Bakı», «Xəzər» sözlərini ondan soruşanda bilmədi. Özümün onunla bir kökdən, bir soydan olduğumu deyəndə gözlərini geniş açıb, lal adamlar kimi üzümə baxdı. Ayağa qalxıb təzədən əl verdi. Otaq nömrəmi deyib

axşam görüşəcəyimizi vədələşdik.

Bir gözüm aralıda oturanlarda idi. Dörd qadın, bir kişi idilər. Masamız çox uzaq olduğundan üzlərini aydın görə bilmirdim. İkisi sarı, ikisi qara gur saçlı qız idi. Kişi əlinin hərəkətləri ilə nə isə aydınlaşdırır, kağıza qeydlər eləyir, iri vərəqləri qızların qarşısına qoyub bir-bir nə isə yazdırırdı. Marağım və şübhəm get-gedə artırdı. Yerli polis idarəsindən Babayevin dediyi kimi, bir nəfər gəlib mənə kömək etməli idi. Onu gözləmək üçün özümü yubadır, iştahasız yeyirdim. Bir gözüm onlarda idi. Bütövlükdə fikrim o masada cəmləşmişdi. Nəyə görə? Özüm də bilmirdim. Gözlənilmədən saçları kürəyinin arası ilə bir olan qız ayağa qalxdı. Kişinin əlindəki vərəqi cırıb masanın üstünə atdı. Çevrilib getmək istəyəndə kişi kobudcasına qolundan tutub dartdı. Mən onun üzünü görmürdüm. İçimdə özümə də aydın olmayan nə isə qırılıb düşdü elə bil. Boy-buxun, saçlar Mehinin eyni idi. Bu odur deyə qətiləşdirdim. Məni qara basırdı, nədi? Gözlərimi silib bir də baxdım. Gümanımda yanılmamışdım. Bu qədər oxşarlıq da ola bilməzdi. Bir də fikirləşdim ki, Mehin ağılsız qız deyildi ki, belə murdar işlərə qoşulsun. Eyni zamanda: ehtiyac adamı nəyə desən apara bilər fikrini də başımdan qova bilmirdim. O, elə şeydir ki, yaxşını pisə, düzü əyriyə, qeyrətlini qeyrətsizə, kasıbı cinayətkara çevirə bilər. Yadımdadır, Mehin anası ilə tək yaşayırdı. Bəlkə də…

Bu qeyrətsiz, şərəfsiz insan dəllallarının toruna düşüb? Nə olur-olsun, ona haqq qazandıra bilmirdim. Oturduğum yerdə lal-kar olmuşdum elə bil. Təəssüf hissi canıma üşütmə salmışdı. Qabağımdakı nahar da soyumuşdu. Tərs kimi gözlədiyim adam gəlib çıxmamışdı. Zəng vurub gecikdiyi üçün üzr istədiyinə görə mən onu bir az da gözləməli oldum. Elə bu an dəstə ayağa qalxdı. Kişi qoyun sürüsünü idarə eləyən çoban kimi onları bir-bir maşına ötürəndə yerimdən sıçradım. Söhrab gendən nə isə qandırmaq istəyirdi. Mən özümdə deyildim. Çölə çıxıb taksiyə sarı yüyürdüm. Az qala onların izini itirəcəkdim. Sürücü hara gedəcəyimizi soruşmadan sürəti artırdı. Mən o maşının ardınca deyə bildim. Maşın şəhərin kənarında alçaq evlərin arası ilə irəliləyir, gah da şosse yola çıxıb ağacların, yaşıllıqların yanından ötüb keçirdi. Mənə elə gəldi ki, onlar izləndiklərini başa düşüb boş yerə fırlanır, bizi azdırmağa çalışırlar. Həyəcanımdan qız-

dırmalı adamlara oxşayırdım. Ürəyim tir-tir əsir, döyüntüsünün səsini eşidirdim.

– Kaş bu tapşırığı mənə həvalə eləməyəydilər. Şübhəm həqiqət olsa, mən yer üzündə necə gəzib-dolanacağam? O təmiz, büllur kimi saf Mehinli dünyam uçulub-tökülәcəksə, ölmək bundan yaxşıdır. İşə düzəltmək adı ilə yad ölkələrə aldadılıb gətirilən qızgəlinlərimizin acınacaqlı aqibəti ilə çox qarşılaşmışdım. Çoxunu da peşimançılıq içində yanıb qovrula-qovrula geri – ailələrinə qaytarmışdım. Amma bu günkü kimi əzab, iztirab içində yanmamışdım. Mehinlə harda, necə qarşılaşacağımı düşündükcə dəli olmaq dərəcəsinə gəlirdim. Tale bizimlə, deyəsən, oyun oynayırdı. Maşın döngədən burulub böyük bir meydandakı qalaya bənzər qədim, möhtəşəm binanın qarşısında dayandı. Sürücü maşını geri verib ağacların, kolların sıx olduğu bir yerdə saxladı. Mən buraları demək olar ki, heç tanımırdım. O qədər həyəcanlanmışdım ki, sürücüdən də bir söz soruşa bilmirdim. Tez maşından düşüb hasarın kənarı ilə darvazaya sarı getdim. Onlar hündür dəmir qapıdan içəri girib çıl-çıraqlı, par-par yanan zala daxil olana qədər izlədim. Kişi tez-tez qızları itələyir, qulaqlarına nə isə pıçıldayır, hərdən də üst başlarını səliqə-səhmana salmaq üçün dörd tərəflərinə fırlanırdı. Aramızda məsafə çox uzaq olduğu üçün onları tam dəqiqliyi ilə görə bilmirdim. Qızlar zalda gözdən itənə qədər dəmir barmaqlıqdan yapışıb onları gözümlə yola saldım. Darvazada duran keşikçi xəbər tutmamış taksiyə qayıtdım. Yıxılmamaq üçün yolun kənarındakı ağaca söykənib xeyli beləcə qaldım. Sürücüdən bir məlumat almaq üçün özümü toplayıb keçib taksidə oturdum. Sürücü, deyəsən, məni başa düşmüşdü. Rəngimin ağardığını, əllərimin titrədiyini görüb dilləndi:

– Qardaş, gəlsənə buradan nə qədər gec deyil uzaqlaşaq. Burda dayanmaq ziyandan başqa bizə yaxşı heç nə gətirməz. Mənim də uşaqlarım var.

O, qara qıvrım saçlı, iri qabarıq gözləri, danışanda sədəf kimi dişləri ağaran bir şəxs idi. Güclü biləkləri, cüssəli bədəni var idi. Onu ya afrikalıya, ya ərəbə oxşadırdım. İndi onun kimliyi ilə məşğul olmağa heç bir həvəsim qalmamışdı.

– Bu nə binadı, bəlkə, mənə deyəsən? –Ona sarı döndüm.

– Bu binaları tanımayan yoxdur. Londonda onun kimi üç, ya dörd klub var. Onlardan ən qədimi və möhtəşəmi bu klubdur. Ona Stretmor klubu deyirlər. Biz kasıbların buralarda nə işi ola bilər? Heç sənə də məsləhət görmürəm ki, belə işlərə baş qoşasan.

O mənim məqsədimdən az-çox tanış olub kimliyimi biləndə söhbətini ciddi məcraya yönəldib sözünə davam elədi:

– Bu gördüyün klubun Bruka, Uayta klublarından çox fərqi var. Stretmor klubu ən qədim olub atadan oğula, oğuldan nəvəyə, daha doğrusu, nəsildən-nəsilə keçən elə bir mülkdür ki, heç bir klub nə gəlirində, nə də udub-uduzmağında onunla rəqabət apara bilməz. Onun vahid bir varisi yoxdur. Bu klub yüz əlli il bundan qabaq Londonnun ən tanınmış və klubun üzvü olan şəxslərə aid olmuşdur ki, indiyə qədər öz şöhrətini qoruyub saxlayıb. Klubun üzvlüyünə qəbul olmaq ancaq varisliyə hüququ çatanlara aiddir. O adamlar da yüksək çinli varlılardı. Kartla uduzmaq, ya udmaq haqda hər şey buranın işinə aid nə varsa, klubun divarları arasında qalır. Ora düşənlər ordan çətin çıxır. Hətta kimisə gətirmək, kiməsə bələdçilik eləmək istəyənlərin özünü də içəri zallara buraxmırlar.

– Əgər belədirsə, bu məlumatlar səndə hardandır? – Deyə sual verdim.

O dərindən köks ötürdü. Bir neçə dəfə alnını ovuşdurdu. Üzümə məzlum-məzlum elə baxdı ki, elə bildim indicə ağlayacaq. Sözünə xeyli ara verdi. Başını sükana söykəyib duruxdu. Elə bil söhbətini davam etdirmək üçün özündə güc toplayırdı. Mənim dumanlı ovqatım bir az da pozulmuşdu. Onun nə isə dərdli olduğunu anlayıb susdum. Dillənməsini gözlədim. Mənim mat-mat onun üzünə baxdığımı hiss edib başını maşının sükanından qaldırdı.

– Böyük Britaniya kimi tanıdığımız bu məmləkətin adı kimi böyük sirri, qəribəlikləri də var, qardaş. İki yüz ilə yaxın tarixi olan qanunları indi də işləyir. Kral ailəsinə, ayrı-ayrı varlı nəsillərə aid nə varsa qorunub saxlanılır. Şəxsi mülkiyyət sahiblərinin nəvə-nəticələri varislik hüquqlarının maneəsiz sahibləridilər. Elə gördüyün bu klubu götürək. Binə olandan bəri neçə nəslin adamlarını yola salıb. Gələn yeni nəsillər üçün də öz hüququnu qoruyub saxlayacaq. Ondan gələn gəlir neçə nəsil klubun üzvləri ara-

sında bölüşdürülür. O gəlirin arxasında neçə ailənin, neçə taleyin bədbəxtliyi, nə qədər göz yaşı, ah-nalə durur. Neçə təmiz niyyətli adam aldanılıb var-yoxdan çıxır.

– Elə danışırsan ki, elə bil klubun işi ilə çoxdan tanışsan. Axı deyirdin ki,ora quş da girə bilməz və ordan da bir kəlmə söz xaricə çıxmaz?

– Bəli, deyirdim. Biri var eşidəsən, biri də var, gözünlə görəsən.

– Gözünlə görmüsən, necə? – Cəld soruşdum.

– Bəli, çox sadə. O aldadılanlardan biri elə sənin qarşındadır.

Təəssüflə əlini yellədi. Mənə elə gəldi ki, onun qara gözlərində yaş da gördüm. Donuq nəzərlə üzünə xeyli baxdım. Onun üzündə elə yazıq ifadə var idi ki, bu söhbəti başladığıma peşiman olmuş kimi, üzr istədim. O, məni sakitləşdirmək məqsədilə əlimin üstünə bir neçə dəfə yüngülcə vurdu. Bununla da sözümü kəsmə demək istədi. Məlum oldu ki, ərəb ölkələrinin birindən gələn (Muxammad) Məhəmmədi varlılar sıxışdırıb torpağını, mülkünü çox ucuz qiymətə əlindən alıblar. O da anasını və kiçik qardaşını götürüb bura üz tutur. Çoxdan burda işləyib yaşayan həmyerlisi onu aldadıb bu kluba gətirir. Təcrübəsiz, cavan oğlan pulunu bir az artırıb ev almaq məqsədilə razı olur. Çox keçmir ki, burada məşhur olan Yelizabet adlı bir qadının toruna düşüb bütün pullarını uduzur. Geri – vətəninə qayıtmağa da üzü olmur.

– Hara gedəydim, yol pulumuz da yox idi, – deyə köksünü ötürdü. İndi hər şey az-çox mənə aydın idi.

Qızlar da, Mehinin xəyalı da yadımdan sanki çıxmışdı. Çox yorulmuşdum. Nə edəcəyimi bilmirdim. Həmkarım zəng vurub mehmanxanada gözlədiyini deməsəydi, axşama qədər burada işin axırını gözləməkdən başqa çarəm qalmayacaqdı. Biz mehmanxanaya dönəndə axşama az qalırdı. Bura daima duman-çən olduğundan günorta olmamış elə bilirsən ki, axşam düşüb. Sürücünün haqqın ödəyib pilləkənlərlə gözləmə zalına qalxdım. Heç kəs gözümə dəymədi. Nə də kimsə mənə yaxınlaşıb tanışlıq da vermədi. Açarımı alıb nömrəyə qalxmaq istəyəndə növbətçi qız xəbər verdi ki, həmkarım bir az bundan qabaq çıxıb gedib. Axşam yenə gələcəyini dedi.

Otağıma qalxmaqdan qeyri çarəm qalmamışdı. Heç nəyə

baxmadan özümdə bircə saat yatmaq, bu düşüncələrdən uzaqlaşmaq ehtiyacı duydum. Çarpayıya uzanıb yarım ölüm sayılan yuxuya getdim. Axşam saat səkkiz radələrində qapım döyüldü. Yarıyuxulu qapını açdım. Qapının ağzında uzun, arıq, sarışın saçlı, göy gözləri oynayan biri dayanmışdı. Çənəsinin çevrəsi qədər sarı saqqalı, dağınıq saçları xoş təsir bağışlamırdı. Əlindəki qovluğu qoltuğuna sıxıb gülümsəyirdi. Mənim yuxulu olduğumu görüb üzr istədi. O, otuz – otuz beş yaşlarında bir adam idi. Sifətinnə baxanda işgüzarlığı o saat bilinirdi. Babayevin dediyinə görə belə məxfi işlərdə bizim nazirliyin işçilərinə dəfələrlə kömək eləyib. Üzr istəyib vanna otağına keçdim. Üzümə, boyunboğazıma su vurub bir az özümə gəldim. Mən otağa qayıdanda onun kağızları vərəqlədiyini, nə isə kiçik dəftərçəsində qeyd elədiyini gördüm. Mənim gəlişimi hiss eləyib ayağa qalxdı. Əlini uzadıb özünü təqdim elədi.

– Vill, Dyu Vill təkrar etdi.

Gülümsəyib əl uzatdım. O, mənim gülümsəməyimin səbəbini birtərəfli başa düşsə də, mən özümü o yerə qomadım. Yadıma çox sevdiyim yazıçı dramaturq Vilyam Şekspir düşmüşdü. Bu böyük sənətkar hələ orta məktəbdə oxuyanda məni ovsunlamışdı. Onun bütün əsərlərini elə o vaxtlar oxumuşdum. Böyük Britaniya, İngiltərə adı çəkiləndə orta əsr intibah dövrü ədəbiyyatının görkəmli sənətkarı Şekspiri xatırlamamaq olmur. On ikinci əsrdən bəri Azərbaycan söz sənətini bütün dünyaya tanıdan şair, filosof Şeyx Nizami Gəncəvi kimi onun adı bütövlükdə bir xalqın adı ilə yanaşı çəkilir.

Söhbətimiz uzun çəkmədi. Sən demə, onda dəstə haqqında bəzi məlumatlar var. Bildirdi ki, mehmanxananın qəbul şöbəsindən də bəzi qeydlər götürüb. Bu dəstəni işə düzəltmək adı altında gətirən Aleks adlı bir nəfərin London tərəflərə ikinci gəlişdi. Əsl adı Əli Müsəvidir. Əvvəlcə Naxçıvanda, sonra Bakıda məskunlaşıb yaşayıb. Asan yolla pul qazanmaq xatirinə Tehrandakı vərdişini burada da davam eləyir. Mənşəcə farsdır, bəzi pis əməllərinə görə neçə dəfə həbs olunub. Hökumətdən qaçıb, Şimali Azərbaycana gəlib. Onun dəstəsində olanların ikisi başqa ölkənin – Rusiyanın vətəndaşı, ikisi isə azərbaycanlıdır. Bu qısa vaxtda Villin belə məlumatlara malik olması məni heyrətə saldı. Sən

demə, o, bu məlumatları bir həftə bundan qabaq toplayıbmış.

Sənədlərinin saxlanması haqda aşağı qəbul şöbəsinə göstəriş vermişəm. İndi qaldı onların Stretmor klubundan çıxarılmağına. Bax bu çox çətin olacaq. Stretmor şəxsi mülkiyyətdir. Onu mülkiyyətçilərdən biri idarə etsəydi, bu bir az asan olardı. Onların işinə müdaxilə eləmək polisin də səlahiyyətindən kənardadır.

– Hə, bilirəm, az-çox o klubun işindən mənə də danışıblar. İndi təklifiniz nədir? –Maraqla üzünə baxdım.

O, məndən yaşca çox böyük olmasa da, ona «siz» deyə müraciət etməyim onu təəccübləndirdi, xoşuna gəlmədi.

– Bu rəsmiyyəti burax, canım. İndi biz bir yerdə işləyən həmkarıq. Mənə sadəcə Vill deyə müraciət eləyə bilərsən. Başımız işə elə qarışdı ki, heç adını da soruşmadım, bağışla!

– Siz də mənə rəsmi müraciət etməyin. Adım Nihaddır, Nihad Mənsurov.

Adım bir az dilinə yatmasa da, məmnunluqla güldü. Sizin soyadınıza bu «ov», «yev» şəkilçilərini kim belə əlavə edib? Mən Şərq tarixini, xüsusən İran, Azərbaycan tarixini çox oxumuşam. Mən başa düşəni sizin azərbaycanlılara məxsus adınız, soyadınız var. Elə götürək biz ingilisləri. Neçə əsrlərdi ki, biz qanunda da, tarixilikdə də özümüzə məxsusluğumuzu bir xalq olaraq qoruyub saxlaya bilmişik.

Həmkar olsaq da, elə yerindəcə ona cavab verməyi lazım bilib dilləndim:

– Bizim Azərbaycan xalqı da, özünəməxsusluğunu qoruyub bu günə qədər gətirib. Dilimiz, dinimiz ədəbiyyatımız, görkəmli şəxsiyyətlərimiz bunu sübut edir. Bizim müxtəlif ictimai mühitdə yaşadığımızı, gah rus, gah fars-ərəb təsirinin tariximizdə, şüurumuzda, düşüncəmizdə oynadığı rolu bilsəniz, güman etmirəm ki, bu sözləri deyə biləsiniz.

Vill mənimlə razılaşdığını başının işarəsi ilə bildirib ayağa qalxdı.

– Bu uzun bir söhbətin mövzusudur. Hər xalqın tarixində mənfi və müsbət rol oynayan amillər tapmaq olar. Mən sənin-lə tam razıyam. İndi görəcəyimiz işdən danışmaq daha vacibdir, vaxt itirmək olmaz.

Mən tələsik soruşdum:

– O gələnlərin adını, soyadını yazıb götürməmisən ki, Vill? Mümkünsə, onları mənə versən, sənə minnətdar olardım.

– Yenə rəsmiyyətdən uzaqlaşmırsan, Nihad. İnciməsən, mən səni Niki, Nikolas çağırardım. Belə mənə çox asan olardı. Sən də məni dilinə yatan bir adla çağır. O siyahını götürməyə vaxt olmadı, qız bütün sənədləri yığıb seyfdə saxlayır. Aşağı düşəndə baxarsan.

Vill işgüzar, qayğılı bir adam görkəmi aldı. Görünür, mənsiz o bu haqda çox düşünmüşdü deyə birdən-birə mətləbə keçdi.

– Mən Stremor klubu ilə əlaqəli işdə çalışan bir nəfər tanışımla danışmışam. O qızların bu gecə mehmanxanaya qaytarılmasına şans olduğunu mənə xəbər verdi. Nə isə, bir nəfərin sənədlərində anlaşılmazlıq var. O qız sənədi cırdığı üçün ona etibar eləməyiblər, aparan şəxsə də acıqları tutub. Onları bu gecə təkrar mehmanxanaya qaytaracaqlar. İndi onları xüsusi otaqların birində saxlayırlar. Qızlardan biri ipə-sapa yatmır. Qışqırıb bizi aldatmısınız deyir. Biz bundan istifadə eləyib qızları aradan çıxara bilərik. Mən hər ehtimala qarşı bir neçə bilet sifariş eləmişəm.

Onun sözünün dalına qulaq asa bilmədim.

– Bu Mehindi, – deyə qürur hissi keçirdimsə də, rahat ola bilmirdim. Bizim söhbət elədiyimiz vaxtda Söhrab neçə dəfə qapını açıb-örtmüşdü. Bizə nə isə bir şey lazım olub-olmadığını soruşmaq istəyirdi. Amma baxışından sözlü adama oxşayırdı. Başa düşürdüm ki, onun iş vaxtının qurtarmasına iki saatdan da az qalır. Söhrabın bizə köməyi dəyə bilərdi. İş saatı qurtarandan sonra burada qalsa, müdriyyət ondan şübhələnə bilərdi. Nahaq yerə onu güdaza vermək istəmirdim. Amma görünürdü ki, Söhrab ürəkdən mənə kömək etmək istəyir. Üzr istəyib çölə çıxdım. Söhrab barmaq boyda kağızı ovcuma basdı. Bu onun ünvanı idi.

– Anam sizi evdə gözləyəcək. Sizin haqda danışanda sevincinin həddi-hüdudu olmadı. Xahiş edirəm, sözünü yerə salmayın.

– Axı deyirdin ki, sənin anan çoxdan dünyasını dəyişib, həm də fars qızı olub.

– Bəli, bu belədir. Mədinə ana bizim həmşirəmizdi. Ata-anası Şimali Azərbaycandan çoxdan köçüb gələnlərdən olub. Anamın ölümündən sonra bizə öz balası kimi baxıb. Öz övladı olmayıb. Sizi görsə, çox sevinəcək.

– Yox, Söhrab mənim işim çox dolaşıqdır. Əgər baş tutsa, elə bu axşam Bakıya qayıdacam. Ünvanın məndədir. Yolum düşsə, söz verirəm ki, birinci Mədinə ananı görməyə gələcəm.

Görüşüb ayrıldıq. Mən otağa qayıdanda Vill kiminləsə danışırdı. Söhbətin nədən getdiyini bilməsəm də, onun üzünün ifadəsindən nə isə məmnun olduğunu anladım. Nigarançılıq, əsəbilik məni açıq-aşikar üzürdü. Mehinlə hansı şəraitdə qarşılaşacağımı, özümü necə aparacağımı fikirləşəndə az qalırdı ürəyim dayana. İllərlə səsinə, baxışına həsrət qaldığım həyatımı cəhənnəmə çevirib məhəbbətinin odunda məni yandıran, əbədiyyətə qədər and içən Mehinə nə olmuşdu? Qorxmadan, çəkinmədən qoluma girib şəkil çəkdirən Mehinin əzəlki cürəti, cəsarəti necə olmuşdu? Ağlıma sığışdıra bilmirdim ki, mələk kimi məsum, qürurlu, təkəbbürlü bir qız, bu dələduzların toruna necə düşüb? Bəlkə, elə dərdlərindən baş götürüb uzaq bir məmləkətə qaçmaq, özü ilə baş-başa qalmaq arzusu onu bu yola təhrik eləyib? Kim bilir? Onu günahlandırmağa, mühakimə eləməyə haqqımmı var idi? Mən özüm elə neçə dəfə hansısa ölkəyə getmək, özümdən uzaqlaşmaq arzusunda olmamışammı? Bir neçə saat, bir gün heç olmazsa tənha qalıb öz içinə enmək, daxilimdə olan tələtümü söndürmək istəməmişdimmi? Belə olan halda öz dərdləri ilə baş-başa qoyduğum, təzəcə qönçələnək ilk məhəbbətini açılmamış məhv etdiyim Mehini qınamağa nə haqqım var idi?

Vill telefonla danışıb qurtarana qədər mənə də neçə dəfə zəng gəldi. Heç birinə cavab vermək həvəsində deyildim. Rənaya verdiyim vədi də unutmuşdum. Onunla danışmaq həvəsim olmasa da, uşaqlarımdan nigaran idim. Atamdan icazəsiz Qubadan qayıtdığıma görə özümü günahkar hesab eləyib qınadım. Qonaqlarla salamlaşmadan çıxıb getməyi atama qarşı hörmətsizlik sayıb sıxıldım.

Nə etməli ki, qəlbimdəki ancaq özümə bəlli olan kədər, ruhumdakı sarsıntı məni tənhalığa çəkirdi. Qəlbimdə anlaşılmaz bir nisgil qövr eləyirdi. Özüm öz nisgilimdən doğan hisslərimi aydınlaşdırmağa qorxurdum. Anlaşılmaz düşüncələr, çalpaşıq fikirlər içində yaşanan günlər-saatlar fiziki yorğunluqdan qat-qat ağır olur. Mən bu ağırlıqdan xilas olmaq yolunu da axtarırdım. Sadəcə Mehinə olan hissimə, istəyimə qarşı durmağı bacar-

mırdım. Belə anlarda sönüklük, süstlük üstümə ağır bir duman kimi çökürdü. İndinin özündə də sanki çiyinlərimdən ağır yük kimi basır, oturduğum kreslodan qalxmağa imkan vermirdi. Villin səsi məni bu ağırlığın altından çəkib çıxardı. O, telefon danışığını çoxdan qurtarıb mənə baxırmış. Yüngülcə gülümsəyib əlini çiynimə qoydu:

– Nə yaman fikrə getmişdin, səni düşüncələrindən ayırmaq istəmədim.

– Yox, elə ciddi bir şey yoxdur. Sadəcə yorulmuşam. Bir də bu işin altından necə çıxacağımız haqda düşünürəm. Bizim ölkəmizdə, ümumiyyətlə, Şərq ölkələrində qadına, qıza münasibət çox ciddidir. Onların valideynləri ilə necə qarşılaşacağımı bilmirəm.

– Dost, sən bunları bir yana qoy, onlar iki saatdan sonra burda olacaqlar. Bəzi yoldaşlarla danışdım. Hər ehtimala qarşı bəzi hazırlıq işləri görmək lazımdır. Onların silahlı keşikçiləri də ola bilər.

O, məndə silah olub– olmadığını nəzərdə tuturdu. Üzümə xeyli baxıb ayağa qalxdı. Çox narahatçılıq keçirirdi. Əlini çənəsinə aparıb xeyli susdu. Nadir bir tapıntını aşkarlayan adam kimi cəld geri döndü.

– Biz onları öz nömrələrinə girməmiş haqlamalıyıq. Mehmanxanadakı mühafizəçiləri də xəbərdar eləmişəm. Mümkün qədər bizə kömək eləyəcəklər. İndi de görüm təyyarənin uçuşuna qədər onları gizlətməyə yerimiz varmı?

Mən Söhrabın verdiyi ünvanı ona uzatdım. Onun bizə köməyi dəyəcəyinə əmin idim. Amma onu xəbərdar etməliydik. Dəstəyi götürüb yazılan ünvana zəng vurdum. Mən azərbaycanca danışdığım üçün qadın cənubluya xas şirin ləhcədə cavab verdi ki, oğlu hələ işdən qayıtmayıb.

– Mən sizi birlikdə gözləyirdim, sənə qurban olum. Vətənimin bir parçası, canım ciyərim. Bu vaxta qədər harda qala bilər?

Qadının səsində bir narahatçılıq olduğu açıq-aydın duyulurdu, onu sakitləşdirib dəstəyi asdım. Özüm ondan çox nigarançılıq keçirirdim. Vill işdən agah olan kimi dəstəyi götürüb hara isə zəng vurdu. Aydın oldu ki, mənim nömrəmə bir neçə dəfə gəlib-getməyi müdriyyətin xoşuna getməyib. Onu sorğu-suala tutub-

larsa da, ondan inandırıcı bir cavab ala bilmədiklərinə görə saxlayıblar. Vill qorxulu bir şey olmadığını deyib ayağa qalxanda saat on ikini vururdu. Biz mənim əl çantamı da götürüb birinci mərtəbəyə endik. Maşın qapıda dayananda özümü itirdiyimi, rəngimin qaçdığını Vill də sezdi. Yəqin, belə qorxaqsansa bu cür tapşırığa səni niyə göndərirlər? deyə düşünürdü. Dəstə içəri girəndə sakinlərdən heç kəs yox idi. Bizim hər birimiz daldada durub gözləyirdik.

Mühafizəçilər də işdən agah olduqlarına görə hər ehtimala qarşı hazır vəziyyətdə idilər. Söhrabı yaxına buraxmırdıq. Aradakı anlaşılmazlıq da bir növ həll edilmişdi– Deyə anasına zəng vurub onu sakitləşdirdi Söhrab. Məni titrətmə tutmuşdu, əllərim, dodaqlarım əsirdi. Maşından ilk öncə onları gətirən işbaz düşdü. Sonra onları tələsdirib qoyun sürüsü kimi içəri saldı. Mən gözümlə Mehini axtarırdım. Həmin qız üzü xidmətçiyə sarı dayanmışdı. Uzun, qara saçları çiyinlərinə dağılmışdı. Əlindəki balaca çantasını sinəsinə elə sıxmışdı ki, elə bil kimsə əlindən alıb qaçacaq. Mən qeyri-iradi Mehin deyə çığırdım. Qız geri döndü. Gözlərində yaş, üzündə vahimə dolu bir görkəm var idi. Mehin olmadığını görüb sevindiyimdən ağlayırdım. Kişi nəzarətçidən açarları istəyəndə nəzarətçi yerində dayanan Vill onun qollarını bağladı. Mehin çağırdığım qız yüyürüb məni qucaqladı.

– Sənə qurban olum, qardaş, Allah səni bizə yetirib.

O biri qız da boynuma sarılıb ağlıyanda Vill təəccüblə bizə baxırdı. O biri ikisi ağız büzüb qışqırırdılar:

– Hansı əsasla bizim hüquqlarımızı pozursunuz? Biz bura könüllü gəlmişik. Harada, necə işləmək, yaşamaq bizim öz işimizdir.

Vill qızların qolundan tutub maşına atdı:

– Gedib bu sözləri öz ölkənizdə deyərsiniz. İndi gedərik polis bölməsinə, sizin kimliyinizi araşdıraraıq. Bizim ölkəmizdə sizin kimilərinə ehtiyac yoxdur – dedi.

Vill bizi Söhrabgilə, özü isə qalanları maşina yığıb bölməyə getdi. İki saata yaxın vaxtımız qalmışdı. Ürəyim heç vaxt indiki kimi rahat döyünməmişdi. Dünəndən bəri keçirdiyim həyəcanlar bir ömrə bərabər idi. İndi əhvalım tamam dəyişmişdi. Mədinə xala ilə o qədər ürəkdən danışıb dərdləşirdik ki, vaxtın necə keç-

diyini hiss eləmədik. Qiyabi Mehin saydığım Nərmin elə ilk baxışdan Söhrabı ovsunlamışdı. Mədinə xala qızın başına fırlanır, gözünü ondan çəkmirdi.

– Mədinə xala sözlü adama oxşayırsan, xeyir ola? Nərmindən gözünü çəkmirsən? – Deyə zarafat da elədim. – Bu qız mənə doğma bir adam olmuşdu elə bil. Onun üsyankarlığı, bağladığı müqaviləni cırması özü-özlüyündə onun mənəvi təmizliyindən, saflığından xəbər verir. Aldadıldığını başa düşüb, hansı yollarlaolur- olsun Vətənə dönmək istəyirdi.

Atasının ölümündən sonra evə yeganə qazanc gətirən olduğu üçün bura gəlib. Bir neçə ay işləyib geri dönmək şərti ilə bu işə razılıq verib.

– Düz tapmısan, eloğlu. İndiyə qədər Söhrabı ürəyinə yatan bir qızla evləndirə bilməmişəm. Doğrusu, öz ətimizdən, qanımızdan olanın birini tapıb evlənmək olmur bu xarabada. Bizi didərgin salanın taxtı başına çevrilsin, necə ki çevrildi. O xarabada kim taxta çıxır, bizə qənim kəsilir. Biz azərbaycanlı türklərindən niyə qorxurlar, başım çıxmır? Şükürlər olsun ki, heç olmasa ağlayan gözlərimizin biri güldü. Sizlər, bəlkə, bir ağ gün görəsiniz. Siz şimali Azərbaycanda yaşayanlar da çox ağır zülümlər görübsünüz. Rusların qurduqları o şura hökuməti nəmənydi, sizi də qırıb, axırınıza çıxdı. Dünyaya səpələndiyimizə baxmayın, ürəyimiz həmişə sizinlədi. Biz hamımız bütöv bir canıq ki, didərgin düşmüşük.

Yana-yana danışan Mədinə ananın sözünü kəsib vaxtımız azdı deməyə cürət eləmədim. Biz onun əlinə tutiya təbərik kimi düşmüşük. O açıqca dedi ki, Nərmindən xoşu gəlir, onu Söhraba elə burdaca nişanlamaq istəyir. Nərmin onu qucaqladı:– Mədinə ana, mənim də sənin kimi yeganə arxam-dayağım anam var. Sağlıq olsun…

Mədinə ana barmağından üzüyünü çıxardıb Nərminin barmağına taxd:

–Bir aydan sonra bizi Azərbaycanda gözlə, qızım, - dedi.

Söhrab məmnunluqla gülümsəyirdi. Görünür, bu onun da ürəyincə idi. Biz sağollaşıb təyyarə limanına gəldik. Vill, qızlar, bir də Əli Musavi ilə bizi gözləyirdi. Ona dərin minnətdarlığımı bildirib təyyarəyə qalxdıq.

Məni təyyarə meydanında bu işə aidiyyəti olan orqanların nümayəndələri qarşıladı. Nərmin qolumdan yapışıb bərk-bərk mənə sığındı.

– Bir halda ki, məni bu rüsvayçılıqdan qurtarmısan, icazə ver səni bir qardaş kimi qucaqlayım.

Çox kövrəlmişdim. Onu qucaqlayıb alnından öpdüm.

–Ümidvaram ki, Söhrabla toyunuza məni də dəvət edəcəksiniz,- deyə başını sığalladım. Cibimdən ünvan, telefon nömrəsi yazılı kağızı çıxarıb ona verdim.

* * *

Təyyarə limanından bir baş iş yerinə, Babayevlə görüşməyə getdim. Əməliyyatın uğurla qurtarması çox xoşuna gəldi.

İşimi qurtarıb çölə çıxanda gecə yarıdan keçmişdi. Hər tərəfdə bir sakitlik hökm sürürdü. Dərindən nəfəs alıb, Bakı havasını, Xəzərin sərin mehini sinə dolusu ciyərlərimə çəkdim. Bu havadan bir doğmalıq bütün vücuduma yayıldı. Maşınla getmək həvəsim tamam itmişdi. Küçələr bomboş idi. Adda-budda işıldayan lampalar gündüzdən yağan payız yağışından sonra yaranan xırda su gölməçələrinə sönük bir işıq salırdı. Evimiz iş yerinə yaxın olsa da, gecənin bu vaxtında ora piyada getmək ağılsızlıq olardı. Evə qayıtmaq həvəsim tamam-kamal ölmüşdü. Ömrümün əzab, həsrət dolu keçmişindən ayrılmaq istəməsəm də, maşına oturdum. Küçəmizə dönüb darvazanın ağzında maşını saxladım. İçəridən qarışıq deyib-gülmək, danışıq səsləri gəlirdi. Qəribədir gecənin bu vaxtı bu nə deyib gülməkdi deyə cəld pilləkana doğru getdim. Bəzi vaxtlarda həmişə nənəm məni qarşılayar, hər şeydən agah eləyərdi. Elə indi də Məxmər nənəm məni görüb sevincək boynumu qucaqladı:

– Xoş gəlmisən, bala, qonağımız var. Nənəm dilucu dediyi bu sözdən sonra dərindən köks ötürüb mətbəxə keçmək istəyəndə qolundan tutub saxladım.

– Nə qonaqlıqdı, nənə, gecənin bu vaxtı? Bəs sən niyə burdasan? Ata-anam da burdaydılar.

– Yox, bala, atanın heç xəbəri yoxdur. Rənanın dostlarıdır, yığışıblar, şadyanalıq eləyirlər. Mən də uşaqlara görə gəlmişdim. Evdə heç birin tapmadım. Dağılışıb xarabalarına getmirlər ki,

mən də qoca adamam, yatıb rahatlanım. Sənin səfərin necə keçdi, oğul? Sir-sifətin heç xoşuma gəlmir. Keç qonaqlarla görüş, yaxşı düşməz.

– Gecənin bu vaxtı özgə evində avaralanan qonaqlarla görüşmək istəmirəm, – deyib öz otağıma keçmək istəyəndə, pilləkənin başında dayanan Rənanı görüb dayandım. Başımı qaldırdım. Göz-gözə dayandıq. Rəna əda ilə pilləkandan enib etinasızlıqla dilləndi:

– Xoş gəlmisiniz, evindən, uşaqlarından qaçaq oğlan.

Onun mənə «siz» deməsi məni tutsa da, özümü o yerə qoymadım. Mən də eyni rəsmiyyətlə cavab verdim:

– Ərindən xəbərsiz gecənin bu vaxtı bu nə qonaqlıqdır, Rəna xanım?

– Mənim ərim olsaydı, yanımda olardı. Məndən xəbərsiz çıxıb getməzdi. Bu sualı mən sənə verməliykən, sən qabaqdan gəlmişlik eləyirsən? Bir bax gör nə gündəsən?

Mən ona məhəl qoymadan pilləkənlə yuxarı otağıma çıxdım. Ürəyimdə ona haqq qazandırsam da, məğlub olmaq fikrində deyildim. Gözucu divardakı güzgüyə baxdım. Yorğun, yazıq, üzücü görkəmim var idi. Bu qəribə görkəmim başımı yenidən dumanladırdı. İçəridən gələn şit zarafat, gülüş səslərindən sanki iyrəndim. Qulağıma insan əsəblərini cırmaqlayan cır bir səs gəldi.

– Rəna xanım, biz sizi gözləyirik. Mən təklif edirəm ki, bu badələri də içək Rəna xanımın və «qaçqın» ev sahibinin sağlığına. Məncə, bu gecə süfrədəki naz-nemət deyil, Rəna xanımın gözəlliyidir ki, məclisə xüsusi rövnəq verdi.

Bu, heç vaxt rəğbət bəsləmədiyim Rənanın qrup yoldaşı Rəşadın səsi idi. Rənaya da uzaq qohumluğu çatırdı. İki dəfə evlənmişdi. Sonuncudan təzəcə ayrılmışdı. Onun səsi məni hövsələdən çıxartdı.

Paltarımı dəyişmədən otağa sarı döndüm. Rəna qabağıma keçib yalvarışa bənzər bir səslə:

– Hara gedirsən, Nihad? Bu görünüşlə bizi biyabr eləyərsən. Get paltarını dəyiş, özünü sahmana sal.

Onu geri itələyib içəri girdim. Rəna təkrar mənə mane olmaq üçün qapıda göründü.

–Qonaqlarımıza xoşgəldin deyəcəyəm deyə hiddətlə onu itələ-

dim. Rəna üzünü tutub ağlaya-ağlaya otağına gedəndə qonaqlar mənimlə sağollaşmadan dağılışmışdılar. Rənanın hələ də hönkürtüsü gəlirdi. Uşaqlar otaqlarında yox idilər. Nənəm dedi ki, babası gəlib onları bağ evinə aparıb. Sabah istirahət günü olduğu üçün axşam yanlarında saxlayacaqlar.

Mən onu ovutmaq, könlünü almaq üçün heç nə demədim. Əksinə, ona ikiqat acığım tutdu. Düzünü desəm, ona qarşı kinim get-gedə artırdı. Elə bil mənim həyatımı öz əli ilə Rəna söküb dağıtmışdı. O, sökbülüb–tökülən eşqimi təzədən qurmağa gücüm, qüvvəm çatmadığı üçün daha artıq hiddətlənirdim.

Rəna qürurlu bir qadın idi. Öz hisslərini gizlətməyi bacarırdı. Necə olmuşdu ki, aramızdakı gizli anlaşılmazlığı Rəşad kimi boşboğaza danışmışdı? Axı mən düşündüklərimi ona açıq-aşkar deməmişdim. Evimizdə soyuq ab-hava hökm sürsə də, ciddi danışığımız olmamışdı. Qadın qəlbi sirli-sehirli bir xəzinədir ki, öyrənmək çox çətindir. Nə bilmək olar, bəlkə…

Son iki ildə qəlbimin istəkləri, ruhumun keçirdiyi sarsıntılar haqda heç kəsə, o cümlədən Rənaya da heç nə danışmamışdım. Hələ heç bir dəyişiklik baş verməmişdi. Zahirən ailəmizdə hər şey əvvəldə olduğu kimi idi. Bax bunlar hamısı qalsın bir yana,Rəna da qadın idi. Bizim hər ikimiz bir-birimizdən fərqli əzab çəkirdik. Mən artıq başqa bir Nihad idim. Aramızdakı hər ikimizi üzən anlaşılmazlığa son qoymaq vaxtı gəlib çatmışdı. Bu günkü görüb-eşitdiklərim ailəmizi hələ də birləşdirib-saxlayan bağları bir az da gərginləşdirirdi. Bu illər ərzində biz sadiq ər-arvad rolunu oynaya-oynaya özümüzü aldatmışdıq. Bizim hisslərimiz, zövqümüz, düşüncə tərzimiz, kədərimiz, hətta sevincimiz belə birbirindən kəskin fərqlənirdi.

Bu axşamki toqquşma məndə olan acizliyə, cürətsizliyə sanki təkan verdi. Daha belə davam edə bilməzdi. Mehinə olan hisslərim içimdə get-getə idarəolunmaz sel kimi məcrasından çıxırdı. Mehini tapacağıma, mənə olan duyğularının dəyişməzliyinə əmin idimmi, bilmirdim? Bəlkə, elə indi kiminsə işığını yandırıb keçmişinin üstdən qələm çəkib? Axı niyə də çəkməsin? Onun da sevməyə, yaşamağa haqqı yoxuydumu. Yox, bunları düşündükcə canıma üşütmə düşür, xəstə adamlar kimi az qala sayıqlayırdım. Mehin xəyalımdan çıxıb getmir, fikrimə, düşüncəmə daha böyük

qüvvə ilə hakim kəsilirdi. İşim, ailəm, mövqeyim ola-ola, özümözümə artıq yük olmuşdum elə bil. Rüstəmlə də bu mövzuda danışmaq, təhər-töhmət eşitmək həvəsim ölmüşdü. Ürəyimi heç nəylə açа bilmirdim.

Nənəm bir neçə dəfə otağımın qapısına gəlib-getsə də, içəri girib məni narahat etmək istəməmişdi. Amma hiss edirdim ki, bizim ayrı-ayrı otaqlarda yatmağımız onu çox qayğılandırmışdı. Dodağının altında nə isə deyinə-deyinə birinci mərtəbəyə düşəndə işığı söndürüb yatağa uzandım. Yorğun olsam da, çalpaşıq fikirlər, düyününü açа bilmədiyim duyğularım yuxumu ərşə çəkmişdi. Eşitmişdim ki, məhəbbət o vaxt möhkəm olur ki, uzun ayrılıqdan sonra ona təzədən qovuşasan. Hicranın dalınca gələn vüsalın şirinliyini heç nəyə dəyişmək olmadığı kimi, vüsalsız hicranın acısını çəkmək nə qədər ağır, nə qədər canüzücü olur. Mən bunların hər ikisinə tab gətirmək üçün ruhən qüvvətli olmalıydım. Nə qədər acı olsa da, həqiqəti üzə çıxardıb bu tərəddüdlərdən can qurtarmalı idim. Bütün dünya gözümdə Mehinləşmişdi. Fikrimdə, düşüncəmdə, xəyalımda da onu axtarırdım.

Gözümə yuxu getmirdi. Qapının arasından düşən işıqdan anlayırdım ki, Rəna da yatmayıb. Bu məni zərrə qədər narahat etmirdi. Gözlərimi yumub heç olmasa köhnədən qırılıb qalan xatirələrin dadını-tamını dadmaq üçün yerimdən qalxıb pəncərənin qabağına gəldim.

Yadımdadır, Mehin üç günlüyə rayona – babasıgilə getmək istəyirdi. Üstəgəl, iki gün də şənbə-bazara günüydü. Beş gün görüşməyəcəkdik. Beş gün səni görməmək mənə cəhənnəm əzabı olacaq Mehin dedim.

– Niyə əzab çəkirsən, Nihad. Yadına mən düşəndə pəncərənin qabağına gəl, ya eyvana çıx. Aya, ulduzlara bax. mən mütləq orda olacam, əzizim məni orda taparsan. Eynilə mən də sənin kimi eləyəcəm. Şəhərə baxma, kənddə ay, ulduz adama daha yaxın olur. Göy üzü elə bil insanla danışır, doğma adam kimi söhbət eləyir sənin lə. Sakit, aylı kənd gecələrində sevgini suya, aya, ulduza danışmaq bilsən necə həzin, şairanə olur? Mənə nə sözün olsa, göylərə baxıb danış, mən səni eşidəcəm. Mən də baxışlarımı axan buludlara, uçan durnalara qo, – deyə üzünə baxdım.

O, utana-utana kənddə yazdığı şeirindən bir bənd elə dedi ki,

ürəyim titrədi, kövrəldim.

Onda bir qədər laqeyd baxdığım o şeir parçası indi ovqatımın bu tutqun vaxtında, gecə yarısı tənhalıq məni pəncəsində sıxıb-əzəndə necə gərəyim olmuşdusa, yaddaşımı ələk-vələk eləyib bir bəndini yadıma sala bildim:

Gecə ötür, ulduzlar
Boylanır pəncərəmə.
Baxaydın bir ulduz tək
O göylərdən sən mənə…

İstər-istəməz göyə baxdım. Nə ulduz var idi, nə də ay. Payızın dolaşıq- bulaşıq havası göyün üzünü tutmuşdu. Xırda payız çisəyi yarıçılpaq ağacların, otların üstünə çiləndikcə adamın ürəyi sıxılırdı. İndi qəlbimi heç bir çovğun, tufan, nə cansıxıcı payız havası Mehinin yoxluğu qədər sıxa bilməzdi.

İndi baxışlarımı, həsrətimi nəyə qoşub sənə göndərim Mehin? – Deyə sinəmdən bir hayqırtı qopdu. Dilimdən qopan bu misralara özüm də heyrətləndim. Mən heç vaxt şeirlə maraqlanmamışdım. Sənin yazdığın şeirləri də sevən bir qızın könül çırpıntıları hesab eləmişdim.

Çaylar həsrətlə axır,
Tənha gül də darıxır.
Sənsizlik məni sıxır
Gəl səni görüm yenə…

Soyuq hava gecə köynəyinin açıq yaxasından canımı üşütdü. Yornuqluğuma qarışıb məni silkələdi. Otağa qayıdıb yatağa uzananda Rənanın otağının qapısının örtüldüyünü eşitdim.

Səhər yuxudan gec oyandım. Otağıma girib çıxan heç kəs yox idi. Nənəm burda olsaydı yəqin hövsələsizlik eləyər: – Ay Nihad, adam səhər tezdən oyanar, sübhün mehi üzünə dəyər, ay bala. Bu şəhər adamı üçün yatmaq elə bil xəstəliyə çevrilib ey… - Deyərdi

Sonra da özü dediyinə tez də cavab verərdi:

– Əşi, naxıra heyvan qoşmurlar, kəhrizdən su gətirmirlər. Hər şey evin içindədir, od da, su da, hələ desən çörək də. O biz idik, dan yerindən qabaq oyanardıq. Sac qoyub yuxa salar, samovar

qaynadardıq. Qaynana, ər qulluğunda durmağı bunlar nə bilirlər necə olur? İndi qaynana gəlnin nazın çəkir ki, evdə söz-söhbət olmasın. Yəqin dövran, zəmanə belə gətirib, nə demək olar? – Öz-özünə gileylənərdi.

Rəna da yox idi. Özümə nahar hazırlayıb yüngülvari bir şey yedim. Yenə otağıma çəkilib qapını örtdüm. Atam yəqin gəldiyimi bilmir, bilsəydi, mütləq zəng vurardı. Söz yox ki, danlaqdan başqa heç nə eşitməyəcəkdim. Artıq bunlardan heç biri məni qorxutmurdu.

* * *

Bazar ertəsi hamıdan tez işə mən getmişdim. Darvazanı açan İmran kişi müəmmalı –müəmmalı bir neçə dəfə üzümə baxsa da, bir söz soruşmadı. Salamlaşıb ikinci mərtəbədəki otağıma qalxdım. Bir neçə gün işdə olmamışdım deyə sanki darıxmışdım. Otağımda şirin duyğular, xoş xatirələrlə baş-başa qalıb sakitcə düşünə bildiyim üçün bura mənə doğma idi. Əl çantamı masanın üstünə qoyub üst geyimimi çıxartdım. Dolabın birinci gözündə balaca bir bükülü və yanında da dördqat qatlanmış kağız nəzərimi çəkdi. Fikrim dolaşıq olduğundan açmaq həvəsim də yox idi. Fikirləşdim ki, yəqin keçən həftədən nə isə unudub qoymuşam. Əl vurmadan iş masasının yanına qayıtdım. Hər şeydən öncə görülən işlər barədə Şamil Babayevə ətrafı məlumat vermək üçün hazırlaşdım. Dünən tələsik olduğuna görə bəzi məsələlər barədə izahat verməmişdim. Qələmi götürüb gördüyüm iş və nəticəsi barədə Babayevə geniş izahat yazıb dərindən nəfəs aldım. Otağıma girib-çıxan yox idi. Xeyli var idi ki, iş günü başlanmışdı. Reyhan yenə də gözə görünmürdü. Əlimi atıb düyməni basdım. İçəri uzunboy, arıq, sarı saçları qulağının dibində gödək vurulan yaşılgöz bir qız girdi. Qızı, demək olar ki, tanımırdım. Bizim şöbənin işçilərindən olsaydı, tanıyardım. Qız cansız müqəvva kimi qarşımda dayanmışdı. Yəqin çağırdığımın səbəbini öyrənmək üçün göstəriş- filan gözləyirdi.

Ondan Reyhan haqqında bir söz soruşmağa da ürək eləmirdim. Boş söz-söhbətdən yorulmuşdum. Başımı yuxarı qaldırmadan: –Bu şöbənin işçisi hanı, sən gəlmisən? Deyə bildim. Qız mənim quru, rəsmi sualımdan özünü itirən kimi oldu:

– Sizin köməkçiniz işdən çıxdığına görə bura məni göndərib-

lər, özbaşına gəlməmişəm.

Qız təlimdən gələn əsgər kimi cavab verib yenə nə göstərişim olacağını gözlədi. Mənim dinib-danışmağa iqtidarım qalmamışdı. Qələm əlimdə əsirdi. Reyhanın bu hərəkətində özümü günahkar sayıb peşiman olsam da, bir söz deyə bilmir, özümü tox tuturdum:

– Bəs mən bu haqda niyə bilməmişəm? İşdən çıxanda, işə girəndə şöbə müdiri bilməməlidir?

– Siz yox idiniz. O, çox təkid elədi. Dediyinə görə atası xəstədir. Ona qulluq lazımdır.

Bunların bəhanə olduğu mənə aydın idi. Günahım olmayaolmaya əzab çəkməyimin səbəbini özüm də anlamırdım. Reyhanın işdən getməsi məni niyə belə narahat edirdi, başa düşmürdüm. Mən onun qəlbinə toxunan bir söz deməmişdimsə də o,– Mən uşaq deyiləm, Nihad. Mənə yazığın gəlməsin deməsi mənə nə isə anlatmışdı. Onu özümün yerində hesab eləyib məyus olur, sevən bir qəlbi bilməyərəkdən qırdığıma təəssüflənirdim. Həyatda hər şey ola bilər, onun ata-anası yaşayan yerə gedib hər şeyi aydınlaşdırmaq, könlünü alıb geri qaytarmaq fikri ilə başımı qaldırıb dilləndim:

– Get, lazım olanda çağıraram.

Qız tuflisinin dabanlarını döşəməyə döyə-döyə otaqdan çıxanda özümdə bir yüngüllük hiss etdim. Otağıma dəhşətli bir yalqızlıq çökdü. Özümlə düşüncələrim, anlaşılmaz hisslərimlə təkbətək qalmaqdan qorxurmuş kimi yazdığım məlumatı götürüb çıxanda iş saatının qurtarmasına az qalırdı. Babayevlə görüşümü sabaha saxlamağa qərar verdim.

Otağıma qayıdıb könülsüz geyinmək üçün dolaba yaxınlaşdım. Yenə o bükülü kağız gözümün önündə idi. Onları götürüb masamın arxasına yazılmış keçdim. İşçilər dağılmış, əl-ayaq çəkilmişdi. Evə dönmək həvəsim də yox idi. Öncə kağızı açdım. Vərəqin lap başında: «Sevimli Nihad» sözlərindən ürəyim tir-tir əsdi. Mənə elə gəldi ki, elə indicə ürəyim dayanacaq. Mehinin səsi qulağıma gəldi. Bir-birimizi qınayırmışıq kimi baxışlarımız sanki döyüşə girdi. Ürəyim elə atlandı ki, hərflər, cümlələr getgedə gözümdə kiçilib bir nöqtə kimi itdi. Ardını oxumazdan əvvəl başımı masaya söykəyib özümə güc-qüvvə topladım. Bu möcüzəydi, ya məni qara basırdı. Necə olmuşdu ki, səhərdən bəri bu

kağıza etinasız baxmışdım. Necə ola bilib ki, bu məktub bura qoyulub. Elə bil düşünmək qabiliyyətim itmişdi. Qışqırmaq, hamını bu sevincimə şərik olmağa səsləmək istəyirdim. Özümü ələ alıb başımı qaldırdım. Qarşımdakı bağlamaya məhəl qoymadan kağızı əlimə aldım. Bir neçə misradan sonra yanıldığımı anladım. Mehinli həsrətim gözlərimi elə tutmuşdu ki, kiminsə hissini, qəlbinin tələşını duymaq qabiliyyətimi belə itirmişdim.

Sevimli Nihad!

İlk dəfə sənə adınla müraciətimə görə məni bağışla. Mən bu müraciəti özümdən uydurduğum sənin sevgilin olacağım günlərə saxladığım halda taleyin amansızlığı məni daha dərin günahlara sürüklədi. Mənim şöbədən getməyimin səbəbini də öyrənsən bu mənə daha artıq əzab verəcək. Sənə «sevimli Nihad»– deyən adamın necə nankor olduğunu, səni qat-qat ağır iztirablara saldığını öyrənib mənə nifrət edəcəksən. Mən uzaqdan-uzağa, səndən xəbərsiz səni həmişə sevmişəm. Ailən, uşaqların ola-ola qəlbimin istəyinə, ürəyimin fəryadına cavab almadan sevmişəm, Nihad! Mən günahkar gözlərimlə üzünə baxmağa cəsarət eləyə bilməyəcəyimi düşünüb bu addımı atdım. O şəkli də siyirməndən mən götürmüşdüm. Bir vaxt mənim hisslərimə cavab verəcəyini düşünürdüm. Həyatında mənim məhəbbətimdən də müqəddəs duyğulu bir adamın olduğunu, sənin laqeydliyini düşünüb cavabsız bir eşqi öldürmək, sənin xoşbəxtliyinə mane olmamaq üçün səndən uzaqlaşmaq istədim. Sənin iztirablarını görmək mənə ağır idi. Bu iztirabların belə uzanmasında mən də günahkar idim. Qarşılıqlı olmayan bir məhəbbətdən pay ummağın özü bir ağılsızlıq deyilmi, Nihad? Mən bu ağılsızlığı eləmişdim, ürəklə bacarmaq mümkün deyil. O, kimi və necə seçməyi o vaxt sənə xəbər verir ki, sən gecələr yuxunu, gündüzlər dincliyini itirirsən. Məhəbbət səni gah qanadlarına alıb göylərə qaldırır, gah da ümidsiz bir uçuruma yuvarlandırır mənim kimi. Mən ürəyimdə nə varsa, bu məktubumla sonuncu dəfə etiraf edib vidalaşıram. Sənə deyə bilmədiklərimi etiraf edərkən özümü nə qədər xoşbəxt sandığım, bəlkə də, inanmayacaqsan. Sənin yerinə mən də olsaydım inanmazdım. Sənə elədiyim bu etiraf könlümün yeganə təsəllisi olacaq. Xoşbəxt və bədbəxt olacağımdan asılı olmayaraq səni həmişə sevəcəyəm. Bədbəxt olaramsa, bu məhəbbət bir az da artacaq.

Elədiyim günahları, bəlkə də, bağışlamayacaqsınız. Buna hər ikinizin haqqı var. Mən Mehinin qarşısında ikiqat günahkaram. Ona elədiklərim üçün heç vaxt özümü bağışlamayacağam. O qızın sənə olan tükənməz məhəbbəti qarşısında mən sındım, əyildim, Nihad. Məhəbbət qədər insanı heç bir qüvvə sındıra, əyə bilməz.

Mən Mehini bu yoldan çəkindirmək əvəzinə, özüm bu uğursuz məhəbbətdən qaçıb uzaqlaşmağa qərar verdim.

Açıq etiraf eləyəcəyəm. Əvvəllər arvadın Rənanın tapşırıqlarını yerinə yetirirdimsə, sonralar özüm məhədbbət kimi sağalmaz bir xəstəliyə yoluxdum. Mehin cəbhəyə gedəndən sonra bu məktubları sənə çatdırmaqla bir az yüngülləşəcəyimi güman elədim. Mən sizin yolunuzdan çəkilmək üçün işdən də gedirəm, özümə verəcəyim cəza hər şeydən ağır olacaq, Nihad. Məni başa düşəcəyinə, zərrə qədər bağışlayacağına ümid edirəm. İnan ki, bütün bunları səni sevdiyim üçün eləmişəm. Başqasına məxsus olanı özümünkü hesab eləyib neçə illər ümidlə yaşamışam. Məndən xeyli kiçik olan bir qızın məhəbbəti məni məğlub elədi, Nihad. Bəlkə də siz məni nə vaxtsa bağışlayarsınız, bilmirəm. Tanrı bağışlayarmı?»

Reyhan

– Gözlərimə qaranlıq çökmüşdü. Son cümlələri birtəhər oxuyub səsiz-səmirsiz başımı qollarımın üstünə qoyub xeyli beləcə qaldım. Bağlamanı açmağa kirdarım çatmırdı. Öz ağrılarım az imiş kimi Reyhanın da uğursuz məhəbbəti, vətən, torpaq həsrətinin üstünə ikinci, mən deyərdim ki, sağalmaz bir dərd qoyub çəkdiyi ağrılar məni sarsıtmışdı. Nə edəcəyimi özüm də bilmirdim. Axı belə iztirabın ağırlığını özüm çəkib görmüşdüm? Bağlamada bir yığın məktub var idi. O məktubların Mehindən olduğuna şübhəm yox idi. Necə olmuşdu ki, bu məktublar onun əlinə düşmüşdü? Məktubların hansı tarixdə yazıldığından xəbərim yox idi. Elə bil əl uzadıb birini açmağa qorxurdum. Düşünürdüm ki, məktubu açan kimi ordan Mehinin qınayıcı baxışları mənə zillənəcək, vəfasızlıqdan, dönüklükdən söz açıb məni məzəmmətləyəcək, əzəlki cəsarətsizliyim yenə baş qaldıracaq, özümün haqlı ya haqsız olduğumu deməyə bir söz tap-

mayacam. Sonra düşdüyüm dəbdəbəli həyatda bir gün də olsun ürəyimcə yaşaya bilmədiyimi, belə həyatın mənə nə qədər üzücü və adi, dözülməz və yorucu olduğunu, öz ömrümü yaşaya bilmədiyimi izah edib inandıra bilməyəcəmmi? Rəna ilə bir yerdə ruhu bir-birinə yad adamlar kimi uşaqların xatirinə yaşadığımı, onu bir gün də olsun axtarmadığımı necə təhlil edib inandıracam? Mehinlə söhbət edirmiş kimi başımı qaldırdım. Qarşımda heç kəs yox idi. Məni qara basırdı, nədi? Bəlkə də, dəli oluram deyə ayağa qalxmaq, otaqdan çıxmaq istədim. Mehinin məzəmmət dolu baxışlarını üzümdə hiss edib təkrar stula oturdum. Bağlamadakı məktublardan birini götürüb açdım. Əllərim əsə-əsə oxudum.

12 dekabr, 1993-cü il

Sevgili Nihadım!

Bu məktubumda yazdığım ürək sözlərimi, könül çırpıntılarımı kimə açacağımı, kimə etibar edəcəyimi çox düşündüm. Mənim çəkdiyim ağrıların heç kəsə lazım olmadığını fikirləşib nə vaxtsa oxuyub anlaya biləcəyini nəzərdə tutaraq məktublarımı sənə ünvanladım. Sənin tapdığın yeni səadətinə mane olmamaq üçün bunları gizli saxlayacağıma, heç kəsin ürəyimin duyğularına yaxın gələ bilməyəcəyinə söz verdim, and içdim. Yazdıqlarımı bir neçə dəfə cırıb atmaq istədim, ürəyim gəlmədi. Məktub yazmağı, həm də sənə yazmağı özümə bir əyləncə, təsikinlik bilib təzədən yazdım. Ona görə ki, həyatımın bir gününü, hətta bircə saatını belə sənsiz yaşaya bilmədiyimi hiss eləiyrdim. Yazdıqlarımı dönə-dönə oxuyur, sənlə danışır, sənlə məsləhətləşir, sanki gün keçirirdim. Bu da belə bir «səadət» idi ki, mənə qismət olmuşdu.

Sənlə son görüşümüzdən sonra mən çox uzağa getməmişdim. Yaxındakı yoğun cökə ağacına qısılıb ağlayır, səsimi eşidəcəyindən ehtiyatlanıb ağzımı əl dəsmalımla bərk-bərk bağlamışdım. Addımlarının axırıncı səsini eşitmək məqsədilə səndən çox uzağa getmək istəmirdim. O gecə həyatımın ən ağır, ən əzablı anları idi, Nihad. Sən gedəndən sonra şəkil çəkdirdiyimiz oturacağın yanına qayıtdım. Bir neçə dəfə oturacağın dörd tərəfinə fırlandım. Mənə elə gəldi ki, nəfəsinin hərarəti, oturacağın kənarından tutduğun əlinin istisi hələ də orda qorunub saxlanır. Halım özümdə deyildi. Dəhşətli bir xəstəliyə tutulduğunu təzəcə

eşidən xəstə adam kimi gözlərim alacalanmış, ürəyim çırpınıb az qala yerindən çıxmaq istəyirdi.

Yox, yanılırdım, nə sən var idin, nə də ətrafda başqa bir canlı məxluq. Oturacağa çökdüm. Göz yaşlarım özümə gəlməyə imkan vermirdi. Vaxt keçir, anamın nigarançılığı da yadıma düşmürdü. Bir anlığa başımdan keçən dəhşətli bir fikirdən yerimdən sıçradım. «Dənizin lap qırağına gəlib məhəccərə söykəndim. Dənizkənarı parkda adam seyrəlmişdi. Demək olar ki, heç kəs yox idi. Təkəmseyrək oturacaqlarda oturan sevgililər gözə dəyirdi. Dənizdən əsən soyuq qış küləyi üzümə dəyir, canıma, qanıma işləyən sazaq məni buradan uzaqlaşdıra bilmirdi. Uzaqlaşmaqda olan bir qayıq nəzərimi çəkdi. Sahildən aralandıqca mənə elə gəldi ki, o qayıq səni də özü ilə uzaq, naməlum bir adaya aparır, bir daha səni görməyəcəyəm. Ayağımı soyuq dəmir məhəccərin ikinci pilləsinə qoyub irəli əyildim: –Nihad, qayıt, məni də özünlə apar! – Deyə qışqırdım. Arxadan qüvvətli bir əl məni tutub geri dartdı. Ortamdan yapışıb yerə qoydu.

– Siz nə edirsiniz, bacı? Bü gözəlliyə də adam qəsd eləyərmi? Özünə qəsd etmək böyük günahdı. Hələ yaşamalı günləriniz irəlidədir. Ancaq acizlər, qorxaqlar özünə qəsd eləyə bilər. Həll eləyə bilmədiyin bir məsələ varsa, de, bəlkə, bir köməyim dəyər?

Bu tanımadığım adamın əllərini belimdən açıb, bir az geri çəkildim. Özümə gələ bilmirdim. Soyuqdanmı, həyəcandanmı tir-tir əsirdim. Dayanıb mat-mat üzünə baxırdım. Ona acığım tutsa da, minnətdarlığımı bildirib uzaqlaşdım. Bir neçə addım getməmiş səndərləyib xəstə adamlar kimi yerə çökdüm. Qışın soyuğunda alnım, üzüm od içində yanırdı. Hava tutqun olduğundan onun üzünü görə bilmirdim. O, mənə təkrar yaxınlaşıb yerdən qaldırdı. Nisbətən işığa çıxmışdıq. Onun 25-30 yaşlı bir gənc olduğunu və azca axsadığını gördüm. Oğlan Neftçilər prospektinə çıxana qədər qolumu buraxmadı. Mən də etiraz eləmədim. Bilirəm ki, bu sətirləri oxuyarkən acıqlanacaq, qısqanacaqsan. Mənim o gecə belə köməyə ehtiyacım var idi, Nihad. Sən adicə etik qaydaları unudub məni evimizə qədər ötürməyə də cəhd eləmədin. Mənim sevdiyim, xəyali ilə yatıb-durduğum Nihad beləymiş demək? Yox, səni tənqid eləmirəm. Mən səni bütün nöqsanlarınla birlikdə sevirdim. O gecə canımdan canım ayrıl-

mışdı desəm, bəlkə, sənə olan sevgimi şişirdilmiş sayarsan. Hər halda bu beləydi.

Onun kimliyini, adını belə öyrənməyə cəhd eləmirdim. Evimizə çatıb otağımda doyunca ağlamaq istəyirdim. Taksinin içində insan canını bir qədər isidən bir istilik var idi. Oğlan təzədən mənə tərəf dönüb mülayim bir səslə:

– Maşını hara sürsün, bacı? Heç adını da soruşmadım. Mənim adım Qüdrətdir. Özüm də cəbhəçiyəm, – dedi. Yaralandığım üçün xeyli var xəstəxanada yatırdım. İndi şükürlər olsun, deyəsən üzü bəriyəm. Bu etibarsız ayağım bir qədər üzüdönüklük eləyir. Bir neçə gündən sonra yenə döyüş yerinə qayıdacam. Öz torpağımızda dinc yaşamağa qoymurlar da, bu zatıqırıq ermənilər. Bir şeyi unudurlar ki, biz türklər də asan udulan tikə deyilik. Heç bir havadara da arxalanmırıq. Deyirlər ki, köpəklər qorxudan ulduzlara da hürürlər. Onların ki dişlərinə döymədin, donuz kimi geri çəkilməzlər. İlan ulduz görəndə ölər deyirlər. Əvvəl bir az çaşqınlığımız onları ürəkləndirdi. İndi hər qarış torpaq uğrunda can qoyan oğulları görüb bu xalqın ruhuna bələd oldular. Gördülər ki, heç bir qorxu-hürkü bu xalqın ruhunu sındıra bilməz.

Sürücünün də yaralı yerinə toxunduğu üçün o da oğlana qoşulub yana-yana danışırdılar.

Bu dilli-dilavər, açıqürəkli, mehriban oğlana qanım qaynadı. Bir az özümə gəlmişdim. Daha ağlamırdım. Ünvanımı yavaşca sürücüyə pıçıldadım. Oğlan eşidər-eşitməz dilləndi:

–Biz elə qonşuymuşuq ki…

Biz «20 Yanvar» dairəsindən keçib mikrorayon tərəfə burulanda sürücü qəflətən dilləndi:

– Xoşbəxt olasınız, qardaş, gözəl nişanlın var.

Mənim qızardığımı elə bildim hər ikisi gördü. Tini burulub maşın xırıltı ilə dayandı. Qüdrət sürücünün haqqını verib məni ta evimizin qabağına qədər ötürdü. Qoltuq cibindən çıxardığı əl boyda kağızı mənə uzatdı.

–Burada telefonum və ünvanım var. Mənim köməyimə ehtiyacınız olsa, sevinərəm, – dedi.

Ayrılarkən təşəkkürümü bildirib adım Mehindi dedim. O, nə düşündüsə, geri döndü:

– Allahın bizə verdiyi bu həyatı ancaq şikayətlə, göz yaşı ilə

başa vurmaq ağılsızlıqdır. Biz təkcə göz yaşı üçün dünyaya gəlməmişik. Həm də istədiyimiz bizə hazır verilmir, Mehin. Mən səndən intiharın səbəbini soruşmadım. Buna haqqım da yoxdur. Həyatda elə prinsiplər, elə amallar var ki, insanın şəxsi arzusundan, xoşbəxtliyindən, bədbəxtliyindən daha yüksəkdə durur. Səni bu gün mənasız, bədnam ölümə sürükləyən nə isə sənə dediklərimi ayaqlayıb keçir. Bunu unutma,- deyib əlini yellədi.

O gedədən sonra xeyli özümə gələ bilmədim. Durduğum yerdən xeyli tərpənmədim. İkinci mərtəbəyə – evimizə qalxmağa həvəsim gəlmirdi. Həm də görkəmimə baxıb anam həqiqəti öyrənməyincə əl çəkməyəcəkdi. Bir şey fikirləşib tapmalı idim.

Qapını üzümə anam yox, qapıbir qonşumuz Fazil kişinin qızı Şərqiyə açdı:

– Bıy…, ay qız, adamı nə qədər gözləyərlər. Bu soyuqda evə yığışmaq istəmirsən? Özünə yazığın gəlmir, barı xəstə ananı düşün. Bayaqdan qalıb pəncərənin qabağında.

Anam Şərqiyənin yerli-yersiz sözlərinə vərdiş eləmişdi. Mənim ondan zəhləm getdiyini də bilirdi.

– Mehinin vacib işi olmasa belə nigarançılığa yol verməz, Şərqiyə. Qoy uşaq bir soyunsun. Sonra sorğu-sual edərik. Mən səssizcə anamın alnından öpüb otağıma keçmək istəyirdim ki, Şərqiyə təkrar dilləndi:

– Heç soruşmadın ki, gecənin bu vaxtı səni gözləməyimə nə səbəb var?

– Nə səbəb var? – Deyə mən də eyni tonda soruşdum.

– Sabah atamı dostu oğlunun toyuna dəvət edib, məni də aparacaq. Elə sən deyən təzə paltarım yoxdur. Sənin o mavi rəngli paltarını istəyirəm, Mehin. Bilirsən, hər məclisin, hər toyun öz səviyyəsində geyinmək gərəkdir.

– Sənin paltarlarına nə gəlib ki? Gündə birin geyirsən…

– Yox da, camaatın mənim əynimdə görmədiyi təzə bir şey olsun. Atam deyir bütün vəzifəli şəxslər orda olacaq. Mənsurov balaca adam deyil ki, ora hər yetəni dəvət eləsin. Gör atama necə hörmət edir ki, oğlunun şad gününə çağırır. Anama yalvarmışam ki, qoy sənin yerinə mən gedim. Deyirlər, «Ay işığı» şadlıq sarayında olacaq toy. Ora ən tanınmış müğənnilər, rəqqasələr dəvət olunub. Hətta Məleykə xala, Moskvadan rus artistləri də

gələcəklər, nə deyim vallah, varlığa nə darlıq.

Mən paltarı əsə-əsə Şərqiyyəyə uzadanda halım çox dəyişmişdi. Bu sənin ən çox sevdiyin paltar idi, Nihad. Rəngim saralmış, ayaq üstə güclə dayanırdım. Mənim halımı anam da sezmişdi. Şərqiyə çıxan kimi öz otağıma keçib səhərə qədər ağladım.

13 dekabr:

Yorğunluqdan, ruhi sarsıntıdan sonra necə yuxuya getdiyimdən xəbərim olmamışdı deyə yuxudan gec oyanmışdım. Anam artıq işə getmişdi. Buna çox sevindim. İndi təklikdə düşünmək, fikrimi götür-qoy eləmək üçün əlimə fürsət düşmüşdü. Tək qaldığıma sevinirdim. Könülsüz-könülsüz radionun düyməsini basdım. Müğənni ürəkləri titrədən bir avazla «Ay işığında» mahnısını oxuyurdu. İlahi, bu bir möcüzə idimi, ya təsadüf, aydınlaşdıra bilmirdim:

Mən səni gördüm, ay işığında,
Könlümü verdim, ay işığında.
Tez gəldi hicran, ayrıldıq aman,
Ay işığında, ay işığında…

Müğənni elə bil qəsdən yaralarımı qanadıb, üstünə sanki duz tökürdü. Radionu söndürüb otağıma qaçdım. Səni bəy paltarında, əlində gül dəstəsi başqa birinin qoluna girmiş təsəvvür edəndə, axşamkı dəliliyimi təkrar eləmək istədim. Evdə heç kəs yox idi. Buna elə şərait də var idi. Ürəyim quş kimi çırpınır, havam çatmırdı. Üzü üstə çarpayıya düşdüm.

Yadıma Qubadan gəzintidən qayıdandan sonra sənin dilindən yazdığım şeirim düşdü, Nihad. Sən o şeiri çox sevərdin…

… Mən səni dağların zirvə taxtında,
Çayın coşub-daşan köksündə gördüm.
Mən səni gəncliyin qaynar vaxtında
Güllərlə gözəllik bəhsində gördüm.

Mən səni ulduz, ay işığının
Səssiz sevgisinin gözündə gördüm.

Səni təbiətin qız yaraşığının
Həyat tək çağlayan özündə gördüm…

Günortadan keçənə qədər beləcə qaldım. Qüdrətin son sözlərini xatırladım: « Elə prinsiplər, amallar var ki, insanın şəxsi xoşbəxtliyindən yüksəkdə dayanır». Qüdrət məni ikinci dəfə idi ki, xilas edirdi. Nihad, səni əbədiyyətə qədər gözləməyə hazır olan Mehinin halını gözlərinlə görə biləydin kaş. Yerimdən qalxıb yazı masamın arxasına keçdim. Sənə heç vaxt deyə bilməyəcəyim ürək sözlərimi, könül çırpıntılarımı kağıza tökməklə sakitləşirdim.

Toyunuzun başlanmasına az qalırdı. Sənin ən çox sevdiyin paltarlarımdan birini geydim. «Ay işığı» şadlıq sarayının həyətində ağacların arasında dalda bir yer seçib dayandım. Toyuna gəlmişdim, Nihad. Heç bir dəvətsiz-filansız səni gendən görmək xatirinə. Ürəyim məni çəkib gətirmişdi. Bəy-gəlin maşını həyətə girəndə sinəmdən heç kəsin eşidib duya bilmədiyi bir haray qopdu. Bu əbədi həsrətimin dilsiz harayı, fəryadı idi. Hicran bu axşam «Ay işığı»nda bizi əbədi ayırırdı. Şəkil çəkənlər yer-yerdən Nihad bəy gülün, xahiş edirəm dedikcə sən daş heykəl kimi donub qalmışdın. Xoşbəxtlikdən qanadsız uçmağa hazır olan yanındakının gülə-gülə başını çiyninə qoymasına da əhəmiyyət vermirdin. Nəhayət, anan bütün zabitəsi ilə üstünə qışqırdı. Sən çarəsiz qalıb azca gülümsədin. Axı bu günü biz belə arzulamamışdıq, Nihad.

Öz-özümüzü aldadıb planlar qurur, bəy, gəlin paltarı da seçirdik. İnsana həyatda bircə dəfə qismət olan bu xoşbəxt anları öz ürəyimizcə yaşamağı arzulayırdıq, Nihad. Mən ayaq üstə dayana bilmirdim. Titrəyə-titrəyə sənə doğru bir addım atmışdım ki, arxadan kimsə məni dartıb ağaclığa çəkdi. Bu sənin anan idi, Nihad.

– Nə qədər gec deyil buradan çıx- get. Dadaş bilsə, sənə çox pis olacaq. Oğlumun xoşbəxt günündə qanıqaralıq salma! – Dedi.

Nə vaxt bayıldığımdan xəbərim olmayıb. Gözümü açanda özümü xəstəxananın çarpayısında gördüm. Anam yanımda oturub ağlayır, Şərqiyə sual dolu gözlərini üzümə zilləyib lal-dinməz

baxırdı. Danışdı ki, toya gələndə həyətdə kiminsə halı pisdir dediyini eşidib ora qaçıb. Məni görüb atasına xəbər verib. Onlar təcili yardım çağırıb məni bura gətirirlər. Mən özümə gəlsəm də, elə bil nə görür, nə eşidirdim. Toy evinə necə getdiyimi də ağlıma sığışdıra bilmirdim. Dörd tərəfdən mənə suallar yağdırır, nə baş verdiyini öyrənmək istəyirdilər. Təkcə anam dinib-danışmır, elə hey ağlayırdı. Mənim qulağımda yalnız və yalnız «Vağzalı» havasının səsindən başqa heç nə yox idi. Xəstəxana otağının divarları da «Vağzalı» çalırdı. Anamın xatirinə mən bu havanın təsirindən çıxıb ayılmaq istəyirdim. Lakin bu mümkün idimi? Özümdən lap zəhləm gedirdi. Qulaqlarımı əllərimlə tutub bu səsdən azad olmağa çalışırdım. Mənə nə olmuşdu, İlahi? Dəli olurdum, deyəsən. Yorğanı başıma çəkib xeyli beləcə qaldım. Anam aramsız ağlayır, bir söz də demirdi.

Başımı qaldırıb anamı öpdüm. Onun ciddi xəstə olduğunu bilirdim. Yenə başım daş kimi yastığa düşdü. Əlində iynə-dərman otağa girən tibb bacısının mənə yaxınlaşmasına imkan vermədim. Nə varsa, vurub dağıtdım. Səsə gələn həkim hamını çölə çıxardıb mənimlə ürək söhbəti eləmək istədi, qulaq asmadım. Evə getmək istədiyimi bildirdim. Anam güclü iradə sahibi kimi məni, deyəsən, başa düşmüşdü deyə o da mənim istəyimin üstə israr edirdi. Bütün bu illər-aylar ərzində ürəyimi açıb anamla açıq danışmağa cəsarət eləmədiyimə peşiman idim. Günahkarcasına onun boynuna sarıldım. Ana-bala xeyli ağladıq.

Həkim mənim ağır ruhu sarsıntı keçirdiyimi bildirib anama xeyli məsləhətlər verdi. Biz anamla yır-yığış elədiyimiz vaxt Reyhan özünü mən yatan otağa saldı. O, atam tərəfdən bizə qohum idi. İnstitutda oxuyanda bizə tez-tez gələr, hətta bir-iki gün qalardı da. Mən ona çox isti münasibət bəsləməzdim. Anam, atamın qəlbinə dəyər deyə məni məzəmmətləyərdi. İnstitutu qurtarıb işləməyə başlayanda atam artıq həyatda yox idi. Odur ki, onun da gəlib-getməsi seyrəlmişdi. Demək olar ki, son vaxtlar heç görüşmürdük. Biz iki ana-balanın varlığını qohumlarımızın çoxu unutmuşdu – deyə giley də eləmirdik. Çünki erməni-rus birləşmiş dəstələri Qarabağı və ətraf yeddi rayonu işğal etmişdi. Bir milyona yaxın soydaşımız öz əzəli torpaqlarından qaçqın düşmüşdülər. Bu bizim hamımızın ümumi dərdi idi.

İndi giley-güzardan çox ev-eşiklərindən didərgin salınanların özlərinə qayğı lazım idi. Reyhanın qardaşının həlak olduğunu eşitmişdik. Anam bir neçə dəfə sifariş göndərib ata-anasını evə dəvət eləmişdisə də, qəbul eləməmişdilər. Anası ev içində ev olmaz demişdi. İndi Reyhanın birdən-birə peyda olması məndə bir az təəccüb doğurdu.

Demə, sənինlə bir nazirlikdə işləyən Reyhan da toyda imiş. Toya bir az gec gəldiyinə görə heç nə eşitməyib. Vaxtsız olduğu üçün evinə gedə bilməyib bizdə gecələmək üçün gəlib. Evimiz şadlıq sarayına yaxın olduğuna görə bizdə gecələmək, həm də çoxdan baş çəkmədiyi anamın könlünü almaq istəyib. Qonşudan başıma gələn əhvalatı və xəstəxananın yerrini öyrənən Reyhan səhərin gözü açılmamış bura qaçıb. Gəlişindən xoşhal olmasam da, özümü ələ alıb məmnunluqla gülümsədim. Açığını desəm, bu halımda heç kəsi görmək istəmirdim. Qəlbimdəki anlaşılmaz nisgilimlə təkbətək qalmaq, hər şeyi götür-qoy eləyib aydınlaşdırmaq istəyirdim. Kimnənsə başqa bir mövzuda danışmaq durumunda deyildim. İztirablı həyatımın xatirələrini ruhumda yaşada-yaşada dərdlərimlə bir səssizliyə çəkilməyi hər şeydən üstün tuturdum. Xoşbəxtlikdən Reyhan bizi evə qədər ötürüb geri qayıtdı. Sabah istirahət günü olduğu üçün ata-anasına baş çəkəcəyini, vaxt tapıb yenə gələcəyini dedi., rahat nəəs aldım.

Neçə vaxt idi ki, universitetə də getmirdim. Həyata, yaşamağa, insanlara qarşı marağım, həvəsim tumam ölmüşdü. Reyhan gedəndən sonra anam əllərimdən tutub məni qarşısında oturtdu. Göz yaşlarını tökə-tökə dilləndi:

– Qızım, mənim bircə dənəm, anadan başqa ən yaxın ürək ovudan, dərd kiridən kim ola bilər? Bu addımı atanda heç məni düşünmədin? Bir damın altında yaşaya-yaşaya dərdlərini anandan gizli saxlamısan. Bəlkə mən sənə bir məsələhət verə bilərdim? İndi sənin anan, həm də atan mənəm axı, qızım.

Anamın solğun, xəstə görkəmindən ürəyim ağırdı. Ona yazığım gəldi. Əhvalatı əzəldən axıra qədər ona danışdım. Hətta Qüdrət adlı bir oğlanın mənə olan qayğısını da gizlətmədim. Anam ara vermədən ağlayır, başımı sinəsinə sıxıb mənə diqqətlə qulaq asır, saçlarımı sığallayırdı. Heç özüm də bilmirəm bunları sənə nə üçün yazıram. Bəlkə də bu məktubların heç vaxt sənə

çata bilməyəcəyini nəzərdə tutub, ürəyimi boşaldıram Nihad? Reyhan bizə tez-tez gəlir, sizin toy şəkillərinizi gətirirdi. Ona elə gəlirdi ki, bununla məni ovudub sakitləşdirə bilər. Onun heç nədən xəbəri yox idi. Əslində hər dəfə toyun dəbdəbəsindən, bəylə gəlinin bir-birinə necə yaraşdığından, onların şərəfinə deyilən sağlıqlardan, tökülən pullardan danışdıqca halım daha da pisləşir, anam az qala onu evdən qovmaq istəyirdi.

Gündüzləri birtəhər başa vurub gecələri son dəfə çəkdirdiyimiz şəkillə keçirirdim. Başa düşürdüm ki, sənə doğru can atdığım arzuma qarşı durmaq mənə çətin olacaq. Bu şəkli cırıb atmaq, məktubları da yandırmaq, səni xatırladan hər nəyə son qoymaq istədim, bacarmadım. Əbədiyyətə qədər məhəbbətinə sadiq qalacağıma and içdiyim bir insanın üstündən belə asanlıqla qələm çəkə bilmirdim. Əbədiyyət… Bu sözdə nə qədər ağır nisgil, həsrət, könül çırpıntıları, bir sözlə sonsuzluq səslənirdi. Hələ nə yaşamışdıq ki, sonsuzluqdan danışırdıq. Eyni hissləri sonsuzluğa qədər saxlamaq mümkündürmü? Axı həyatın özü kimi insan da, onun arzusu, hissi, duyğusu da dəyişir. Dəyişməyən bir şey varmı? Öz-özümə sual verirdim. Var, məhəbbət dəyişmir. Çünki həyatın özü də məhəbbətdən yaranıb. Mənim fikrimcə gündə bir dona girən, müxtəlif qapıları döyən sevgi həqiqi məhəbbət deyil.

20 dekabr:

Dərsə davamiyyətim pis olduğu üçün dekanlıqdan anamın iş yerinə xəbərdarlıq göndərmişdilər. Anamın qanı çox qara idi. Özümü günahkar hesab elədiyim üçün əhvalıma gümrahlıq verib heç nə olmayıbmış kimi xörək qızdırıb çay dəmləməklə özümü məşğul göstərdim. Son vaxtlar anamın ürək tutmaları tez-tez baş verir, məni çox narahat eləyirdi. Mənim ondan və Nihadın xəyalından qeyri heç kimim yox idi.

Artıq son kursda oxuyurdum. Dərslərimiz ikinci növbədə idi. Anam görsün deyə çantamı hazırlayıb kitab-dəftərimi yığışdırdım. Onun əhvalı xeyli durulmuşdu. Hətta dalımca su da atdı. Bu məni bir az toxtatsa da, özümdə deyildim. Universitetə getmək əvəzinə Azneft dairəsinə gedən avtobusların birinə mindim. Şəhidlər xiyabanına çatmamış avtobusdan düşdüm. Sənin iş yerin, bir az da yuxarı getsəm, eviniz görünürdü. Hara gedəcəyimi,

bura niyə gəldiyimi də kəsdirə bilmirdim. Elə yerdə durmalı idim ki, sən keçəndə heç olmasa, görə bilim. Soyuq məni qılınc kimi kəsirdi. Tələsdiyimdən isti geyinməmişdim. Ayın birdəfəlik batmağı, günəşin çıxmamağı nə qədər qeyri-mümkündürsə, Nihadı görməyim də bir elə mümkünsüz idi.

Reyhan nədənsə bizə tez-tez gəlir, yerli-yersiz sənin işlərindən danışır, ailənə, arvadına çox bağlı olduğunu vurğulayırdı. Dünən sözarası ezamiyyətdə olduğunu demişdi. Bu məni dəlicəsinə əsəbləşdirirdi. Onun səndən bu qədər çox danışmağını heç yerə yoza bilmirdim. Mən öz duyğularım haqda axı ona bir kəlmə də deməmişdim. O, yaşca məndən xeyli böyük idi. Hər dəfə ərə getməkdən söz düşəndə –«Öz ürəyimcə olan adamı tapanda ərə gedəcəm, ya qismət» – deyirdi.

Anam:

– Ay bala, qızın da bir ərə getmək vaxtı var. Sonalaya-sonalaya ya halvaçıya, ya zurnaçıya gedər. Mehini universiteti bitirən kimi ərə verəcəm. Heç olmasa, bircə nəvə versin mənə. Xəstə adamam, dünyanın işini nə bilmək olar?

Dodağım azacıq qaçdı:

– Ərə getmək də plan üzrədi, ana? – Deyə zarafatla anamı qucaqladım. –Deyəsən məndən bezmisən, ana?

–Yox, qızım, mən elə demədim. Bilirsən, hər yaş dövrünün öz arzusu, istəyi var. O arzu, istəklər rəngbərəng olur. Gəncliyin özünəməxsus sevgi-xəyal dolu dünyası olduğu kimi ahıllığın da şirin-şəkər nəvəli bir aləmi var. İnsan ki, öz kamını ürəyincə alırsa, görmək istədiyini görürsə, demək yaşamağı mənalıdır.

Öz-özümə:

–Bəli, ana, ürəyincə kam almaq şirindir, amma bu səadət hər kəsə qismət olurmu? Niyə bəziləri yoğurmadan-yapmadan hazırını tapır, bəzilərinin də qisməti daşdan çıxır? Tanrı böyükdür, ədalətlidir, haqqı nahaqqa verməyəndirsə, bəs nədən ədalət prinsipini özü pozur? Təmiz, ilahi sevgi Tanrıdan gəlirsə, onda sevməyimdədirmi mənim günahım? Sevmək qəbahət deyilsə, bu qədər əzabı mənə niyə verir?

Mən səni heç bir əzabdan, təqibdən, təhqirdən çəkinmədən sevdim. Aramızda olan rütbə, mənsəb, dəbdəbəli həyat fərqi olaola sevirdim. Nə üçün, özüm də bilmirdim? Bir onu başa düşür-

düm ki, bu sevgi zəhər kimi qanıma, canıma hopub. Onu asanlıqla çıxarmaq qeyri-mümkündür. Əvvəllər bu sevginin şirinliyindən sərxoş adamlar kimi məst olmuşdum. Axı sevgi, məhəbbət haqda nə bilirdim? Saxta, xudbin, kübar düşüncə tərzi şüuruma yol tapmamışdı. Nihadla aramızda divar kimi duran fərqi görməmişdim. On səkkiz yaşlı sadə, təcrübəsiz bir qız billur kimi şəffaf bir qəlblə sevməkdən qeyri nə görə bilərdi? Ayrı-ayrı mühitlərin adamı olduğumuzun fərqinə varmamışdım. Mənim fikrimcə məhəbbət mühitdə olan bütün sədlərdən, qadağalardan, cəmiyyətdəki təbəqə fərqindən üstün olmalıdır. Düşündüklərimi dilimə gətirib anamı peşiman eləmək istəmirdim. Sadəcə anamı qucaqlayıb qayğılı üzündən, vaxtsız ağaran saçlarından öpərdim.

«Şəhidlər Xiyabanı»na doğru uzanan dəmir məhəccər, vətənimizin adlı-sanlı elm, mədəniyyət xadimlərinin sənətkar və dövlət işçilərinin əbədi dünyasını bizdən ayırırdı.

Bu məzarlığın tarixi çox-çox əvvəllərə aid olsa da, 1990-cı il Yanvar qırğınında özünü təmənnasız qurban verən oğullarımızın, qızlarımızın uyuduğu «Şəhidlər Xiyabanı» bir neçə il idi ki, salınmışdı. Qarabağda erməni-rus təcavüzünə qarşı çıxıb qəhrəmanlıqla həlak olanların da bəziləri bu məzarlıqda əbədiyyətə qovuşmuşdular. Hər il bu məhəccərin boyunca xiyabana axan əli qırmızı qərənfilli insan selinin içində mən də axıra qədər gedib şəhidlərimizə ehtiramımı bildirərdim.

İndi bu dəmir barmaqlıqlara söykənib, daş heykəl kimi baxır, axşama yaxın geri qayıdırdım. Onu görmək ümidi məni hər gün çəkib bura gətirir, dərs qurtarandan sonra evə qayıdırdım. Ümidimi itirmirdim. Bəlkə, onu bir də görmək, qara qıvrım saçlarını qarışdırmaq mənə qismət olmayacaq fikri ilə soyuğa, qara baxmadan gah nazirliyin yaxınlığında, gah da evinizə yaxın dalda bir yerdə saatlarla durub gözləyirdim. Reyhan doğru demişdi, əgər sən işdə olsaydın, bir dəfə heç olmazsa görünərdin. Ayaqlarım bədənimi saxlamırdı. Soyuqdan əllərim, üzüm, dodaqlarım gömgöy olmuşdu. Bir dəfə də gənc bir leytinant mənə yaxınlaşdı.

– Bizimlə gedək, xanım qız, – deyəndə təəccüblə üzünə baxdım. Heç bir etiraz eləmədim. Onunla getmək üçün hazırlaşırdım ki, ötkəm bir səs məni dayandırdı. Qolumdan tutub özünə sarı çəkdi.

– Bu qız sizin düşündüyünüz adam deyil. O mənim yolumu gözləyir. Bax, bu da mən. Gülə-gülə qarşımda dayandı.

Bu, Qüdrət idi. Donub qalmışdım. Nə edəcəyimi özüm də bilmirdim. Sən demə, bir neçə gün dalbadal burda durmağım nazirliyin mühafizəçilərini şübhəyə çalıbmış. Kimliyimi araşdırmaq istəyiblər. Qüdrət qoltuq cibindən bir vəsiqə çıxardıb nəzarətçiyə göstərdi. Nəzarətçi ayaqlarını cütləyib əlini qulağının dibinə aparanda, Qüdrət qolumdan tutub məni maşına sarı çəkdi.

– Nə gözəl təsadüf, – deyə gülümsədi.

Mən bunun təsadüf olduğuna inanmadım. O, məndən heç nə soruşmadı. Müəmmalı-müəmmalı üzümə baxıb susdu. Evə qədər heç birimiz danışmadıq. Bir həftədən sonra qayıdacağını deyib aralandı.

Yenə ümidsiz adamlar kimi addımlarımı atır, tez-tez dayanırdım. İki mərtəbə qalxmaq bir il kimi görünürdü mənə. Soyuqdan dilim söz tutmur, tir-tir əsirdim. Qüdrətin çağrılmamış qonaq kimi gəlib çıxmağı heç məni açmırdı. O, başıma gələnlərdən xəbərsiz idi. Necə olmuşdu ki, məni orda görmüşdü? Dediyinə görə nazirlikdə vacib işi olduğu üçün təsadüfən oradan keçirmiş. Sonradan öyrəndim ki, Qüdrət hər gün mənim dalımca qarabaqara düşüb izləiyrmiş. Nə üçün burada durduğumun səbəbini öyrənmək üçün gözə görünməyib. Nəzarətçinin məni apardığını görəndə özünü saxlaya bilməyib. Demək, Qüdrət özünü o yola qoymadan bütün bunları uydurub deyə fikirləşdim. Mən ona heç nə demir, o da heç bir şey soruşmurdu. Dərdimi təzələmək istəmirdi. Mənim də qürurum dərdimi hər yetənə danışmağa, ağlayıbsızlamağa imkan vermirdi. Qüdrətin göstərdiyi diqqət, qayğı hər halda məni düşünməyə vadar edirdi. Açığını desəm, mənim bu durumumda bir ürək dostuna, qəlb sirdaşına ehtiyacım var idi. Reyhana da ürək qızdıra bilmirdim.

Anam hər dəfə xahiş edəndə ki, bizə tez-tez gəlsin, ona acığım tuturdu. Hər dəfə gələndə nə isə danışıb qanımı qaraldırdı. Mənə elə gəlirdi ki, onun danışığı mənə qarşı qayğıdan çox, eyham və tənə ilə doludur. Açıq-aydın dur, get deməsəm də, laqeyd, soyuq davranışığımdan hər şeyi başa düşürdü deyə hərdən bir şeyi bəhanə gətirib sağollaşıb gedirdi.

Əllərim əsə-əsə qapımızın zəngini basdım. Anamın məzəmmət

dolu baxışlarını görəcəyim halda qapını Nərmin açdı. Özümü itirmişdim. Sirrimin üstü açıldığına şübhəm qalmamışdı. Anamın üzünə baxdım. O meyit kimi ağarmışdı. Yenə məni rəfiqələrimin yanında pərt eləməmək üçün dilləndi:

– Ay qızım, gəl çıx, harda qalmısan? Qızlar çoxdan səni gözləyirlər.

Nərmindən çox arxayın idim. O mənim hekayətimi əvvəldən-axıra qədər bilirdi. Amma Sitarə bir qədər yüngül təbiətli və ağzı boş idi. Odur ki, Allaha yalvarırdım ki, anam onların yanında başıma gələnlərdən söz açmasın. Nərmin səssizcə məni süzüb sabah bir də gələcəyini vəd edib tələsik qapıdan çıxdı. Onlardan sonra özüm də bir yüngüllük hiss elədim. Dərindən köks ötürüb anamın boynunu qucaqlayıb günahkarcasına hönkürdüm. Anam da mənə qoşulmuşdu. Amma heç nə soruşmurdu. Mən onun qəlbinin genişliyinə, böyüklüyünə, səbrinə, dəyanətinə bir daha heyran qaldım. Qəmin çoxunu, sevincin azını çəkən analarımızda bu qədər dözüm, bağışlamağı bacarmaq hissləri hardandır deyə düşündüm. Ana məhəbbəti deyilən ali bir hissin qüdrətinə baş əydim.

31 dekabr:

Anamın məzəmmətləri mənə heç bir təsir etmirdi. Gecələr üzü üstə düşüb ağlayır, gündüz yenə universitetə getmək bəhanəsi ilə evdən çıxıb sizin darvazasına yaxın bir yer tapıb otururdum. Qara örtüklü maşın qapıya yaxınlaşanda ürəyim az qala yerindən çıxırdı. Bəzən özü maşından düşür, qapını taybatay açıb maşını həyətə salırdı. O bir neçə dəqiqə də mənə onu görməyə bəs eləyirdi. Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi günü idi. Yəqin xaricdən qonaqları var. Nədənsə, sən görünmürdün, yəqin bərk soyuqlamışdım deyə öskürəyim məni ələ verə bilərdi. Odur ki, oturduğum soyuq daşın üstündən təzəcə qalxmışdım ki, iki maşın dalbadal darvazaya yaxınlaşdı. İçindən tökülüşən insanlar müxtəlif dildə danışır, bərkdən nə isə müzakirə edirdilər. Sən onları bir-bir evə dəvət eləyib hər birinə yüngülcə gülümsəyirdin. Mənə elə gəldi ki, Nihad bu bir ilin ərzində bir az da böyüyüb, kökəlmiş, kişiləşmişdi. Səsinin tonu dəyişib, bir qədər ötkəm olmuşdu. Qonağın olduğunu başa düşdüm. Darvaza bağlandı. Elə

bildim ürəyimin qapıları əbədilik qapandı. Qəhər məni boğurdu deyə səsim batmışdı. Ürəyim öz yerində yox, boğazımda döyünürdü. Tappıltısını eşidirdim. Bu bir ilin ərzində niyə biz tərəflərə hərlənmirsən, Nihad? Gecələr ulduzlara, aya baxıb mənim harda olduğumu görmürsən? Mən bunu istəsəm də, görüşümüzü arzulamırdım. Məni sevgi, məhəbbət düşgünü kimi saymağını, bir il bundan öncə başını dik tutub səndən ayrılan Mehinə yazığın gəlməsini istəmirdim. Mən səndən sevgini sədağa kimi istəməkdən uzaq idim. Bu məhəbbətin istisinə ovunmaq istəyirdim. Mən çox düşünüb bu qənaətə gəlmişdim ki, başıma gələnləri taleyin üstünə atıb, Tanrı qəzavü-qədəri hesab eləməkdə yanılıram. Bəzən Tanrının bizə cızdığı yoldan özümüz çıxırıq. Öz yolumuzu tutub gedə bilmirik. Üzümüzü daşlı-kəsəkli yollara tutmaqla ayağımızı, dizimizi qanatdığımız kimi, ürəyimizi də yaralayırıq. Tanrı qismətini qoruyub hissimizi nizama sala bilmirik. Ruhumun dincliyini əlindən alan bu məhəbbət, başqa bir həyatın da olduğunu görməmək üçün gözlərimi bağladı. İndi bura hər gün gəlməklə ruhumun dincliyini tapıb sakitləşirəm. Bunu özümə bir səadət sayıram, Nihad.

7 fevral:

Çoxdandı dəftərimə bir kəlmə də olsun yaza bilmirəm. bərk xəstəlnmişəm. Bədənim zəifləmiş, arıqlamışam. Həkim bildirdi ki, ciyərlərimdə küt səslər eşidir. Əgər belə getsə sağlamlığımda ciddi çətinliklər yarana bilər. Əsəb sistemini qaydaya salmaq vacib məsələlərdən biridir. Ciddi yataq rejimi lazımdır deyə göstəriş verdi.

Neçə vaxt idi ki, anam da işə getmirdi. Universiteti tamam unutmuşdum. Bizim hər ikimizə maddi köməkdən çox mənəvi dayaq lazım idi. Madi durumumuzda da çətinliyimiz var idi. Reyhan demək olar ki, hər həftə gəlir, az da olsa bizə maddi kömək göstərirdi. Mən bunu arzu eləməsəm də, başqa çarəmiz yox idi. Mənə qüvvətli qidalar, təmiz hava lazım idi. Həkim hər ikimizə dağ havası məsləhət görürdü. Bunun üçün nə imkanımız, nə də getməyə yerimiz var idi. Düz bir aya yaxın yataqdan qalxmadım. Öskürəyim bir az seyrəlmişdisə də, bədənim çox zəif idi. Tamam sağaldığıma anamı inandırmağa çalışırdım. Bir yerdə iş

tapıb işləmək istəyirdim. Oxumaq qaçmır ki, deyirdim. Ölkədə vəziyyət pisləşmişdi. Qarabağdakı kənd, qəsəbələrimiz bir-bir əldən gedirdi. Əhali arasında çaşqınlıq yaranmışdı. Milli Ordu, demək olar ki, pərakəndə halında idi. Bir mərkəzdən idarə olunan nizami ordumuz yaranmamışdı. Xocalı şəhərində erməni-rus birləşmələrinin apardığı soyqırım əməliyyatından xalq vahiməyə düşmüşdü. Gənclər könüllü dəstələrə yazılırdılar. Ölkədə qaçqın-köçkün axınından «çadır şəhərcikləri» yaranmışdı. Ərzaq, silah qıtlığı açıq-aydın hiss olunurdu. «Xocalı» soyqırımının ildönümünü qeyd eləməyə hazırlaşırdı ölkə. Qüdrətdən hələ də bir xəbər yox idi. Onu niyə gözlədiyimin, narahatlığımın səbəbini özüm də bilmirdim. Hər halda ondan bir xəbər tutacağım günü səbirsizliklə gözlədiyim vaxtda qapımızın zəngi basıldı. Tək olduğum üçün qapını açmağa ürək eləmirdim. İkinci dəfə zəng çalınanda istər-istəməz qapıya getdim. Qapının xırda gözlüyündən Qüdrəti görüb özümü itirdim. O, tək deyildi. Yanında əsgər geyimində saçları dağınıq, başı tənziflə sarıqlı bir nəfər də var idi. Qapını açanda hər ikisi bir ağızdan salam verdilər. Qüdrət özünü tamam itirmişdi. Dinməzcə üzümə baxır, içəri-çölə tərpənmirdi. Milli əsgər paltarının çiynindəki ulduzların nə demək olduğunu başa düşmədim. Ümumiyyətlə, hərbi rütbədən mənim başım çıxmır. Bir onu bilirdim ki, bu paltar onun hündür boyuna, cüssəli bədəninə çox yaraşır. Gülümsədiyimi görüb ürəkləndi. O da zarafatla ayaqlarını cütləyib məlumat verən əsgər kimi əlini qulağının bərabərinə apardı. Qapıdan çəkilib onları içəri dəvət elədim. Başı tənzifli əsgərin əlində bir dəstə gül var idi. Özünü elə itirmişdi ki, gül dəstəsi əlində hələ də qapının kənarında durub baxırdı.

Qüdrət onun qoluna toxundu. Bununla ona: Gülü sənə almamışam ki demək istəyirdi. Əsgər ayılan kimi oldu:

– Yaxşı zövqünüz var imiş, yoldaş polkovnik –deyə gülümsədi. Hələ də mat-mat üzümə baxırdı. Sinəsinə sıxdığı gülü, nəhayət, mənə uzadanda hər üçümüz güldük. Çox keçmədi ki, anam da gəlib çıxdı. Anama Qüdrət haqqında danışmışdım deyə yaxın adam kimi görüşdülər. Anam tez mətbəxə keçib nə isə hazırlamaq istəyəndə Qüdrət etiraz elədi.

– Yox, yox, bizim vaxtımız çox azdır, Məleykə xanım. Elə bu

axşam da cəbhəyə qayıtmalıyıq. Ağdamda yerləşən qərargaha baş çəkməli. sonra qorxuya düşən əhalinin öz kəndlərini tərk etməsinə mane olmaq üçün Füzuli-Cəbrayıl yoluna çıxmalıyam. Bilirsiniz, Məleykə xanım, əhalini qorxuya salıb öz yurd-yuvasını tərk eləməyə çalışan qüvvələr əmələ gəlib. Bu alçaq ermənilərin Xocalı əhalisinin başına gətirdikləri müsibətlərdən əhali arasında bir erməni xofu yaratmağa çalışırlar. Bizim birinci işimiz bax bu qorxunu xalqın arasında yayanların qarşısını almaq olmalıdır. Dəstələrimiz iki cəbhədə vuruşmalı olurlar. Bir tərəfdən quduzlaşmış erməni faşistləri, bir tərəfdən də öz içimizdəki düşmən dəyirmanına su tökənlər bizə qənim kəsilib. İndi görün bizim işimiz necə çətinləşib. Bir yoldaşa da baş çəkməliyik. Yaralanıb, hospitalda yatır. Mehindən nigaran idim deyə dəvətsiz gəldim. Üzr istəyirəm. Sağlıq olsun, düşməni məhv edəndən, torpağımız asudə nəfəs alandan sonra gəlib sizin Qarabağ plovunuza qonaq olarıq.

Qüdrət ara vermədən elə danışırdı ki, anam etiraz eləməyə bir söz tapmırdı.

– Sizə getməyin deyə bilmərəm, oğlum. İnanmazsınız ki, bu paltarı sizin kimi oğulların əynində görəndə necə qürur hissi keçirirəm? İnanıram ki, haqq işimiz mütləq qalib gələcək. Əvvəl «20 Yanvar» qırğını, onun ardınca «Xocalı» soyqırımı xalqımızı göz açmağa, torpağımızı nəfəs çəkməyə qoymadı. Dünya dövlətləri arasında da təklənmişik, oğul, təklənmişik. Gedin, Tanrı üstünüzcə olsun. Mehinə göstərdiyin qayğı üçün də sənə minnətdaram. İndi onun qayğıya çox ehtiyacı var.

Anam mənalı-mənalı üzümə baxıb əlavə etdi:

– Baş ağrısı olmasın, elə xəstələnmişdi ki, qızdan əlimi lap üzmüşdüm. Şükürlər olsun ki, gördüyün kimi ayaq üstündədir.

Ürəyim şiddətlə döyünürdü. İndicə anamın hər şeyi açıb deyəcəyini, universiteti atdığımı bildirəcəyindən ehtiyatlanıb, dilləndim:

– Eh, bu analar nədən bu qədər övlad üçün nigarandılar? Mən ki, uşaq deyiləm.

– Uşaq olmasan da, hələ böyüməyə çox ehtiyacın var, – deyə Qüdrət başıma gələnlərə işarə edirmiş kimi dilləndi. –Bəzən iradəmizin gücü çatmayan elə işlər tuturuq ki, sonradan peşiman

oluruq. Bu peşimançılığı çəkməmək üçün ağlın ürəyə hökm eləməyinə yol vermək olmaz. Dünyaya, insanlara, ağlın fəhmi ilə deyil, ürəyin gözü ilə baxsaq, daha yaxşı olar, Mehin. Mən axı kiməm ki, sənə nəsihət verəm. Hər halda səndən səkkiz-on yaş böyük bir adam kimi bunları deməyi özümə borc bilirəm. Kim bilir, bir də görüşə biləcəyikmi?

– Sən Allah, elə demə, oğlum. Düşmənin gözü kor olsun.

– Orası elədir, Məleykə xanım. Amma reallığı da yaddan çıxarmamalıyıq. Son vaxtlar elə dəyərli oğullar itirmişik ki, burda qəribə və qeyri-adi bir şey görmürəm. Məkirli düşmənlə indi xalqımız təkbaşına vuruşur. İtirdiklərimizi geri qaytarmaq elə də asan olmayacaq. Elə başa düşməyin ki, ruhdan düşmüşəm, ya qarşımdakı düşməni güclü sayıram. Əsla belə deyil. Onların gücü başqa ölkələrdəki, xüsusən, Rusiyada, Amerikada olan ilana zəhər verən kərtənkələlərdədir.

Məsələ heç də siz düşündüyünüz qədər asan deyil. Bu güclü dövlətlərin torpağımıza, sərvətlərimizə ayrı-ayrılıqda marağı var. Ermənilərlə təkbətək vuruşsaydıq, nəydi ki?..

Ermənilərin təkbətək bizimlə vuruşmağa gücləri çatmaz. Bir ordunun qabağını qaytara biləcək oğlanlarımız var. Deyəsən, ayaq üstə söhbətimiz çox uzandı. Artıq gecdi, bizi bağışlayın. Yola çıxmalıyıq.

Anam öz balası kimi onlarla öpüşüb yaxşı yol arzulayanda mən lal-dinməz gözlərimlə onları müşayət edib otağıma çəkildim.

İki aya yaxın idi ki, evdən çölə çıxmır, nə də səndən xəbər tuta bilirdim. Qüdərtgil gedəndən sonra dünya gözümdə qaraldı. Elə bil içimdə nə isə qırılıb əbədilik töküldü. Onsuz da, zəifləyib taqətdən düşən dizlərim bir az da şiddətlə əsməyə başladı. Eh, Nihad, səni bu qədər həsrətlə görmək istədiyimi, qürurumu sındıran məhəbbətimin sənə nə qədər ehtiyacı olduğunu bilsəydin? Ürəyimi deşib sinəmi dağlayan, izah eləyə bilmədiyim kədərimdən xəbərin olaydı. Sənə bu addımı atmağa mane olmayan qürurumu kaş indi yox, onda sındıraydım. Bu qürur özümün, anamın əzabını artırmaqdan savayı heç nəyə dəyməz. Qürur məhəbbətin düşməniymiş, Nihad. İndi dünya gözümdə bütün gözəlliyini, insanlar sədaqətini, etibarını itirmiş kimi görünür. Gündüzlərin şəfəqi, gecələrin cansıxıcı sükutu, hər nə, hər şey mənim gözlə-

rimdə özgələşib. Özümdən min bəhanələr uydurub səni unutmağa çalışdığım vaxtlarım da az olmayıb. Amma bacarmamışam. Yenə hər şeyi unudub, qapında bir dilənçi kimi dayanıb sənin gəlib-getməyinə saatlara baxmışam, Nihad.

Novruz bayramı yaxınlaşırdı. Havaların insan sümüyünü isidən vaxtları idi. Baharın bütün insanlarda həyat, yaşamaq eşqini artırdığı, arzu və istəklərə təravət gətirdiyi vaxtlar idi. Səni görmək ümidimi itirməmişdim. Anamın vəziyyəti getdikcə ağırlaşırdı deyə ondan bir gün də uzaq durmaq istəmirdim. Evimizə yaxın, anam dərs deyən məktəbdə labaratoriyada işə düzəlmişdim. Məvacibim çox az olsa da, başımı qarışdırmaq üçün anam bu işin mənə lazım olduğunu deyirdi. Özü direktordan bunu xahiş etmişdi. Səhər evdən bir çıxır, evə eyni vaxtda qayıdırdıq. Qüdrətdən demək olar ki, heç xəbərim yox idi. Onun başında bir xəta var fikri eynimdən çıxmırdı. Heç kəsdən də bir söz soruşa bilmirdim. Reyhan son vaxtlar çox seyrək gəlib-gedirdi. Bayram qabağı yenə yolumu evinizin yanından saldım. Elçi daşı kimi köhnə yerimdə oturdum. Arvadın uşaq qucağında bir neçə dəfə darvazadan girib-çıxdı. Məni heç nə düşündürmürdü. Qeyri-iradi oturduğum yerdən qalxıb irəli yeridim. Arvadını saxlayıb səni soruşmaq, sağ-salamat olduğuna əmin olmaq istədim. İradəm, gücüm, qüvvəm buna çatmadı. Evində xoşagəlməz söz-söhbət yaradıb qanının qaralmağına qıymadım, Nihad. Anamdan xəlvət evdən çıxmışdım. Həm də onun vəziyyətini fikirləşib ayağa qalxmaq istəyirdim ki, darvazanız taybatay açıldı. Anan əlində bir bükülü düz üstümə gəlirdi. Qalxıb getməyə imkan yox idi. Nə edəcəyimi, onunla qarşılaşıb nə deyəcəyimi bilmirdim. Ağaclığa sarı bir- iki addım atıb üzümü göstərməməyə çalışdım. Onun gələ-gələ dedikləri sanki məni dondurdu:

– Ay qız, ay bacı, dayan! Bunu oğlumun sağ-salamat qayıtması üçün nəzir demişdim. Sənin qismətin imiş. Get oğluma, gəlinimə dua elə.

Anan yaxınlaşdıqca mən ağaclığa sarı çəkilirdim. O yüyürüb mənə çatanda məndə artıq can qalmamışdı. O, məni doğrudan da, dilənçiyə oxşatmışdı. İlahi, bu nə iş idi düşdüm deyə üzümü ona sarı çevirəndə anan cərəyana düşmüş adam kimi yerində donub qaldı.

- Bu yenə sən…sənsən?

Artıq buradan qaçıb uzaqlaşmışdım. Səsə arvadın, bir nəfər də kimsə çölə çıxmışdılar. Heç nə eşitmirdim. Mümkün qədər özümü avtobusa, ya elə bir taksiyə çatdırmağa çalışırdım. Çaşqınlıqdan hara gedəcəyimi bilmirdim. Əks tərəfdən gələn maşın məni vurub asfalt döşəməyə necə saldı, bilmədim. Qulağıma qışqırıq qarışıq danışıq səsləri gəlirdi. Bir azdan sonra o da kəsildi. Xəstəxanada özümə gələndə yanımda yenə anan oturmuşdu. O, üz-gözünü elə turşutmuşdu ki, gözümü açmağa belə ürək eləmirdim. Danışıqlarından sənin cəbhədə olduğunu, təzəcə qayıtdığını öyrəndim. Bu da mənə kifayət idi, Nihad.

Sən sağ-salamat idin. Xoşbəxtlikdən yaralarım çox ağır deyildi. Sol qolumu gipsə qoymuşdular. Bir neçə yerdən yüngül zədə almışdım. Anam xəstə olduğu üçün evə getmək istədiyimi həkimdən xahiş elədim. Anan tez dilləndi:

– Biz özümüz maşınla apararıq, narahat olma.

Etirazımı bildirdim. Həkim bu axşam xəstəxanada qalacağımı təkid edəndə yenə dilləndim.

– Həkim, anam məni burada görsə, dözməz, ürəyi xəstədir. Xahiş edirəm…

Anan həkimi o biri otağa çəkib aparanda mən divara söykənə-söykənə artıq birinci mərtəbəyə enmişdim. Ünvanımı ona bildirmək istəmirdim. Əl qaldırıb bir taksi saxlatdım.

Elə o gündən mənim qara günlərim başladı, Nihad. Ananın əvəzinə indi də arvadın mənə dinclik vermirdi. Hədə-qorxunun ardı-arası kəsilmirdi. Aranızda olan soyuqluğun səbəbkarı məni hesab eləyib lap həddini aşmışdı. Mən hər şeyi anamdan gizli saxlayırdım. Artıq məni işdən çıxartmışdılar. Səbəbini öyrənmək istəyəndə direktor birmənalı bildirdi:

– Mən özümə artıq problem yaratmaq istəmirəm. Qoy yaraların sağalsın. Səni başqa bir yerə işə özüm düzəldəcəm, söz verirəm.

Mən arğacın hardan, kimdən keçdiyini başa düşürdüm, Nihad. Bir gün də arvadın məni dilə tutub, buradan getməyimi tələb elədi. Mənə başqa yerdə ev almağa kömək edəcəyini deyəndə özümü saxlaya bilmədim:

– Mən ora Nihadı sənin əlindən almağa gəlməmişdim. Məhəbbət pulla satılıb-alınmır ki, puluna güvənəsən. Mən evimiz-

dən heç yana getməyəcəyəm. Nihadın sənə qarşı məhəbbətinə inanmırdınsa, onda niyə ailə qururdun? Xahiş edirəm, bizi sakit burax. Bir də bizim evimizə zəng vurub narahat eləsən sənin özünə pis olacaq. Özüm də ötkəmliyimə məəttəl qalmışdım.

6 iyul:

Anam xəstə idi. Özüm də işdən çıxmışdım. Anamı sərin, havası təmiz bir yerə aparmaq lazım idi. Anamın yeganə qolbağını satmalı olduq. O, xeyli ağladı.

– Bu qolbaq atanın mənə yeganə və ilk hədiyyəsiydi, Mehin.

Özümə söz vermişdim ki, onu öləndə məzarıma qoymağı sənə vəsiyyət edəcəm. Əlim gəlmir axı, qızım?

– Atam sağ olsaydı, sənin sağlamlığın üçün özü buna razı olardı, ana. Sənin sağlamlığın mənə hər şeydən üstündür. Axı səndən başqa dünyada yaxın bir simsarım yoxdur.

Anam kövrəlmişdi. Yenə mənə ürək-dirək verir, özünü mümkün qədər gümrah göstərirdi.

Biz anamla Qubada meşəyə yaxın bir yerdə ev kirayə eləyib qaldıq. Anam bir az yüngülləşmiş, təngənəfəsliyi azalmışdı. Ev yiyəsi sakit, mehriban adamlar idi. Yeganə oğlanları Qarabağda ermənilərə qarşı vuruşlara könüllü getdiyindən arvadının ata evi sayılan bu ikigözlü evdə yaşayır, həyəti əkib-becərir, payız düşənə qədər burada qalır, sonra «Qırmızı qəsəbə» deyilən kəndə-evlərinə qayıdırdılar. Evin bir gözünü bizə kirayə versələr də, vəziyyətimizi öyrənəndən sonra bizdən ev haqqı almadılar. Anama qayğı göstərir, məni qızları sayırdılar. Bu dəfə oğlanları söz vermişdi ki, evə qayıdıb təsərrüfat işlərini özü idarə edəcək. Qubada yaşayan yəhudilərdən olsalar da, Azərbaycanca təmiz danışır, bütün adət-ənənələrimizə riayət edirdilər. Mən səssiz-səmirsiz dolanır, saatlarla əzablı günlərimin sıxıntısını canımdan çıxara bilmir, təbiətin bu yerlərə bəxş verdiyi gözəlliyi də ürəyimcə duymağı bacarmırdım. Gündüzlər ümidsizlik içində çırpınır, gecələr gözlərimi aya, ulduza dikib bir də əlimə düşə bilməyən səadətim haqqında fikirləşirdim. Beş il bundan əvvəl sənlə əl-ələ tutub getdiyim yerlər, daşların üstünə tökülüb muncuq kimi səpələnən şəlalənin ecazkar səsini dinləyirdim. İlk dəfə mənə öz sevgini bu yerlərdə bəyan eləyib qəlbimin çırpıntılarına qulaq

asmışdın. Bir aya yaxın idi ki, buradaydıq. Səsinə bir musiqi əsəri kimi məftun olduğum şəlaləni, üstündə oturub su ilə oynadığım o sal daşı görmək, köhnə xatirələri oyatmaq həvəsim də artıq tükənmişdi. Heç kəsi, heç nəyi görmək, eşitmək istəmirdim. Çəpərin lap qırağındakı alma ağacının altındakı pambıq kimi yumuşaq, gömgöy otun üstünə uzandım. Əllərimi başımın altına qoyub göylərin gözəlliyinə, təmizliyinə tamaşa elədim. Tənhalıq dərdi unutmağın ən yaxşı dərmanıdır. Tənhalıqdan doğan sükut səni dərdin dəryasına ağır-ağır çəkəndə bütün ətrafı görüb duymaq qabiliyyətini də itirirsən. Tənhalığın da dili, özünəməxsus bir aləmi var ki, onunla baş-başa qalanda sənə aydın olmayan bir çox gizli mətləblərin düyününü açа bilirsən, Nihad.

Günün qızmar vaxtı idi. Ətrafda cırcıramaların, bir də meyvə daşıyan maşınların səsindən başqa heç nə eşidilmirdi. Bütün ömrüm boyu beləcə uzanmaq, heç olmazsa ötən günlərimin şirin, şəkər anlarına dalmaq istərdim. Nərmin ərə gedib Moskvada yaşayır, Sitarə harada isə işə düzəlmişdi. Anamın vəziyyəti, özümün başıma gələnlər məni hamıdan uzaqlaşdırmışdı. Nə yaxşıdır insanın etibarlı könül həmdəmi ola. O da yox idi. İndi məni ancaq anamı bu vəziyyətdən çıxarmaq düşündürürdü. Altında kölgələndiyim alma ağacının dolu budaqları az qala torpağa dəyir, ətri insanı məst edirdi. Təbiət bu torpaqdan heç nə əsirgəməmişdi. Alma, armud, gilas ağacları göz oxşayırdı. Pis-yaxşı maşını olanlar məhsulu bazarlara aparıb pula çevirir, əlsiz-ayaqsız qocaların becərdiklərini ucuz qiymətə alırdılar. Bəziləri də yol kənarında durub istirahətə gələnlərə səbətlərdə meyvə təklif eləyirdilər. Abram kişinin bağında meyvələr yerə tökülür, çoxu da xarab olurdu. Gücüm çatdığı qədər Bilqeyis nənəyə kömək eləyir, yetişmiş meyvələri dərib qurudurduq. Onu çox vaxt Bela deyə çağırırdılar. Bu ürəyiaçıq, mehrban arvad yeganə oğlu üçün çox nigarançılıq çəkirdi. Tez-tez də: – Dilim qurusun, birdən Beniqin başına bir iş gələr. Nə edərəm, İlahi? – Deyirdi. Axı, o təhnəmizin bircə çörəyidir, qızım. Bu qansız ermənilər bir belə günahsız qan tökməkdən yorulmadılar? Hər gün az qala bir şəhid gətirirlər rayona. Oğullarımızın nahaq yerə qırılması məni od-ocaqsız yandırır. Bu dəfə gələndə söz verdi ki, ta getməyəcək, yenə getdi.

«Orda vuruşan dostlarımı köməksiz qoyub, burda sizin yanınızda dolanmaq mənə yaraşmaz, ana. Orda ölüm-dirim mübarizəsi gedir. Hər qarış torpaq uğrunda uşaqlarımız görsən necə vuruşurlar, geri qayıt sözünü deməzdin mənə. Mən ora könüllü getmişəm, axıra qədər də vuruşacam. Binyaminin bu sözlərindən sonra mənim başqa nə isə deməyə haqqım yox idi, qızım. Ömrü Tanrı verir, özü də alacaq. Kimin qismətinə nə düşəcək, bir onu bilmək olmur».

Qarışıq fikirlər içində vurnuxduğum vaxt həyətdəki səsdən dik qalxdım. Deyəsən, qonağımız gəlmişdi. Bir neçə gün əvvəl Qubaya gedib aldığım qəzetləri qolutuğuma vurub evə gəldim. Bela xalanın səsi həyəti götürmüşdü. Anam da ona qoşulub sevinirdi.

10 avqust:

Bu gün həyatımızda gözə çarpacaq qədər dəyişiklik əmələ gəlmişdi. Bela xalanın dili açılmışdı. Oğlunun başına pərvanə kimi fırlanır, dil-boğaza qoymadan suallar verirdi. Beniq mümkün qədər anasını ovutmağa çalışır, qonaqların (yəni bizim) kimliyi ilə maraqlanırdı. Axşam süfrəyə nə qədər ləziz nemət varsa, düzmüşdük. Anam da sağ-söykəl masanın başında oturmuşdu. Mən hər vəchlə onu vəziyyət haqda danışmağa sövq edirdim. Bəlkə, səndən kiçik bir xəbər eşitdim deyə elə ilk tanışlığımızdan doğma adamlar kimi söhbət edirdik. Beniq həyətə girəndə onun axsadığını hiss etmişdim. Bela xalanın əhvalını pozmamaq üçün bir söz soruşmadım. Süfrə yığışandan sonra dözə bilməyib dillədim:

– Hansı bölgədə vuruşurdun, Binyamin qardaş?

– Sən soruş ki, hansı bölgədə vuruşmamışam. Torpağın hər başı bizimdir. Axırıncı dəfə Qazax tərəfdə Bağanis- Ayrım zonasında qulluq edirdim. Ağdamdan bizi götürüb bir baş ora göndərdilər. Müharibənin öz qanunları var. Hara göndərsələr, ora getməliyik.

Bu müharibə deyil, quldurluqdur. Quldur kimi torpağımıza soxulub bizi zorla müharibəyə, qan-qadaya çəkib bu faşist xislətli ermənilər. Mən onu necə olur-olsun cəbhədən danışmağa çəkirdim. Səndən, ya Qüdrətdən bir xəbər öyrənməyimə ümid edir-

dim.

– Düz deyirsən, bu müharibə haqsızın zorla haqq oğurluğudur. Torpaqsızın torpaq davasıdır. Adın nə oldu? Yadımdan çıxdı, yenə?

Bela xala gülə-gülə:

– Mehindir, – deyə təkrarladı. Çox nadir işlənən addır, oğlum. Biz tərəflərdə heç eşitməmişəm.

Beniq anasının dediyini eşitmirmiş kimi xeyli susdu. Sonra fikirli-fikirli dilləndi.

– Bu dəfə çox ağır döyüş keçirdik, Mehin bacı. Qazax tərəfdən kəndlərimizi ermənilər çapıb-talayır, od urub yandırırdılar. Bağanıs – Ayrım kəndi lap sərhəddə olduğundan ermənilər ora daha çox qüvvə toplamışdılar. Açığını deyim, qüvvəmiz, sursatımız çox az idi. Kəndlərdən, Qazax, Tovuz rayonlarından gələn könüllülər bizə çox kömək eləyirdilər. Hətta qız-gəlinlər də könüllü dəstələrə yazılırdılar. Onların bizə qoşulmaqları heç ürəyimizcə deyildi. Bilirsən, qız- gəlinin düşmən əlinə keçməsi nə qədər ağırdır? Bizdən acıq çıxmaq üçün döyüşçülərimizin gözü qarşısında onların başına yüz oyun açırlar bu çörək gözlərinə durmuşlar. Çarəmiz yox idi. Yenə yeri düşəndə yaramızı sarıyır, ağzımıza bir qaşıq isti su tökürlər. Hərdən döyüş sursatı daşıyıb bizə çatdırırlar. Bu da əvəzsiz kömək olur bizə. Nə isə, əslən Qarabağlı olan komandirim bir yüksəkliyi almağın vacibliyi əmrini vermişdi. Dəstəmiz çox böyük deyildi. O yerlərə bələd olan yerli camaatdan kimsə bizə kömək eləməli, gecəykən düşmənin üstünü alıb yüksəkliyi ələ keçirməliydik. Bütün hazırlıq işləri görülmüşdü. Kəşfiyyatçımız düşmənin mövqeini müəyyənləşdirmişdi.

Mən stulu bir az da qabağa çəkib əlimi çənəmə dayadım. Bununla söhbətini davam elə demək istəyirdim. O, məni başa düşmüşdü deyə bir az da artıq həvəslə danışırdı. Anamgil yatmışdılar. Sabah erkən şəhərə qayıdacağımızı qərarlaşdırmışdıq deyə yuxum gəlmirdi. Çox yorulduğumdan bütün bədənim ağrıyırdı. Ağır, üzücü fikirlər içində əzab çəkmək, ağır yük daşımaqdan betər olurmuş. Qalxıb çayları təzələdim. Qaba meyvə yığıb stolun üstünə qoyanda Binyamin güldü:

– Yığılıb stola qoyulmasa, meyvə yemək adamın yadına düşmür. Allahın verdiyi bol nemətdən bəhrələnmək istəmirik.

Neyniyək, gözü-könlü tox xalqıq da…

Sonra özü də sözü möhkəmlətmək üçün əlavə etdi:

– Nə edəsən ki, qocalar əldən düşüblər. Mən də bu iki il ərzində onlara əl yetirə bilmirəm. Sözümün üstə durub indi bir dəfəlik gəlmişəm. Daha doğrusu, yaralarıma görə döyüşə qayıtmağa icazə vermirlər.

– Doğrudan birdəfəlik gəlmisiniz? Bir də cəbhəyə qayıtmayacaqsınız? – Deyə təəccüblə soruşdum. O, alnını ovuşdura-ovuşdura qayğılı bir görkəm aldı.

– Bəli, Mehin xanım, birdəfəlik gəlmişəm. Bu zalım ayağım etibarsız çıxmasaydı, yenə bu qocaları tək qoyacaqdım. Mən məktəbdə dərs deyirdim, yaxşı da güzəranımız var idi. Ölkənin bir tərəfi od tutub yananda digər tərəfində necə dinc yaşaya bilərdim? Yediyim çörək, içdiyim su, udduğum hava mənə haram olardı.

İki ildir dincliyimizə haram qatan haramzada ermənilərlə üzbəüz döyüşmüşəm. Şükürlər olsun ki, indiyə qədər burnum da qanamamışdı. İndi də görürsən ki, burdayam. Yaralanıb bir aya yaxın Bakıda xəstəxanada yatdığımı anama, atama deməmişəm. Bilsəydilər, narahatçılıqdan başqa nə edəcəkdilər?

Mən mütəəssir olmuşdum. Ürəklənib soruşdum:

– Yüksəkliyi ala bildinizmi, Binyamin?

O, dərindən köks ötürüb bir siqar yandırdı. Tüstünü acgözlüklə ciyərlərinə çəkdi. Əsəbləşdiyi açıqca bilinirdi. Başını qaldırıb üzümə təəssüf dolu bir nəzər saldı. Gözləri dolmuşdu. Göydə qəfil toqquşan bulud kimi elə bil indicə göz yaşı leysana çevriləcəkdi. Onu bu söhbətə məcburən çəkdiyimə özüm də peşiman olmuşdum. Gecə əriyib gedirdi. Tək-tək kənd itlərinin səsi gəlirdi. Bir ayın içində buraların ab-havasına öyrəşmişdim deyə işıqların qəfil keçəcəyindən ehtiyatlanıb, neft lampasının piltəsini təmizləyib şüşəsini silib hazır qoymuşdum. Doğrudan da, yarım saat gecədən keçməmiş işıqlar söndü. Bilqeyis ana deyirdi ki, buralarda bu adi haldı. Siz şəhərlilər buna öyrəşməmisiniz. Gecə işığı söndürürlər ki, enerjiyə qənaət eləyirik. Elə bil uşaq başı aldadırlar. Ay başa çatmamış qapını kəsib işıq pulu yığırlar. Hərəyə bir qiymət oxuyurlar.

– Bəs sayğac qoymayıblar? – Deyə soruşdum.

– Sayğac onlara xeyir verməz, axı niyə qoysunlar? Elə bilirlər biz çörəyi ağzımıza yemirik. Guya o pulların kimlərin cibinə getdiyini başa düşmürük. Eh, qızım, hər şeyin dərinliyinə getmək olmur, axı. Birtəhər yaşayırıq da, hamı necə, biz də elə. İndi çətin, ağır zamandı. Böyük Vətən Müharibəsindəki kimi hər şeyi Vətən üçün, cəbhə üçün eləsələr adamı yandırmaz. Nə deyəsən Biri torpaq yolunda can qoyur, biri də min bir fəndlə xalqı aldadır, soyur. Elə bil bu torpaq ancaq o vuruşanlara məxsusdu. Başqalarına heç bir dəxli yoxdur. Biz asanlıqla İsrailə, ya Almaniyanın lap özünə gedə biərdik. Bu çəkişmələrin, vuruşmaların bizə dəxli yoxdur deyərdik. Bunu eləyə bilməzdik.

Bu vicdan ki var, onu qəbul eləyə bilməz. Biz Qubada yaşayan yəhudilərə 1918-19-cu illərdə ermənilərin çəkdikləri dağ hələ də sinəmizi yandırır. O məşəqqətləri ki, biz görmüşük, onu sizin nəslə arzulamazdım. Onlar Hitlerin törətdiyi talanlardan, qırğınlardan da irəli getdilər. Atam danışardı ki, Andronikin quduzlaşmış dəstələri Türkiyədən qaçıb acıqlarını bu kəndlərdən çıxırdılar. Kənd camaatını ucdantutma bir quyuya doldurub ağzını palçıqlayırdılar. Evlərə, məscidlərə yığıb yandırırdılar. Azərbaycanlılarla birgə nə qədər yəhudi ailəsi diri-diri torpağa basdırıldı. Babam, nənəm də təzəcə tapılan ümumi məzarlıqda uyuyurlar. İndi-indi haqq öz yerini alır, ruhları rahatlanır. Biz bu torpağı qoyub gedə bilərikmi? Oğlumuz da bizim kimi düşünə-düşünə iki ildir çöllərdədir. Axırı necə olacaq, bilinmir. Başı bəlalar çəkən xalqımız qaniçən Hitlerin taunundan qurtarıb rahatlıq tapmışdı. İndi də görürsən də, bu ermənilər. Zəncirdən qırılmış it kimi bu camaatın üstünə cumublar. Allah bəlalarını versin. Mütləq Allahın lənətinə gələcəklər.

Bayaqdan tələsdiyim halda Bilqeyis xalanın dediklərinə aludə olub, Binyamini elə bil unutmuşdum. Onun çay stəkanını qəflətən geri itələməsi məni fikirdən ayıltdı:

– Nə bərk fikrə getmisən, Mehin xanım? –Binyamin üzümə baxa-baxa soruşdu.

– Yox, elə bir fikrim yoxdur. Bayaqkı söhbətimiz nə yerdə qaldı? Mənə çox maraqlıdı. Necə oldu ki, iki ildə özünün dediyin kimi, burnun qanamadığı halda yaralandın? Bu məni çox düşündürür. Bu ehtiyatsızlıqdı, ya?..

– Döyüşdə hər şey ola bilər. Döyüşə girəndə qabağına məqsəd qoymursan ki, məğlub olacam, ya döyüşdən qəhrəman kimi çıxacam. Bayaq dediyim kimi kəndin lap girəcəyindəki yüksəkliyi almaq, ermənilərin mövqelərini kənddən geri atmaq göstərişi verilmişdi. Komandir əslən qarabağlı olan Qüdrət adlı bir polkovnik idi.

Qüdrət adını eşitcək diksindim. Onun söhbətini kəsməmək üçün dinmədim.

Canlara dəyən, qorxu-hürkü bilməz bu oğlanın əmri hamıya qanun olurdu. Hamı hücum əmri gözləyirdi. Bir çətinliyimiz onda idi ki, çoxumuz bu yerlərlə tanış deyildik. Bizə bir yol göstərən, və bir tibb bacısı lazım idi. Bir neçə həftə idi ki, dəstəmizə o bölgədən olan Qaratel adlı bir qadın gəlmişdi. Etirazımıza baxmayaraq dəstədə qalmaq üçün az qala yalvarırdı. Çox sərt, düşmənə qarşı nifrətlə yaşayan bir qadın idi Qaratel. Onu kişilərlə çiyin-çiyinə vuruşlara heç kəs məcbur eləməmişdi. Əri, uşağı yox idi, Qaratel polkovnikə yalvardı ki, onu da əməliyyata aparsınlar. O, bu yerlərin hər qarışına bələddir deyə israr edirdi: Sizə bəlkə köməyim dəydi, qardaşlar, – deyirdi.– Bizim indi kişiyə, qadına bölünmək vaxtımız deyil. Uğrunda vuruşduğunuz bu torpaq mənim ata-babalarımın yurdudur. Mən ixtisasca iqtisadçı olsam da, tariximizi yaxşı bilirəm. Yəqin çoxunuz bilməmiş olmazsınız ki, Rusiyanın Qafqaz siyasətinin əsas hədəfi Azərbaycan – Gəncə xanlığı olanda Sisianovun quldur dəstələrinə qarşı sinə gərən Cavad xana son anda kömək eləyən onun xalça toxuyanı Gülcamal adlı qadın olub. Gülcamalın neçə ay təlim görən qadınlardan ibarət dəstəsi son ana qədər Gəncə uğrunda vuruşub. İndi Gülcamallarımız qırılıb?

Deməyə sözümüz qalmamışdı. Hamı bir səslə razı oldu. Qızğın döyüş gedirdi. Qüvvəmiz çox az idi. Çoxlu itgi vermişdiksə də, düşmənin mövqeyini darmadağın eləmişdik. Qaratel gah yaralılara kömək eləyir, gah da, kürəyində bizə patron, barıt, qumbara, döyüş sursatı daşıyırdı. Bizim çəkildiyimiz mövqeni bilmədən çiynində patron, barıt torbası ermənilərin gizləndikləri yerə gedib çıxır. Səs-küydən özümüzünkülər olduğunu güman eləyir. Yanıldığını başa düşəndə fikirləşmədən qumbaranın birini partladıb özünü də, ermənilər də həlak eləmişdi.

Biz onun cəsədinin hissələrini yığıb ürək ağrısı ilə rayona dəfn üçün apardıq. Belə hadisələr gözümüzün qabağında çox olub, bacı.

Gözləri dolmuşdu Binyaminin. Mən də ağlamaqdan özümü saxlaya bilmədim. Hər ikimiz xeyli susduq. Məni hər şeydən öncə sən, bir də Qüdrət maraqlandırırdı, Nihad. Amma bir sual da verib onu narahat eləmək fikrindən uzaq idim. Bu iki ildə nə qədər belə ölüm görən insanın dərdini təzələmək istəməsəm də, ondan əl çəkmək fikrim də yox idi.

– Komandiriniz necə, döyüşdən sağ-salamat çıxdımı? – Birtəhər soruşdum.

–Mən ayağımdan, o çiynindən yara almışdıq. Anamın nigaran qaldığını nəzərə alıb hərbi hospitaldan vaxtından əvvəl çıxdım. Qorxdum ki, xəbər tutub dalımca gələrlər. Gördüyün kimi onların uzaq yola çıxmaq vaxtları çoxdan ötüb.

– Belə ağır döyüşləri çoxmu keçirmisiniz?

– Sən lap mərkəzdən gələn jurnalistlər kimi sual verdin, Mehin bacı.

– Döyüş zonasına müxbirlər çox gəlirdilər?

– Mən bir-iki dəfə belələrinə rast gəlmişəm. Qəzet-jurnallardan gələn müxbirlərin də özlərinəməxsus işləri var. Bəziləri heç bir göstəriş-filan bilmədən döyüşün ən qızğın yerlərinə gedirlər. Yəqin eşitmiş olarsan Çingiz Mustafayev kimiləri.

– Onun haqqında qəzet-jurnallar çox yazırdılar. Onu kim tanımır ki…

–Elələri də var ki, milçəyi böyüdüb fil eləyir ki, mən də gedib iş görmüşəm –desinlər. Elə vaxt olub ki, bir kəndi iki-üç dəfə ermənilərdən geri almışıq. Məsələn, elə Sırxavənd kəndi dörd dəfə bizim uşaqlar tərəfindən azad olub, bir müxbir gəlib o barədə yazmayıb. Elələrini də tanıyıram ki, bir nazir oğlu cəbhəyə könüllü gəldiyinə görə bütün döyüş məntəqələrini qarış-qarış gəzir ki, ondan qabaq bu haqda başqası yazmasın. Tarixdə görünməmiş hadisə baş verib, deyəsən. Nazirin oğlu da yada salıb ki, nemətlərindən bol-bol bəhrələndiyi bu torpağa onun da borcu var. Amma üç ildir, isti yorğan-döşək görməyən, polkovnik dərəcəsinə qədər yüksələn Qüdrətdən bir misra belə yazan yoxdur. Yetim oğlandı. Bir aya yaxındı hospitalda müalicə olunur. Bilir-

sən, Mehin xanım, hansı yazıçısa deyib ki, insanlara sağlığında qiymət verin. Biz vətənə verdiyimiz borc üçün təmənna gözləmirik. Amma belə olanda adama pis təsir eləyir.

Nazir oğlu sözünü eşidəndə bədənimdən sanki isti bir cərəyan keçdi. Sifətim od tutub yandı. Elə bildim ki, qızardığımı, əllərimini əsdiyini Benyamin də hiss elədi. Əlimi sinəmə dayıyıb xeyli susdum. Onun gözucu mənə baxdığını hiss edirdim deyə daha artıq həyəcanlanırdım. Cəbhədə olduğunu anandan ötəri eşitdiyimə görə Binyaminin sənin haqqında danışdığına şübhəm qalmamışdı. Yenə sual verib hər şeyi doğru-düzgün öyrənməyə taqətim qalmamışdı, Nihad.

Hər yerdə, hər yanda niyə səni axtardığımı özüm də bilmirdim. İstəyirdim ki, bütün dünya səndən danışsın, Nihad. Yenə özümə bəlli olmayan şirin duyğular məni cənginə salmışdı. Gecənin lampa işığında alaqaranlıq olmasaydı, Binyamin mənim meyit kimi saraldığımı yəqin ki, görəcək, əlavə sorğu-suallardan yaxa qurtara bilməyəcəkdim. Nəfəsim tutulur, qulaqlarım guruldayır, sevincimdən ağlamaq istəyirdim. Səndən bir xəbər tutmaq ümidilə özümü yenə ələ alıb başımı qaldırdım. Binyamin donuq nəzərlərlə hələ də üzümə baxıb susurdu. Ya halımı görmür, ya da nə isə əlavə bir şey soruşmaq ağlına gəlmirdi. Mən özümü toplayıb başımı qaldırdım.

– O hansı nazirin oğludur ki, vətən torpağı yadına düşüb, vicdanı oyanıb? Adətən torpaq, vətən təsibi çəkmək əliqabarlı zəhmətkeş insanların balalarının boynuna düşür. Bizdə bu az qala bir adətə çevrilib. Biz də buna alışmışıq.

– Onu sən düz dedin, Mehin bacı. Hansı millətin, xalqın yaxşı, pis cəhəti yoxdur ki? Amma üzünü görməsəm də, onun haqqında qəhrəmanlara yaraşan sözlər eşitmişəm. Döyüşçülərimiz onu nazir oğlu kimi tanıyırlar. Düzünü desəm, əsl adını mən də bilmirəm. Şuşa, Xocalı, Ağdam istiqamətlərində gedən döyüşlərdə iştirak eləyib. Hətta bir dəfə yaralansa da, təzədən bölgəyə qayıdıb deyirlər. İkinci dəfə keçən il yaralandığını eşitmişdim. İndi xəbərim yoxdur. Allah saxlasın belə oğlanlarımızı. Vətənin dar günündə orda-burda baş girləyənlərə belələri ibrət olsun. Deyilənlərə görə o qədər sadə, xoşrəftardır ki, elə bil o böyüklükdə vəzifəsi olan kişinin oğlu deyil. Ancaq polkovnik Qüdrətdən

eşitdiyimə görə ailə həyatı ürəyincə deyil. Həmişə fikirli, qayğılı dolanırmış. Ailədən, uşaqdan söz eşidəndə saatlarla bir tərəfə çəkilib susarmış.

Onu eşitməyə artıq gücüm-qüvvəm qalmamışdı. Bir az da otursam, narahatçılığımı biruzə verəcəyimdən ehtiyatlanıb – gecən xeyirə qalsın deyib ayağa qalxdım. Sübh tezdən yola düşəcəyimizi nəzərə alıb yatağa uzandım. Anam tez-tez zarıyır, ara-sıra durub-oturur, onsuz da sevincdənmi, həyəcandanmı ərşə çəkilən yuxumu bir az da gözümdən perikdirirdi. Qaranlıqda gözlərim otağın tavanına zillənib qalmışdı. Sənin haqqında xoş sözlər eşitdiyim bu bağ evini, xoş simalı insanları heç vaxt unutmayacağam. Sevincim sinəmə sığmır. Həyəcandan gözlərimdən düşən yaş dənələri yasdığımı isladırdı. Boş, xaraba bir məzarlığa çevrilən ürəyimin yanğısına dözə bilməyib anam eşitməsin deyə üzümü yasdığa söykəyib səssizcə ağladım. Talein məndən üz döndərdiyini, ümidsiz bir məhəbbətin əlçatmazlığını bilə-bilə ağlayırdım, Nihad. Belə aylı-günəşli yay günlərində mənə məhəbbətinin əbədiliyindən danışdığın anlar əvəzinə səni ayrılığın soyuq qarında, insan qanını iliyə qədər donduran vaxtında görüb xatırlayırdım. Sən çox asanlıqla, heç bir müqavimətsiz səadətimizi ayaqlayıb keçdin, Nihad. Niyə sənə kin-küdurət bəsləyə bilmirdim? Nədən bütün şüurum, düşüncəm sənin xəyalınla məşğul idi? Evdə, çöldə, ayaq basdığım hər qarış torpaqda bulaq başında, çay qırağında fikrim səninlə idi. Sabah Bilqeyis xala oğlunun qaytması şərəfinə kiçik bir məclis düzəltməyi şövq ilə deyəndə mən şəhərə qayıtmağımıza qərarımı vermişdim. O məclisdə deyib-gülmək, ürəkdən gələn sözlər demək həvəsim ölmüşdü. Mən sənli fikirlərimdə, ürək ağrılarımla təkbətək qalmağı daha üstün tuturdum. Elə olurdu ki, məni içimdən didib tökən ümidsizliyə son qoymaq, ağır düşüncələrdən uzaqlaşmaq istəyirdim. Lakin məni maqnit kimi sənə doğru çəkən duyğularımın cazibəsindən xilas ola bilmirdim.

Binyaminin anasının təkidi məni fikrimdən döndərə bilmədi. Vidalaşıb çağırdığım taksiyə oturduq. Hava çox isti və cansıxıcı idi. Meyvə bağları cərgə-cərgə geridə qaldıqca ürəyimdə ağır bir sıxıntı duyurdum. Küsülü adamlar kimi taksinin bir küncünə sığınmışdım. Anam da dərdimi duyurmuş kimi səssiz-səmirsiz

pəncərəyə baxır, hərdən də məni dümsükləyirdi:

– Bir bax, alma, armud ağacları elə bil yük altında inləyir, meyvələri az qala topağa tökülür. Əvəzolunmaz təbiət mənzərəsidir, qızım. Nə bilmək olar, bu yerləri gəlib görmək mənə bir də qismət olacaqmı?

Anamın öz xəstəliyindən doğan bu ovqatı ürəiymi lap yandırdı. Özümü bilməməzliyə vurub heç nə olmayıbmış kimi dillədim:

– Niyə elə deyirsən, ana, biz hələ çoxlu sayda gözəl günlər görəcəyik. Qayıdan kimi səni xəstəxanaya qoyub müalicə elətdirəcəm. Özüm də iş axtaracam. Bir parça çörək bizə qəhət olmaz. Ölümə çarə yoxdur. Ölüm adı tutduğuma peşiman olmuşdum deyə anamın fikrini yayındırmaq üçün boynunu qucaqladım.

22 avqust

Eivmizə qayıtmışdıq. Açarı qonşuya verib getmişdik deyə onları qapıda xeyli gözləməli olduq. Sən demə, Şərqiyə ata-anası ilə rayona toya gediblər. Bizim açarı da üçüncü mərtəbədki qonşuya qoyublar. Qonşunun oğlu bizi təsadüfən görməsəydi, elə qapıda durub gözləyəcəkdik. Qapını açanda yerə dördkünc bükülmüş bir kağız düşdü. Anamdan gizli tez götürüb cibimə qoydum. Vaxt tapıb məktubu oxumağa tələsirdim. Dəqiq bilməsəm də, məktubun ya anandan, ya arvadından oluğunu güman eləyirdim, Nihad. Ürəyim bərk döyünürdü. Ev çox isti, hava bürkü idi. Avqust ayının istisi Bakının küləyi ilə birləşəndə nəfəs almaq olmur. Xüsusən də, yayda ilıq gilavar külәkləri əsəndə insanın bədəni yapışqan kimi olur.

Bakıya küləkli şəhər deyirdilər. Külək olmasa dənizdən qalxan nəmişlikdən insanlar əziyyət çəkərdilər. Pəncərələri açıb evin havasını dəyişdim. Anamın tutmaları yenə başlamışdı. O gecə nəinki məktub, heç sən də yadıma düşmürdün, Nihad. Binyamindən qiyabi də olsa, sənin haqqında çox şey öyrənmişdim. Hətta ikinci dəfə yaralanandan sonra həkimlər cəbhəyə getməyə icazə verməyiblər sənə. Yenə nazirlikdə işləyirsən, Reyhan az-çox səndən mənə danışmışdı. Bunlar məni sakitləşdirirdi. Səni heç olmasa, gendən görə biləcəyimə yenə ümid bəsləyirdim.

Baxışlarımız bircə dəfə bir-biri ilə rastlaşsa, bu mənə bəs idi.

Bir ona sevinirdim ki, sənlə bir səma altında, bir şəhərdə yaşayırıq. Sənin udduğun hava pəncərəmi açanda evimə dolacaq, onu ciyərlərimə çəkib rahat nəfəs alacam. Çalışırdım ki, bir daha sənin ayağın dəyən küçəyə sarı burulmayım. Çünki artıq anan, arvadın məni tanıyırdılar. Daha qapında dilənçi yerində alçalıb təhqir olunmaq istəmirdim. Qüdrət yatan hospitalın yerini soraqolayıb öyrənmişdim. Anama sakitləşdirici dərman verib səssizcə qapıdan çıxdım. Qüdrət yatan hospitala getmək üçün tini burulub avtobus dayanacağına çatdım. Məktubu oxumaq üçün sakit bir yer axtarırdım. Dayanacaqda insan çox seyrək idi. Hospitala sarı 27 nömrəli avtobusa oturmaq istəyirdim ki, arxada qara örtüklü maşının da avtobusla eyni vaxtda tərpəndiyini hiss elədim. Əvvəl buna çox da elə əhəmiyyət vermədim. Keçib arxada, pəncərə tərəfdə oturdum. İndi məktubu oxuya bilərdim deyə gözümə heç nə görünmürdü. Zəndim düz çıxmışdı. Məktubu sənin sevimli arvadın yazırdı, Nihad. Dünyada necə təhqiramiz sözlər, söyüş vardısa, onu məktubda tapmaq olardı:

– …Deyəsən sən mənim dediklərimi qulaq ardına vurursan. Hələ də şəhərdən getməmisən? Onu bil ki, Nihad daha nəinki Bakıda, Azərbaycanda da yaşamır. Biz çox xoşbəxtik. Bu yaxında məni də yanına aparacaq. Bu məktubu qaynanamın göstərişi ilə yazıram. Səni çox ağır günlər, saatlar gözləyir. Demə ki, mən səni xəbərdar etmədim və sair və ilaxır…

Rəna yenə bir il bundan qabaqkı köhnə mahnısını oxuyurdu. Bu məni çox təəccübləndirmədi. Bircə şeyi başa düşdüm ki, aranızda vəziyyət kəsikinləşdiyi üçün Rəna belə təşvişə düşüb, Nihad. Məni gözləyən o çətin, qorxulu günlər hansıdır ki, sənin yoxluğundan, həsrətindən ağır olsun? Mən bu sözlərə artıq vərdiş eləmişdim. Yenə də ağlamaqdan özümü zorla saxladım. Ətrafdakılar görüb sorğ- suala çəkəcəklərindən ehtiyatlanıb özümü toxtatdım.

Avtobusdan düşüb hospitala tərəf buruldum. İki yüz-üç yüz addım məsafəni gedib böyük darvazaya çatdım. Yenə dalımca çox kiçik sürətlə gələn qara maşını görüb məni izlədiklərinə əmin oldum. Artıq qəbul şöbəsində idim deyə ürəyim arxayınlıqla vurурdu. Buraxılış kağızım olmadığından məni içəri buraxmırdılar. Bir də Qüdrətin adından başqa heç nə bilmirdim. Milli əsgər pal-

tarı geymiş sarışın, uzunboy oğlan heç cürə ipə-sapa yatmırdı.

– Bura hərbi xəstəxanadı, vətəndaş, bazar deyil ki, hər yoldan ötəni içəri buraxaq. Qayda-qanun hamı üçün birdir. Generala xəbər versələr, mənə ciddi irad tuta bilər. Qanundan kənara çıxa bilmərəm.

Ağlamaq məni tutmuşdu. Bir tərəfdən məktub, bir tərəfdən dalımca qarabaqara məni izləyən maşın, ən əsası da anamın təkliyi məni elə karıxdırmışdı ki, özümü saxlaya bilmədim. Ağlaya-ağlaya:

– Polkovnik mənim nişanlımdı. Şəhərdə olmadığıma görə yaralandığından təzəcə xəbər tutmuşam, ay qanunu əziz tutan cavan oğlan, – deyə dilləndim.

Deyəsən onu yumşalda bilmişdim. Əyilib yanındakına nə isə dedi. Telefonun dəstəyini götürüb harasa zəng çaldı. O saatı dəstəyi qoyub məndən üzr istədi. Qabağıma düşüb Qüdrət yatğan otağın qapısına qədər məni müşayət elədi. Əlim əsə-əsə qapını araladım. Birdən-birə içəri girməyə ürək eləmirdim. O, kiminləsə telefonla danışırdı:

– Ə, a qardaş, inciməsəydin, dəstəyi asardım. Dedilər ki, nişanlım məni görməyə gəlib. Telefondakı nə dedisə, hardan oldum ə, elə bəxtəvər, məni də sevən tapıla – deyib şaqqıltı ilə güldü. Mən də kiminsə nişanlısı sayıldım, qardaş. Yetim oğlanam, mənim ata-anam, nişanlım da o od tutub yanan Qarabağdı. Onu od-alovdan çıxarıb sonra özümə nişanlı seçəcəm. Ya qismət.

Telefonun o başındakı nə dedisə, Qüdrət yenə bərkdən güldü. Bir neçə dəfə görüşsək də, onu heç gülən görməmişdim. Qara gözlərinin dərinliyində həmişə bir kədər, nisgil olurdu Qüdrətin. İndi onun şaqqıltı ilə gülməsi mənə qəribə gəldi.

İstədim, elə qapıdan qayıdıb gedəm. Nişanlımdı dediyimə peşiman olmuşdum, çox utanırdım. Qüdrətin üzünə necə baxacağımı bilmirdim. Bu sözü nə məqsədlə dediyimi başa düşəcəkdimi? Çətin vəziyyətə düşmüşdüm. Tibb bacısı olmasaydı, yavaşca qayıdıb gedəcəkdim.

– Qapıda durmayın, xanım, keçin içəri, polkovnik sizi gözləyir – deyə gülə-gülə qapını geniş açıb məni içəri dəvət elədi. İçəri girməkdən başqa çarəm qalmamışdı. Qüdrətin görkəmində xoşbəxt bir adamın sevinci, dodaqlarında bir dünyanın təbəssümü

var idi. Özümü elə itirmişdim ki, dillənmədən ona əl uzatdım. Qüdrət əlimi tutub ovcunda xeyli saxladı. Sonra pişik balasını sığallayan kimi sığallayıb dodaqlarına apardı. Mən onun gözlərində heç vaxt bu qədər parıltı görməmişdim. Sənə bircə an qovuşmaq arzusu ilə ürəyimdə olan yanğını yadıma gətirib onu bu xoşbəxtlikdən məhrum eləmədim. Bu hissləri ancaq onu yaşayanlar başa düşərdi, Nihad. Bunun sənə heç bi dəxli olmasa da, əsəbləşəcəyini bilirəm. Onu da başa düşürdüm ki, sən ancaq ailə, övlad qayğısından qeyri ətrafını görməyən, özünü sevən bir adamsan. Belə olmasaydı heç olmazsa, məni axtarardın, Nihad. Nələr çəkdiyimi anlayardın. İndi mənim barəmdə necə düşünəcəyinin heç bir əhəmiyyəti yoxdur. Mənim fikrimcə, duyğusu sönük, başqalarının hisslərinə laqeyd adamlardan fərqli olaraq vətənin, torpağın bu dar günündə canından, qanından, hətta ailə səadətindən keçən Qüdrət, Binyamin kimilərinə hər şeydən əvvəl qayğı lazımdır. İnsanlıq qayğısı. Qüdrətin baxışı, hərəkətləri sadəcə bir dost, məni iki dəfə həyata qaytaran bir insanın qayğısı deyildi. Belə düşünmək ağılsızlıq olardı. Mən uşaq deyildim. Sənin tanıdığın Mehin də deyildim. Uğursuz səadətimin acısını dadandan sonra insanların hissinə, duyğusuna diqqətim artmış, daha mehriban, qayğıkeş olmuşdum. Qüdrət gəlişimdən o qədər şad-xürrəm olmuşdu ki, hətta yaralandığını kimdən eşitdiyimi soruşmağı da unutmuşdu. Mən də söz açıb vaxtı itirmək istəmirdim. Onun çiyni tənziflə sarınıb qolu boynundan asılmışdı. Əvvəlkinə nisbətən üzünün rəngi soluxmuş, arıqlamışdı. Mən gözümü tez-tez yayındırır, üzünə baxmaqdan çəkinirdim. Bununla bərabər hardasa ürəyimdə gizli bi sevinc duyurdum. Bu sevincin nədən yarandığını aydınlaşdıra bilməsəm də, hər halda bütün ömrünü hərbin ağırlığına sərf edən yetim bir insanda yaranan məhəbbət qığılcımlarına sevinirdim, hörmət edirdim. Anamın səhhəti ilə maraqlananda onun tək olduğunu bəhanə edib dik qalxdım. O, sol əlini qaldırıb yenə əlimdən tutdu:

– Biz yenə görüşəcəyikmi, Mehin? – Dedi.

Bu sualdan çox yalvarışa oxşayırdı.

– Sualın cavabı üçün səni tələsdirmirəm. İndi cavab verməyə də bilərsən. Bayaq qapıçıya dediyin sözün yəqinliyə inanmaq istərdim, Mehin, – deyə gülümsədi. Mən əlimi çəkib qapıya qaç-

dım. Onu incitmək, qəlbini qırmaq istəmirdim. Gün batmaq üzrə idi. Hava xeyli sərinləmişdi. Anam deyirdi ki, avqust ayının yarısından sonra havanın şaxı sınır. El arasında ona «quyruq doğur» deyirlər.

Günəş öz yatağına çəkilmiş, yerində sarımtıl, zəif qızartı qalmışdı. Ürəyim sıxılır, nədənsə sinəm tez-tez qalxıb –düşür, özümdəki anlaşılmaz halı başa düşə bilmirdim. Külək də kəsmişdi. Mənə elə gəlirdi ki, ürəyim kimi ətrafda nə varsa hamısının üstünə ağır bir kədər çöküb. Heç bir səbəb olmadan bayaqkı gizli sevincimdən əsər-əlamət qalmamış, yerində çiliklənmiş, sönük ümidlərimin xırda qığılcımları qərar tutmuşdu.

Qeyri-ixtiyari gözlərimdən yaş süzülürdü. Ətrafdakıları görmədən, duymadan, yorğun, üzgün halda küçəyə çıxdım. Tənhalığımı, kimsəsizliyimi bu günkü qədər heç vaxt hiss eləməmişdim. Ruhən yanıb qurtaran bir ocağa, öləziyib son şöləsini saçan şama bənzədirdim özümü. Xəstəxananın çöl divarına söykənib xeyli durdum. Nə edəcəyimi bilmirdim. Heç bir şeydən asılı olmayaraq Qüdrətin məni sevəcəyindən qorxurdum. Cavabsız məhəbbətin onu da mənim kimi bədbəxt edəcəyindən ehtiyatlanıb bir daha onun gözünə görünməmək üçün buradan birdəfəlik uzaqlaşmaq qərarına gəldim. Günahkar olduğum üçün vicdan əzabı çəkəcəyimi istəmirdim. O, mənim kimi ürəyi susmuş, duyğuları sönük bir adamla xoşbəxt ola bilməzdi. Özümü topayıb addımlarımı yeyinlətdim. Yenə dalımca gələn pəncərəsi qara örtüklü maşına fikir vermədən özümü avtobus dayanacağına çatdırmağa tələsirdim. Gözlənilmədən maşın düz üstümə yeriyib məni divara sıxışdırdı. Bərk qorxmuşdum. Özümə gəlməmiş eynəkli sürücü başını maşının pəncərəsindən çıxarıb dilləndi:

– Özündən muğayat ol, bacı qızı. Gələn dəfə…Sözünün ardını gətirmədən uzaqlaşdı. Maşının dalınca xeyli baxdım. Yenə daşın haradan atıldığı məlum idi, Nihad. Açıq-aşkar məni qorxutmaq istəyirdilər. Axı nə baş vermişdi? Uzaqdan-uzağa səni sevməkdən də məni məhrum etmək istəyirdilər. Özümdə təəssüf qarışıq bir qürur hiss elədim yenə. Bir şeyi də başa düşdüm ki, mənim varlığım bu adamları qorxuya saldığı üçün hər nə desən eləyə bilərlər. Mən anamı kimsəsiz, tək qoymaq istəmirdim. Bir daha ehtiyatlı olacağıma söz verə-verə evə qayıtdım.

25 avqust

İki gündür Qüdrətə baş çəkməyə gedə bilmirəm. Axı yenə qayıdacağıma da söz verməmişdim. Niyə belə narahatçılıq keçirdiyim özümə də aydın deyildi. Əlimə qələm götürüb nə isə yazmaq da istəmirdim. Bu gün Nərmin Moskvadan zəng vurmuşdu. Mənim üçün, Azərbaycan üçün darıxdığını dönə-dönə təkrarlayır, məni evinə dəvət eləyir, üstüörtülü səni də soruşurdu, Nihad. O sənin evləndiyini bilirdi, amma yenə bir köhnə dost kimi soruşurdu. Mən başıma gələnlərdən ona heç bir söz demədim. Bu iztirabları çəkmək tək mənə aid olduğunu hesab edib ümumi sözlərlə, sağollaşıb dəstəyi asdım. Dərdli adamın başını qarışdırmaq üçün nəynənsə məşğul olmağı bir dərmandan üstün tutur. Odur ki, növbəti məktubu yenə sənə ünvanlayıb sənli günlərimin xoşbəxt anlarını yaşamaq istədim. Bəzən adamın həyatında elə bəxtəvər anlar olur ki, özü ilə birlikdə bütün insanları, bütün dünyanı belə xoşbəxt görmək istəyir. Məktublarımı sənə ünvanlayanda özümü o bəxtəvər insanların arasında görürəm, Nihad. Ona görə bu axşam səninlə söhbət eləmədən yuxuya gedə bilmərəm deyə kağızı, qələmi qarşıma qoydum. Anam tez-tez Qüdrətdən söz salır, ləyaqətli, mehriban, vətən, torpaq təsibi çəkən bir adam kimi tərifləyirdi. Mənə bir söz deməsə də, anamın məqsədi mənə aydın idi. Bir ana kimi onu başa düşmək olar, amma məni anlamaq ürəyimin arzusunu, istəyini duymaq çox çətin olduğu üçün susurdum. Mən yox, ürəyim susub danışmırdı.

Səhər anam çox ciddi-cəhdlə düşbərə, qutab bişirirdi. Çox sevindim ki, anam özünü yaxşı hiss eləyir. Yəqin qonağımız olacaq deyə düşündüm. Atamın vəfatından sonra deyərdim ki, bizə qonaq gələn olmamışdı. Reyhanın gələcəyini güman etdim. Anamın səsi məni düşüncələrdən ayırdı.

– Tez geyin, bunu soyumamış Qüdrətə çatdır. Qutab ki, soyudu, heç nə. O uşaq ailə qayğısı görməyib. Günü-güzəranı da cəbhələrdə keçir. Qoy bir gün ev xörəyi yesin barı. Orduda qulluq eləyənlərin bu qayğıya çox ehtiyacı var, bala. Bizim ailədən vətənin müdafiəsinə gedən yoxdursa, qoy belə kömək eləyək.

– Niyə elə deyirsən, an,a çox qızlar indi cəbhəyə könüllü gedirlər. Mən onlardan əskik deyləm ki? İnşallah, sən babatlaşan kimi komissarlığa gedib ərizə yazacam. Tanrıya hər kəsin bir can

borcu var, nə vaxt istəsə alacaq. İstər arxa cəbhə olsun, istər ön cəbhə. Anamın eyni açılmışdı deyə onun ovqatını korlamaq istəmirdim. Məktubu yarımçıq qoyub geyindim. Bağlamanı götürüb yenə iyirmi yeddi nömrəli avtobusa oturmaq üçün dayanacağa gəldim. İstər-istəməz ətrafa göz gəzdirdim. Şübhəli bir şey hiss eləməyib arxayınlaşdım. Balaca qazanı dizimin üstünə qoyub oturmuşdum. Qazan isti olduğu üçün dizimi yandırırdı deyə bağlamanı oturacağın böyrünə qoymaq üçün əyildim. Məndən iki-üç oturacaq arxada qara eynəkli yekəpər biri oturmuşdu. Qara qalın bığları az qala ağzına tökülürdü. Başındakı qara idman papağını gözünün üstünəcən endirmişdi. Mən tez üzümü çevirdim. Ürəyim şiddətlə döyünürdü. Bayaqkı ovqatımdan əsər-əlamət qalmamışdı. O, əlindəki qəzeti o üz- bu üzə çevirir, özünü məşğul kimi göstərirdi.

Demək, Rəna məni bu yolla qorxudub şəhərdən qaçırmaq istəyir? Mən bu xoşbəxtliyi ona bəxş etməyəcəm. Qoy bütün aləmi mənə güdükçü salsın. Heç kəsdən qorxum yoxdur deyə özümü ələ alıb avtobusdan düşdüm. Qəbul saatı olduğundan hospitala gedənlərin sayı artmışdı. Bir yaşlı arvad beş-altı yaşlı nəvəsinin əlindən tutub gedirdi. Əyilib ağır zənbilini əlindən aldım. Arvad məmnunluqla gülümsəyib razılığını bildirdi. Hospitala bərabər çatıb ayrıldıq. Kefim pozulmuş, əhvalım qarışmışdı. Birtəhər özümü ələ alıb ikinci mərtəbəyə qalxdım. Qüdrət otağında yox idi. Alçaq bir kresloda təzəcə oturmuşdum ki, Qüdrət tibb bacısı ilə içəri girdi. Onu sarğı otağına apardıqlarını öyrəndim. O, təəccübündən az qala uşaq kimi atılıb-düşürdü. Əvvəlki kimi əllərimi ovcuna alıb sıxdı.

– Səni gözləmirdim, Mehin, bu necə xoşbəxtlikdir ki, mənə bəxş elədin? Keçən dəfə elə getdin ki, dedim, ta geri qayıtmazsan. Qəlbinə dəymədim ki, Mehin?

– Yox, yox, nə danışırsınız? Sizin kimiləri qəlbə dəyməyi bacarmazlar.

– Hardan bildin ki bacarmaram, Mehin?

Bir az tutulan kimi olodum.

– Çünki kimliyini bilmədiyiniz, tanımadığınız bir qızı ölümdən qurtarmısınız. Yenidən həyata qaytarmısınız.

– Elə bu?

– Heç bir təmənnasız həyatınızı torpaq, el yolunda vermisiniz. Məgər bu azdır?

Mən onunla rəsmi danışıb fikrini başqa sənətə yönəltmək istəyirdim.

– Demək, mənə sadəcə olaraq yazığın gəlir, ya da qayğımı çəkməyi özünə borc sayırsan? Düz başa düşmüşəm, Mehin?

Bir az tutulmuşdum. Araya söz qatıb canımı qurtarmaq məqsədilə gətirdiyim bağlamanı stolun üstünə qoyub açdım.

– Anam sizə qutab, düşbərə göndərib, soyumamış töküm yeyin, yoldaş polkovnik deyə zarafat da elədim. Özümdə bir qədər sərbəstlik duydum. Qüdrət yenə ürəklənib dilləndi:

– Xahiş edirəm, mənə siz deyə müraciət eləmə, Mehin. Axı mənim rütbəmdən əvvəl adım var?

Araya cansıxıcı bir sükut çökdü.

– Mən anamın xahişini yerinə yetirməliyəm. Əvvəlcə qutabı soyumamış yeyin deyə ona uzatdım.

– Sən də əvvəlcə keçən dəfəki təklifimin üstündə düşündüyünü deməsən, mən heç nə yeməyəcəyəm. Mən indiyə qədər heç bir qıza bu sözləri deməmişəm, Mehin. Məni dəli hesab eləyə bilərsən ki, cəmi beş-üç dəfə gördüyüm bir qıza ürək açıram. Ya elə başına gələn qəzavü-qədərin səbəbini öyrənmədən, bilmədən belə bir müqəddəs duyğudan danışıram. Mən də insanam, sevməyə ixtiyarım var. Bu gen dünyada sevən ürəyimdən qeyri heç nəyim yoxdur. Onu da sənə, bir də Vətənə verirəm. Ucuz tutub yerə atsan, yaşaya bilmərəm, buna inan!

Qüdrətin cüssəli bədəni balacalaşıb məhəbbətin qarşısında elə kiçilmişdi ki, ona yazığım gəldi. O danışdıqca üzümü, gözlərimi gizlətmək üçün yer axtarırdım. Pis vəziyyətdə qalmışdım. Sənin özün mənə bu sayaq odlu sözlər söyləməmişdin ki, ondan eşidirdim, Nihad. Bu odlu sözlər, odlu baxışlar ürəyimdə dolaşan buzu əridib, yumşalda biləcəkdimi, bilmirdim. Səssizcə başımı aşağı əyib qulaq asır, çıxıb getmək üçün fürsət axtarırdım. Belə hərəkətimlə ona qarşı hörmətsizlik eləyib hisslərini tapdalamış olardım. Məhəbbət yolunda tapdalanıb, alçalmaqdan ağır bir şey bilmirdim. Onun hisslərini qiymətləndirib hörmət edirdim. Axı nə edəsən ki, onun istəklərinə ürəyimdə cavab yox idi. Kasaya tökdüyüm düşbərə soyumuşdu. Onu qazana boşaldıb məzəmmət-

ləndirici bir baxışla onu süzdüm. İlahi, o məndən cavab gözləyirdi. Mən buna hazır olmadığımı, qəlbimdə onun sevgisinə yer qalmadığını necə deyim? Ürəyim narahatlıq içində çırpınırdı.

Qüdrətin telefonuna zəng gəldi. Aramızdakı gərginlik bir qədər azaldığı üçün sevindim. Dərindən nəfəs alıb rahatlandım.

O kimnənsə danışırdı:

– Sən gəlməsən də ürəyinin mənim yanında olduğuna əminəm, qardaş. Sizin işiniz heç də hərbiçilərinkindən geri qalmaz, bilirəm. Biz bir cəbhədə, siz də digərində vuruşuruq. Evinizə zəng vurmuşdum. Xaricdə ezamiyyətdə olduğunu dedilər.

Danışan nə dedisə, Qüdrət bir qədər qüssəli, bir az da təəssüflə dedi:

– Hiss eləyəndə ki, səni evdə gözləyən var, kimsə səndən nigarandı, onun başqa ləzzəti olur. Sən xoşbəxt adamsan, qardaş. Neynim, subaylığın daşın ata bilmirəm. məni bəyənən yoxdur. Ə, nazir oğlu olanda nolar, mən də sənin keçmiş komandirin polkovnik Qüdrət Qarabağlıyam, dana. Ailə başqa şeydi. Sənə bir komandir kimi əmr eləyirəm, qayıt ailənin, uşağının yanına! Ailə qurmaq asan, onu saxlamaq çox çətindi.

Qüdrət telefonda uzun-uzadı nəsihətlər verir, elə bil məni unutmuşdu. Kimlə danışdığı təxminən mənə aydın idi. Demək, Nihad şəhərdə, doğrudan da, yox imiş. Rəna birdəfəlik gedib, məni də yanına aparacaq deyəndə özündən uydururmuş. Nitqim elə bil batmışdı. Oturduğum kreslodan bərk-bərk yapışıb titrədiyimi bildirmək istəmirdim. Halımın dəyişdiyini Qüdrət sezməsin deyə qazanı götürüb xörək qızdırmaq üçün xəstəxananın mətbəxinə keçdim. Qayıdanda Qüdrətin qalxıb oturduğunu gördüm. Başını əllərinin içinə almışdı. Başını ağır-ağır qaldırdı. Üzündə sanki boranlı bir qış covlan edirdi. Qaşığı bir neçə dəfə ağzına aparıb kasanı geri itələdi.

– Mən neçə qorxulu əməliyyat keçirmişəm. Elə vaxt olub ki, düşmənlə, lap ölümlə üz-üzə, göz-gözə durmuşam, onda da bu qədər acizləşməmişəm, Mehin. Özüm də bu halıma məəttəl qalmışam. Görünür məhəbbət sevilənlər üçün imiş, mənim kimilərinə layiq deyil.

Cəsarətimi toplayıb dilləndim:

– Məhəbbət həyatın qanunudur. Bütün canlı-cansızların heç

biri məhəbbətsiz yaşaya bilməz. Siz vətənpərvər, ölümün gözünə dik baxmağı bacaran bir hərbiçisiniz. Bu məsələləri məndən yaxşı bilirsiniz ki, məhəbbət də azadlıq sevir. Azadlığı, müstəqilliyi olmayan bir ölkədə məhəbbət də əli-qolu bağlı bir qula bənzəyər. Bizim nə azadlığımız, nə də müstəqilliyimiz bütövdü, tamdı. Torpaqlarımız bölük-bölük, yağı tapdağındadır, Qüdrət. Onu azad eləyib tamlığımıza, bütövlüyümüzə çatmasaq, məhəbbətdən danışmaq mənə elə gəlir ki yersizdi!

O sözümü kəsdi:

– Bir yana baxanda sən düz deyirsən. Lap filosoflar kimi danışıb, tarixçilər kimi fikir yürüdürsən. Amma məhəbbət olmasa, torpaqları da azad eləmək olmaz, Mehin. İndi bizə nifrət də, məhəbbət də lazımdır, bunu unutma. Axı biz canlı insanıq?

Mən sözümü rəsmi başladığım kimi o da rəsmi cavab verirdi. Mövzudan mümkün qədər uzaqlaşmağa çalışırdım. Lakin hiss eləyirdim ki, Qüdrətin hisslərinə qarşı laqeyd də deyiləm. Bunu heç nəynən izah eləyə bilmirdim. Onu atasız, qardaşsız, məhəbbəti ayaq altına atlımış bir qıza Allah taala tərəfindən göndərilmiş dost, xeyirxah, yaxın bir insan kimi qəlbimdə hər cür ehtirasdan uzaq bir şəfqətlə sevirdim. Məni bu vəziyyətə salan sən olmuşdun, Nihad. Ürək çırpıntılarını on səkkiz yaşlı, on doqquz bir gənc kimi bəyan eləyən bu alicənab, hər cür ehtirama, sevgiyə layiq adama niyə cavab verə bilmirdim, Nihad, niyə? Axı onun buna haqqı çatır. Səndən fərqli olaraq o cəsarətlə sevgisini dilə gətirib, hər cürə sübut etməyə hazır olduğunu deyirsə, nədən dilsiz-ağızsız daş parçasına dönüb ona sönük nəzərlə baxıram? Səninlə xəyali söhbətimdən ayılıb cəld otağa qalxdım. Qüdrət susmuşdu. Təəccüblə üzümə baxır, heç nə demirdi.

– Bu haqda danışmağa daha ehtiyac yoxdur, Qüdrət bəy - Ona rəsmi müraciət edirdim.–Siz sındırılıb ayaq alğtına atılmış bir qəlbdənmi məhəbbət umursunuz? Başıma gələnlərin təfərrüatını öyrənmədən həyatınızı özünü öldürmək dərəcəsinə çatan bir qızamı sərf eləmək istəyirsiniz? Sizin layiq olduğunuz qədər sevə bilməyən bir ürək nəyinizə gərəkdir? Siz daha böyük ehtirama, saf, təmiz məhəbbətə layiqsiniz. Mən özümün sizin qədər sevə biləcəyimə əmin olmadığım halda təklifinizi necə qəbul edə biləRəm? Gəlin aramızda yaranan bu dostluğu məhəbbət telləri ilə

bağlamağa tələsməyək. Aramızda elə bir ünsiyyət yaranıb ki, ona xələl gələcəyini nə mən, nə də anam istəməzdi.

Bu məsələni vaxtın, zamanın boynuna qoyaq. Deyirlər ki, zaman ən yaxşı həkimdir. Bu tezliklə ürəyimdəki yaramın sağalacağına inanmıram. İndi mən canlı məxluqdan çox ruhsuz cansız bir müqəvvaya bənzəyirəm. Anam üçün yaşamaq xatirinə yaşayıram. Etirafımın doğruluğuna inanın. Bəlkə nə vaxtsa yaram sağalacaq, izi itib gedəcək, onda kiminsə məhəbbətinə ehtiyac duyacamsa…

Özümü saxlaya bilmədim. Göz yaşlarım sözümü qurtarmağa imkan vermədi. Qüdrət də kövrəlmişdi. Mənim başıma gələnlərdənmi, ya sevdasının uğursuzluğundanmı ağlayırdı. Sinəsi qalxıb-düşür, çiyinləri titrəyirdi. Ürəyimdən bir ağrı keçdi. Qalxıb ona yaxınlaşdım. Əllərindən tutub sakitləşdirmək istədim. Qüdrət gözlərini geniş açıb üzümə baxdı. Bu baxışda şəfqət, məhəbbət dolu acı bir nisgil, təəssüf, istək hiss elədim. Onu daha artıq təsirləndirməmək üçün çantamı götürüb pilləkanlarla birnəfəsə aşağı düşdüm. Anama nə deyəcəyim, Qüdrətin üzünə bir daha necə baxacağım haqda fiikrləşə-fikirləşə darvazaya çatdım.

Qüdrətin:

–Səni bir də görmək xoşbəxtliyindən məni mərhum eləmə, Mehin! Nə qədər buradayam, heç olmasa, tez-tez mənə baş çək. Siz Məleykə xanımla mənə doyunca üzünü görüb, qayğısını hiss eləmədiyim ailə əvəzisiniz. Mən sağalan kimi birbaş yenə cəbhəyə gedəcəm. Kim bilir başıma nə iş gələcək. Söz ver, Mehin, söz ver deyə acizanə yalvarışları qulağımdan getmirdi.

12 sentyabr

Payızın addım səsləri ağır-ağır yaxınlaşsa da hələ isti idi. Adəti üzrə yay deyirlər öz ömrünü bu ayda payızla bölüşür. Odur ki, havalar gah isti, gah da sərin olur. İndi bəzi idarələrə baş vurub iş axtarmalıyam deyə tez-tez müxtəlif bəhanələrlə evdən çıxır, çox ləngimədən evə qayıdırdım. Bu məsələdə anamı əndişələndirmək istəmirdim. Payız, qış qapını kəsəndə çətinlik çəkəcəyimizi bilirdim. Hələ satdığım qolbağının pulundan bir az dururdu. Onu çox qənaətlə işlədirdim. Reyhan bu axşam bizə gəlmişdi. Qanı çox qara idi. İşdən çıxmaq istədiyini deyəndə anam

etiraz elədi.

– Yox, qızım görürsən ki, respublikada vəziyyət necədir? Qaçqın, köçkünlərin, cəbhədəki vəziyyətin ağırlığı hökumətin özünü necə çaşdırıb? Vallah, Reyhan, bilmirəm axırımız necə olacaq? İndi hər qrup, hər dəstə bir tərəfdə at oynadır, mənəm-mənəmlik eləyirlər. Torpaq qalıb bir yanda, bir-birinin ətini yeyirlər. Ərzaq, çörək qıtlığı da güzəranımızı çətinləşdirib. Ata-ananı nəzərə al, işini əlindən buraxma. Ağlını başına yığ.

Reyhan gözlənilmədən hönkürüb, ağladı. Bunu ondan heç gözləməzdim. Həmişə onu şən, deyib-gülən, mahnı, muğam oxuyan görmüşdüm deyə çox təəccübləndim. Yenə bizə nə isə alıb gətirmişdi. Anam onun boynunu qucaqlayıb alnından öpdü. Əlindən tutub mətbəxə aparanda mən öz otağıma keçdim. Qəribə idi, masamın üstündə nə varsa, qarışdırılmış, məktubların yeri dəyişdirilmişdi. Mən bunu anamın eləyəcəyi gümanı ilə səsimi çıxarmadım. Anamın bütün ciddi-cəhdinə baxmayaraq o heç bir fincan çay da içmədi. Hətta mənimlə sağollaşmamış çıxıb getdi. Anamın əhvalı bir az durulmuşdu deyə mən də Qüdrətin vəziyyətindən ətraflı söhbət eləyib düşbərəni, qutabı məmnuniyyətlə yediyindən, ona salamlar göndərdiyindən ürək dolusu danışdım. Anamdan gizli Şərqiyəni çağırıb bir az söhbətləşdik. O mənim iş axtardığımı bilən kimi dedi:

– Bıy, qonşu dar gündə adamın əlini tutmayacaqsa, o nə qonşudu, bacı? Atama deyərəm, sənə bir iş tapar. Sən nazir vəzifəsizad istəmirsən ki, xırda bir iş nədir ki, onu da tapmayaq. Mən atamla danışaram, sən ürəyini buz kimi saxla, elə bil ki, sabahdan işləyirsən. Məleykə xala mənə o qədər kömək eləyib ki? O olmasaydı, instituta girə bilməzdim. Bu qonşular arasında kim onun köməyini görməyib? Kimə dərs deyibsə, instituta girib.

Bacı canı belə müəllimləri indi barmaqla göstərirlər. Xətrinə dəyməsin, hamıya ərişdə kəsdi, özünə umac ova bilmədi. Öz qızı təhsilini yarımçıq buraxdı. Nə bilim, vallah…

Anam lap dilxor olmuşdu. Ona ağız açdığıma acığı tutmuşdu. Onun atasının namərdliyini bilirdi deyə Şərqiyə gedən kimi mənə acıqlandı:

– Adam aclığını hər kəsə bildirməz, Mehin. Deyirlər ki, keçmə namərd körpüsündən, qoy aparsın sel səni.

Onun verdiyi iş bizə lazım deyil. Acından ölərəm, səni belələrinin əli altında işə buraxmaram. Allah özü qapı açandı. Acından ölmərik, qızım. Yuxarıdakı qonşunun azyaşlı qızına sataşmışdı. Səftər kişinin deyirəm e…Adamın gərək neçə sifəti ola ki, atası ilə dostluq eləyə, qızına da sataşa. Yazıq Səlimə arından səsini çıxardıb bəyan da eləyə bilmirdi. Belələri başqasına təmənnasız əl tutmaz, bala. Bir az ayıq ol. Bu dünya belə namərdləri niyə yaşadır, bilmirəm?

Qoy bir az özümə gəlim, yenə bir neçə şagirdi imtahana hazırlaşdıracam. Bu bizə yaşamaq üçün bəs eləyər. Amma ay Mehin, axı bu Reyhandan heç baş açа bilmədim ki, ona nə olub? Axşam çayını da içməmiş çıxıb getdi.

– Nə bilim, sən də hamının qayğısına qalırsan, öz qızının dərdi-səri ilə maraqlanmırsan. Camaatın dərdini çəkmək sənə qalıb? Bilmirsən, onunla mənimki heç tutmur. Çox sirli, qapalı adamdır. Hələ əvvəlcə de görüm mənim dəftər-kitabımı kim belə qarışdırıb? Şəxsi əşyalarım kimə lazımdır ki, alt-üst ediblər?

– Sən belə danışanda elə bilirəm heç ananı tanımırsan. Necə ola bilər ki, gözümün işığı yeganə balamla maraqlanmayım. Niyə qəlbimə dəyirsən, Mehin? Nə vaxt mən sənin otağında nə isə axtarmışam? Reyhan orda oturub səni gözləyirdi. Nolub ki?..

Anamı incitməkdən ehtiyatlanıb söhbəti uzatmaq istəmədim. Qapını örtüb mətbəxə keçdim. Məktublarımın, şəkillərimin belə qarışdırılmağı mənə aydın idi. Bir daha bu mövzuya qayıtmamaq üçün susdum. Gülə-gülə anamı qucaqladım:

– Bu gün- sabah Qüdrət xəstəxanadan çıxır, ana. Səni soruşurdu. Bəlkə, onun xəstəxanadan çıxıb getməyə yeri yoxdur? Nə məsləhət görürsən?

Anamın ovqatı dəyişdi. Mənim Qüdrətlə maraqlanmağım ona xoş gedirdi. Əslində məni Qüdrətdən çox, onun o günkü telefon danışığı maraqlandırırdı. Bəlkə bu sən idin? Bəlkə, Binyaminin haqqında ürək dolusu danışdığı nazir oğlu elə sənin özün idin?

Maraq məni götürmüşdü. Bunu Qüdrətdən soruşmaq ağılsızlıq olardı. Həm də Qüdrətin qəlbinə dəyərdi. Bu fikri başımdan qovub çıxartmaq, ən yaxşısı unutmaq istəyirdim. Sənin haqqında düşünmək ən azı məni yaşamağa qoymurdu. Sənli xatirələrimin ağırlığından can qurtarıb başqa bir adam olmaq xəyalı bəzən

məni rahat qoymurdu. Bütün varlığımı o xatirələrə verdiyim halda nəinki başqalaşmaq, özümü inkar etməyin yollarını da bilmirdim. İnsan özü-özünü necə inkar eləyib özündən qaça bilər? Mən o xəyallarım, xatirələrimlə qaynayıb qarışıb bir can olmuşdum. Bu bütövlüyün pozulmasını, sənli günlərimin xoş xəyallarına birdəfəlik nöqtə qoyulmasını istəmirdim. Nə vaxtsa sənlə ehtiraslı bir görüşə ümid edirdim. Əl-ələ tutub universitetin pilləkənlərindən düşdüyümüz anları, ya elə aylı-ulduzlu Quba gecələrini, şəfəq dolu gündüzlərini göz önünə gətirirdim, Nihad. Özümü tamamilə bu xatirələrin ixtiyarına verirdim. Bəzən bu xəyallara o qədər aludə olurdum ki, öz səadətini yuxuda tapan adam kimi özümü xoşbəxt sayırdım. Yuxudan ayılan kimi bu xoşbəxtlik əlimdən düşüb itir, balaca otağımın divarlarına çökən ağır sükutla təkbətək qalırdım. Gözləmədiyim bir vaxtda Qüdrətin gündəlik həyatımda peyda olması içimdəki gizli atəşi söndürə bilməsə də, anamı sevindirdiyi üçün mən də özümü hər şeydən razı, məmnun kimi göstərirdim. Gecənin tez düşməyini hər nədən, hər şeydən çox arzulayırdım, Nihad. Xəyalən arzuladığım adama məktub yazmaq mənə hədsiz bir təsəlli, çəkdiyim iztirablar səadət kimi görünürdü. Sənin arvadın, uşağın, isti yuvan var idi. Bir də həyatıma qayıtmayacağını, bu məktubların da oxunmamış qalacağını bilə-bilə bütün dərdlərimi, düşüncələrimi məktublara tökməkdən çəkinmirəm. Dolmuş ürəyi boşaltmayanda onun yükünü çəkmək iki qat ağır olur, Nihad.

Ürəyimi heç olmasa, kağıza boşaltmağa ehtiyacım var indi.

27 sentyabr:

Bu gecə gec yatdığımdan yuxudan üzgün və yornuq oyanmışdım. Başım bərk ağrayırdı. Neçə günün xəstəsi kimi yataqdan qalxa bilmirdim. Çarpayımla üzbəüz masanın üstündəki balaca yumru zəngli saat doqquzu vururdu. Qalxıb otağımın qapısını araladım. Anam nahar süfrəsini açıb əlləri qoynunda oturmuşdu. Onun kədərli baxışları hara isə uzaqlara zillənmişdi. Mənim yataqdan qalxıb vanna otağına getdiyimi də hiss eləmədi. Onun rəngi saralmış, vaxtından əvvəl qocalmışdı. Bir-iki il əvvəl saçlarında tək-tək görünən ağ tüklər çoxalmışdı. Gicgahından yuxarı daranan saçları bir dəstə pambıq kimi ağarırdı. Anamı birinci

dəfə görürmüş kimi dönüb ona təkrar baxdım. Ayaq səslərimi eşitcək çevrilib məni gördü:

– A mənim tənbəlim, dəcəlim, bircəm, bir belə də adam yatar? Ər evində də belə olsan, qaynanan böyük qalmaqal salar.

– Yox, ana, gecə bir az gec yatmışdım. Məndən yana darıxdın?

– Darıxmağına, darıxdım. Ancaq sənə deyiləsi sözüm də var.

– Nə söz? –Marağımı gizlədə bilmədim.

Anamın dodaqları azca qaçdı:– Axşam bərk hisrlənmişdin – deyə səninlə söhbət eləyə bilmədim. De görüm hirsin soyuyub, ya yox?

Qayıdıb anamın boynuna sarıldım. Ağ saçlarını öpüb sığalladım.

– Nə danışırsan, ana, yazılarımı kimsə qarışdırıb. Mən ona hirslənmişdim. Sənin nə günahın var? İndi de görüm mənimlə nə haqda danışmaq istəyirdin? Sənin hər sözün mənə qanundur.

– Elə isə bu saat Qüdrətə baş çəkməyə get! Bəlkə, bir köməyə ehtiyacı var. Kimsəsizliyi, yetimçiliyi mən görmüşəm, qızım. Həyatda təklikdən pis şey yoxdur.

– Niyə kimsəsiz olur, ana. Heç atalılar onun kimi hörmət, izzət qazana bilmir. O cürə işi, vəzifəsi, dostları olan adam da kimsəsiz olar?

Qüdrət haqqında dediklərim anamı xoşhal eləmişdi deyə geyinib evdən çıxdım.

Qüdrətlə rəsmi görüşüb salamlaşdıq. Qanı çox qara idi. Bunu keçən dəfəki söhbətimizlə əlaqələndirib xəstəxanadan nə vaxt çıxacağını soruşdum. Qüdrətin mənə quru cavab verməyi xatirimə yaman dəymişdi. Həkimin əlində qara rentgen kağızı içəri girməyi fikrimi qarışdırdı. Pərakəndə düşüncələrimi bir yerə toplamamış həkim dilləndi:

– Bu rentgen cavabı ilə sizi cəbhəyə buraxa bilmərəm, yoldaş polkovnik. Bu ən azı mənim tərəfimdən edilmiş cinayət olar. Cəbhəyə sağlam əsgər lazımdır. Bir həftə, on gün də gözləməli olacaqsınız. Bizim hospitalın qayda-qanunlarına bələdsiniz axı.

Qüdrət azca gülümsədi.

– Düz deyirsiniz həkim. Mən də bir az hövsələsizlik də var. Bir yerdə uzun müddət qalmağa hövsələm çatmır. Mən Rostov vi-

layətinin Çerkaski şəhərində qulluq eləyəndə bərk xəstələnmişdim. Hospitaldan qaçıb bölməyə getdiyimin üstündə başım çox ağrıdı. On günlük cəza aldım.

Həkim dilləndi:

– Yeri gəlmişkən, səndən soruşmaq istəyirdim ki, nə əcəb orada evini, qulluğunu atıb bura gəlmisən? Rusiyada yaşayanlar vətənə çox çətin dönürlər.

– Siz nə danışırsınız, həkim? Mən yetim böyümüş adamam. Ailə qayğısından çoxdan məhrum olduğuma görə həmişə özümə sığınacaq axtarmışam. Rusiyada tapdığım o isti sığınacaq məni qızdıra bilmirdi. Onun üçün də vətənimin dar gününü eşidən kimi özümü onun qucağına atdım. Nəyim varsa imtina edib, beş ilə yaxındır ki, doğma torpağımın keşiyindəyəm. Mənim kimi rus ordusunda qulluq eləyən çoxlu sayda zabitlər vətənə qayıtdılar. Mən başqa cür hərəkət eləyə bilməzdim. Üzünü görmədiyim atamdan sonra çox kiçik yaşlarımda anamı da itirdim. Hərbi qulluqdan sonra bir də geri qayıtmadım. Moskvada hərbi akademiyanı bitirib müxtəlif ordu bölmələrində işlədim. Canımla, qanımla qulluq elədiym bir ordunun işğalçı məramı ondan üz çevməyə məni məcbur elədi. Gördüyünüz kimi indi də qarşınızdayam. Torpağıma qan tökən xəyanətkar bir orduda necə qulluq edə bilərdim? Vətən torpağı mənə hər şeydən əzizdir.

Onun mənə qarşı soyuq davranışı xətrimə dəymişdi deyə söhbətinin axırını gözləmədən qalxıb getdim.

17 sentyabr

Anamın təkidi ilə bir neçə dəfə yenə Qüdrətə baş çəkdim. Hər dəfə cansıxıcı anlar keçirir, Qüdrətin suallarına «hə, yox» deyə qısa cavab verir, evə qayıdacağım üçün müxtəlif bəhanələr uydururdum. Heç yerdə özümə dinclik tapa bilmir, özümü evə çatdırıb otağımda dərdimlə baş-başa qalmağı bir səadət hesab eləyirdim, Nihad. Hospitaldan çıxanda başım gicəllənir, üstümə dünyanın qəmi çökmüş kimi addımlayır, elə bil dizlərim bədənimi saxlmırdı. Əvvəlki kimi məni izləyib izləmədiklərinin də fərqində deyildim. Doğrudan da, bir neçə dəfə gedib-gəlmişdim, mənə dəyib-dolaşan yox idi. Bunu ailənizin mehribançılığı ilə bağlasam da, yenə narahat idim. Dayanacaqda köhnə tanışlarımdan birinə

rast gəldim. Qucaqlaşıb öpüşsəm də, bu görüş ürəyimi açmırdı. Bir neçə dəqiqə boş, lüzumsuz suallarla məni elə yordu ki, avtobusun gəlməyi canımı ondan qurtarmağa kömək elədi. İki gündən sonra Qüdrət hospitaldan çıxacaqdı. Mən yenə görüşmək üçün tələsirdim. Qüdrətdə olan şuxluqdan əsər-əlamət qalmamışdı. Hal-əhvaldan sonra dalğın baxışları üzümdə sancılıb qalır, tez-tez köksün ötürür, sanki danışmağa söz tapmırdı. Cansıxıcı anların ağır sükutu aramıza çökür, bunun səbəbini hər ikimiz bildiyimizə görə dinib-danışmırdıq. Xəstəxananın qayda-qanunlarına görə görüş çox qısa olurdu deyə ayağa qalxıb sağollaşdım. Sabah yenə gələcəyimə, onu evimizə aparacağıma söz verib aşağı endim. Arxayın, ağır addımlarla avtobus dayanacağına sarı buruldum. Hava çox soyuq idi. Küləkdən qorunmaq üçün üst geyimimin yaxalığını qaldırdım. Əllərimlə bərk-bərk tutub ətrafa məhəl qoymadan irəlilədim. Öz miskinliyimi bu günkü qədər heç vaxt hiss eləməmişdim. Çətitn anlarımda saatlarımda mənə dayaq olan bu təmizürəkli vətən oğlunun əzablarını yüngülləşdirməkdə niyə güc-qüvvə tapa bilmirdim? Qüdrət çox əzab çəkirdi, lakin qüruru bu əzab-əziyyətləri bildirməyə imkan vermirdi. Hisslərini gizlətməyi bacarırdı. Bunu ancaq ruhən qüvvətli insanlar eləyə bilərdilər. Mən özümə nankorcasına hərəkət eləyən mərhəmətsiz bir adam kimi nifrət eləyirdim. Arxadan gələn adamın hənirtisini duyub ayaq saxladım. Geri dönmək istəyəndə qüvvətli bir əl ağzımı tutub məni ağacın dalına sürüdü. Ağzıma tıxanan dəsmalın iyindən çox keçmədi ki, huşumu itirdim. Ayılanda özümü alçaq bir otaqda, dəmir çarpayıda gördüm. Ətrafda heç bir inni-cinni yox idi. Hər tərəf qara zülmət idi. Harada olduğumu, bura necə düşdüyümü anlaya bilmirdim. Qapıya, pəncərəyə yüyürdüm. Hər tərəf bağlı idi. İlk öncə anamın nigarançılığını düşünüb acı-acı ağladım. Mənim günahım nə idi, məndən nə istəyirdilər, bilmirdim? Ağlamağın, qışıqrıb fəryad qoparmağın mənasız olduğunu başa düşüb susdum. Qaranlıqda məni vahimə bürümüşdü. Əl çantamı axtardım. Səhərə yaxın çarpayının altından tapıb sevindim. Balaca telefonuma ümid bəsləyirdim. Lakin çantamda nə pul, nə telefon var idi. Səhər qapının zəif cırıltısını eşidib, özümü irəli atdım. Kimsə qapını açıb tez də yox oldu. Heç kəsi görmədim. Qapı açıq idi. Payızın soyuq küləyi

canıma çöküb məni titrətdi. Qorxa-qorxa çölə çıxdım. Qapının ağzında bir vərəqdə yazılmışdı: «Nihadın adını dilinə gətirsən, özünü ölmüş bil. Bu dəfə sənə rəhm elədik.

Kağızı götürüb oxuya-oxuya soyuq buz kimi pilləkənin üstünə çökdüm. Sinəmdən elə bir ah, elə bir nida qopdu ki, təzədən hönkürüb ağladım. Bura kiminsə bağ evi idi. Ətrafda bir canlı gözə dəymirdi. Şosseyə çıxana qədər xeyli yol getdim. Məni bütün gecə axtarıb fəğan eyləyən anamın halını gözümün qabağına gətirdikcə hövürlənir, ürəyim az qala yerindən çıxırdı. Hamı bağdan köçüb getdiyinə görə evlərin, ağacların üstünə ağır, payız sükutu çökmüşdü. Tək-tək həyətlərdən hürən itlərin səsi gəlirdi ki, məni qorxudan ən çox da bu idi. Bağların aralarından keçən yollar bomboş idi. Piyada getməkdən qeyri çarəm qalmamışdı. Mən necə olur-olsun, özümü evə, anama çatdırmalı idim. Hələ qonşuların söz-söhbətiniyada salmırdım. Hər kəs bir cürə düşünəcək, evə gəlmədiyimin səbəbini müxtəlif yerə yozacaqlarını bilirdim. Nə olur-olsun, bu, məni qorxutmurdu. Təki evimizə tez çata bilim. Ancaq bu haqda düşünə-düşünə addımlarımı yeyinlətdim. Kim idi bu adamlar, məqsədləri nə idi, onun da bilmirdim. İndicə avaranın birinə rast gələcəyimi, rüsvay olacağımı fikirləşəndə canıma titrətmə düşür, qılçalarım əsirdi. Birdən hardansa qulağıma kişi səsi, qadın qəhqəhəsi dəydi. Dayanıb xeyli dinlədimsə də, bu səsin hansı tərəfdən gəldiyini müəyyənləşdirə bilmədim. Çox keçmədi ki, motor gurultusu açıq-aydın eşidildi. Maşını sürən sarı saçları kürəyinə tökülən, uzun sifəti qadından çox kişiyə oxşayan, zəngin geyimli bir qadın idi. Bir neçə metr gedib maşını saxladı. Kişiyə oxşar cəldliklə atılıb yerə düşdü. Arxada oturanları maşının şüşəsindən görmək olmurdu. Qadın mənə yaxınlaşıb elə güldü ki, onun şit hırıltısından lap iyrəndim, ürəyim bulandı.

– Hə, bu nə görkəmdi? – Azzz, atdılar səni? Yəqin bir şey qazana bilməmisən? Maşında yer yoxdur, yoxsa səni götürərdim. Yaxınlaşıb çənəmdən tutdu. Başımı yuxarı qaldırıb gözlərimin içinə baxdı.

– Nə gözəlsən, ay qız. Səni bura gətirənlər ağızlarının dadını bilirlərmiş. Kor olsun kişilərin gözləri ki, belə gözəlliyi görə bilmirlər.

Onun danışığından, eyhamlarından heç nə başa düşmürdüm. Göz yaşlarım leysan kimi axıb gedir, özümü ələ ala bilmirdim. Burda ölüb qalmağa da razı idim, kaş bu iyrənc adam rədd olub gedəydi. Maşından müxtəlif səslər gəlir, onu tələsdirirdilər. Qadın mal alıb satan dəllallar kimi məni başdan ayağa süzür, müxtəlif suallar verir, harada yaşadığımı, kim olduğumu öyrənmək üçün dəridən-qabıqdan çıxırdı. Bu qır-saqqız adamın yaxamdan əl çəkməyini gözləyirdim. Dinib-danışmadığımı, elə ağladığımı görüb dilləndi:

– Azz, bəsdi mən ölüm. Gələndə bilmirdin bura səni niyə gətirirlər? İndi özünü abırlı-həyalı göstərmək üçün ağlayırsan? Yazıq…

Şaqqıltı ilə güldü. Gəldiyi kimi də cəld maşına qalxıb motoru işə saldı. Dərdim bu görüşdən sonra birə-iki artmışdı. Düşdüyüm vəziyyətdən çox o yaramaz qadının sözləri məni yandırırdı. Onlar gedəndən sonra yolun kənarına çəkilib xeyli ağladım. Soyuqdan tir-tir əsir, dilim-dodaqlarım söz tutmurdu. Səhər tamamkamal açılmışdı. Təzəcə başlanan payız çiskininin artıb yağışa çevriləcəyindən qorxurdum. Yolun lap kənarında tikilən ikimərtəbəli böyük bir binanın divarına qısılıb harada olduğumu fikirləşirdim ki, qarşıdan gələn ağ rəngli jiquli xırıltı ilə qarşımda dayandı. Bayaqkı hadisəni xatırlayıb evlərin arası ilə hara gəldi qaçmağa başladım. Maşından düşən oğlan nədənsə məni təqib eləmir, yerində dayanıb dalımca baxırdı. Qarşıdakı alçaq tikiliyə çatanda qanrılıb geri baxdım. Oğlanın yanında dayanan qadın nəzərimi cəlb elədi. Onu uzaqdan dəqiq tanıya bilməsəm də kiməsə oxşatdım elə bil. Qadın əlinin hərəkəti ilə məni geri çağırır, nə isə deyirdi. Mən artıq qaçmırdım. Alçaq hasarın dibindəki taxta oturacağa çökdüm. Bir anlığa başımdan yenə dəli bir fikir keçdi. Bir az da irəli gedib yalquzaq kimi ulayan dənizin sularına atılmaq, bu əzablara son qoymaq istədim. Onsuz da sənin varlığını bilə-bilə sənsiz yaşamaq mənə cəhənnəm əzabından artıq idi, Nihad. Qüdrətin mənə səxavətlə bağışladığı məhəbbətini qəbul edib bir təhər yaşaya biləcəyim halda bu necə zillət idi, çəkirdim? Özümə də aydın olmayan, əbədiyyətə qədər məni rahat buraxmayan hisslərimin əlində əsir-yesir olmuşdum. Nə ölə, nə yaşaya bilirdim.

«Ölüm», «qalım» – bu ikili fikir, ikili düşüncə arasında qalmaqdan çətin nə ola bilər, bilmirdim? Onların yaxınlaşdığını hiss eləyib tikilinin arxasına keçdim. Köhnə, baxımsız tikilinin taxta qapısı külək dəydikcə cırıltı ilə açılıb-örtülür, payızın küləyindən, yağışından özünü qoruyan quşlar aramsız girib-çıxır, qoca tut ağacı bu kimsəsiz evi təbiətin şıltaqlığından qorumaq üçün çılpaq qanadlarını onun üstünə gərmişdi. Bu qəribə mənzərədən ürəyim sıxıldı. Düşdüyüm bu vəziyyəti qapı, pəncərəsi çırpılan kimsəsiz, atılmış evlə müqayisə eləyə-eləyə içəri keçdim. Bərk kövrəlmişdim. Ayrı vaxt olsaydı, hönkürüb ağlayar, ürəyimi boşaldardım. Sınıq taxtın üstündə bir yer tapıb oturdum. Qəhər boğazımı göynətsə də, nəfəsimi içimə çəkib susdum. Binanın sınıq, salxaq taxtapuşuna əyilən budaqlarda quşlar atılıb-düşdükcə su damcıları üzümə əlimə düşüb məni diksindirirdi. Taxtaların arasından iki kişi və kürəyi mənə sarı dayanan bir qadını dumanlı halda olsa da, görürdüm. Evin dalına hərlənsələr, məni mütləq görəəckdilər deyə lap yuxarı, qaranlıq bir küncə qısılıb nəfəs də çəkmirdim. Onlar bir az da durub harasa getdilər. Qulağıma heç bir səs-zad gəlmirdi deyə çıxmağa hazırlaşırdım ki, ayaq səslərindən diksinib qayıdıb yerimdə oturdum. İçəri çox rütubətli olduğundan öskürüb yerimi nişan verə bilərdim. Kişilərdən biri peşiman olubmuş kimi dilləndi:

– Biz axı belə danışmamışdıq, bacı? İnsanı qaçırmaq özün bilirsən ki, böyük cinayətdir. Məqsədimiz, dediyin kimi, onu qorxutmaq idi, onu da elədik. Qəlbinə dəyməsin, bu yolla kiminsə məhəbbətini qazanmaq ağılsızlıqdır. Başına bir iş gəlsə, indidən xəbərdarlıq edirəm: «mən bu işdə yoxam». Köhnə tanışlar kimi sən dedin, mən də sözündən çıxmadım. Bu yağışda yazıq qız hara getdi, görəsən? Çox qorxmuşdu deyə dala baxmadan qaçırdı. Bax elə buradaca yox oldu. Elə bil yağlı əppək olub göyə çıxdı. Qadın dillənmirdi. Əlini, ovcunu ovuşdurur, tez-tez:

– Siz narahat olmayın, – deyirdi.– Demək məhəbbət adamı cinayətə də apara bilərmiş. Neçə illər mən onunla nəfəs-nəfəsə işləmişəm. Hər gün, hər saat üz-üzə, göz-gözə durmuşuq, yenə ürəyimi açа bilməmişəm. Sinəmdə hər an çığıran məhəbbətimin səsini özüm boğub susdurmuşam. Bundan artıq əzab təsəvvür etmək olmaz ki, mən çəkmişəm. Mənim vəziyyətimdə olmayan

bir kəs mənim hisslərimi başa düşməz. Yəqin məni dəli hesab edib qınayacaqsınız. Haqqınız var. Amma cavabsız məhəbbəti olanın nələrə qadir olduğunu onu çəkənlər bilər.

Qadın hönkürtü ilə ağlayır, elədiklərinə, bəlkə də, haqq qazandırmağa çalışırdı. Ya peşimançılığını bildirirdi, bilmirəm. O başını qaldırıb təkrar dilləndi:

– İndi özümün-özümə verəcəyim cəza çox ağır olacaq, qardaşlar. Təki o qızın başına bir iş gəlməsin. Bunu özümə bağışlaya bilmərəm.

Ona yazığım gəldi. Bununla birlikdə şəhərə çatan kimi polis idarəsinə gedib hər şeyi olduğu kimi danışmağı qət elədim.

Mən hansı cinayəti eləmişqdim ki, bu insanlar qorxuya düşüb mənimlə belə rəftar edirdilər? Elədiklərinin cəzasını düşünürlərmi? Sübh tezdən gizlicə qapını açan bəs kim idi? Əgər bu adamlar mənə ziyan vurmaq istəmirdilərsə, onda məni niyə tapıb aparmadılar? Bu oyunlardan baş açmağın, çözələyib məsələnin ucun-qulağın tapmağın vaxtı deyildi. Bir az da yaxın gəlib qulağımı taxta divara söykədim. Gözlərimi silib diqqətlə baxdım. Taxtaların arasından kobud görkəmli qadın kölgəsi açıq-aydın görünürdü. İlk öncə qadının uzun qara paltosu, kürəyinə tökülən saçları nəzərimi çəkdi. Əllərini yelləyə-yelləyə kişiyə nəsə deyirdi. Qadın birdən kəskin hərəkətlə mənə sarı çevrildi. Onun siftəini, boy-buxununu aydınca gördüm. İlahi, bu Reyhan idi. Gördüyümə az qala özüm inanmadım. Gözlərimi silib bir də baxdım. Bu onun özü idi, səhv eləmirdim. Birinci danışan kişi acıqlı və sərt sual verdi:

– Tutaq ki, tapdıq, ona nə cavab verəcəksən, nə deyəcəksən? Onu axtardığına nə don geydirəcəksən? Özün də hüquqşünas adamsan. Bütün bunların nə ilə qurtaracağını yəqin bilirsən?

Reyhan ağlamsınmış halda kişinin əllərindən tutdu.

– Biz onun evə gəlmədiyini bilib onu axtarışa başlamışıq. Sizə yalvarıram, bir qələt işdi tutmuşam.

Bundan qeyri nə deyə bilərəm. O ailədən çoxdan zəhləm gedirdi. İndi də bu qız yolumun üstündə bir ağır daşa dönüb. Nihad onun xəyalı ilə yaşayır. Hər yerdə onu axtarır. Nə ailəsinə, nə də mənə məhəl qoyur. Bu qız olmasaydı bəlkə də…–Reyhan acizanə surətdə ağlamağa başladı. Yenə özünü ələ alıb dilləndi.

–Mən onun qohumu sayılıram. Heç kəs bizdən şübhələnməz. Başını əlləri ilə tutub, üşüyürmüş kimi qollarını sinəsində çarpazladı.

Məni maraq götürmüşdü. İçərinin qaranlığı çölün duman çəninə qarışdığından, demək olar ki, heç nə görə bilmirdim.

– Onu burda itirmişiksə, bu ətrafda da axtarmalıyıq. Bu yağışda, dumanda uzağa gedə bilməz. Yazığın anası da o vəziyyətə düşüb ki, bəlkə elə…–İkinci kişi təəssüflə dilləndi.

Ürəyim elə döyündü ki, az qala qışqıracaqdım. Yenə səbrimi basmaqdan başqa çarəm qalmamışdı. Mən bütün başıma gələnlərdə Rənanın, ya sənin ananın əli olduğunu düşündüyüm bir vaxtda bu nə iş idi başıma gəldi, Nihad? Özüm də çaşıb qalmışdım. Reyhanın elədiyi bu nankorluğa inana bilmirdim. Çox keçmədən danışıq və ayaq səsləri kəsildi. Evdən çölə çıxanda yağış, çiskin kəsmiş, hava ayazımışdı. Günəşin zəif sarı işığından dənizin suları parıldayırdı. Əllərimi qoynumda çarpazlayıb yağışdan sonra sakitləşib, ovunan dalğalara xeyli tamaşa elədim. Dalğalar tənbəl-tənbəl sahili yalayır, yenə də çəkilib ananın qoynuna sığınan uşaqlar kimi dənizdə yox olurdular. Amma mənim nə sığınmağa bir yerim, nə də ovunduran bir kimsəm var idi. Fikrim ancaq buradan necə çıxmaq, anama qovuşmaqla məşğul idi. Odur ki, heç nəyə baxmadan maşın yoluna sarı üz tutdum. Nə onların kimliyi, nə də məqsədləri, niyyətləri məni düşündürmürdü. Var gücümlə üzü şəhərə doğru irəlilədim. Taqətdən düşmüş, tamamca islanmışdım. Yaş paltar qılçalarıma dolaşdıqca canıma üşütmə düşür, məni yeriməyə qoymurdu. Gün günortaya yaxınlaşırdı ki, arxadan gələn bir maşın lap böyrümdə dayandı. Sürücü yaşlı bir kişi idi. Üzündəki qalın cod saqqalı, alnındakı dərin qırışları onu hüznlü adama oxşadırdı.

– Bacı, haradan belə pay-piyada gəlirsən? Əldən düşərsən, gəl otur aparım. Hüzürümüz düşüb şəhərdən bəzi şeylər alıb gətirmək üçün tələsirəm.

Gümanım düz çıxmışdı. Kişinin səmimi sözləri mənə inandırıcı göründüyü üçün etiraz eləmədim. Bir də başqa çarəm qalmamışdı. Necə olursa-olsun, özümü anama çatdırmalı idim.

Titrəyə-titrəyə binamıza yaxınlaşdım. Qaranəfəsə ikinci mərtəbəyə qalxanda qapımızı açıq görüb duruxdum. Müxtəlif adam-

lar, qonum-qonşular tez-tez evimizə girib-çıxır, küncdə bucaqda bəziləri də pıçıldaşırdılar. Gözümə heç nə görünmürdü. Özümü anamın otağına atdım. O, huşsuz halda uzanmışdı. Dodaqlarımı alnına yaxınlaşdıranda gözünü bir anlığa açdı.

– Şükürlər olsun, sağ-salamatsan, – deyib gözlərini yumdu. Anamın yanında oturan Şərqiyə ağlaya-ağlaya:

– Hardaydın, bacı, yazıq anan.. Sözünün dalını gətirmədi.

Qapının ağzında dayanan qadının dediklərini aydınca eşitdim.

– Harda olacaq, öz kefinə anasını qurban verdi.

İkinci qadın cavabında:

– Bilmədiyin işə burnunu soxma, Mehin o qızlardan deyil. Onun üst-başına, görkəminə bax, sonra danış.

Şərqiyə yerindən sıçrayıb qadını çölə saldı.

– Səni bura dəvət eləyən yoxdur ki, hərfə-hərfə danışırsan. Çıx get xarabana. Məleykə müəllimin zəhməti sənin də, qızının da burnundan gəlsin. Belə bir qadın pis, əxlaqsız qız tərbiyə eləməz. Yəqin işi olub ki, anasına xəbər eləmədən gedib.

Dəfn üçün bəzi hazırlıq işlərini Şərqiyənin anası-atası görmüşdülər. Çox keçməmiş Reyhan hövlənək özünü irəli atdı.

Üzümə baxmadan anamı qucaqlayıb ağladı. Sonra evə yığışanlara sarı döndü.

– Burda bəzi xoşagəlməz söz-söhbətlər gəzir. Deyirəm, biləsiniz ki, Mehin bizim qaçqınlar yaşayan çadır şəhərciyinə getmişdi. Məni gözləmədən təkbaşına yola çıxıb. İslanıb. Daha kimin sualı var versin. Artıq söz-söhbət lazım deyil.

Onun üzünə qəzəbli bir nəzər salsam da, indi yeri deyildi – deyə susdum. Bu ən azı anamın ruhuna hörmətsizlik olar deyə səsimi çıxarmadım. Anam ölümü ilə Reyhanla mənim arama girmişdi. O günahlarını yumaq üçün canı-dildən mənə kömək eləyir, tez-tez də başımı sinəsinə sıxıb ovudurdu. Hər şeydən artıq bu məni az qala dəli eləyirdi. Anamın dəfni ilə yazdığım xatirələrimə, hətta səninlə xəyali düşüncələrimə də son qoyuram, Nihad. Dəfnin üçüncü günündən sonra hərbi komissarlığa gedib qızğın döyüş gedən yerlərin birinə göndərilməyimi xahiş edəcəyimə qərar verdim. Artıq məni bu şəhərlə heç nə bağlamırdı. Qüdrətin də varlığı sanki yadımdan çıxmışdı. Reyhanla qan qo-

humluğum məni onun pisliyinə qarşı pislik eləməyə qoymurdu. Yaşca ondan xeyli balaca olduğum halda mənim bu hərəkətim onu daha artıq utandırır, gözlərimə dik baxmağa qoymurdu. Reyhan mənim hər şeyi bildiyimi ağlına da gətirmirdi.

Bir həftəyə yaxın idi ki, komissarlıqdan cavab gözləyirdim. Daha səbrim çatmırdı. Hövsələsizlik edib evdən çıxdım. Mənim sənədlərimi qəbul eləyən zabitlə az qala dalaşacaqdım. O məni hər vəchlə fikrimdən daşındırmağa cəhd edir: – Ora qız, qadın yeri deyil, əl-ayağa dolaşmaqdan başqa cəbhədə sən nəyə, kimə lazımsan və sair və ilaxır deyirdi. Mən çox təkidlə komissarı gözləyəcəyimi inad eləyib qəbul otağından tərpənmədim.

İçəridə məşvərət gedirdi deyə xeyi gözləməli oldum. Köməkçi qız elan elədi ki, komissar çox təcili döyüş zonasına getməli olduğu üçün onu müvəqqəti əvəz eləyən polkovnik Kazımlı bizi qəbul edəcək. Məndən qabaq növbədə dayanan yaşlı bir kişi deyinə-deyin içəri keçdi. Füzulidə gedən döyüşlərdə şəhid olan oğlunun azyaşlı uşaqlarına yardım olunmadığından, yerli məmurların onu incidib get-gələ saldığından yana-yana şikayət edirdi.

– Hə, burda isti otaqlarda oturmağa nə var e…Hünər odur ki, vətənə, torpağa canını qurban verməyi bacarasan. Mənim oğlum bələlərindən idi. İndi onun balalarına əl tutub yardım etməyənləri insafa, dinə, imana çağırıram ki, mən yaşda kişini bu qədər incidirəlr.

Mənim cəbhəyə getmək istədiyimi öyrənib üzünü mənə tutdu:

– Halal olsun belə qızlarımıza ki, vətənin dar günündə atalarından, qardaşlarından geri qalmaq istəmirlər. Ünvanınızı bilsəydim, gəlib anana təşəkkür edərdim. Bax bu yaşımda lazım gəlsə, oğlum kimi canımı əsirgəməzdim.

Anamın adını tutanda özümü saxlaya biməyib ağladım.

– Anam bir həftə olar ki, rəhmətə gedib. Atamı da çoxdan itirmişəm. Evin təkcə qızıyam, əmi deyə qəhər məni boğdu.

Kişi məni qucaqlayıb sinəsinə sıxdı. Onun da ürəyi yaralıydı deyə mənə qoşulub ağladı.

İçəri girəndə özümdə deyildim. Kazımlı adlanan polkovnikin üzü pəncərəyə sarı, qolu boynundan asılmış bir adam idi. Ürəyim aramsız döyünürdü. Onu boy-buxunundan kiməsə oxşadırdım. Gözlərim elə böyümüşdü ki, kimisə yadıma gətirməmiş polkov-

nik dərindən köks ötürüb mənə sarı çevrildi. Bu, Qüdrət idi. Gözlərimə inanmadım. O da təəccübündən elə bil yerində qurumuşdu. Ağlamaq mənə dinib-danışmağa imkan vermirdi. Anamın rəhmətə getdiyini öyrənib,başını əllərinin arasına alıb xeyli laldinməz oturdu. Sonra məni məzəmmətlə:

– Bunu mənə xəbər vermədiyinə görə səni heç vaxt bağışlamayacam, Mehin. Məleykə xanımı anam qədər sevirdim. Hər şeydən əvvəl sizi özümə ailə hesab eləmişdim. Məni o səadətdən məhrum eləmək insafsızlıq, ən azı mənə hörmətsizlikdir.

Başıma gələnləri qısaca danışıb onun şəhərdə olduğunu bilmədiyimi, hospitala bir neçə dəfə zəng vurub bir doğru xəbər almadığımı deyəndən sonra Qüdrət bir az sakitləşdi. Məni yolumdan döndərməyin çətin olduğunu və fikrimin qətiliyinə əmin olub dilləndi:

– Üç gündən sonra səni özüm qulluq etdiyim bölməyə aparacam. Bir dostum da məndən xahiş eləyib. Ona razılıq verməmişəm. Sənə söz verirəm ki, birlikdə döyüş zonasına gedəcəyik. Amma gərək komisarlığın rəsmi göndərişi ola. O göndərişi indi verməyə mənim ixtiyarım yoxdur. Mən yoldaş Rəhimlini müvəqqəti əvəz edirəm. Vəziyyət çox ağırdı, Mehin. Bu alçaq ermənilər getdikcə iştahlanır, daha böyük ərazi iddiasına düşüblər. Horadiz qəsəbəsini və ətraf kəndləri işğal eləyiblər. Bizimkilər də elə yaxşı cavab veriblər. Beyləqan rayonu ərazisinə qədər deyirlər döyüş zonası genişlənib. Çoxlu itki versək də, döyüş ruhumuz hələ sınmayıb. Respublikaya arzuladığımız dünya şöhrətli, təcrübəli və prinsipial şəxsin – Heydər Əliyevin rəhbər kimi qayıtması əsgərlərimizin əks hücum ruhunu birə-beş qat artırıb. Nə olur-olsun, o murdarları geri oturtmaq, Füzuli ərazisindən alınan kəndləri qaytarmaq lazımdır. Bu zalım qolum da mənə əngəl olub.–O sol əlini hiddətlə mizin üstünə çırpdı. –Vətən, torpaq bizdən imdad gözləyir, biz də həkimlərin dedikləri ilə oturub-dururuq. İndi can qayğısına qalmaq vaxtı deyil, Mehin. Hər birimizin ürəyi vətən, torpaq yanğısından alışıb-yanmasa, yağı ata-baba yurd yerlərimizdə möhkəmlənib oturacaq.

– Niyə bəs dövlət ümumi səfərbərlik eləyib bu küncdəbucaqda daldalanan, bazarlarda alver edənləri vətənin köməyinə çağırmır? Şimali Azərbaycanda yaşayan doqquz milyonluq bir

xalqın iki milyonu torpaq uğrunda qoy məhv olsun. Amma torpaqları geri qaytaraq. Bu piştaxta arxasında boy-boya verən oğlanları görəndə ürəyim az qala alışır. Elə bil bu od tutub yanan torpaq onların deyil.

Qüdrət etiraz elədi:

– Yox, Mehin, məsələ sən düşündüyün kimi sadə deyil. Biz hələ müstəqil respublika kimi tam azadlıq əldə eləməmişik. Hərc-mərclik baş alıb gedir. Nizami ordumuz yoxdur. Elə bu səbəbdən də gün-gündən məğlubiyyətimiz artır. Elə bilirsən ki, döyüşə bilən oğlanlarımız yoxdur? «Mixaylo», «Qatır Məmməd» ləqəbi ilə döyüşən elə oğullar tanıyıram ki, ermənilərə qan uddururdular. Bizim döyüş texnikamız, ondan istifadə təcrübəmiz çox azdır, Mehin. Bir də oradakı pərakəndəlik uğursuzluğumuzun ən başlıca səbəbkarıdır. Bu da bizi qorxuda bilməz, təki ruhumuz sınmasın. Düşmən qəddarlaşdıqca kinimiz, küdurətimiz, nifrətimiz artır. Cəbhəyə yeni-yeni könüllülər dəstəsi gəlir. İnanıram ki, haqq işimiz qalib gələcək. İndi get evə, hazırlığını gör, mən özüm sənə zəng vuracam. Təkbaşına heç yana gedə bilməzsən.

29 sentyabr:

Həyatda tək qalmaq, tənhalığın ağır xofunu hər gün, hər gecə üstündə hiss eləmək ölüm qədər ağırmış, Nihad. İndiki durumumda özümü gərəksiz, atılmış, həyatdan əli üzülmüş bir sərgərdana bənzədirəm. Heç kəsə inamım, heç nəyə həvəsim belə qalmayıb. Həyata, yaşamağa, sevincə qarşı marağımı itirmişəm. Mənə elə gəlir ki, vaxt, zaman da harasa yox olub. Dənizin ləpələri hər gün sığalladığı qayaları tək-tənha qoyub çəkilən kimi mən də tək-tənha qalmışam. Qüdrətin dediyi vaxta qədər gözləmək anamla, sənlə bağlı ağır məqamları təzədən yaşamaq istəmirəm. Elə bu gün bu evi də, çox sevdiyim şəhəri də tərk eləmək istəyirəm. Başıma gələnlər, daha doğrusu, gətirilənlər mənə bir möcüzəni xatırladır. Reyhan bir saat, bir an da olsa, məni tək buraxmaq istəmir, yəqin mənim polisə şikayət edəcəyimdən ehtiyatlanır. Mən bütün bunları bilə-bilə susuram. Ona görə ki, heç bir şey məni əvvəlki həyatıma qaytara bilməyəcək. Laqeyidlilik bütün cəsarətimi əlimdən alıb varlığıma hakim kəsilib, Nihad.

Özümü güc-bəla ilə evə yetirib soyundum. Vanna otağına yol-

landım ki, üzümə bir az su vurub özümə gəlim. Sabunu əlimə götürəndə sürüşüb yerə düşdü. Onu götürmək üçün əyildim. Kiçik sabun parçası su turbasının altına düşmüşdü. Onu nə qədər çalışdım ki, götürüm bacarmadım. Mənə elə gəldi ki, o sabun parçası deyil, qorxulu bir cücü, ya kiçik bir ilan balasıdır. Yerimdə donub qaldım. Məni tər basmışdı. Güzgüdə özümü görüb dəhşətə gəldim. Xəstə adamlar kimi səndirlədim. Sabun parçasını əlüzyuyanın altına atıb otağa qaçdım. Dəhşətli bir fikir məni rahat buraxmırdı: – Yəqin mən dəli oluram. Bu anda qapının döyülməsini, telefonun zəng çalmasını arzu eləyirdim. Reyhana zəng vurmaq istəsəm də, nömrəni yığmağa əlim gəlmədi. Anamın ölümündə birbaşa günahkar olan bir adamı, sənə olan məhəbbətimə şərik çıxan ürəksiz, qansız, riyakarı evimdə görmək istəmirdim. Bu haqda cinayət işi qaldırmağı Qüdrət də mənə təklif eləmiş, hər cür kömək göstərməyə hazır olduğunu dedisə də, razı olmadım. Bütün bunların günahını sənə olan uğursuz sevdamın əbədiliyinə inanan özümdə görürdüm. Günahlarımı yumaq üçün qalan ömrümü vətənə, torpağa verməyi üstün tutdum. Torpağı qanla suvarılan əzəli, əbədi yurdumuz olan Qarabağın qarşısında hamımız günahkarıq, Nihad. Hər birimiz ona olan borcumuzu ayrı-ayrılıqda ödəməsək, günahlar bizi sonsuzluğa qədər izləyəcək. Sonsuzluq elə bir yerdir ki, ora günahla birgə getmək insana ən ağır cəzadır. Bu cəzanı mən bu dünyada çəkirəm, Nihad. Sənəəbədiyyətə qədər – verdiyim sözün cəzasını. Bu sətirləri yazıb, qələmi yerə qoymamış gözlərim pəncərəmdən dumanlı-çənli göylərə dikilir. Sən də göylərə baxırsanmı. Nihad? Baxsan da ulduzumu görməyəcəksən. O dumanın, çənin içində batıb. Bir daha gözə görünməyəcək, deyəsən. Bir-birimizə könül verdiyimiz gecənin şahidi olan ay da qaranlıqlara çəkilib. Pəncərəmdə soyuq payız küləyi yalquzaq kimi ulayır. Dərdli ürəyimin qubarını bir az da artırır. Təbiət də elə bil bütün varlığı ilə aramızda bir sədd yaratmağa çalışır. Bu qədər yaxın ola-ola o səddi yarıb keçməyə heç birimizin cürəti, cəsarəti çatmır. Sənə əlvida deməkdən başqa çarəm qalmayıb. Dünyada yeganə var-dövlətim bu məktublardır, Nihad. Onu da itirməmək üçün qoyub gedirəm. Nə bilmək olar, bəlkə, heç qayıtmadım…

* * *

Məktubdan-məktuba keçdikcə Londonda, Moskvada axtarmaq istədiyim halda elə lap qulağımın dibində, evimin qabağında dilənçi kimi oturan Mehini görməyən gözlərimə az qala əllərimlə mil çəkmək istəyirdim. Özümdən asılı olmayaraq əlimi siyirməmdə sarı ilan kimi qıvrılıb yatan tapançaya uzatdım. Bir göz qırpımında barmağımın hərəkəti ilə döyünüb az qala yerindən çıxan bir ürəyi susdurmaq, çəkdiyim əzablara birdəfəlik son qoymaq istədim. Qolum qalxmadı. Mehinsiz belə ölümlə dünyadan getməyi istəmədim. Tapançanı qaytarıb yerinə qoydum. Telefon dalbadal neçə dəfə zəng çaldı. Bunun Rəna, ya anam olduğunu bilirdim deyə dəstəyi qaldırmadım. Qapıda dayanan nəzarətçidən başqa heç kəs burada olduğumu bilmədiyinə görə məni bir daha narahat eləyən olmadı. Kresloda necə oturmuşdumsa, elə də yuxuya getmişdim. Səhər məni yuxudan pəncərə pərdəsinin kənarından süzülən zəif payız günəşinin işığı oyatdı.

Masanın üstünə pərakəndə halda səpələnən məktubları tələsik yığışdırıb siyirməmdə gizlətdim. Şöbənin işçiləri hələ gəlməmiş özümü səhmana salıb, birinci mərtəbədəki yeməkxanaya endim. Nahar eləyib qurtarmamışdım ki, Rüstəm qarşımda dayandı.

– Bu nə görkəmdi, Nihad? Ezamiyyətdən sonra səni tanımaq olmur. Arıqlayıb lap əldən düşmüsən. Nə baş verib, qardaş? Əvvəllər, bir-birimizdən gizli heç bir sirrimiz olmazdı. Köhnə etibar itib, nədi?

Rüstəmin ordan-burdan nizamsız söhbət salmasından, onun səhər tezdən nə üçün gəldiyini başa düşmüşdüm. Şübhəsiz ki, anam zəng vurub vəziyyəti danışıb deyə Rüstəm belə tələsik gəlib.

Əlindən tutub stola oturtdum. Hərəmizə bir fincan çay gətizdirib, fikirli-fikirli üzünə xeyli baxdım. Rüstəm xasiyyətimə bələd olduğu üçün söhbətə birdən-birə başlamaq istəmirdi. Beş il bundan qabaq Mehinə görə aramızda olan incikliyi təzələyib mənim yaralı yerimə toxunmağa ehtiyat edirdi deyə yenə susdu. Fincanı əlində fırlaya-fırlaya üzümə baxmadan mənim dillənməyimi gözləyirdi. Bura o haqda danışmağın yeri olmadığı və iş saatının başlandığını nəzərə alıb ayağa qalxdım. Rüstəmin qoluna girib dinməz-söyləməz otağıma gətirdim. Rüstəm yenə heç nə soruş-

madı.

– Bu gün işim çoxdur, vaxtın olsa, işdən sonra görüşüb köhnə dostlar kimi dərdləşərdik, – deyə qapıya yollananda mən siyirmədən məktub bağlamasını çıxarıb ona verdim.

–Vaxtın varsa, oxu, işin axırında görüşərik, – dedim. Rüstəm fikirli-fikirli bağlamanı alıb qapıdan çıxdı. O gün mənə bir ilə bərabər keçdi. Qızdırmalı adamlar kimi hərlənir, nə iş görəcəyimi, nə edəcəyimi bilmirdim. Bir onu bilirdim ki, içimdən gələn bir səs məni qəti qərar qəbul etməyə çağırırdı. Bu korun-korun yanan tərəddüdlər içində indiyə qədər susan ürəyimin səsi idi. Bu səsin qarşısında acizliyimi bir daha göstərmək fikrində deyildim. Bu səs məni addım-addım min bir əzaba düçar etdiyim Mehinə doğru maqnit kimi çəkirdi. Ruhumu ardınca çəkən bu səsin cazibəsindən çıxmağa taqətim qalmamışdı. O səsin ardınca lap dünyanın o başına belə getməyə hazır idim.

Nahar fasiləsində Reyhandan yeganə yadigar olan kiçik radionun düyməsini basdım. Müğənni ovqatımdan xəbərdar kimi oxuyurdu:

«Harda olsan gələrəm, darda olsan gələrəm, təki sən səslə məni…». Radionu yarımçıq söndürüb qapıdan çıxdım.

Rüstəmlə dəniz kənarında görüşdük. Bu axşam da evə getməsəm, böyük qalmaqal olacağını düşünüb söhbətimizi tez qurtarmağa çalışdım. Gəzə-gəzə Azneft dairəsinə qədər gəldik. Rüstəm elə bil səhər dil-dil ötən adam deyildi. Qanı çox qara idi. Məktub bağlamasını oturacağın üstünə atıb maddım-maddım üzümə baxdı. Mənə elə gəldi ki, Rüstəm bu saat hönkürüb ağlayacaq, mənə bir neçə kəlmə ağır söz deyib gedəcək. Yox, bu mənim düşündüyüm kimi olmadı. Rüstəm uzun-uzadı susdu. Sonra başını ağır-ağır qaldırıb düz gözümün içinə baxdı. Onun baxışlarında təəssüf hissindən çox bir ümidsizlik var idi. Bəlkə, bu ümidsizlik mənim əvvəlki cəsarətsizliyimə bələd olduğu üçün idi, bilmirdim. Mənsə heç vaxt bu günkü kimi qətiyyətli olmamışdım deyə ümidsizliyi birdəfəlik kəsib atmaq fikri ilə çox arxayın oturmuşdum. Rüstəm üzümə baxmadan dilləndi:

– Nə eləmək fikrindəsən?

Əlimi əlinin üstünə qoyub qətiyyətlə dedim:

– Rəna ilə nigahımı pozacam. Amma bir dost, qardaş kimi

yenə sənin köməyin mənə lazım olacaq, Rüstəm.

Rüstəm diksinən kimi oldu. Eşitdiyinə inanmırmış kimi təkrar soruşdu.

– Nə dedin, Nihad? Bu mümkün deyil, sənin…

Onun sözünü tamamlamağa imkan vermədim:

– Mümkündü, Rüstəm. Uşaqlarımı, işimi, mövqeyimi sənsiz də düşünmüşəm. Məncə, namümkünü mümkünə çevirmək olar və bu işdə sən mənə kömək eləyəcəksən.

Rüstəm anamın narazılığını, uşaqlarımı, atamın vəzifəsini – bütün nə varsa, hamısını ortalığa tökdü. Heç nə məni fikrimdən döndərə bilməz deyə birbaş mətləbə keçdim. Dünən ezamiyyətdən qayıdanda evimdəki qonaqlıqdan tutmuş ürəyimdə nə varsa, hamısını, məktubda yazılanları da təzədən danışıb onun fikrini soruşmadan əlavə etdim:

– Boşanmaq üçün ərizəni və etibarnaməni notariyatda təsdiq elətdirib sənə verəcəm. Bu işlə məşğul olacaqsan, mən günü sabahdan Füzuli istiqamətində döyüşən köhnə dəstəmizə – dostlarımın yanına qayıdacam. Bu da aramızda sirr olaraq qalmalıdır. Polkovnik Qüdrət ən yaxın dostumdur. Ona müraciət eləmişdim, özü yaralı olduğu üçün bir qədər gözlə demişdi. Gör təsadüfə bax?

Sözümü tamamlaya bilmədim. Ağlamaq məni tutmuşdu. Mehin məktublarında hər şeyi açıq-aydın yazsa da, ürəyimə hər cür qara fikirlər gəlirdi. Yox, bu ola bilməz, ola bilməz – deyə təkrarlayır, sonra da özüm-özümün cavabını verirdim. Niyə də yox? Mehin də, Qüdrət də sevib-sevilə bilməzmi? Onların buna haqqı var. Bu haqqı heç kəs onların əlindən ala bilməz. Bir vaxt mənim bərədə vura bilmədiyim ovu bir başqası məmuniyyətlə ovlaya bilər, burada təəccüblü heç nə yoxdur.

Düşündükcə başım gicəllənir, gözümə qaranlıq çökür, qara fikirləri başımdan qovmağa çalışır, gah da özüm-özümə ürək-dirək verirdim.

Bir həftəyə yaxın idi ki, evə getmirdim. Sayalı xanım təhər-töhmət eləyirdi ki, uşaqlarımın yanına qayıdım. Anan eşitsə ki, bir həftədir bizdə qalırsan, ona deməmişik, inciyər. Onsuz da, Rəna xanımın bizim gəlinlə arası yoxdur. Ondan sonra bizə rahatlıq verməz, oğlum! Daşı ətəyindən tök, evinizə qayıt. Sənin

qismətin beləymiş. Onu da Tanrı alnına yazıb. Yazıya pozu yoxdur, Nihad.

Deyilənlərin heç biri məni fikrimdən döndərə bilmirdi.

Şəhərdə bu qədər gecikməyimin əsas səbəbi var idi. İşdən çıxıb könüllü döyüşə getməyim üçün ərizə yazmışdım, onu gözləyirdim. Şamil Babayev ezamiyyətdən qayıtmamışdı. Mən ərizəni onun köməkçisinə verib heç kəslə vidalaşmadan Ağdama yollandım. Məni bir neçə yerdə saxlayıb. Ağdam və ətrafında qızğın döyüş gedir deyə irəli buraxmırdılar. Qarabağın göz bəbəyi Ağdam şəhəri tam işğal olunub deyə yola nəzarət eləyən döyüşçü az qala ağlaya-ağlaya dilləndi:

– Elə oğullarımız şəhid oldu ki, hər biri bir ordu qaytara bilərdi, qardaş. İtgimiz çox olsa da, Ağdamın özünü qoruya bilmədik. İndi ətraf kəndləri əlimizdə saxlamaq üçün döyüşürük. Bir tərəfdən də Füzuli istiqamətindən erməni-rus birləşmələri bizi sıxışdırır. Polkovnik Kazımlı göstəriş verməsə sizi döyüş gedən zonaya buraxa bilmərəm.

Kazımlı adını eşitcək elə bil gözümə işıq gəldi.

– Elə mən onun yanına gedirəm də, qardaş. Gəl mənə bir yaxşılıq elə. Məni Qüdrət Kazımlı ilə calaşdır. Sonrası sənin işin deyil.

– Əgər onu tapsam, calaşdıraram. İndi ona söz demək müşgül işdi. Ölümün üstünə düz gedən oğuldu Qüdrət. Bax o tüstülənən tankları, BTR-ləri görürsən, onların hamısını onun bölməsi sıradan çıxardıb. Ermənilər it leşi kimi ölülərini yığışdırmadan qoyub qaçıblar. Füzuli rayonunun Bəhmənli kəndi istiqamətində olan böyük strateji əhəmiyyətli bir yüksəkliyi əclaflar ələ keçirib, oradan üstümüzə od ələyirlər. Cəbrayıl tərəfdən də xüsusi polis dəstələri köməyə gəlib.

Oğlan əlində tutduğu telsizi bir neçə dəfə işə saldı. Amma heç bir cavab ala bilmədi.

– Bağışla, qardaş, əmrdən kənara çıxa bilmərəm. Onların vəziyyətini başa düşmək lazımdır. Özün də köhnə döyüşçü olmusan. İndi ölüm-dirim mübarizəsi gedən yerdən cavab almaqmı olar? Yol gəlmisən, otur bir az dincini al, Allah Kərimdi, görək başımıza nə gələr.

– Yox, burada oturub Allahdan buyuruq-ağzıma quyruq– deməyin vaxtı deyil. Yaralı daşıyan sanitar maşınlarının biri ilə

icazə ver gedim. İndi onlara canlı qüvvə hava-su qədər lazımdır. Sən məni yoldan eləmə.

–İstəyirsən, sənə görə məni hərbi məhkəməyə versinlər? Bir qızı da yanımda qoyub, icazəsiz heç yerə buraxma demişdi. O da sənin kimi üç gündən sonra hansı yol iləsə qaçıb döyüşçülərin yanına getmişdi. Zalım qızı o qədər gözəl idi, onu döyüşə göndərməyə adam qıymırdı. Bilirsən də hər şey ola bilər. Axı onlar hər şeydən öncə namus, qeyrətimizdilər. Erməni yaraqlıları əllərinə düşən qız-gəlini bədnam eləyib bizə ikinci yaranı vururlar. Elə bil özlərinin ana-bacıları yoxdur.

– Nə qız? – Deyə dik atıldım.

– Bakıdan özü könüllü gəlmişdi. Deyirdi ki, sizə əlimdən gələn köməyi eləməyə hazıram.

– Qardaş, adını bilmədin o qızın?

– Bizdə ad soruşmağa vaxtı olur ki? Kazımlı yoldaş ona xüsusi nəzarətçi vermişdi deyə başa düşdüm ki, o qız kim isə polkovnikə çox əziz bir adamdı. Bizə burda çox köməyi dəyirdi. Yaralılara qulluq etməkdə yorulmaq bilmirdi. Öz canı haqda düşünmək belə istəmirdi. Elə bil canından bezmişdi zalım qızı. Necə olsa, zənən xaylağıdır. Soyuq səngərlərdə yatmaq axı qız, qadın işi deyil?

Dediyinə görə ata tərəfləri qarabağlı olub. Universiteti yarımçıq buraxıb gəlib. Polkovnik onu çox qoruyurdu. Onu mənə tapşırıb getmişdi. Təəssüf ki qoruya bilmədim.

–Sonra necə oldu, adını da bilmədin, qardaş?

–Bir gün gözdən yayınıb, sanitar maşınında döyüşçülərin yanına getdi. Elə indiyə qədər də onun sarıdan mənə verilən cəzanı çəkirəm. Adım Baləmidi. Bakı kəndlərinin birindənəm. Bilmirəm, oraları tanıyırsan, ya yox? Düşmənə asan can verən oğlanlardan deyiləm, qədeş canı. Nöşün ki, Allah adama canı bir dəfə verir. Bir dəfə də sorğu-sualsız özü alıb aparır. O can ki bu dünyada heç nəyə yaramır, torpağa da lazım deyil. İki dəfə yaralanıb, bir dəfə də girov saxlanan əlliyə yaxın qadını, qocanı, uşağı azad eləyib gətirmişəm. İndi o qızın ucundan əl-ayağım burda bağlanıb elə bil. Nə vaxt döyüşə buraxacaqlar bilmirəm.

İki gün idi ki, döyüşdən uzaq məntəqədə idim. Heç cür Qüdrətlə əlaqə saxlaya bilmirdim. Elə gətirdi ki, döyüşçülərimizə sur-

sat daşıyan maşının sürücüsünü yolda snayperlə vurdular. Sürücü on doqquz-iyirmi yaşlarında cavan bir oğlan idi. Yaralı halda maşını güllələrin altından çıxarıb üç nəfər döyüşçümüzü tibb məntəqəsinə çatdırmışdı. Onu əvəz eləyəcək heç kəs yox idi. Ağlıma nə gəldisə, sıçrayıb sükanın arxasına keçdim. Baləmi duyuq düşüncə sursat dolu maşını işə salıb, gözdən itdim. Məndən qabaq gedən maşının izi ilə sürəti artırdım. Bir saat keçməmiş özümüzü döyüşçülərə yetirdik. Axşama yaxın döyüş bir az səngimişdi. Yeraltı qazmaya düşüb Qüdrəti soruşdum. Köhnə dostlardan heç biri gözə görünmürdü. Bəziləri şəhid olmuş, qalanları da başqa dəstələrdə vuruşurdular. Heç kəs dəqiq cavab verə bilmirdi. Başı sarıqlı oğlan yaxın gəlib diqqətlə məni süzdü. Alaqaranlıqda mən də onun qana boyanmış sifətini düz-əməlli görə bilmirdim. O, bir neçə addım irəli yeriyib düz çənəmin altında durdu. Cibindən alışqanı çıxarıb yandırdı. Üzümə zəif işıq yayıldı.

– Booy, qağa, sən bizə xoş gəlifsən. Nə gözəl təsadüf. Biz səni ölmüş bilirdik. Şükürlər olsun ki, sağ-salamatsan. Sənin kimilərinə ehtiyacımız olduğunu hardan bildin, qağa? Vaxtında gəlifsən elə, sənə quzu kəsim.

Oğlanı yadıma gətirə bilmirdim. O qolumdan çəkib məni dalınca yeraltı sığınacağa apardı. Başıma bir neçə döyüşçü yığışdı. Özüm çaşbaş qalmışdım. Bu dilli-dilavər oğlanı harda gördüyümü yadıma gətirə bilmirdim. Doğrusu hər şeydən əvvəl fikrim, düşüncəm Qüdrətin, Mehinin harada olduqları ilə məşğul idi. Bir tərəfdən də bir batalyondan üzülə-süzülə bircə bu uşağın qalması məni ağrıdırdı. Mən köhnə dostlarla görüşəcəyimə ümid edirdim. Buradakıların hamısı cavan, təzə gəlmiş gənclər idi. Ürəyimdən bir ağrı keçdi. Axı bunların səngərlərdə can çürüdən vaxtlar deyildi. Günahımız nə idi ki, bizi elan olunmamış bir müharibəyə çəkmişdilər deyə ürəyimdə heyfisləndim. Bayaqkı oğlan əlimdən tutub məni qaranlıq, bir qədər də təhlükəsiz yerə doğru çəkdi:

– Aşağı əyil dana, qağa, görmürsən murdarlar atıllar? Müvəqqəti şeşələndiklərinə baxma,ee… «Hajı Qaraman» haqqı, onlara bir dərs verəjiyik ki, özləri də əhsən desinlər. Elə çətini bax bu qarşımızdakı təpəni alınjadı. Məssəbsizlər orda bərk durublar. Heyf ki, neçə dəyərli oğlanlarımız yaralandı, şəhid oldu.

«Hacı Qaraman» adını hansı kitabdasa oxumuşdum.

Dövrünün çox bilikli, ağıllı şəxslərindən olub. Araz qırağı tərətflər onun məzarına bir ziyarətgah kimi and içirdilər. Onun hansı kənddən olduğunu bu qarışıqlıqda soruşmağı artıq saydım. Onun səsi qırıldı. Qəhər boğazına tıxandığı üçün danışığına xeyli ara verdi. Ağladığını hiss elədiyim üçün mən də dillənmədim. Sonra özünü ələ alıb bir daşın üstünə çökdü. Onun könlünü almaq üçün səsimə gümrahlıq verib dilləndim:

– Bu qədər danışdıq, səni yenə tanıya bilmədim axı?

O, oturduğu yerdən qalxıb fərəhlə dilləndi:

– Ə, qağa, niyə tanımadın məni, Vəliyəm də. Mənə «sağsağan Vəli» deyirdilər. Sizin güllələrinizi bir göz qırpımında daşıyırdım. Səngərdən –səngərə atıldığıma görə uşaqlar mənə bu adı vermişdilər. Onda sənin başın döyüşlərə qarışmışdı. Sonra da yaralanıb Bakıya getdin. Sənə də ləqəb vermişdi uşaxlar. O çəkinə-çəkinə: «nazir oğlu» deyə mızıldandı.

Oturduğum yerdən qalxıb onu qucaqladım.

– Bir halda ki, köhnə dostlarıq, onda polkovnik Qüdrət Kazımlı ilə məni calaşdır.

Mehinin adını dilimə gətirə bilmədim. Düşündüm ki, tibb məntəqələrinin birində olar. Döyüşün qızğın yerinə onu yəqin ki buraxmazlar. Qüdrətin yanında olacağı gümanıma gəldikcə içimdə baş qaldıran qısqanclıq ürəyimi didib-parçalayır, mənə rahatlıq vermirdi. Buna ixtiyarım olmaya-olmaya qısqanclığımın səbəbini də başa düşmürdüm. Artıq Mehinə qovuşmağımın qarşısında heç bir maneə durmadığını düşündükcə, ah qala özümü göyün yeddinci qatında hiss edirdim. İndiki halımda ümidimin qırılacağına heç bir səbəb görmürdüm deyə vücudumda bir canlanma hiss edirdim. Mehinə deyəcəyim sözləri dönə-dönə çəkçevir eləyir, müəllimə dərs söyləyən uşaq kimi ürəyimdə təkrarlayırdım. Onu belə bir yerdə görəcəyimi ağlıma belə gətirməmişdim. Onunla göz-gözə duracağım anların iztirabına dözə biləcəyəmmi? O görüşü düşündükcə haldan-hala düşür, yaşamağa, həyata itən istəyim, həvəsim özümə qayıdırdı. Mən tamam başqa bir adam olmuşdum elə bil. Ölümün iki addımlığında ola-ola qəlbim yeni bir həvəslə çırpınır, sevincin şövqünü, səfasını indidən duyurdum. Xəyali bir səadət şirin röya kimi məni ağuşuna almışdı. Bununla belə narahatlıq, tələş keçirirdim. Bəd bir xəbər

eşidəcəyimin qorxusundan bədənimə üşütmə düşür, vahimə məni basırdı. Vəli qoluma toxunmasaydı, xəyallar aləmində nə qədər qalacağımı bilməyəcəkdim.

– Axır ki sizə bir qulluq göstərə bildim, qağa. Bu da axtardığınız polkovnik Kazımlı, buyurun, – deyə dəstəyi mənə uzadanda içimdə gizli bir tələş keçirdim. Pəltək adamlar kimi kəkələdim. Telefondakı bir neçə dəfə «alo, alo» dedisə də, telefon uzun-uzadı uğuldayıb söndü. Tankın, BTR-lərin səsindən qulaq tutulurdu. Düşmən böyük qüvvə ilə hücuma keçmişdi. Səngərdən çölə baş çıxarmaq mümkün deyildi. Nə edəcəyimi, hara gedəcəyimi bilmirdim. Batalyonda döyüşçülər barmaqla sayılacaq qədər az qalmışdı. Mənə hələ rəsmi nə icazə, nə də silah verilmişdi. Vəlinin əlindən telsizi alıb Kazımlı ilə əlaqəyə girməyə çalışırdım ki, batalyon kamandirinin vurulduğu xəbəri səngər boyu yayıldı. Belə güclü döyüşün qabağında bu qədər qüvvə ilə dayanmaq çətin idi. Döyüşçülər arasnıda qarışıqlıq düşsə, dayandığımız mövqeni asanlıqla düşmənə verə bilərdik. Odur ki, yenidən telsizi işə salmalı oldum. Bu dəfə tale üzümə güldü, deyəsən.

Dəstəyin o başından Qüdrətin həyəcanlı səsi qırıq-qırıq gəlirdi. Ona kim olduğumu bildirib vəziyyəti xəbər verdim. Polkovnik elə bil sevincindən atılıb-düşürdü. Tələsik əlavə elədi:

– Qardaş, Allah səni bizə vaxtında yetirib. Batalyona komandirliy üstünə götür, mümkün qədər o cinahı qoruyub saxlamağa çalış. Oranı əldən versək, böyük uğursuzluqla qarşılaşmalı olacağıq. Nəyin hesabına olursa-olsun yüksəkliyi almalıyıq. Sənə canlı qüvvə göndərəcəm. Bir də qəbristanlıq tərəfdən cinahınızı nəzərdən qaçırma. Bu çox vacibdir və orda düşmənin böyük qüvvəsi toplaşıb.

Qüdrətin son sözünü ağzında qoyub özümü qranatamyota sarı atdım. Gecikmək olmazdı. Düşmən BTR-i qüvvəmizin azlığını bilirmiş kimi düz səngərimizin üstünə gəlirdi. Orda döyüş sursatımızla birgə yaralılarımız da var idi. BTR-ə doğru bir neçə dəfə atdım. Həyəcandan əllərim titrəyir, dilim-ağzım qurumuşdu. Hədəfi düz tuta bilmir, hara gəldi atırdım. Birdən kiminsə səsi sanki məni yuxudan oyatdı:

– Nə edirsiniz, yoldaş komandir? Döyüşçülərimiz tamam azalıb, geri çəkilməyə ixtiyarımız yoxdur. Özünüzdə deyilsinizsə,

qranatamyotu mənə verin. Siz arxadan məni qoruyun.

Onun sözləri üzümə bir şillə kimi dəydi. Nişan alıb təzədən atdım. Qranatamyotdan vulkan kimi püskürən od çox keçmədi ki, BTR-i bürüdü. O, səngərimizə çathaçatda alovlandı. Döyüşçülərimiz sevincək özlərini irəli atdılar. Vəli hər bir döyüşçünün yanında görünür, gah da geri çəkilmək yoxdur, qardaşlar qələbə bizimlədi – deyə onları ruhlandırırdı.

Canlı qüvvəmiz tükənmək üzrə idi. Arxadan hələ də kömək yox idi. Sevincimiz bir o qədər də uzun sürmədi. BTR-in dalınca düşmənin bir tankı nərilti ilə irəli çıxdı. Ümid yeri qalmamışdı. Bütün həyatım gözlərimdən bir lent kimi keçib qaraldı. Ümidlərim şüşə kimi qırılıb ayağımın altına töküldü. Heç nəyi düşünmədən bir neçə qumbara götürüb özümü tankın qabağına atadım. Üzümü yolunda bu qədər can verdiyimiz torpağa söykəyib bərk-bərk qucaqladım. Düşmən tankı üstümdən adlayıb irəli şığıdı. Yerimdən qalxıb arxadan tanka sarı bir neçə qumbara atdım, ayağımızın altındakı torpaq kimi tank alışıb yandı. İçindən tökülən erməni yaraqlılarını uşaqlar göz açmağa qoymayıb güllәyə tutdular. Köməyə gələn dəstə asanlıqla hücuma keçib təpəni ala bildi. Qulaqlarım guruldayır beynimdə sanki təbil çalırdılar. Başı kəsilmiş toyuq kimi yerimdə çabalayırdım. İki nəfərin məni yeraltı sığınacağa sürüdüyündən başqa heç nə görüb eşitmirdim. Az da olsa, huşum özümə qayıtmışdı. Ayılan kimi Vəlini soruşdum. Ayaq üstə duranlar bir-birinin üzünə baxdılar. Heç kəs dinmirdi. Araya dərin və üzücü sükut çökmüşdü. Onların arasında tanıdıqlarımdan heç kəs yox idi deyə adı ilə kimәsə müraciət edə bilmirdim. Onların susmalarından Vəlinin həlak olduğunu başa düşdüm. Ürəyimdən bir ağrı keçib bütün vücuduma yayıldı. Üzümü yana çevirdim. Gözlərimdən axan yaş mənim kimi inildəyən torpağı islatdı. Ovcumdakı bir xışma torpağı bərk-bərk sıxdım. İçimdən bir nida qopdu: «İç, axıtdığımız göz yaşlarından, tökülən qanımızdan doyunca iç, ana torpaq! Sinəni qanımızla suladıqca, bəlkə, günahlarımız azala, bizi nə vaxtsa, bağışlayasan. Sənin yolunda nə qədər qurban versək, yenə azdır. Uğrunda şəhid verilməyən torpaq vətən deyil!

Özümə gəlib ayılmışdım ki, aralıdan gələn səsdən dkisinən kimi oldum. Bir qadın kədərli, hüzünlü bir səslə deyirdi:

– O uşağı xilas eləyə bilmədiyimə çox acıyıram, yoldaş polkovnik. Qalan yaralıları, Mənsurov da daxil olmaq şərtilə hospitallara göndərin. Vaxt çox azdır, mən qızlardan birini burda qoyub Məcidli ilə Horadiz tərəfdə vuruşan döyüşçülərin yanına tələsirəm. Deyirlər orada yaralımız çoxdur.

Mator işə düşmüşdü. Məcidli sözü indi mənə çatırdı. Doğrusunu desək, Mehinin familiyasını dəqiq bilmirdim. Təxmini onun Mehin olacağını ümid edirdim. Yerimdən qalxdım, səngərin qapısına çatmağa xeyli var idi. Əvvəldən zədəli olan ayağım bir az da süstləşib məni saxlaya bilmədi. Yerə yıxıldım. Burda kim var? deyə qışqırdım. Əlində silah içəri girən tanımadığım biri ayağını cütləşdirib qarşımda dayandı:

– Özünüzə gəlmisiniz, yoldaş Mənsurov? Şükürlər olsun, bizi çox qorxutdunuz. Allahın mərhəməti qurtarmayıb demək. Polkovnik sizin igidliyiniz haqda hərbi komissarlığa yazıb göndərdi. Yəqin zəhmətinizi qiymətləndirərlər. Əlbəttə, bu balaca qələbə deyil ki. Düşmənin ən çətin mövqeyini ələ keçirib bellərini qırmışıq, bəs necə?! Bilmirdilər ki, papaq altda belə oğullar yatıb? Türkün sonrakı ağlından xəbərləri yoxdur? Nahaq deməyiblər ki, türk özünə gələndə böyük olur?

Oğlan tutuquşu kimi dil boğaza qoymur, bir sözdən başqasına keçir, zirzəminin alaqaranlığında o boşa-bu başa var-gəl eləyirdi.

– Ə, nə sayıqlayırsan, görmürsən qalxa bilmirəm, qolumdan tutsana – deyə üstünə qışqırdım. Mən hələ bir şey eləməmişəm, ona da qiymət istəyəm. Bu bizim hər birimizin torpaq qarşısında borcudur. Qaç, Məcidlinin kimliyini öyrən, mənə de. Danışmaqdan çox iş görmək lazımdır. Bayaqdan boş-boş çərənləyirsən.

Ürəyim bərk döyünür, oğlanın qayıdacağını gözləməyə səbrim çatmırdı. Ayağımı bir neçə dəfə ovuşdurub aşağı-yuxarı qatlayıb-açdım. Əlimi yerə dirəyib yaş torpağın üstündən qalxmağa çalışdım. Səngərin rütubəti nəfəsimi tıncıxdırır, kürəklərimdə bərk ağrı hiss edirdim. Canımdakı sızıltı get-gedə artıb ürək ağrısına çevrilir, məlum bir tələş, həyəcan bədənimə yayılırdı. Nədənsə elə indicə Mehinin içəri girib boynuma sarılacağını güman edirdim. İlahi, bundan artıq da səadət ola bilərmi? – Deyə az qala bihuş olurdum. Mən bu görüşə hazır idimmi, özüm də bil-

mirdim. Mən özümdən quraşdırdığım xəyallar aləmindən qayıtmamış oğlan içəri girdi. Əlini qulağının dibi bərabəri qaldırıb:

– Onlar döyüş zonasına yola düşdülər, yoldaş komandir. Maşina çata bilmədim. Amma Kazımlı yoldaş buradadır. O sizin ayılmağınızı gözləyir. Göstəriş verdi ki, sizi arxaya, hospitala göndərək.

– Bunu sənə kim deyib? Mən tamam sağlamam. Polkovnikin özü ilə danışmaq istəyirəm. Bura uşaq bağçası deyil ki, bizim nazımızla oynasınlar.

Mən çox hiddətlənmişdim. Vaxtında bayıra çıxmağa mənə mane olan ayağıma bir neçə yumruq vurdum. Qulaqlarımdakı uğultudan, beynimdə qıjıldayan səsdən başımı tutub yerə çökdüm. Nə qədər belə qaldığımdan xəbərim olmadı. Elə bil quyunun dibindən gələn bir səsdən ayılan kimi oldum. Kim isə bir qadın deyirdi:

– Bax buna «kantuziya» deyərlər, yoldaş polkovnik. Biz onu bu vəziyyətdə burda saxlaya bilmərik. Bunun üçün başımızı sığallamazlar. Özünüz də deyirsiniz ki, iki gündür atası onu axtarır. Zəng vurmadığı bölmə qalmayıb. Deyirsiniz ki, qoçaq olduğu qədər də tərs, prinsipial adamdır. İcazə verin ayılmamış onu hospitala göndərək.

Polkovnik «yox» deyə fikrini qəti bildirəndə gözümü açdım. Görünür iynələrin təsiri itmişdi deyə ayılmışdım. Qüdrət alışqanı yandırıb üzümə baxdı. Başımı yerdən qaldırıb məni qucaqladı.

– Ə, bu nə haldı, zəmanəmizin qəhrəmanı? – Deyə zarafata keçdi. –Sənin elədiyin kömək bizə əvəzsizdir, qardaş. Hər cür mükafata layiqsən. Amma səni qorumaq bizim ən birinci vəzifəmiz, borcumuzdur. Odur ki, hospitala getməyini həkim məsləhət görür. Buna əməl eləməlisən. Yoxsa məsuliyyət mənim də boynuma düşər, həkimin də.

Mən gülümsəyib tez də üzümü turşutdum:

–Hər birimiz daşıdığı məsuliyyəti başa düşsək, qələbə çala bilərik. Mən məsuliyyətimə özüm cavabdehəm. Bura da ürəyimin hökmü ilə gəlmişəm, qardaş. Mənə görə məsuliyyət daşımağı heç kəsə rəva görmərəm. Mən uşaq deyiləm ki, atam məni axtarsın. Hər birimizin xoşbəxtliyi torpağın azadlığında olmalıdır. İndi de görüm sənin şəxsi cəbhəndə nə var nə yox. Subaylığın daşını hələ

atmamısan ki? Çoxdan görüşmürük, Qüdrət.

Bunu deyəndə dodaqlarım elə titrədi ki, səngər alaqaranlıq olduğundan yaxşı ki, Qüdrət bunu görə bilmədi.

Onun üzünün ifadəsini görməsəm də, nə cavab verəcəyi mənə çox maraqlı idi. Mənim hər şeydən xəbərdar olduğumu Qüdrət hələ bilmirdi. Qüdrət köks ötürüb üzümə mat-mat baxdı. Xeyli susdu. Əlinin işarəsi ilə yanındakı döyüşçüyə bizi tək qoy demək istədi. Oğlan cəld çölə çıxdı. Qüdrət söhbətinə haradan necə başlayacağını bilməyən adam kimi araya başqa söz qatdı.

– Hər şeydən əvvəl sənin sağlamlığın mənə vacibdir, Nihad. Keçən ilki yaralarından qalan izlərə görə səni təzədən döyüşçülər cərgəsinə qaytarmağa ixtiyarım yoxdur. Bunu sən özün də bilirsən. İndi ki öz arzunla gəlmisən, bu alqışlanmalıdır. Bir gündə sənin gördüyün iş bir batalyonun əvəzidir, qardaş. İndi həkimin məsləhətinə qulaq as, hospitala getməyə razı ol. Mənim vaxtım çox məhduddur. Füzuli, Ağdam istiqamətində əks hücuma keçmək üçün bütün gücümüzü, qüvvəmizi səfərbər etməliyik.

– Mən bütün dediklərindən xəbərdaram və geriyə dönməyi də qərarlaşdırmamışam. Bunu sənə birmənalı deyirəm. Başqa sualın varsa, qulluğunda hazıram. Amma sən mənim sualıma cavab vermədin.

Qüdrət azca gülümsədi. Sonra əlimin üstünə bir neçə dəfə vurub dilləndi:

– Elə bir ciddi məsələ olsa, bilirsən ki, birinci sənə deyərəm. Ciddi bir şey yoxdur və indi şəxsi məsələ haqqında düşünməyə də imkansızam. Bizi daha ciddi məsələlər düşündürməlidir. Ya qismət…

O yenə köksünü ötürdü.

Bir balaca özüm haqqında düşünmək istəyirdim ki, yenə heç bir şey alınmadı. Görünür, yetimliyim kimi təklik də boyuma biçilib. Bu Tanrının hökmüdür. Hökmdən kənara çıxmaq olmaz.

Yenə ürəyim aramsız döyünür, növbəti sualı verib onu əsl məqsəddən uzaqlaşdırmaq istəmədiyim üçün dinib danışmırdım.

Qüdrət gözlənilmədən zarafatsayağı əlavə etdi:

– İki dəfə ölümdən qurtardığım bir qız məni tutulduğum sevgi kimi bir bəladan xilas eləmədi. İlk dəfə idi ki, mən hisslərimi dilimə gətirib ürək açırdım, qardaş. Səndən nə gizlədim. Məhəbbəti

qız qarşısında etiraf eləmək ən ağır döyüşdən çətin imiş.

Hər ikimiz güldük.

Gülüş xəstəyə həkimin dərmanından çox kömək eləyir. Vaxt varkən bir az zarafatlaşmaq pis deyil.

– Sirr deyilsə, kim idi o qız, harada tanış olmuşdunuz?

Qüdrət bir neçə dəfə udqundu:

– Tanış olmamışdıq, bu bir təsadüf idi, bir-birimizə rast gəlmişdik. Bəzən elə olur ki, heç gözləmədiyi təsadüf insanı ya xoşbəxt, ya bədbəxt eləyir. Bu təsadüf hansından idi, özüm də bilmirəm. Mən ümdsiz qırılan bir taleyi məhəbbətimlə təzədən yaşatmaq, diriltmək istədim. Görünür, bu sahədəki naşılığımdan səhv eləmişəm. Mehin məndən az qala on yaş kiçik ola-ola, öz iradəsini açıq-aşkar ortalığa qoyub məni məğlub elədi. O öz sevgisini əbədiyyətə qədər qoruyacağını, ürəyində başqasına olacaq duyğularına yer qalmadığını bildirib qərarını verdi. Bu kimsəsiz, az yaşda olmazın zillətini çəkən qıza qarşı olan o ilk sevgimi mən də deyəsən, əbədiyyətə aparacam, qardaş. Bu necə bəla idi ki, mən düşdüm? Heç ağlıma gətirməzdim…

O, üzümə baxıb acı-acı güldü.

Qüdrətin taleyinə acısam da, ürəyimdə bir arxayınçılıq, sinirlərimdə bir sakitlik yaranmışdı. Bütün bu anları Mehinin məktublarından bilsəm də, Qüdrətin dilindən təkrar eşitmək mənə xoş idi. Mehin nəinki Qüdrətə öz etibarı, sədaqəti ilə, hətta mənə də qalib gəldi. Onun harada olduğunu öyrənməyə ehtiyacım ola-ola dillənmədim. Qüdrətin şübhəyə düşməsini də istəmirdim. Ağır günlərin, saatların dostu, qardaş qədər sevdiyim bu adamı itirmək mənə ağır idi. Qüdrət hər cür hörmətə, məhəbbətə layiq insan idi. İlk dəfə dilinə gətirdiyi məhəbbətin cavabsız qalmağının nə qədər ağır olduğunu başa düşürdüm. Vaxt çox az olduğundan ayrılmalı idik. Bu dəfə on gündən sonra Beyləqana yaxın olan Füzuli rayonunun kəndlərini düşməndən azad etməliydik.

Horadiz qəsəbəsini geri qaytarmaq haqqında verilən əmri yerinə yetirmək üçün hücuma hazırlıq gedirdi. Qüdrət yaranan qısa fasilədə heç olmasa yaxın Beyləqan rayonundakı xəstəxanada müalicə olunmağa məni razı sala bildi.

– Qardaş, bu ayaqla sən döyüşdə iştirak eləyə bilməzsən. Bir

tərəfdən də başınla bağlı səhhətində yaranan ciddi dəyişiklik, bizi sənin sağlamlığının qayğısına qalmağa vadar edir. Əvvəl bir qardaş kimi məsləhət görürəm, sonra da…

– Sözünün dalını gətirməmiş mən gülə-gülə əlavə etdim:

– Sonra da polkovnik Kazımlı kimi əmr edirəm. –Düz tapmışam, Qüdrət?

– Necə başa düşürsən, – deyə təzədən məni qucaqladı. Düşdüyümüz vəziyyətdə yenidən görüşəcəyimizə heç kəs zəmanət verə bilməsə də, ümidlə ayrıldıq.

İnsanın həyatı başdan-başa ayrılıqdan, vüsaldan, sevincdən, göz yaşından, ölümdən ibarət deyilmi? Bunların heç biri olmasaydı yaşamaq da bu qədər şirin, qiymətli olmazdı.

Tanrının bəxş elədiyi bir ömrü kimisə gözləyə-gözləyə, nəyəsə ümid eləyə-eləyə başa vurmuruqmu? Bir şey fikrimi, düşüncəmi məşğul edib ki, ümid olmasaydı, insan yaşaya bilərdimi? Mən ümidlə yaşayırdım. Mehinin vüsalına ikicə addım qaldığı halda bəs nədən dilimə gətirib Qüdrətdən heç nə soruşa bilmədim? Ya elə ona qoşulub Mehinin dalınca getmədim? Bəlkə, əllərim ona çatmamış barmaq boyda bir dəmir parçası həsrətimə xitam verəcək. Bir anlıq səadətin dalınca dünyanın o başına getmək istədiyim halda peşimançılıq içində yanıb qovrulan ürəyimin döyüntüsünə son qoyacaq. Ya elə dahi şairimiz M.Füzulinin «Leli və Məcnun» əsərindəki Leyli kimi Mehin əbədi sevgisinə çatmamış namərd gülləsindən məhv olacaq? Qara fikirlər beynimi söküb-dağıdır, yenə cəsarətsizlik xəstəliyimin baş qaldırdığı üçün özümü danlayırdım. Maşından düşüb geri qayıtmaq, hər şeyi olduğu kimi Qüdrətə danışmaq istəyi başımdan sürətlə keçdi.

Bəlkə, nə qədər gec deyil Mehini tapıb çəkdiyim iztirabları, yuxusuz gecələrimin əzablarını danışıb ürəyimin yükünü azaldım? Həyatımı cəhənnəmə döndərən izdivacın buxovlarını qırıb azad olduğumu, birləşməyimiz üçün heç bir maneə olmadığını deyim? Birdən Mehin desə ki, mən artıq günlərlə, aylarla bir görüşə, bir xoş baxışa möhtac olan Mehin yox, başqa bir adamam. Beş ilə yaxındır gecə-gündüz sinəmdə çığıra-çığıra yanan məhəbbətimdən bircə ovuc kül qalıb, onda necə olsun? Bu qədər olanlardan sonra aramızda nəyinsə dəyişəcəyinə şübhəm artmış, ümidim elə bil azalmışdı.

Bu qorxunu canımdan çıxarmaq üçün Mehinin məhəbbət dolu gözlərini, məsum baxışlarını, mələkələr kimi nurlu sifətini xəyalımda canlandırıb özümü toxtatdım. Mənə elə gəldi ki, qarşımdakı hürkək-hürkək dörd tərəfə boylanıb: «Qardaş, məni metroya qədər ötürərsən?» – Deyən həmin Mehindi, başqa heç kəs. Ondan uzaqlaşdıqca onun həyatımda və qəlbimdə nə qədər böyük yer tutduğunu daha dərindən hiss edirdim. Dərk etdiyim bu həqiqətə bütün varlığımla inandığım halda şübhələrimin səbəbini anlamırdım. Bəlkə, Qüdrətin birdən-birə aramızda görünməyi məni bu qənaətə gətirirdi, bilmirdim.

– Bu ola bilməz, ola bilməz – deyə məni dəlilik dərəcəsinə qədər gətirən üzücü düşüncələrdən azad olmamış maşın xırıldayıb dayandı. – Canımda olan sıxıntı başımın ağrılarına qarışdığından bayıldığımı bir də xəstəxana çarpayısında səhərə yaxın ayılanda bildim. Yaralı daşıyan maşınların tez-tez gəlib getməsindən böyük itgilər verdiyimizi başa düşürdüm. Şəhid olan oğulların ata-analarının ah-naləsindən adamın başının tükü qabarırdı. Bu bir həqiqətdir ki, heç kəs ölümü könüllü qəbul etməz. Nə edəsən ki, vətən, torpaq darda olanda çoxu özünü düşünmədən ölümə də gedir. Ölüm zirvəsini könüllü, təmənnasız qəbul edənlərə göz yaşı axıtmaq yox, başını dik tutub qürurla dayanmaq lazımdır, ay analar, bacılar! – Deyə onları məzəmmətlədiyim halda qeyri-ixtiyari içimdən bir hıçqırıq qopdu. Üzümü əllərimlə qapayıb için-için ağladım. Uşaqlıqdan ağlamağı sevməzdim. Eşitmişdim ki, ağlamaq zəiflik əlamətidir, kişi ağladıqca acizləşər, mütiləşib kiçilər. Nə vaxtsa belə ağladığımı da yadıma gətirə bilmirdim. Bu günkü ağlamağımın səbəbini çox yerə yozmaq olardı deyə otağa girən tibb bacısına hiss etdirməmək üçün gözümü silib gümrah görünməyə çalışdım:

– Ay xanım, vətənin bu dar günündə mənim kimi sağlam adamı çarpayıya yıxıb qulluq eləmək ən azı insafsızlıqdır. Rica edirəm, paltarımı gətirin dostlarıma köməyə getməliyəm– deyə ciddi görkəm aldım.

Qız əlindəki dərmanları, iynəni masanın üstünə qoyub cəld çölə çıxdı. Baş həkimlə birgə gəlmyindən başa düşdüm ki, məndən şikayət eləyib. Baş həkim orta boylu, qara sıx saçları geri daranmış, baxışlarından yorğunluq tökülən ciddi bir adam idi. Mə-

ni hərtərəfli yoxlayıb başını ağır-ağır qaldırdı. Üzümə sirayətedici bir nəzər salıb dilləndi:

– Yoldaş Mansurov, hərbidə olduğu kimi, xəstəxananın da öz qayda-qanunu var. Kimin xəstə, kimin sağlam olduğunu biz təyin edirik. Xahiş edirəm, icazə ver, sağlamlığının qeydinə qalaq. Sənin kimi oğlanlarımıza qulluq göstərmək borcumuzdur. Amma unutma ki, quduz düşmənə cavab vermək sağlamlıq tələb edir. İnanıram ki, sağlamlığınızdakı bu hallar tezliklə keçib gedəcək. Məsələ bundadır, bunda. O ayağıma işarə eləyib güldü.

Həkimin dediyi kimi, vəziyyətim tezliklə deyil, bir aya yaxın idi ki, düzəlmirdi. Neçə dəfə Bakıya göndərmək istəmişdilər, imtina eləmişdim. Burda Mehinə bir qədər yaxın olduğumu hiss elədikcə özümdə bir yüngüllük tapırdım. Qüdrət iki dəfə mənə baş çəksə də, ürək eləyib bir söz soruşmamışdım. Bilirdim ki, bəzi xırda döyüşlər getsə də, böyük əməliyyatın başlanmasına hələ bir həftə, on gün vaxt var. Buradan birbaş Qüdrətin qərargahına gedibb, heç nəyə heç kimə məhəl qoymadan Mehinlə görüşəcəm, razı salıb geriyə Bakıya göndərəcəm. İnşallah, geri qayıdan kimi əvvəlki xoş günlərimiz, saatlarımız başlanacaq, tələbəlik illərindəki kimi gəzdiyimiz yerlərə bir daha baş çəkib köhnə xatirələri yada salacağıq. Eh, həyat, yaşamaq, doğrudan, necə gözəldi deyə uçmağa qanadım yox idi. Rüstəm mənə baş çəkib anamın, Rənanın onu təhqir elədiyinə baxmayaraq işin yaxşı getdiyini deməsi məni ürəkləndirmiş, sanki qol-qanad vermişdi. Mən də Mehinin bu yaxınlıqdakı bölmədə olduğunu, döyüşçülərimizə qayğı göstərdiyini danışıb Rüstəmi sevindirmişdim. Ayrılanda Rüstəm məni qucaqlayıb:

– Möhkəm ol, qardaş, həyat çətinliyinə dözüb onu sevənlərindir. Səadətinə çatmaq üçün ən çətin addımı atmısan. Vətən, torpaq qarşısında da borcunu ödəmisən, daha nə istəyirsən? Bundan da artıq xoşbəxtlik olarmı?

Rüstəm gözlənilmədən cibindən bir qəzet çıxarıb mənə uzatdı. Haqqımda o qədər xoş sözlər yazılmışdı ki, oxuduqca tər məni basırdı. Qəzeti qırağa qoyub dilləndim:

– Canım, bu qədər də tərif olar? Müxbirlərin belə işləri ilə aram yoxdur da. Qarışqanı fil boyda eləməyi sevirlər. Mən elədiyimi vətən, torpaq sevən hər bir adam eləyə bilər. Qəzetin səhi-

fəsini aşırıb lap yuxarı başda igidliyə görə «Vətən uğrunda» medalı ilə təltif edilsin sözlərini oxuyub gözlərimə inanmadım. Altında Ali Baş Komandan Heydər Əliyevin imzası var idi. Buna inanmamaq mümkün deyildi.

Xəstəxanada qəzeti əldən-ələ ötürür, bəziləri də məni şəxsən görüb tanış olmaq istəyirdilər.

Günortaya yaxın həyətdə bir hərbi maşın dayandı. İçindən iki oğlan sıçrayıb yerə düşdülər. Yəqin yenə yaralı gətiriblər deyə fikirləşdim. Onların birbaşa mən yatan otağa sarı gəlmələri fikrimi dəyişdirdi. Xəstəxanadan çıxmağıma hələ iki gün var idi. Gələnlər elə bu saat onlarla getməli olduğumu bildirəndə çaşıb qaldım. Nə isə xoşagəlməz bir hadisə eşidəcəyimin qorxusundan canıma üşütmə düşdü. Bəlkə, Mehinə nə isə olub, ya Qüdrətin başında bir hadisə var? Öz-özümə sual verə-verə geyindim.

Həkim, tibb bacıları ilə vidalaşıb maşına oturdum. Gələn uşaqlar elə bil lal-kar idilər. Bir kəlmə də olsun danışmırdılar. Gün batmaq üzrə idi. Beyləqan Füzuli istiqamətində maşın sürət götürdü, çox çəkmədi hər yan ağır, ürəksıxıcı sükuta qərq oldu. Yol kənarlarında atılıb qalan tək-tək hərbi texnikadan savayı gözə heç nə dəymirdi. Çöldə-bayırda bir inni-cinni görünmürdü. İrəlilədikcə atışma səsi yaxınlaşır, ayrı-ayrı yerlərdən qalxan qara tüstü burula-burula göyə qalxıb ömrünü başa vurmaqda olan payızın duman-çəninə qarşıır, göz-gözü görmürdü. Təkcə maşının lampasından düşən işıq şüasını tutub irəliləyirdik.

Füzuli rayonunun Bəhmənli kəndinə xeyli qalmış maşın arxın üstündəki kiçik körpünü adlayıb sağa buruldu. Mən təxminən Qüdrət olan qərargaha getdiyimizi başa düşdüm. Ürəyim aramsız döyünür, Mehinlə qarşılaşacağım anlar gözümün qarşısına gəldikcə həyəcandan başım gicəllənirdi. Qərərgaha qədər olan yarım saat vaxt mənə bir il qədər uzun görünürdü. Elə bil bu yarım saat heç vaxt başa çatmayacaqdı…

Mehin burada lap yaxındadır. Mən həsrətində olduğum ən əziz xatirəmlə üzləşəcəyəm. Yox, o xatirələr burda məni lərzəyə gətirib titrədə bilməz. Aydın yay səhərində Qubada möhtəşəm Şahdağın zirvəsindən boyunbağı kimi asılan şəlalənin yanındakı xatirələr burda olduğu kimi ruhumu oxşaya, könlümdə o əzəlki duyğuları yarada bilərmi? Nə olur-olsun, mən Mehini yenə o yaş

daşın üstündə oturub günəş şüası kimi təmiz, zər-zibalı şəlalənin suyu ilə oynayan görürdüm. Dodaqlarında təbəssüm vardı. Qara saçları bulud kimi kürəyini bürümüş, qıvrım telləri geniş alnında oynayırdı. O, sulu əllərilə tellərini geri eləyib arxaya çevrilir. Məni görüb xəfifcə gülümsəyir. Mən onun əllərindən tutub qaldırır, özümə tərəf çəkirəm. Dodaqlarımı alnına, yanağına söykəyirəm. Mehin məni görcək titrək əllərilə üzünü örtür.

Eh xatirələr, xatirələr. Sizsiz necə yaşamaq olar? İstəyirdim o, məni qəflətən görsün. Məni gördüyü zaman nə edəcək? Yenəmi qara kipriklərini endirib susacaq? Yoxsa illərdən bəri gözündə solub getməkdə olan bir eşqin zəif şüaları qalan baxışlarla üz çevirib gedəcək?

Maşın qəflətən dayanmasaydı yüzlərlə belə ağır, üzücü suallara cavab axtarmalı olacaqdım. Bizi ilk qarşılayan Qüdrət oldu. Qalanları əmrə müntəzir kimi səssizcə durub baxırdılar. Yeraltı sığınacağa enəndə zəif şam işığı yaş divarlarda oynadıqca birbirimizi aydın görürdük. Yaş torpaqdan qalxan nəmişlik şirin bir duyğu kimi canıma yayılırdı. Nədən sən bu qədər şirin, bu qədər əzizsən, qaraca torpaq?» – Deyə yerdən bir ovuc torpaq götürüb bərk-bərk sıxdım.

Tutiyə, təbrik kimi burnuma çəkib qoxladım. Sonra Qüdrətə yaxınlaşıb gülə-gülə əlimi çiyinə qoydum.

– Məni təcili gətirməkdə, bəlkə, bir iş var, qardaş, xeyir ola?

–Ə, bundan xeyir nə iş ola bilər. Döyüş qabağı yaşanan hər saat, hər dəqiqə ömürdür dana, qardaş.

Ürəyim sinəmdə quş kimi çırpındı. İndicə Qüdrətin dilindən: qız razılığını verib, evlənirəm sözünü eşidəcəyimi güman elədim. Alaqarnlıqda dörd tərəfi gözdən keçirdim. Heç kəs gözümə dəymirdi. Hamı iki gündən sonrakı böyük hücuma hazırlaşırdı. Qüdrət mənim devikdiyimi görüb dilləndi:

– O boyda təltif sənə heç nə demir, Nihad? Bizim bölmədə əsil bayramdı. Səni də elə ona görə gətirdik ki, döyüş qabağı bir az sevinc hissi keçirək.

Səni təbrik edirəm, qardaş. O gün olsun ki Şuşanın, Laçının azad olunduğu günün sevincini yaşayaq.

Özümü bilmirəm, siz o günü görəcəksiniz. Elə bil üstümdən yük götürüldü. Vücudumda bir canlanma əmələ gəldi. Deməli,

məsələ mən düşündüyüm kimi deyilmiş. Onda bəs Mehin hanı,görünmür? – deyə fikirləşib sual dolu nəzərlərlə onu süzdüm.

Dünən bir əsgərimizi vurub bu qansızlar. O mənim sağ əlim idi, Nihad. Yarası çox ciddi idi. Güman etmirəm ki… –Qüdrətin səsi titrəyib qırıldı. Bir az ara verib yenə dilləndim.

– Sağ olsun Mehini. Dedi ki, Bakıya onu gərək özüm çatdıram. Heç kəsə etibar eləmərəm. Mənim etirazıma da baxmadı. Döyüş başlanana qədər qayıdacam, – dedi. Yaman qoçaq qız imiş, Nihad. Heyif ki…

Elə indicə hər şeyi açıb-tökməkdən özümü zorla saxladım. Havadakı nəmişlik get-gedə xırda yağış dənələrinə çevrilirdi. Yenə üstümə ağır bulud kimi sönüklük, süstlük çökür, qəlbimdə bir ümidsizlik baş qaldırırdı.

Qüdrət bir az susub əlavə elədi: – Məhəbbətinə sadiq qaldığı oğlanın bəxtəvər başına. Heç nəyə baxmadan onu bir bacı kimi də çox sevirəm, Nihad. Mehin hər cür hörmətə, məhəbbətə layiq qızdır. Heyiflər olsun ki, sevgilisinin anası, arvadı onun başına yüz cür oyun açıblar. Əsil məhəbbətin gücü qarşısında sel də dayana bilməz, qardaş. Burada ayaq üstə durub danışırıq. Çöldəki döyüşçülər bizi gözləyirlər. Səni çoxu tanımır. Gənclərimizə bir neçə söz desən, elə bilirəm yerinə düşər. Səni səbirsizliklə gözləyirdilər.

– İndi söz vaxtı deyil, Qüdrət, iş görməliyik. Sən əminsən ki, düşmən bizi qabaqlamaz? Çox vaxt belə olur. Özün səriştəli hərbiçisən, şər deməsən, xeyir gəlməz, qardaş. Güman etmirəm ki, düşmən kəşfiyatı planımızdan xəbərsizdir. Mənim fikrimi bilmək istəyirsənsə, hücumu sabah şər şarışmamış, gözlənilmədən başlasaq yaxşı olar. Düşməni hürküdüb çaşbaş salarıq.

Qüdrət mənimlə razılaşdı, amma vəziyyət mənim güman etdiyim kimi olmadı. Kəşfiyyatçımız düşmən döyüşçülərinin arasında qarışıqlıq və ümidsizlik yarandığı xəbəri ilə gəldi. Erməni quldurları Ali Baş Komandanın – Heydər Əliyevin hökmü, zabitəsindən başlarını əməlli-başlı itiriblər. Çox hissəsi quldur kimi kəndləri çalıb-çapıb Horadiz qəsəbəsinə topladıqları xalı, xalça, qiymətli ev əşyalarını daşımaqla məşğuldular. Hücumu gecikdirmək olmazdı. Amma Qüdrət nədənsə əməliyyatı nəzərdə tutduğu vaxtdan qabaq başlamaq istəmirdi.

Yəqin Mehini gözləyir, – deyə başımdan qorxunc bir fikir keçdi. Onu tələsdirməyimə baxmayaraq ürəyimdə Qüdrətlə razılaşdığıma görə məmnun idim. Heç olmazsa Mehini bir anlıq, bir dəqiqəliyə də görmək arzusu başımdan getmirdi.

Talenin qismətini nə bilmək olar axı? Bir tərəfdən də onun qayıtmasını istəmirdim. Allah eləməmiş başına bir iş gəlsə necə yaşayardım. İki aya yaxın bir vaxtda hələ də görüşə bilməmişdik. Mən onunla xəstəxana çarpayısında görüşüb əzab vermək istəməmişdim. Təsadüfi görüşümüzün şirin olacağına ümid bəsləmişdim. Həm də anamla, Rənanın elədiklərindən xəcalət çəkirdim. Qüdrətin xahişini yerə salmadım. Çöldə dəstə-dəstə qaranlıqda, yaş torpağın üstündə oturan döyüşçülərin yanına gəldik. Hamısı bir ağızdan məni təbrik elədilər. Biz onların əhval-ruhiyyələrini qaldırmaq üçün bir xeyli zarafatlaşdıq. Növbə ilə az da olsa, yatıb dincəlmələrini qaydaya saldıq. Səngərin bir küncündə kürək-kürəyə verib səhəri açdıq.

Dan yeri təzəcə ağarırdı. Yağış, çiskin də kəsmişdi. Qızıl köynəyini təzəcə yırtıb yer üzünü işıqlandırmaq istəyən qış günəşinin zəif şüaları gah itir, gah da görünürdü. Bulud topaları bu şüaların qabağını kəsdikcə insanın ruhunda cansıxıcı bir hal yaranırdı. Ruhumun dincliyini əlimdən alıb yer üzündə nə varsa gözlərimdə mənasını itirən bu sevgimə Mehin təzədən inanacaqmı? Düşündükcə ürəyim əsməyə, dizlərim titrəməyə başlayırdı. Eh, Mehin, səni necə həsrətlə görmək istədiyimi bilsəydin?…Bir belə intizar keçirəcəyimi indiyə qədər heç özüm də təsəvvür etməmişdim. Görüşəcəyimizə bir gündən də az vaxt qalırdı. Ürəyimdən, xəyalımdan keçənləri duymadan, bilmədən Qüdrət sükanın arxasında səssizcə oturmuşdu. Bəlkə, keçirdiyim halları elə o da yaşayırdı? Mehinlə görüşüb münasibətlərini qaydaya salacağına ümid eləyirdi. Nə bilmək olar?

Maşın dayandı. Axırıncı mövqeyimizdəki döyüşçülərimizin əhval-ruhiyyəsini öyrənib geri qayıdırdıq. Günortaya az qalırdı. Qərargaha çatar-çatmaz Qüdrət maşını saxlayıb düşdü.. Təəccüblə üzünə baxıb danışmadım. O, alnını bir az ovuşdurub dilləndi:

– O uzaqdan qalxan qara tüstünü görürsən, Nihad? –Deyə fikirli-fikirli əlindəki uzağı göstərən müşahidə borusunu mənə

uzatdı.

– Müharibədə hər şey ola bilər. Burada qeyri-adi nə vra ki? – Deyə könülsüz-könülsüz qolundan tutdum. O, mənə məhəl qoymadan telsizi işə saldı. Bir neçə dəfə: «Araz», «Araz», – deyə səslədi. Qüdrəti dinləyən nə dedisə, rəngi tamam ağardı. Məlum oldu ki, Araz qırağından bura qədər ermənilərin əlində olan əksər kəndlərə od vurublar. Alınmayan kəndlərdəki əhali maşınlara doluşub kəndi tərk edirlər. Qüdrət telsizi götürüb hücum əmri verib mənə sarı döndü. Boynumu qucaqladı.

Maşının açarını mənə uzatdı. Horadizə yaxın kəndlərin quldurlardan təmizlənməsi işini sənə tapşırıram, qardaş. Mən isə sağ cinahdan hücum eləyən döyüşçülərimizin yanında qalmalı oldum. Sənə uğurlar olsun. Özündən muğayat ol. bizə çox lazım olacaqsan. Aldığımız bu qarşıdakı yüksəkliyi əldən versək çəkdiyimiz əziyyətlər hədər gedə bilər.

Maşına qalxmazdan əvvəl bir də Qüdrətə sarı döndüm. Amma sözüm boğazımda tıxanıb qaldı.

– Mehini qoru, Qüdrət, – deməkdən özümü güclə saxladım. Nədənsə gözlərim yaşla dolmuşdu. Mən birbaş Füzuli rayonunun Bala Bəhmənli kəndindəki qərargaha gəldim. Hər qarış torpaq, hər kənd uğrunda qızğın döyüş gedirdi. Atışma səsindən qulaq tutulur, yer göy elə bil cəhənnəmə dönmüşdü. Mən qərargaha çatmamış Qüdrət bildirdi ki, Cəbrayıl rayonunun polis işçilərindən ibarət döyüşçüləri Ağdam alayının tərkibində Füzuli döyüş bölgəsinə göndərilib. Mahmudlu ilə Böyük Bəhmənli kəndi arasındakı müdafiə zolağında səngərlər qazıb yerləşiblər. Əvvəl ermənilərin piyadalar əleyhinə hazırladıqları minalanmış sahələr təmizlənməli, sonra ara vermədən hücuma keçməlisiniz.

Düşmənə göz açmağa imkan vermək olmaz. Bizim bölmələrimiz təhlükəsizlik qaydalarına riayət edərək rus-erməni terror qruplarının xəttini yarıb səngərlərini ələ keçirdilər. Erməni daşnak dəstələri ağır texnikadan istifadə edirdilər. Böyük itgilər versək də, düşməni də bir addım irəli getməyə qoymurduq. Erməni quldur dəstələri rus ordusunun köməyi ilə Böyük Bəhmənli kənd qəbristanlığı ətrafında ağır və amansız döyüşlər aparırdılar. Hərbi texnika, döyüş ləvazimatı, yaralıları döyüş zonasından çıxarmaq üçün sanitarlar çatışmırdı. Ancaq canlı qüvvəmizin hesabı-

na irəliləyirdik ki, bu da bizə ağır başa gəlirdi. Qəbirstanlıq tərəfdən gələn ağır xəbərlərdən sarsılmışdım. Onu da bilirdim ki, döyüşçülərimizin bir dəstəsi istehkamı yarıb düşmənin arxasına keçiblər. Aralarında bir qız da var. Onun kimliyini öyrənməyə nə vaxt, nə imkan var idi. Gözlənilmədən başlanan hücum aramıza bir çaşqınlıq salmışdı. Qarşımızdakı təpə uğrundakı döyüşlərdə itirdiyimiz vətən oğullarını görüb qumbara dolu çantası ilə birlikdə təpəyə- birbaş erməni quldur yuvasına doğru sürünən qız heç bir əmrə, göstərişə məhəl qoymayıb. Dalbadal atdığı qumbaralar düşmənin sığınacağını dağıdıb, qüvvələrini birləşməyə qoymayıb – dedilər. Yaranan vəziyyətdən istifadə edən bizim döyüşçülər təpəni alanda qızı gördüm deyən olmayıb. Sonradan danışırdılar ki, hətta onu arxadan özümüz vurmaq istəyirdik ki, erməni quldurlarına əsir düşməsin. Qız, qadınlarımızın başına min bir oyun açdıqlarının çox şahidi olmuşduq. Qıza heyfimiz gəlirdi. Onu vurmağa əlimiz qalxmadı. Ermənilərin onu əsir apardıqlarını güman etdik. Bu ərazidə xeyli canlı qüvvə itirsək də, ata-babalarımızın ruhu gəzən qəbristanlığı erməni quldurlarından azad edə bildik.

Qüdrətlə əlaqəm tamam kəsilmişdi. Döyüş zonasında qalan yaralılarımızı çıxarmağa canlı qüvvəmiz, demək olar ki, qalmamışdı. Yenə bir neçə dəfə Qüdrətə zəng vurdum. Cavab vermədi. Beynimə qara fikirlər dolmuşdu. Oturub gözləmək vaxtı deyildi. Silahı və xərəyi götürüb köməkçimlə özümü ora yetirdim. Ayağım mənim üzümü burda da qara eləyirdi. Bir neçə dəfə gedib qayıtmışdım. Ayaqlarımda güc qalmamışdı. Məni ağlamaq tutmuşdu. dağıdılmış bir məzarın önündə diz çökdüm. Yanı üstə yıxılmış baş daşının üstündəki bir nurani qocanın şəkli canlı insan kimi üzümə baxırdı. Məni xəcalət təri basmışdı. İnsanlıqdan çıxan canavar xislətli erməni quldurları geri çəkiləndə qəbirlərin baş daşlarından qisas almışdılar. Demək olar ki, əksər qəbirlərin başdaşları dəlik-deşik olmuşdu. Çökdüyüm yerdən qalxmağa taqətim qalmamışdı. Döyüşlərdə iştirak etdiyim bu neçə ildə burada gördüyüm mənzərədən ağırına rast gəlməmişdim. Cansız daşlardan da qisas almaq qeyri-insani hərəkətlər idi ki, eriməni faşistləri eləmişdilər. Başım gicəllənir, qulaqlarımda ildırım səsi kimi gurultu hiss eləyirdim. Əvvəlki xəstəliyim, deyəsən, geri

qayıtmışdı. Ətraf mühitdə nə baş verdiyini anlaya bilmirdim. Başımı əllərimin arasına alıb yerimdən tərpənmirdim. Təkbaşına qan-tər içində mənim əvəzimə də işləyən Nazim telsizi mənə uzatdı:

– Polkovnik Kazımlı sizi istəyir, yoldaş Mənsurov.

Kazımlı sözünü eşitcək sanki özümə gəldim. Oturduğum yerdən bir az dikəldim. Qüdrətin səsi qırıq-qırıq gəlirdi. Elə bil dünyanın o başından danışırdı. Onun haradasa uzaqda olduğunu güman eləyirdim. İki gündür nigarançılığıma elə bil son qoyuldu. Arxayınlıqla nəfəs aldım. Deməli, sağ-salamatdır. Qüdrətə bir şey olmayıb, şükürlər olsun deyə arxayınlıqla nəfəs aldım.

– Qardaş, qələbəmiz başa çatdı. Hamımızın gözü aydın olsun. Arazboyu kəndlərimizi murdarlardan təmizləyib geri aldıq. Zəhmətimiz hədər getmədi. O gün olsun ki, bütövlükdə Qarabağımızı azad eləyib tam qələbə çalaq.

Qüdrət nə qədər nikbin danışmağa çalışsa da səsində bir kədər hiss eləyirdim. O kədərin səbəbini çox məsələlərə yozmaq olardı. Mehinlə bağlı olduğunu da istisna eləmirdim. Bir də Mehinin şəhərdən gəldiyini güman etmirdim. Nigarançılıqdan ürəiymdən qara qanlar axırdı. Heç nə soruşa bilmirdim. Sanki nitqim batmışdı. Mehindən bir bəd xəbər eşitsəm, elə buradaca bu doğmalarımızın, əzizlərimizin dağılmış məzarları yanında özümü qətlə yetirəcəyimi qət etmişdim.

Qüdrətin «Hələ müharibə qurtarmayıb, sənin kimi oğullar bizə çox lazım olacaq. Özünü qoru, Nihad» sözlərini xatırlayıb utanan kimi oldum. Özümü ələ alıb, İnşallah, inşallah deyə halsız-halsız cavab verdim. Qüdrət bir az susdu. Boğazına dolan qəhəri bir neçə dəfə arıtlayıb:

– Mehin dünəndən xəbərsiz itib, Nihad –dedi. Bəlkə sizdə bir məlumat olar? Hər yerə adam göndərib axtarıram. Gördüm deyən yoxdur, qardaş. Yenə səsi qırıldı. Ağladığı açıqca hiss olunurdu. Telsiz əlimdən yerə düşdü. Göylər lərzəyə gəlib üstümə töküldü elə bil. Qüdrət bir neçə dəfə də alo, alo deyib danışığı qırdı. Əllərimi yerə dayayıb çətinliklə də olsa, ayağa qalxdım. Yaralıları şəhər xəstəxanalarına yola salmaq üçün qərargaha getməli idim. Kənd məzarlığı kiçik təpənin üstündə yerləşirdi. Qərargaha getmək üçün xeyli dolanmalı idim. Canıma elə bil od vurulmuş-

du. Ürəyim alışıb-yanırdı. Məzarlığın girəcəyinə kənd camaatı balaca su kranı çəkdirmişdi. Geri dönüb krandan bir ovuc su içmək, ürəyimin atəşini söndürmək üçün əyildim. Birdən hardansa zəif zarıltı eşitdim. Yəqin səhv salmışam, yenə qulağıma müxtəlif səslər gəlir deyə qalxıb getmək istəyirdim ki, zarıltını açıqca eşitdim. Nazimə sarı döndüm:

– Səhv etmirəmsə, zarıltı səsi gəlir, Nazim. Mənim bu durumumda hər şey ola bilər. Amma bu belə idi.

Nazim ayaq saxlayıb ətrafı dinlədi. Doğrudan da, kiminsə səsi gəlirdi. Məzarlığı o ki var axtardıq. Heç kəsi tapmadıq. Səs əvvəlki qayda ilə gəlirdi. Qaş qaralmaq üzrə olduğu üçün məzarlığın ağır xofu məni sıxırdı. Köhnə üçüq birr məzarın yanında ayaq saxladım. Səs get-gedə zəifləyir ara-sıra lap yox olurdu. Yəqin məni qara basır. O qədər ah-nalə eşitmişdim ki, qulağımda səs qalıb deyə çıxıb getmək istəyirdim. Birdən lap yaxından səsi eşidib diksindim. Kim isə köməyə çağırırdı. Alaqaranlıqda uçuq qəbrə diqqətlə baxdım. Bir şey görə bilmirdim. Amma səs gəlməyində davam edirdi. Nazim alışqanı çıxardıb yandırdı.

– Yoldaş komandir, burada yaralı bir qadın var. alçaqlar geri çəkiləndə onu güllələyib köhnə uçuq qəbrə atıb gediblər, – deyə qışqırdı. Əynindəki milli əsgər paltarı demək olar tamam qan içində idi. Taxtaları aralayıb çətinliklə qadını ordan çıxardıq. Əvvəlcə onu tanımaq çox çətin idi. Üzü- gözü qana bulaşmış, solğun sifəti göyərib şişmiş, tanınmaz hala düşmüşdü. Sürüyüb su kranının kənarına yaxın gətirdik. Qana bulaşmış üzünü silib təmizləyəndə gözlərimə inanmadım. Dünya başıma fırlandı. Gözlərim qaraldı. Gözlərimi ovcumla silib bir də baxdım. Yox, yanılmamışdım. Bu Mehin idi. Neçə illərdi vüsalına həsrət qaldığım Mehin.

– Mehin, əzizim, – deyə üstünə əyilib yeri-göyü, küllü-cahanı dəhşətə gətirən yanıqlı bir fəryad qopardım. Nazim quruyub qalmışdı. Mənim səsimi eşidib Mehin başını qaldırdı. Taqətsiz halda yenə qollarımın üstünə düşdü. Bir xeyli özünə gələ bilmədi. Üzümü əllərinə, saçlarına sürtüb heç nəyə baxmadan onu öpüşlərə qərq elədim. Mehin elə bil cana gəldi. Kipriklərini ağır-ağır qaldırıb üzümə baxdı:

– Necə arıqlamısan, Nihad. Demişdim ki, səni əbədiyyətə qədər sevəcəm. Görürsən ki, sözümə əməl elədim.

Gözlərimdən süzülən yaş yağış dənələri kimi Mehinin qana bulaşmış solğun çöhrəsinə tökülürdü. O mənim göz yaşlarım deyildi. Ürəyimdən axıb gələn qan idi ki, yaşa dönüb Mehinin qanına qarışırdı. Mehin əlini güclə qaldırıb üzümdə, alnımda gəzdirdi. Oxxay…– deyə dərindən nəfəs aldı. Qolları cansız odun parçası kimi yanına düşdü.

– Səni çox axtardım, Nihad. Şükürlər olsun ki, son nəfəsdə… Sözünün dalını gətirə bilmədi. Nazim çətinliklə əlaqə yaradıb Qüdrətdən həkim tapmağı xahiş eləyir, özü də ağlayır, lakin bizim son görüşümüzə mane olmurdu.

Oturduğum yerdən qalxa bilmirdim. Mehin neçə illərdi ona uzalı qalan qollarının üstündə anasına sığınan körpə quşcığaz kimi büzüşmüşdü.

– Mənə soyuqdu, Nihad, qapını bağla, – deyib yenə huşunu itirdi.

Mehini qaldırıb neçə illərdi həsrətlə yanan sinəmə təkrar-təkrar sıxdım. Əlimdən gəlsəydi, yanan ürəyimin odunu, istisini onun vücuduna tökər, canımdan can, qanımdan qan vurub yaşadardım. Bu mümkün idimi, bilmirəm? Bir neçə dəqiqədən sonra Mehin yavaşca pıçıldadı:

– Heyif, çox heyif ki, o alçaqların hamısını…

Boynu sustalıb qollarımın arasına düşdü.

Qüruba gedən günəş, buludlar arasında itib-görünən ulduzlar kimi Mehin son şüalarını saçıb sönürdü.

Qərargaha çatanda Qüdrət hərbi həkim və bir neçə döyüşçü ilə bizi gözləyirdi. Qərargahda Qüdrət qabağıma qaçıb Mehini məndən almaq istəyəndə vermədim. Mehin qollarımın üstündə dərin yuxuya getmişdi. Oyatmaq istəmirdim. Həkim şəhər xəstəxanalarından birinə aparmağa icazə vermədi. Nə lazımdırsa, kömək elədi. Gözüm həkimin üzündə qalmışdı. Həkim yenə bir neçə iynə vurub ayağa qalxdı. Mehinin vücudunda elə bil bir canlanma əmələ gəlmişdi. Kirpikləri tez-tez qalxıb enir, ara-sıra gözünü açıb üzümə baxırdı. Ürəyimdə bir ümid işığı yandı elə bil. Amma həkim Qüdrətə yaxınlaşıb:

– Təəssüf edirəm, çox qan itirib, – deyəndə dünya uçub üstümə töküldü. Qalxıb bir küncə çəkilib ağlayan Qüdrəti qucaqladım. Acı bir nalə çəkdim:

– Sən nə etdin, Mehin? Axı qovuşmağımıza çox az qalmışdı? Neçə illərdi həsrətinə yana-yana səni axtarmışam. Vüsalımıza ümid var ikən bu necə ayrılıq idi aramıza saldın, Mehin? Məni həsrətlə əbədi baş-başa qoymağa necə qıydın, əzizim – deyə əlimi belimə bağladığım silaha atıb gicgahıma söykədim. Qüdrət cəld tərpənib silahı məndən aldı.

– Öldür məni, Qüdrət, özün öldür ki, bu əzabdan canım qurtarsın. Bundan belə yaşamağım kimə gərəkdi, qardaş? Balıq susuz, insan havasız yaşaya bilmədiyi kimi, mən də Mehinsiz yaşaya bilmərəm, – deyə ağladım, sinəmə, başıma döydüm.

Qüdrət də ağlaya-ağlaya:

– Sən bizə çox lazımsan, qardaş. Bir də unutma ki, əsgərsən. Vətənin əsgəri. Belə danışmağa ixtiyarın yoxdur. Qarşımızda hər şeydən öncə vətən, torpaq intiqamı kimi bir borc durur. O, borcu ödəmək üçün hələ çox belə qurbanlar verəcəyik, qardaş. Özünü ələ al.

Qüdrəti qəhər boğdu. Sözünün dalını gətirə bilmədi. Bununla belə onun danışığında, ürəyində ümidsiz bir sevda daşıyan aşiqin həsrətini, can yanğısını da hiss edirdim.

Mehin yenə bir anlığa gözünü açdı. Dərindən nəfəs alıb qırıq-qırıq dilləndi:

– Mən səni tək qoymaram, Nihad. Yadına mən düşəndə göydəki aya, ulduzlara bax, məni orda görəcəksən. Üzünü əsən küləklərə, yağan yağışa, qara tut, mənim sorağımı mütləq sənə gətirəcəklər. Şəlalənin şırıltısına, bulaqların, çayların nəğməsinə, gül-çiçəyin, yarpaqların pıçıltısına qulaq as, Nihad, mən orda olacam. Gecələr yuxularından, gündüzlər arzularından, istəyindən keçəcəm. Yadındadırmı mənim bir şeirim, Nihad?

– Yadımdadır, Mehin, yadımdadır. Biz o yerləri sənlə qoşa gəzəcəyik, belə deyib ürəyimi yandırma!

– Sözümü kəsmə, vaxtımız çox azdır.

Mehin başını bir az da qaldırdı. Nəfəsi güclə gedib-gəlirdi. Ətrafdakılar nəfəs çəkmədən dinlədiklərindən, gördükləri bu mənzərədən donub qalmışdılar. Qüdrət məsələni başa düşüb dinmir, bir küncə çəkilib səssizcə ağlayır, yaxın gəlmirdi. Mehin əlimi özünə sarı çəkib titrəyən dodaqlarına söykədi. Özümü ələ aldım. Nə qə-

dər gec deyil deyə-deyə Mehinin buz kimi dodaqlarından öpdüm. Heç vaxt ürək eləmədiyim, həsrəti dodaqlarımı yandıran yarımçıq bir busəyə cəsarətim indi çatmışdı. Mehin yüngülcə gülümsədi. Heç bir etiraz bildirmədən məmnunluqla kirpiklərini aşağı saldı. O gülüş Mehinin solğun dodaqlarında, məhəbbət, sevgi dolu gözlərində əbədilik donub qaldı. Deyirlər ki, simurq quşu son nəğməsini odda yananda oxuyur. Mehin məhəbbətin, sevginin simurq quşu idi. Son dəfə başını qaldırıb sinəmə söykədi. Son gücünü topladı, son nəfəsini nəfəsimə qatdı. Mənə daha bərk qısıldı. Son anda özünü oda atıb yandıran pərvanə kimi çırpındı. Çöhrəsini heç kimə bəlli olmayan bir işıq seli bürüdü. O işığın şüasından yer-göy, Mehinin qanından doyunca içən ana torpaq da sanki cana gəldi. Bir anlığa göz qapaqlarını qaldırıb ətrafda dolandırdı:

Gecə ötür, ulduzlar
Boylanır pəncərəmə.
Bir ulduz tək baxaydım
O göylərdən mən sənə…

Başı yenə qolumun üstünə düşüb səsi eşidilməz oldu. Amma dodaqları nə isə pıçıldayırdı. Əyilib qulağımı dodaqlarına yaxınlaşdırdım. Qırıq-qırıq:– Məni elə burda dəfn edərsən, Nihad. Şəhid düşdüyü torpaqda da qalmalıdır. Onsuz da heç kimim yoxdur. Mən səni dünyalar qədər…– deyib səsi əbədilik qırıldı. Onun sinəsindən yeri-göyü, bütün cahanı yandıracaq odlu bir ah qopdu. O ah Mehinin Simurq quşuna dönən ruhu idi. Hamının gözü qarşısında son dəfə məhəbbətin əbədiyyət nəğməsini oxuyurdu. Sonra göylərin nəhayətsiz ənginliyinə doğru qanad çalıb Tanrı dərgahına qovuşdu.

Necə, nə vaxt bayıldığımı, xəstəxanaya necə gətirildiyimi indi də xatırlaya bilmirəm. Həkimlər ciddi ruhu sarsıntı keçirdiyimi, uzun müddət müalicəyə ehtiyacım olduğunu deyirdilər. Bir neçə aydan sonra az da olsa, özümə gəlmişdim. Nə baş verdiyini xatırladıqca laqeydliyim daha da artır, özümə qapanır, heç kəslə dinib danışmırdım. Atam məni evimizə aparmağa çalışır, yüz cürə qayğı göstərir, heç nə olmayıbmış kimi özünü apardıqca daha çox əsəb-

ləşirdim. Doğma evimdən, ocağımdan qaçaq düşmüşdüm. Heç kəsi görüb-eşitmək belə istəmirdim. Mənə elə gəlirdi ki, evimizə yaxınlaşan kimi Mehin oturduğu o daşın üstündən qalxıb gələcək, uzun müddət məni gözlədiyi üçün qınayacaq, sonra da göylərdən enən mələkə kimi uçub gedəcək, əllərim uzalı qalacaq.

Budur, anam dilənçi payı vermək üçün Mehinin dalınca qaçır, Mehin uzaqlaşır ağ duman içində yox olur, Mehin deyə qışqırıb ayılıram.

Gecəmi-gündüzmü Mehinin məktubları ilə keçirirdim. Vəziyyətimi ağırlaşdırmamaq üçün həkimlər onları da əlimdən almışdılar. Yeganə təsəllim Rüstəm və bir də atam idi. Qüdrət çox seyrək gəlib-gedirdi. Rüstəm dedi ki, onu sülhməramlı ordu qüvavələrinin tərkibində Avropa ölkələrinin birinə göndəriblər. Ara-sıra telefon açıb əhvalımı soruşur, möhkəm ol, deyirdi.

Atam həkimlərin məsləhəti ilə mənə ayrı, ikigözlü mənzil almışdı. Mümkün qədər məni evdən kənarda saxlamağı məsləhət görmüşdülər.

Bahar öz mübarək qədəmlərini torpağa basmışdı. Baharın gəlişi gülə-çiçəyə, ağaca, yarpağa, daşlara belə can verdiyi halda mənim ürəyimi zərrə qədər açmırdı. Qos-qoca dünya nə qədər köhnə olsa da, dərdi, kədəri həmişə təzədir, tərdir. Canlıya,- cansıza yeni ruh verən bahar da bu əbədi sevdanın boyuma biçilən qəmindən qaçıb uşaqlaşmağa məni qoymurdu.

Fəal həyat qapısı demək olar ki, üzümə bağlanmışdı. İşdən, dostlarımdan uzaq düşmüşdüm. Həkimlərin məsləhəti ilə xarici ölkələrin birində müalicəyə getməli idim. Ayaqlarımın müalicəsi çətin və ağır gedirdi. Həkimlər onu orqanizmin ümumi vəziyyəti ilə əldaqələndirirdilər. Atamın köməyini heç cürə qəbul edə bilmirdim. Vətənə, xalqa az-çox xidmətimi qiymətləndirib dövlət məni Almaniyaya-xəstəxanaların birinə müalicəyə göndərmişdi. Üç aydan sonra vətənə qayıtdım. Əl ağacı ilə çətin də olsa, yeriyirdim. Ev xidmətçisi mənə ana-bacı kimi qulluq edir, Rüstəm ardı-arası kəsilmədən gəlib-gedir, müxtəlif mövzulardan danışıb fikrimi-xəyalımı başqa məcraya yönəltməyə çalışırdısa da, bütün vücuduma sirayət edib, varlığıma hakim kəsilən o gecənin dəhşətindən çıxa bilmirdim.

Qiymətli bir ləl itirmiş kimi idim. Mənə görə zaman, vaxt da heç dəyişməmişdi. Saatın əqrəbi sanki pərçimlənib o gecəki anda dayanmışdı. Aylar, həftələr, hətta fəsillər də yerini dəyişməmişdi, həminki idi. Elə bil yaddaşımdan bütün ömrüm boyu topladığım acılı-şirinli xatirələrimi çəkib çıxarmışdılar. Yerinə ancaq Mehinin xəyalını doldurmuşdular. Beynimdə ondan başqa xatırlana biləcək heç nə yox idi. Bütün həyatımı birər-birər göz önündən keçirib ömrümün çəhlimlərinə, döngə-dönümlərinə ayaq qoyub qədəm basdıqca iç dünyama təpilən bu məhəbbət taleyin qisməti, ya bu neçə illərdə etdiklərimə görə Tanrının verdiyi cəzasıydı, bilmirdim. Bütün bunları düşündükcə ölçüsü heç bir əndazəyə sığmayan dəhşətli bir xof bütün varlığıma sirayət eləyir, vücudumu titrədirdi. Belə hallarda özümdən, insanlardan hətta bütün dünyadan qaçıb kimsənin ayağı dəyməyən uzaq bir adaya düşmək arzusu oyanırdı məndə. Orada da bütün aləmi unudub, yox ikən Mehinin varlığı ilə yaşayacağımı bilirdim? Bu da mümkün deyildi. Əlçatmaz arzular, xəyallar içində çırpına-çırpına dəniz qırağına nə vaxt çatdığımı bilmədim.

«Dənizkənarı park» ağlagəlməz dərəcədə dəyişmişdi. Gözlərim nəyisə axtarır, ürəyim nigarançılıq və narahatlıqla çırpınırdı. Sanki ətrafda heç kəs, heç nə yox idi. Dörd tərəfdə qarışqa kimi qaynaşan, dəniz havasını udmağa gələn insan selini görmürdüm. Bütün gücümü-qüvvəmi toplayıb özümü soyuqqanlı aparmağa çalışır, insanların üzünə baxmaqdan çəkinirdim. Ağacların arasında Mehinlə oturduğumuz, daha doğrusu, ayrıldığımız oturacağı axtardıqca iç dünyam viran olmuş xarabalığa dönür, ağrılı-acılı anlarım başlayırdı. Uzun müddət gəzmədiyimə görə bərk yorulmuşdum. Gözlərim alacalanmış, sanki heç nə görmürdüm. Birdən yoğun cökə ağacının altında üstünə ağacların budanmış qanadları yığılan oturacaq gözümə sataşdı. Dəli adamlar kimi oturacağın üstündəkiləri dağıdıb yerə tökdüm. Yan tərəfdəki xırda bıçaqla cızdığım «M.N.» hərfini görüb toxtadım. Elə bilirdim ki, itirdiyim səadətimi indicə tapmışam. Olmayan səadətim sanki özümə qayıtmışdı. İnsana vurulan yaraları zaman qaysaq bağlada-bağlada sağaltdığını çox eşitmişdim. Bu reallığı qəbul eləməsəm də başa düşürdüm ki, məhəbbətin ürəkdə iz qoyduğu

yaralar bir vaxt qaysaq bağlasa da, zaman-zaman arabir baş qaldırır, dikəlir anasından cüda düşmüş cüyür balası kimi mələyir, adamı için-için, gorun-gorun sızladır, odsuz ocaqsız yandırıb kül eləyir. Ürəyim tüstülənə-tüstülənə oturacağa çökdüm. Ətrafdakı göy çəmənlikdə bir dəstə uşaq bir-birlərini itələyib otun üstünə yıxır, ayı balaları kimi mayallaq aşıb oynaqlaşır, gülüşləri ətrafı bürüyürdü. Bu mənzərəni görəndə insan ağrı-acısını unudur, bircə anlığa ağ qaranquş kimi uşaqlığın qayğısız çağlarına doğru qanadlanır, nənəsinin dizlərinə, anasının qucağına sığınır, arzu dünyasına qovuşduqca ovunur, rahatlanıb sakitlik tapır. Ruhun saflaşır, fikrin, duyğun axar sular kimi durulur, dərdin dumanından, çənindən çıxıb saflaşır, təzələnirsən. Əlçatmaz şirin duyğu aləmində az qala məst olduğum bir vaxtda hardansa gələn cingilti bir səs diqqətimi çəkdi. Anasının əlindən çıxıb dənizin qabağına çəkilən dəmir məhəccərə sarı yüyürən uşağın dalınca qadın çığırırdı:

– Mehin, qızım, uzağa getmə, geri qayıt, dənizə düşərsən.

Bu səsdən, bu addan dik atıldım. Mehin çağrılan üç-dörd yaşlı ağbəniz, qara, qıvrım saçları kürəyində, telləri alnında oynayan qız uşağı idi. O, anasının qadağasına məhəl qoymadan irəli, dənizə doğru qaçırdı. Mənə elə gəldi ki, elə indicə dəniz qızı ağ qağayı kimi qoynuna çəkib aparacaq, ananın da əlləri mənim kimi uzalı qalacaq. Çətinliklə ayağa durub özümü irəli, qıza sarı atdım. Əl ağacım yerə düşmüşdü, amma qızın əlindən bərk yapışıb buraxmırdım. Üzümdə qəmli bir təbəssüm qoltuq ağacımı yerdən qaldıran adama sarı döndüm. O, uzunmüddətli xarici ezamiyyətdən qayıdıb ailəsini gəzintiyə çıxaran Qüdrət idi. Hər ikimiz səssizcə ağlayırdıq. Qadın heç nə başa düşmür, gah mənim, gah Qüdrətin üzünə baxır, bir söz soruşmur, sadəcə qorxudan gözləri alacalanmış uşağı danlayırdı. Bu əsnada gördükləri mənzərədən təsirlənən adamları yara-yara Rüstəm bizə yaxınlaşdı. O, təxminən mənim burada olduğumu bilib dalımca gəlmişdi. Onun əlində təzəcə çapdan çıxmış nakam məhəbbətimin yadigarı olan «Əbədiyyətə qədər» kitabı var idi.

MÜNDƏRİCAT

Ön söz. **Ədəbiyyatda yaşayan əbədiyyət**..... 3
Tale yolu *(roman)* 5
Əbədiyyətə qədər *(povest)* 338

Şövkət Zərin

Seçilmiş əsərlər

II cild

Bakı, «MBM», 2015, 504 səh.

Naşir: Afər Fəttahova
Texniki redaktorlar: Ülvi Arif, Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Zərifə Bağırova,
Tərlan Quliyeva, Kifayət Əliyeva

Yığılmağa verilib: 01.02.2015
Çapa imzalanıb: 30.06.2015
Kağız formatı: 84\108
Ofset çap üsulu ilə
Tiraj 500, şərti çap vərəqi 31,5
"MBM" nəşriyyatının mətbəəsində
çap olunmuşdur
Bakı, Mətbuat pr., 529
Tel.: (99412) 539-75-06